# QARABAĞ: FOLKLOR DA BİR TARİXDİR

IV

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QARABAĞ:
# FOLKLOR DA BİR TARİXDİR

## IV KİTAB

**(Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri)**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – 2013

**“Qarabağ folklorunun toplanması,
sistemləşdirilməsi və araşdırılması” adlı layihə
əsasında çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ: fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYANLAR: fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ
Sevinc BAĞDADOVA**

**TƏRTİB EDƏN: fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**REDAKTOR: fil.ü.f.d. Oruc ƏLİYEV**

**NƏŞRİNƏ MƏSUL: fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Qarabağ: folklor da bir tarixdir, IV kitab (Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri)**. Bakı, “Elm və təhsil”, 2013.

Folklorinstitutu.com

İSBN – 9-789952-810851

Q 4603000000 Qrifli nəşr
N-098-2013

© Folklor İnstitutu, 2013

## TƏRTİBÇİDƏN

"Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması" layihəsi çərçivəsində təqdim olunan bu kitaba Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri daxil edilmişdir. Həmin rayonlara müxtəlif vaxtlarda folklor səfərləri təşkil edilsə də, bölgə indiyə qədər sistemli toplamaya cəlb olunmamışdır. Bölgə folklorunun əsas toplayıcılarından biri Əhliman Axundov olmuş və onun, eləcə də digər toplayıcıların bu rayonlardan topladığı folklor nümunələri, əsasən, nağılları, Qaçaq Nəbi haqqında rəvayətləri əhatə etmişdir. Bölgəyə növbəti folklor səfərləri 1988-1990-cı illərə təsadüf edir. Vəli Nəbioğlu, Muxtar Kazımoğlu və Əfzələddin Əsgər tərəfindən təşkil olunmuş həmin səfərlər zamanı toplayıcılar Qubadlı, Zəngilan, Cəbrayıl və Laçın rayonlarında olsalar da, bu səfərlər də bölgəni tam əhatə etməmiş, Qubadlının 10, Laçının 3, Cəbrayılın 12, Zəngilanın isə 6 kəndi əhatə olunmuşdur. Bölgə folklorunun tam toplanılmaması həmin rayonların əhalisi arasında toplama işi aparmağın vacibliyini göstərən amillərdəndir.

Laçın rayonu 1930-cu ildə təşkil edilmişdir. Rayonun ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Ərazisi 1835 $km^2$, əhalisi 2013-cü ilin məlumatına görə 72298 nəfərdir. Rayon bir şəhər, bir qəsəbə və 127 kənddən ibarətdir.

Laçın rayonunun mərkəzi şəhər üçün o qədər də əlverişli olmayan bir yerdə – Laçın dağının döşündə yerləşir. Çar Rusiyası dövründə Gorus-Şuşa fayton yolu buradan keçirdi və Gorusla Şuşa arasında poçt əlaqəsi bu yol vasitəsilə gerçəkləşirdi. Vaxtilə Abdallar kəndinin kənarında poçt məntəqəsi tikilmiş və hər iki istiqamətdən gələn çaparlar həmin poçt məntəqəsində gecələyib səhər yollarına davam etmişlər. Rayon mərkəzi üçün belə bir yerin seçilməsində də həmin poçt məntəqəsinin böyük rolu olmuşdur. Laçın rayonu təşkil olunarkən onun adı ilə bağlı müxtəlif təkliflər irəli sürülür. Bəziləri rayonu Abdallar kəndinin adı ilə adlandırmağı təklif edir, digərləri başqa təkliflə çıxış edirlər. Müzakirədə iştirak edən dövlət nümayəndəsi – Hüsü

Hacıyev yaxınlıqdakı dağın adını xəbər alır. Dağın adının Laçın olduğunu biləndə rayonu da həmin dağın adı ilə adlandırmağı təklif edir.

Qubadlı rayonu da Azərbaycan Respublikasi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin qərarı ilə 1930-cu ildə təşkil edilmişdir. Rayon 1 şəhər və 93 kənddən ibarətdir. Qubadlı rayonu Azərbaycan Respublikasının cənub-qərbində, Qarabağ yaylasının cənub-şərqində yerləşir. Sahəsi 802 $km^2$, əhalisi 2011-ci ilin siyahıya alınmasına görə 34252 nəfərdir. Ermənistan Respublikası ilə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonu, Laçın, Cəbrayıl və Zəngilan rayonları ilə həmsərhəddir.

Topluya daxil edilmiş folklor örnəkləri 2013-cü ilin mart-aprel aylarında toplanmışdır. Kitabın böyük hissəsini Laçın rayonundan toplanmış folklor örnəkləri təşkil edir. İki aya yaxın zaman ərzində biz Laçının 30-a yaxın kəndinin yüzdən artıq sakini ilə söhbətlər edib, material toplamışıq. Kitabda həmçinin Qubadlı rayonunun 7 kəndi əhatə olunmuş, Zəngilan rayonu isə bir neçə nümunə ilə təmsil olunmuşdur.

Taxtakörpü qəsəbəsinə ilk səfərimiz artıq bizdə bu rayonda hansı janrların daha işlək olması, insanlar arasında daha çox hansı tipdə folklor örnəklərinin danışılması haqqında aydın təsəvvür yaratdı. Bəlli oldu ki, laçınlılar arasında Paşa bəy, onun oğlanları Sultan bəy, Xosrov bəy haqqında, Paşa bəyin yanında aşıqlıq etmiş Aşıq Abbas haqqında, eləcə də sovetlərə qarşı çıxan və rejim əleyhinə mübarizə aparan qaçaqlar haqqında maraqlı rəvayətlər danışılır. Eləcə də Qubadlı sakinləri ilə görüşlərimiz zamanı məlum oldu ki, Qaçaq Nəbi, Əlyanlı qaçaqları ilə bağlı rəvayətlər öz təravətini qoruyub saxlayır. Bundan əlavə, Baqi və ayrı-ayrı baməzə adamlar haqqında lətifələr qubadlılar arasında geniş yayılıb. Bunu nəzərə alıb biz də ünsiyyətdə olduğumuz insanları məhz bu mövzular üstündə kökləməyə çalışdıq və nəticədə iki aya yaxın bir zamanda bu kitabı tamamlaya bildik.

Bölgə folklorunun toplanmasında qarşılaşdığımız əsas çətinliklərdən biri əhalinin dağınıq olması, müxtəlif rayonlarda məskunlaşmasıdır. Laçının işğalından sonra bu rayonun sakinlərinin bir qismi vaxtilə Laçın rayonunun qışlaq yeri olan Taxtakörpü qəsəbəsində, di-

gər qismi Bakı, Sumqayıt şəhərlərində, ümumilikdə isə Azərbaycanın 57 rayonunda məskunlaşmışdır. Qubadlıların isə böyük əksəriyyəti Sumqayıt şəhərində yerləşmişdir. Kompakt yaşadıqları ərazilərdə belə hərə bir kənddən gəldiyindən və insanlar bir-birini tanımadığından "görüşmək üçün daha kimi məsləhət görürsünüz?" – deyə soruşduqda ad verməkdə, ünvan göstərməkdə çətinlik çəkirdilər. Ona görə də kənd icra nümayəndələrinin dəstəyi olmadan bu insanları tapmaq, onlarla görüşmək bizim üçün həddən artıq çətin olardı. Yerli icra nümayəndələri ya özləri bizi kəndin məlumatlı, yaşlı sakinləri ilə tanış edir, ya da onların ünvanını, əlaqə telefonunu bizə verir, bu yolla biz həmin şəxsləri tapıb onlarla söhbətlər aparırdıq. Ünsiyyətdə olduğumuz şəxslər arasında həm təhsilli, həm də təhsilsiz adamlar vardı. Təhsilli insanlar daha çox kəndin keçmişi, oradakı nəsillər, ayrı-ayrı şəxslərlə bağlı maraqlı xatirələr, rəvayətlər danışır, amma nağıla gəldikdə məlum olur ki, ya ümumiyyətlə nağıl bilmir, ya da bildiklərini qol-qanadını qıraraq danışırlar. Bu faktın özü bir daha onu göstərir ki, bu gün klassik folklorun öləziməsinin, tədricən sıradan çıxmasının bir səbəbi də insanların savadlanması, təhsil almasıdır. Toplama zamanı savadlı adamlar arasında nağılçılara təsadüf etmədik, rastlaşdığımız ən yaxşı nağılçılar məhz savadsız adamlar arasından çıxanlar oldu. Doğrudur, bəzən savadlı adamlar arasında da klassik folklora maraq göstərən şəxslərə rast gəlirik, amma belə adamlar istənilən folklor mətninə deyil, məhz ibrətamiz məzmunlu mətnlərə daha çox maraq göstərirlər. Laçın rayonunun Ərikli kənd sakini Paşa Əvəz oğlu İsgəndərov belə söyləyicilərdən biridir. Biz ondan "Kor kişinin nağılı", "Belə də qalmaz", "Allahdan gələn bəla" nağıl nümunələrini, eləcə də rəvayətlər qeydə aldıq. Amma qeydə alınmış parçalara diqqət yetirilərsə, görərik ki, onlar hamısı ibrətamiz məzmunlu mətnlərdir və söyləyici özü də etiraf edir ki, yeri gələndə həmin nümunələrdən öz fikrini əsaslandırmaq, nitqini daha təsirli etmək üçün istifadə edir.

Bərdə və Ağcabədi rayonlarında qarşılaşdığımız Musa kişi, Narış nənə kimi bizə altı-yeddi saatlıq material verən söyləyicilərə bu rayonlarda rast gəlmədik. Ən yaxşı halda biz bir söyləyicidən iki saatlıq material toplaya bildik. Bir çox söyləyicilər mətnləri uzun

müddət ifa etmədiklərindən artıq onları unutmuşlar. Məsələn, Aşıq Umbay artıq uzun müddətdir məclis aparmadığından bir çox dastanları, aşıq rəvayətlərini unutmuşdur. Ondan qeydə aldığımız "Nigarın İstanbula aparılması" dastanı və "Sulduzlu Aşıq Bəhmən" rəvayətini ilk dəfə bizə söylədikdə nəsr hissəsini təfsilatı ilə danışdı, amma nəzmə gəldikdə şeirlərin bəzi bəndlərini yadına sala bilmədi. Həmin bəndləri yalnız sonradan xatırladı və bu yolla biz onları bərpa edə bildik. Aşıq Umbayın repertuarında bir çox dastan nümunələri vardır, amma həmin nümunələri kitabdan öyrəndiyi üçün biz ondan ancaq eşidib yadda saxladığı şifahi nümunələri qeydə aldıq. Kitaba daxil edilmiş həmin nümunələr onun Gəncəli Aşıq Mais, Aşıq Hümbət və başqalarından eşitdiyi parçalardır.

Bizim üçün maraqlı söyləyicilərdən biri də Taxtakörpü qəsəbəsində məskunlaşmış Piçənis kənd sakini Yurin Abbas oğlu Zeynalovdur. Yas məclilərini aparan Yurin kişi ilə yalnız bir dəfə görüşə bildik və bu söhbətimiz iki saatdan artıq çəkdi. Atası Sultan bəyin aşpazı olduğundan biz onun diqqətini bu mövzuya yönəltdik və Paşa bəy, Sultan bəy, Aşıq Abbas haqqında maraqlı xatirələr, rəvayətlər qeydə aldıq. Daha sonra onun nağıl bilib-bilmədiyini yoxlamaq üçün bir-iki süjeti xatırlatdıq və bizə "İmam Hüseyn aşiqi" nağılını danışdı. İnanırıq ki, onunla yenidən görüşsək, daha çox nümunələr toplaya bilərik.

Haqqında xüsusi danışmaq istədiyim söyləyicilərdən biri də Vağazin kənd sakini Güllü Səttar qızı Abasəliyevadır. Biz onun yanında iki dəfə olduq və iki yüzdən artıq bayatı nümunəsi qeydə aldıq. Güllü nənənin kədərli bir taleyi vardır. Bir oğlunu müharibədə, digərini Taxtakörpü qəsəbəsində itirmişdir. Özünün də dediyi kimi, onu danışdıran həmin ağrı-acı, həmin dərddir. Yeri gəlmişkən qeyd edim ki, bayatı söyləyiciləri bəzən bir neçə bayatı dedikdən sonra təbi gəlmədiyi üçün ardını gətirə bilmir, yaxud onları qəhər boğduğundan sözlərinə davam edə bilmirlər. Amma Güllü nənə üçün bayatı söyləmək elə bil adiləşib və əhvalında heç bir dəyişiklik olmadan birnəfəsə onlarla bayatı söyləyə bilir. Əslində bu bacarıq və səs ona nəsildən keçmədir. Anası əslən Ağdamın Saybalı kəndindəndir və ağı deyən olub. Güllü nənənin dediyinə görə, bir

dəfə kənddə cavan bir adam dünyasını dəyişir. Anası və xalası yasda ağı deyəndə onların səsi bir ağsaqqala o qədər təsir edir ki, camaatı yara-yara gəlib ağıçılara qulaq asmağa başlayır. Anasındakı o avaz, o yanqılı səs Güllü nənəyə keçmişdir. Bu gün də o, yas yerlərində ağı deyir, amma onun bizə söylədiyi bayatı ilə yas yerində oxuduğu bayatı bir-birindən fərqlənir. Güllü nənə bayatıları bizə adi tonda söyləyirsə, yas yerində onları daha yanıqlı tərzdə oxuyur. Güllü nənə bir neçə bayatını bizə yas yerində oxuduğu tərzdə ifa etdi, qulaq asanların heç biri göz yaşını saxlaya bilmədi.

Taxtakörpü qəsəbəsində məskunlaşmış Dambulaq kənd sakini Seyid Balaxanım isə bildiyi bayatıları bizə söyləməkdən çəkindi. Dediyinə görə, vaxtilə bayatıya çox həvəsi olub, tez-tez bayatı çəkərmiş. Amma sonradan cavan bir oğlu dünyasını dəyişir. Balaxanım nənə belə hesab edir ki, Allah onun bayatıya həvəsləndiyini görüb, cavan oğlunu əlindən alıb. Ona görə də həmin hadisədən sonra bayatı demir.

Bölgəyə səfərlərimiz zamanı vaxtilə yazıb-yaratmış, lakin vaxtında toplanmadığından yazdıqları itib-batmış el şairləri, aşıqlar haqqında da məlumatlar əldə etdik. Əslən Dərələyəz mahalından olan, lakin sonradan Laçın rayonunun Bilündüz kəndində məskunlaşan Səyyah Məhəmməd belə şairlərdən biridir. Səyyah Məhəmmədlə bağlı laçınlılardan qeydə aldığımız xatirələri, şeirləri topluya daxil etmişik. Aşıq Abbas, Qara Kərim və Aşıq Möhübbət də irsi itib-batmış şairlərdəndir. Qara Kərim və Aşıq Möhübbətin bəzi şeirlərini qeydə ala bilsək də, Aşıq Abbas haqqında bunu demək mümkün deyildir. Aşıq Abbasın adını ilk dəfə eşitdikdə biz onun aşıq olduğunu təsəvvür etmişdik, amma toplamalarımızı dərinləşdirdikcə məlum oldu ki, bölgədə hər hansı musiqi alətində çalmağı bacaran istənilən şəxsə aşıq deyirlər. Aşıq Abbas da sadəcə, nağara ifaçısı olub (bu sənət ona atasından qalıb), bununla belə ünsiyyətdə olduğumuz şəxslər onun şeirlər yazdığını və həcv ustası olduğunu deyirlər. Biz onun şeirlərindən yalnız bir-iki bənd əldə edə bildik, ünsiyyətdə olduğumuz şəxslərdən onun şeirlərini xəbər alsaq da, təəssüf ki, məlumat verə bilən olmadı.

Söyləyicilərin verdiyi məlumata görə, keçən əsrin 80-ci illərinə qədər kəndlərə aşıqlar gələr və devran (dövran) keçirərdilər.

Devranlar bölgədə folklorun ifa olunduğu və yaşlı nəsildən gənc nəslə ötürüldüyü əsas məclislərdən biri idi. Aşıq hər kəsin evinə deyil, kimin damı geniş idisə, ora düşərdi və kəndə xəbər yayılardı ki, axşam filankəsin evində devran keçiriləcəkdir. Camaat axşam mal-qaranı tövləyə saldıqdan və yemək yedikdən sonra ora yığışardı. Damı işıqlandırmaq üçün sütunlardan çıraq asardılar. Aşıq devrana başlamazdan əvvəl bildiyi dastanları sayar və camaatdan hansı dastanı istədiklərini soruşardı. Hansı dastanı desəydilər, onu danışardı. Belə məclislər gecəyarısınacan davam edirdi, aşıq dastanı tamamlaya bilmirdisə, onun davamını səhərə saxlayırdı.

Söyləyicilərin dediyinə görə, o vaxt kəndlərə iki cür aşıq gəlirdi: balabanlı və balabansız aşıq. Balabanlı aşıq uşaqlar üçün daha maraqlı olurdu. Uşaq vaxtı belə məclislərdə iştirak etmiş Qubadlı sakini Telli nənənin dediyinə görə, aşığın sözləri uşaqları o qədər maraqlandırmırdı, amma rəqsləri onlara ləzzət verirdi.

Dastanın ortasında aşıq bəzən məclisi şənləndirmək, insanların eynini açmaq üçün kiməsə atmaca atırdı, yaxud ona bir şeir deyirdi. Telli nənənin dediyinə görə, bir dəfə aşıq dastanı danışdığı yerdə onun kolxoz sədri olan qardaşına söz atıb deyir:

Sədri gəlir günorta,
Şalvarın darta-darta.
Sədriyə nə lazımdı?
Sarı yağnan yumurta.

Telli nənənin dediyinə görə, hamı aşığın bu sözünə əl çalmışdı.

Sonda söyləyicilərlə görüşlərin təşkilində bizə verdikləri dəstək və köməyə görə Laçın və Qubadlı Rayon İcra Hakimiyyəti qurumlarına, Laçın Rayon İcra Hakimiyyətinin Ərazi İdarəetmə Orqanları ilə İş şöbəsinin müdir müavini Məhəmməd Şahbazova, Laçın Rayon İcra Hakimiyyətinin Bakıdakı Nümayəndəliyinə – Bəsti Nəcəfli və Yaqut Cabbarlıya, Qubadlı Rayon İcra Hakimiyyətinin müavini Rasim Halıqverdiyevə, Ərazi İdarəetmə Orqanları ilə İş şöbəsinin müdiri Razim Əliyevə, böyük məsləhətçi Məhəmməd Həsənova dərin minnətdarlığımızı bildiririk.

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1. QURD QADIN

### I mətn

Bizim camahatdan kimsə gedirmiş Qarabağ tərəfə. Görür ki, arabanın üsdündə bir oxuyan gəlir. Deyir, gördüm o oxuyan yoxa çıxdı. Yaxınnaşdım dəyirmanın qabağına, gördüm həmən arabaçı taxıl boşaldır. Dedim ki, əmi, bayax oxuyan kim idi? Dedi ki, bala, mən idim. Dedim:

– Onu bir də oxuyarsan, ürəyim rahatlansın.

Deyir:

– Yox, bala, o gəldi getdi. O bir eşq idi, məhəbbət idi, gəldi də, getdi də.

O nağıl elədi ki, bir gün dəyirmana dən gətirmişdim. Dedilər ki, burda gejə biz dən üyüdə bilmirik. Dedim, niyə? Dedilər bura kimsə gəlir, unu yoğurur, bişirir, çıxır gedir. Dedim ki, icazə verin mən bu gejə gedif orda qalım. Gəldim qaldım. Qalanda qapını bir az açıq qoymuşam, özüm də gizdənmişəm bir küncdə. Gördüm qurt dərisində bir qadın gəldi. Dərini üsdünnən götürdü qoydu qırağa, başdadı xamır yoğurmağa. Mən dərhal bunu qucaxladım, partdadı. Ayağımnan itələdim, qurt dərisini atdım ojağa. Dedi ki, ay aman yandım, ay haray yandım. Dəri tamam yanana qədər mən onu saxladım qucağımda. Dedi:

– Allah sənə insaf versin. Məni bihörmət eləmə, başıma gələn əhvalatı saa danışajam. Maa bir əba ver bürünüm ona.

Çuxam vardı, deyir, çıxartdım çuxanı bükdüm buna. Dedim, indi söylüyə bilərsən. Söylədi ki, mən gejə lüt çölə çıxmışdım. Çölə çıxanda üsdümə dəri atdılar, qoşuldum qurtdara düşdüm çöllərə. Qurtdarnan gəzdim. Onnarnan ayaqlaşa bilmirdim, ayağımın altı yara idi.

Onu apardım kəntdə əyninə paltar tikdirdim. O vaxdan bu səmtə gələndə o yadıma düşür bircə dəfə oxuyuram. Onnan sora ruhum ölür, oxuya bilmirəm.

### II mətn

Mən uşağ idim, dedilər ki, Qubatdı rayonunun hansısa bir kəndində bir qadının uşağı oluf. Uşağı olannan sora zahı-zahı hansı günsə suya girif. Sudan çıxanda başına canavar dərisi atıflar, oluf canavar. Canavarlara qoşuluf çıxıf gedif. Döşdəri dolanda gözdüyürmüş, canavarlar gedəndə dərini çıxarıf gəlif uşağını əmizdirirmiş. Gediflər bir qatırı paralıyıf yeyəndə belinin yara yeri düşüf buna, diksinif ayılıf. Gözdüyüf, canavarlar çıxıf gedir, dərini çıxarıf tulluyur, qayıdıf gəlir.

### III mətn

Qadın xeylağı alt paltarıynan çölə-bayıra çıxanda onun boynuna canavar dərisi atılır. Bizdə ona xırxa deyillər. O qoşulur canavarlara. Bir müddət gəzir-hərrənir, səhər açılan zamanı gəlir xırxanı soyunur gizdiyir, gənə həmənki adam olur. O biri gejəsi bir də həmən xırxanı geyinir, gənə qoşulur canavarlara. İndi onu bilən adamlar onun güdüyündə durullar. Müəyyən bir yerdə ojax qalıyıllar. O, xırxanı əyninə geyinəndə əlinnən alıf ojağa atıf yandırıllar. Onnan da xırxa qutarır.

## 2. BEL AĞRISI

Musa əleyhsalam gedirdi Turi-sənaya. Bir zənan çıxdı ki, başına dönüm, biz dokquz ay, dokquz saat, dokquz dəyqə bətnimizdə uşax saxlıyırıx. Qıpqırmızı qanımızı düm ağ süd eliyif onu əmizdiririk. Nolar doğuş zamanı çəkdiyimiz ağrını atasına versin Allah-taala. Peyğəmbər qalır naəlac, amma sözün deməliydi, elçidi. Getdi. Dedi:

– Musa, genə nəysə sözün var?

Dedi:

– Ya Allah, belə bir zənan çıxdı qənşərimə, maa belə buyrux verdi.

Dedi ki, get denən verdim. Bu qadın getdi kəndin mollasıynan işini qurdu, heç öz ərini ağrı tutmadı. Məqam başa gələndə mollanı ağrı tutur. Allah napəyin sözünü tez eşidir, bir də Allah-taala sirr

aşmır. Arvad işi başa düşəndə üz tutur Allahın dərgahına, istixaza eliyir ki, ya Allah, o ağrını qaytar ver özümə. Helə olur o ağrını qaytarır verir qadınnara.

## 3. HAL HAQQINDA

### I mətn

Mənim Cahangir babam ovçu oluf. Bir dəfə dağ keçisi vuruf, bunu soyurmuş. Baxır ki, bir arvad gəlir buna sarı. Baxır ki, bir arvatdı, saçı burux-burux, döşləri tökülüf buraya (qurşağını göstərir – top.). Gəlir deyir, Ovçu Cahangir, ovun qannı olsun. Deyir, sağ ol. Oturur bir az bunun yanında. Bir az oturannan sora deyir, Ovçu Cahangir, gedək o mağarada bir az söhbət eliyək. Deyir, yox, kəndə gedəjəm mən. Birin bu deyir, birin o deyir. Birdən belə eliyir (iki barmağını qabağa gətirir – top.), deyir çox sənin kimi cahangirlər hörmüşəm oraya. Deyəndə Cahangir babam gordanı burdan geydirir. Bu çığıra-çığıra gedir. Gedəndə də bunun gerisiynən bir güllə atır. Güllə atanda sən demə halın uşaxlarını bir canavar gəlif təpbək isdiyirmiş, güllənin səsinə çıxır gedir.

Nəysə, Ovçu Cahangir çıxır gedir kəndə. Bilmirəm çox keçir, az keçir aradan. Bu adam ev üzü görmürmüş. Düşür xəsdəliyə, yatalax xəsdəliyinə. Yatırmış Aşağı Qaraçannıda. Ev damında da dərəvə deyirdilər, adam onun yanıynan hərrənəndə bircə başı görükürdü. Babam da yatmışmış. Baxır ki, həmən başdı gəlir. Hal deyir, Ovçu Cahangir, Ovçu Cahangir, məni tanıyırsan? Babam deyir, yox, tanımıram. Amma tanıyır. Gordası, deyir, həmişə döşəyinin altında olurmuş. Deyir ki, Ovçu Cahangir, qalx ayağa. Qalx deyəndə döşəyin altından gordanı çıxardır diriyir bunun boğazına. Deyir, məni öldürmə, qoy saa bir söz deyim. Bax, bu yatalağı biz yayırıx. Sənin atdığın güllənin səsinə iki balamı canavar salıf. Yeddi arxa dönənizdən tovba, mənə dəymə. O da çıxır gedir.

### II mətn

Bir halı bizim ulu babamız tutub aparır Kalba Şahbaz ojağına. Halı qul kimi işdədirlər. Bir gün hal üsdündəki sancağı kiməsə aşdırıf gedir. İşdəməhdən çox yorulmuşmuş. Evdən xeyli aralananda deyif.

Nədəndi ha nədəndi,
Köynəyi gül bədəndi.
Hər şeyi məndən soruşduz,
Birjə onu soruşmadız
Cavan ölmax nədəndi?

Hal sora üzünü Kalba Şahbazgilə tutub deyif ki, həməşə əviiz zirt-zibilli olsun.

Bala, mən həməşə deyirəm ki, halın o dediyi sözdər bizə düşüb. Evimizi nə qədər yığışdırıram heş bir yana çıxmır.

## 4. CİN HAQQINDA

### I mətn

Camahat Çay kəndində olan vaxdı bir cin gəlir düşür evə. Kişi tez iynəni sancır onun üsdünə. İynə onun üsdündə olanda gedə bilmir. Bir neçə il qalır burda. Özü də ona ad qoymuşdular, Qızxanımmış. Axşamatan işdiyirmiş, bir aylə kimi bularnan yaşıyırmış. Bir gün ev yiyəsi hara isə gedir, evdə bir oğlan uşağı qalır. Arvad deyir, bala, gəl bu iynəni çək yaxamdan. Arvad onnan da qeyb olur. Gəlillər ki, yoxdu. Deyillər, ay bala, nətər oldu? Deyir hal-qəzyə belə. İynəni çəkdim, getdi.

Cin gejəyarı gəlir çıxır bəjənin üsdünə. Çağırır ki, filankəs, neçə illər mən sizə qulluğ eləmişəm, mənim haqqıma nə verəjəhsən? Kişi isdiyir deyə ki, bir inək verəjəm, qoyun verəjəm. Arvad deyir, əşi, dayan. Deynən ki, ojağın külün, evin zibilin verirəm (çox yerdə arvatdar kişilərdən ağıllı olur). Heylə olur bu çıxır gedir. Bunnar hər səhər dururmuş ki, ev gül kimi, ojaxda kül yox. Bir neçə il belə keçir. Bir səhər durullar ki, zibil də yerindədi, kül də. Deyillər ki, vallah, Qızxanım öldü.

### II mətn

Haral kəndində Müsdü adında bir kişi yoxa çıxıf. Deyillər guya çörəyi kəsəndə pismillah demiyif, cinnər onu aparıf. Bir müddətdən sora hay gəlif ki, Müsdü Qubatdı rayonunun Xəndək kəndindədi. Bu belə oluf ki, Müsdü qojalıf əldən düşüf. Bunu görən cinnərin böyüyü deyir ki, bunu aparın qoyun evinə, gəlin. Müsdüyə də tapşırıf ki, cinnər sənə desələr, bura haradı, denən bilmirəm, bura haradı, denən tanımıram. Tanıdım deyən kimi səni ora qoyajaxlar. Ora gələndə deyif bura Xəndəkdi. Bir vaxt görüf heş kim yoxdu. Əgər deməsəydi, onu Fərəcana – öz kəntdərinə kimi gətirəjeydilər.

## 5. OVÇULUQLA BAĞLI XATİRƏLƏR

### I mətn

Mən özüm ovçu olmuşam, özü də quşu gözünnən atan ovçulardan olmuşam. Turşsuyun üsdünə yaz vaxdı əliklər su işməyə gəlillər. O suda duzlulux olduğu üçün onun üsdünə gəlillər. Getmişik ora. Əlik gəlif dayanıf, atmışam. Atmışam, əlik tərpənmiyif. Üç güllə atmışam, əlik tərpənmiyif. Yanımdakı yoldaşım dedi ki, bu nətər ola bilər, əliyin o tərəfinnən güllənin çıxdığın gördüm, amma bu heyvan yerindən tərpənmədi? Getdik ki, əlik elə ayax üsdündə keçinif. Onnan sora gəldim dayıma dedim ki, əliyə güllə atmışam qabağımnan qaşmıyıf. Dedi ki, innən belə əliyə sən güllə atma. Ov sənin qabağında dayanıf.

Mən onun sözünə qulax asmadım, sora bir dənə də əlik vurdum. Əlik çığırdı. Mən gedənə qədər əlik çığırıf. Gedif boğazınnan tutmuşam, səsi çıxmıyıf, onnan sora başın kəsmişəm. Qayıdıf gəlmişəm evə ki, bizdən çoxlu arvad-uşax gedir. Evi də təzə tikmişik, hələ üsdün vurmamışıx. Bu uşaxlar da balaca idi. Birinə də rezin dooşan almışam. Çıxıflar evin üsdündə oynayanda uşax evin üsdünnən düşüf daş komasının içinə. Dooşan altında qalıf onu atıf daşın bu üzünə. Onnan sora ova getməyə tooba elədim.

## II mətn

Əhmətdidə Kor Temir vardı. Bir gün gəlif çıxıf bizə. Gəzirdi kəntdəri. Atamnan söhbət eliyiflər gejə səhərə qədər. Mən də getmişəm dərsə. Dərsdən gələnnən sora tüfəngi götürdüm. Dedi, hara gedirsən? Dedim, gedirəm meşəyə. Dedi, tüfəngini gətir bura. Gətdim tüfəngi verdim buna. Dedi ki, vura bilirsən heç? Dedim ki, Temir əmi, qabaxlar vururdum, amma indi vura bilmirəm. Nə qədər yaxınnaşıram, marağ salıram, vura bilmirəm. Tüfəngə duva oxudu, sildi təmizdədi. Dedi ki, uğuru pis adam çıxıf qabağına, tüfəngin çiləyə düşüf. Dedi, itinizdən, üzdən irağ, qancıx olanı var? Dedim, var. Dedi, apar tüfəngi uzat yerə. Çörək al əlinə, qancığı çörəkliyə-çörəkliyə gətir tüfəngin üsdünnən keçirt. Getdim bunu belə elədim. Tüfəngi götürdüm getdim. Yolnan gedirəm, hələ meşəyə çatmamışam. Yolnan getdiyim yerdə bir dənə əlik hopbana-hopbana gəldi bulağın usdünə. Atdım, elə orda da qaldı.

## III mətn

Aşıq Abbasın bir bajısı oğlu oluf, Qəmbər oğlu Mehdi deyərdilər. Çox sərras ovçu oluf. Canavar gedif danaya söykənəndə atıf öldürürmüş. Hətta bir dəfə xəsdə imiş. Toran qarışan vaxdı mal gələndə sanıyıf görür alagöz inək yoxdu. Çörəyə oturanda deyif malların hamısı burda? Arvadı deyif hə. Deyir:

– A Pakizə, çaşmısan? Alagöz inək gəlmiyif ey.

Özü durur, yıxıla-yıxıla gedir ki, iki canavar daldan inəyi eşir. Bir gülləyə canavarları vurur, inəyi götürür gəlir.

Əlli-atmış yaşınnan sora o yuxu görüfdü, onnan sora güllə atmıyıf. Yuxuda görür ki, əlik üzünə tüpürdü, onnan sora əlinə tüfəng almıyıf. Özü də evdə tir varmış, vurduğu əliklərin sayını bilmək üçün hər gələndə ora bir kərt vururmuş. Saysaydın bəlkə beş yüz, altı yüz əlik vurmuşdu.

## IV mətn

Əliquluuşağı kəndinin ərazisinin bir hissəsi meşəlik olmuşdu və nişanəsi qalırdı. Bu ərazi Ermənistanla sərhətdə Beşbarmaq ad-

lanan sahə ilə Hamar adlanan sahə arasını təşkil edirmiş. Ağsakqalların dediyinə görə, həmin meşədə bütün vəhşi heyvanlar yaşayırmış.

Bir gün Məmməd kişi silahını götürüb adəti üzrə ova gedir və Çömçəlinin dərəsində qarşısına yanı balalı maral çıxır. Məmməd kişi nişan alıb atır, danaça yerə yıxılır, ana maral isə qaçır. Məmməd kişi həm cəld, həm də dəqiq nişan alan imiş. Ovunun dalınca qaçır və Ağ kahaya aşan yerdə nişan alıb maralı da vurur. Maral yerə yıxılmayıb təpəsi üsdə dayanır və bir neçə dəqiqədən sonra yıxılır.

Rəvayətə görə, kimin yüzüncü ovu (böyük heyvan) başı üstə durursa, həmin adam silahını yerə basdırmalıdır. Əgər silahı basdırmasa, həmin ovçu dəli olmalıdı. Məmməd silahını yerə basdırmır və dəli olur. Bundan sonra ona "dəli Məmməd" deyirlər.

## 6. BƏDNƏZƏR ADAMLAR HAQQINDA

Yerə bir az qar yağıf. Maşınnan getmişik ot gətirməyə. Getdik, həmən kişi (Ovçuluqla bağlı xatirələrdə (II mətn) haqqında bəhs olunan şəxs – top.) gəldi. Bunun ayağında da bir qaloş vardı. Ayağın qaldırdı maşının təkərinə qoydu, belə basdı dedi:

– Ə, bunun qaloşları nə təzədi, sürünçüf eləməz.

Otu yığdıx, yüz metr getməmişdik təkər atındı[1]. Ə, bu nətər ola bilər, buna mismar batdı, nə oldu? Getdik ki, bir çaylax daşı rusorun arasına keçif, fırlandıxça təkəri kəsif xarab eliyif. Sora gəldik otu tökdük. O biri təkəri maşının üsdünnən düşürdülər ki, vursunnar onun yerinə. Bizdən yenişdə qonşunun bosdanı vardı. Təkər əlimizdən çıxdı getdi bosdanın haçasına batdı, haça böyrünnən çıxdı. İki təkərin ikisin də kişinin gözü heylə puç eylədi.

Sora dedilər ki, onu mundarlamax lazımdı. Çayına uşağın sidiyinnən bir-iki damcı damızdırıf verdik, onu içdi. Onnan sora onun gözü kəsərdən düşdü.

Körpə uşax yatsın, hansı adamın gözündə varsa, uşağa baxan kimi uşax səksənməlidi. Mən onun şahidi olmuşam. O adam uşağa baxan kimi uşax səksənif ayılıf.

---

[1] atındı – partladı

## 7. İLAN HAQQINDA

Kəvşəndə ilan görəndə deyirdih ki, öldürmüyün, onun qabağınca gəzənə qurban olum. Süleyman peyğəmbər gəzir onun qabağıncan. Ziyannıx vırmasın deyə, həbelə alqış eliyif qayıdırdıx əvə. Heylə deyəndə adamı ilan vırmırdı.

## 8. VAXT-VƏDƏ HAQQINDA

Quyruxdoğdu yay yarı olana – avqustun beşinə düşür. Təkə qarışdı düşür payızın ortasına, Xıdır Nəbi qışın ortasına düşür, yazın qırxbeşi də yazdan 45 gün keçənnən sora olur. Payızın ortasına qədər təkə ayrı gedir, keçi ayrı. Payızın ortasında təkə keçiyə qarışır. Yazın qırxbeşində el dağa köçür. Quyruxdoğdu oxatan bürcüdü. Oxatan bürcü üş dənə ildız belədi, üçü də belə. Gecə doğur, dalıncan da sarı ildız gəlir. Ona görə ona quyruxdoğdu deyillər. Sarı ildız yayın bir ay yarımı gedəndə doğur. Həmin ildız doğannan sora artıq havalar soyumağa başdıyır, dağa gedənnər yavaş-yavaş arana qayıdırlar.

Xıdır Nəbi çilənin ortasına – fevralın beşinə düşür. Xıdır Nəbidə xaşıl bişirillər, kömbə bişirillər, təkə düzəldillər. Uşaqlar oxuyardılar:

Təkəm bir oyun oynar,
Qurdnan qoyun oynar.
Yığar Şəki-Şirvan düyüsün
Təkənin toyun eylər.

Buynuzdu təkə qayırardılar, onu oynadardılar. Qapı-qapı un yığardılar, yağ yığardılar. Xıdır Nəbi haram heyvannarın – pişiyin, itin, canavarın cütə gələn vaxdıdı.

## 9. BUĞA BÜRCÜ

Yayın bir ayı gedəndə buğa maral sürüsünə qarışır, on bir ayın içində doğur. On ayı ötürür, on bir ayın içində doğur. Ona buğa bürcü deyillər. Maral gözün dikir ona, o doğan kimi qarışır sü-

rüyə. Boğaz qalannan sora buğa təzdənnən ayrılır ayrı yana gedir, maral da ayrı yana. Həmin ildız may ayında doğur. Həmin vaxt maral, camış, atın hörə gələn vaxdı olur.

## 10. ALLAHIN TOYUĞA ACIQLANMASI

Qızım, biz uşağ olanda bir yerə gedəndə yadımızdan çıxırdı, demirdik ki, Allah qoysa, gedəjeyih. Nənəm də deyirdi ki, toyux kimi danışmıyın, bala. Allah qoysa deyin. Nənəm bizə toyuğun niyə uça bilmədiyini nağıl eliyirdi. Deyirdi ki, bir dəfə quşdar deyiflər ki, yığılax bir yerə. Çöl quşdarı, ev quşdarı – hamısı yığışıflar bir yerə. Quşdar deyiflər ki, Allah qoysa, biz hamımız uçajeyıx. Öz dillərində deyiflər. Birdən toyux deyif ki, Allah qoysa da, qoymasa da mən uçejem. Quşdar hamısı uçuf gedif, toyuğ uça bilmiyif. Deməli, bala, o vaxtdan toyuğ Allaha qarşı çıxdığınnan Allahın qəzəbinə gəlib, uça bilmiyif. Allaha qarşı çıxmax olmaz.

## 11. ÇOBAN ALDADAN ULDUZ

Çoban qarannıx düşməmiş görür ki, göydə bir dənə ildız var. Elə bilir ki, axşam düşüf, sürünü haylıyıf kəndə tökür. Kənd camahatı deyir ki, çoban niyə sürünü erkən gətirif? Çoban da deyif ki, ildız çıxmışdı, onuçun elə bildim axşamdı. Camahat da deyif ki, o ildız səni aldadıf. Elə o vaxtdan da, bala, həmin ildızın adı çoban aldadan ildız qalıf. Axşamlar ildızdardan ən birinci çoban ildızı çıxır.

## 12. KİRİŞİN ƏMƏLƏ GƏLMƏSİ

Canım fəda olsun sana. Deyillər ki, peyğəmbərimizin barmağı yaralanmışmış. Gedif oturuf bir qayada. Barmağının sarığını açıf atıf yerə. Orda kiriş əmələ gəlif. Yeyillər ha, bax o kiriş. Nətər onun barmağı sarıxlıydı, kiriş də o formada əmələ gəlif. Bı da ordan qalıf.

## 13. ÇILPAQ DONUZ

### I mətn

Musa peyğəmbər gəlir camahata deyir ki, bu il qış sərt olajax. Camahat da sırışt gəlir kolda-kosda nə ot-zad tapırsa, hamısın yığıllar. Həmən ili qış yumuşax keçir. Musa peyğəmbər bir də Allah-taalanın yanına gedəndə deyir ki, sən məni niyə yalançı elədin? Deyir, nətər? Deyir, sən dedin qış sərt keçəjəh, mən də camahata dedim qış üçün ehtiyat görün. Camahat da əsir-yesir oluf, kolda-kosda ot qoymuyuf.

Demə, həmin il qamışdığa od düşür, qamış yanır. Qamışdığın içində bir donuz olur, donuz da ütülür. Tüksüz donuzdu da, hava sərt olsa, öləjəydi. Allah deyir, bir o donuzun səbəbinə mən bu qışı yüngül keçirdim ki, qoy donuz yaşasın.

### II mətn

Bir illəri bütün meşə od tutuf yanır. Bütün cannılar hamısı yanır, bircə çılpax donuzdan başqa. Donuzun gizdənməyə yeri olmur. Həmən qışı deyillər, o donuz da öləjeh, ta qala bilməz. Meşə yanıf, hər yer açıx. Allah-taala elə eliyir ki, həmən ili qış yaz kimi keçir. Çılpax donuz sağ-salamat gəlif yaya çıxır da. Bını da el arasında deyillər ki, çılpax donuza rəhm eliyən Allah bizə də bir gün rəhm eliyər. Bı elə o vaxtdan bir deyim kimi qalır. Həmişə misal çəkirih.

## 14. BİBİ SU, BİBİ SU

Bir qardaş olur, bir bajı. Bıllar xəstələnillər. Yatırlar, bibilərinnən su istiyirlər. Bibi də gedir su tapmır. Ha eliyif su gətirincə, bınnar deyir ki, ay Allah, ya bizi quş elə, ya da canımızı al. Susuzluxdan ölürlərmiş, əzyət çəkillərmiş da. Vəzyətdəri pis imiş. Bibi ha eliyif su gətirincə, bajı-qardaş dönüf olur göyərçin – bir cüt göyərçin. Ona görə bınnar həmişə qoşa gəzillər. Oxuyanda elə oxuyullar ki, elə bilirsən deyillər bibi su, bibi su, bibi su.

## 15. QARANQUŞ HAQQINDA

Bını mən doxsan yaşlı Mina xaladan eşitmişəm. Mina xala deyirdi ki, mənim qaynanam vardı. Onnan soruşurdux ki, niyə qaranquşa güllə atmax olmaz? O deyirdi ki, ona görə güllə atmax olmaz ki, peyğəmbərimiz yaralanan vaxtı bı quş gedif qanadını sərif onun üstünə. Ayaxları peyğəmbərin qanına batıf, ona görə ayağı qırmızıdı. Qaranquş qanatdarını açmaxla, peyğəmbərimizi gavurlardan qoruyuf. Qaranquşdar heş vaxt, heş yerdə ölmürlər. Gedillər bala çıxarıllar, balalarını böyüdənnən sora uçuf gedillər Kərbəlaya. Köhnələr ölür, təzələr qayıdıf gəlir.

## 16. SƏRÇƏNİ ÖLDÜRMƏK SAVABDI

### I mətn

İmamlardan hansınınsa qızı deyir ki, ay baba, yeziddər gejə bizi qırajaxlar. Bıllar gizdənməh üçün bir şəl tapıllar, yanı kollux da. Onnar şəllihdə gizdənəndə bir dəstə serçə gəlir qonur şəlin üstünə. Yeziddər görür ki, serçələr yaman səs salır. Onda başa düşüllər ki, imamlar şəllihdədirlər. Serçə onnara xəbər verir, imamlarımızı qırıllar.

Ona görə də, bala, serçəni öldürməh savabdı. Serçə lənətə gəlif.

### II mətn

İmamlarımız buğdanı yuyuf sərillərmiş. Sərçələr tökülür bıların buğdaların hamısın yeyillər. Sora qaranquşdar gəlif gizdiyillər, hamısın dimdihləriynən üstün örtüllər ki, sərçələr yeməsin da onnarın buğdalarını. O vaxtdan qaranquş müqəddəs quş sayılıf da. İmamlarımızın buğdasını qoruyuf da, ruzusunu qoruyuf. Sərçələr elə gavur sayılıflar.

## 17. ARDIC AĞACI

Bir günnəri Allah nəhlət eləmiş yezid istiyirmiş ki, imamlarımıza zərbə vursun, onnarı qırsın. İmamlar bunnan xilas olmaq üçün qaçıllar ki, hardasa gizdənsinnər. Ora qaçıllar, bura qaçıllar, heş nə

yox. Görünür qış fəsliymiş. Qaçıllar özləri üçün daldanacax tapsınnar. Görüllər ki, bir yaşıl ağac var. Keçillər bu ağacın dalına. Sən demə bu da ardıc ağacıymış. Bınnar ağacın arxasında gizdənillər. Yezid gəlif keçir, heş nə tapmır. İmamlar onnarı xilas elədiyi üçün ağaja alqış eliyillər. Deyillər ki, səni görüm həmməşə yaşıl qalasan. Ona görə də həmin ardıc ağacı ilin bütün fəsillərində yaşıldı. Yarpağın dəyişir, ama elə dəyişir ki, növbəynən, tam çılpax qalmır, yaşıl qalır.

## 18. AŞIQ, YAZA NƏ QALDI

Minkənddə erməni varmış o zaman. Kür-Araz arasında Qul Alı oluf, onun orda kalafaları oluf. Minkəntdən yuxarı Çöplü gölə sarı onun kalafaları var, orda malın saxlıyıf. Dağda otu çalır yığır tayaya. Arana keçir, yaz açılan vaxdı bunun otu qutarır. Qutaranda gedir həmən erməniyə deyir ki, mənə bir az ot ver. Deyir, qızını ver mana, verim. Bu da naəlac qalır, döölətin üzünnən deyir:

– Verdim.

Deyir bir qızdı da verəjəm erməniyə döölətimi saxlıyam. Qız axşam çıxır çölə, deyir:

Aşıx, yaza nə qaldı?
Sorun yaza nə qaldı?
Ülkər yana sallandı
Görün yaza nə qaldı?

Çılpax donuza verən Allah qızın da harayını eşidir. Gejə bir yağış tutur, qar əriyif gedir, ot da çıxıf bura o qızın bir kəlməsiynən. Heylə olur o kişi nə erməniyə qız verir, nə də ermənidən ot alır.

## 19. İLAN QAYASI

Orda qayadan ilan sallanır, aşağıda da daş vardı. Deyillər ki, çoban qoyun otarırmış. Süd sağanda belə baxıf ki, qayadan bir ilan sallanıf. O qayanın hündürrüyü bəlkə iyirmi metr, otuz metrdi. Orda deyif ki, ay Allah, məni ya daş elə, ya quş elə. Elə o çoban qoyunu ilə bir yerdə əlində qavlama daşa dönüf. İlan da daşa dönüf.

## 20. ÜÇ QARDAŞ

Yuxarı Molluynan Aşağı Mollu arasında Üç qardaş deyilən bir yer varıydı. Deyillər, onnar üç qardaş bir bajı oluflar. Onnar hansısa şahdan qaçıf orda gizdəniflər. Bacısı orda xəmir yoğuruf, sac qoyuf, xörəh bişirirmiş. Görüf ki, düşmənnər çatırıf bınnarın başının üstünü alır. Düşmən əlinə düşməmək üçün Allaha yalvarır ki, Allah, bizi burda daşa döndər. Bax, həmən orda üç qardaş, bajı, sajı, kündələri – hamısı daşa dönüflər.

# PEYĞƏMBƏRLƏR VƏ DİNİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

## 21. ADƏMİN CƏNNƏTDƏN QOVULMASI

Siftə cənnət yarananda Adəm peyğəmbər Havvaynan olufdu cənnətdə. Sora Adəm peyğəmbəri şeytan aldadıf. Cənnətin qoruxçusu əjdaha imiş. Adəm peyğəmbəri cənnətə salanda deyif ki, merdən-meyvədən, gözünə dəyənnən ye, su iç. Buğda ağacı da varmış, deyif onnan yemə. Şeytan girif əjdahanın dilinin altına başdıyıf orda ağlamağa. Adəm peyğəmbər gəlif ki, ay allahın heyvanı, niyə ağlıyırsan? Deyif, bax, buranın gözətçisi, nəzarətçisi mənəm. Bax, bir belə baxçada, bağda hər şeydən gözəl o ağaşdı, onun meyvəsinnən yemirsən. O dərdə ağlıyıram ki, o ağacı gözdüyürəm, bir belə zəhmət çəkirəm, onnan yemirsən. Adəm peyğəmbər də aldanır, gedir bir avış buğdadan yığır yeyir. Yeyəndə üzr isdiyirəm bədənində şişmə əmələ gəlir. Şişmə əmələ gələndə Allaha agahıdı, Allahtaaladan səda gəlir ki, ya Cəbreyil, tulla kənara. Havvanı bir tərəfə tulluyur, Adəm peyğəmbəri bir tərəfə.

Cənnətdən danışdım, cənnət bəlkə də bizim yer idi. Adəm peyğəmbəri cənnətdən qavan Allah elə deyil ki, bizim kimi bəndələrə qıymıya.

## 22. MUSA PEYĞƏMBƏR

### I mətn

Musa peyqumbər çəliyin itirmişmiş. Bir gün gedirmiş Allah-taalanın yanına ki, çəlik versin. Tur dağına çıxanda düzəngahdı, düzəngahda gedif çıxmalıdı Tura. Bir kişi çıxıf qabağına. Deyir:

– Ya Musa, sən gedirsən Allah dərgahına. Mənim bir dərdimi de.

Deyir:

– Sənin nə dərdin var?

Deyir:

– Vallah, Allah-taala bu yaşdı vaxdımızda bizə bir oğul verdi. Oğul aynan-ilnən böyümədi, günnən böyüdü. Boy atdı, elm sahibi oldu, xalq arasında hörmət qazanan oldu. Ədəbli, ərkanlı, qüvvəli oğlan idi. Toy elədih, bir yaxşı nəsilnən qohum oldux. Gəlini gətdik, oğlum gərdəyə yaxınnaşanda əcəlin tapşırdı öldü. İndiyə qədər bir dənə də günah işdətmiyifdi. Mən nə günah sahibi olmuşam ki, Allah-taala mənə bu zülmü elədi?

Musa qəzəbli insan oluf, həm də Allahın ərkəsöyünü oluf. Gedif çıxır dağa, Allahnan söhbət eliyir. Özünün dərdi yadınnan çıxır. Deyir:

– Sən yer üzündə insannara zülüm eliyirsən. Bu övladı sən vermiyərdin, vermisən niyə belə eliyirsən?

Deyir:

– Ya Musa, bunu bildik. Bəs sən nəyə gəlmisən?

Deyir:

– Mən çəliyimi itirmişəm, mənə bir çəlik.

Deyir:

– Yaxşı. Sən get meşədən bir ağac qır gət, sənin çəliyinin möcüzəsin verim, həm də o kişinin dərdini sənə deyərəm.

Musa gedir. Axtarır, axtarır meşəni, görür meşənin ortasında bir tala var. Dairəvi düzəngah yerdi. Düz ortasınnan bir dənə nazik şiv çıxıfdı. O qədər gözəl ağacdı ki. Deməli, talada bunnan başqa bir dənə ağac yoxdu. Qəşəh şiv ağacdı. Dibinnən vurur sürüyə-sü-

rüyə gətirir. Allah-taala buyurur ki, ya Musa, niyə gej gəldin? Deyir ki, vallah, bütün meşəni gəzdim, bunnan gözəl ağac tapmadım.

Deyir:

– Ya Musa, mənim əlimdə nə idi? Orda min illik palıtdar vardı, qupquru qurumuşdu, bir beləsin götürüf gətirsən sənə çəlik verəjeydim. Niyə bu ağacı qırdın?

Deyir:

– Bunnan gözəl ağaj yox idi.

Deyir:

– Bəri bax, neynirəm günahı cibində bol olannarı? Mən də dərgahıma təmiz adamlar gətirməliyəm da. Özünü mundarramamış götürüf gəlirəm da.

Şəhidlərimiz olan vaxdı valideynlərinə təskinlik vermək üçün bu misalı tez-tez çəkirdim.

### II mətn

Musa bir gün gedir deyir ki, ya təbərri-allah, qoy bir gün mən allahlıx eliyim da. Deyif:

– Ya Musa, bəndədən Allah olmaz. Sənə peyğəmbərlik vermişəm, əl çək, ağ eləmə.

Deyir:

– Yox ey, nolar bir gün ver, oturum da taxtında.

Deyir:

– Yaxşı, gəl otur.

Bu oturan kimi gözü sataşır bir dəyirmana. Görür bir kişi qatırda iki çual buğda gətirifdi, bir kişi də dəridən düzəldilmiş dağarcıxda. Ağnağız deyillər. Beş kilo, altı kilo buğdanı gətirir dəyirmançıya verir. Dəyirmançı o buğdanı tökür istənilən adamın taxılının üstünə. Altdan unnan yığır ona verir, ona ağnağız deyillər. Əgər dəyirman boşdusa arada çaldırıf verir. Dağarda da çox ola altı-yeddi kilo buğda. Çual sahibi deyir ki, kömək elə taxılı düşürdək. Düşürdüllər, qoyullar yerə. Adətən çualın ağzı açılmalıdı, dəyirmançı gəlif dəni yoxlamalıdı ki, yaşdı, qurudu. Yaş olsa, üyütmür da. Dən quru olmalıdı. Açıllar çualın ağzını. Deyir:

– Bala, get dəyirmançını çağır gəlsin.

Deyir:

– Yaxşı.

Bu oğlan gedif dəyirmançını çağıranda bu götürür dağardan bir ovuş tökür çualın üstünə. Elə Musa qolun irəli uzadanda Allah tutur qolunnan:

– Ya Musa, neynirsən?

Deyir:

– Görürsən onu?

Deyir:

– Görürəm.

Deyir:

– Nətər görürsən?

Deyir:

– Görürəm da.

Deyir:

– Qurban olum, qoy bunun gözün çıxardım kor eliyim, camahata görk olsun ku, dağardan oğurruyuf çualın üstünə tökmüyələr.

(Bugünkü gün imiş da). Deyir ki, ya Musa, görürsən sənnən Allah olmaz. Mən heylə eləmirəm. Deyir:

– Sən nətər eliyirsən?

Deyir:

– Mən çualın bərəkətin verirəm dağara, dağarın da bərəkətin verirəm çuala.

Bax, günümüzün bu günündə adamlar var ki, milyonu var, heç onun bərəkəti yoxdu. Mənim kimisi də oturur, əlhəmdullah, xırda-xırda qazanır, şükür Allaha, heş nəyə də ehtiyacı yoxdu.

### III mətn

Bir gün Musa peyğəmbər əleyhsalam (salavat çəkir – top.) gedirdi Turi-sinaya. Gördü ki, çobandı, bir sürü qoyundu, beş yaşında uşaxdı, bir də köpəyidi. Bir dərənin içində kölgələnir. Dedi:

– Çoban.

Dedi:
– Nədi?
Dedi:
–Demirsən, bulutdan yağış yağar, qoyunu dərədə sel aparar?
Dedi:
–Yox qardaş, o qısır bulutdu, onda yağış yoxdu.
Peyğəmbər əleyhsalam tərəddüd elədi ki, nətər olur çoban bilir, mən bilmirəm. Getdi Allahnan söhbət elədi. Dedi:
– Musa, niyə tərəddüd eliyirsən, sözün nədi?
Dedi:
– Əşi, belə-belə.
Dedi:
– Hə, çoban düz deyir, dümağ bulutdu, orda yağınnıx yoxdu.
Musa bikef durur. Allah deyir:
– Deyirsən indi o bulud qara bulud olsun?
Deyir:
– Hə dana.
Qara bulud gəldi, ildırım çaxdı, sel çobanın qoyununu, köpəyini, beş yaşında uşağını götdü getdi. Peyğəmbər əleyhsalam gəldi ki, çoban əliynən başına döyür. Deyir:
– Ə, noldu?
Deyir:
– Ə, yeri get. Mərdimazara nəhlət.
Şəriyətdə nəhlətdən ağır söz yoxdu. Peyğəmbərin pisinə gəldi ki, qəzanı bu törədif. Tez qayıtdı bir də Turi-sənaya, Allah-taaladan istixazə elədi ki, ya Allah, mən neyniyim? Dedi:
– Onun beş yaşındakı uşağını ilişdirmişəm kola. Get onu tap, ver ona. O sana üş kərə deyəjəh Allah atana rəhmət eləsin, lənət üsdünnən götürüləjəh.
Gəldi dedi ki, qardaş, gəl mən sənin uşağını taparam. Uşağı tapıf verəndə çoban üş dəfə təkrar elədi ki, Allah atana rəhmət eləsin.
O uşağı ki tapdı verdi ona, nə qoyun çobanın gözünə göründü, nə köpək gözünə göründü. Səvinə-səvinə uşağı apardı.

## 23. DÖRD SEVGİ

Bir günnəri Fatmeyi Zəhra həyat yoldaşı Cənab Əliyə deyir ki, Əli, dünyada sən hər şeyi bilirsən? Deyir:

– Fatma, bilirəm.

Deyir:

– Elə şey olar ki, bilmiyəsən.

Deyir ki, yox, çalışaram hər şeyi biləm. Gedir atasına deyir ki, qibleyi ata, ola sən Əlidən bir şey soruşasan bilmiyə gəlif mənnən örgənə. Özünə tabe elətdirmək fikrinə düşür da. Deyir, qızım, söz yox ki, Cənab Əli hər şeyi bilir. Amma deyirsən da. Çalışaram ki, bunu eliyəm.

Günnərin bir günü günorta namazında peyğəmbər əleyhsalam deyif ki, əmoğlu, isdiyirəm sənnən bir şey soruşam. Deyir, buyur. Deyir ki, Allahı sevirsən? Deyir, bəli, sevirəm. Deyir ki, məni də sevirsən? Deyir, bəli, sevirəm. Deyir, qızım Fatmanı da sevirsən? Deyir, bəli, sevirəm. Oğlun Həsəni, Hüseyini sevirsən? Deyir, əlbətdə sevirəm. Deyir, yaxşı, bu dört sevgini yığmısan bir yerə, bunnar heş bir-birinnən dalaşıf bir-birin qırmır? Əli ilişir. Deyir ki, əmoğlu, onda icazə ver gedif fikirrəşim, gəlim saa cavab verim. Bu düşünə-düşünə gəlir. Fatmeyi Zəhra görür həyat yoldaşı Cənab Əli imtahandan çıxıb suala cavab vermiyən bir şəxs kimi gəlir. Gəlir çatır, Fatma bunu qarşılıyır. Deyir, əmoğlu, elə bil imatahan vermisən, cavab verəmməmisən. Deyir ki, heylə oldu, Fatma. Atan maa sual verdi, mən onu bilmədim. Nə sual verdi? Deyir, maa sual verdi ki, Allahı sevirsən, əlbətdə. Məni sevirsən, əlbətdə. Qızım Fatmanı sevirsən, əlbətdə. Bəs oğlannarını? Həmçinin. Bə bu dörd sevgini bir yerdə nejə dolandırmağı bacarırsan? Mən cavab verəmmədim. Deyir, həqqi cavab verəmmədin? Deyir, bəli. Deyir, orda nə var. Deyir, Fatma, sən allah, bilirsən? Deyir ki, hə, bilirəm. Deyir, Fatma, onda onu maa de, gedif deyim. Deyir ki, deyərəm. Deyir ki, Allahı görmüsən? Deyir ki, xeyr. Söhbət eləmisən? Deyir ki, xeyr. Bir yerdə çörək yemisən? Deyir, xeyr. Deyir, Allahı ruhən sevirsən. Bu ruhən sevgidi. Atamı imanına görə sevirsən, məni nəfsinə görə

sevirsən, balalarını da Allahdan gələn hisdi ki, sevirsən. Bu sevginin hərəsinin öz yeri var. Sən bunu niyə deyə bilmədin?

## 24. ÖMƏRİN FATMAYA ELÇİ DÜŞMƏSİ

Ömər ağa durur gedir Məhəmməd peyğəmbərin qızı Fatmaya elçiliyə. Birinci bir əkinçi ərəbə rast gəlir. Salamələyküm, əleykimət salam. Deyir:

– Ömərağa, xeyirdimi, gejənin bu vaxdı hara gedirsən?

(Adətən elçilər gejə gedir. Ona görə ki, nə qız yiyəsi utanmıya qızını ərə verir, nə də elçiyə "yox" deyəndə suyu tökülmüş qarılar kimi kor-peşman qayıdanda onu görməsinnər. Ona görə elçilik adətən gejə olur. İndi bizdə avropeyskidi, günortaya salıflar). Ərəbə deyir ki, mən əmim qızı Fatmeyi Zəhraya elçiliyə gedirəm, – deyəndə ərəb ayağ üsdə keçinif. Deyif, noldu? Deyir, Fatma yaxşı qızdı, onu mən də isdiyirdim. Deyir ki, nolar, sənin də elçiliyini eliyərəm, bəlkə sənə verdilər.

Bir müdəm gedənnən sora Cənab Əli çıxır qabağına. Salamələyküm, əleykimət salam. Ə, əmoğlu, xeyirdimi? Gejənin bu vaxdı hara gedirsən? Deyir ki, gedirəm Fatmaya elçiliyə. Cənab Əli kimi bir qüssəli, qürurlu pəhlivan ayax üsdə keçinir. Deyir, noldu, əmoğlu? Deyif, Fatmanı mən də isdiyirəm. Deyir, vallah, bir ərəb də maa dedi. Nolar, sənin də elçiliyini eliyərəm. Hansımıza versə, verəjəh.

Gedir Məhəmməd peyğəmbərin evinə daxil olur. Salam-kalam. Peyğəmbər deyir ki, əmoğlu, xoş gəlmisən, beş gəlmisən. Bə dərdin nədi? Deyir ki, Fatmaya elçiliyə gəlmişəm. Deyir ki, Allah xeyir versin. Mən səni bəyənmiyif kimi bəyənəjəm. Deyir, yox, məsələ heylə deyil. Deyir, nətərdi? Deyir, vallah, əkinçi ərəb də maa dedi, əmim oğlu Əli də. İndi üç elçiliyə gəlmişəm. Bu üç elçinin hansını məsləhət bilsən ona verəjəhsən. Məhəmməd peyğəmbər baxır, baxır, deyir, yox, bu mənnik olmadı. Qoy onda qızım Fatmanı çağırım, kimi desə ona verəjəm. Deyir, qızım, gəl bura. Gəlir. Deyir, qızım, bu şəriyətin işidi, Allahın verdiyi qərardı. Qız ərə getməlidi, oğul evlənməlidi. Mən tam sənə səlahiyyət verirəm. Üç

elçi gəlifdi, hansın desən ona verəjəm. Biri əmin oğlu Ömərdi, biri əmin oğlu Əlidi, biri əkinçi ərəbdi. Qız başın salır aşağı, hannan-hana başın qaldırır deyir:

– Qibleyi-ata. Ras ki, məsləhət görürsən, icazə ver bu əmim oğluna sual verim.

Deyir:

– Buyur.

Deyir:

– Əmoğlu, saa getsəm mənim aqibətim necə olajax?

Deyir ki, sənin aqibətin bu dünyada zərri-ziba içində itəjəh, amma o dünyan fanidi, o dünyan olmuyajax.

Deyir:

– Çox yaxşı. Bəs ərəbə getsəm nətər?

Deyir:

– Ərəbə getsən, Ərəbistanın çölüdü, bir parç sudu, cəhrədi, daraxdı əyirəjəhsən, darıyajaxsan. Quru çörəhdi, götürəjəhsən, dişin tutmuyajax. İsdadıf onu udajaxsan. Nə bu dünyan var, nə o dünyan. Bu dünyan da fanidi, o dünyan da.

Deyir:

– Çox yaxşı. Bə əmim oğlu Əliyə getsəm nətər?

Deyir:

– Əmin oğlu Əliyə getsən, bu dünyan qan çanağı içindədi, amma o dünyan əbədidi.

Deyir:

– Qibleyi-ata, məni ver əmim oğlu Əliyə.

Beləliknən, Fatmeyi Zəhranı verillər əmisi oğli Əliyə. Bunu deyən onnan ötrü deyif ki, Fatmeyi Zəhranın dünyagörüşü o dünyasın əbədiləşdirif. Bu təbliğat onnan ötrüdü ki, ey insannar, siz bu dünyada yaxşılıx eliyin ki, o dünyanız əbədi olsun.

## 25. ALƏMƏ OD DÜŞƏR

Qurban olduğumnan Cəbrayıl yolnan gedirmiş. Xeyləh gedənnən sora görüflər, iki taya var. Tayalardan birinin çəpəri tafda-

nıf, həm də bir bağ ot götürülüf. O birisi taya bütöydü, çəpəri dağılmıyıf, otu da götürülmüyüf. Cəbrayıl deyir ki, tafdanmış çəpərdən bir bağ ot gətir, verək ata. Qurban olduğum da deyir ki, ay Cənabi Cəbrayıl, o yazığın çəpəri dağılıf, bir bağ otu götürülüf. Elə bütöydən götürərdih dana, bərabər olardı. Cəbrayıl deyir ki, qurban olduğum, bının onsuz da çəpəri də tafdanıf, bağı da gedif, dərdi görüf dözür. O bütöydən götürsəh, bu taya da od tutuf yanar, aləmə də od düşər. O, dərdə dözə bilməz. Ona görə də mən bını belə elədim.

## 26. ODLA PAMBIQ

Məhəmməd peyğəmbər gedir bir məclisə. Məclisdə deyillər ki, gəl otu da. Deyir ki, yox, oturmuram, tələsirəm. Deyillər ki, otu da, nəyə tələsirsən? Deyir, yox, oturmuram, tələsirəm. Odnan pambığı qoymuşam bir yerdə, gəlmişəm. Deyillər ki, od kimdi, pambıx kimdi? Deyir, od qızımdı, pambıx da oğlumdu.

Qızım, yanı deməh isdiyir ki, oğlannan qızı bir yerdə qoymax səhvdir.

## 27. QARIŞQANIN DUASI

Peyğəmbər əleyhsalamın dünyaya nazil olmasından bir yaxşı əhvalat danışaram. Elə vaxd oluf ki, il quraxlıx oluf. Quraxlıx olanda camahat bir-birinə deyif ki, bu il ajdıx olajax. Ağıllı adamın biri deyif ki, indiyətən fikir eliyərdıx. İndi peyğəmbərimiz var, nə fikir eliyax. Peyğəmbərə deyərıx Allaha deyər, yağar. Məsləhət bilinən adamlardan göndərillər peyğəmbər əleyhsalamın görüşünə. Peyğəmbər əleyhsalamın da deyilməynən görüş yeri bir mətə imiş. Oraya gedənnərdən gəlif soruşurmuşlar ki, nə istiyirsən, nə deyirsən, onnar da istəklərin deyirmişlər. Peyğəmbər gələn adamları qəbul eliyif. Deyif ki, ya peyğəmbər, il quraxlıxdı. Camahat bizi göndərdi ki, gedin peyğəmbərə deyin Allaha istixaza eləsin, bəlkə yağış yağdı, aj qalmıyax. Deyif, yaxşı eləmisiz. Gedin camahata

deyin yuyunsunnar, qüsullansınnar, səhər çıxax sahəyə, o pay torpaxda Allaha dua eliyərıx, inşallah yağar.

Bu fikirnən camahat gedif qüsullanır. Səhər gəlillər peyğəmbər əleyhsalam qabaxlarında, camahat da arxasında. Gedillər sahəyə çıxıllar. Sahəyə çıxanda peyğəmbər əleyhsalam nəxarta dua eliyir, istixaza eliyir, yalvar-yapış eliyirsə, nə bulud, nə nəm, nə çiskin – heş nə gəlmir. İndi camahat bir-birinə deyir ki, bu yalannan deyir peyğəmbərəm. Buların belə deməsi peyğəmbərə agah olur. Peyğəmbər əleyhsalam Allaha yalvarır ki, ilahi pərvərdigar, mənim nə günahım var ki, sözüm eşidilmədi. Günahımı de, canımı al. Mən o camahatın üzünə nejə çıxaram?

Peyğəmbər əleyhsalam burda özünə ölüm istəsin, camahat da qayıdıf getməkdə olsun. Peyğəmbər addım-addım geri qayıdır. Peyğəmbərin özünə ölüm istəməyi oxatrana Allaha xoş gedir ki, Allahdan vəh gəlif, qarışqa peyğəmbərin qabağında dillənif: – Ya peyğəmbər, niyə fikirrisən? Peyğəmbər əleyhsalam deyif ki, Allahın cüjüsü, sənnik döyül. Deyif ki, ya peyğəmbər, nolar ki, sən böyüksən, mən kiçik. Səni də Allah yaradıf, məni də. Danışırıx, bəlkə kömək elədim. Peyğəmbər danışığa cavab verməsə, olmaz. Deyir ki, camahatnan getdim dua elədim, yağmadı. İndi özümə ölüm isdiyirəm. Deyir ki, ya peyğəmbər, gəl qayıdax, mən dua eliyim yağsın. Peyğəmbər əleyhsalam cavabında deyir ki, əgər sənin duana yağajaxsa, elə mənə ölüm lazımdı. Qoy bu başdan Allah mənim günahımı desin, canımı alsın. Qarışqanın cavabı bu olur ki, ya peyğəmbər, sən yalvardın, dua elədin noldu? Mən də dua eliyərəm, yağmaz, yağmaz. İndi qarışqa qabaxca, peyğəmbər əleyhsalam da bunun arxasınca. Camahat baxır ki, peyğəmbər qayıdır. İndi də bir-birinə deyir ki, peyğəmbər Allaha dedığı sözü bizim yanımızda demədi ki, örgənərıx. İndi odey təkcə qayıdır. Qayıdıllar həmən mətəyə. Qarışqa dua eliyir, peyğəmbər əleyhsalam deyir amin, amin. Allah-taala nəm gətirir, yağış gətirir. İndi peyğəmbər əleyhsalam Allaha daha sidq ürəknən deyir ki, mən sənin rəsulun, peyğəmbərin. Mənim elədiyim dualara yağdırmadın, amma qarışqanın etdiyi duaya yağdırdın. Günahımı de, canımı al. Cənab Cəbrayıl vasitəsiy-

nən vəh gəlir ki, ya peyğəmbər, qarışqanın duasıynan yağmıyıf, peyğəmbərin aminınə yağıf. Sənnən gələn maxluqatı şeytan qoymadı amin desin. Sənin duanın arxasında amin olmadı. Amma qarışqanın duasının arxasında peyğəmbər amini var, peyğəmbər amininə yağıf. Onnan sora peyğəmbər əleyhsalam təskinnik tapıf.

## 28. ALLAH DƏVƏNƏ BƏRƏKƏT VERSİN

Kənt camahatı hamı il urzaların yığıflar, kasıbınkı qalır axıra. Bir ağıllı adam deyir ki, bizim peyğəmbər çox insaflıdı. Get sənə bir yük heyvanı versin, sən də qutar da. Hər kəs özünü düşünür, sənin dərdinə kimdi qalan. Amma peyğəmbər Allahın rəsuludu, get denən.

Bu kasıb gedir peyğəmbər əleyhsalamnan görüşə. Gəlillər. Deyir, görüşmağ isdiyirəm. Bunu görüşdurmağa aparanda görür ki, peyğəmbər əleyhsalam bir qotur dəvəni öz əliynən yağlıyır. Bunun içinnən keçir ki, bu qotur dəvəni yağlıyan mana nə verər? Axı peyğəmbər sirri-qafildi, kimin içinnən nə keçir ona agahdı. Peyğəmbər soruşur ki, eşidirəm. Deyir ki, ya peyğəmbər, elə görüşdüm bəsimdi, heş nə demiyəjəm. Deyir, yox, yox, de. İndi bu vəzyətə görə isdəmir deyə, bu da bildiyinə görə isdiyir deyə. Deyir:

– Ya peyğəmbər, vəzyət belə idi, onun səbəbinə gəldim. Səni də bu vəzyətdə gördüm, vallah, onçün demağ isdəmirəm.

Deyir:

– Yox, yox, adam gələndə deyər. Gəlmisən peyğəmbərə sözünü deyəsən. Niyə demiyəsən?

Çağırır:

– Salman, Salman.

Hay verir. Deyir:

– Salman, bir irahat, yumuşax dəvə gətir.

Yəni dil bilən, yatmağı, qalxmağı başa düşən da. Da hirsdi yox. Salman bir dəvə gətirir. Bu kasıb baxır ki, heş qardaş qardaşa bunu verməz. Ovsarı Salman kasıba uzadanda deyir:

– Ya peyğəmbər, Allah malına min bərəkət versin.

Peyğəmbər çağırır:

– Salman, get bir dəvə də gətir, o bunnan da irahat olsun.

Salman gedir bir dəvə də gətirir. Naxarta eliyir bu kasıb dəvənin ovsarınnan yapışmır. Deyir:

– Ya peyğəmbər, mən aparram, işimi qutaranda dəvəni gətirif verəjəyəm. Başıma bir iş gələ, axı mənim mağdurum yoxdu ki, iki dəvənin haqqını ödüyəm. Bu bəsdi.

Deyir:

– Yox, yox. Götür.

Ovsarı tutanda kasıb deyir ki, ya peyğəmbər, Allah malına min əvəz versin. Bayax bərəkət isdiyif, indi əvəz isdiyir. Deyir:

– Salman, Salman, get bir dəvə də gətir, o bunnardan da irahat olsun.

Gedir dəvəni gətirir. Görür axır gələn bu ikisinnən həm gözəl, həm də irahatdı. Dəvənin ikisinin də ovsarın kasıb boşduyur ki, ya peyğəmbər, başıma bir iş gəlsə, mən ödüyə bilmərəm. Biri bəs idi. Deyir ki, ay kişi, gəl bəri. Bilirsən niyə verdim? Deyir, bu tərəfdəki topa dəvəni görürsən? Okqədər sidq ürəknən dedin ki, Allah-taala mənim dəvələrimə qarışdırmax üçün qeybinnən bir heylə dəvə gətirif ora. O ki dedin min əvəz versin, bax onun da əvəzi odur. Bu dəvənin ovsarın tutmamısan, söz deməmisən, hələ onun əvəzi gəlmiyif. Gör sənin Allah xətrini nəkqədər isdiyir ki, sən ikisin aparırsan, Allah hər birinə yüz dəvə əvəz verif, bərəkət verif. Sənin sıdqın Allah yanında eşidilif. Götür, götür. O ikisin əvəzin almışam, bu biri də halal-xoşun olsun. Get işini gör.

İndi bu dəvələri gətirəndə hər devrin şeytanı var. O deyif ki, sən öl, gör bu peyğəmbərə nə vəd verif ki, dəvələri buna verif. Bu yalannan kasıfdı, bijdih eliyir, bəlkə haqqın verif. Hərə bir söz deyir. İşin qutarannan sora görüllər qaytarmadı axı. Deyir, niyə qaytarmadın? Deyir, peyğəmbər əleyhsalam onu mana bağışlıyıf Allah xatirinə. Soruşan oluf ki, indi getsək, bizə də bağışlayar. Deyir, onu bir Allah bilir, bir də peyğəmbər bilir. Odey peyğəmbər ordadı, Allah da onun yanındadı.

İndi qaqa, bismillahnan, əlhəmdullahnan, haknan oturuf-duranda Allahın bəndəsi naümüd olmaz.

## 29. PEYĞƏMBƏRİN YALANI

Bir şəxs peyğəmbər əleyhsalamı görəndə görür ki, başında tacı var. Öz-özünə deyir ki, görəm peyğəmbərin qarğışı neçə ildən sora tutur? Deyir:

– Ya peyğəmbər, sizdən soruşmağ olar ki, sizin qarğışınız var bəndələr üçün?

Deyir:

– Əlbətdə ki var.

Deyir:

– O neçə ildən bir tutur?

Peyğəmbər əlyehsalam deyir, qırx ildən bir. Bizim qarğış gündəlik döyül. Allah-taalanın da səbri var, bizim də. Amma qırx ildə nağdı tutur. Amma bu şəxs bilmir ki, onun içinnən keçən peyğəmbər əleyhsalama agahdı. İçinnən keçirir ki, sən öl, bu tacı başınnan götürüf qaçırajam. Qırx il qoyajam başıma, deyəllər ki, Məhəmmədin tacı var. Qırx ildən sora da ölərəm, cəhənnəmə ölərəm. Okqədər peyğəmbərnən fırranır, fırranır, fırranır. Fikirrəşir ki, peyğəmbər əleyhsalam su başına oturanda tacı götürəjəm. Ha eliyif özün düzəldincə qaçajam da, hara çatır. Bu ağılnan peyğəmbər əleyhsalam aftafaya oturanda tacı götürür qaçır. On metr getməmiş qıçı sınır yıxılır. Peyğəmbər əleyhsalama agahdı. İrahat öz işin görür, qutarır, gedir dəsdəmazın alır. Gəlir ki, yıxılıf buraya, taj yumalanıf odey oraya. Zarıya-zarıya deyir ki, ya peyğəmbər, sizdə də yalan var?

Deyir:

– Nooluf ki?

Deyir:

– Sən demədin qarğışım qırx ildən sora tutur.

Deyir:

– O mənim qarğışım döyül. Filan qarının inəyinin balasın aparıf kəsdin ey, o sarı inəyin qarğışıdı. Hələ mənim qarğışım qırx ildən soradı.

Peyğəmbər bu sözü deyir, gedir tacı götürür qoyur başına, düzəlir yoluna gedir.

## 30. BARAMAQURDU

Qaynanam deyirdi ki, bala, baramaqurdu var ha, o peyğəmbərimizin canının qurdudur. Məhəmməd peyğəmbərin bir balaca evi oluf. Bütün bədəni yara tökür, həmin yarıya da qurd düşüf. Deyillər ki, ya peyğəmbər, belə olmaz axı. Bəs, siz ilahi bir adamsız. Peyğəmbər deyif ki, məni Allah-taala bı qurtdara yem üçün belə eliyif. Qoyun yesinnər, doyuf çəkiləjəhlər.

Sora deyir, bir gün peyğəmbər də bınnan bezif. Deyif ki, görüm, sizin yaratdığız yeejəh olsun, əl çəkin da mənnən. Onnan sora qurtdar qurban olduğumun bədəninnən əl çəkillər. Onnan da onun adı baramaqurdu qalıf. Yanı Məhəmməd peyğəmbərin qarğışınnan sora baramaqurdu əmələ gəlif. Baramaqurdun yaratdığı da ipəh oluf. Peyğəmbərimiz həm də deyif ki, yediyin tut yarpağı olsun, istehsalın ipəh olsun.

## 31. USTADINA RƏHMƏT

Dünya binnət olanda yer üzü xali idi, sirkələnif axırdı. Bir bəni-bəşər yox idi. Dünya su kim axırdı. Dünyanın əvvəllində mələkələr nazil oldu: Cəbrayıl, Azrayıl, Mikayıl. Dünya salavat üsdə bərqərar oluf (salavat çəkir – top.). Həzrət Əli salavat çöördü dünya onda durdu. Onda Cənabi Cəbreyil zühr elədi Allahın hüzuruna. Getdi Allahın hüzurunda durdu. Allahdan səda gəldi ki, maxluq, sən kimsən? Dedi, sən sənsən, mən mənəm. Allah tərəfinnən vuruldu, şapəri yandı, düşdü dəryaya. Cənabi Cəbreyil bir müddət qalannan sora qanatdandı bir də zühr oldu. Allahın dərgahına gedəndə Allahdan səda gəldi ki, ya Əli, Cənabi Cəbreyil gəlir, onu örgət. Həzrət Əli deyir:

– Cənabi Cəbreyil, hara gedirsən?

Deyir:

– Allahın dərgahına gedirəm.

Deyir:

–Nə deyəssən?

Genə əvvəlki sözü deyir. Deyir:

– Yox, Cənabi Cəbreyil. Heylə demə. Denən ki, sən xaliqsən, mən maxluğam. Sən yaratmısan, mən yaranmışam. Heylə de.

Cənabi Cəbreyil gedir Həzrət Əlinin örgətdiyini deyir. Allahdan səda gəlir ki, ustadına rəhmət.

## 32. PEYĞƏMBƏRİN MERACA GETMƏSİ

Məhəmməd peyğəmbər Allahın dərgahına gedəndə Həzrət Əli evdə böləg[2] idi. Min bir ad Allahındı, min ad Əlinindi. Bir neçə tabağa qalxmışdı ki, bir şir kəsdi qabağını. Dedi ki, barmağındakı üzüyü ver, keç. Məhəmməd peyğəmbər barmağındakı üzüyü çıxartdı verdi şirə, keşdi. Bir tabağa qalxdı, gördü malakələr yazı yazır. Məhəmməd peyğəmbər keçəndə bular heş başın yuxarı qaldırmadı. Cənab Cəbreyil Məhəmməd peyğəmbərin yanında bələdçidi. Dedi ki, filan malakə, bu Allahın əziz peyğəmbəridi, niyə başını qaldırmırsan? Deyir, majalım yoxdu, yazıram. Dedi, nə yazırsan? Dedi ki, mən Həzrət Əlinin şənin yazıram. Çıxdılar bir tabağa da yuxarı, bir malakə də burda yazır. Dedi ki, niyə başını qaldırmırsan, Allahın əziz peyğəmbəri gəlif? Deyir, imkanım yoxdu, yazı yazıram. Dedi, nə yazırsan? Dedi ki, Əlinin şənin yazıram. Ona görə deyillər ki, dəryalar mürəkkəb ola, meşələr qələm, gənə Əlinin şənin yazıb qutarammaz.

Məhəmməd peyğəmbər çıxdı Allahın hüzuruna. Pərdənin arxasından səs gəldi, peyğəmbərnən kəlmələşdi. Behiştdə Məhəmməd peyğəmbərin qabağına alma gəldi, bıçax gəldi. Məhəmməd peyğəmbər gördü ki, pərdənin dalınnan əl çıxdı, uzandı almaya. Məhəmməd peyğəmbər almanın parasın kəsdi verdi ələ, parasın da qoydu cibinə, dedi, aparım Əliyə. Əl çəkildi. Məhəmməd peyğəmbərin qabağına pilo gəldi. Bu tüklü əl gəldi. Köhnə adamlar deyirdi ki, bədəni tüklü adam Əlinin dosdudu. Bu düyüdən tükün arasına düşür. Məhəmməd peyğəmbər Allahnan kəlmələşdi, qayıtdı gəldi evə. Həzrət Əli dilləndi dedi ki, əmoğlu, nə gördün? Dedi ki, vallah,

---

[2] böləg idi – bələkdə idi

şir qabağımı kəsdi üzüyümü aldı, buraxdı. Amma Məhəmməd peyğəmbər demədi ki, hansı tabağaya qalxdımsa, Əlinin şənin yazırdılar. Dedi ki, Allahı gördünmü? Dedi, yox, görmədim. Dedi, bə nə gördün? Dedi ki, Allah dərgahında mana tam gəldi. Pərdənin dalınnan bir əl çıxdı, almanın parasın ona verdim, parasın da saa gətirmişəm. Bir də mənnən tam elədi, tükünün arasına bir düyü dənəsi düşdü. Uşax güldü, almanı böləkdən çıxartdı dedi ki, gör budumu? Almanı tutuşdurdu, gördü parası həmin almadı. Əlin çıxartdı dedi, gör bu əldimi? Gördü düyü də ordadı. Dünya tarixində Allahdan başqa Həzrət Əlinin sirrini heş kəs bilmiyif.

## 33. HƏZRƏT ƏLİNİN ÖLÜMÜ

Həzrət Əli zərbənlənəndə İmam Həsənnən İmam Hüseyinə dedi ki, məni yuyun, kəfənniyin qiblə tərəfdən ağ dəvə gələjək. Qoyun ağ dəvənin üsdünə, gələn olajax, ovsarın buraxın özü gedəjəhdi. Mənim dalımcan gəlmiyin. Yudular, kəfənə tutdular, namazın qıldılar. Hazır olanda ağ dəvə gəldi yatdı. Qoydular ağ dəvənin belinə, ovsarın buraxdılar. Bir gün keşdimi, iki gün keşdimi orasın bilmirəm. İmam Həsən dayanammadı. İmam Hüseyinə dedi ki, mən gedəjəm atamın dalıncan. Düşür dalına. Gedir görür ki, dəvə gedir, qabağıncan da bir üzü rübəndli dəvəni çəkir. İmam Həsən dəvənin yanına çatır. Dəvənin yedəyin bu üzü rübəndlinin əlinnən alanda rübəndin belə atır, görür çəkən Əli özüdü. Deyir ki, oğul, saa deməmişdim gəlmə. Dəvə harda dursa, məni orda dəfn elə.

## 34. COMƏRD QƏSSAB

Gəncədə Comərd Qəssab vardı. Bu qəssab qırx otax tikdirir. Qırxının da qapısın bağlıyır. Yuxuda Həzrət Əlini görmüşmüş. Deyir ki, bu otaxları Əlinin adına tikdirirəm, gələndə oturar. Padşaha xəbər aparıllar ki, bəs filan qəssab ət kəsəndə deyir ki, Əli başıçün nə artıx almaram, nə əysik verməram. Padşah cəllatdarı yolluyur ki,

gedin onun başın kəsin, paltarını qanına bulayın gətirin. Həzrət Əliyə də agahdı ki, böyün qəssabı öldürəjəhlər. Deyir:

– Qəmbər, gözünü yum, min tərkimə. Gedəjeyih filan yerdə bir qəssab olur, onu öldürəjəhlər.

Qəmbər atın tərkinə minir, Həzrət Əli gəlir düz qırx otağın qapısına. Qəssabın da gözünün ağı-qarası bir oğlu var. Qəssab da bazarda ət satır, hələ evə gəlmiyif. Həzrət Əli Düldüldən düşəndə oğlan görür ki, otaxlar şarakkaşarax açıla-açıla getdi. Əli pilləkannan çıxır gedir oturur axırıncı otaxda. Gedə də dincəlmir. Atası axı buna danışmışdı ki, belə bir adam gələjəh. Çıxır çölə ki, atası gəlir. Deyir ki, ata, sən dediyin şəkildə iki qonağımız gəldi. Ayağın astanaya qoyanda qapılar öz-özünə açıldı, odey gedif oturuf axırıncı otaxda. Qəssab girir içəri. Girir içəri, görür həmən şəkildə adamdı. Düşür bunun ayağına, duz kimi yalıyır.

Qəssabın yoldaşı çörək hazırrıyır. Həzrət Əli də qəssabnan danışır. Bu heyndə cəllatdar qapını kəsir. Gedə çıxır. Deyillər ki, atana denən çıxsın çölə. Deyir:

– Mən deyə bilmərəm. Əziz qonağımız var, atam onnarnan söhbət eliyir. Mən onu çağıra bilmərəm.

Nəğadar eliyillər, deyir əziz qonağımız var, atam onnarnan şirin söhbət eliyir, çağıra bilmərəm. Nə dərdiniz var maa deyin. Deyir ki, bizi padşah yolluyuf ki, atanı öldürək qannı paltarın aparax. Deyir atamı mən çağıra bilmərəm, elə məni öldürün aparın. Deyəndə cəlladın biri deyir ki, padşah nə biləjək. Elə bunu öldürək. Gədənin başın kəsillər, köynəyin qana buluyuf gedillər.

Həzrət Əli bildi ki, gedəni öldürdülər. Qəssab çıxır çölə yoldaşına deyə ki, çörəyi gətir. Yoldaşı deyir ki, gədəni cəllatdar öldürdü. Deyir ki, üsdünü ədyalnan ört, qonaxlar bilməsin. Bilsə çörək yemiyəjehlər. Qəssab tez gətirir üsdün soruxluyur. Yoldaşı çörəyi gətirəndə Həzrət Əli deyir ki, qəssab, bayaxkı uşağı gətir biznən tam eləsin. Deyir ki, ağa dərviş, gedifdi xalası evinə. Deyir, çağır gəlsin. O biznən tam eləməsə, biz tam eləmiyəjeyih. Qəssab baxır ki, vəzyət belədi. Deyir:

– Ağa dərviş, uşağı öldürüflər.

Əli çıxır çölə, Qəmbər də dalıncan. Deyir, soruğu götür. Soruğu götürür. Həzrət Əli uşağın yönün çöörür qivləyə. Beş rükət hacət namazın qılır, ağzının liqabınnan şəhadət barmağıynan sürtür, başın qoyur boğazın üsdünə. Çəkir liqabın, gedə eşqırır sıçrıyır. Həzrət Əlinin qıçın qucaxlıyır. Deyir ki, cənnət bağında gülün içində gəzirdim.

Həzrət Əli qəssaba deyir ki, mən gedirəm padşahın meydanına, libası dəyişif gələrsən meydana. Həzrət Əli Qəmbər tərkində gedir. Həzrət Əlinin şəkli bütün padşahlarda vardı. Vəzir xəbər aparıf ki, Həzrət Əli gəlifdi. Padşah imarətinin qapısınnan baxır ki, şəkildəki adamdı. Padşah deyir, biz onun qabağında tab gətirə bilmərik. Ağ bayrax götürür yeriyir qabağına, dalıncan da vəziri, vəkili, qoşunu. Gələndə Həzrət Əli zülfüqarı qaldırır, altınnan keçillər. Həzrət Əli padşaha deyir ki, səni qoydum vəzir, qəssabı da qoydum buranın padşahı. Bu günnən qəssabın adın qoydum Comərdi Qəssab.

İndi həmən Comərdi Qəssabın məzarı Gəncədə ziyaratgahdı.

## 35. HƏZRƏT ƏLİ VƏ RÜSTƏM ZAL

Süleyman peyğəmbərnən Urustamı Zal bir tarixdə yaşıyıf. Həzrət Əlidən sora yer üzündə qüvvəli pəhlivan Urustamı Zal oluf. Yeriyəndə qurşağatan yeri yara-yara yeriyirdi. Devlər də o vaxdı yaşıyıf. İndi bizim yerrərdə kahalar vardı, deyirdilər ora dev kahalarıdı. Süleyman peyğəmbər iclas keçirir, necə ki indi prezident iclas keçirir. Əsabaların yığıf iclas keçirir. Ağ dev gəlir Süleyman peyğəmbərə şikayətə. Dev girir içəri ki, Urustamı Zal oturuf, Süleyman peyğəmbər də iclas aparır. Dev deyir ki, ya Süleyman, bu Urustamı Zaldan xəbər al, gör biz buna neynəmişik ki, bizim nəslimizi tamam kəsifdi. Əmimi öldürüf, əmim oğlunu öldürüf, atamı öldürüf, qardaşımı öldürüf, kökümüzü kəsif. Belə deyəndə Urustamı Zal əlin uzadır, pəncəsinin beşini də vurur devin ciyarın sağ çıxardır, qoyur qabağına. Deyir ki, səni də belə eliyərəm. Süleyman peyğəmbər də yer üzünün padşahıdı, yaranmışın dilin bilir, Allahın şərəfli peyğəmbəridi. Peyğəmbər sınır. İclas dağılır, peyğəmbər də

çox peşman olur. Allahdan səda gəlir ki, ya Əli, mənim əziz peyğəmbərimi Urustamı Zal sındırdı camahatın içində. Girirsən Süleyman peyğəmbərin şəklinə, güjünü Urustamı Zala gösdərərsən. Allah Əlini salır Süleyman peyğəmbərin şəklinə.

İndi Urustamı Zal iclasdan çıxıf gəlir, böyüh bir dərədi, ordan addıyajax öz iqamətgahına. Həzrət Əli Süleyman peyğəmbərin şəklində kəsir bunun yolunu. Deyir:

– Urustamı Zal, ayağ saxla. O dev gəlmişdi maa şikayətə. Bəs sən məni niyə o camahatın içində sındıdın? İndi maa cavab ver.

Urustamı Zal gülür. Deyir:

– Ya peyğəmbər, peyğəmbər adamsan, cavab ver nədi? Mən nətərə saa cavab verim?

Deyir ki, saa deyirəm maa cavab ver. Genə deyir, ya peyğəmbər, axı sən peyğəmbərsən, mən nətər sənə güjümü gösdərim? Urustam Zal əlinin dalıynan yavaşca peyğəmbəri itələmək isdiyir, görür köklü daşdı, tərpədə bilmir. Ajığı tutur qurşağınnan tutur ki, qaldıra, görür yox, heş tərpədəsi deyil. Bir güj verir özünə, tokka yerinədək girir yerə, ayağın yerdən üzə bilmir. Əlin keçirir (canım sənə fəda olsun, ya şahi mərdan Əli) Zalın kəmərinə, qaldırır başı üsdə üş dəfə buluyur atır, düz gedir dirənir ağ buluda. Ağ buluda dirənəndə yönü bəri qayıdır. Qayıdanda əlin verir, başı üsdə çatanda kəmərinnən tutuf ayax üsdə qoyur yerə. Deyir, get, bir də mən olan yerdə mənim sözümün qavağına söz çıxartma. Onnan sora Zal Süleyman peyğəmbəri görəndə onnan çəkinirdi. Süleyman peyğəmbər də görür ki, Zal əvvəlki Zal deyil.

## 36. HƏZRƏT ƏLİ VƏ GAVUR

Deyir, bir gün bı Allah nəhlət eləmişdərin bir sərkərdəsi, yəni yeziddərin sərkərdəsi deyif ki, mən Əlini məhf eləməliyəm. Deyillər ki, yox, Əli girməli kol deyil da. Sən onu öldürə bilməzsən. Nəsə, gedillər. Rəvayətə görə, qurban olduğum Allah birinci gavura yol verir. Gəlir Əliynən üzbəüz durur. Deyir ki, Allah saa nəhlət eləsin, birinci sən məni vır. Bını Əli gavurun sərkərdəsinə deyir.

Yezitdərin sərkərdəsi əmudu alır əlinə, nətər Əliyə endirirsə, Əlinin atı dizinə qədər batır torpağa. Əli sora silkələnif çıxır. Əli sərkərdəyə deyir ki, Allah saa nəhlət eləsin, indi sən dur, mən vırım. Əli nə cür qılıncını endirirsə, düz bının özünü də, atını da biçə-biçə gedir ayağa. Biçməyi amma görünmür. Əli sora gavura deyir ki, əşi, haran ağrıdı? Deyir ki, alnım ağrıdı, bir də dilimin ucu ağrıdı. Əli ona deyir ki, alnın ona görə ağrıdı ki, sənin alnın möhür görmüyüf, dilin la-ilahə-illəllaha dönmüyüf, ürəyində də Allah xofu yoxdu. Allah saa nəhlət eləsin, tərpən. Tərpənəndə bir şakqa bir tərəfə düşür, bir şakqa da o tərəfə düşür. Onnan sora yezitdərdən nə qədəri Əlinin tərəfdarı oluf.

Bala, bını ana babamdan eşitmişəm.

## 37. ƏLİ DOSTU

Qəmbər Əli dosduymuş da. Qəmbəri od yandırmırmış. Biri gəlif deyir ki, mən Əli dosduyam. Deyir, nolar, mənnən dosd olursan daha yaxşı. Bunu sınaxdan keçirir. Bir təndir yandırır, təndirin şirəmət yerində deyir özünü at təndirə. Bu şəxs özünü ata bilmir təndirə. Deyir, indi dur qıraxda. Çağırır:

– Ya Qəmbər.

Deyir:

– Can Əli.

Deyir:

– Bura gəl.

Gəlir. Deyir:

– Özünü at təndirə.

Sırazı Qəmbər özünü atır təndirə, bu da dəmiri götürür qoyur ağzına. Aradan bir az keçir. Gəlillər ki, Qəmbərin qabağında güllü baxça, kefdədi. Deyir ki, oğul, sənnən əziz dosd olmaz. Əziz dosd bax belə olar.

## 38. HƏZRƏT ƏLİ HAQQINDA DİGƏR MƏTNLƏR

### I mətn

Cənab Əli Basarkeçər dağını qılıncıynan vuruf, dağı yarıf ordan keçif gəlif. Ona görə 1941-1945-də hər yer aj qalanda bir Beyləqannan çörək qutarmadı (peyğəmbərin surfası oraya açılmışdı), bir də Basarkeçərdən. Basarkeçərdən gedif taxıl gətirif yeyərdih ajdıx ili.

### II mətn

Həzrət Əli Dəcləmi, ya Fəratmı çayının yanında durur, deyir siz mənim ağlımnan yox, qolumnan istifadə etdiniz. Mənim ağlımnan istifadə etsəydiniz, mən bu çaynan dünyanı nura qərq eliyərdim.

### III mətn

Müharibə olur, bərk vuruşma gedir. Gavurlar Xeybər qalasına yığışıllar. Əli Xeybər qalasıın qapısını kəsir, deyir, burdan bir adam çıxmasın. Bunnarı qırır. Üzdən irax, bir qancıx balasın ağzına alır Xeybər qalasınnan çıxır. Əli deyir, burdan heş kim çıxmadı ki? Deyillər yox, heş kim çıxmadı. Amma bir qancığ ağzında balası çıxdı. Deyir:

– Vay dad, biz adam qırmamışıx, elə gavırlar öz yerindədi.

### IV mətn

Həzrət Əli getmişmiş ova. Gedir ki, bir cüyür balasın əmizdirir. Cüyürü vurmur, çıxır gəlir. Sora başqa ovçular bu cüyürü vurullar. Görür ki, bunun balaları yetim qalıf. Ona çox heyfsilənir. Onnan sora ov mövsümünü o yaradıf ki, bala vaxdı heş kəs ova güllə atmasın.

## 39. BÖYÜYƏ HÖRMƏT

Xalam deyirdi ki, qurban olduğum da buyurur ki, böyüyə hörmət hamımızın borcudur. Lap gavur olsun, sənnən böyühdürsə (indi öldürməh vaxtı öldürür hamı bir-birini, ama hörmətə nə söz)

gərəh hörmət eliyəsən. Doxsan dörd yaşı varıydı xalamın bınnarı maa deyəndə.

Xalam deyirdi ki, peyğəmbər zamanında peyğəmbərlərimizdən imiş, ya da oğluymuş, yolnan gedirmiş. Nəysə da, onnardanıymış. Yolnan gedəndə elə bir yola çıxıf ki, dar yoldu. Bının qabağında da bir qaraltı var. Yolun hər iki tərəfinə də buğda əkiflər. Qaraltıya baxır ki, o ağsakqal bir adamdı, bının qabağında gedir. Yol da dardı. Deyir, neyniyim axı mən? Bı tərəfnən getsəm, bırda çörəyi əyaxlıyacam, o tərəfnən getsəm, o da çörəhdi, ayaxlıyacam. Qabağımnan gedən də ağsakqal adamdı, mən bını necə ayaxlıyım? Durur gözdüyür, ta bınnarı ayaxlıya bilmir da. Qurban olduğuma bının hərəkəti agahdır. Bınnar o qədər yol gedillər ki, bu qoca kişi dönüf başqa bir yolnan gedəndə bı tez keçir, gedir atasına çatır. Atası deyir ki, sən niyə gej gəldin? Deyir ki, ay sənə qurban, mənim gej gəlməyim sənin özaa bəllidir, mən keçə bilməzdim. Atası deyir ki, yox, dilinnən de görüm, niyə gej gəlmisən? Deyir, belə bir yola çıxdım, hər tərəfi buğda. Keçmədim ki, buğdanı ayaxlıyaram. O tərəfdən də keçmədim ki, çörəyi ayaxlıyaram. Nə də o qocanı ayaxlıyıf keçif gələ bilməzdim. Gözdədim, öz yoluna dönənnən sora gəldim. Dedi ki, əgər sən gavur da olsaydı, həmin qojanı keçif gəlsəydin, mən səni peyğəmbərrihdən salardım. Qocaya hörmət lazımdı, kim olursa olsun.

## PİRLƏR VƏ OCAQLAR HAQQINDA

### 40. CİCİMLİ OCAĞI

#### I mətn

Həzrət Əli orda gavurlarnan müharibə aparır. Yenir Cijimli kəndinə. O vaxdı da adamlar kahalarda olurmuşdar. Bir qoja qadının qonağı olur. Qarı evində nə varsa gətirir süfrə salır. Bilmir ki, qonağı cənab Əlidi. Bir soğan, bir qab qaynadılmış lobya, para arpa çörəyi, bir az duz, kasada da su qoyur süfrəyə. Ojaxdan da oddu kösöyü götürür sirkəliyir qoyur böyrünə. Deyir:

– Qonax, pismillah elə.

Cənab Əli də belinnən zülfüqarın çəkirir qoyur böyrünə. Çörək yeyilənnən sora deyir:

– Qarı nənə, cijim olasan, sağ ol, Allah var eləsin.

Sora deyir ki, kösöyü niyə ojaxdan götdün qoydun böyrünə? Qarı deyir:

– Qonax, bilmirəm kimsən, nəçisən. Amma bu and üzərimə olsun ki, yekəxanalıx eləsəydin ki, mana toyux kəs, aş bişir, səni bu köseynən döyəjeydim. Ona görə ki, mənim olanım budu.

Deyir ki, sən niyə qılıncını çəkdin qoydun böyrünə. Deyir ki, qarı nənə, mən Abutalıb oğlu Əliyəm. Bu and üzərimə olsun ki, dil-ağız eləsəydin ki, bağışda sənə layıx olmadı, sənin boynunu bu qılışnan vurajeydim.

Cijimli ojağı onnan qalmadı. Qoturu olan, it tutan adamları aparırdılar, ojağın üstündə oturan adamların barmağınnan qan alıf sürtərdilər çörəyə, o yiyərdi sağalardı.

### II mətn

Mənim eşitdiyimə görə, bir seyid[3] qurban götürüf Cijimli kəndinin başına fırrıyıf afsanata saldırıf. Orda ilan gəlif heyvanın içində yatırdı, heyvana dəymirdi. Hələ mən eşitməmişəm ki, Cijimlidə kiminsə heyvanın ilan vurar.

## 41. MALİK ƏJDƏR TÜRBƏSİ

### I mətn

Malik Əjdər gavurlarnan döyüşdə yaralanır, onu dəfn eliyillər, qılıncın da qoyullar yanına. Yeddi qədəm qəbrdən aralanannan sora mələkələr gəlir, sorğu-sual başdıyır. Bular soruşur rəbbin kimdi, firudin, suliddin, ağan kimdi? Ağan kimdi deyəndə Malik Əjdər əsəbləşir ki, mən altmış ildi ağamın yolunda qılınc çalıram, sən indi mənnən soruşursan ağam kimdi. Qılıncı mələkələrin dalınca atanda

---

[3] Seyidin adını yadına sala bilmədi.

gedif sapına kimi batır torpağa. Yeddi qədəm qəbrdən uzaxlaşanda Əli əleyhsalam gülümsünür. Ətrafında olan adamlar ürəylərinnən keçirillər ki, Malik Əjdər kimi sərkərdə ölüf, qəbirdən hələ təzə aralaşmışıx Cənab Əli gülür. Biz ölsək, bizi heş vejinə almıyajax. Bunu Cənab Əli bilir, camahata əmr eliyir ki, qayıdın qəbri açın. Baxıllar ki, qılınc qəbrin ayağ tərəfindən torpağa qədər işdiyif.

### II mətn

Malik Əjdər burda döyüşdə həlak olur, onu Cijimli kəndində dəfn eliyif qayıdıllar. Gələndə görüllər ki, Həzrət Əli gülür. Deyillər ki, Əli, niyə gülürsən? Deyir ki, bəs şeytan gəldi Malik Əjdərin yanına, dedi sənin ağan kimdi. O da dedi ki, mənim ağam Əlidi. Şeytan dedi, ağan Əlidisə, bəs səni niyə burda qoydu getdi? O vaxdı da ölənnərin yanına qılınc qoyurdular axı. Qılıncı belə atıf şeytanın dalınca, qılınc qınına kimi girif yerə. İnanmıllar buna. Gedillər qəbri açmağa. Gəlif qəbri açıllar ki, həqiqətən də, qılınc qınına kimi girif torpağa.

Həmin Cijimli kəndinin adını Həzrət Əli qoyur. Həzrət Əli orda yaralanır. Bir arvad onun yarasını sarıyır. O vaxdı nənəyə ciji deyirmişdər də. Deyif ki, səni görüm mənim cijim olasan. O vaxdan da kəndin adı Cijimli qalıf.

Malik Əjdərin üsdündə iki dənə kümbəz vardı. Birində onun özünün qəbri vardı. Gejə həmin kümbəzdən səs gəlirdi. O birinə kar kümbəz deyirdilər. Gözümün qabağında olan hadisədi. Bir quş durmuşdu kümbəzin qabağında. Biri bir az sərxoş idi, quşa güllə atdı, tüfəng qalxdı düz sifətinə nətər dəydisə, gözünün altı partladı. Camahat ora ziyarata gedirdi, orda yatırdı.

### III mətn

Malik Əjdərin qəbri bir cüt künbəzdi. Onun birində Malik Əjdərin qəbri vardı. Uju şiş səkgizgüşəli kümbəzdi. Onun qıraxlarına pəncərə qoyuflar, gün çıxannan batana qədər başdaşının üsdünə gün düşürdü. Digər kümbəz boş idi. Ziyarətə gələn qonaxlar orda qalırdı. Malik Əjdərin qəbri olan kümbəzə girəndə səs çıxarır-

dın əks-səda verirdi. Amma bu birsi dördkünc şəkildə tikilmiş kümbəz idi, nə qədər qışqırırsan qışqır, əks-səda vermirdi. Ona görə ona Kar kümbəz deyirdilər.

Malik Əjdər yaralanır, bunu qoyullar qalır orda. Qalan vaxdı yaşdı qadın xəsdə saldat olduğu üçün buna su, çörək verirmiş. Bu da deyif cijim olasan. Vaxt oluf, qayıdıf gələndə görüflər can verir. Bu, camahata deyif ki, bu cijini yaddan çıxarmıyın, o mənə qullux eliyif.

Cijinin qəbri "Cijim ojağı" deyilən yerdədi. Nizam ağagilnən Həmid ağanın evinin arasındadı. Rəvayətə görə, dəstəynən ilannar gəlirdi. İlin on iki ayı orda ilannar vardı, indiyətən bir adamı çalmıyıfdı.

### IV mətn

Yezidnən imamlarımızın davası düşəndə imamlarımız gəlif qoşakümbəzdə lövbər salıllar. Muradxannı kəndindən meşəyə sarı gedəndə Qalalı dərəsi var. O Qalalı dərəsində Cənab Əlinin atının rəddi var. Orda bir kaha var, nə qədər tarixçi gəldi ora girə bilmədi. Deyilənə görə, o kahanın içində Zal adında bir dənə pəhlivan yaşıyırmış. Zal pəhlivan da çox güjdü olur. Zal pəhlivan durur qılıncın bağlıyır, gedir. Deyir, gedirəm, salam verəjəm. Burda yezidin qoşunudu, burda da imamatın qoşunudu. Hansı tərəf salamımı alsa, ona kömək eliyəjəm (Cijimlidə Molla Dəmir varıdı, o nağıl eliyirdi. O kümbəzin sahibi idi, orda dua yazırdı). İmam Hüseyinin qoşununun sərkərdələri bunun salamını alır. Salamını alanda Zal qılıncın çəkir Yezidin qoşununun öldürdüyünü öldürür, öldürmədiyi qaçır. Bunnan da qutarır. Malik Əjdərnən Malik İbrahim orda ölübdü, o kümbəzdər olarınkıdı. O kümbəznən Dağ Tumsdakı Başıkəsik kümbəzin usdası bir başdıyır ki, görək kim tez qutarajax. Olar qutarıllar, Dağ Tumasdakı kümbəz yarımçıx qalır. Onçün ona Başıkəsik kümbəz deyillər.

## 42. MİR HƏMZƏ NİGARİ

### I mətn

Mir Həmzə Nigari Cijimli kəndində doğulufdu. Onun doğulduğu yer qalırdı, tağbənd deyirdilər. Bu boyda (otağı göstərir – top.) yer idi. Onun böyründə də Nizam ağanın evi olufdu. Laçının

yüz iyirmi beş kəndi var, onun içində bir bizim kənd sünnü məzhəbinə qullux eliyir. Şeyx Şamilnən əlaqələri olufdu. Seyid Nigari də Azərbaycanda isdiyif heylə bir üsuli-idarəni yaratsın. Əvvəlcə asan, vuran olufdu. Sora anası onu anda verif ki, sən pismillahnan başlamısan əlhəmdullahnan çıxmısan, bu yoldan qayıt. Kürdəmirdə İsmayıl əfəndidən təhsil alıf, ustadı onu götürüf. Qazax rayonunda oluf, orda çoxlu müriddəri oluf. Onu orda narahat eliyiflər. Qubadlıda Hərtiz deyilən bir dağ var. Bunu aparıf orda gizdiyiflər. Çələbi camahatı, Polatdı camahatı ona xidmət eliyirmiş. Həmin yer ziyarətgahdı, orda bulax da var. Hüseyinalı bəy onu gejəynən aparıf Arazdan İrana keçirməyə. İrana keçirəndə Hüseyinalı bəyə deyif ki, get, Allah sənin ruzuna bərəkət versin. Cijimli haqqında deyif ki, ruzunuz çox olsun, amma sözünüz keşməsin. Çünki Cijimli camahatı onu yaxşı qorumuyuflar. Heylə də olufdu. Ətraf kəntdəri dolu vurardı, bizim sahələrə zərər dəyməzdi. Bizim camahat aclıx vaxdı korrux çəkmiyif, Allah-taala bol məhsul verifdi. Ajlıx vaxdı döölətin üç qat, beş qat artıx planını doldurannan sora camahata da taxıl qalıf.

Hüseyinalı kişi deyif ki, ağa, səni nətər keçirim? Deyif, gəlif aparallar. Deyir, bir də gördüm ağ atın üsdündə ağam addadı o tərəfə. Dedi, çox sağ ol, bala.

**II mətn**

Sora deyillər İran şahı bunu çağırıfdı. Deyiflər, Mir Həmzəsən, gəl sənin bir möcüzəni yoxluyax. Baxışlarına görə onu orda qəbul eləmiyiflər. Deyif ki, mən belə bir insanam, Allah mənə bu vergini verifdi. Şah deyif ki, əgər seyidsənsə, bir möcüzə göstər. Deyif, bu camahatı çıxart. Çıxardıf. Deyif, bax barmağımın arasınnan. Baxıf görür kü, bir qaban gəlir, başı atasının başıdı, bədən qaban bədənidi. Hücum eliyir buna sarı. Özünnən gedir. Ayılır deyir, mənnən nə isdiyirsən? Deyir, məni sağ-salamat keçir Türkiyəyə. Keçirir, gedir Türkiyəyə. Uzun müddət orda yaşıyır. Bunu uzaxlaşdırıllar Xarput şəhərinə. Xarputda bir müddət qalannan sora ölümü yaxınnaşır. Xayiş eliyir ki, məni Xarputda yox, Amasiyada oğlumun yanında dəfn eliyin.

Nəysə, burdan razılıx alırlar. Ordan da ora on-on iki günnük məsafədi. Mir Həmzə Nigari artıx can verir. Deyillər yayın isdisində səni nətər aparax ora? Deyir ki, ömür boyu o kişinin qarşısında baş yerə qoymuşam, o cəsəd qoy çürüsün ki, on-on iki gün isdiyə dözmüyəjəhdi. Dünyasın dəyişir, tabutda qoyullar arabaya. On-on iki gün arabaynan gəlillər. Burda deyillər ki, yəqin iylənif, bunu nətər açmax olar? Türklərin dediyinə görə, açıllar Mir Həmzənin cəsədini, görüllər alnında tər var. İy nədi, gül iyi gəlir.

Nigar bir bəyin arvadıdı. Mir Həmzə cüssəli, gözəl olufdu. Ana, bajı kimi ona sevgi bəsləyirdi. Nigar buna dayax durufdu. O da onun adını ləqəb götürüfdü. Nigar nənənin qəbri Ağdam rayonunun Qara Pirim qəbirsannığındadı.

### III mətn

Şıx əfəndi də Cijim ojağınnan çıxıf. Rəhmətdik o vaxdı ordan ajığ eliyif çıxıf. Talıbgilin evinin qavağınnan çıxıf quzeyin başına ki, kümbəzdərin yanıynan gedə Qubatdıya. Çıxıf orda qəlbidə oturuf. Qaşın başında bir daş vardı, orda oturuf Cijimli tərəfə baxıf. Öz-özünə deyif ki, qoyun baş, qurd ürəkli cijimli. Bir-birinizə arxa durmamısız. Ürəyiniz qurd ürəklidi, amma birriyiniz olmuyuf, ona görə bir belə kənd dağılıf gedif. Bizim kəndə yeddi yüz evli, yeddi dəyirmannı Cijimli deyərdilər.

Onnan sora kümbəzdəri aşanda görür ki, Avdulla yüzbaşı qoyunun yanındadı. Gedir onnan görüşür. Avdulla deyir, ağa, saa qurban olum, hara gedirsən, niyə belə piyadasan? Kişi də bekaf imiş. Deyif ki, Ərşada gedəjəm. Avdulla çobana deyir ki, get at gətir. Birin Şıx əfəndi minir, birin də çobana verir. Deyir, baba, haratan gedirsən get, arxayın düş, onnan sora atı ver gətsin. Şıx əfəndi Avdulla yüzbaşıya deyir ki, sizi halal çörək yeyin, sözünüz keçərli olsun, çörəyiniz asand olsun. Ordan da atı minir gedir Qubatdıya. Qubatdının başında saqqız ağajı vardı, pir ağacı. Uşağ isdiyən, əhd eliyən ora ziyarata gedirdi. Gedir orda yoxuşun başında düşür, deyir, apar atı ver. Sağ olun. Ordan da addıyır İrana, çıxıf gedif.

## 43. KAR KÜMBƏZ

### I mətn

Orda iki kümbəz var. Sağ kümbəz hazır oluf başa gələn vaxtı sol kümbəzi başdıyıllar tikməyə. Sağ kümbəzi tikən sol kümbəzi tikənə nəysə deməк isdiyir, o da eşitmir deyə cavab vermir. Deyir, bıy səni kar qalasan. Sağ kümbəzin içinə girib səs eliyəndə əks-səda verir, amma sol kümbəz əks-səda vermirdi. Sol kümbəzin başı həm də yarımçıx idi. Usta onu tikib hasilə gətirə bilmiyif. Vəfat eliyif, ona görə onun başı yarımçıx qalır. Kəntdən daş daşıyıf orda kümbəz tikiflər. Elə daşdar götürüflər ki, onu indi dörd adam qaldıra bilməz. Məktəbin arxasında quzey yuxarı yol vardı, daşdarı o çığırnan daşıyıflar. Çığır boyu adamlar yan-yana düzülmüşlər, daşı bir-birinə ötürə-ötürə kümbəz olan yerə gətirib çıxarıllar.

### II mətn

Cijimli kəndində iki kümbəz vardı. Birinin içinə girirdin pıçıltıynan danışırdın mikrafon kimi səs yayılırdı. O birin içində danışırdın, elə bil dərədə danışırdın. Rəvayətə görə, birin usta tikirmiş, birin də şagirdi tikirmiş. Usta çağırıb, şagird eşitmiyif. Orda qəzəblənib buna qarğış eliyif ki, özün də kar olasan, tikdiyin də.

## 44. SEYİD ALI XƏLİFƏ

### I mətn

Seyid Alı Xəlifə o vaxdı on dörd dənə balalı inək verif Kaha kəndinnən Mirzə addı bir adamdan o torpağı (Dambulağ kəndinin yerləşdiyi ərazini – top.) yaylax yeri alıf yayda heyvanın saxlamax üçün. Böyük ev damı idi, qara dam. Atın üsdə adam o damın içinə girirdi. Seyid Alı xəlifənin damı o dam idi. Orda bulax vardı, ojax idi. O bulağın ətrafı böyük bir düz idi. O bulağın üsdə iki bu isdol böyüklükdə daş vardı. İmamın çəliyin vurmuşdu, o daşdan su qaynıyırdı. Gur bir bulax idi, dümağ su çıxırdı. Üsdünə natəmiz adam gedəndə o bulax quruyurdu. Mənim yadıma gəlir, üş dəfə o bulax qu-

ruyuf. Bir dəfə payızdığa qoyun gəlif düşəndə iki çoban gətirif üsdündə içki işmişdər, onda qurumuşdu. Aparıf üsdündə qurban kəsmişdilər, o bulax yenidən qaynamışdı. Axırıncı dəfə də erməni Şuşanın yoluna baydax[4] vıran ili qurumuşdu. Avqust ayı idi. Kəndə hay düşdü ki, bulax quruyuf. Meşə idarəsinin müdiri Seyid Hajı bir də gördüm ki, UAZ-nan gəldi mənim qapıma. Dedi, gəlmişəm, gedəh ojax bulaxdan su içək, ziyarat eliyək. Həmi də qab gətirif ki, evinə su apara. Mən dinməmiş Osman qayıtdı ki, Hajı, bulax quruyuf. Bulağın da quruduğu bir həftə olar. Dedilər ki, bir qadın aparıf bulağın suyunda bulaşıxlı uşax əysisi yuyuf, ona görə bulax quruyuf. Belə deyəndə bu çox məyus oldu. Dedim, niyə məyus olursan? Hajı İbrahimin nəvəsi sənsən, Hajı Səmədin də nəvəsi mənəm. Bulağın üsdə qurban aparajeyih. Bulağı biz gedif ziyarat eləməliyik ki, bulax çıxa. Sürünün içində bir qızıl-kürən toğlu vardı, tutdux bunu qoydux baqaja. Gəldik mənim evimin qapısına. Mənim də qızdarım sajda yuxa bişirirdilər. Yuxadan qızdara yığdırdım, şişi götdük, odun götdük, gəldik bulağın üsdünə. Gəldik ki, bulax quruyuf, elə bil heç burda su olmuyuf. Uşaxlar toğlunu kəsdi, dəridən çıxartdılar, doğradılar kabablıx. Bizim kəntdə də üş yetim var, anaları, ataları ölüf, mamaları[5] bunnarı saxlıyır. Əti şişlərə çəkdilər, qoydular közün üsdünə. Şiş hala gələndə seyid bir adama bunun ətinnən bir tikə vermədi. Bu yetimləri çağırdı, əti yuxaya çəkib verdi bu yetimlərə. Yetimlər yedi, çıxdı qırağa. Özü də ağzına hələ bir tikə qoymuyuf. Allahım haqqı, Allaha qurban olum. Seyid Hajı oturufdu daşın üsdə, isdiyir əyilə. Bu yetimlər çörəyi yeyif qutaran kimi o bulağ elə püskürdü, torpağı bir on metr tulladı qırağa. Hələ su durulmamış seyid əyildi sudan işdi, qayıtdı dedi, Allah atana rəhmət eləsin, bu möcüzü də burda gördük.

Dambulax kəndi də həmən bulağın adınadı. Uşağı olmuyan, bir ağır işə düşən o bulağın üsdünə ziyarətə gedirdi. O bulağın üsdə ələm ağacı vardı, on iki kənd yığılırdı aşura günü orda qətl çıxardırdı, mal kəsirdi, ehsan paylıyırdı.

---

[4] baydax - bayraq
[5] mama – bibi

## II mətn

Pircan çayının alt tərəfi böyük gilas bağı idi. Yazda nökərlər, çobannar çayın qırağında Seyid Alı xəlifənin heyvannarın otarırmış. Alı xəlifə deyif ki, gedim heyvana baş çəkim. Gedif qoyuna, mala baxannan sora gəlir bir zağanın qabağında görür ki, iki dənə maral balası var. Maral balasını qoyuf gedif otdamağa. Seyid Alı xəlifə maral balalarının yanında otduğu yerdə görür ana maral qanı tökülə-tökülə gəlir balalarının yanına. Gəlif başını qoyur Seyid Alı xəlifənin qucağına başdıyır inıldamağa. Afçılar vırıf, qanı tökülür. Seyid Alı xəlifə bunun qanın əliynən təmizdiyir. Təmizdiyəndə afçılar əli tüfəyli çatırır. Gəlillər ki, Seyid Alı xəlifə başında əmmamə maralın qanın təmizdiyir. Afçılar da Zerti kəndinnən idi. Başın qaldırır ki, tüfəylər hazırdı. Deyif ki, balalı maralı niyə vurmusuz? Deyiflər ki, afçıyıx biz. Deyif, siz görmürsüz ki, bunun yelini doluf, bu balalıdı. Bunnar hüylüyüf ki, seyidin əlinnən maralı alalar. Deyif, sizi görüm nəsilbənəsil qırlo[6] olun, güllə ata bilməyin. Cəddim haqqı, o kəndin hamısı qırlodu, bu gün də qırlodu. Seyid Alı Xəlifə ağzının tüpürcəyini maralın yarasına çəkif bağlıyır, maral da sağalıf.

## III mətn

Babam Seyid Alı xəlifə gedif Əsabi-kəfi ziyarat eliyir, qayıdır. Payız, el gedən vaxdı imiş. Seyid Alı xəlifə görür qabağıynan atdı, qatırrı köç, qoyun sürüsü gedir. Bir müddət gələnnən sora görür bir uşax köçdən düşüf yolun qırağında ağlıyır. Bunu götürür, atın qujağında gətirir Dambulağa. Adın da qoyur Alı. Bunu öz evində saxlıyır. Bu beş yaşına, altı yaşına keçəndə heyvana kömək elədihcə buna qoyunnan, maldan pay ayırır. Bu böyüyür olur on iki, on üç yaşında oğlan. On iki yaşında olanda altı nəfər adam gəlir çıxır Dambulağa. Gəlif deyillər ki, Naxçıvanın Qapan kəndinnənik. O vaxdı biz uşax itirmişik. İndi sorağın almışıx ki, sən tapmısan, gəlmişik onun dalıncan. Deyir, bəli, tapmışam, gətirmişəm, indi yekəlif cahıl oğlandı, örüşdə heyvanın yanındadı. Gələndə deyir ki,

---

[6] qırlo – gözüqıpıq adamlara deyilir.

bax bu uşaxdı. İndi bunnar ağlaşır, tökülüllər bunun üsdünə, bunu öpüllər. Üş gün, dörd gün qalıllar, nəğanta eliyillər uşax deyir, mən sizi tanımıram. Atam bu kişidi. Üç gün qalıllar, neyniyillər deyir, ola bilməz, mən getmirəm. Ordaca halal-hümmət eliyif qayıdıf gedillər. O nəsil qaynıyıf qarışıf bizim kəndə. Uğurru da tayfadı. O nəsildən qabağına kim çıxsa, xeyir görürsən, yuxuda görəndə də xeyir görürsən. Nədən ki, mayası Seyid Alı xəlifənin mayasınnan tutuluf. Həmin tirə Kar Alı adlanır.

### IV mətn

Seyid Alı Xəlifə çəliyin daşa vuranda su çıxıf. Natəmiz, qəlbi pis adam gedəndə o su batır. Dört dənə yekə daşdı. Döşündə çəliyin yeri də məlumdu. Hər həftənin dördüncü günü onun üsdündə on iki çırax yandırırdıx imamların adına. Namaz qılırıx, adına oruc tuturux. Gömgöy göz yaşı kimi bulaq qaynıyır. Üst tərəfində isə qətl ağacı var. Hətta bir dəfə natəmiz adamlar getdilər əllərini sabınnan yudular, tökdülər bulağa, bulax batdı. Getdih çırax yandırdıx, qurban kəsdik, onnan sora yenidən qaynamağa başdadı.

### V mətn

Seyid Alı xəlifə duruf ki, gedə bir məclisə. Şallax harda qalıfsa, əlinə gəlmiyif. Üş gəlni varmış. Deyif:

– Ağız, durun mənim şallağımı verin, uzağ səfərə gedirəm.

Gəlinnər də şallağı tapmıyanda hirsdənif çıxıf çölə. Tiri minif, deyif ki, mən gedirəm. Tir də altında at oluf. Görüf ki, böyrünnən bir ilan sivildiyif keçir, əl atır ilanı götürür. İlanı şallax qayırıf əlində. Sorası qayıdıf gəlinnərinə qarğış eliyif. Deyif, sizi elə yanın, elə yanın bircə Şəvəndə qalsın yüyrühdə.

Minif atı çıxıf gedif. Atı minif gedəndə görüflər ki, bu əlində qamçı əvəzinə ilan tutuf. Gejə qalıf bir adamın evində. Yuxuda görüf ki, ev yanıfdı. Səhər duruf atını minir, deyir, belə qarğış eləmişdim, mənim ayləm top yanıfdı. Gedifdi ki, yüyrüh yırğalanır, bütün ayləsi yanıf, amma bir dənə yüyrüh qalıf, öz-özünə yırğalanır. Hər şey yanıf bir dənə yüyrüh qaldığına görə ora yanıx-yüyrüh deyillər.

Onun qəbri üsdündə ağacdan iki qara dirək basdırılıf, dirəkdən yüyrüh asılıf. Uşağı olmuyan ağdan bütöy köynək biçir, aparıf qoyur Seyid Alı Xəlifənin qəbrin üsdə. Havaxt onun diləyi qəbul olursa, özbaşına köynəyin yaxası açılır. Açılmırsa, uşağı olmur.

### VI mətn

Maral gəlif yatıf ojağında. Seyid Alı Xəlifə babanın bir qolayca da tökülüntü arvadı varmış. Gəlif ki, maral özü sağılıf, südü qazanda mayalanırmış, sora duruf gedirmiş. Axşam gözdüyür, maral gəlmir, sabah gözdüyür, gəlmir. Seyid Alı xəlifə deyir:

– Ay arvad, mənim maralım nejoldu?

Deyir:

– Əşi, vallah, nə bilim.

Deyir ki, buraya kim gəldi? Deyir:

– Buraya bir dənə gödəkçə kişi gəldi.

Deyir:

– Vay, evim yıxıldı, Qannı Əhmətdi, nahaq qan eləmişdi, odu gələn.

Maral o gedən getdi.

## 45. SEYİD MİRƏZİZ AĞA

### I mətn

Böyük seyidlər beş-altı qardaş oluf, sora dağılıflar. Hajı Mirəzizin atasının adı Mir İsadı, ana babamız da Dağıstannandı. Dağıstanın o tərəfinnən deyillər ki, bir həkim qardaşınnan ajıx eliyif gəlif Qarabağ mahalına. O həkim gəlif Xankəndində yaşıyırmış. Deyillər ki, o həkim Şəmil şahın qardaşı imiş, qardaşınnan ajıx eliyif gəlif Qarabağ mahalına. Özü həkim imiş, qızına da həkimlik örgətmişmiş. Həmi cərrahlıx eliyirmiş, həmi həkimlik eliyirmiş. Yaşadığı evin böyründə balinsiyası varmış. Seyid Hüseyin addı bir seyidin qılçı sınır, aparıflar İvrahımın yanına. Həkim İvrahım öz balinsiyasında saxlıyırmış. Bir gün də qızına deyir ki, yaralının qılçın sən aç sarı. Seyidin qılçın sarıyanda seyid buna deyir ki, qızım,

mənim qılçımı yaxşı sarı, bir bajım oğlu var, səni alajam ona. Qız ləzgi qızıdı da, ajığı tutar. Seyidin qılçınnan tutar fırıldadar ayna. Seyid çığırar, həkim İvrahım da yaxında imiş. Seyidin çığırtısını eşidər, durar gələr. Deyir, əşi, o qancığa nə dedin ki, səni belə elədi? Dedi, bel-belə dedim. Deyir, gərək demiyərdin. Təzdən həkim İvrahım seyidin qılçın açıb sarıyır. Qılçı sağalannan sora ağsakqalı, qarasakqalı yığar tökər həkim İvrahımın üsdünə ki, qızı gərəh verəsən mənim bajım oğluna. Bir layağlı bajısı oğlu varmış. Həkim İvrahımın qızın alır bajısı oğluna – Seyid İsmayıla. Alannan sora seyid o ləzgi qızınnan yaşamaxda olsun. Döölətdənir, varranır. Yay gedərmiş dağa, qışda gələrmiş arana. Qızın adı Nənəxanım idi. Altı qızı olar, oğlu olmaz. Hajısamlı mahalı seyidə deyər ki, yoldaşın həkimdi. Sənə bir torpax verək, orda yaylaxlan, bizim xəstəmiz olanda əlimiz çatsın, gətirək bu həkimin yanına.

Bir gün də Qarabağ torpağında Seyid İsmayıl yaşıyanda Nənəxanım deyər ki, Seyid İsmayıl, bu illəri köçəcəksən dədə kəndinə. Tayfana xəbər göndər, dədə-babanın evini irahlasınnar, köçək. Seyid xəbər göndərir seyitdərə ki, bizim məhləni irahladın, bu il gəlirik yanınıza. Köçüf gedillər Böyük seyidlərə. Seyidlər də yığılar məhləni irahatdıyallar, gəvə sərəllər. Seyid köçər öz dədə-babasının məhləsinə.

Bir gün Nənəxanım seyidə deyər ki, əmin uşağlarını kom[7] çağır. O vaxdı şah məclisi də olsa, düyü dəmlədərmişdər. Bir qazan aş dəmliyər, seyidləri çağırar yığar evinə. Ağsakqallar oturmuşmuş. Nənəxanım girər içəri. Deyər, seyitdər, bilirsiz sizi buraya niyə çağırmışam? Deyillər ki, Nənəxanım, de, bilək. Deyir ki, Seyid İsmayıl aran-dağ köçür. Bunun da bir kafal qızı var, qızdar da irilifdi. Biri gedər bir yerdə birinin qolunnan yapışar, birini alar apa-rar, deyərsiniz ki, əmimiz oğlunu ləzgi qızı apardı, qızdarını dağıtdı düzdərə. Bir-bir baxar, seyitdəri də tanıyırdı. Əlini uzadır deyir ki, filan seyid, böyük qızımı verdim sənin filan oğluna. O biri seyidə əlini uzadar. Bir-bir, bir-bir altı qızın beşin paylıyanda yerdə qalar

[7] kom – hamısı

kiçik qız. Kiçik qızın adı Gülyetərmiş. Deyir ki, Seyid Mirisa, kiçik qızım Gülyetəri də verdim sənin oğlun Mirəzizə. Hamısı əlin qoyar döşünə, deyəllər gözümüz üsdə.

Mənim babama verdiyi qızın adı Gülyetərdi. Yavaş-yavaş seyidin baxdı gətirər, qisməti gətirər döölətdənər, varranar. Hajı Mirəziz on iki dəfə gedər haja. Qarabağ mahalında oluf Ağabəy. Mənim babamın qəyyumu oluf Ağabəy. Hajı Mirəzizin də döölətin, yurdun, yatağın tikdirən Ağabəy oluf.

Hajı Mirəzizin qoyunu oluf iyirmi min, 400 qulunnu maydan saxlıyırmış. Bir dəfə Hajı Mirəzizin köçü dağa gedəndə Gəncə mahalınnanmı, Tiflisdənmi bilmirəm, Nikolayın qoburnatı faytonnan getdiyi yerdə köçə rast gəlir. Soruşur bu döölət kimindi, deyillər Hajı Mirəzizin. Qoyun kimindi, Hajı Mirəzizin, at kimindi, Hajı Mirəzizin. Faytonu saxladıf. Hajı Mirəziz atın üsdündə gəlif düşüf. Qoburnat deyif, bu döölləti saxlıyırsan saxlıyırsan, bu atı neynirsən? Deyif ki, olar paccahlığa lazım olar. Qoburnat baxar ki, bunun özü kətçi olduğuna baxma, çox düşüncəli danışır. Onda Hajı Mirəzizi yerli-yataxlı danışdırar, yazar, şiklin çəkdirər. Aparar Nikolay padşahının ala qapısına vurdurar.

**II mətn**

Hajı Mirəzizin qızı varmış Nənəxanım addı. Kim isdiyirmiş ona getmirmiş. Lağ eliyirmişdər ki, bunu Paşa bəyə verəjeyih, heş kəsə getmir. Paşa bəy Hajı Mirəzizi bir yol görmüşmüş. Gəncə mahalınnanmı bilmirəm, Tiflisdənmi bilmirəm, Nikolayın torpax vergisin yığan ikicə yol gəlif yığarmış. Genə torpax vergisini yığmağa gəlifdi. Hajı Musdafa addı bir ləyaqətdi seyid varmış. Bizim zonaya gələndə çox vaxdı Hajı Musdafanın evinə düşərmiş. Xərc yığan gəlif Hajı Musdafanın evində oturar, indi zonanın xərcin yığajax. Pul olmaz xərci ödüyələr. Hajı Musdafa deyər, ə, Hajı Mirəzizi gətirin, onda pul var. Yaranal neçə gün Hajı Musdafanın evində oturar. Hajı Musdafa adamları çağırır. Bir gün gözdüyələr, iki gün gözdüyələr, üçüncü gün Hajı Mirəziz gəlif çıxar. Hajı Mirəziz gəlincə seyidlərdən hansısa deyər, əşi, Hajı Mirəzizə bir qəyyum lazımdı.

Paşa bəy də gələn yaranalın yanında imiş da. Paşa bəy seyid haqqında deyilən bu sözü də eşitmişdi. Hajı Mirəziz gəlir. Hajı Musdafa deyir ki, hajı, niyə belə gej gəldin? Neçə gündü yol gözdüyürük, bu adamlar burda zanit qaldı. Niyə belə gej gəldin? Deyir, xəbər maa gej çatıf. Deyir ki, hajı, qonax gəlif oturuf, pul da yoxdu camahatın xərcin verək. Səni gözdüyürük ki, qonağı yola salasan. Deyir ki, Hajı Musdafa, nə qədər lazımdı? Deyir, Hajı Mirəziz, çox lazımdı. Pul kisədə idi. Muxay rəngli çuxa geymişdi. Hajı Seyid Mirəziz çuxanın cibin açar, bir-bir kisədən verər. Beşin verəndə deyər ki, Hajı Musdafa, bəsdi? Deyir, yox, Hajı, hələ yox. Altısın verəndə deyir, Hajı Musdafa bəsdi? Deyir, yox, ağa, qonax da var. İkisin də verir. Soradan örgənmişəm ki, hər kisə iyirmi körpəli inəyin qiyməti imiş. Səkkiz kisəni verəndə gələn deyir ki, belə adama qəyyum lazım deyil. Hajı Mirəziz öz yoluynan gedir. Allah rəhmət eləsin gələninə də, yola salanına da.

Sora rəhmətdik Paşa bəyin külfəti ölər. Elçilərini göndərər, Hajı Mirəzizin Nənəxanım addı qızını verəllər Paşa bəyə. Qabaxkı ayləsinnən üç oğlu varmış: Xosrov bəy, Sultan bəy, İsgəndər bəy. Hajı Mirəzizin qızınnan da dörd oğlu olar, bir qızı. Qızın adı Məhbub olur. Oğlannarının adı İsrəfil, Bahadur, Zülü, Rüstəm. İsrəfil Sultan bəynən o taya keçif, Bahadur burda ölüf.

## 46. SEYİD MƏŞƏDİ İMRAN

### I mətn

Bizim kəntdə Seyid Məşədi İmran olufdu. Məşədə gedif, özü də bu adam Məşətdə təhsil alıfdı. Onun haqqında rəhmətdih atam söhbət eliyirdi. Biz tərəfdə bunun bir evi varmış, ruslar gəlif onun olduğu damı mühasirəyə alıflar ki, bunu tutuf aparalar da. Atam deyir, rusdar gözdədilər ki, bu çıxıf təslim olar da. Mən, deyir, gözümnən gördüyümün şahidiyəm. Seyid içəridən çıxdı, deyir, ağ əmmamə başında, ağ çuxa da əynində. Yavaş-yavaş o qoşunun arasıynan yeridi, bir təpə vardı, o təpəni aşdı, çıxdı getdi. Rusdar gözdədilər, gözdədilər, axırda girdilər içəri ki, seyid nə gəzir. Dedim, ata, nətər oldu

sən onu görə bildin? Atam deyir ki, mənim süd tərəfimdə seyitdik var, qəlbi düz olan adam onu görə bilər. Ona qarşı ürəyində kin olan, ona pis münasibət bəsləyən varsa, onu görə bilməzdi.

**II mətn**

Gedif Məşətdə, iki il altı ay təhsil alıf. Amma bir sahə üzrə yox. Seyid Məşədi İmran həm riyaziyyatı yaxşı bilirmiş, həm tarixdən anlayışlı imiş, həm Quranı oxuyurmuş, Allahın elmin bilirmiş, astranomiyanı bilirmiş. Bir qrupda on iki nəfər oluflar. Təhsilini qutarıf gələn günü abid bu on iki nəfərin hərəsinə bir dənə siqaret göndərir ki, bunu çəksinnər. Hamı yandırır siqareti tüstü eliyir, amma Seyid Məşədi İmran əmmaməsin çıxardır, axırıncı dolağına siqareti taxır, qaytarıf qoyur başına. Siqareti gətirən uşax gedif abidə deyir ki, hamı siqareti çəkdi, amma bir nəfər çəkmədi. Abid gəlif deyir ki, acı idisə də, mən göndərmişdim, gərək qəbul eliyərdin. Deyir, mən onu çox yaxşı qəbul elədim. Hamı tüstü elədi havaya buraxdı. Bədənin tacı başdı, başın da tacı papaxdı. Mən onu əmmamənin yuxarısına – axırınca qatına qoyuf sənnən bir yadigar kimi saxladım, tüstü eliyif havaya buraxmadım. Onda deyir ki, siqareti yandır çək, mənim sənə başqa bir hədiyəm var. Orda Məşədi İmrana bir qızılı Quran verir, bir dənə də qol saatı. Bizim zonada hamı and içəndə Seyid Məşədi İmranın qızılı Quranına and içirdi. Deyirdilər ki, cuma axşamları onun qəbrinin üsdündə öz-özünnən maşal yanır.

## 47. MİRSƏDİ AĞA

**I mətn**

Bir nəfər istiyir ki, Mirsədi ağanın ojağına ziyarətə getsin, nəziri varıymış da, aparıf versin. Yolnan bir qədər gəldihdən sora nə fikirləşirsə, deyir ki, yox e, bu apardığım nəzir çoxdu. Qoy bir əzini kolda gizdiyim, qayıdanda apararam evə. Gəlir ocağa, görüşür, eliyir. Arzusunu, diləyini deyir. Ağam da buna lazımi yardımlar eliyir. Sora yola düşüf gedəndə kişiyə deyir ki, gedəndə o kolda qoyduğunu da götür apar. Kişi bu işə çox məhəttəl qalır. Deməli,

bala, Mirsədi ağa görən, hiss eliyən bir ağaydı. Onun ojağının kəramətinə inanmayan yoxdu.

### II mətn

Bir gün Çərəli kəndinnən bir nəfər bərkə düşür. Ən qiymətdi qoyunun balasını o ojağa nəzir eliyir. Qoyun da gəlir bir dişi quzu doğur, dörd əl-ayağı ağ, başı da ağ. Bu qızırqalanır da. Deyir ki, mən qoyunun qarnın nəzir demişəm, qoyun da belə doğuf. Buna hayıf olajax, aparsam ağa kəsəjəh onu. Qonşunun bir quzusunu oğurruyur alır atın qujağına. Mirsədi ağanın qəlbinə damır da. Çağırır mənim kimi birisini, deyir, atı min, boz atın qujağında bir oğlan bir quzu gətirir. Denən o quzunu bura gətirmə. Əl-ayağın da bağlama, atginən qaratikan kolunun dibinə, gəl. Desə ki, canavar yeyəjək. Denən canavar, çakqal ona ağız atammaz. Atsa, dodağı quruyar.

Gəlir deyir, hara gedirsən? Deyir, Mirsədi ağaya nəzir aparıram. Deyir, Mirsədi ağa maa dedi ki, belə bir adam gəlir, denən o quzunu gətirmə bura. Axı o haramdı. Quzunu atır ora. Gələndə Mirsədi ağa deyir ki, ə ləvənd oğlu ləvənd, maa nəzir demişdin. Qoyunun da gəldi belə bir quzu doğdu. Tamah eliyirdin öz quzunnan gətirərdin, filankəsin quzusunu niyə oğurruyuf gətmisən. Səni bağışdadım, bir də belə səhvə yol vermə.

### III mətn

Mirsədi babagilin həyətdərində sakqız ağacı vardı. Ortasında bu boyda kösəb vardı. Yanmışdı da sakqızın ortası. Deyillər, bunnarın həyətinə maral gəlir, maralı sağırmışdar. Bir gün maralın biri getmir. Nənə də südü bişirir. Ocağın altınnan közü götürür belə vurur ki, getsin. Kişi evdən çıxır deyir ki, onu vurma, o qalıf ki, kəsilsin. Ocağın altınnan çıxardığı həmən o sakqızın budağını yerə sancır, o orda bitir. Başı yandığınnan ortası heylə kösəv kimi qalmışdı.

Bir dəfə deyiflər ki, o ağacı doğramax lazımdı. Deyiflər ki, kim doğruya bilər? Evdəkilərdən biri deyir ki, bu ağacı doğramağa heç kimə icazə verilmiyif. Mirsədi ağanın qardaşı oğlu varmış

Mirfazil, o doğruya bilər. Çünki ona o vaxdı icazə verilif. Deyiflər, əşi, yox ey, nə fərqi var, çıxax doğruyax. Bir adam deyif ki, mən çıxıf doğruyaram. Əlinə alıb baltanı ki, çıxsın ağacı doğrasın. Deyir, ağacdan okqədər ilan qalxıb, qorxudan yaxın dura bilmiyif. Təzdənnən gedif Mirsədi ağanın qardaşı oğlunu çağrıflar, icazə isdiyiflər. O gəlif özü qol-budağını doğruyuf.

## 48. MƏŞƏDİ BAĞDAD

Bala, mən bu əhvalatı lap uşax olanda atamnan eşitmişəm. Bəlkə də, bu hadisə yüz əlli ilin söhbətidi. Kəndimizin addı-sannı, varrı-karrı, seçmə adamları çox oluf. Bu Məşədi Bağdad da halal, çörəhli, mallı-qaralı bir adam oluf. O vaxtı da çox kasıfçılıx, ajdıxmış. Qojalar deyirdilər ki, həmən bu Məşədi Bağdad öz camahatını ajdıxdan qutarıf. Bala, hadisəni belə söylüyürdülər.

Hə, çox quraxlıx olurmuş həmən vaxtı. Quraxlıxdan əkin əkif, becərə bilmirmişlər. Ajdıxdan çox əzyət çəkirmişlər. Qaracallıda çox quraxlığ oluf. Bizim kənddən çox-çox hündürdə Yazı düzü deyilən bir yer var. Orda taxıl, ümumiyyətnən, dənni bitkiləri əkərmişlər. Həmən obanın adamları da arannı-yaylaxlı oluf. Yaylax vaxtı gəlir, gedirlər dağlara. Bir günnəri də genə ayləli, mallı-qaralı gedirlər yaylağa. Axı yaylağa gedəndə də hər evdən bir nəfər gedif yaylağa baş çəkərmiş ki, görsün necədi.

Məşədi Bağdad da bir günnəri gedir ki, ayləsini görsün. Ata bir yük darı yühlüyür. Yühlüyür ki, aparsın şülula, yəni mermeyviyə dəyişsin, uşaxları yaylaxda yesinnər.

Həə, çıxır Yazı düzünə ki, ordan getsin yaylağa. Ordan gedəndə görür ki, dumannı, çənni bir yağış başdıyıf. Məşədi Bağdad buna o qədər sevinir ki. Həmən bu Yazı düzü də bir nəfərin əkin sahəsi deyildi, elin əkin sahəsiydi. O həm də bilən adamıydı da. Görür ki, bura yaxşı yerdi. O, darını ayləsinə aparmıyıf. Deyif ki, bu darıdan ancax mənim aylәm yeyəjeh. Ancax bu darını Yazı düzünə səpsəm, bitsə, elim-obam da yeyə, az da olsa, ajdıxdan qutarar, həm də savab olar. Gətdiyi darını Yazı düzünə səpif gedir

yaylağa. Deyirlər ki, Məşədi Bağdad ümidsiz halda darını səpif, deyif ki, bitər-bitər, bitməz-bitməz. O qədər quraxlıx olurmuş ki, əhdihləri bitmirmiş da. Ona görə də çox ümidi yoxuymuş. Ayləsinə baş çəkif arana gəlir. Öz işiynən məşğul olur.

Bir günnəri Məşədi Bağdada xəbər gəlir ki, ona deyin darı yatıf dəlimə. Dəlim də, bala, lay yatmax deməhdi. Darı da üç aya əmələ gələn şeydi. Məşədi Bağdad bütün ellihnən – elin-obanın adamlarıynan darını biçdirir. Taxılı bütün el camahatına paylıyır. Deyirmişdər ki, həmən ili Məşədi Bağdadın o bir kisə darısı eli-obasını ajdıxdan qutarıf.

Bala, o vaxtı el-oba bir iş görəndə Məşədi Bağdadın bir kisə darısını misal çəkərlərmiş. Məşədi Bağdad elin dərdini öz dərdinnən üstün tutan adam oluf. Elə ona görə də sayılan, seçilən adam oluf. Darı məsələ çevrilif, dillər əzbəri olmuşmuş.

## 49. SEYİD SƏLİM OCAĞI

Zinyət adında bir qadın Seyid Səlim kişiyə ərə getmişdi. Zinyət deyirdi ki, Səlimə ərə getdim, o seyid, mən də avam, seyid dəyiliydim. Deyir, mən bu Səlimlə bir neçə ilə yaxın yaşadım. Bir gün deyir, durdum gejə oturdum, nə isə qapını aşdım, çölə baxdım. Həyətdə tut ağacı varıydı, gördüm onun dibində çırax yanır. Gəldim dedim ki, Səlim, getmisən tavlıya baxmısan, gələndə yadınnan çıxıf çırax yanılı qalıf. Səlim dedi ki, çırax dəyil aaz, uzan yat. Uzandım yatdım, əhəmiyyət vermədim.

Sora deyir bir gün durdum getdim, çörəh salıram, xəmir yoğurdum, getdim həmin tutun dibində saj asdım çörəy bişirirdim. Bir də gördüm ki, tutun arxa tərəfinnən iki dənə yoğun ilan gəldi. İlannarı görəndə durdum qaşdım. Qaçanda Səlim də səbət hörürdü. Dedi ki, aaz, niyə qaşdın, niyə qaşdın? Dedim ki, bəs əənnən bəri gürzə ilannar çıxdı. Səlim dedi ki, ilannarnan işin olmasın. Deyir, gəldi o ilannar Səlimin dörd tərəfində fırrandı, sora getdi o sajın yanında özlərini bıladılar külə, çıxıf getdilər (Qızım, bınnarın hamısını Zinyət danışırdı).

Bir üç-dörd ay keşdi. Daha yaz girif. Səhər-səhər durdum ki, inəhləri sağım, qoşum nobata getsin. Deyir, inəyi sağmağa gedəndə, baxdım gördüm ki... Həm də dünən çörəh salmışam, sajın külünü də belə komalamışam, üstünü də örtmüşəm. Gördüm ki, düz o sajın yerində bir bızov yatıf. Dedim ki, bına bax ey, yəqin Baxşıgilin bızovıdu, təzif[8] bıra. Baxşı da qonşularıydı. Deyir, getdim ki, bını tutum, durdu qaşdı əənə. Ərimi – Səlimi çağırdım ki, Baxşıgilin bızovı təzif, gəl onu tut, sən allah, çıxıf gedər, yazıxdı. Dağdan-zaddan düşər, ölər. Səlim gələndə bızov gəldi Səlimin yanına. Səlim bının boynun qucaxladı, öpdü, bızov da başdıyır Səlimin üz-gözünü yalamağa. Yaladı, yaladı, deyir, onnan sora Səlim əlini çəhdi onun belinə, dedi ki, get, ay allahın heyvanı, nə arzun var, yerinə yetsin. Bızov qayıtdı ağzı əənə çıxdı getdi. O vaxtı da kəndin yanı Sumax meşəsiydi. Xalam deyirdi ki, o vaxtı damların dirəyi hamısı Sumaxdanıydı. Sora meşəni qırıf məhf eliyiflər. Yanı bızov Sumax meşəsinə getdi. Səlim gələndə dedim ki, Səlim, o günü ilanı maa demədin. Səlim dedi ki, qız, ilan o günü ziyarata gəlmişdi, çıxdı getdi. Bı da bızov yox, əlih balasıdı, bıra ziyarata gəlir. Deməli, qızım, nəinki insannar, habelə heyvannar da bıranı müqəddəs bilirdilər. Hamı ora ziyarata gedirdi. Ta ki, Qubatdı köçənə kimi. Qızım, Zinyət deyirdi ki, qorxumnan mən Səlimnən ayrıldım, çıxdım gəldim. Dedim ki, mən bılların hürmətini gətirə bilmərəm. Səlim də gedif bir seyid qızı aldı.

## 50. SEYİD SƏFİ OCAĞI

Qızım, bu ojağın kəraməti o qədər böyüh idi ki, hamımız ora ziyarata gedirdih. Nəinki, biz, habelə heyvannar da gəlirdi. Çox ağır, kərамətdi ojax idi. Deyirdilər, bu ojağa əlih gəlirmiş. Biz ora ziyarata gedif çox şey diliyirdıx. Kimisinin övladı olmurdu, kimisinin işi düzəlmirdi, hamısı ora gedif niyyət eliyirdilər.

Bala, şəxsən mənim oğul övladım olmurdu. Getdim diləh dilədim ki, ay Allah, mənim oğlum olsun, onun balasını seyidin qucağına qoyajam. Nə niyyət elədim bala, hamısı oluf. İki oğlum oldu.

---

[8] təzmək – qaçmaq

Bir də mən eşidəni Seyid Səfi İrana getmişmiş. Sora ordan qayıdıf, yanı bura keşməliymiş. Yollar da o vədə bağlıydı axı. Seyid Səfi bəri addıyanda çuxasını çıxarıf, paltarını-zadını, hər şeyi yığıf çuxasının içərisinə, asıf boynunnan. Sora deyif, mən nətər eliyim? Qalıf Arazın qırağında. Fikirrəşir ki, mən nə təhər eliyim addıyım. Seyid Səfi görür ki, bir dənə balıx çaydan çıxdı. Yediyimiz balıxlardan dəyilmiş, o böyühlərdənmiş da. Çıxdı gəldi. Quyruğunu çaldı, durdu çayın qırağında. Seyid Səfi öz-özünə deyif ki, nəhlət saa şeytan, bı niyə gəldi durdu bırda? Balıx sudan üç dəfə çıxıf, sora da özünü suya vırıf. Seyid Əli deyif ki, yox, bu elə-belə şey dəyil. Yəqin bını Allah yolluyuf. Genə balıx gəlif duruf orda. Duranda Seyid Səfi deyif ki, Allah, Məhəmməd, ya Əli. Ayınoyununu da götürüf, oturuf belinə. Düz balıx onu addadıf biz tərəfə. Seyid Səfini yerə qoyuf, quyruğun çalıf, bir də özünü vuruf Araza çıxıf gedif. A bala, gör bunnar nə qədər ağır seyitdilər ki, balıx da bını hiss eliyif onu çətinnikdən qutarıf. Sora Seyid Səfi də deyif ki, yeddi arxam toba desin, balıxdan yeməsin. Hətta deyillər ki, onnardan kim balıx yeyirdisə, həmən vaxtı da qaytarırdılar.

## 51. İMAMZADƏ

Onun bünövrəsin sizə nağıl eliyim. Onu maa rəhmətlik Vəzifə söhbət eliyif. Özü Göyərcikdən idi. O deyirdi ki, orda qəbir-zad yoxumuş, bir çala yer imiş. Öküz otarannar gedif çıxıf ora. Öküz otaran oturmuşmuş çalanın kənarında. Görüf ki, çalada çiyələk yetişif qıpqırmızı. Girir ki, o çiyələkdən qırsın, gözü tutulur, kor olur. Çıxır qırağa, gözü açılır. Görür gənə çiyələk qıpqırmızıdı. Girir ki, çiləyəkdən qırsın, gənə gözü tutulur. Gəlir əvə, gecə yatır. Yuxuda görür ki, ağ geyimli bir qadın gəldi bunun yuxusuna. Buna deyif ki, biz burda iki bacı bir qardaşıx. Bizi gəl şəmir elə. Camahata de orda ocax tiksinnər, ziyarat eləsinnər da. Bu da səhər durur, lapatkanı götürür gedir oranı qazır. Gedir qazır, görür ki, bir qadın qəbri çıxdı. Bir qadındı barmağında üzük. Bu üzüyü çıxardır salır öz barmağına. Qəbrin üsdünü örtür, gəlir. Yatır, gənə arvad gəlir. Buna deyir ki,

sana dedim gəl bizi şəmir elə, yoxsa gəl bizi rüsvay elə? Sən öləsən, səni elə bir günə salacam ki, hər əzan bir dəfə qəbrə getsin. Vəzifə deyirdi ki, onu gözümnən gördüm. Deyir, bu durur qorxa-qorxa gedir qəbri eşir, üzüyü salır qadının barmağına. Camahata deyir ki, burda qəbr var, gəlin buranı tikax. Vəzifə and içir ki, onun bir dəfə barmaxları düşdü, əli biləkdən düşdü, qolu dirsəkdən düşdü, bədənin hər əzası düşdü, axırda bir quru bədən qaldı, o da qəbrə getdi.

Aparıb üsdündə heyvan kəsirdik, orda yeyirdik. Yolnan gedənə, gələnə verirdik, axşam tərəfi gəlirdik evə. Üç dənə qəbr vardı. Ora arağ içən gedəydi, ya hamamlanmamış adam gedəydi, ilan sallanır qapının başınnan onu qoymurdu içəri girməyə. Seyid Həşim ağa Ağbulax kəndinnən idi, sonsuz bir kişi idi. İmamzadaya qaroul dururdu. Orda da öldü, o üç qəbrin ayax tərəfində də onu basdırıflar.

## 52. DƏRVİŞ PİRİM

Hajı Qaramandı, Ağabəlimdi, Avçı Pirimdi – bunnar hamısı Türkiyədən gəlmədir. Çəliyi atıflar, biri gedif Çələbilər kəndinin tikildiyi yerə düşüf, çələbilər ora yığılıf. Avçı Pirim heyvanatın dilin bilirmiş. O da çox ora-bura gedif. Bağırsoltannının üsdündəki Dərviş Pirim Avçı Pirimin qəbridi. Ağabəlim də gedib Cicimliyə çıxır. Orda Zalxa addı bir arvad alır. Zalxanın iki oğlu var idi. Biri Cəmaləddin idi, biri Kəmaləddin idi. O ojağa olar yiyə durdular. Qudurmuş heyvan adamı dalıyanda, dəli olanı ora aparırmışdar. Barmaxlarını çərtib qanını sürtürdü çörəyə, qoyurdu xəsdənin ağzına, onnan sağalırdılar.

Avçı Pirim də orda ölür. Qəbrini gətirillər Bağırsoltannı kəndinə, Cəbrayılın Dağ Tumas kəndinə çıxan yolun qırağında basdırıllar. Dərviş libasında gəldiyindən Dərviş Pirim deyillər.

Belə bir rəvayət söylüyüllər ki, Avçı Pirim yolnan gedirmiş. Dağ Tumasın altında söyüd ağaşdarı var. Ora gedəndə görür ki, bir dəsdə qoyun otduyur. Çoban qoyunnarı gətirif yatızdırıb orda. Qoyunun biri qoça gəlir. Qoyun tullanır arxdan o tərəfə. Arxa da dəyirmanı işdədən qədər su gəlir. Qoş da ağır olur, quyruxlu, tullana bilmir. Qoyuna deyir ki, adda bura. Deyir, yox, gəlmirəm. O

deyir, bu deyir. Deyir ki, gəlmirsən, gəlmirsən. Sənin kimi ağbilək qoyunnar çoxdu. Gedif ayrısınnan hərrənərəm. Avçı Pirim bunu eşidib bərk gülür. Onnan bilirlər ki, bu, heyvanatın dilin bilir.

Kimin heyvanı xəsdə idisə, aparıf ora hərriyirdi. Camahat aparıf ora nəzir qoyurdu. Yanında da qaratikan kolu bitmişdi, qaratikan kolunun başına cında bağlıyırdılar.

## 53. ƏLİ BULAĞI

### I mətn

İmam Əlinin qoşunu olufdu, bunnar susuzduxdan çox korrux çəkillər. Xəbər verillər ki, ya imam, axı biz susuzduxdan batdıx. Hardan su tapax? Stolun yarısı qədər daş varıdı. Daşı götürür atır, gəlir düşür qəlbi təpəyə. Daş ora düşməynən ordan bir dənə bulax əmələ gəlir. Qoşun başdıyır ordan su işməyə. Özü də elə yerdən o su çıxıf ki, inanmazsan helə yerdən su çıxa. Sora Mayisdənmi, Sonəsərdənmi birinin oğlu gedir qırx birin müharibəsinə. Bu əhd eliyir ki, Xudaya, mənim oğlum müharibədən gəlsin, mən gedim Əli bulağının qabağında nov düzəldim, yan-yörəsin hasara alım, gəlif-gedənnər o bulaxdan su işsin. Həmin adamın oğlu sağ-salamat qayıdır gəlir. O kişi özü də usdaydı. Gəlir yan-yörəsin hörür, qabağında da nov düzəldir.

### II mətn

Həzrət Əlinin ordusu Qaragözdə susuzduyuf. Əli daşı götürüf (həmin daşda da əlinin izi qalmışdı), deyif, bu daş hara düşsə, ordan bulax çıxajax. Həmin daş düz gəlif dağın başına düşüf, ordan bulax qaynıyıf.

## 54. AĞOĞLAN MƏBƏDİ

O binanı tikən Ağoğlan addı oğlan oluf. Tağbəndləri vurmax üçün dəzgahları quruf. Tağbəndlər vurulannan sora dəzgah sökülməlidi da. Deyir ki, gedin qapının başında bircə dənə çiv var, onu çəkin, nə qədər dəzgah var, hamısı özbaşına töküləjək.

Bina tikilif qutarannan sora qonaxlıx verillər. Qurban kəsiflər, qazan asıflar. Bir ilan gəlif düşüf qazanın içinə. Bunu bir qarğa görüf. Havada nə qədər fırranıf görüf ona fikir verən yoxdu, ilanın dalınca özünü salıf qazana. Yeməyi töküflər ki, qarğa ilannan ötrü özünü salıf qazana. Həmin qarğanın qəbri də orda dururdu.

Uşax vaxdı mənim ağzım əyilmişdi. Allah ölənnərinizə rəhmət eləsin, anam boğazıma kəndir bağladı, apardı məni bağladı ojağın qapısına. And olsun, ağzım gəldi yerində oturdu. Çox ağır ojax idi. Ziyarata gedənnər binanın başına hərrənirdi. İçəridə nəzir qoyulan yer vardı, ora nəzirlərin qoyurdular. İçəri girən arxası qatda çıxırdı.

## 55. KALBA MƏHƏMMƏD

Onnarın evi ojax idi. Ojaxlarına hər vaxt ilan gəlirdi. Bir dəfə də bir əliy bı ojağa gəlir. Həmin əliyin balaları ölürmüş. Əliy bu ojağa gəlib üzü qibləyə uzanır. Kalba Məhəmməd əmi deyib ki, Allahın heyvanı, dur get. Əliyin döşü də süddü imiş. Demə, hər il balaları ölürmüş. O əliy özü bu ojağa gələndə (Kalba Məhəmmədin arvadının adı da Ayna imiş. Mənin qaynənəm bınnarı nağıl eliyib.) arvadına deyif ki, gəl əliyin bir döşünü sağ. Əliy üç gün gəlif ojağa, bir tərəfini sağıllar, gedif. Axırıncı günü Kalba Məhəmməd əliyə deyif ki, get, südün öz balalarına qismət olsun.

Kalba Məhəmməd şıxlardan idi. Kalba Məhəmmədin nitqinə gəlir ki, balaları öldüyünə görə əliy bu ojağa nəzir deyif, niyyət eliyif. Üç gün ojağa gəlib bir döşünü sağdırıf. Balalarına heç nə olmuyuf. Bu ojağın kəramətidi da.

## 56. NİYYƏT DAŞI

Şəlvəyə yenəndə boz daş vardı. O daşın maraqlı bir xüsusiyyəti vardı. Hər gedən niyyət tuturdu ki, gedirəm, filan işim düzəlsin, sağ-salamat qayıdım gəlim. O daşın üsdünə balaca bir daş qoyurdu.

## 57. QOŞA PALID

Biz tərəfdə qoşa palıd ağajı varıydı. Ağajdarın dibində iki başdaşı varıydı. Deyirdilər, bu daşdar qurban olduxlarımızın qeybinnən yarandığı daşlardı. Camahat ora ziyarətə gedirdi. Ağzı əyilən, başı ağrıyan, nə bilim azarrıyan gedib orda yatırdı ki, şafa tapsın. Bala, nənəm deyirdi ki, bir dəfə bir erməni bilmiyif gəlif orda yatıf. Nə bilsin. Erməni səhər neyliyif qalxa bilmiyif. Quruyub, ermənidi axı. Pir ermənini götürmüyüf, qurban olduğum.

## 58. DƏLİK DAŞ

Bizim kəntdə – Məzməzəhdə bir daş varıydı. Bı daş kəndin ortasında yox, bir əz kənarında idi. Bu daşa kənd camahatı möcüzəli, inanılmış bir daş kimi baxırdı. Bu daşa o qədər inanırdıx. Ona görə möcüzəli daş kimi baxırdıx ki, xəstə uşaxları sağaldırdı. Onu da deyim ki, bı daşdan ancax uşaxlar keçirilirdi, böyühlər yox. Ancax uşaxları gətirərdilər. Görürdün ki, uşax var, ayaxlarını düz qoya bilmir, üst-üstə qoyur, uşax varıydı ki, elə hey ağlıyırdı. Neynirdilərsə, səsini kəsə bilmirdilər. Elə uşax vardı, çiliyə düşürdü. Nənələrimiz deyirdi ki, uşağı olmuyan, qırxlı qadın uşağın üstünə gələndə uşax çiliyə düşürdü. Bax, həmən bu uşaxları həkimlər də sağalda bilmirdilər. Axırda gətirif bax o dəlih daşdan keçirirdilər, onnan sora uşax sağalırdı. Elə bil ki, bəyaxkı uşax deyildi. Dəlih daş çox hündür, təkər formasındaydı. Adamın biri daşın üst tərəfində, biri də alt tərəfində olurdu. Biri uşağı üsdən verib, altdan keçirirdi. Özü də üş dəfə təkrar eliyirdilər. İyirmi bir gün müddətində üş dəfə aparırdılar. Özü də cümə axşamı daşdan keçirməliydilər. Bu da iyirmi bir gün ərzində üç həftə eliyir. Hər həftiyə də bir gün düşür. Ora okqədər inanırdıx ki, ordan heş vaxt əliboş qayıtmamışdıx.

# TAYFA, NƏSİL VƏ YER ADLARI İLƏ BAĞLI RƏVAYƏTLƏR

## 59. HACISAM NƏSLİ

### I mətn

Bizim o yerə ilk gəlifdi Hajısam. Təkə-türkman olub. Türkmənistannan gəlib Xorasana. Orda varranıb, dövlətini, varını saxlamax üçün yaxşı yerrər axtarıf. Bizim o yerlər də mal-qara saxlamax üçün yaxşı yerlərdir. Gəlib çıxırlar Pircan körpüsünə. Pircan körpüsünə gələndə Hajısamın gözləri tutulmuşmuş. Üç oğlu olufdu: Bayram, Qasım, Kavan. Deyifdi ki, a bala, bura nətər yerdi? Deyillər, qaratikannığdı. Deyir, kim əkin əkəcəksə, burda qalsın.

Kavan deyir:

– Mən əkinçiyəm, burda qalajam.

Heylə olur qalır Dərəkəntdə. Gəlif çıxıflar Sultan bəyin çayda otağları vardı, bağ salmışdılar. Oraya gələndə deyif, bura nətərdi? Deyiflər, palıtdıxdı. Deyifdi:

– Burda da bölünün. Palıtdıx olan yer döölət yeridi, mal yeridi.

Orda da bölünüflər, Qasım çıxıf güneyə, Qurtqadajıya. Qurtqadajı canavarlar ölkəsi deməkdir. Qara Bayram da gedif çay yoxuşa, Şəlvə deyilən yerdə məskən salır. Qasımdan oluf Nəbi, Molla Həsən, İbrahim, Əhməd. Bir qızı da oluf, onu da Heydərə verif, o qızın adını bilmirəm.

Bülün düzü, Ərdəşəvi kəndində olannarın əksəriyyəti Kavannan olannardı. Hajıxannı, Şəlvə, Kaha, Qavışığ (iki suyun birləşdiyi yer), Daşdı kəndində yaşayannarın əksəriyyəti Bayramın nəslidir. Qasımın nəslinnən olanlar isə Çolman, Bozdağan, Şam, Ələkçi, Narzan, Nağdağan kəndinnən olannardı.

### II mətn

Qasımuşağı deyilən tayfa Türkiyənin Əkk qalasınnan gələnnərdi. İlkin Hajısam gəlif. Deyirdilər, qan işinə düşüf, adam öldürüf. Onnan əlaqədar Əkk qalasınnan represiya eliyiflər. Hətta onu gətirif

müəyyən mənzildən yola salıflar o dövün məmurları. Bunnar gəlif süfrə açıf çörək yeyiflər. Hajısamnan ayrılmax məqamı gəlir. Orda bir bənzətmə danışıx gedir. O məmurlar Hajısama deyif ki, baba, gəl bir istəkan abiguş iç. Bu əlin yelliyif deyir ki, nuşican. Mənim abiguşimi zəhirmara döndərmisiz. Abiguş da "həyat gürrahı" deməkdir, balnan südün qarışığıdı. Balı südə qatırdılar, uzunmənzilli yola götürəndə o süd turşumur, bal onu qoruyur. Onun adına abiguş deyillər. Buna da təklif eliyəndə bu cür cavab verir. Onnan sora oğlannarıynan düşüfdü Hajısam adlanan yerə – Şəlvə dərəsi, Kürthacı, Ərikli, Şam meşəsinə. Hajısam meşəsi və Hajısam dərəsi adlanan böyük bir çay qovşağına gəlif çıxıllar. Gözləri də yaxşı görmürmüş. Balalarına deyif ki, gedin burdakı meşədəki ağaclardan maa məlumat gətirin. Gəlif deyillər vələs, cökə, palıd, ağcaqayın var, o cümlədən qaratikan da deyiflər. Deyif ki, bura aranbasan yerdi, burda yaxşı döölət saxlamax olar. İndi siz gedin dağdan da dağ çiçəklərin yığın gətirin, görüm bunun dağı necədi? Gedif dağın çiçəklərin yığıf gətirifdilər. Qaymaxçiçəyi, maralçiçəyi, lüləpəri gətirifdilər. Deyifdi ki, bəh, bəh, bəh. Bura nə gözəl yerdi. Elə burda məskunlaşax, bunun dağı da var, aranı da. Onnan sora bu gəlif nəsil verif. Onun Şəvəndə addı oğlu oluf, Şəlvə dərəsin verif ona. Deyif, bax bu dərə sənin, dərənin o tərəfin də verifdi Qasıma.

### III mətn

Kürdhacı kəndində iki qardaş yaşıyırmış. Bir gün şahsevənnər gəlif iki uşağı götürüf gedəllər. Biri olar Qasımın, biri də Bayramın uşağı. Buları götürüf gedəllər. Orda evladı olmayan iki kişi varmış. Birin biri götürər, birin də biri. Burda az-çox yaşıyannan sora bunun biri tələf olar ölər, biri sağ qalar. Sağ qalan da yaşayar, yaşayar, ta onu aparan kişi buna toy eliyə. Bunu çöldə-bayırda görəndə deyillər ki, sən at tərkində gəlmisən, sənin burda yerin yoxdu. Məhlən haradırsa get yerinə. Gəlir deyir ki, ay ata, mən haralıyamsa maa düzün de.

Deyir:

– Ay bala, nədi?

Deyir:

– Maa belə deyillər.

Deyir:

– Bala, düz deyillər, səni mən gətirmişəm, sən buralı deyilsən. O vaxdı o dərəyə Hajısamlı deyirdilər, gedərsən oraya. Həkəri çayının sağ qoluynan gedərsən.

Evləndirmişmiş bunu. Bir at da gəlinin altına verir, gəlini oturdur atın belində, yükü-zadı nə varsa götürüllər. Gəlir bizim kəndin altında İlan qayası deyilən yer var, ordan keçəndə bir fındıq ağacı əyilib gəlmişdi bosdanın qabağına. Gəlinin başı keçər ağaca, düşər çınqıllığa. Gəlin ölər. İşıxlanana qədər oğlan başına-gözünə döyür. O vaxdı bizim kənd yeddi evdən ibarət olufdu. Aşağıda bunu dəfn eliyəllər. Gedər deyər ki, Hajısam haradı? Mən ora getməliyəm. Qasıma muştuluxçu gedər ki, oğlunuz gəlir. Aradan bəlkə iyirmi-otuz il keçif. Bunun da atasının, anasının gözü yoldadı. Bilmillər kim apardı, necə apardı? Gələndə o deyər ki, mənim oğlumdu, bu deyər mənim oğlumdu. Qasım deyər mənimkinin kürəyində xalı var, Bayram deyif mənimkində də var. Qasım hansı əlaməti sayıfsa, Bayram da eyni əlamətdərin oğlunda olduğunu deyir. Qasım deyir:

– Qardaş, onda and iç, sən götür.

Bayram and içər götürər. Qasım deyər ki, sənin əlinnən mən burda dura bilmərəm. Qasım köçər gedər Şamkəndə, Bayram da köçər gedər Qara Bayram dərəsinə. Olarlar küsülü. Atam deyirdi ki, Bayram nahakdan and işdiyinə görə həmişə nahak qan oları tapırdı. Həmin nəsildən neçəsini sayırdı ki, ya gülləynən vuruf öldürüflər, ya əlnən öldürüflər.

## 60. HEYDƏRUŞAĞI NƏSLİ

Bizim kökümüz Naxçıvanın Əriklisindən gəlmədi. Dərələyəznən Naxçıvanın arasında böyük bir dağ var, həmin dağın divində yaşamışıx. Bu saat da həmin dağın adı Ərikli dağıdır. Biz ordan gəlmişik. Gəlif çıxmışıx Qurtqadajıya. Qasım qızının birin verifdi Heydərə, orda da qarışmışıx onnara. Bizə Qasımuşağı deyillər, amma kökümüz Qasımuşağı deyil, südümüz Qasımuşağıdı.

Araxış böyük bir düzdü. Aralıx yerdi, yüz hektar olar. O vədə kotana xış deyirmişdər. Oranı xışnan əkdiklərinə görə Araxış deyiflər – aralıxda xışnan əkilən yer. Gəlif düşüflər oraya. Ora düşəndə Qasım deyifdi ki, gedin görün itdəri arıx, öküzdəri sazdırsa, onnarı qavın getsin. Öküzdəri arıx itdəri sazdırsa, onnarı götürün gətirin mənim yanıma. Bir də qapı-bəcələrinə baxın, görün təmizdi, nətəridi. Qasım da o vədə oranın böyüyü, ağsakqalı imiş. Gedillər görüllər ki, itdəri, üzdən irağ, çox kökdü, öküzdəri də çox geridi. Gəlif Qasıma deyillər ki, itdər qoymadı görək qapı-bəcələri nətərdi. Deyif, gedin onnarı götürün gəlin. Bizə Heydəri deyillər. Ulu babamız Heydər çox şəxsiyyətdi, gözəl bir oğlanmış, özü də subaymış. Qasım deyif:

– Oğul, mən qızımı verəjəm sana, özü də səni yanımda saxlıyajam.

Yanında da saxlıyır. Bizim yerə güney deyilir. Güneyin bütün hissəsini verir bizə, qızına cehiz kimi bağışdıyır. Sora Heydərin həmin qızdan bir oğlu olur – Qasım. Qasımın iki oğlu oluf: biri Bağır, o biri Albəy. Bizə Bağıruşağı deyiflər, o birinə Albəyuşağı. Hər ikisinin dörd oğlu olur. Albəyin bir oğlu qayıdıf gedir Ərikliyə, Naxçıvan tərəfə, üçü qalır burda. Bağırın oğlunun adı olur İmamverdi, Əlməmməd, Alməmməd, Xıdır. Albəyin oğlannarı: Məşədi Vəli, Kərim, Rəhim, Albəndə. Albəndə gedir Naxçıvana.

## 61. GƏLOXÇU TAYFASI

### I mətn

Hacılar, Sadınnar, Quşçu, Qılışdı, Soyuqbulaq, Mişni, Mais kəntləri Qarıqışlaxdan çıxmadır. Mayıs kəndinin əvvəl adı oluf Qızxanımın toyu olan kənt. Sovet hökuməti gələnnən sora onun adını Mayıs qoyuflar. Qızxanım addı bir kadın gəlif orda ev tikilif. Birinci toy ona olduğuna deyiflər Qızxanımın toyu olan kənd.

Həmin yeddi para kəntdə olannara gəloxçular deyillər. Eşitdiyimə görə, gəloxçular İrannan gəlif. O vaxdı İranın şahı yarış keçirdir. Gəloxçu tayfası bütün nişangahın hamısın vuruf. Şah onda deyif ki, gəl oxçu, gəl. Mənnən nə isdəsən verəjəm. Deyif, haranı

isdiyirsən bəyən dur, oranı verəjəm sizə. Gəlif Bayandur kəndini bəyənif durur. Oranın adı qalıf Bəyəndur. Sora köçüllər Qarıqışlağa. Bayandur kəndi qəlbi yerdədi. Yayda heyvannarın orda saxlıyırmış, qışda enirmişlər Qarıqışlağa.

**II mətn**

İran şahının devrində hələ tüfəng-zad istehsal olunmamış Qarıqışlax kəndini şah sürgün eliyir. Onda Mişni, Hacılar, Sadınnar, Quşcu, Soyuqbulax, Qılışdı, Mayıs – bu kəntlər olmuyuf. Həmin yerrər Qarıqışlax camahatının binəsi olub. Qarıqışlax kəndi İranda bir bəy olub ona tabe olub. O vaxdı da bu kəndin kəndxudası Hajı imiş. Bu bəy də ildə bir dəfə İrannan Qarıqışlax kəndinə gəlir. O vaxdı da vəşi heyvan, qaçax-quldur çoxumuş. Bu bəy bir gün gəlir Sultannar kəndinə çatanda ordan xəbər göndərir ki, Hajı, bəs gəlmişəm, adam göndər gəlsin məni aparsın. Hajı da öz qohumlarınnan iki cavan oğlanı yay-oxlu piyada göndərir bəyin qabağına ki, gedin bəyi götürün gəlin. Bəy də atdıdı. Bu iki oğlan gəlir bəyi götürüf gedillər. Gedəndə daşdan bir kəklik qalxır. Qalxanda oğlan yay-oxnan kəkliyi vurur, kəklik düşür. Gedir oxun da götürür, kəkliyi də. Bəy buna bir kəlmə də söz demir. Gedillər kəndə yaxınnaşanda qoz ağajının başında bir qarğa qırıldıyır. Səfərə gedən adamın qarşısında qarğa, saxsağanın səsdənməsi bəduğurrux əlamətidi. Bu biri oğlan yay-oxunu çəkir, qarğa qozun başınnan gəlir yerə. Qarğanı vuran oğlan da gedir oxunu götürür, qarğanın meyidini atır yerə. Bəyin yanına gələndə bəy əlini salır cibinə qarğa vurana qızıl onnux verir. Verəndə Səlim addı oğlan pis olur, acığı tutur. Öz-özzüyündə deyir ki, bu bəy nətər bəydi? Bunun ağlı, şüuru çatmır. Mən kəklik vurdum heş maa sağ ol da demədi, amma qarğa vurana çıxardıf qızıl onnux verir. Bəydən keçir piyada hirsinnən gəlir Hajıya deyir ki, Hajı, bəs sənin o bəyin axmağ adamdı. Hajı deyir, niyə axmağ adamdı? Sizə söhbət elədiyim kimi, deyir. Deyir, belə-belə. Kəkliyi vurdum maa sağ ol da demədi, amma qarğanı vuran yoldaşıma çıxartdı bir qızıl onnux verdi. Bunu deyəndə Hajı deyir, doğurdan heyləsə, o bəy axmağ adamdı. Heş mən onu qarşılamağa

çıxmaram. Bəy gəlir qalır kəndin içində atın üsdündə. Buna nə qədər eliyillər ki, düş, deyir, yox ey, Hajı gəlsin düşüm də. Hajının dalınca beş adam, üç adam gedir. Deyillər, Hajı gəlmir. Bəy hirsdənir oğlannara deyir ki, məni qaytarın Sultannara.

Nəysə, bəyi qaytarıllar. Bəy gedir şaha məlumat verir ki, getdim filan kəndin Hajısı məni qəbul eləmədi. O kəndi Hajı pozub, o kənd köşməlidi. Şah da götürür fərman verir bu bəyin sözüynən, kənd köçürülsün. Şahın nümayəndələri gəlir ki, gedəjəhsiz, şahın əmridi. O vaxdı da camahatın bir inəyi, eləsi var heş nəyi yox. Gedillər sürgünə. Bunnar gedillər tökülüllər İranda bir bulağ üsdə. Bu bəy genə gündə gəlir, Hajıynan söhbət eliyir əlində də bir siyahı. Amma bu Hajı camahatına tapşırır ki, siz mənim üjümdən sürgündəsiz. Ola bilər hamızı qırsınnar, ola bilsin bizi bölüşdürsünnən ayrı-ayrı kəntlərə. Əgər bizi tək-tək bölüşdürsələr, heç hara getməyin. Bizi qırsalar da, bir yerdə qırsınnar, yer-yurd versələr də, bir yerdə versinnər, bir yerdə yaşıyax.

Nəysə, bu bəy gündə gəlir. Hajı dediyi kimi bəyin əlində siyahı. Siz köçəjəhsiz. Filankəs, sən filan kəndə, filankəs, sən filan kəndə. Kəndin adınnan da Hajı danışır bəynən. Deyir, bəy, biz heç hara köçəsi deyilik. Bizi qırsanız da, bir yerdə qırajaxsız, bizə yaşamağa imkan versanız bir yerdə yaşıyajeyih. Bəy gündə gedir-gəlir. Camahat da qaşqındı, qonşu kəndin camahatı gəlif bulara tamaşa eliyir. Bir gün Qarıqışlax camahatından birinin bir su qabı itir. İtəndə səhər bəy genə gəlir. Bəy də elə iki ayağın yəhər üsdən aşırırmış bir tərəfə, atın üsdündə Hajıynan söhbət eliyif qayıdıf şaha məlumat verirmiş gündəlik. Bəy genə səhəri gələndə Hajı deyir ki, bəy, suyun üsdündən sizin camahat bizim bir başsız qadının su qabını oğurruyuf. Xayiş eliriyik, deyin, qaytarıf versinnər. Bəy də hirsdənir deyir, indi də bizim camahata oğru deyirsiz? Hajı deyir, mən demirəm oğurruyuf. Ola bilər qanmaz uşax götürüf, ola bilər kimsə. Denən qaytarıf versinnər. Axırı bu bəy Hajıya qayıdıf deyir ki, su qabınızı gözdüyərdiz götümüyeydilər. Deyif, çıxıf gedir. Gedənnən sora Hajı uşaxlara tapşırır ki, bəy gəlif mənnən söhbət eliyəndə (o vaxdı da bəyin yəhərinin dəmirrəri qızıldanımış) arxa üz-

dən yəhərin üzəngisini kəsərsiz. Bəy gəlir genə Hajıynan söhbət eliyəndə uşaxlardan biri gedir üzəngini kəsir götürür, bəyin xəbəri olmur. Bəy Hajıynan su qabın söhbət eliyir. Bəy qışqırır gənə bunun üsdünə. Hirsdənif ayağın atır üzəngiyə ki, atın çevirə gedə, ayağı boşa gedir, az qalır yıxıla. Özün düzəldir deyir, Hajı, bu nə işdi? Atın üzəngisini niyə kəsdimisan? Deyif, yəhərin üsdə sən deyilsən? Biz niyə kəsirik? Burda bəy hirsdənir. Axı bəy də camahatı tanımır. O iki oğlanın adın da bilmir. Həmin oğlannarı çağırır. Axı bunnar qarğa, kəklik vurub. Bunnara deyir ki, gəl oxçular, gəlin görün mənim atımın üzəngisin kim kəsif. Bu camahat da baxır ki, bəy bu iki oğlana gəl oxçu deyif. Bəy Hajıya deyif atın üzəngisin niyə kəsdimisan? Deyif, mən kəsdiməmişəm, sənin atının bəlkə üzəngisi yoxumuş, üzəngisiz gəlmisən. Hajı axırda qayıdır dünən bəy dediyi sözü bəyin özünə deyir ki, üzəngini gözdüyeydin kəsmiyeydilər. Bəy hirsdənir çıxır gedir. Gedənnən sora camahat bu iki oğlanı bəyin diliynən “gəl oxçu” deyif çağırıllar.

Bəy gedif şaha məlumat verir ki, bəs belə-belə. Atımın üzəngisini Hajı kəsdirdi, o məni təhqir eliyir. Şah hirsdənir, deyir, get o Hajını çağır gəlsin yanıma. Bəy gəlif Hajını çağırır, deyir, səni şah çağırır. Hajı deyir, ay camahat, mənim üjümdən siz sürgün olunmusuz, əzab çəkmisiz. Ola bilər ki, mənnən bir də görüşmüyəsiz. Sizə yenə vəsiyyətim odu ki, aralanmayın. Sizi qırsalar da, bir yerdə qırsınnar, yaşasanız da bir yerdə yaşayın.

Nəysə, Hajı gedir bəynən. Şah hirsdi deyir, sən kimsən mənim bəyimi qəbul eləmirsan? Bu da deyir, şah sağ olsun, sənin bəyin bəy deyil. Deyir, niyə? Bu qarğa-kəklik söhbətin olduğu kimi şaha söhbət eliyir. Deyir, sənin bəyin qarğa vurannan kəklik vurana fərq qoyur. Deyir, yaxşı, bəyin atının üzəngisini niyə kəsdimisan? Deyir, onu bəy özü təşkil elədi. Deyir, nətəri? Su qabı söhbətin olduğu kimi söhbət eliyir. Sənin bəyin mana dedi ki, su qabın gözdüyeydınız götürmüyeydilər. İndi mən də bəyin atının üzəngisini kəsdidim ki, sən də üzəngini gözdüyerdin kəsmiyeydilər. Deyəndə şah nejə yuxudan ayılan kimi baxır ki, həqiqətən də bu Hajı bəydən qat-qat ağıllı adamdı. Deyir, Hajı, məni bağışda, üzr isdiyirəm. Bəyə deyir

ki, bəylikdən azadsan. Sən həqiqətən də bəyliyə layığ adam döyülmüşsən, mən səyf eləmişəm. Deyir, Hajı, mən camahatınız qarşısına gəlmirəm, mənim əvəzimdən camahatdan üzr isdiyərsən. Səhər də adam göndərəjəm sizi sağ-salamat qaytara öz kəndinizə.

Hajı qayıdır. Camahat baxır, Hajı gəlir özü də gülə-gülə. Ə Hajı, nədi? Deyir, səhər biz qayıdajeyih kəndimizə. Nəysə, ordan qayıdıllar. Gəloxçu sözü ordan qalıf. Hajı həmin günnən camahatın içində oturmuyuf. Çıxıfdı Hajılar kəndinə. Ora çıxannan da ora Hajılar adlanıf. Bizim Mişni kəndinə ilk dəfə Qarıqışlaxdan bir nəfər gəlif. Onun dörd oğlu oluf: İsmayıl, Fətalı, Nəcəf, Mirzə. Kəntdəki nəsillər də o qardaşdardan törüyüf.

*Quşçu kəndindən olan Məcid adlı şəxsdən eşidib.*

### III mətn

Mais kəndindəki nəsillər: Fəzilər, ibirlər, şirvannar, kərbəlayılar, məhərrəmlər.

O vaxdı ibirlərin Ağcabədidə qış yatağı vardı. Sovet hökuməti gələndə onnarın qış yatağın bölüf yeddi kalxoza veriflər. İran xanıynan da qardaş oluflar. Qardaş olmağı da belədi. Xanın burda qoyunu varmış. Burdan xəbər göndərillər Qarıqışlağa ki, xanın bir çobanı var, gündə gəlif bizi döyür, xamı[9] da otarır. İbir kişi deyir, hardan gəlir? Deyillər, bu tərəfdən gəlir. İbir, deyir, bir dəsdə qoyunu qatır qabağına gedir. Xanın çobanı elə bilir gələn çobandı. Bunnan dalaşmağa gələndə tutur bunu nə qədər döyürsə, ürəyi soyumur, qulağının birin kəsir boşduyur. Onnan sora xan bir dəsdə atdı göndərir ki, o adamı gətirin bura. Aparıllar İrana. Əmr verir ki, boğazınnan asılsın. Onnan belə deyir, hər adam mənim çobanımın qulağını kəsməz. Gedim görüm kimdi. Gəlif baxır, görür bu şəxsiyyətdi adamdı. Cəllada deyir bunu azad eliyin, gəlsin bura. Dosd olullar. Deyir, bu günnən ölən günə mənnən qardaşsan.

---

[9] xam – otlaq yeri

Həmin xan oğluna toy eliyəndə deyillər, İbir lələ burdan qırx erkək ayırdı, hərəsinin boğazına bir dənə qırmızı yaylıx bağladı gətirdi ora toya.

### IV mətn

Mişni kəndinə ilk gələn Mirzə oluf. Qarıqışlaxdan köçüf gəlif orda qalıf. Gəloxçu tayfası Qarıqışlaxda yerləşib. Sultan bəy bizim kəndin adamına deyirmiş ki, göydən qızıl quşu yendirirsiz, dəryadan qızıl balığı çıxardırsız. Oxartana ovçuluxnan məşğul olurmuşdar. Qarıqışlaxda molla yox imiş. Sora İrandan iki dənə molla gəlir oraya. Birinin adı Əhməd imiş. Molla Əhməd nəsli həmən Əhmətdən törəyib. Ellaz qoja qızının birin verir Molla Əhmədə, Varazun ərazisini də qızına cehiz verir. Sora baxır ki, camahat artıf, bura darısqaldı, köçüllər Əhmətdiyə. Ora da geniş bir ərazidi. Mişni, Əhmətdi, Quşçu, Hajılar, Sadınnar, Zeyvə kəndi – hamısı Qarıqışlaxdan çıxmadı. Ellaz qojanın üç oğlu oluf: Təhməz, Mirzə, Əhməd. Qızılca, Hoçaz, Malbəyi Təhməzin nəslidir. Mirzə üç oğluynan – Nəcəf, Fətalı, Səfərnən gəlif Mişniyə. Bu üç qardaşdan Mişni kəndi törəyib. Əhməd də Əhmətdidə məskunlaşıb.

Ellazın babası İranın çay zəmisinnən köçüf gəlif Laçın rayonunda məskunnaşıf.

## 62. SƏFQULU VƏ AĞƏLİ NƏSLİ

### I mətn

Bizim kənd iki tirədən ibarətdi: Ağ Alı, Səfqulu. Səfqulu Dərələyəzdən gəlib əvvəl Bozdudda yerrəşmişdi. Səfqulunun oğlannarı bir gün yığışıf çay kəndinə ova gedillər. Baxıllar ki, çaylar axır orda: böyük çay, kiçik çay. Maral, buğa, əlik, dağ keçisi tökülüb çaydan su içillər. Payız imiş, keçillər ağaşdarın altına ki, armud tökülüb, qoz tökülüb, meyvə çıxıb dizə. Ovların edib qayıdıllar Bozduya. Ataları Səfquluya deyillər ki, orda biz xəzinə dərəsi tapmışıx. Ov elamağa, meyvə yığmağa çox yaxşıdı. Onnan sora köçüllər həmən çay kəndinə, orda yaşıyıllar.

Burda neçə illər yaşıyıllar. Qarakeş düzəngahdı, burda taxıl əkirmişdər, yetişən vaxt gəlif biçirmişdər, yığırmışdar çuallara, səbətdərə, aparırmışdar ora. Bir neçə ildən sora deyillər ki, biz nə qədər qışın, yayın günü bu daşığı daşıyax. Köçək Qarakeşə. Hərə özü üçün orda torpax götürür, əkin əkillər. Bir dənə ölü düşür, İsmixanın dədəsi ölür. Deyillər, bunu beş kilometr o tərəfə niyə aparax, burda basdırax. Qəşəh bir yerdə bunu basdırıllar. Bizim kəndin cavannarı bir neçə ay gedif qəbrin keşiyini çəkir. Üç aydan sora bir dənə də ölü düşür, onun yanında basdırıllar, onnan sora həmin adamlar gəlir evinə.

İran başqa bir devlətnən müharibə eliyəndə burdan Səfqulunu da aparıllar müharibəyə. Orda Səfqulu böyük şücaət göstərir, o xanı məğlub eliyillər. Bir nəfər də Yevlaxdan olur, ikisi də qoçaxlıx göstərillər. O vaxdı da hakimiyyət nəsildən nəslə imiş. O adamın ki nəslində vəzifədə olan yoxsa, onu vəzifəyə qoymurmuşdar. Məğlub edilən xanın iki oğlu varmış. Birin verillər yevlaxlıya, birin də Səfquluya. Səfqulu bu uşağı götürür gəlir. Sora fikirrəşir ki, bu uşax böyüyənnən sora bilsə ki, mən onun atasını öldürmüşəm, mənim başıma oyun gətirəjəh. Ona görə uşağa kim olduğunu demiyif, aldadıf ki, səni oğurruyuf gətirmişəm. Gördüm bir qadın arxın üsdündə paltar yuyur, sən də yanında hərrənirsən. Xoşuma gəlif səni qaçırmışam. Belə yozur. Okqədər göyçək imiş ki, adın Ağ Alı qoyur. Səfqulunun da dörd oğlu varmış. Çayda düz yer varmış, orda at çapanda Səfqulunun oğlu atdan yıxılır, qolu sınır. Qolu sınanda Ağ Alını günahlandırır, onu döyür. Ağ Alı ajıx eliyir gedir yuxarı – Qaya başına. Ordan köşdər gedirmiş. Bir kürd köçü gəlir, qoşulur ona, Dərələyəzə gedir. Gedir Dərələyəzdə evlənir. Sora fikirrəşir ki, orda mənim payım var, bunu Səfquluya vermiyəjəm. Ordan gəlir çıxır Qarakeşə. O yeri Səfquluynan ortadan bölür, yarısı onun, yarısı bunun. Sora Ağ Alıdan Həsən, Hüseyin, Məmməd, Vəli törüyür.

**II mətn**

Qarakeşişlər haqda bir məlumatı bilirəm. Bunnarda Ağəli nəsli var. Bunnarın babası gəlir Qarakeşişə. Bu tayfanın içinə gələndə bunu qəbul eləmillər. Buna torpax vermillər, yer vermillər. O qayıdır gedir Dərələyəz mahalına. Orda bir adama qulluxçu işdiyir. Deyir, mən gedif elə bir qız tapbalıyam ki, o mana güj verən, arxa olan oğul doğmalıdı: dəvə diz, alma göz oğul. Bu da gedir bulağın üsdünə. Doğurdan da, bunun axtardığı qız gəlir. Qızın arxasıncan gedir. Qızın atasına deyir ki, iş axtarıram qoyuna gedəm, mala gedəm. Qəbul eliyir. Burda işdiyənnən sora bu kişi də görür bu ağıllı oğlandı. Qarnı üçün getmir da, məqsədi üçün gedir. Gətirir qızı verir buna. Qızı verənnən sora bunun iki oğlu olur. Onnan sora bu kişiyə deyir ki, mən getməliyəm. Gəlir genə Qarakeşişə. İndi burda genə bir kalafa qazıf ev tikmək isdiyir, bunu qoymullar. Orda bir arx var, bunu keçirillər arxın o tayına, orda damını tikir. Onda yoldaşına deyir ki, məni genə keçirdilər Araz arxının o tayına. Onnan o suyun adı qalır Araz arxı.

Bunu mana Musa müəllimin dayısı Mirələm danışırdı. O deyirdi ki, biz Ağəlinin nəsliyik.

**III mətn**

Qarakeş iki nəsildi: Səfqulular, Ağəli uşağı. İranda qaşqınçılıxda Səfqulunun bir uşağı ölür. Ağəlini bir gəlinin yanınnan bulağın üsdə götürüf qaçır. Bunu da Xannar mənə söhbət elədi, Səfqululardan idi. Deyir, gəlin yeddi aşırım aşdı, çatmıyanda qarğış eliyir ki, səni görüm o uşax sənə qənim olsun. İndi də Ağəli uşağı səfqulularnan daim ziddiyyətdədilər. Səfqulu İranda vuruşuf, iyitdiklər göstərif. Hətta şahın mükafatın da alıf.

## 63. MİSÇİ VƏ HƏŞİMLƏR NƏSLİ

**I mətn**

Həşim adında bir kişi olur. Bir qızı varmış, bir arvadı, bir də özü. Bir gün Piçənisdən yüklənir gedir İrana dolanışıx ujunnan.

Onda buralarda heş kim yox imiş. Orda da özün tanıdır. İranın bəylərinnən, yoxsa xannarınnan biri bunu çəkir yanına bir müddət saxler. Görer ki, bu halal adamdı da. Bir fermasın verir buna ki, bu sənin nökərin, atın, malın, döölətin. Buna sən rəhbərlik eliyərsən. Bir müddət buna rəhbərlik eliyir, halallığnan başın saxlıyır. Halallıxnan özün tanıdır. Bilillər ki, buna etibar eləmək olar.

Bir gün gejə beynin qurdu qayner, nətər olursa, durer bir atı, bir öküzü gətirir yükler. Taxıl yükler, un yükler. İndi sklatda nə varsa da. O vaxdı da taxıldan, çörəhdən qiymətdi nə vardı? Gejəynən yola çıxer. Döyhadöy, döyhadöy, döyhadöy çıxer gəler. Sabah ertə durullar ki, buların xozeyni yoxdu. Oraya-buraya baxıllar, filan öküz də yoxdu, filan at da yoxdu. Qaçıllar xanın yanına. Deyillər ki, bəs o inandığın adam qaçıf gedif, yoxdu.

– Ə, nə aparıf?

Deyif:

– Filan atı aparıf, filan öküzü aparıf.

Əlaltıları deyif ki, silahlanax düşək dalıncan. Xan deyir ki, getmiyin, işiz yoxdu. O çox şeyizi aparmıyıf. Vətəni yadına düşüf vətənə gedif. Qoy getsin. Bir yerdən bir şey eşidəjeyih da.

Bu çıxır gedir. Gəlir çıxır kəndə. Bu da xaraba kənd imiş da, köhnə kalafalar varmış. Atı, öküzü buraxır, burda kalafalarda otduyur. Belə hərrənəndə görer burda bir geyirtkanı sıyırıf atıflar. Deyir, burda mənnən başqa adam var. Oraya-buraya, güder görüm bu hardan gəlir, bu kimdi. Bir vaxt görer ki, o dağdakı binadan bir adam çıxıf gəlir. O qadar gözder, gözder, gəlif girir kalafalarına, başdıyır geyirtkan yığmağa. Gəlir bunun yanına, bunnan görüşür. Deyir, sən kimsən, hardan gəlmisən? Deyif, mən Dərələyəzdən gəlmişəm, elə çoxdan burdayam. Deyif, nəyin var aylədən, uşaxdan, heyvannan, qatıxdan-sütdən? Deyir, bir inəyimiz var. Harda olursan? Deyir, o binadayam. Buralara gəlif gedirsən? Deyir, hər gün gəlirəm, pencər yığıf aparıram. Deyif, buralarda ferma yeri bilmirsən? Deyif ki, Ərikliynən Kürthacılının arasında Şney dağda qırmızı kərpişli bir tikili var, orda ferma var. Deyir, mənnən ora gedə bilərsən? Gedax

bir mal gətirax, apar kəs uşağın yesin. Bununku bir arvad bir uşax imiş, amma o birinki çoxuymuş.

Nəysə, bunnan gedillər. Bu da mənim kimi əfəlin biri imiş. Həşim ordan bir yaxşı mal tutur, gətirif kəsillər. Özünə bir az saxlıyır, qalanın gəlir aparır. Yeyillər, bunnan baş-başa verif dolanıllar. Axı kişi gəldi, at-öküz burda qaldı. Bir gün fikirrəşer ki, da burda qonşu da var, aylə-uşağını buna pəriskar[10] edib gedə bilər da. Amma orda olanda xan buna deyif ki, Həşim kişi, hər heyvanı gördüm, amma qatır deyiləni görmədim.

Bir gejəynən durer atı minir, öküzü də verer atın döşünə. Döyhadöy, döyhadöy. Xəlfəlinin, Şuşanın başı üsdünnən gəlif keçəndə hörüyə vurulmuş xeyli qatır görür. Hörükdən bir qatır açer, bağlıyır atın quyruğuna. Döyhadöy-döyhadöy gedif çıxır İrana. Gedif gejəynən həmən olduğu məkana. Xana deyillər ki, bəs o gedən kişi qayıdıf gəlif.

– Nə gətirif, neyniyif?

Deyillər, apardığı atı da, öküzü də gətirif, bir ayrı ulax da gətirif. Deyir, onu çağırın gəlsin buraya. Qorxmaz kişi imiş. Girer bunun yanına, hal-xoş, bu durer bunnan görüşer. Soruşer bə niyə getmişdin, niyə qayıtdın? Aylə-uşağı neynədin? Arvad-uşağı öldürdün gəldin? Deyir, yox, salamatdı. Bəs mən burda çörək yemişdim, o çörəyi mən ayaxlıyammazdım. Vətəndi yadıma düşdü getdim, bir az da unnan, taxıldan apardım. İndi də gəlmişəm heyvannarı verəm. Bir də siz maa dediniz ki, qatır görməmişəm. Ordan da birini gətirmişəm görəsiz. Faytonu minir gəlir fermaya qatıra baxır. Soruşer ki, qalajaxsan, gedajaxsan? Deyir, yox, mən gedəjəm, aylə-uşağım ordadı. Bulara tapşırır ki, buna bir at verərsiz balası erkək olar, bir inək verərsiz balası erkək ola. Bu fikirrəşir ki, niyə dişi balasın vermir, erkəyin verir (o ağıllı adamdı). Xana deyillər ki, o kişi narazılığın bildirir ki, niyə maa dişi balasın vermer, erkək balasın verer. Deyir, get ona denən ki, onu vererəm, atı ayğırı ola, o da inəyin buğası ola. O qaydaynan götürer bunu, atın yükler, deyir, get

[10] pəriskar olmaq – hayan olmaq

dolan. Sən burdan bir yük taxıl, bir yük un aparmaxnan dolanammarsan. Gəlif burda bönövrələşir. Bizim bir tərəfdən də südümüz olarnan (Həşim nəsli ilə - top.) bitişikdi.

### II mətn

Bizim babamız da Dərələyəzdən gəlmədir. Bizim babamız Hüseyin addı bir uşax oluf. O, hardan gəlirmişsə Piçənis kəndində Həşim kişinin çöldə ojağı yanermiş. Ojağın işığına gəlif çıxer buraya. Yetim, qıçı-başı açıx uşaxmış. Gəlif çıxer. Həşim deyir, ay bala, hardan gəlirsən, hara gedirsən? Deyir, belədən gəlirəm, burda işıx gördüm işığa gəldim. Kişi bunu bir neçə gün burda saxler. Bunu haraya buyurersə yarıdır, fərasətdi uşağ olur. Bunu güdür ki, görüm bu nə millətidi. Görür müsəlmandı. Arvadına deyir ki, sonnumuz yoxdu, elə bu qızı verax buna yanımızda saxlıyax, fərasətdi uşaxdı. Bu da deyif ki, ay kişi, indi onu verdik ona, o da bəlkə heş burda duran deyil, çıxdı getdi, uşaxları da tökdü üsdümüzə, onda neyniyax? Arvadın sözüynən bu razılaşmır. Bunu bir neçə il saxlıyır yanında. Öküz də düzəldir, kotan, xış. Burda taxıl əkir, başdıyır dolanmağa. Bunun yan-yörəsinə gəlif komalaşan da oler. İlahinin qismətiynən bu qızı verer buna. Bir atnan, bir erkək danaynan bu gəlif varranır, əkinni, biçinni oler.

Bir gün görer bu uşax fərasətdi uşaxdı. Deyir, bala, görürsən, millət gəldi doldu, hərə bir yeri zəbt elədi götdü. Sən də get filan yerdə bir yer var. Gedif həmən o şarkara yiyələn, oranı da sən götür. Ora da ensiz yerdi. Səkkiz dolya yeri də qızına cehiz verir, bir cüt öküz verir, bir də ağaş kotan. Deyir, get su arası sənin aran yerin olsun, oranı götür. Buranı götürer, bu nətər oler doğur törersə, bunnan güjdü heş kim olmur. İndi böyün də həmən misçi nəslinin sayı çoxdu. Mis mədəninnən gəldiyinə görə ona misçi deyirdilər.

### III mətn

Misçi Almədətdən qabax gəlif. Misçi, deyilənə görə, Diyarbəkirdən gəlif, Almədəd Dərələyəz tərəfdən gəlif. Almədəd bir yol

gedir İrana. Orda xozeynin yanında oluf. Deyir ki, gedirəm, tay vətən məni çağırır. Deyif:

– Getmə, getmə Almədəd, sənə qoyun verim, mal verim.

Deyif ki, şah sağ olsun, sən mənə elə qoyunsan da, malsan da. Deyif:

– Dilindəki özü olsun, ürəyindəki mənim olsun.

Tapşırıf ki, buna bir inək verin balası erkək olsun, bir at verin balası erkək olsun. Gedər ələ bir şey gəlməz, damazdığ tutmağa heyvanı olsun.

Qayıdıf gələndə görür ki, burda geyişqan soyuluf. Bizdə Qulvar adında bir zağa vardı. Misçi də gedif o zağada yaşıyırmış. Almədəd gəlif ki, burda şennik var. Geyişqannan bilif. Gizdənif, gözdüyür, görür budu gəlir. Çörək yox, çay yox. Amma yaz vaxdı imiş, pencərnən, cərgərnən baş dolandırırmış. Deyir:

– Ə, nə eşitmisən? Haraya gedax mal tapax gətirək?

Deyir:

– Qızevet tərəfdə deyillər yaşayış var.

Bellərinə ip bağlıyıllar, gedillər ordan bir mal gətirillər. Bir müddət onnan başdarın dolandırıllar. Camahat toplanır. Öküz olur, at olur, əkin-biçin. Onnan başdarın dolandırıllar. Orda Şanolar oluf, bajılı deyilən nəsil oluf. Torpağın ən çoxunu onnar götürüf. Biz misçilərə yaxşı yer düşmüyüf. Əlbət aciz olmuşux da. Almədədin oğlannarı Abdulkərim, Manaf, Cabbar oluf. Vəlvəyin oğlannarı Qəmbər, Kalbalayi Murad, Kalbalayi Məmməd, Hüseyin oluf.

Vəlvəyin züryəti olmurmuş. Qardaşı ona töhmət eliyif. Onnan sora arvadı deyif ki, niyə belə peşmansan? Deyir:

– Maa quru kəllə deyillər.

Deyir:

– Mən icazə verirəm, get filan yerdən evlən, narahat olma.

Şam kəntdə Cahangir addı yaxşı bir kişi varmış. El onnan məsləhət alırmış. Gedir onnan məsləhət alır ki, mən neyniyim, belə bir şey oluf? Əlinin dalıynan üş dəfə belə eliyif ki, get evlən. O da gedir, Mişniyə addıyanda iki arvatdı bir gəlin, bir ata da bir-iki dəsd mitil yüklüyüflər, burda cəhlidi. Deyir:

– A bajı, bu nə cəhlidi belə?

Deyir:

– Bu mənim qızımdı, vermişdim bunun oğluna, bu da yiyə durmur.

Deyir:

– Mən saa bir söz deyim. Bu yük də sənin olsun, bu at da. Bu gəlini ver mana.

Özü də deyir mənim arvadım var, amma züryətim yoxdu. Allahın qismətidi da. Gəlini ona verillər. Həmin Vəlvəh kişinin dörd oğlu olur: Əhməd, Kərbalayi Murad, Kərbalayi Məmməd, Qəmbər. Kərbalayi Murad çox səxalı[11] kişi oluf. Kərbalayi Məmməd yegi olur. Acizi mənim babam Əhməd olur.

## 64. ŞEYLANLILAR HAQQINDA

Ağbulax, Qarakeş, Şeylanlı bu üç kənd şeylanlı tayfasıdır. Hərəsi bir dövrdə gəlif. Qarakeşdə bünövrə salan Səfqulu imiş, Ağbulaxda Şabo, Şavıd deyirdilər. Türkiyə İranın üzərinə hücum eliyəndə İran şahı Arazın bu tayında nə var hamısını o taya köçürür, qalan nə var hamısın yandırır. Camahat köçürüləndə Şavıd, Səfqulu da Arazın o tayına köçürülür. Osmannı qoşunu geri çəkiləndə torpaxlar qalır boş. 1746-cı ildə Nadir şah Əfşar fərman verir qaçqınnarın dədə-baba yurtdarına qayıtması haqqında. Bizim babamız Allahqulu orda Şabonun qızın alır. Şabonun qızı həm də Səfqulunun bajısı qızıdı. İranın Qarət dağında oluflar. Şabo orda bir dəyirmanda yaşıyırmış. Fərman verilənnən sora vətənə sarı qayıdıllar. Arazı addıyannan sora baxıllar ki, Şabonun ayləsi yoxdu. Köçü qoyullar, deyillər, qayıdıf qızı gətirməliyik. Onda da adam az imiş. Vur-tut Ağbulaxda Şabodu, Esəxandı. Qarakeşdə də Səfquludu.

Sözü bir yerə qoyullar ki, gejə gedəjeyih. İki qardaş – Səfqulu, bir də Əhməd gedillər yeznəsinin dalınca. Bunnar gecə bacanın üsdünə çıxıllar ki, bunnar neyniyir. Baxır ki, uşaxlar ağlıyır. Anası

---

[11] səxalı – əliaçıq, səxavətli

deyir, ağlamıyın, ağlamıyın. Dayınız Səfqulunun nəfəsi sağ olsa, bizi burda qoymuyajəx, bizi aparajəx. Bajanın üsdündə buların sporu düşür. Deyir, görürsən, sənin adını da deyərdi da, mən yaxşıyam. İndi də Qarakeşdə bu var. İddialıdılar ki, mən sənnən yaxşıyam. Deyillər, qızı qonax çağırax, aparax, qəriblikdə qoymuyax. Qızı qonax çağırıllar. Səhər Allahqulu gəlir ki, Şavıd da yoxdu, arvadı da yoxdu. Bunnarın dalına düşür. Gəlir yolda çatır. Səfqulu bajısına deyir bunu öldürəjəm. Qız qayıdır anasına deyir ki, dayıma denən Allahqulunu öldürəndə qoy məni də öldürsün.

Babamız gəlir əvvəl çıxır Ağdərə çayının qırağına. Sora inkişaf olanda, əhali artanda əkin-biçin üçün Qarakeşə, Ağbulağa çıxıllar. Bizim babamız Allahqulunun iki oğlu, bir qızı olur. Qızının adı Şapəri olur, oğlannarının da adı Allahverdi, Nəbi olur.

Allahqulunun qardaşının adı Şəmdin imiş. Yeddi ildən sora baxıllar ki, bir adam gəlir. Deyir, Allahqulu duruf gərnəşdi, dedi, onun yerişi qardaşım Şəmdinin yerişinə oxşuyur. Adam göndərillər qabağına. Gətirillər ki, qardaşıdı, Allahverdini axtarır. Axı Allahverdi də xəbərsiz gəlif, arvadın dalına düşüf gəlif. Şəmdin deyir, ə, bizə töhmət eliyillər ki, sənin qardaşının yeri-yurdu bilinmir. Gəl köçək gedək. Allahqulu deyir, yox ey, bura hamısınnan yaxşıdı. Nəhayətdə eşitmir, üç günnən sora Şəmdin çıxır gedir.

Qayınnarıynan Nəbinin, Allahverdinin sözü düz gəlmir. Düz gəlmiyənnən sora bunun böyük arıxanası vardı. Qayalara aparıf qapı qoyurdular, arılar gedif ora dolurdu. Öz qayınnarıynan sözü düz gəlmiyənnən sora bular Dərələyəzə köçür. Orda neçə il qalıllar. Arıxanası da Camal yurdunda idi. Hər payız da gedif mamır yığırmışdar arıları basdırmax üçün. Payızmış, bunnar qayıdır gəlir arıxananı irahatdamağa. Şapəri mamır yığır, Nəbi gətirir, Allahverdi də basdırır. Baxıllar ki, Nəbi yoxdu. Qışqırıllar ki, Nəbi yoxdu. Nəbi deyif qışqırıllar, bir də baxıllar ki, dörd dənə iyirmi kilolux qızıl balığı çatallıyıf ikisi dalda, ikisi öndə gəlir. Deyir, ə, bunnarı neynirsən bu qədər qırmısan? Deyir, hələ səkgizi də çaydadı. Ə, neyniyağ, nətər eliyağ? Deyir, onda bu balıxları aparax, dayılarımıza da dəyək. Dayıları bulara deyir, getmiyin. Allahverdi razı olur. De-

yir, mən razıyam, Nəbini razı salın. Allahverdi Nəbidən yaşca böyükmüş, amma Nəbi söz götürmüyən imiş, fikrinnən dönən deyilmiş. Nəhayətdə Nəbini razı salıllar. Atnan, eşşəknən gedif bunnarı köçürüf yenidən gətirillər. Bəhanə gətirillər ki, Ağbulax arı yeri deyil. Biz burda ola bilmərıx. Onnan sora Nəbi, Allahverdi köçüf gəlir Şeylannıya. Nəbinin dörd oğlu olur: Məmiş, Kərbalayi Xəlil, Avdılla, Məşədi Xasməmməd. Nəbidə parçalanma olmuyuf. Böyünə qədər Nəbilər gedir. O nədən irəli gəlir? Daimi ana kökü ilə evləniflər. Allahverdinin beş oğlu oluf: Kərbalayi Əsəd, İsmayıl, Xudi, Taro, Allahqulu. Kərbalayi Əsəd Hajısamlıdan evlənif, Taro Qarakeşdən evlənif, İsmayıl Ağcakəntdən evlənif. Xudi hardan evlənir bilmirəm. Hərəsi bir yerdən qız aldığınan həmin nəsillər parçalanıf.

## 65. VAĞAZİN KƏNDİ

Babamın atası İlyas adında bir kişi olufdu. Bir gün o ağlıyırdı. Babam deyif ki, niyə ağlıyırsan? Deyir, nənən öldü, qaldı Şərildə. Şərura Şəril deyirdilər. Demək, bular kiminsə zülmündən qaçıflar, gəliflər Vağazinə. Onnan da qabax Naxçıvannan Alqulu adında babamız oğlannarı Hüseyin, Avaz, Zülfüqarnan gəlif Vağazinə. Ayləvi gəliflər, qardaş-əmioğlu. Üşdü-beşdi qardaşdılar. Üç oğuldan törəmələr orda yayıldı. Deyilənə görə, özüynən üzdən irax qonşulardan birini də gətirif. Deyif ki, ay dığa, düş buraya bir daş qoy. Daşı qoyanda Alqulu gülüf. Dığa deyif ki, hə, indi bildim nəyə gülürsən. Özüzə məhlə tutursuz, yurd tutursuz, amma daşı mənim əlimnən qoyursuz ki, söyəndə söyüşlər mənim olsun. O kənd bölündü üş yerə, Vağazin oların mərkəzi kəndi oldu. Bozgüney, Kalafalıq kəndi həmin nəsildən törəyib.

## 66. KAMALLI KƏNDİ

Kamal kişinin tək bir oğu olub Əlmərdan adında. Özü də bunnar çay Kamallı deyilən yer var idi, orda məskunlaşmışlar. Bir nəfər tərəkəmə bəy oğlu olur, Pərişan adında bir qıza aşiq olur.

İsdiyir bunu alsın. Dədəsi, nənəsi gəlir, bu qızı vermillər. Bu isdiyir ki, qızı qaçırtsın. Buna deyillər ki, sənə ancax kömək eləsə, Əlmərdan adında oğlan var, o eliyə bilər. Qız da olur Bilündüz kəndində.

Nəysə, bu gəlir soraxnan tapır Əlmərdanı. Əvvəl atası razı olmur, aylənin tək oğlu olur. Əlmərdan özü də ayləli olufdu. Razılaşıllar, bu gedir oğlana kömək eliyir. Qızın yeddi qardaşı olur. Öyrənillər, kəşfiyyat eliyillər ki, qız filan damda yatıf. Əlmərdan damın bacasınnan özünü kəndirnən sallıyır. Oğlana deyir sən kəndiri hazır saxlıyarsan. Bir neçə nəfər də bunnarın köməkçisi olur yannarında. Ordan düşür, qızı büküf götürür. Cəfdəni açıf qızı çıxardır, damın qapısın bağlıyır. Qızı götürüf qaçıllar. İçəridə hay düşür, kənd-kəsək haya gəlir. Qızı qaçıran oğlan qızı qoyuf qaçır. Əlmərdan qıznan tək qalır. Uje səhərə yaxınnaşır, işıxlaşır hava. Bu atın yüyənini yəhərə bağlıyır, ata bir qamçı vurur, at gedir. Ağbulax çayının vadisində geniş böyürtkən kolları var. Qızı götürür soxur böyürtkən kollarının altına. Xançalı çıxardır qızın buduna bir balaca sancır ki, ağrı hiss eləsin. Deyir, səsini çıxartsan onsuz da mən bir cana borcduyam, səni də, qardaşdarını da, özümü də vuracam. Səsini çıxartma.

Nəysə, at gəlir öz sahibinin qapısına. Anası saçın yolur, üzün cırır. Kamal kişi çıxır ki, atın yüyəni yəhərə bağlıdı. Deyir, ay arvad, atın yüyəni yəhərə bağlıdı, demək oğlun salamatdı. Hardansa xəbər çıxacax. Gecə qarannıxda Əlmərdan qızı da götürüf gəlir. Bir neçə günnən sora qızı qaçırmağ isdiyən bəy oğlu gəlir. Qız deyir ki, Əlmərdan, sən orda şərt kəsdin, burda da mən şərt kəsirəm. Əgər sən məni özünə arvad eliyirsənsə, razıyam. Yox, deyirsən məni həmin adama verəsən, həmin gün özümü öldürrəm. Bu da oğlana deyir, qız qaçıran belə olmaz, sən namərtdik elədin. Nəysə, o çıxır gedir, Pərişan Əlmərdannan evlənir. Bizim kənd bax Əlmərdannan Pərişanın törəmələridir.

Tərəkəmə bəyin oğlu bunu belə qoymaz axı. Qisas almax fikrinə düşür. Bunnarın böyük ilxısı varmış. Dəsdə topluyur, Əlmərdan evdə olmuyanda ilxını götürüf aparır. Əlmərdanın atası Kamal kişi bir gün arvada deyir ki, ay arvad, bu ilxı da getdi, bir belə itki verdik. Bir bu gəlinin üzün mənə göstərin görüm bu gəlin kimdi,

buna dəyir, dəymir. O vaxdı da qaynata gəlinin üzün görmürmüş də. Kamal kişinin arvadı deyir, bala, çıx üzə, eybi yoxdu. Çıxır belə baxır, deyir, qızım, yüz belə ilxı sənin bir telinə qurban olsun.

Sora Əlmərdan öyrənir ki, ilxı hardadı, bu bəy hara düşüb. Hardasa Araz kənarında olub. Bunnar iki nəfər gedif çıxır ora, guya nəsə alasıdırlar. Baxır ki, ilxısı burdadı, qamışdan cağ kimi düzəldif yığıflar ora. Günüz atdar otduyur, gejə yığılıllar bura. Tərəkəmədə bellə bir adət var. Minik atdarı binənin ətrafında olur. Bu əvvəlcədən minik atdarının hamısının hörüyün kəsir, yəhərin də tapırların kəsir. İlxını ota buraxanda yoldaşına deyir ki, mən atı sürəcəm, ilxının içinnən keçib gələndə ilxı dalıma düşəcək. Sən dalın kəs. Bu gəlir öz atını çağırır (ağsakqallar atın adını da deyirdilər). At bunun yanına gəlir. Bir az sığallıyır. Ata minəndə ilxı düşür bunun dalınca. İlxı bunun dalınca dördnala çapıf gedəndə bu biri atdar da qoşulur bunnara. Bunnan da öz ilxısına sahib olur.

Əlmərdanın üç oğlu olub: Nəbi, Camal, Qəmbər. Kənd bu üç oğuldan törəmədir.

## 67. ÇIRAQLI KƏNDİ

Çıraq adında kor bir kişi gəlib bizim kəndə çıxır. Gözündə qırovluq olur, uzağı görmürmüş, ona görə ona kor deyiblər. Ərdəbildən gəlib bizim kəndin ərazisində yerləşir. Bunun dörd dənə oğlu olub. Birinin adı Əsgəndər olur, birinin adı Şabəndə, birinin adı Həsən, birinin adı da İman olub. Mənim eşitdiyim məlumata görə, Kamalla Çıraq qardaş olublar. Kəndlər bir-birinə o qədər birrəşmişdi ki, qonax gələndə kəntdərin arasını bilə bilmirdi. Gəlib orda yurd salıblar, orda qalıb yaşıyıblar. Xeyri-şəri də, təşərrüfatı da bir olub. Başqa kəntdərnən ünsiyyəti o qədər tutmurdu, amma ikisinin bir-biriynən ünsiyyəti tuturdu. Qız verib qız alırdılar.

Çıraq qardaşı evinnən ayləsiynən öz yurduna gedərkən sahənin müəyyən hissəsində onun üzərinə canavarrar düşür. Rəvayətə görə, iyirmi dört canavar olub. O, iyirmi dört canavarın iyirmi ikisini öldürərək öz yurduna gəlib çatır.

Kor Çırağın oğlu Həsən örüşdən gələndə bir dənə bəbir düşür bunun üsdünə. Yapşır bunun dizinin gözünnən, alır ağzına. Bu nə qədər çalışır dizini bunun ağzınnan çıxara bilmir. Həsənin belində xənçəl vardı. Xənçəli çıxardır bəbirin qarnın cırır, candan olannan sora dişdəri boşalır. Hana vardı, o hananı mən gördüm. İrəhmətdiklər and içirdilər ki, həmin bəbirin dərisin onun üsdünnən asdıx, quyruğu yerə dəyirdi. Yaralı halıynan onu öldürüb dərisini soyub gətirmişdi. Həmin kişi dörd ildən, beş ildən sora həmin yaradan da rəhmətə getdi.

## 68. MİNKƏNDDƏKİ NƏSİLLƏR

### I mətn

O vədə Teymurləng kəntdəri, mahalları özünə tabe eliyə-eliyə gəlif. Mininci say Minkəntdə tamamlanıf. O say düzəldiyinə görə kəndin adı Minkənd qalıf.

### II mətn

Bizə o taylı deyillər. Mənim babam Məşədi Məhəmmətdi, onun dədəsi Axund Allahyardı. Ajdığ oluf, deyif burda balalarım ajınnan qırılar. İki oğlu, iki qızı oluf. Oğlunun birinin adını Məhəmmətdi, biri Hüseyindi. Qızdarının adı Tavat, Savatdı. Dörd uşağıynan Arazdan keçif gəlif Füzuli rayonunun Qacar kəndinə. Orda bir müddət yaşıyıf. Arvadının adı Telli oluf.

Molla Allahyarın möcüzü camahat arasında çox yayılıfmış. Arvadı rəhmətə gedəndə deyif ki, əzyət çəkmiyin, elə qəbri qapımızın ağzında qazın. Bunnar da deyif ki, ay axund, axı öz qəbirsannığımız var, camahat orda dəfn olunur. Deyif ki, mən eldən ayrılmıram, amma mənim məsləhət bildiyim buradı. Mən də elə zor eliyən deyiləm. Elə vəzyət oluf ki, el aparıf qəbirsannıxda dəfn eliyir. Danışılanı deyirəm ha, gözümnən görməmişəm. İlin yazbaşı vaxdı oluf. Dəfn olunannan sora gejə qar başdıyıf. Elə bir qar yağıf ki, deyilənə görə dizdən yuxarı qalxıb. Bu qar bir sutka, iki sutka kəsmiyif. Heş kimin xəbəri olmadan Axund Allahyar harda demişdisə arvad gəlif orda dəfn olunuf. Qar əriyənnən sora camahat baxıf ki, basdırdıxları

qəbr boşdu. Deyillər, axı biz bunu burda basdırdıx. Axund Allahyara xəbər verillər. Deyir, siz ora basdırdınız, Allah bir tufan elədi, qar elədi, özümün də xəbəri olmadı bir vaxdı baxdım ki, qəbr burdadı.

Füzuli rayonunda bir arvadın oğlu nə iş tutufsa tənəzzül işi oluf. Deyif ki, Axund Allahyarın ojağına qurban deyirəm, oğlum bu işdən qutarsın. Gejə çıxıf yalvaran vaxdı baxıf ki, Qacar tərəfdən işıx gəlir. Arvad özün itirmədən işığa tərəf gəlir, gəlir. İşığa çatanda baxır ki, nə işığ var, nə yanan var. Arvad oraya bir nişanə qoyur, qayıdır gəlir. Səhər kimsə bir xəbər gətirir ki, sənin oğlunu boşdadılar. Oğlu gəlir deyir ki, vallah, hava işıxlananda məni çağırdılar ki, gəl ayın-oyununu götür, səni boşdadılar. Bu səfər anası gedir həmən nişanə qoyduğu yerdə – Axund Allahyarın qapısında qayıb ojağı tikif.

Axund Allahyar sora Qacarı tərk edir, gəlir Ağoğlannan qonşu Əsəd Sultannar kəndinə. Qarıqışlaxdan bir qadınnan evlənir. Ordan da gəlif Minkəntdən aşağı Qalaça kəndinə. Böyük bir bulağ oluf. O bulağın səbəbinə gəlif orda məskunnaşıf balalarıynan.

### III mətn

Minkənd on beş tayfadı. Bizlərə o taylı deyərdilər. Bayandurlu, navrızlı, tariqli, binolu, kosalar, şahsuvarrı, sisyannı, xudulu, zaliqli, hüseyinnər, ellazdar, məlikli, avazdar, şeytannar. Düzün deyən olduxları üçün adına şeytannar deyirdilər. Elə olurdu deyirdilər ki, sən orda bu işi görsən, camahata ziyandı. O da görsəydi ona xeyirdi, deyirdi ə, bu şeytan qoymaz ey burda işimi görəm. Heylə oluf onnara şeytannar deyirdilər. Hüseyinnər tayfası bayandurlulardan, tariqlilərdən, o taylılardan, sisyannılardan sora gələnnərdi.

Bizim kəntdən aşağıda Bozdu kəndi var. O Bozdu kəndinnən bizim kəvşan sərhəd idi. Yaylağa çıxanda bizim camahatın mal-heyvanın dağa getməsi çətin olurdu. Bozdular öz yerlərindən keçməyə qoymurdular. Gərək bir az uzaxdan gedif dağa çıxax. Bozduluların belə hərəkət etməsi bizim camahatı narahat eliyir. Kəvşan onun olsa da, gərək yer verəydi. Bu səfər hüseyinnər fikirrəşif ki, Şahsuvarı gətirsək buları kəvşannan çıxardar da. Hüseyinnər tayfası İstisudan – Dərələyəzdən gəlmədi. Ona Kosa Hüseyinin İstisuyu

deyirdilər. Gedillər Şahsuvarın dalıncan. Şahsuvar deyir ki, məni elə yerə aparın mən su içəndə quruşqamı bulağa salım suyumu içim. Da qabda, sənəydə su daşıtdırmayım. Bunnar da deyir ki, heylə yer var, amma bulağa oxartan da yaxın deyil. Deyir, elə yerdə olsun ki, heç olmasa sənəyi üsdündəki su qurumamış evə çatdırmağ olsun. Danışığa görə bunu gətirillər Şahsuvar bulağı deyilən yerə. Ora elə bir meşə olur ki, yarpaxdan, şəvəldən, şaxdan o bulax – üş dəyirman işdədən su görükmürmüş. Su xəzəlin, yarpağın altıynan gedirmiş. Cığır kimi yer varmış. Ordan keçəndə baxıllar ki, atın ayağı isdandı. Düşüf eşiflər, görüflər orda su mənbəyi var. Şahsuvar oranı görür, orda bulağa yaxın yerdə ağaşdardan dam tikir.

Şahsuvar gələnnən sora deyif, indi mən səhər bozduluları ordan çıxardaram. Fırlanıf o tərəfdən gəlir, guya Dərələyəzdən gəlir. Gəlir ki, Soyuxbulağın üsdüynən alaçıxlar düzülüf, bu tərəfi də əkin-biçin. Şahsuvar xənçəliynən nəxarta tuluğ var hamısın xənçəlliyir, qatıxlar axır o bulağın suyuna. Oğul, danışığa görə, bir ay çay ağ axıf. O tuluğlar kəsillənnən sora bozdulular yendilər bizim kəntdən aşağa. Kəvşannarı da düşdü Kamallıynan Çıraxlının arasına.

**IV mətn**

Bizim kəndin bir tərəfi Qarakeşdinin yeri idi. Həmən o Şahsuvar çarığını soyunur, Minkənd torpağınnan yığır çarığın içinə. Ağsakqallarnan gedir çıxır ora. Deyir ki, bura bizimkidi. Onnar da deyir ki, yox, bizimdi. Deyir, gətirin and içax. Quran gətir sən and iç ki, mənimdi, mən də and içim ki, mənimdi. Qarakeşdilər Qurana gəlmir. Şahsuvar gedir durur harda ürəyi isdiyir orda. Deyir ki, bu Quran haqqı, ayağımın altdakı torpax Minkənd torpağıdı. Onnar da başa düşmür ki, bu, çarığının içindəki torpağı deyir. Bu Qurana and içənnən sora qarakeşdilər ordan çəkilir, həmin torpaxlar Minkəndə qalır.

**V mətn**

Bizim kəndə Hajının qorxusunnan qaçax-quldur gələ bilməzdi. Səvdimalı deyilən minkətdi gedif qoşuluf qaçax-quldura. İyitdiyinə görə aparıf qoşuflar özdərinə. Səvdimalı Hajı babama xəbər

göndərir ki, iki günətən gəlməsən, qaçax-quldurların başçısı məni öldürəjəh. Deməli, bu qaçax (adını yada sala bilmədi – top.) görürmüş kim özünnən bir az ötkündü onu arxadan vururmuş. Hajı babam xəbəri gətirənə deyir ki, mən gələjəm gəlməyinə. Uzun dərədə görüşəjeyih. O görüş məqamında böyüyünə de ki, bir qaçax gəlif, təkdi. Yoldaşdarınnan ayrılıf gəlif ki, məni dəsdəyə götür. Məni dəsdəyə götürənnən sora ölümünnən qorxmasın. Gəlif buna xəbəri çatdırır ki, bir nəfər (babamın sağkən danışdığın deyirəm) xəbər göndərif. Yalvarır ki, tək qalmışam, məni dəsdəsinə götürsün. Qaçaxlar məni dolandırmıyıf dəsdədən ayırdı. Belə deyəndə deyif get çağır gəlsin. Mənim məşqimə davam gətirməsə, ikinizi də öldürəjəm. Babam çox enni idi, heylə enni adam indi görmürəm. Deyir, getdim. Dedi ki, balaca oğlan, nə eləmisən ki səni dəsdədən qavıflar. Bu da deyif ki, bilsəm elədiyim günahdı, eləməzdim. Deyir, indi məşq eliyəjeyih. Atın atımnan barabar getməlidi, getməsə atını vurajam. Özümüz məşq tutajıx, mana güj gəlsən, səni başımda saxlıyajam, amma əzik olsan, səni atının yanında vurajam, elə səni gətirəni də. Deyir, ixtiyar sahibisən, öldürsən də olar, götsən də olar.

İndi siftə atı məşqə qoyuflar. At çapanda qaçaxların başçısının atı büdrüyür, babam əl atır tutur onu, qoymur yıxılmağa. Deyir, balaca oğlan, nə iyitdiyin varmış. Sən öl, yıxılıf kəllə-paça olmuşdum. İndi bu görüf Hajının qüvvəsin, Səvdimalıdan qabax isdiyir bunu öldürə. Camahata deyif, siz ordan gedin meşəyə, biz də burdan, filan yerdə bulağın üsdünə çıxajıx. Bunnar belə getdiyi yerdə babam nə mahna edirsə, daldan bunun təpəsin verir gülləyə. Paltarın soyunur geyinir öz əyninə. Qaçaxlara hay düşür ki, dəsdəyə gələn adam dəsdə baçısını öldürdü. Onnan sora hər kəs dağılır. Bunnar gəlir ki, kəndin hansındasa toy var. O paltarnan girir toyda oynuyur, camahata da deyir ki, arxayın olun, daha qaçax yoxdu, işinizdə olun.

## VI mətn

Bir günnəri babamın qardaşı Əli meşədən odun gətirəndə görür ki, on iki alaçıx var. Bu alaçıxdakı malların içində bir mal var, dəvə boyda. Bu malın yekəliyinə ukqədər vurulur. Qardaşının

da iyidliyini bilir. Gəlir qardaşına deyir ki, ə qardaş, səni çox iyid-iyid deyillər. Qardaşıx, sana bir söz deyəjəm. Onu eləsən təsdiq eliyəjəm ki, iyidsən. Eləməsən yox. Deyir, Qarasuda on iki alaçıx var, o malın içində bir bənööş irəng mal var. Bilmədim öküzdü, inəkdi, amma dəvədən yekədi. Bu deyir ki, yaxşı, gedərəm. Qardaşın yola salannan sora ayrı bir adam gəlir. Bu da görüf həmin malı. Buna deyir, sən öl, o malda bir yekə mal var, gəlginən gedax onu gətirax. Bu da deyir ki, ə, sən öl, o obaya gedərsən, təpənə bir güllə vurram. Bax ha, birdən gedərsən o obaya. Hajı dedi kim gedər?

Hajı babam gedir evlərin yanın-yörəsin, mal yatışan yeri gəzir, həmin malı tapmır. Öz-özünə deyir, girif bu alaçığın yiyəsinnən soruşajam ki, o yekə mal hanı. Babam deyirdi ki, nə qədər iyitdik elədim özümnən iyid o alaçığın yiyəsin gördüm. Deyir, girdim içəri ki, yatıflar. İndi axtarıram ki, kişi başı hansıdırsa tərpədəm ki, dur ayağa söz xəbər alajam. Demiyəsən, kişi əlində beşaçılan ayağ üsdə duruf, mən girif gəzənnən gözdüyür ki, görsün mən neynirəm. Elə isdədim ki, əyiləm. Məni qaldırdı ki, kimsən bura girmisən? Bu sən deyən evlərdən döyül. Hardan gəlmisən qanını tökmə buraya, dinməz çıx get. Mən də dedim ki, mən minkəntdi Allahverdi oğlu Hajıyam. Mən buraya nə benamusduğa, nə ev haşiyəsinə gəlmişəm. Mən girdim ki, kişini oyadam, onnan söz soruşam. Sən də ayax üsdəsən lap yaxşı. Sorağın almışdım ki, bu obada bir bənööş irəng yekə mal var. Gəlmişdim onu aparmağa, tapmadım. Girdim ki, ev yiyəsinnən soruşam. Bu da buna deyif ki, sən ki, əlimdə silah bu sözü cəsarətnən mənə dedin, burdan say beşinci alaçığın divində dəvə kimi qıçaların bağlıyıf yatırdıflar, üsdünə də keçə atıflar ki, oğru gəlif eləsə onu tapmasın.

Hajı babam gedir keçəni açır, əlindəki xənçəlnən ayağındakı ipi kəsir, öküzü durğuzur. Elə yedəyinə alıf gedəndə görür kü, alaçığın böyründə bir mal nəsə yeyir. Əl atır malın ağzına ki, yumuşaxdı. Çəkir ki, yaylıxdı. Yarısın yeyif, yarısı qalıf. Gəncə yaylığı deyirdilər, qıraxları güllü. Bu səfər həmən malın xənçəlnən tükünnən kəsir. Öküzün qıçınnan kəsdiyi iplərnən heyvanın içinnən iki dənəsinin ayaxlarını bağlıyır, aşırır öküzün üsdünə, götürür gedir.

Gün qalxanda atı minir gedir ki, bu obada davadı. Naxarta deyir, ə, niyə dalaşırsız, buna cavab verən olmur. Deyir, and olsun Allaha, mana deməsəniz sizi qırajam. Mən Allahverdi oğlu Hajıyam. Bu sözü deyəndə gejəki adam gəlir bunun yanına. Deyir, Hajı, mənim alaçığıma girmişdin, mən o adamam. Mən ovşar Səvdimalıyam. Bu dava onnan ötrüdü ki, bu obada bir qızı iki nəfər isdiyirdi. Qızı o birinə verdilər. İndi gəlinin yaylığı yoxdu. Deyillər ki, bu biri oğlan qisas almaq üçün gəlif bu qıza sataşıf. Onun səbəbinə davadı. Deyif, get denən davanı yatırsınnar, mən yaylığın yerin bilirəm. Gəlif deyir ki, o kişi deyir mən yaylığın yerin bilirəm. Səs-küy kəsilir. Hajı babam gedir camahatın içinə. Deyir, ə, malları yığın buraya. Nişanalı malı tapır. O vədə bir at üç inək, dörd inək qiymətinə idi. Deyir, ala bu atı verim sizin olsun, bu malı kəs, yaylıx bunun qarnındadı. Çıxmasa, at sizin olsun. Malı kəsillər, yaylığı çıxarıllar. Parasın da öz civinnən çıxarıf verir. Deyillər, ay kişi, sən bunu hardan bildin? Deyir, bənööş malı aparmağa gəlmişdim. Aparanda gördüm mal ağzında nəsə yeyir, onu ağzınnan aldım, tükünnən də kəsdim, onda görmüşəm. Baxıllar ki, yekə mal yoxdu. Bu barışığa görə on iki ev hərəsi bir heyvan verif, o malı da halal eliyiflər.

**VII mətn**

Biz tərəfdə olan təpələrdə müəyyən eləmişdilər ki, bu təpədə alav yananda bilin ki barışıxlığdı, toplaşmalısız söhbətə. İkinci təpədə alav olanda çıxmalısız haraya, üçüncü alav olanda silahlı gəlməlisiz. Deməli, bunnar müəyyənnəşmiş işdi.

Nənəm təzə gəlin gələn vaxdı – Nooruz bayramı, ayın iyirmi biri günü Sultan düzü deyilən yerdən ermənilər top atır Minkədə ki, minkəndlilərin başı bayrama qarışıxdı, bəlkə bunnarı qaçax salsınnar, kəndə sahib çıxsınnar. Həmən alavın vasitəsiynən Allahverdi oğlu Hajı camahatı yığıfdı. Onda da camahat qaçırdı Qarakeş tərəfə. Deyif, filankəs, sən Qarasu deyilən yerdə camahatın qabağın kəs ayana getməsin, mən gedif daldan qarışajam erməniyə. Havaxt sizə parol versəm bilin ki, erməni sınıx düşüf, onda dalımcan gəlin. Bayram günü hamının qazanı ojağ üsdə. Topu da atıllar, hara dəyir

paralıyır, hamı pərən düşüf. Hajı babam gedir girir ermәninin içinә, qabağına çıxanı vurur. Bular da yerdәki meyitlәri görür, elә bilillәr biz tәrәfdәn atıllar. Babam topçunu öldürәnnәn sora parolu verif, kәntdәn Muradәli, Süleyman, Sәvdimalı gedillәr onun hayına. Hajılar kәndinnәn Ağalar, Molla Әhmәtdi kәndinnәn, Mirikdәn çıxannar qoşulullar onnara, ermәnilәri Gorusun Ağdәrәsinә qәdәr qovurlar.

## 69. GÜLӘBİRDDӘKİ NӘSİLLӘR

### I mәtn

Әvvәllәrdәn dә bizim kәndin adı Gülәbirt oluf. Onnan sora Mәzmәzәh oluf. Deyirdilәr ki, bir milçәh var, adamın boğazına-zadına girir, xırxır danışır. Deyillәr, mәzmәzәh vırdı bını. Bizim kәntdә su dәrәsi deyilәn bir yer varıydı, ora tamam mәzmәzәhnәn doluydu. Mәzmәzәh hәr tәrәfi ağzına almışdı. Elә qojalarımız da hәmişә deyәrdi ki, bu mәzmәzәyә görә Gülәbirdә hәm dә Mәzmәzәh deyirdilәr. Bax, Mәzmәzәh uçan o quşdu, çivin.

Mәzmәzәh iki yerә bölünürdü. Yuxarı Mәzmәzәh, Aşağı Mәzmәzәh. Bax, qızım, Mәzmәzәh bir neçә yurtdarın, beş-on, otuz evdәn olan balaca kәntdәrin toplusuydu. Mәzmәzәh oruşmәmmәdlilәrdәn, novruzalılardan, qaraqaşdılardan, abasqışlağınnan ibarәtdi. Bu addarını dedihlәrim Aşağı Mәzmәzәyә aiddir.

Yuxarı Mәzmәzәh otuz-otuz beş ev olardı. Onun bir tәrәfinә bәy tәrәfi deyәrdilәr, bir tәrәfinә dә irәhәt tәrәfi deyirdilәr. İrәhәt torpağı olmuyannara deyirdilәr.

Aşağı Mәzmәzәyin isә әsl adı Oruşmәmmәdlidir. Oruşmәmmәd adlı bir kişi gәlir birinci orda yurd salır. Özü dә doqquz oğlu, bir qızı olur. Bu yer dә o kişinin adı ilә adlanır. Hәmәn tayfadan Firudun adlı biri qalmışmış sonda. Ağsakqallar yığışıf qәrara gәlirlәr ki, buranın adı Firudun qışlağı olsun.

### II mәtn

Gülәbirdin әn böyük tayfası Oruşmәmmәd tayfasıdır. Oruşmәmmәdlilәr Cәnubi Azәrbaycannan gәliflәr. On dokquzuncu әsrdә

rusdarnan irannılar Azərbaycanı iki yerə bölənnən sora rus kazakları gəlif burda yerrəşmişdər – Zəngəzur mahalında. Bu Oruşməmmədgil yaylaxdan arana gedirmişdər. Oruşməmmədin atası Kərbəlayı Haxverdi idi. Hə, bılar yaylaxdan arana gedirmişdər, addıyırmışdar İrana. Orda bınnarı çoxlu var-döölətnən kazaklar tuturlar. O vaxtı qubernator Gorusda otururmuş. O da urusuymuş. O vaxtı beləymiş. Harda tutsalar, onu gətirirmişdər Gorusa, orda qol çəhdirirmişdər ki, bir belə var-döölətnən getdi, tutdux qaytardıx. O vaxtı da savadı olan yoxuymuş, barmax basırmışdar.

Sora bınnarı bayax dediyim kimi, Gorusa gətirillər, özü də ulağ əyağıynan, qoyun-keçi, mal-qara əyağıynan götürüf bınnarı Gorusa gətirillər. Görün da nə vaxta qədər gələrmişdər. Dəəsən, bınnarın dayılarınnan biri yolda ölür. Haxverdiynən Oruşməmməd qubernatorun qəbuluna gedillər. Hələ bınnar yol gələndə fürsət axtarırdılar ki, aktı məhv eləsinnər. Qabaxlar tumaşdan-dəridən sumka varıydı. Çiyinnən asırdılar, ağzının qapağı da varıydı. Bı sumka da onnarı aparan üş nəfər zabitdəymiş. Yolda nətəər eliyillər, onnarı içirdillər, neyniyirlərsə, aktı onnarın sumkasınnan çıxarıf yandırıllar. Həə, bınnar gəlif Gorusa çıxanda əvvəlcə Oruşməmmədnən atası qubernatorun qəbuluna gedir. Qubernatora deyiflər ki, bəs iki sayıl gəlif. Sayıl da yazıx adamlara deyirdilər. Deyif ki, buraxın gəlsin. Qubernatora deyillər ki, bizi yolda tutuf gətiriflər bura. Bu dəmdə də həmin afiser içəri girir. Afiseri göstərif deyillər ki, bizi bu gətirif. Deyir ki, aktını çıxar. Afiser sumkasını açır ki, aktı versin qubernatora. Baxıf görür ki, akt yoxdur. Qubernator orda afiserə nə cəzanı verirsə, verir. Bınnara da deyir ki, mənim qubernator olduğum vilayətdə hara xoşuna gəlirsə, get orda yaşa. Oruşməmmədlilər ordan gəlif Qubatdının Hacılı kəndinə. Orda bir əz qalıllar. Sora gedillər Qubatdının Teymur Müsanlı kəndinə. Orda da qalıllar. Nəysə, bıralar onnarın xoşuna gəlmir. Atdarı minif gəlif çıxıllar Məzməzəyin başına. Baxıllar ki, xırmannı bir yer var. Çox axarrı-baxarrı bir yerdi. O tərəfdə də daşdan su çıxır, ona Şıx bulağı deyillər. Qara Kaha deyilən bir yer var. Qoyunu ora yığıllar. Özdəri də Muxurruda olurmuşdar. Qəlbidə çadır tikif oturmuşdar orda.

Bala, o vaxtı çadır yoxuydu e. Keçəydi, qəlib idi, bir də çətən. Yunnan salırdılar, alaçığın üstünü onnan örtürdülər. İndi çadır tikirlər ha, həmin çadırlar yunnan salınan qəliblərdən ibarət olurdu. Orda çətən olurdu, qarğudən toxuyurdular. O qəlibdən su qarğuynan axırdı gedirdi qırağa. Bax, orda tikiliflər. Şıx bulağının yanında Qara Kaha deyilən bir yer varıydı. Yağınıx olanda qoyunnarı aparıf orda saxlıyırdılar. Onnardan qabax həmən kahada başqasının qoyunu vareymış, onnarı çıxarıf öz qoyunnarını ora yığıflar.

Novruzalı tayfasında da Şükür addı biri varıymış. Çox dilavar adammış. Nəysə, Şükür şikayətə gedir. Adam gətirir ki, bəs bizim yeri bınnar gəlif alıfdı. Oruşməmmədin atası deyif ki, bala, Şükür getdi, adam gətirəjəh. Yenin, o dərədə yurd salın, tikili tikin. Özü də odunnan, kərmədən, təzəhdən yandırın, orda küllüh düzəlsin. Bınnar gedif meşədən odun-zad qırıf. Dəvə damı deyilən böyüh bir dam tikillər. Özü də çox uzun olur, yığışıllar ora. Yandırıllar, küldən töküllər. Damın biz qaşqın düşənə qədər kalafası dururdu.

Həə, Şükür axı bınnardan qubernatora şikayətə gedir. Qubernator da şikayətə əsasən, məsələni həll etmək üçün ora adam göndərir, bir də tərcüməçi. Bu tərcüməçi həmin tərcüməçi olur. O vaxtı Oruşməmmədgili tutuf gətirmişdilər ha qubernatorun yanına, bu tərcüməçi də orda iştirak edib. Baxıflar ki, Orucməmmədgil burda yoxdu. Deyirlər, bəs hanı onnar? Baxıflar ki, dərənin içinnən tüstü çıxır. Deyillər ki, yəqin köçüflər ora. Adam göndərillər ki, görün onnarın küllüyü var. Axı kişi deyif ki, yandırın külü çox olsun. Gəlif deyiflər ki, əşi, küllüyü nədi? Qalax-qalax kül var orda. Oruşməmmədgilin atalarını gələn adamların yanına çağırıllar. Tərcüməçi görüf ki, bınnar həmən adamlardı. Qubernator axı bu tərcüməçinin yanında deyif ki, harda isdiyirsiniz yaşıyın. Deyif, o tüstü çıxan evlər kimindi? Deyif ki, bizim. Deyif ki, hardan gəlmisiniz? Deyif ki, biz bırda çoxdannan yaşıyırıx. Gələnnər Şükürə deyif ki, yer elə bınnarındı. Onnan da Oruşməmmədlilər yerləşib orda. Oranın da adı qalıb Oruşməmmədli.

## 70. ALQULU KƏNDİ

### I mətn

Orda Sultan bəy, bir də Bülöylük bəyləri oluf. Bülöylük bəyləri İran tərəfdən gəlmə olufdu. Gəlif orda bütövləşiflər. Orda Qara Murtuza deyilən bir şəxs oluf. Qara Murtuza həmin Bülöylük kəndində mərkəzləşif. Murtuza bəy bir gün gəlir Aran Qarabağa. Burda dosduynan gəzintiyə çıxmışmış. Bərdənin ətrafınnan keçəndə görür meydan sulanıfdı, meydanda adam asıllar. Deyir ki, bunun günahı nədi görəm? Deyillər, a kişi, yolunnan çıx get, neynirsən. Deyir:

– Yox axı, insannarı asmax yaxşı deyil. Bir bunu soruşum.

Yaxınnaşıf deyir ki, xan sağ olsun. Bu uşağı gəlsənə bağışdıyasız mənə, qonağ adamam.

Deyir:

– A kişi, yolunnan öt get, sizdik deyil.

Nə qədər yalvar-yapış eliyir. Axırda Murtuza bəy ayaqaltının üsdünnən uşağı götürür, atın tərkində aradan çıxır. Nəkqədər hay-haray, tökülüllər, çata bilmillər. Nəhayət, bunu gətirir Laçın rayonunun Bülöylük kəndinə. Bir oğul kimi onu saxlıyır, böyüdür.

Bir gün eşidir ki, Qarabağda böyük bir ziddiyyət gedir. Həmin o Bərdə ərazisində gəncəlilərnən buların ziddiyyəti var. Onda Bərdədəki deyir ki, Allahın öz altında Murtuza bəy böyürdən çıxaydı, arxalanaydım ona. Murtuza bəy bunu eşidir, oğlanı qoyur orda, öz oğlannarıynan davaya gəlir. Murtuza bəyin oğlunun biri həmin döyüşdə həlak olur. Gəlir deyir ki, axtardığın Murtuza bəy mənəm, amma sənə bir sualım var. Deginən görüm sənin nəyin var?

Deyir:

– Mənim bircə dənə oğlum vardı qabaxkı qadınnan. O qadın vəfat elədi, mən onnan sora bir qadınnan evləndim. Onun da bir oğlu vardı. Mən isdiyərdim ki, ikisi bir yerdə böyüsün. Gördüm oğlum mənim ayləmə pis münasibət bəsliyir (Halbuki heş bir şey yox imiş. Ögəy ana bu oğlanı okqədər özünə örgətmişdi ki, hər yerdə bağrına basırmış, öpürmüş).

Deyir:

– Neynəndin sora?

Deyir:

– Gördüm ki, doğrudan da, mənim ayləmi öpür. Mən onu asdırası oldum. Amma kafirin biri vurdu qaynağına apardı. Bilmədim necə oldu.

Deyir:

– O qalsa asdırajeydinmi?

Deyir:

– Bəli.

Deyir:

– O qadınnan sənə arvad olmaz, kişi. O arvad uşağı özünə vərdiş elətdirif ki, sənə sübut eliyə, sən oğlunu məhv elətdirəsən, varidatın qala bunun oğluna. Bax, məqsəd budu.

Atını minir gedir. Deyir:

– Oğlumun da qanın halal eliyirəm (oğlunun biri orda döyüşdə həlak olmuşdu). Sora oğlunnan xəbər verərəm sənə.

Murtuza bəy həmin oğlanı evləndirir. Deyir:

– Oğul, səni evləndirdim?

Deyir:

– Bəli.

Böyük bir ərazi verir, deyir:

– Sənə mülk verirəm, torpax sahəsi ayırıram. Bax, burda sənə kənd bünövrəsi qoydurajam. Özünə də iki nəfər qul gətirəjəm ermənidən.

Məsələ belə aydın olur ki, oğlan bu kəndi burda salır. İki dənə aylıəli erməni tapıf gətirillər. Oğlanın adı Alıdı, ermənilər də onun quludu. Alqulu kəndinin adı da ordan qalmadı.

### II mətn

Qarabağ xannığına seçki dövründə Qara Murtuza Çalbayır dairəsinin sədri təyin olunur. Çalbayır dairəsinə aitdi Pircahan, Qoşasu, Künbəzdi Qaraçannısı, Yuxarı Qaraçannı, Sarı baba, Ərdəşöy, Piçənis, Ələkçi, Namlı, Qarabayram, Şəlvə, Alaqaya, Kürthacı kəndləri. Həmin dairənin də sədri Qara Murtuza oluf. Yaxşı çalışıf, səsi

topluyuf. Xan onun işindən razı qalıf. Onu qəbul eliyəndə deyif, mənnən nə isdiyirsən? Deyif, mənim bircə dənə oğlum var, ona toxunulmazdıx ver. Toxunulmazdıx alan da vergidən azad olur. Doğurdan da, toxunulmazdıx verif. İndi bizdə Bülöylük bəyləri deyillər. Əslində onnarda bəylik statusu olmuyuf, toxunulmazdığ oluf. Amma camahat bunnarı bəy kimi tanıyıf. Qara Murtuza rəhmətə gedif. Oğlu Alı bu dairənin sədri oluf, eyni zamanda Qarabağ xannığının nümayəndəsi oluf. Bir günnəri bu, yenə Qarabağ xanının qəbuluna gedəndə xan soruşufdu nə çətinniyin var? Deyif ki, xan sağ olsun, əkinəsəpinə köməyim yoxdu. Bunnan çətinnik çəkirəm, təkəm. Deyif ki, sənə beş erməni ayləsi verəjəm, apar işdət. Çağıtdırır təşkil eliyir, beş dənə ayləni köçürür Laçının Alqulu kəndi deyilən yerə. O vaxdı orda bulağın üsdündə dam-daş salır, bu beş erməni orda tikilir. Alının qulları sora təkmilləşir Alqulu kəndi olur. Ora sora böyük bir erməni kəndinə çevrilir. Hətta orda Aterka adında keşiş də yerrəşir. Keşiş özü də böyük imkana malik olur. Hətta bəzən Paşa bəy gələndə təklif eliyir ki, toxumum var, nəyə ehtiyacın var? Paşa bəy deyir ki, keşiş, sağ ol, heş nəyə ehtiyacım yoxdu. Bu proses davam edir 1915-ci ilə qədər. Sultan bəy oları ordan köçürdür, onnan da erməni ordan ləğv olunur. O Alqulu kəndi Qarabağ xanının Qara Murtuzanın oğlu Alıya verdiyi beş ermənidən yaranmadı.

## 71. ALXASLI KƏNDİ

Siftə hər yer meşəlik idi, yaşayış yox idi. Kəlbərcərdən iki qardaş gəlifdi. Kəndimizin o tayı Alpout, Qoşasu kəntləri idi, güney xasiyyətli idi. Siftə onnar ataları da yanında gəlir oraya. Atalarının da gözü kor imiş. Oğlannar deyifdi ki, bura yaxşı güney yerdi. Atası deyif ki, bu yerdən bir az qazın. Kişi qazdırıf, deyif qaytarın torpağı doldurun qazdığınız yerə. Əlini sürtüfdü ki, qazılan torpax oranı doldurmuyufdu. Deyif:

– Bala, burda taxıl olmaz, gedək ayrı yerə.

Sora addıyıf bizim indiki Alxaslı teritoriyasına. Gələndə görüflər bir tərəfi meşədi, yaxşı yerdi. Bu dəfə də deyifdi qazın

buranı. Qazdırıfdı, sora deyif torpağı qaytarın yığın yerinə. Torpağı qaytarıf yığanda görüf ki, xeylax torpax qaldı. Deyif:

– Burda yaşamağ olar.

Həmin kişinin adı Alxas imiş. Heylə olur orda yurd salırlar. Oğlannarının birinin adı Əhməd idi, o birini bilmirəm.

## 72. MALIBƏY KƏNDİ

Bizdə çox geniş örüş-sahə var. Onnan əlaqədar camahat çox mal-devlət saxlıyırdı. Da bizdə malın dalınca getmək söhbəti yox idi. Okqədər geniş örüş vardı ki, axşam gələn gəlirdi, gəlmiyən də yatırdı örüşdə. Örüşün genniyinə görə, mal azad otdadığına görə kəndin adını Malıbəy qoyuflar. Şuşada da Malıbəyli kəndi var. Qan üsdündə bizdən bir adam ayləsiynən kəntdən çıxıf gəlif orda yerrəşif. O gələn soruşuf sən hardansan, bu gələn soruşuf sən hardansan, deyif Malıbəyliyəm. Onnan da o kəndin adı qalıf Malıbəyli.

Bizim kəntdə köçərilər deyilən bir tayfa var, tərəkəmə oluflar. Onnara Püscəfərlilər də deyirik. Kalxozlaşma devrində gəlif bizim kövşənin üsdünnən keçəndə onnarın qavağını kəsif devlətini alıf veriflər kalxoza. Devlətdəri alınnanan sora deyiflər ki, madəm əmlakımız burda qaldı, elə özümüz də burda qalıf kalxoz olajayıx. Elə onnan da qalıflar orda. Bizim kəntdə məmmədlər, turabxannar, sultannar deyilən nəsillər var.

## 73. MOLLALAR KƏNDİ

Bizim kəndimizdə çox yaşdı bir kişi varıydı. O deyirdi ki, bizim kəndin binövrəsi belə qoyuluf. Bizim kənd yaşıllıx, çəmənnih, elə boş meşəymiş. Kəntdə bir dənə bulax varımış, ora bulağın bərəsi deyərmişdər. O bulağın üstünə elə maral-ceyran gələrmiş. Bizim kəndin binövrəsini deyillər ki, İrannan gəlmiş Molla Piyalə addı bir kişi qoyuf. Həmin kişi Laçına gəlmişmiş, özü də molla oluf. Oraları gəzif. İndiki kəndimizin yeri çəmən olduğuna görə bəyənif. O vaxtı da heyvandarrıxnan məşğul olurmuşdar. Deyif ki,

elə bura yaxşıdı, xoşuna gəlir bu yer. Kişi bura gələndə evlənmişmiş. Yoldaşı varıymış, onun yanında da bir oğlan uşağı. Oğlan Mollanın yox, arvadın əvvəlki ərinnən imiş. Nəysə, gəlif bizim kəntdə yerrəşir. Başdıyır burda heyvandarrıxnan məşğul olur.

Mollanın da bizim kəndə gətirdiyi arvatdan üç oğlu olur. Olur dörd oğlu. Həmin kəndin də adı molla olduxlarına görə Mollalar kəndi adlanıf. Bizim kənd iki hissədən ibarət oluf. Bir hissəsi – Mollanın siftə düşdüyü yer kəndimizin aran hissəsidi. Elə bil orda qışda heyvanı saxlıyırmış, yayda da köçürmüş yuxarı kəndə. Beləliknən, onun dörd oğlu olur. Ona görə də kəndin adı Mollalar kəndi oluf.

## 74. KORCABULAQ KƏNDİ

İrannan Xəlil adlı bir nəfər gəlif Şuşaya Pənahxəlil xanın mehtəri oluf. Yaxşı at minən oluf, mehtərlik eliyif. Xanın qızının bunnan xoşu gəlir. Xanın qızını qaçırar, gələr Ağdamın Əlağalı kəndinə. Orda xanın adamları ona çatıf. Amma xan tapşırıf ki, ona dəymiyin, qızı götürün gəlin. Əlağalı ilə Vəng arasında Qarasu deyilən yer vardı, bular gəlif qozun divində yatıflar. Orda xanın adamları qızı onun əlinnən alıflar, oğlana da dəymiyiflər. Oğlan da xanın qorxusunnan geri qayıda bilmiyifdi. Biz tərəfdə Lolabağır kəndi oluf, hansı ki bizim kənd həmin kəntdən bölünüf gəlmədi. Gəlif o kəntdə mehtər kimi qalıf, hansısa bir imakannı adamın heyvanına baxıfdı. Sora Səttar addı qardaşını da İrannan götürüf gəlif.

Bizim kəndin ərazisi Lolabağırın yeri oluf. Qorçu, Ərikli kəntlərinin camahatı bizim kəndin torpağınnan istifadə eliyirdi. Həmin yer əldən çıxmasın deyə Kərbalayı Tağı gedif ki, görə orda su var, yoxsa yox. Axtarıf o suyu tapıf. Qayıdıf gəlif camahata deyif ki, getdim bir bulax tapdım. Deyiflər, nətər sudu? Deyif, elə bir korca bulaxdı. Kəndin adı ordan yaranıf. Kəndin ilk sakini də Kərbəlayı Tağı oluf, gəlif orda dam-daş salıf. Sora mənim babam Hajı Səməd, Lolabağırdan Köçəri, Qara kişi, bir də Qələndər – bu beş adam gəlif orda məskunnaşıf. Orda məskunnaşmalarının da səbəbi o torpağın əldən çıxmaması oluf. Sora Xəlil, qardaşı Səttar

da Lolabağırdan köçüf gəlif Korca bulağa. Niyə gəlif? Mənim babamın Korca bulağa köçənnərnən qız qohumluğu oluf, ona görə o da köçüf Korca bulağa. Xəlil də, qardaşı da evləniflər, qız qohumluğuna görə onnar da o kəndə köçüflər.

## 75. LOLABAĞIR KƏNDİ

Həmin kəntdə Lolabağır addı çox qüvvəli pəhlivan oluf. Keşik dağı deyirik. Bəzi yerrərdə Keşiş dağı, Keş dağı kimi də göstəriflər, amma bizim camahat Keşik dağı deyirdi. Sağında, sol tərəfində kəntdər vardı. Bu dağ da həmin kəndlərin arasında idi. Elə bil onnara keşik çəkirdi. Orda Lolabağırın yaylağı oluf, Yal yurdu deyillərmiş. O vaxdı haranınsa general-qubernatoru eşidif ki, bu qüvvəli pəhlivandı. Gələndə özüynən bir pəhlivan gətirif. Qubernatorun gəlişinin şərəfinə Lolabağır hardasa bir kilometr yola böyük bir xalı döşətdirif ki, mənim qonağım gəlir. Qubernator deyir ki, mənim pəhlivanımnan güləşərsən, onu yıxsan nə isdəsən verəjəm, amma uduzsan bütün mülkünnən əl çəkəssən. Şərt kəsib buları güləşdirir. Hardasa bir saat güləşillər, amma heş biri bir-birinə üstün gələ bilmir. Lolabağır varlı adam oluf, malının içidə də kök bir çöngə vardı. Güləşdiyi adam da rus olufdu. Ayləsinə deyif ki, filan qaşqa çöngəni qurban de, bu gavur mana güj gəlir. Nəysə, pəhlivanı yıxır. Qubernator deyir ki, mənnən nə istəyirsən, de. Duruf belə baxır. Deyir ki, o ərazi Ağaların yeridi (Ağalar da Qorçuda hörmətli şəxs oluf), o ərazi filankəsindi. Onnan qalan burda nə ərazi var mən sənnən onu isdiyirəm. Elə orda da sənətləşdirif o torpaxları verib ona. Bizim kənt də həmin torpaxda yerləşir. Lola onun ləqəbi oluf. Özü də çox gursəsli adam oluf. Deyillər ki, Keşik dağınnan adamı haylıyanda Araxışda onun səsi eşidilirmiş. Hardasa on kilometr məsafə olardı. Heylə nəhəng bir adam olufdu.

## 76. QORÇU KƏNDİNİN ADI

Qorçuda bir nəfər cin tutuf. Uşax cinin iynəsin çıxarıf buraxıfdı. Cin gəlif bajanın üsdünnən deyif ki, mənnən nə isdiyirsən?

Deyif, vallah, hər şeyimiz var, amma qonşular bizə çox külə gəlir, qora. O da yoxumuzdu. Sən bizim qorumuzu bir az bol elə. Qorçu sözü deyillər ordan qalıf.

## 77. YAĞLIVƏND KƏNDİ

Ağaməhəmməd Şah Qacarın qoşunu Arazı keçir bu taya, gəlir Yağlıvəndə. Kənd camahatına deyir ki, bu axşam qoşunumu yedirdərsiz. Bular da fikirrəşir ki, bu qədər qoşunu nətər yedirtsinnər. Bir kəndin gücü buna çatmaz. Ağsakqal adamlar deyir ki, əsgər nə bilir yağlı yemək nədi. Bunnara yağlı yemək vermək lazımdı ki, tez doysunnar. Deyillər, nə qədər iri quyruxlu qoç var kəsin. Elə eliyin ki, qazanda yağ su əvəzi olsun.

Nəysə, bişirif töküllər əsgərin qabağına. Əsgər yeyir. Əsgər bədəni yağ götürmür axı. Elə vəzyət yaranır ki, əsgərlər arasında yatalax xəstəliyi yayılır. Heylə olur Ağaməhəmməd Şah Qacar Arazı addıyıf qayıdır İrana. Onnan o kəndin adı qalır Yağlıfənd.

## 78. BUDAQDƏRƏ KƏNDİ

Kəndin bünövrəsini qoyufdu Əhmətdər nəsli. Bizim babalarımızın babası Zəngibasardan gəlif Naxçıvanın Kolanı kəndinə. Çaydan atnan keçəndə ayaxları suya düşürmüş, üzəngini su basırmış. Ona görə ora Üzəngibasar deyiflər. Bir qismi Kolanıda qalıf, yarısı gəlif Ağdərə rayonunun Xatınbəyli kəndinə. Ora gəlif mənim atamın babası Məşədi Əhməd, əmiuşaxları Kolanı, Şərəf gəliflər. Erməni-müsərman davasında ermənilər qırğınnar törədəndə atamın əmisi bir erməni öldürüf kəntdə, onun üsdündə kəntdən qaçıflar. Gəlillər Laçında Budaxdərə kəndini yaradıflar. Onnan sora onnarın başına toplaşannar olur. Zəngəzur, Sisyan mahalınnan gələnnər oluf. Ermənilər orda nə gəzirdi. Xatınbəylidə olanda ermənin nə get-gəli vardı, nə bir şeyi vardı. Az-maz erməni vardı, onnar da sənətkar idi, gəlirdilər ev tikirdilər.

Budaxdərədə budaxlar, əhmətdər, şavazdar nəsli var. Əhmətdərnən budaxlar əmiuşağı oluflar. Əhmədin bajısının yoldaşı başqa yerdən oluf, amma bu kəntdə məskunnaşıf. Onnan törəyən nəsil şavazdar adlanıf. Orda Həsənalı uşağı oluf, onnar sora ayrılıf Palçıxlı kəndini salıflar. Su olmadığı üçün yendilər Şəlvədə məskunnaşdılar.

## 79. İMANLAR KƏNDİ

Atamın danışdığına görə, bu kəndin əsasını qoyan kişinin adı olufdu İman. Elə onçun da İmanlar adlanır. O, öz uşaxlarına danışırmış ki, mən Gəncəbasardan gəlmişəm. Ağdamın Zəngişalı kəndinnən Peykar addı bir qızı götürür, gəlif çıxır həmin əraziyə. Bizim İmanların altında da Şəlvə kəndi var. Şəlvə kəndindən Məmmədlər deyilən nəsildən bir nəfər həmin İmana kəntdən iki kilometr aralı yer göstərib ki, burda özünə dam-daş düzəlt, yaşa. İmanın şəlvəlilərnən qohumluğu yoxdu. İmanlar demək olar ki, o kəntlərdən sora məskunlaşan kəntdi. İman orda dam-daş tikib. Atam bizə göstərirdi ki, suyun qırağında onun damı varıdı, orda yaşıyırdı. O dərəyə də Peykərin dərəsi deyirdilər. Nehrəni çalxıyıb ayranı tökürmüş suya, Şəlvəyə qədər dərə dümağ gedirmiş. Bu gün o dərəyə həmin kadının adıynan Peykərin dərəsi deyillər. Bu adamın həmən nigahdan beş oğlu oluf. Oğlunun birinin adı Novruz, birinin adı Əsəd, birinin adı Məmmədhəsən, biri Məşədi Bayram, biri də Avaz. Həmin kəntdə olanlar bu beş oğuldan törəyənlərdir.

## 80. ƏRƏBLƏR NƏSLİ

Keçən illəri bir nəfərdən soruşdum. Dedim, ərəbli bəyləri hardan gəlmədi? Dedi, İranda bir kəntdə iki tayfa arasında qannıçılıx düşüf, neçə nəfər ölüf. Bular ordan köçüf gəlmişdi bizim kəndə – Pircahan kəndinə. Bizim kəndin adamları təklif eliyif ki, bu kəndin yanında harda isdiyirsiz ev tikin yaşıyın. Deyillər, yox ey, bizim düşmanımız var orda. Gərək biz elə yerdə olax ki, atışma olsa, özümüzü müdafiyə eliyə bilək. Ərəblər kəndi elə yerdə idi ki,

hara getsən bir səngər idi. Onnar orda tikilir, naxarta yaşıyıflar. Sovet hökuməti gələndə dağılmışdı hərəsi bir tərəfə.

## 81. ÇATIQIRAN NƏBİ

Nəbi addı biri toy vaxtı girir meydana, deyir mənə bir dənə qənim. Biri qalxır ayağa ki, bu kişiynən güləşə. Bunu tutullar ki, otur aşağı, bir dəfə sıxajax qabırğaların dola ciyərinə. Toy bəyi qəzəflənif bu kişinin əlini çatıynan bağlatdırır. Camahat gülüşür. Kişiyə pis təsir eliyir, güj verib qolundakı çatını qırır. Bunu vurmax istəyir, toy bəyi qoymur ki, heylə adamı vurmazdar. Onnan da o nəslin adı qalır Çatıqıran Nəbinin nəvəsi.

Keçmişdə toylarda meydangir olardı. Toyun ən şirin yerində, ortasında özünə güvənən biri girirdi meydana, deyir, mənə qənim varsa, çıxsın qabağa. Qalib gələn toy yiyəsinnən nəmər alırdı, paltarlıq parça bağlıyırdılar boynuna.

## 82. BAYRAMUŞAĞI NƏSLİ

Bayramuşağı kəndinin kökü Qazax rayonuna dirənir. Qazax rayonunun Aslanbəyli kəndində bir tayfa bir tayfadan adam öldürür. Görüllər buları burda öldürəjəhlər, gəlillər Qarabağın Qaradəmirçi kəndinə. Bura bir bajıynan bir qardaş da gəlir, Bayram addı kişiyə nökər olullar. Bunun da ərgən qızdarı olur, özü də əlli yaşın keçirmişmiş. Dört dənə qızı varmış. May ayı olanda onnar tərpənillər Zarıstı kəndinə. Korun karvansarasında bunun arvadı deyir ki, bu yaman kötənni qızdı, gəl bunu al. Deyir, ay arvad, mən əlli yaşı keçirmişəm, bütün Qarabağ, Bərdə məni tanıyır. Mənə nə deyəllər. Deməzdər, qızı yerində birini alıf. Deyir, əşi, al, birdən oğlun olar. Heylə olur bu qızı alır. Dağa çıxanda görüllər bu qız hamilədi. Burda mülkü varmış. Arvadı deyir ki, get pambığı qızdara yığdır, da mən burdan gedəmmərəm. Görüm burda heyvan-zad saxlıya bilərəmmi? Gəlif kaha dərəsinin qabağını düzəldirlər, burda qalır. Xıdır Nəbidə bunun oğlu olur. Birinci oğlun adını qoyur Mə-

miş. Onun dalınca İmamqulu, Karbalayı Hakverdi, Qasım olur. Gəlir daldan da bir oğlu olur. Burda kənd salırlar, kəndin adı onnan qalır Bayramuşağı. Axırıncı uşax olanda arvad deyir ki, dörd uşağın adını sən qoydun, axırıncını da mən qoyum, mənim də nişanam batmasın. Axırıncı uşağın adını qoyur Qazax. Bizim nəsildəki Qazaxov familyası da həmən Qazaxdan gəlir.

## 83. HACILI KƏNDİ

Bı kəntdə vaxtiynən neçə adam olufsa, hamısı gedif haca. Ona görə də kəndin adını Hacılı qoyuflar. Bını mən uşax vaxtı ağsakqallardan eşitmişəm. Eşitmişəm ki, bı kənd adi bir kənd idi. Haca gedənnən sora deyiflər ki, gəlin elə bı kəndə Hacılı deyəh. Elə o vaxtdan kəndin adı Hacılı qalıf. Bizim kəndimizdə çox tayfa olmuyuf. Bir dənəsi oluf, o da Bağırrı tayfasıydı. Bizim tayfaydı. Özü də varrı adamlar oluf. Bınnar ancax bir-birinnən qız alıf, qız verirmişdər. Bı tayfanın adamları o qədər qışqırıf, bağırırmışdar ki, elə onnara Bağırrılar deyiflər. Bı kəntdən gedif başqa yerlərdə kənd salıflar. Əyin[12] kəndi var ha, onnar bizim kəntdən getmədilər. Bınnar Qurt qalasını salıflar Ermənistanda. Onnarın hamısı, qızım, varrı adamlar oluf.

## 84. USUFLU KƏNDİ

Usuflu kəndinin adı Usuf bəyin adıynan bağlıdı. O da Hajılı bəylərinnən oluf. Deyirdilər ki, o vaxtı Usuf bəy atasınnan ayrılanda Qubatdıda Qızıl Qaya deyilən bir yer vardı, orda köhnə damlar deyilən yerdə binə salıf. Deyilənə görə, qaçaxlarnan aralarında ədavət düşüf, onnan sora oranı yandırıflar.

Sora Usuf bəy bir əz sağ tərəfə gəlif orda binələşif. Sora orda da xəstəlih yayılır. Özü də vəba xəstəliyi olur, camahat qırılır. Orda bir dağ oluf, sal daşıydı. Onun üstündə ərəb əlifbasıynan yazısı varıydı. Ərəb dilini bilənnər həmən yazını oxumuşdular. Orda bu

---

[12] Qubadlı rayonunda yerləşir.

sözlər yazılmışdı: "Mən neçə illər burda yaşadım. Bir belə ilxı saxladım, sürü saxladım, naxırım oldu. Bu yer xeyirsizdi. Burda yaşamax mümkünsüzdü. Burda yaşamıyın".

Yanı, bala, Usuflu kəndi belə yaranıf. Sora da xəstəliyə görə dağılıf. Həmin kəndin qalıxları qalmışdı.

## 85. SARIYATAQLILAR HAQQINDA

### I mətn

Bizim kəndimiz altı tayfa idi: İsaxannı, Camalxannı, Qasımlı, İmanlı, Nəbili, Məmmədli. Bular hamısı bir babadan törəmədir. Bizim kəntdə İranın Qaradağınnan, Dərləyəzdən qaçıb gələnnər də vardı. Bizim camahat köçərgi camahat olubdu. Bizdəki otların içərisində topal addı ot var. O sarı otdu, ilimiz on iki ay sahədə olur. Ona görə bura Sarıyataq deyiblər. Digər otdar yağış yağanda yatırdı, amma topal ot yatmırdı. Çay yerrərində bitən qarğular kimi dik qalırdı. Həm şirin ot idi, heyvan onu kökünə kimi yeyirdi, həm də qar yağanda tələf olmurdu. Heyvan qarı eşirdi, topaldan yeyib qarnın doyururdu. Yaylaqlarımız Siyan rayonunun Ərəbcə kəndində idi.

### II mətn

Mamay əminin babası Mıcıq Hüseyin olub. O qədər qaçağan olub ki, atdı ona çatmırmış. Yetim oğlan olub. Bəy gəlib kəntdən keçirmiş. Bunun adamlarından biri deyir ki, bəy, bunnarın hak-hesabın verax keçax. Deyir, mən filan bəy olam bulara hak verəm? Vermirəm. Belə olanda ağsakqallar Aləm ağacının dibində oturmuşlar, bunu eşidillər. Bəy çıxıf gedifdi. Təxmini bilillər ki, bəy gedib iki kənd aşağıda düşəcəkdi. Mıcıq Hüseyini çağırıllar. Deyillər, ə Mıcıq, Giləni isdiyirsən verax saa? Deyir, ə, mənnən məzələnmiyin. Giləni kimdi verən maa? Gilə hara, mən hara? Gilə doğurdan da, gözəl qız olub. Deyillər, sən öl, Giləni verək saa, amma bir şərtimiz var. Deyir, şərtiniz nədi? Deyir, gedib o bəyin atını gətirəssən. Deyir, gedib atı gətirərəm, amma qızı verəssiz maa. Razılaşıllar. Bu da dilənə-dilənə gedib çıxır Maltəpəyə. Ora çatanda

qarannıx düşür. Bəy bunun dilənçi payını verir. Bu sızıldıyır ki, qarannığ düşür, neyniyim. Bəyin xanımı deyir ki, a bəy, yazığ adamdı, it tutub eliyər. Qoy qalsın burda, səhər durub gedər. Bəy deyir, aaz, bunun gözünnən bijdik yağır, bu dilənçiyə oxşamır. Deyir, görmürsən üsdü-başı cırıxdı. Nəysə, razılaşıllar. Bəy arvadın sözünə baxır, Mıcıq Hüseyin qalır. Mıcıq Hüseyin görür ki, bəy atın başına zinciri bağladı, qıfılı vurdu, mıxı gətirib vurdu yerə, üsdünə gəvəni sərdi, uzandı. Baxır görür atın boynunu aça bilməz, mıxı ordan çıxarda bilməz, bəy üsdündə yatıb. Neyniyim, neynəmiyim? Nə Gilədən keçə bilir, nə də atı apara bilir. Nəsə gətirməlidi. Fikirləşir ki, gedib Giləni almaq üçün bunun nəyinsə aparmalıdı. Baxıb görür ki, bəy yatıb, beşatılanı da fırrıyıb qoluna. Durur xənçəli çıxardır beşatılanın kəmərini kəsir. Beşatılanı götürür, görür eşşəyi apara bilmiyəcək, palanı götürüb atır tərkinə tərpənir. Bu vaxd itdər hürür. Bəy durur görür beşatılan yoxdu. Ə, kopoğlu apardı. Partapart atıllar, Mıcıq Hüseyin özünü vurur şama, addıyır gəlir kəndə. Gəlir ağsakqalların yanına. Deyir, qardaş, gəlmişəm, Giləni verin. Deyillər, at hanı? Deyir, hal-qəzyə belə-belə. Atı gətirə bilmədim, amma beşatılanı gətirdim. Deyillər, beşatılanı ver. Deyir, yox, keçəl suya getməz, Giləni aparın qoyun mənim evimə, beşatılan sizindi. Giləni döyə-döyə aparıf qoyullar bunun evinə. Beşatılanı gətirib verir. Səhər görüllər bəy başının dəsdəsiynən gəlir, qabağına da heyvanı qatıb. Gətirib verir, beşatılanı da qaytarıllar. Deyillər, bəy, keçəndə hak vermirsən vermə. Amma o kəlməni işdətməginən ki, mən filan bəy olam filan kəndin adamlarına hak verəm.

### III mətn

Hajı Mahmud imkannı bir adam olufdu. Yayın günüdü, köçərilər gəlif düşmüşdü. Mənim Əliş babam Padar kəndinin altınnan gəlif keçəndə görür ki, cavan gəlindi, qulluxçu bunu çayda çimizdirir. Bunu görəndə deyir, cavan gəlindi, utanar. Tez keçir kolun dalında gizdənir. Gizdənəndə qulluxçu görür bunu. Deyir, xanım, xanım, orda bir kişi sizi gördü, ayıbına gəldi gizdəndi. Deyir, az, həlimiçəndən kişi olmaz. Həlimiçən də nəyə görə deyillər? Adətən

o çayın üsdə düyü əkirmişdər. Həlim də düyüdən əmələ gəlir da. Deyir, ə, bu deyir həlimiçəndən kişi çıxmaz, gör bunun başına nə oyun açacam. Nəysə. Gözdüyür, xanım çimir, dəsdəmazın alır, gəlir evlərinə. Yerin pəsətdiyir. Gejə durur gedir, görür ki, bəy uzanıf yatıf, xanım da başın qoyuf bəyin qolunun üsdünə. Ə, nəyi aparım, neyniyim? Xənçəli çıxardır beşatılanın kəmərini kəsir. Tamah güj gəlir, görür başdarının altında bir boxça var. Boxçanı götürür. Sadıxlı deyilən kənd oluf, orda əmoğlannarının evinə gəlir.

Səhər açılır, bəy duruf görür beşatılan yox, boxça yox. Boxçada da arvadın alt paltarı olub. Mənim Əliş babam elə hesab eliyir ki, bu qızıl-zad olar. Gəlib evdə açır, görür arvadın alt paltarıdı. Bəy gedir Padar kəndinə Hacı Muradın yanına. Bəs Hacı, hal-qəzyə belə-belə. Deyir, ə, heş kim arvad paltarı oğurramaz burda. Nədi, nə məsələdi? Axırda arvad açıb deyir ki, belə bir şey olub. Hacı Murad da çox uzaxgörən bir kişi olub. Deyir, bu olsa-olsa Əliş kişi olajax. Bəy, sənin arvadın dilinin güdazına gedif. Deyif həlimiçənnən kişi çıxmaz.

Babamgil Sadıxlı kəndində oturmuşlar, bir də görüllər Hacı Muraddı, həmən bəydi, xanım da atın üsdə gəlillər. İki erkək bir dənə cöngəni qatıb qabaxlarına gətirillər. Babam durur ayağa deyir, Hacı Murad, xeyirdimi? Deyir, Dadaş, hal-qəzyə belə-belə. Deyir, Hacı Murad, Əliş o işi eləməz. Deyir, vallah yox, belədi. Əliş babam da oturmuşdu damın qırağında. Deyir, mən eləmişəm, lap yaxşı eləmişəm. O deyəndə həlimiçəndən kişi çıxmaz, bilmirdi belə olajeh. Aydınnaşır məsələ nə yerdədi. Onnan da bəynən dosd olur, silahın da qaytarıf verillər, paltarın da. Deyir ki, Dadaş, canın haqqı, mən elə bilmişəm bu qızıldı götürmüşəm. Bilsəydim arvad paltarıdı götürməzdim.

## 86. GÖYYALLILAR HAQQINDA

### I mətn

O kəndin əsasını yeddi nəfər qoyub. Onnarın hamısı bir-birinə yaxın adam olub. Deyilənə görə, Anadoludan gəliblər. Azərbaycanın

bir çox yerlərini gəziblər, bizim Göyyal dediyimiz ərazidə məskunlaşıflar. Niyə? Ətraf dağlıqdır, meşəlikdir, diş göynədən soyuq bulaxlar oluf. Deyiflər ki, ən yaxşı yer buradı. Bizim kəndin qara damlarının hamısı güneydə tikilib, kəndin qəbirsannığı həm güneydə, həm də dik dirədə olub ki, su dayanmasın. Bizim qonşu Fərcan kəndi biznən müqayisədə qədimdi. Yeddi nəfər gəlif oranı seçəndə fərcannılar razı olmur ki, bular burda binə salır, yurd salır, sabah ərazimizə pay olajaxlar. İş elə gətirir ki, otuz nəfər fərcannı yeddi nəfər göyyallının üzərinə hücum çəkir ki, burdan perihdirsin[13]. Mənim ulu əjdadım da Kötük Abdulla deyillər, bir ayağın çəkən olub. Bu da öküzün üsdündəymiş. Görür ki, yeddi nəfər bulara dov gəlir, deyir:

– Ədə, məni öküzün üsdünnən düşürün.

Qolun qolçağ eliyir, buları bir-bir sərir. Birin ağzın dağıdır, birin qolun sındırır, birin başın yarır. Bular sabahı gedif pristava şikayət eliyirlər. Vijdannı adamlara hər zaman rəhmət düşür. Xudadat bəy oluf, yaşıl bir çəmənnikdə əyləşdirif buları. Bir yanda otuz nəfər, bir yanda yeddi nəfər. Deyif, danış olduğu kimi. Gerçəyi danışıflar. Deyif ki, yeddi nəfər otuz nəfərə qalib gəlibsə, mən o torpağı verdim onlara. Bax, o zamandan bizim əjdadlar orda məskunnaşıf.

**II mətn**

Kəndi təşkil edən iki tayfadır: Əhməduşağı, İsmayıluşağı. Hərəsinin altı oğlu, dörd qızı oluf. Kənd bu iki tayfadan törüyüf, indi yüz dörd ev oluf.

İsmayılın uşaxları Sisyanın Xortuyüz kəndinnən gəlmədilər. Bizim qohumlar orda yaşıyırdılar. Bizdə Dağ Mahmudludan gəlmə də var. O yeddi nəfər – şahalıdı, nəzəralıdı, əhmədalıdı, bular kökdə dayanandı. Bizə, əsasən, sofulu tayfası deyiblər. Sofulu tayfası böyük bir bölgəni əhatə eliyir. Olardan Sisyanda çox varıdı, sora Qubatdıda altı-yeddi kənd var. Cəbrayılda Dağ Tumaslı, Çuvlu, Bıçaqlı sofuludan yaranma kəndlərdir. Qubatdıdakı Göyyal, Ballıqaya, Boynakər, Çərəlinin müəyyən hissəsi sofulu kəndləridi.

---

[13] perikdirmək – qaçırtmaq, uzaqlaşdırmaq

Deyilənə görə, onnar üç qardaş olub: Saralı, Sofulu, Dərzalı. O qardaşdar o əraziyə gəliblər. Sofudan törəyənlər sofulular, Sarıdan törüyən saralılar, Dərzalıdan törəyənlər dərzalılar adlanıb. Saralı sözü Xəştab kəndinin adında qalmışdı. Saralı tayfasından on iki, on dörd kənd törüyüb: Fərcan, Zor, Mehrili, Xəştab, Yeməzdi, Mollalı, Ağkənd, Xocamsaxlı. Ermənistanın dağ kəndləri də biznən əmoğludu. Orda yas düşəndə, toy olanda lap çooğun olsa belə ora getməli idik. Erməni-müsərman davası düşənnən sora əlaqələr kəsildi. Dərzalı Cəbrayılda qalıb, Dərzili kəndində.

Atamın qohumları vardı, Dəstəyirtdə yaşıyırdı. Xortuyüz deyilən dağın ətəyindəydilər. Çəmənlik, gözəl bir yer idi. Bizim sofulu tayfası həmən o dağda məskən salmışdı. Oranı ermənilər iki dəfə zəbt eliyif. Bizim camahat güclü çıxıb, erməniləri ordan çıxardıblar. Salax kişi söhbət eliyirdi ki, bizim kənd ermənilər yaşayan kəndə yaxınmış. Erməninin Allah damazdığın kəssin. Həmişə isdiyərmiş genişdihdə yaşasın, ətrafında onnara tay adam olmasın. Bu mənada bir dəfə hücum eliyiflər, bizimkilər qalib gəlif. İkinci dəfə ermənilər qalib gəlib, onda kəndin bir hissəsi ordan çıxıb. Elə həmən çıxannardan biri bizimkilər oluf. Bu oluf təxminən 1892-1893-cü ildə. Bizim tayfa o vaxd gəlib. Həbib kişinin atası söhbət eliyirdi ki, üçüncü dəfə hücum eliyəndə səhər ertə saat altı iradələri idi, çənni bir gün imiş. Tərəkəmədə belə bir xasiyyət var. Tezdən durub mal-heyvanı sağallar, otlağa yola salallar. Bu mament imiş. Həbibin atası görür ki, üsdən aşağı çənin altıynan xeyli əli silahlı erməni gəlir. Bu qaçır özün salır kəndə. Ədə, qalxın ayağa, ermənilər töküldü kəndə. Elə bular qalxıb özün nizamlıyana qədər ermənilər girir kəndə. Qırdıxların qırıllar, salamat qutaranlar evdən çıxır. Buların da məqsədi təkcə qırmax yox, buları yerinnən eləməkdi. Kəndi tamam yandırıllar. Bular çıxır gəlir Qubatdının Gəyən düzünə. Yaz ağzı imiş, bir müddət orda qalıllar. Bir hissəsi Göyyala gəlib. Bizim kəndin orda qışlamaq üçün yeri vardı. Ora əmimin adıynan Gəncalı yeri deyirdilər. Bizimkilər gedib tökülüb ora. Böyük sahəsi var, amma suyu yoxuydu. Araşdırıflar, axtarıflar. İsdiyiflər gedələr Dağ Tumas tərəfə, görüflər oranın da elə güjdü yeri yoxdu. Gəliflər

Göyyal tərəfə, orda məskunnaşıblar. O yal payızda yamyaşıl olur, qarrıyana qədər öz yaşıllığın saxlıyır. Yaşıllığına görə ona Göyyal deyiflər.

### III mətn

Bizim kənd dağlıq zonadı, gözəl təbiyəti var. Bizdən aşağıda Bərgüşad çayının qırağında çəltik əkirdilər. Bizim camahat ulağnan odun aparıf dəyişərmiş çəltiyə, gətirərmiş. Abdulla rəhmətdih bir neçə tay-tuşuynan gedir. Dundarrının bir qırağı çaylaxdı, sel gələndə orda su olur. Gedif görüllər ki, orda meydan quruluf, bir erməni pəhlivanı burda meydan göstərir. Kəndir asıb hopbulur göyə, düşür yerə. Dondarrı camahatı da o qədər ləkdə-zadda işdiyif ki, kişiləri zəyifdi. Bunnan istifadə eliyib erməni deyir, ya mana ənam verin, ya qənim verin. Bular da əziyyət çəkmiş adamlar, qənimi hardan çıxartsın bunun qabağına. Erməni də nərin biri imiş. Abdulla kişi yanındakına deyir ki, vallah, isdiyirəm gedəm bunun qabağına, bunnan güləşəm. Yoldaşı deyir ki, onun fəndi-feili var, səni öldürəcək, getmə. Deyir, vallah, gözüm yeyir, gedəjəm. Gedir, deyir, qoltuğuna alıb nətər sıxırsa, erməni boğulur. Əlini yerə döyür ki, mən təslüməm. İndi yığdığı nə qədər ənam varsa, verir bulara. Bular öz aralarında bölüşdürür bunu, erməni də qarğış eliyə-eliyə çıxır gedir. Heylə güjdü kişi idi.

## 87. FƏRCAN KƏNDİ

Dedilər, guya üç qardaş gəlib, məskunnaşanda ayrı-ayrı məskunnaşıflar. Biri Atqıza düşüb, kalafasının yeri də qalmışdı. Həmin qardaşlardan törəyənnərə hətəmli, ağcaöyül nəsli, çuxur məhlə deyillər. Biri bizim kəntdə yurd salıb, biri də bizdən Mehriliyə tərəf Yetər yurduna düşüb. Sora deyiblər, niyə üç qardaş ayrı-ayrı olurux, bir-birimizdən xəbərsizik. Gəlin yığışax bir yerə. Heylə oluf, o iki qardaş da gəlib bizim kəndə, burda kök salıflar.

## 88. XƏLƏCLİLƏR HAQQINDA

### I mətn

Bizim kəntdən iyirmi yeddi nəfər Sovet hökuməti qurulanda qaçıb İrana. Mənim babamın dediyinə görə, onlar musavata üzv oluflar. Sovet hökuməti isdiyif ki, buları öldürsün, bular gecəynən qaçırlar. Bulardan biri Mir Mehdi ağa Türkiyəyə gedir. Vanda məhkəmədə iş icraçısı işdiyir.

Xələcdən Yevlağın Malbinəsinə, Ağdama, Qazaxıstana sürgün olunanlar olub. Seyid Həmid, Seyid Asya, Seyid Şəfiqə, Seyid Şüşə sürgün olunuf. Bunnarın ərləri müsavata üzv olduğuna görə, sovet hökuməti gələndə qaçdılar, yoldaşları qaldı. Buları da sürgün elədilər. Maraqlı bir əhvalat danışım. Deyirdilər ki, Seyid Şəfiqə sürgün olunuf Qazaxıstana. Ancaq öyrəndim ki, Qazaxıstana getmiyib. Buları faytona mindirib aparıllar Gəncə şəhərinə. Gəncə şəhərində bir neçə gün qalırlar. Bizim kəntdə də Məşədi Qara ağa oluf. Məşədi Qara ağa da çəliynən gəzirdi, yaşdı adamdı, bunu da sürgün eliyirlər. Şəfiqə də bunların içinin ən balacasıdı. Bu da nəvəsidi bunun. Camahatı mindirəndə vaqonlara bunu alıb qucağına saxlamışdı. Hamının adını oxuyurlar, Məşədi Qara ağaynan Şəfiqənin adını oxumurlar. Vaqon çıxır gedir, Məşədi Qara ağa qalır. Orda şükür eliyir ki, bu uşağı saxlıyaram, böyüdərəm, olar gedər-gəlməzə gedir. Bələliknən, onu götürür gəlir kəndə.

### II mətn

Bizim kəntdə güjdü atıcılar olub. Elə adamlar oluf ki, sapdan asılmış spişkanı vururdular. Ona görə ermənilər bizim kəndə girmiyiflər. Bir hissəsi Qarıqışlaq istiqamətindən, bir hissəsi də Taroğlu istiqamətindən gəlib, bizim kənd qalıb ortada. Cibikliyə də girmiyiflər. Amma Çardaxlı, Taroğlu, Qarıqışlax istiqamətindəki kənddərin hamısını yandırıflar. Bizim kəndin adamları məcbur oluf çıxıflar. Arvad-uşağı çıxardıf gətirillər Cəbrayılın Qumlaq kəndinə, kişilər qalıf döyüşüflər. Əyin kəndində səngər dağı var, orda Xələc, Taroğlu, Əyin səngəri var, camahat qalıb orda döyüşüflər. Bir neçə

gün vuruşuflar, ətraf kəndlər alınıf, bizimkilər də məcbur oluf çıxıflar. Onda bizim kəntdən iki nəfər cavan oğlan ölüb. Camahat çıxan vaxdı Sonanın suatı deyilən bir yerdə qız uşağı qalmışmış. Gəlif görüllər ki, bu qızın qarnını yarıflar, atıflar suyun içərisinə. Hardasa beş-altı yaşı olardı. Onu da aparıb dəfn eliyiflər.

## 89. ƏSLİ-KƏRƏM BULAĞI

Gəncə xanı Ziyadxanın Qara Məlik adında bir xəzinədarı vardı. O, bizim kəntdə olurdu, ətraf kəntdərdən vergi yığırdı. Qara Məliyin orda tağbəndləri vardı. Kəndin arxa tərəfində Güm-güm bulağı var. Əsli o bulağa suya getmişmiş. Kərəm də Gəncədən bir dəstə atdıynan ova çıxır. Gəlif çıxır bizim kəndə. Orda Güm-gümdə həmən Qara Məliyin qızı Əslini görüf ona aşiq olur. Gedif atasına deyif ki, onu al mana. Qara Məlik qızı vermir, gejəynən köçüf gedir. Kərəm də düşür bunun dalına, Ərzurumda düşür qara, orda ölür. Əsliynən Kərəm orda görüşdüyü üçün həmin bulağa Əsli-Kərəm bulağı deyillər.

## 90. SOLTANBUD

Güləbirt kəndində bir dənə kümbəz var. O kümbəzin adı Soltanı-bud kümbəzidi. Aşıx Sarının qəbri də həmən kümbəzin dibindədi. Soltanı-bud Güləbirtdi olub. Məzməzəhdən Qazıdərəsinə qədər nə qədər mülk varsa hamısı Soltanın olub. Bağırbəyli adamları deyiflər ya bunu öldürək torpağını parçalıyax, ya da torpağınnan bir hissəsini versin. Soltanı-bud da çox iti adam oluf. Deyif, siz maa sataşmıyın, bir metr yox, bir qarış da torpax verən deyiləm. Əgər sizin ağsakqalınız dosduxnan gəlif desəydi burdan bir belə torpax kəs ver maa, o ayrı şeydi. Amma tüfəng güjünə qalsa, alammazsız. İndi bu öz dəsdəsiynən, olar da öz dəsdəsiynən atışıllar. Axır ki, bir güllə gəlir Soltanın budunu deşir o tərəfdən çıxır. Sora ordan çürüyür düşür, adını qoyullar Soltanı-bud. Yəni tək buddu Soltan.

## 91. BƏYİN ZAĞASI

Sultan bəy qaçax olan vaxdı yaralanmışdı. Ağdamın Geşdazı kəndinnən bir həkimi aparıf yarasını sarıtdırmışdar. Dağın arasında mağaradı. Bir gecə yatır yuxu görür. Görür kü, dağ uçur. Çölə çıxır. Çölə çıxan kimi böyük bir sal qaya guppultuynan gəlif düşür yerə. Demək, bəy orda qalmış olsaydı məhv olardı.

## 92. LAÇIN ADININ MƏNŞƏYİ

Burda mərkəzi komitə hələ təzə təşkil olunurmuş. Hüsü Hacıyev getmişmiş rayonu təşkil etməyə. Biri deyif, Abdallar kəndinin adını qoyax Laçına. Laçın dağın döşündədi, rahat yerdə döyül. Rayon mərkəzi üçün oranın seçilməsinin səbəbi var. Gorus-Şuşa fayton yolu varmış. Avdallar kəndinnən bir az aralı orda yolun qırağında bir poçt tikiflər Nikalay devrində. At arabası Gorusdan poçtu gətirirmiş orda gejəliyirmiş. Həmçinin də Şuşadan gələn orda gejəliyirmiş. Hüsü Hacıyev gəlir ora rayonun təqdimatına. Rayonun adı üçün hərə bir təklif verib. Axırda belə baxıf deyif, bu dağın adı nədi. Deyiflər, bu Laçın dağıdı. Orda da laçın quşunun yuvası varmış. Deyif, elə bu şəhərin adı olsun Laçın.

## 93. TEMİRUÇAN DƏRƏ[14]

Üç nəfər – Səlim, Bəşir, bir də Temir gediflər ova. Yazbaşı imiş, gedillər kəklik ovuna. Kəklik də sərt yerdə olan quşdu. Qar yığnağı olur. Kəkliyin də xüsusi bir pərdəsi olur, onuynan ovluyullar. O pərdə müxtəlif rəngli parçadan düzəldilir, quş onu görəndə başın qaldırır. Kəklik özün göstərəndə ovçu onun yerin bəlirliyir onu atır. Bu götürür pərdəni ki, gedə kəkliklərin üsdünə. Qar nətər ordan uçursa, dərənin dibində qarın altında qalır. Qırx dokquz gün

[14] Laçın rayonunun Ağbulaq kəndində yerləşir.

qalır qarın altında. Qırx dokquz gündən sora qarmağın biri ilişir civinə, onu çıxardıllar. O dağın adı Temiruçan dərə qalır.

## 94. KƏRİMUÇAN DƏRƏ[15]

Kərim nökərlərin yanında heyvan saxladırmış. Bir heyvanı kəsir, bir dənə böyrəyi götürür əysiyə bükür ki, oğlu Nəsibə aparacax. Gəlir ordan keçəndə qar bunu uçurur, aparır salır aşağı. Yanında bir yoldaşı varmış. Yoldaşına deyir ki, ürəyim su isdiyir. Bunun beli sınmışmış. Bu gedir çaya. Çay da çox uzağmış. Bir heylax su götürür, ətəyindəmi, paltarındamı gətirir. Suyu içən kimi canın tapşırır orda. Oranın da adı qalır Kərimuçan dərə.

## 95. SINIQ KÖRPÜ[16]

Rəhmətdik Hakverdi deyirdi ki, onun tikilməsi yadıma gəlir. Sürülər arannan gələndə çay daşırmış, camahata çox tələfat verirmiş. Bir hacı xeyriyəçilik eliyir onu tikir ki, el bunun üsdüynən keçə. El gələn vaxdı hər sürü bir qoyun verirmiş ki, buranın fəhləsi qoy işdəsin, kəsib yesinnər. Özü də həmin adam o qədər xəsis imiş ki, yumurtanı alanda bir üsgüyü varmış ordan keçirirmiş, ordan keçən yumurtaya pul vermirmiş. Deyillər, filankəs körpü tikir. Deyillər, o xəsisin biridi, o körpü tikdirəndimi? Bunun gətirdiyi fəhlələr işdəmək istəmirmiş ki, bu bizim hakqımızı kəsəcək. Bu baxır ki, fəhlələr işdəmiyəcək. Götürür üç-dörd dənə onnuğu atır çayın o tayına, üş-dördünü də bu tayına, deyir bünövrəni qoydum, kim tapır özünə götürsün. Çəkin, pulunuzu verəjəm. Nəhayət, körpünü çəkillər, körpü başa gəlir.

## 96. FİRƏNG YOLU

Bizdə taxta zavodu vardı. Firəng yolu ordan başdıyır gəlif Xəzər dənizinə çıxırdı. Taxta zavodu çayqırağı irahat bir yerdə idi.

---

[15] Ağbulaq kəndində yerləşir.

[16] Həkəri çayının üstündədir.

Meşədən qırmızı palıdları kəsib orda doğruyub ata, qatıra yüklüyüb aparırdılar Xəzər dənizinə. Xəzər dənizindən gəmilərə yüklüyürdülər, aparırdılar Fransaya. Ona görə ona köhnə kişilər Firəng yolu deyirdilər. Meşənin içi ilə iri yol gedirdi, taxtaları arabalara yüklüyüb həmin yolla aparırmışdar taxta zavoduna, orda emal olunurmuş. Ordan da yüklüyüb aparırmışdar Xəzər dənizinə. O yol Qədimi meşəsindən keçirdi (Laçın rayonunun Qorçu kəndinin qabağı – top.). O palıdların içi qıprıqmız idi, naxışı özünnən idi. Qorçu kəndinin qabağınnan başdıyır, enirdi Əriklinin altına – Taxta zavoduna. Taxta zavodunnan Həkəri çayının qırağı ilə Qubatdıya, Cəbrayıla, ordan da Araz qırağı gəlif çıxırdı Xəzər dənizinə.

## 97. ÇOBAN DAŞI

Bizim yuxarı Cijimli kəndində Çoban daşı varıdı. Çoban daşı da Künbəzdən bir əz bəridə idi. Deyilənə görə, bir çoban orda qoyun otarırmış. Baxıf görür ki, düşmən gəlir. İstəmir də düşmən onu haxlasın, sürünü aparsın. Üzünü Allaha tutuf deyif ki, ay Allah, məni bu sürümnən daşa döndər. Qurban olduğum da bəndəsinin səsini eşidif onnarı daşa döndərir.

## 98. DÜLDÜL HOPPULAN YER

Bizim kəntdə iki dağ var, dağın arasınnan su axır. Deməк dağlar ikisi də daşdı. Ora Düldül hopbulan deyillər. Yezidnən qurban olduğum imamlardan hansısa gedir çıxır o Düldül hopbulana. Orda bax bu qəlbiliyində, boyu da belə bir daş var. Orda iki xəncərin yeri var. Biri işdiyif daşın ortasınacan, biri hardasa on santı gedif. Deyillər, daşın ortasına gedən qılınc imamın qılıncıdı, amma üsdə qalan yezidin qılıncıdı. Düldül də imamlarımızın atıdı. Ordan Düldül sıçrıyıf, yezid sıçrıya bilmiyif.

## 99. ƏRİMGƏLDİ

Şuşaya çıxan yolda Ərimgəldi deyilən yer var. Bəylər Əsgəran tərəfə ticarətə-zada gedərdilər. O vaxdı bəylərin faytonnarının rəngi varmış. Onda xanımlar Ərimgəldi deyilən yerdə oturuf ərinin faytonunu gözdüyürmüş. Fayton görünəndə deyirmiş, ərim gəldi, mən getdim. O yerin adı ordan qalıb.

## 100. HƏZRƏT ƏLİ ADDIYAN DƏRƏ

Bizim rayonda bir Muradxanlı kəndi var. Deyir, Həzrət Əli gəlif çıxır Muradxanlı kəndinə. Bu kəndin ərazisində bir dərin dərə var. Adına Qalalı dərəsi deyirlər. Dərənin bu tərəfinnən o tərəfinə keçməh olmur, hər tərəfi qayalıxdı. Deyillər ki, bu dərəni Həzrət Əli gəlif atıynan addıyır. Ona görə də həmişə deyirdilər ki, qayanın üstündəki at rəddi Həzrət Əlinin atının rəddidi. Həmən yer hamıya qeyri-adi bir yer kimi görsənirdi. Atın ayağın bir rəddi qayanın bu tərəfində, o biri rəddi o tərəfindədi.

## 101. QIZIL QAYA

Bizim qonşu kəntdə – Çardaxlıda bir qəyə vardı, bına Qızıl qəyə deyirdilər. Qəyədə arılar işdiyirmiş. Orda çoxlu bal varıymış. Ancaq qəyiyə gedən yolu tapa bilmirdilər ki, gedib arının yerini görsünnər. Bal çox olduğuna görə ora Qızıl qəyə deyirdilər, amma gedif balı gətirə bilmirdilər. Həm də qəyə uzaxdan parıldıyırdı qızıl kimi. Parıldıyan balıydı da.

## 102. BEŞDƏLİ KƏNDİ

Bizim kəndin adı əvvəllər Əsgülüm olub. Qəşəh güllü-çiçəhli kənd oluf. Sora kəntdə beş dənə qardaş varıymış, çox qəhrəman, iyid oğlannarmış. Bı qardaşdara mərtdiyinə görə dəli deyirmişdər. Ona göra da kəndin adını Əsgülüm yox, Beşdəli addandırıflar. Həmən qardaşdar kasıflara kömək eliyirmişdər.

## 103. KORLAR KƏNDİ

Həmzəli kəndində Sınıx körpü var. Həmzəlilərə həm də Korrar deyirdilər. Korrar deyilməsinin səbəbi vardı. Həmzəli kəndindəki Sınıx körpünü kişi libası geymiş bir qadın tikdirib. Bu qadını heş kəs tanımayıb. Körpü tikilib qutarıb, tamam başa çatannan sora qonaxlıx təşkil eliyib. Həmin qonaxlıxda deyib ki, mən kadınam, kişi paltarı geyinmişəm. Körpü tikilib qutarıb, amma siz mənim kadın olduğumu bilməmisiz. Bu gündən sizin adınızı qoyuram Korrar.

## 104. LALƏZAR KÖRPÜSÜ

Laləzar körpüsü Bərgüşad çayının Əliquluuşağı sahəsində tikilmiş yeganə körpü idi. Körpü iki aşırımlı, iki gözdən ibarət idi. Körpü Əliquluuşağı kəndi ilə Gürcülü kəndini birləşdirirdi.

Körpünü bizimlə həmsərhəd olan Xınzirək sakini milliyyətcə erməni Laləzar özünün maliyyəsi hesabına tikdirmişdi.

Deyilənə görə, Laləzar ticarətlə məşğul olarmış. Başqa rayon və ölkələrdən mallar gətirib öz yerlərində satarmış.

Bir gün yenə Laləzar mal gətirmək üçün gedirmiş, qarşısına qoyun otaran bir adam çıxır. Çobanın əlində səliqə ilə düzəldilmiş bir daş olduğunu görür və soruşur ki, bu nə daşdır. Çoban cavabında deyir ki, xoşum gəlir, üzərində naxışlar var, evə aparacağam. Laləzar alıb daşa baxır, görür ki, daşın üzərindəki naxış deyil, yazıdır və bu sözlər yazılıb: "Bu daşın altında üç küpə qızıl var, kim tapsa əbədi qalan suvab bir iş görsün". Laləzar daşı çobana qaytarıb deyir:

– Bu daş müsəlmanların ibadətgah yerindən götürülüb, apar haradan götürmüsənsə həmin yerə də qoy. Yoxsa xeyir görməzsən, həmin ibadətgah sənə qənim olar.

Çoban qorxusundan daşı aparıb götürdüyü yerə qoyur. Laləzar həmin yeri yadında saxlayır, çobandan ayrılıb bir qədər gedir, sonra isə geri qayıdır və axşamı gözləyir. Axşam qaranlıqda həmin yerdə axtarışa başlayır, qızılları tapıb küpə qarışıq torpaqdan çıxarır. Əziyyətsiz qazandığı bu pulları Xınzirəyə gətirir. Bir müddətdən sonra

daşın üzərində yazılan cümləyə əməl etmək fikrinə düşür. Çox fikirləşdikdən sonra Bərgüşad çayının üzərində körpünü salmaq qərarına gəlir. O zamanlar erməni kəndinin adamları da Süsən meşəsindən odun aparırdılar və həmin çayın üstündən keçməli olurdular.

Laləzar fikirləşmədən işə başlayır. Körpünü salmaq üçün güclü mütəxəssis lazım idi. Laləzar kənardan həmin mütəxəssisi tapıb körpü salınan yerə gətirir. Həmin mühəndis körpü salınan yeri müəyyənləşdirir. Dayağın biri Bərgüşad çayının tən ortasında olmalı idi. Bərgüşad çayının sol sahilində 50-60 ton ağırlığında bir ağ daş varmış. Erməni üzünü mühəndisə tutub deyir:

– Nə istəyirsən sənə verirəm, elə et ki, bu qaya Bərgüşad çayının düz ortasına düşsün.

Mühəndis çox fikirləşib götür-qoy etdikdən sonra işə başlayır. Deyilənə görə, mühəndis partlayıcı vasitəni daşın ətrafına elə düzür ki, daş istənilən yerə düşür. Deyilənə görə, Laləzar erməni qol götürüb oynayır və mühəndisə də istədiyi qədər pul verir.

Körpünün dayaqlarından biri hazır idi və Bərgüşadın sağında, solunda salınacaq dayaqlar qalırdı. Laləzar dayaqların yerini göstərib bünövrənin qazılmasını tapşırır. Kənd ağsaqqalları söhbət edirlər ki, bünövrəni fəhlələr qazıb qurtarırlar. Lakin quyulara sızan suyu quruda bilmirmişlər. Ermənıyə deyirlər ki, burada körpü salmaq olmaz. Laləzar onlara baxıb qızıl kisəsinin birini sağ gözün bünövrəsinə, birini də sol gözün bünövrəsinə atıb deyir:

– Bunlar suyu qurudarmı?

Bundan sonra bünövrənin suyunu gecə ilə qurudub tez də bünövrəni doldururlar. Beləliklə körpünün dayaqları hazır olur və tikintiyə başlamaq olar. Deyilənə görə, usta və fəhlələrin yeməyini Laləzar yaxın kəndlərdən alırmış. Amma yumurtanın balacasını götürmürmüş. Kəndin dünyagörmüş kişiləri deyirlər ki, bir adam qucağına bir daş alıb gətirirdisə, erməni o daşın pulunu çıxardıb verərmiş və o adama deyərmiş savabıma şərik olma.

Körpünün bünövrəsinin qoyulduğu və tikildiyi tarix məlum deyil. Deyilənə görə, XIX əsrin əvvəllərində tikilib. Həmin vaxtdan da körpüyə Laləzar körpüsü adı verilib.

1870-ci ilə yaxın bir vaxtda körpünün Bərgüşad çayının sol tərəfindəki aşırımı uçub yararsız hala düşüb. O illər artıq Laləzar həyatda yox idi. İşlərini oğlu Xoca Simon davam etdirirdi. Atanın bütün varidatı da oğlu Simona qalmışdı. Körpünü uçması Simonu dilxor eləmişdi. Xoca Simon atasının yadigarı olan körpünün uçmuş hissəsini yenidən düzəltmək istəyir. Bunun üçün hazırlıq görməyə başlayır. 1870-ci ildə uçmuş körpünün bərpası qurtarır. Bərpa edilmiş körpünün görünüşü əvvəlkindən fərqlənir. Körpünün sol hissəsinin sağ tərəfinə görə təzə inşa olunduğu kənardan aydın görünür.

Xoca Simon körpünün uçmuş hissəsini düzəldib qurtarandan sonra deyir: "Kaş o biri aşırım da uçaydı, onu da düzəldib rahat olaydım".

Erməni körpünün həmin hissəsinin uçacağını nəzərə alıb banka əlli min qızıl pul qoyur və övladlarına tapşırır ki, körpü nə vaxt uçsa yenidən tikdirərsiz. Xocanın nəvələri Sovet dövründə pulu almaq üçün çox səy göstərsələr də, buna nail ola bilmədilər.

## 105. SƏBƏTKEÇMƏZ

Hər iki tərəfi sıldırım yamacdı, ortada dar yol var. Bir nəfər gilas dolu səbətləri öküzə yüklüyüf aparırmış satmağa. Öküz toxunufdu yamaca. Öküz aşıf yamacdan düşüf, gilas da əzilifdi. O vaxdan oranın adı qalıfdı Səbət keşməz. Səbət yüklü öküz ordan keşmiydi.

## 106. GAVIRLI DƏRƏSİ

Gavırrı böyüh bir dərədi, üst tərəfi də böyüh bir meşədi. Kənarlarda çoxlu bulax varıydı. O Gavırrıda Seyfəli addı bir adam yaşıyırmış. Bunun bir erməni nökəri varıymış. Erməni də bijdi dənə, cannan-başnan buna qullux eliyir. Vaxtnanmış dana. Vaxtı qutaranda Seyfəli ona deyir ki, mənnən nə isdiyirsən? Erməni deyir ki, mana icazə ver, sənin torpağında yaşıyım. İcazə ver, haqqım elə o olsun. Ayləmi gətirim burda yaşıyım. Deyir, hə, nolar, get gəti. Gedir ayləsini gətirir, başdıyır burda yaşamağa.

Yavaş-yavaş gedir ətrafdakı ermənilərlə tanış olur. Gejənin birində ermənilər gəlif Seyfalının külfətinin hamısını qırıllar. Öz-dəri başdıyır orda yaşamağa. Deyirlər ki, elə ona görə də oranın adı Gavırrı qalır. Bax da, qızım, ermənilər gavırrıxlarını hər yerdə göstərirdi.

## 107. ŞAHTAXTI

Bərgüşadın Darlar deyən hissəsinin sol tərəfində bir dağ var. Üstü yastıdı, düzənnih formasındadı. Yaşdı adamlardan eşitdiyimizə görə, o vaxtlar şahlar, xanlarmı gəlif orda divan qurarmışlar. Hakqa, ədalətə, yəni məsələlərə baxırmışlar. Yəni taxta çıxıf şikayətlərə baxarmış. Kim cəzalandırılırsa, boynu vurulursa, elə orda da basdırılırmış. Elə o vaxtdan da oranın adı Şah taxtı qalıf.

## 108. NƏZİR BULAĞI

Aslan bəy bizim kəntdən kənarda heyvan saxlıyırmış. Orda bir bulax var imiş. O gedif ordan suyu çəkdirif üsdündə tağbənd düzəltmişdi, çömçə qoymuşdu, su ora gəlirmiş. Bir müddət gələnnən sora o bulax quruyur. Quruyanda Aslan bəy bir at nəzir deyir ki, su gəlsin. Bir müddət keçənnən sora su həmin yolnan gəlmir, başqa yerdən çıxır. Çıxanda gətirir bir at verir seyidə, bulağın da adını qoyur Nəzir bulağı.

# TARİXİ ŞƏXSİYYƏTLƏR, QAÇAQLAR, TANINMIŞ İNSANLAR VƏ PƏHLƏVANLAR HAQQINDA RƏVAYƏTLƏR

## 109. EYMƏNMƏ KÖNLÜM, EYMƏNMƏ

Şah Abbas bir dəfə gəzməyə çıxanda görür ki, bir nəfər tualeti təmizdiyir. Öz-özünə deyir ki, eymənmə könlüm, eymənmə. Bunnan da betər günə düşərsən. Şah Abbas öz-özünə fikirrəşir, deyir,

görəm həyatda bunnan da çirkin iş var? Çirkin iş budu, bunu da bu görür, da nə deyir ki, eymənmə könlüm, eymənmə, bunnan da betər günə düşərsən. Bu söz şahın ürəyində qalır. Gedir, axşam libasın dəyişir. Deyir, gedin filan adamı çağırtdırın gətirin. Həmin adamı çağırtdırır gətirir. Deyir, mən şəhəri gəzməyə çıxmışdım. Sən belə bir söz danışdın. Bu sözün açıqlamasın maa de görüm. Kişi durur belə baxır, baxır. Deyir, şah sağ olsun, orda mən nə eyib iş görürdüm kü? Təmizdiyirdim, zəhmətharqımı alırdım, gedirdim uşaxlarımnan halallıx alıb halal çörəyimi yeyirdim. Pis iş odu ki, mən kiməsə əl açam, deyəm maa bir maat ver. Onnan həyatda pis şey yoxdu. Mən kiməsə əl açıf pul qazanıf uşax saxlamıram. Öz halal zəhmətimdi. Tualeti təmizdiyif gedirəm uşağımı dolandırıram. Şah Abbas belə baxıf, baxıf, deyif, hə, doğurdan da, sən düz deyirsən. Ən hikmətli söz budu ki, sən öz zəhmətinnən öz aylənı saxlıyırsan.

Atam bunu tez-tez misal çəkirdi.

## 110. ŞAH ABBASIN QATIRI

Şah oğlu Şah Abbasın bir dənə qatırı varmış. Bu qatırı hansı nalbəndin yanına aparırsa, ayağına nal vura bilmir. Axırda bir nalbənd gəlir. Deyir, mən bunu nallıyaram. Şah Abbas deyir, şərtimiz şərtdi. Nallıya bildin sənə bir belə məvacib verəjəm, yox, nallıya bilmədin sənin boynun vurulajax. Deyir, mənim gözüm üsdə. Qatırı çəkir aparır, salır pəyəyə bir eşşəyin yanına. Çəkişnən bunu möhkəm-möhkəm döyür. Deyir, ay kopoğlunun qatırı, atan o ulaxdı, anan da maydandı. Nəyə görə sən qoymursan nallamağa? Qatırı nallıyır, götürür gəlir. Şah Abbas deyir neynədin ki, bunu belə nalladın? Deyir, onun sirri var. Deyir, nədi? Söhbət elədiyim kimi deyir. Onnan sorasına həmin nalbəndə məvacib verir.

## 111. MƏNİM ATIM ANA-BALADI

Şah Abbas bir gün vəzirinə deyir ki, ey vəzir, denən atdarı hazırrasınnar, dərviş libasında çıxax gəzək. Gəlillər bir çaya çatıllar.

Çaydan keşmək isdiyillər, atdar keşmir. İsdiyillər qayıdalar, görüllər bir atdı gəlir arabaynan. Deyir, yəqin bu çaydan keçəjək da. Görək nətər keçəjək. Baxıf görür ki, vuruf çaydan keşdi. Şah Abbas vəzirinə deyir ki, onu çağır qayıtsın geri. Nətər olur ki, yol yeriyə bilməyən yabı çayı keşdi, amma mənim atdarım keşmir. Çağırıllar. Deyir:

– Nəyə görə sənin atdarın çayı keşdi, bizim atdar keşmir?

Deyir:

– Şah sağ olsun, sənin atdarın hərəsi bir cinsdəndi. Birinə bir qamçı vuranda deyir, qoy o birsinə də vursun. Amma mənim atdarım ana-baladı. Ana isdəməz balasına qamçı dəyə. Çəkir çayı aparır.

## 112. TORPAĞIN TAVAZASI

Şah Abbasın bir dəlləyi varmış, həmişə üzün ona qırxdırırmış. Bir gün üzün qırxanda dəlləy ülgücü diriyir xirtdəyinə. Deyir ki, şah, ya gərək qızını maa verəsən, ya da başını kəsəjəm. Deyəndə padşah qalır belə. Bıçax xirtəhdədi da. Deyir, verdim. Vəzir Allahverdi xana deyir ki, başıma belə hadisə gəlib. Deyir, gəl burdan köçək. Vəzir Allahverdi burdan bir kisə torpax götürür, gedirlər.

Üç il keçir, beş il keçir, bu hadisə yaddan çıxır təmiz. Bir günnəri Vəzir Allahverdi xan torpağı səpir bunun ayağının altına. Üzün qırxanda dəlləy bir də deyir:

– Şah, gərəh ya qızını verəsən mana, ya da başı kəsəjəm.

Nə qədər eliyir əmələ gəlmir, deyir, verdim. Deyir:

– Vəzir Allahverdi, axı bunun yadınnan çıxmışdı, noldu?

Deyir:

– Adə, onnan deyil ey. Torpax götürmüşdüm, onu tökmüşdüm ayağının altına, o torpağın tavazasındandı[17]. Burdan da köçək.

## 113. QATIRÇI MURAD

İbrahim xanın üç karrı adamı olur. Biri olur Molla Vaqif, Pərioğlu Həsən (Ağdamın üsdündəki Pəribulaq kəndindən idi), biri

---

[17] torpağın tavazası – torpağın hökmü, qüdrəti

də olur Qatırçı Murad. Onnar o qədər şücaətdi, o qədər yaxşı olur ki. Həsən Araznan Kür arasında kim tabe olmurdu, ayağa qalxırdısa, onun qabağını alırmış.

Qatırçı Muradın atası İran Azərbaycanınnan gəlmə Alverdi olur, özü də çox kasıb olur. Kirə aparırmış[18], gətirirmiş. Bunun oğlu olur Murad. İbrahim xan deyir ki, Muradı ver mənim qəlfə-qatırıma baxsın. Onda da maşın yox, bir şey yox, yük daşımax üçün qatır saxlıyırmışdar, köhlən atdar saxlıyırmışdar.

Bir günnəri İbrahim xan gəlir, öz atını minə bilmir. At o qədər dəmli olur, o qədər yaxşı olur ki, atı minə bilmiyəndə deyir, görəm bu ata nə verir ki, at qoymur minməğa. Pusur bunu. Görür ki, Murad apardı atın yemini verdi. Yemini verənnən sora bunun altını qurulamax üçün peyin qurutdu. Peyini atın altına səpənnən sora paltarını soyundu onun üsdündə ağnadı ki, görüm haramı əzir. Onu əzən hissələri yığdı bir vedrəyə, apardı tökdü çölə. İbrahim xan bunu belə görəndə Muradı çağırır, deyir:

– Səni bəy yazacam.

Deyif:

– Mən kasıb bir kişinin oğluyam. Mənnən bəy olar?

Deyif:

– Səni bəy yazacam, sən yaxşı adamsan.

Ağdamın üsdündəki Muradbəyli kəndini də verdi ona. O Muradbəyli həmən Muradın adına qaldı. Verdi ona, dedi ki, kəndin bac-xəracın sən al, orda dolan. Onun da törəməsi oldu Qara bəy. Ona görə deyillər, hər iyid Həsən olmaz, hər ağaşdan masan[19] olmaz, hər oxuyan Molla Pənah olmaz, hər qatırçı Murad olmaz.

---

[18] kirə aparmaq – nökərçilik etmək

[19] Masan cütdə olan dirsəkli ağaca deyilir. Ağzına dəmir vurub onunla yer şumluyurdular.

## 114. PAŞA BƏY

### I mətn

Paşa bəy deyirmiş ki, qorçulunun varın-döölətin yığsan bir xoruzun belinə xoruz aparar, amma sözün dəvə qatarı çəkməz. Həmin kəntdən Şərif adında bir kişi əhd eləmişdi ki, mən öləndə məni Paşa bəyin ədalətiynən götürün, molla-zad lazım deyil. Paşa bəyi gətirərsiniz, Paşa bəy öz ədalətiynən, qanun-qaydasıynan götürər. Bir gün gəlif deyillər, Şərif kişi, Paşa bəy öldü. Deyif ki, hayıf. Da denən mən Şərif kişi öləndə heyvan kimi öləjəm. Mənim üsdümdə qanun-qayda tətbiq olunmayajaxdı. Öl Şərif, öl, heyvan kimi öl. Artıx Paşa bəy ölüfdü.

### II mətn

Bir gün mənim babam Məşədi Şükür xəsdələnir. Babamnan da Paşa bəy dosduymuş. Məşədi Şükür qonşunu çağırır ki, get qonşu kəntdə Paşa bəyə denən ki, Məşədi Şükür xəsdələnifdi, ona bir dənə baş ağrısı dərmanı versin. Bu da gedir Paşa bəyin evinin qənşərində dayanıf çağırır:

– Ay Paşa bəy, ay Paşa bəy.

Nökərlər çıxır. Deyir:

– Paşa bəyə deyin bir az bəri gəlsin.

Paşa bəy də yaşdaşmışdı, çətinniknən yeriyirdi. Nökərlər deyir ki, bəy, icazə ver gedək onu bir az çırpax. Deyir:

– Yox, onun qabına qoyulan odu, gedəjəm.

Çəliyin alır əlinə yavaş-yavaş çıxır.

– Ə oğul, nə deyirsən?

Deyir:

– Bəri gəl ey, səynən işim var.

Nəysə, yavaş-yavaş gedir. Deyir:

– Ə oğul, nə deyirsən?

Deyir:

– Məşədi Şükür məni göndərdi, dedi ki, maa dərman versin, başım ağrıyır.

Deyir:

– Oğul, Məşədi Şükürə dərman tapılajax, amma sana dərman yoxdu.

Özü də belə qaydası varmış. Kim onun evinə gəlsə, evində çörək kəsməmiş onu buraxmazdı. Oğlu Sultan bəyə də tapşırmışdı ki, qapına gələn adamı yedirt yola sal. Uzax yoldan gəlir, piyada gəlir, aj-susuzdu. Sənin varındı, onun yoxdu. Bunu da evə aparır, çörək verir, yeyir, onnan sora dərmanı götürür gedir.

**III mətn**

Kəntdə biri gəlif Paşa bəyə deyifdi ki, Paşa bəy, mən dağda yaşıya bilmirəm ey, çıxıf gedəjəm Qarabağa. Deyif:

– Oğul, de görüm gedəndə bu başı da özüynən aparajaxsan, yoxsa bu başı burda qoyuf gedirsən?

Deyif:

– Əşi, o nə sözdü? Gedəndə başımı da aparajam.

Deyif ki, o baş ki səndədi, nə ala dağ, nə qara dağ. Hara getsən, eyni şeydi.

**IV mətn**

Dağ evində buların qapısında çoxlu iti varmış. Bir gün Paşa bəy gəlir ki, buların (Sultanın – top.) qapısında o qədər it var, sayı-hesabı yoxdu. Deyif ki, oğul, Sultan bala, bu itdər nə yaxşı sizi yemir?

Deyir:

– Niyə yesinnər, baba. Bulara çörək atırıx, yal bişirif veririk, sümük tulluyurux, itdər bizi tanıyır.

Deyir:

– Ay oğul, bu camahat sənə bu qədər çörək verir, niyə qudu-ruf bu camahatı yeyirsən? Sultan, ağlızı yığın başınıza. Təkəriniz çıxıfdı Qırxqız dağının başına. Bir gün ordan yumalanajax və Allah bilir harda bənd alajaxdı.

**V mətn**

Paşa bəyin iki yoldaşı oluf, biri seyid qızı oluf, Oğuldərə kəndinnən Seyid Mirəzizin qızı. Paşa bəy də seyidnən qohum olsa

da, onnan arası olmuyufdu. Onun bir sözü var. Deyirdi ki, bir kəndi dağıtmax üçün ora qoşun lazım deyil. Kəndin başınnan bir seyid, ayağınnan bir seyid qoysan o kənd dağıldı getdi. Həmin bu Seyid Mirəziz gəlir qalır bunnarda. Yatmax vaxdı yer salıllar. Bu deyir ki, bəy, mən o yerdə yata bilmərəm. Paşa bəy də fikirrəşir ki, yəqin bunun yoldaşı yaxşı yer salmıyıf da. Girir içəri, görür taxtın üsdündə buna bir yer salıflar, soruxlu, çıxollu, tük yastıxlar başının altında, biri o tərəfdə, biri bu tərəfdə. Seyidə deyif ki, a kişi, bildim, bildim, sən orda yata bilməzsən. Gəlif arvada deyir ki, yekə evdə seyidə yeddi dənə yer sal. Çağırır:

– Seyid gəl, yerin hazırdı. Bu gejə səhərə kimi o yeddi yerin hansında isdiyirsən orda yatarsan.

**VI mətn**

Paşa bəyin dört oğlu oluf, ən ağıllısı Xosrov bəy oluf. Sultan bəy sərkərdə oluf. İsgəndər bəy onun ferma, təsərrüfat hak-hesabına baxan oluf. Zülü adında da bir oğlu oluf. Paşa bəy deyif ki, Zülü, səni göndərəjəm məktəbə gedəsən. De görüm bu başnan gedərsən oxumağa, yoxsa başını qoyuf gedərsən. Deyir ki, bay, adam başsız gedər?

Deyir:

– Yox, sənnən Xosrov olmaz. Elə sən burda get İsgəndərin malını otar.

Yoxluyurmuş ey o. Kim getməlidi, xaricə çıxa bilər, elə mənfət gətirə bilər.

Söz aparıf söz gətirənnərə deyirmiş, filankəs maa yağ gətirir, bal gətirir, erkək gətirir, siz də ətəyinizə yalan büküf gətirif balalarımı qana salırsız. Gəlmiyin bura.

**VII mətn**

Bizim kətçi Ələsgər qıçın yəhərdən aşırıf, fıştırıx çalırmış. Sultan bəy Ələsgərə deyif ki, Ələsgər, belə olmaz. Gedif bir evdə oturanda Ələsgər düz bunun ağzını nişan alır. Başın yana çöndərəndə güllə çənəsini sıyrır. Ələsgər qaçır Paşa bəyin üsdünə ki, Sultanı

atdılar. Ağıl lazımdı da. Deyir ki, Ələsgər, mənim bir kürəyimi qaşı görüm. Kürəyini qaşıyanda deyir:

– Ələsgər, sən atmısan, əlin əsir. Dur burdan get, uşaqlar səni öldürər.

Deyif ki, Paşa bəy, nə bilirsən? Deyif:

– Düşman düşmanın kürəyin qaşıyanda əlləri əsməlidi. Sənin əlin əsir. Dur burdan get.

Orda deyif ki, atan da yaxşı atıf, saxlıyan da yaxşı saxlıyıf.

**VIII mətn**

Paşa bəy bəyliyi öz ağlıynan alıf. Əslən bəy olmuyuf. Bərdədə İsmayıl Ləmbəranski oluf. Yelizavetpolda oturan qubernator rus imiş. Paşa bəynən də İsmayıl bəy yaxın dost imiş. Paşa bəyin heylə çox pulu yox imiş. Ayınnan-oyunnan götürür gəlir. Deyir ki, İsmayıl, məni də apar da, orda gör bəylik ala bilərsən.

Deyir:

– Nəyin var?

Deyir:

– Bir dənə yüzdüyüm var.

Deyir:

– Ana, sənin nəyin var?

Deyir:

– Biri də mənim var.

Deyif:

– Ana, onu da ver.

Cəhrənin sandıxcası olur, ordan çıxardıf verir. O iki yüzdüynən gedir. Qubernatorun iki oğlu varmış. İsmayıl bəy rusca bilirmiş, Paşa bəy yox. Yüzdüyün hərəsini verir uşağın birinə. Uşaxlar deyir, bəs atamız soruşsa, bu pulu bizə kim verdi, nə deyax? Deyir ki, deyin Paşa bek. Qubernator gələndə uşaqlar əllərində bir yüzdük belə çıxanda qubernator deyir, pulu sizə kim verdi? Deyir, Paşa bəy. Gəlif İsmayıl xayiş eliyəndə deyir ki, uşaxlar bəyliyi ona mənnən qabax verif.

## IX mətn

Şuşa, Gəncə, Qarabağ bəyləri yay vaxdı toplaşırmışdar Şuşada, orda söhbət eliyirmişdər, öz aralarında məşvərət eliyirmişdər. Anaqız oğlu Şükür deyirmişdər. Ona hətta bəylər bəyi də deyirmişdər. Özü bəy döyül, amma bütün bəylərdən dilavərmiş. O qədər gözəl nitq mədəniyyəti varmış ki, ona çatan yoxmuş. Paşa bəy hələ bəy olmamışdan qabax deyir ki, necə eliyək mənim bəyliyimi təsdiqlədək? Gəncədə general qubernator otururmuş, bəylərin təyinatın verən o idi. Anaqız oğlu Şükür deyir ki, Paşa, deginən görüm dörd dənə yüzdük səndə tapılar?

Deyir:

– Dörd nədi, lap on dənə tapılar.

Deyir ki, onda gedək. Qubernatorun iki uşağı var, hər uşağın əlinə bir yüzdük lazımdı. Çatan kimi uşaxlar bunnarı qarşılayır. Qarşılıyanda uşaxlar deyir:

– Dyadya, kto tıy takoy.

Deyir:

– Paşa bəy.

Qubernator bunnarı çağıtdırır içəri. Deyir ki, Şükür, yanıma nə üçün gəlmisən? Deyir gəldim ki, Paşanın bəyliyini təsdiq eliyəsən.

Deyir:

– Uşaqlar təsdiq elədi.

## X mətn

Alqulu kəndində Ader addı keşiş olur. Bir gün bu, oğluna toy eliyir. Toy elənif qutaranda Paşa bəy onu çağırır. Deyir ki, gəl görüm toy nətər keşdi? O da sayılan adammış. Deyir ki, arə, elə yaxşı keşdi, elə yaxşı oldu. Sənin müsəlmannarın bir şiş kababdan ötrü bir qoynumu kəsdi, şad oldum. Bir cöngəmi kəsdi, şad oldum. Tuluğumu cırdı, ona da şad oldum. Amma bir dosdum qəndi cüt-cüt qoydu ağzına, elə bildim bütün məkür-kafımı apardı.

Bu qədər var gözünə görünmədi, dostunun qəndi iki-iki yeməyi gözünə göründü. Məclisdə olanda gərək özüü gözdüyəsən da.

## XI mətn

Bir gün rəhmətdik Sultan yuxudan oyanır, deyir:

– Ata, bu gecə bir yuxu görmüşəm. Gördüm ki, arabamız Qırxqızın başına dik yoxuşa çıxır.

Deyir:

– Baho, bala, nə pis yuxu görmüsən.

Deyir:

– Niyə dədə?

Deyir:

–Vay o günə ki, o geri qayıda. Onda bizim devranımız dağılajax. Oğul, gəl nəhlət şeytana de. Dik dırmaşma yuxarı, həmişə aşağı bax. Camahatnan pis rəftar eləmə.

## XII mətn

Paşa bəy dülgərləri göndərir ki, Dərəkəndində yaxşı qoz ağacdarı var, olardan kəsin verin mişara, yaxşı-yaxşı taxdalar çıxardın, mən onnan şkaf bağlatdırajam. Qoz ağacının da özünün rəngi var da. Həmin Dərəkəntdəki gözə gələn ağacdardan birini kəsif verillər mişara. Mişar bunu çətin kəsir da, səs eliyir, dirənir. Mişar çəkənin biri deyir:

– Çor, zəhirmar, burda sənə mən keçi ətini hardan alım?

Mişar çəkənin biri olur Lələ, biri də oğlu Abdulkərim. Lələ deyir:

– Ə çək, möhkəm çək, görüm bu niyə ilişdi?

Deyir:

– Ay ata, nə bilim, mənnən keçi isdiyir, yağ isdiyir. Mən keçi ətini hardan alım?

Gedif Sultan bəyə deyillər, Sultan bəy bulara bir keçi verir. Gətirif keçini kəsillər. Abdulkərim deyir ki, buna yaxşı mərsiyə yaraşır. Sinəsinə döyə-döyə deyir:

A keçi, yağlı keçi
Dörd əl-ayağı bağlı keçi.
Səni usta yeyəjək
Necə ki Sultan sağdı, keçi.

### XIII mətn

Paşa bəy ömrünün sonunda oğlannarın yığır başına. Deyir ki, bala, bu döölət-var hamısı sizindi. Mən ölənnən sora adıza layix ehsan verərsiz. Deyillər, ay ata, nə varsa sənin adınnan bağlıdı. Deyir, yox, bala, mənimki bura qədərdi. Burdan ayna nə eləsəniz deyəjəhlər Paşa bəyin öylatdarı bunu elədi. Çalışın camahata fərq qoymuyun. Ehtiyacı olan da otsun yesin. Amma yanıma üzü qara gələssiz mənim kəfənimi bütöy ağdan bişsəniz. Mənim kəfənimi cırın, onu calatdırın, sora mana kəfən biçin. Deyillər, niyə, qiymətdi parçalara nə gəlif? Deyir, yox, yorğanın kəfrənini söküf ölüsünə kəfən tikənnər deməsin ki, mən ölümə kəfən tapmadım, amma Paşa bəy bahalı kəfəndə basdırıldı. Qoy desinlər ki, Paşa bəy də calax kəfənnən getdi.

### XIV mətn

Laçının üç varrı adamı oluf. Biri Paşa bəy oluf, biri Hajı Mirəziz, biri də Lətif. Hajı Mirəziz həm də Paşa bəyin qayınatası oluf. Paşa bəyə sual verillər ki, bəy, dünyanı necə yola saldın? Deyif, mən daddım getdim, yəni yemədim. Hajı Mirəziz tamarzı getdi, amma Lətif yedi getdi. Özünə korruğ vermiyif. Kalxoz yarananda onun bünövrəsi Lətifin malı oluf.

### XV mətn

Paşa bəyin böyük ilxıları oluf. Deyillər, hər yaşdan yüz baş heyvan saxlıyırmış. Deyillər ki, bir gün ilxısı gedəndə qoyun ürkür. Görür ki, ayağı bir zincirə ilişdi. Zinciri tuta-tuta gedir ki, bu zincir girif bir qayanın içinə. Qayanın nə oyuğu, nə bir şeyi. Tüfəngin sümbəsiynən qaşıyır, bir cığırın tapır. Baxıf ki, qayanı deşif içini qızılnan dolduruflar. Götürüf gətirif, onnan varranıf.

### XVI mətn

Pircahannan Məşədi Alı gəlif Paşa bəyin yanına. Deyif ki, bəy, getdim o dünyanı gəzdim gəldim. Bəy də ağıllı adamdı. Düşünüf ki, bunda söz var da, yoxsa elə-belə bu sözü deməz. Deyif ki, Məşədi

Alı, xeyir ola, nəyə getmişdin? Deyir, elə getdim. Deyir, nə gördün? Deyir, bəy sağ olsun, bir ev gördüm, bax bir ucu sənin bu evində, bir ucu da Həkəridə. Deyir, xeyir ola ay Məşədi Alı, o böyüklükdə binanı neynillər? Deyir ki, bəy, o binanın içi doludu naz-nemətnən. Deyir, o naz-nemәti neynillər? Deyir ki, bəy, gördüm ki, bir dəsdə camahat gəldi, heş-zada əlin vurmadan geyindilər-kejindilər, hərəsi bir at mindi, bir tüfəy götürdü, bir qılınc bağladı, çıxdı getdi. Soruşdum bu hara camahatıdı? Dedilər, bu Qasımuşağıdı, bəyin adamıdı. Deyir, sora nə gördün? Deyir, sora gördüm bir dəsdə camahat gəldi, nə böyük kiçiyi, nə kiçik böyüyü tanıdı. Ye ki yeyə bildikcən, ye ki yeyə bildikcən. Sora da qoltuxların, ciblərin doldurdular getdilər. Soruşdum bu hara camahatıdı? Dedilər, bu da Vağazin camahatıdı.

Bu söhbəti eliyən Şahbaz müəllim oluf Narışdan. Amma söhbətin dalın eləmədi. Dedi ki, bütün kəntdərin xasiyyəti orda öz əksini tapıf. Sənin dilin dinc durmuyajax, toyda danışajaxsan, ya vayda, mənim gorum olar söyüş yiyəsi. Mən goruma söydürə bilmərəm. Sora xəsdələndi, qardaşımı göndərdim ki, bu söhbətin ardını örgənsin. Deyif, yox, mən onu danışammaram.

### XVII mətn

Paşa bəy adamların psixologiyasın bilən, düşüncəsin qiymətləndirməyi bacaran bir adam oluf. Bir dəfə evdə oturanda birdən hay düşüf ki, güney yandı. Dağda payızda ot bozarır, qışda, yazda heyvan onu xam kimi yeyir. Tökülüf gedifdilər, bəy də oturufdu. Deyif ki, bala, noldu? Deyiflər ki, odu söndürdük. Deyir, soruşmadız ki, güney niyə alışıf? Deyiflər ki, bəy, Səfəralı kişi ojax qalamışmış, onnan od düşüf. Deyir, yox, siz Səfəralının cığın[20] söndürəmməzsiz. Heş kimin güjü çatmaz (Səfəralı görünür şeytan meyilli adammış da). Səhər duruf görüllər ki, bircə qarış yer də qalmıyıf, hamısı yanıf.

[20] cığ – od, alov

## XVIII mətn

Atı İsgəndər bəy minif harasa gedif da. Gətirif atı bağlıyıf, özü də keçif yatıf. At qalıf çöldə günün altında, amma bu, evdə istirahətin eliyir. Paşa bəy gəlif deyir:

– Xaldar, Xaldar, bilirəm nə deyirsən. Deyirsən ki, əkdiyin namərt oğlun məni bu gejə minif isdədiyi yerə sürüf, özü öz kamına çatıf. Amma məni orda bağlıyıf ağaja, indi də burda bağlıyıf milçəyin altına, milçək yeyir məni. Bilirəm nə deyirsən.

O demək deyil ki, oğlunu pisliyir. Oğluna çatdırır ki, belə olmax lazımdı.

## XIX mətn

Sabir kişi danışırdı. Nəsib Paşa bəyin əmisi oğludu. Deyir bir gün İsgəndər bəy bunun piçənəyinə mal yığıb, bunun yerini otarıf. Nəsib alıxlı atnan gəlif əmisi oğluna (Paşa bəyə – top.) deyir ki, nədi, oğlannarını göndərmisən mənim yerimə. Atdan düşmür, atın üsdünnən danışır. Deyir, Nəsib, düş, Nəsib, düş. Deyir, yox, düşmüjəm. Oğlannarın belə eliyir, mənim piçənəyimi heyvannara otarır. Bir xeyləğ duruf deyir ki, o malı yığmamışdan qabax kimnən görüşdün. Deyif, Ədilnən Cümşüdnən. Deyir hə, o adamlar yığar. Deyif, məni də apar. Deyif, nətər səni aparım? Deyir, minəjəm tərkinə. Deyif, bəy də at tərkinə minər? Deyir, qoy camahat görsün ki, mən Nəsibin tərkində gedirəm, ona toxunmağ olmaz.

## XX mətn

Bir bəy Paşa bəyə deyir ki, sən bu heyvannara nə verirsən ki, onnar gümrahdı, yaxşıdı. Amma bizim mal qırılır. Bir gün deyir ki, səni aparajam mənim çobannarımın yanına. Çobannarın yanına günorta aparır. Çobannara deyir, nəyiniz varsa, gətirin sırfa açın, yemək yeyək. Çobannar açır, bal, yağ, dünyanın nazı-neməti hamısı burdadı. Deyir ki, sabah da sənin çobannarınnan gedif yeyəjıyıx. Gediflər, çobannar sırfa açıllar. Çobanın sırfasında nə var? Paşa bəy deyir ki, sənin malın onçün arıxdı ey. Çobanın yedığı budu, malın da yedığı budu. Çobana bax, malın kök olsun.

### XXI mətn

Paşa bəyin qızına elçi gəlir. Sultan bəy nökərə deyir ki, get ağama denən niyə on üç yaşında qızını fikirrəşirsən, qırx yaşında oğlunu yox. Sultan bəy onda subay imiş. Nökər gedif elə helə də deyir. Paşa bəy deyir ki, get o bəyə denən ki, qız qalar sana töhmət olar, amma sən maa töhmət olmazsan. Ona görə gərək qızı tez yola salasan.

## 115. SULTAN BƏY

### I mətn

Sultan bəyin Qırxqızda dağ evi oluf. Malı, qoyunu orda olurmuş, özü də rəhbərəh. Türkiyədən qovulmuş Andranik başına dəsdə yığıf gəlir. Laçınnan keşməlidi. Andranikin nümayəndəsi gəlib Sultan bəydən icazə isdiyif ki, keçə Qarabağa, ordan da gedə Şamaxıya. Sultan bəy gəlif atasına deyir ki, Paşa, belə bir şey oluf. Deyir:

– Ə, ona nə dedin? Hə dedin?

Deyif ki, yox, hə demədim. O vaxdı torpaxbasdı deyirdilər. Paşa bəy deyif ki, get denən torpaxbasdını ödüyərsən, topu, tüfəngi sökülü vəzyətdə qəlfə-qatıra yüklüyərsən ki, camahat duyux düşməsin. Bu vəzyətdə keçin.

O vaxdı beş yüz atdısı oluf Sultan bəyin. Ona qırmızı şalvarrar deyirdilər, şalvarlarının yanında qırmızı palasa varmış. Yerbəyer eliyif bütün döyüşçüləri. Gəlif Zabuğ körpüsünnən keçillər. Gözdüyüllər qoşunun arxası qutarır. Qoşunun qabağı Dəlmələrə dirənir. Orda elə bir səngər yaratmışdı Sultan bəy, ora ancax kəndirnən düşə bilərdin. Girif orda pulamyot qurmuşdu. Səngəri tam hazır eliyənnən sora deyir, gəl. Qoşun gəlir. Körpünü keçəndə arxanı kəsillər. Burda atışma başdıyır. Buların silahları sökülü, arxa arxadan, qabax qabaxdan buları qırıllar. Ora Qannı dərə deyillər. Andranik ordan qaçır. Sərkərdə ağ atın üsdündə əlində bayraq gəlir da. Sultan bəy də işini bəri başdan yaxşı görmüşdü. Andraniki tanıyan bir ermənini yanında saxlıyırdı. Sərkərdəni tutanda soruşur ki, Andranik budu? Deyir, yox, Andranikin başı çox yekədi. Andranik özü arxada gəlirmiş. İki dənə müsəlman körpəsinin əlinnən tutur,

guya bu da müsəlmandı. Ordan üsdən aşağı enir Güləbirtə sarı, dəyirmanda paltarını dəyişir. O vəzyətnən aradan çıxıf.

**II mətn**

Andranik deyifdi ki, sana qızıl verəjəm, sən icazə ver qoşun keşsin Qarabağ zonasına. Deyif ki, qoy atama maslahat eliyim. Gəlif atasının yanına. Atası deyif ki, Laçın balaca yerdi. Qarabağa keçənnən sora qayıdıf Laçını da alajax. Bir kələh quruf bunu məhv eləmək lazımdı. Sən qızılı al, denən qoşunun gəlsin. Camahatın şübhələnməməsi üçün silahları yığsınnar arabaya, silahsız gəlif keşsinnər. Andranik bu dediyi kimi gəlir. Dalı Zabığa girəndə əmr eliyir, dalın, qabağın kəsin. Ordan bir dənə də erməni çıxa bilmir. Andranik qırmızı at minmişmiş, özü də qırmızı geyinmişmiş. Aprel ayıdı, suyun daşan vaxdıdı. Andranik özün atıb çaya. Gülləynən atı vurufLar, atın da tərkində xurcun varmış. Bizim də insan tamahgirdi dana. Xurcun çaya düşəndə bunnarın başı xurcuna qarışır ki, onu tutalar. Andranik özün verif kola, aradan çıxıf. Xurcuna baxıflar ki, kəsilmiş barmaxdı üsdündə üzüy, kəsilmiş qulağdı üsdündə sırğaynan. Heylə olur Andranik qaçır gedir. Sultan bəy onda Laçını vermir.

**III mətn**

Andranik buna xəbər verir ki, sana bu qədər qızıl verirəm, sən yol ver mən keçim Qarabağa. Sənnən mənim işim yoxdu. Bu tez atı minir gəlir qardaşı Xosrov bəyin yanına. Deyir:

– Sənnən məsləhət almağa gəlmişəm.

Xosrov bəy deyir ki, get allatginən. Qızılı al, denən mənim camahatım hiddətlənər. Topunuzu, tüfənginizi qatırlara yüklüyün, mən sizə yol verəjəm. Qoşunu yığ, arxanı da kəs, qabağı da. Orda bir casus da olur. Andraniki orda tutajaymışdar. Boz atnan çapar gedir ona xəbər verir ki, burdan qaç. Heylə olur qaçır, arxasınca güllə atıllar, dəymir.

Sultan bəy Qala dərəsini ala bilmir, ora kəşfiyyata adam göndərmək istiyir. Qoşunu yığır, deyir, oraya kim gedə bilər? Vağazində Kazım kişi olur, bizim Piçənisdə də Əkbər kişi. Əkbər deyir,

mən gedərəm, Kazım da deyir, mən də gedərəm. Camahat deyir ki, bunnar qannıdı, gedə bilməzdər. Sultan bəy buları geri çağıranda başa düşüllər nə üçün onnarı çağırır. Deyillər, bizim bir düşmanımız var, o da ermənidi. Bunnar gedillər ki, Qala dərəsinin qənşərin kəsən bir ermənidi. Əkbərnən Kazım həmən ermənini öldürəllər, onnan ora Sultan bəy Qala dərəsini alır, Şuşanın yolu açılır.

Bərdədə Qılışdı Savalan oluf. Çox gözəl, varrı kişi oluf. Gedirmiş Ağdaşa, bazarrığ eləməyə. Yeməkxananı bağladırmış ki, bu gün Savalan əminin hesabınadı, kim yeyir yesin. Heylə kişi oluf. Sultan bəyin bir sifarişiynən ona köməyə beş yüz altdı göndərmişdi.

### IV mətn

Mən orda iştirak edən ağsakqalları görmüşəm. Əmiri, Ağaları, Minkəntdi Gülümü görmüşəm. Olar deyirdilər ki, ermənin qoşunu gəlir söykənir Həkəri çayına. Andranik Sultan bəyə qasid göndərir ki, sənə iki pud qızıl verim, qoy keçim Qarabağa. O da razılaşır. Gəlir evə. Onun atası Paşa bəy həmişə Sultan bəyə bəy deyirmiş. Deyif, bəy, niyə bikefsən? Deyif, ata, bəs belə-belə. Andranik iki pud qızıl verir, özü də isdiyir keçə Qarabağa. Deyir, bəs sən neynədin? Deyir, razılığ verdim. Deyir, yox, bala, səhv eləmisən. O gedif Qarabağı da alajax, qayıdıf səni də öldürəjəh, gənə də qızıl onundu. Deyir, bəs tədbir? Deyir, onun bircə tədbiri var. Adam göndər, denən mənim torpağımnan bir dənə saldatın əli tüfəyli keşmiyəjəh. Silahın hamısın dördyüz qatırdı, arabadı, nədisə yüklüyün. Qoşunun dalı Minkənd çayınnan qutaranda qabağı enəjək Həkəri çayına. Bizimkilər hamısı da akopda gözdüyürmüşdər. Çıxıf qırarsınız.

Elə heylə də eliyif, dörd yüz arava yüklü silahı bəy daşıdıf Kürthacıya. Andranik özü səkgiz atdıynan qaçıf. Onun biri gedif Arazda batıf. İki boz at oluf. Biri Andranikin atı oluf. Andranik keçif o taya.

### V mətn

Həsən kişi vardı, Andraniknən Sultan bəy qavaxlaşanda, deyir, Sultan bəyin atın mən tutmuşdum. Deyir ki, Andranik gəldi,

bunnar danışdılar. Birdən Zabuxda güllə atıldı. Onda Andranik başa düşdü ki, bu uduzuf. Altında boz at vardı. Sıçrıyıf aradan çıxdı. Daldan atdılar, güllə dəydi yaraladı. Hiss olundu ki, güllə qolunnan dəydi, amma çıxdı getdi.

Bunu maa Həsən kişi danışıf, Ağaların atası.

## VI mətn

Ermənilər hüjum çəkəndə Sultan bəy əmr verir silahı bajaran adam, bir də tüfəyi olan adamlar Minkəndə yığılsın. Şeylanlı Bəşir də onda cavan oğlanmış. Adsız-sansız adam idi. Kəntləri yığır Minkəndə, ordu düzəldir Andranikin qoşununa qarşı vuruşmağa. Bu da cavandı, evləmiyif. Sultan bəy cavannarı sıraya qoymuşmuş. Bir dəfə üzünə baxa-baxa gedirmiş, bir dəfə də arxadan baxa-baxa gedirmiş. Deyif, əlimi kimin arxasına qoysam o irəli çıxsın. Minkəntdə Bəşirin bir qohumu varmış. Sultan bəy əlini Bəşirin kürəyinə qoyanda deyir o uşaxdı, silah bilmir. Sultan bəy deyir, yüz güllə atsın biri boşa getməz. Özü də düz deyir ey. Bəşir elə bir adammış ki, gülləsi boşa getməzmiş. Sultan bəyin onu tanımasına bax ey.

## VII mətn

Atam Sultan bəyin özünü görmüşdü. O vaxdı ata-anası qırılır, yetim kimi əmisi oğlunun yanında qalırmış. Atam deyir ki, balacaydım, Almuradın yanında qalırdım. Almuradın da yoldaşının adı Rasta idi. Bir günnəri səs düşdü ki, bəy gəlir, gedəcəkdi. Rus gəlifdi deyə bular çıxıf gedillər. Atmışa yaxın farmaş yüklü yük idi, qırxa qədər də at idi. Gəldilər töküldülər. Bunnara heyvan kəsirlər. Məni görəndə Sultan bəy dedi ki, ay Almurad, bu kimin uşağıdı belə. Dedi ki, rəhəmtlik əmoğlu Həbibin oğludu. Dizinə vurdu dedi:

– Vay, vay, bulara da yaman oldu, qardaş qırıldı, ata öldü, ana öldü.

Dedi ki, Rasta, mənim tərxurcunumda kəfənnik ağım var. O ağı çıxart, bu gecə uşağa alt-tuman köynək tik. O vaxtlar alt tuman-köynəyi ancax bəylər geyirdi. Atam deyirdi ki, şal yunnan toxunma şalvar geyirdik, adamı dalıyıb öldürürdü.

Arvad gəldi, ölçdü mənim kürəyimi, ölçülərimi götürdü. Mən yatdım. Səhər arvad məni durğuzdu ki, bala, qurban olum, dur, bəy əmingil gedillər. Ayağa durdum, həmin alt paltarı geyindirdi gətdi bəyin hüzuruna. Sultan bəy dedi ki, əlimdən nə gəlir? Mən çıxıf gedirəm. Bu uşax burda yetim qaldı, siz də başsız qaldınız. Gözünnən yaş axdı. Dağlara baxdı dedi:

– Can, ay vətən, can. Bir də səni görmərəm mən, – deyif getdi.

## VIII mətn

Sultan bəy İrana gedirmiş. Ama bir yol axtarırmış ki, nətəhər getsin. Sultan bəyə deyiflər ki, səni İrana addatsa, Güləbirtdə Abdullaoğlu Misir var, bəlkə genə o addada bilər. Misir də İrana işdiyirmiş. Bələdçi axtarırmış da. Təhlükəsiz addada bilən, Arazın keçalatını bilən adam axtarırmış da. Ona da Misiri nişan veriflər. Mən də eşitdiyimi deyirəm, bala. Sultan bəy gəlib Abbas qışlağına – Misirin evinə. Misirə deyif ki, bilirsən, mən Sultan bəyəm. Misir də bala, Abdullanın oğludu. O da yüzbaşı-zad oluf. Həə, nəysə, deyir ki, məni addadeysən İrana. Misir birinci razı olmur. Bəy ona deyir ki, əən-bəən eləmə, səni vuraram. Heş getmərəm də, qoy hökumət məni tutsun. Misir də razı olur onu keçirməyə.

İki qatır yükü qızılnan Misir Sultan bəyi aparır İrana. Misir Sultan bəyi özünün tanışının evində qoyur. Bunu Misirin oğlu söhbət eliyif. Meşin xurcunnar varıydı, ağzı qapaxlıymış. Xurcunu Sultan bəy qızılnan dolduruf. Misir qızılı götürmək isdəmiyif, deyif ki, ta bu olmadı ki, saa yaxşılıx eləməh haqqıynan oldu. Sultan bəy ona deyif ki, artıx danışma. Səni vuraram burda qalarsan, heş gedif ora çıxa bilmərsən. Nəysə, Misir qızılnan qayıdıf gəlir.

## IX mətn

Mircəfər Bağırov adam göndərir ki, Sultan bəynən görüşmək isdiyir. Sultan bəy gələn elçiyə deyir ki, nəslin desin. Mircəfər Bağırov deyir, mən seyid nəsliyəm. Deyir, yox, mən onnan görüşə bilmərəm, sözün desin. Mircəfər Bağırov deyir ki, ta ki başın saləmətdi burdan köç. Deyir, kürdün gülləsi maa atılmasa, mən bu vətən-

nən çıxmaram. İnqilabçılar Müseyib bəyi ələ alıllar. Axı Sultan bəy deyif kürdün gülləsi mənə atılamsa vətənnən çıxmıyajam. Bunu örgədillər. Çayın bir üzündə Sultan bəyin evi idi, o tayı da qalın meşə idi. Sultan bəy qapıda gəzirmiş. Müseyib bəy həmin meşədən Sultan bəyi atır. Atannan sora Sultan bəy deyir, artıx çıxmalıyıx. Güllə papağına dəyir, deşib o üzdən çıxır. Paşa bəy deyir, atan yaxşı atıf, saxlıyan da yaxşı saxlıyıf. İrana addıyır. Əlyannıya mal gətirir İrannan. Bir Əlyannının evinə gəlir. Deyir, bu ayın-oyunu satmağa apar, ordan da Müseyib bəyin evinə get. İki dəfə gedif gələnnən sora deyif, indi onu qonağ çağır. Müseyib bəyi çağırır. Yeməx, içməx. Sultan bəy görükmür. Bunnar durur yeri salıf yatanda Sultan bəy peyda olur. Əliynən Müseyib bəyin başına vurur. Ev yiyəsi deyir, ə, o nə səsdi? Müseyib bəy deyir, ə, nə səs olajax? Bir tikə çörək verdin, onu da qannan yoğurdun. Lampanı alışdırıllar. Sultan bəy deyir, bu papağı sənə kim verif? Deyir, bəy, sən vermisən. Deyir, bir şey deyəjəm. Sənə qarşı bircə nöqsanımı de, səni bağışdıyajam. Deyir, deyə bilmərəm. Orda onu öldürür, çıxır gedir. Samavarı qaynadıf bağlıyır belinə əcirnən öldürür. Onnan sora addıyır İrana.

## X mətn

Sultan bəy Laçınnan köçüf gedəndə gedir Arazın qırağına. Ordan çönür belə baxır, həsrət çəkir. Qəmbər deyir ki, bəy, niyə həsrət çəkirsən? Deyir, gedirəm getməyinə, bir Ağammədi öldürəmmədim, bir Müseyib bəyi. Müseyib bəyi İrannan qayıdıf gəlif Köhnə kəntdə öldürüf. O da nətər oluf öldürüf. Müseyif bəy bunnan düşmən oluf. Sultan bəy talada oturuf yeyif içirmiş. Müseyib bəy elə nişan alıf ki, tüfəng Sultan bəyin çənəsin sıyrır. Müseyib bəy qaçıf gəlif evə, Paşa bəyə deyif ki, bəy, sultanı atdılar. Deyir, ə, əlini sal kürəyimi qaşı. Əlini salıf kürəyini qaşıyanda görür Müseyibin əli əsir. Deyir, gedələr gəlif səni öldürəjəh, tez aradan çıx. Heylə ağsaqqallar oluf ki, ayannan gələndə hiss eliyirdi gələn kimdi.

Sora kirvəsi (Müseyibin kirvəsi – top.) buna məktuf yazır, məktubun da arasına Quranın vərəqini qoyur. Müseyif gəlir Köhnəkəndə. Sultan bəy yükün dalında oturmuşmuş. Müseyif bəy gəlir

beşatılanı çıxarıf asır, kürkün çıxardır. Oturan kimi Sultan bəy çıxır, deyir tərpənmə. Deyir, bəy, kişi kişiyə əlində silah olmuyanda silah qaldırmamalıdı. Baxmır bəy ona. Öldürür, bağlıyır atın üsdünə, boşduyur. At meyidin aparıf çıxardır Bülöylüyə.

### XI mətn

Atam Sultan bəyi yaxşı tanıyırdı. Onun dediyinə görə, onnarın bir qızıl tapmağ yeri vardı. Onu mən öz gözümnən görmüşdüm. Ova gediflər. Taxta zavodunnan yuxarı Muncuxlu çayı vardı. Həmin çaydan yuxarı qalxırdın böyük qara daş idi. Daşı kəsmişdilər, onun içində qızıl gizdəmişdilər. Bu da daşın üsdündə oturuf ov gözdüyürmüş. Bekarçılıxdan daşın üstünü döyəcləyir, görür burda bir mamır var. Baxıf görür ki, qapaxdı, qırağıynan mamır gedif. Süngüynən qurdalıyıf baxıf ki, altı xəzinədi. Bu vəzyətdə ordan qızıl tapıf.

### XII mətn

Sultan bəyin çay evinin arxa tərəfinnən Şəlvəyə yol gedirdi. Payızda gəlif o evdə olurmuş. Dağlarda duzlaxlar olurdu. Payız olanda əlihlər dərədəki bulaxdan su içif yarğandakı duzlaxları yalıyırmış. Onda meşədə əlik çox imiş. Bəyə deyillər, biz çıxax yalda sürhay eliyək, sən otur dərənin ağzında əliklər gələndə atarsan. Sürhayçılar biri əlinə dəmir götürür, biri ağac götürür səs eliyir ki, ov getsin. Dərənin ağzında qəlbi qara daş vardı. Bəy də gedif həmin daşın üsdündə oturur ki, heyvannar gələndə onları vursun. Baxır ki, daşın üsdünü mamır örtüf. Belində xançalı varmış. Xançalı çəkir mamırı qaşıyır. Baxır ki, daşa qapax salıflar. Xançalın ujunnan təmizdiyir, qapağı qaldırır ki, içi bütöy qızıldı. Çuxasın soyunur, qızılı yığır içinə. Çağırır ki, ə, qayıdın, mən ovumu eləmişəm.

### XIII mətn

Baldırannıx kəndində Xannı addı əsl iyid oluf. Onun bir atı varmış, o atdan heş kimdə yoxmuş. Haçadil atmış, Şirvan zonasınanmış. Həmin atı suya aparanda iki adam aparırmış. Biri qabağa çəkirmiş, biri də başındakı noxtanı arxaya çəkirdi ki, at qabaxdakı adamı

ayaxlamasın. Sultan bəyin atı, ilxısı varmış. Atabaxanı deyir ki, sən də deyirsən mənim atım var. Baldırannıx kəndində Xannı var, onun bir atı var, sən bu ilxının hamısını versən o atı alammazsan. Sultan bəy bir dənə məktub yazdırıf göndərir Xannının üsdünə. Xannının da bir kələntər[21] anası varmış. Axşam üsdüymüş, düyü dəmliyirmiş arvad. Bir atdı gəlir. Salaməlöykü, əleyküm salam. Bir dənə məktub çıxardır verir Xannıya. Xannı oxuyur, götürür məktubun dalına nəsə yazır. Bunun anası da çox görüf-götürmüş qadınmış. Deyif ki, Xannı, o nə kağızdı? Oxudun dalına nə yazdın? Deyir ki, heç, elə-belə məktufdu. Arvad da bilən adammış. Əliynən döşün tutur, deyir, Xannı, bu döşümnən verdiyim süd sənə haram olar o məktubun məzmunun maa deməsən. Deyir ki, ana, Sultan bəy mənnən atı isdiyir. Deyir, bə sən nə yazdın? Deyir, mən də yazdım ki, sənin yanın mənim atımın üsdə durmaz. Yeddi nəfərnən sən gəl Tığı kəndinə, mən də tək gəlləm. Orda kim kimə qalib gələr atı aparar. Xannı belə iyid adamdı. Da o cavabın qabağında Sultan bəy hara gələr?

### XIV mətn

Bir günnəri Qarabağ bəylərini Şuşuya iclasa çağırıllar. Sultan bəy də orda olur. İclas qutarannan sora Sultan bəy onnara deyir ki, sizin hamızı sabaha, bürüyünə bizə çağırıram, hamınız gəlin bizə. Sora buların hamısı yığışıf gedillər Sultan bəygilə. Sultan bəy də götürüf çay dəmliyir. Çayı dəmliyəndə çayın içinə bir dənə arpa atır. Çayı tökür gətirir buların qabağına. Çayı içəndə bəyə deyir ki, bəy, o dağa görax hansımız tez çıxajeyıx. Qarabağ bəyi deyir ki, çıxaram, ancax qılçəmi arpa tutuf, yəni dizini da. Bilif ki, Sultan bəy çayın içinə arpa atıf.

### XV mətn

Bax, mana elənən söhbəti deyirəm. Mən kəntdə Miri kişini danışdırdım. Deyir ki, Hoçazın başı üsdündə top quruluf, Dığın düzünə top atılırdı. Soltan bəy də əlində durbin baxırdı. Birdən

[21] kələntər – azman, yekəpər

belinnən onatılanı çəkdi topçunu güləllədi. Biz qaşdıx. Qaçanda qışqırdı ki, ə biqeyrətdər, hara qaçırsız? Qayıdın bəri. Sikund qayıtdıx. Deyir, özü keşdi topun dalına, dedi maa güllə verin. Atdı, atdı, sora düzəldi. Keçdi daşın üsdə oturdu. Papağın götdü başınnan. Özü də deyir, başına həmişə canavar dərisinnən papax qoyurdu. Şalvarının cibinnən uzun əl yaylığı çıxartdı, tərin-zadın sildi. Dedi, soyundurun kopoğlun ermənisini. Durbinnən baxanda görüf ki, bu xaç atır. Türk ordusunun tərkində gəlmiş topçu idi. Burda qələbə çalannan sora deyir, bizi iki gün buraxdı evə. Dedi, gedin evdə paltarınızı dəyişin, aylənizə baş çəkin. Deyir, Abbas-darın ikisin də arvadı vardı, subay olan bircə mənəm. Kəndin altına gələndə bunnarın ağlına gəldi ki, adama bir nişan atsınnar, arvatdar eşitsin bunnar gəlir. Deyir, heş mən atmadım. Bunnarın hərəsi bir güllə atdı. Səhər tezdən bəyin adamları gəldi ki, sizi bəy çağırır. – Ə, biz neynədik, nə iş gördük, niyə bizi çağırır? Getdik ki, bəyin adamları qapıda cərgə duruf, özü gəzinir, üzünün tükü biz-biz duruf. Dedi ki, koppəyuşağı. Mən qızıl pulnan patron almışam ki, siz nişan atıf arvad-uşax qorxuzasız, yoxsa erməniləri vurasız? Alın ə tüfəyləri. Tüfəyimizi də aldıllar, patrondaşımızı da. Dedi, vurun, ə, koppəyuşağını. Sənin canın üçün, deyir, bizi nətər döydülərsə... Bu vaxdı İsgəndər bəyin arvadı Sənubər xanım içəridən çıxdı dedi:

– Ə, bu nə qızmışdıxdı?

Deyəndə Soltan bəy üzün ayna çevirdi, bizi buraxdırdı. Gəldi dedi, bunnarı tüfəysiz-zadsız göndərin Ala qayada qarol çəksinnər. Yatsalar Vəhdən erməni gələndə öldürsün, ayıx olsalar bizə xəbər versinnər. Deyir, getdik on beş gün orda qaldıx. Bəyin erkək sürüsü gəlir biz olan yerə. Deyir dedim, bu erkəyin birin tutajam. Deyir, maa yalvardılar ki, ə, bir güllə atmışıx bizi bu günə qoyuf, bir erkək yesək nolar. Deyir, bulara qulax asmadım. Getdim bir erkək tutdum gətdim. Kəsdim, soydum dərisin, qarnın yudum iy çıxmamağ üçün. Əti yığdım qarına, basdırdım ojağa. Belə yedik, bizi döydürəndə hara şallax dəymişdisə quyruğunnan da sıvadıx oranı ki, yumuşaltsın.

## XVI mətn

Şuşada Bilal kişi oluf, məşhur ağsakqal oluf. Sovetlər gələndə Sultan bəy başına dəsdə yığıf tabe olmurdu hökumətə, çəkilmişdi dağa. Sovetlərin əliynən Bilal kişini göndərillər ki, sən get təbliğat elə Sultan bəy silahı yerə qoysun, sovetləri qəbul eləsin. Laçında Molla İvrahım kişi var. O da Şəlvə dərəsini tanıyırdı. Ora alverə gəlirdi, o vaxdı hələ molla deyilmiş. Deyillər, İvrahım kişi, sən bələdçilik elə Bilal kişiyə, getsin Sultan bəynən görüşsün. Bilal kişi İvrahım kişi yanında gəlillər. Sultan bəy də gejələr gəlirdi evə, günüzlər Şamkənd tərəfdə dağda olurmuş. Orasın da deyim ki, Bilal kişiynən Sultan bəyin nəsə bir tanışlığı varmış. Sultan bəyə xəbər verillər ki, Bilal kişi gəlifdi sənnən görüşə. Gejə gəlir, söhbət eliyillər. Bilal kişi deyir ki, məsləhət belədi, bu təzə hökumətdi, güjlüdü, onnan mübarizə eləməyin nəticəsi yaxşı alınmaz. Sən gəl silahı qoy yerə, hökumətnən barış. Hökumət təminat verir ki, Sultan bəy silahı yerə qoysa bizim onnan ayrı söz-söhbətimiz olmuyjax. Axı sovetlər gələndə deyirdilər ki, fəhlə-kəntdi hökumətidi bu hökumət. Deyif ki, Bilal kişi, mən bəylərnən, kübar adamlarnan oturmuş, durmuş, dostdux eləmişəm, o dövlətin adamıydım. İndiki hökumət isə fəhlə-kəndli hökumətidi, mənnən onku tutmuyjax. Məni siz təkid eləmiyin. Ordan Bilal kişi kor-peşman qayıdır gedir. Orda Sultan bəyə hədiyyə də gətirmişdər. Şakalat, qənd, nə bilim o vaxd az tapılan şeylərdən. Amma Sultan bəy elə bir surfa açıf ki, onnar gətdiklərini üzə çıxarmağa xəjalət çəkiflər.

Belə bir rəvayəti Molla İvrahım kişi danışırdı.

## XVII mətn

Sultan bəyi Arazdan keçirən də mənim bu qardaşımnan yatırdı balinsiyada, adı Cənnət kişiydi. Deyirdi ki, qatırrarı yükləmişik, Sultan bəyi o taya keçirəsiyik. Onda gördük kü, üç atdı gəlir. Deyir, Sultan bəy ehtiyat eliyir ki, birdən bunun dalınca gəlmiş olarlar. Onatılanı siyirdi, yarğana qısıldı. Atdılar gəldi yolnan çıxdı getdi. Dedi ki, Cənnət kişi. Dedim, bəli, bəy. Dedi, gedəndə deyərsən ki, Sultan bəy deyir ki:

Mən aşığam, yar qana,
Yar sirrini yar qana.
Gör bəy nə günə qalıf
Sığınıfdı yarqana.

## 116. XOSROV BƏY

Xosrov bəyi tutuf Bayıl türməsinə salmışlar. Əmim uşalqları Almurad, Xanmurad bir xurcun qızıl götürüllər, atnan gedif çıxıllar Bakıya. Nərman Nərmanovnan da Xosrov bəy Odessada bir yerdə oxuyuflar (Atam Xosrov bəy haqqında çox söhbət eliyirdi. Kəndə gələndə uşaqları yığırdı aparırdı çəmənliklərə, göstəriş verirdi ki, bu otdan yığın, bu çiçəkdən yığın. Soruşurdux ki, bəy, bu nə üçündü? Dedi, filan şeyin dərmanıdı. Yığırdı onnarı, aparırdı). Nəysə, Almuradnan Xanmurad bir xurcun qızılnan gedif çıxıllar Bakıya. Çox çətinniknən Nəriman Nərimanovu tapıllar. Onunnan görüşüllər, deyillər gəlmişik Xosrov bəyi aparmağa. Deyir ki, mən kağız yazıf verəjəm, bircə saat ərzində Xosrov bəyi apardız, apardız, aparmadız onu edam eliyəjəhlər. Bular Nəriman Nərimanovdan alırlar kağızı, gətirillər türməyə. Türmənin qapısında rus babulyası oturufdu. Deyillər, Nəriman Nərimanov kağız verib Xosrov bəyi aparmaq üçün. Deyir, o, xalq düşmənidi, verməzəm. Onda bir xurcun qızılı qaldırıf qoyullar rusun qabağına. Qızılı görəndə gözləri dörd olur. Bir at da özdəriynən götürmüşdər. Çapıllar üzü bəri. İki gün, üş gün durmadan gəlillər. Mil-Muğan düzünə çatanda yolu azırlar. Rəhmətlik Xanmurad əmim söhbət eliyirdi ki, bəy oturdu. Heş nə yox idi, quru çörək vardı. Çörəyi kəsdi qoydu ağzına, nə qədər çeynədi uda bilmədi. Qayıtdı dedi ki, millət yolunda ağzım dəyirmana döndü, ay allah.

Heylə olur Türkiyəyə gedir, müharibə başdıyanda da gəlir Almaniyaya. Almaniyada əsirləri qırıllarmış. Ayırd eliyə bilmirlərmiş bunun hansı yəhudi, hansı azərbaycanlıdı. Onnar da əsasən yəhudiləri qırırmışdar. Orda köməyə Xosrov bəy çatır. Həkim kimi sübut edir ki, yəhudilərin sünnəti aşağıdan yuxarı kəsilir, amma

azərbaycanlıların sünnəti yuxarıdan aşağı. Heylə olur azərbaycanlıları azad edir.

Mənim atam müharibədə əsir düşür. Özü söhbət eliyir ki, əsirlikdə olanda aramıza adamlar gəldi, dedilər ki, Məmmədəminin adamlarıyıx. Hitler Rusiyanı məğlub edir, biz də yavaş-yavaş qoşun hazırrıyırıx. Qoşun burdan Azərbaycana gedəjəh, Azərbaycan azad olajaxdı. Kim tərəfdardı? Siyahı tutdular, kim tərəfdardırsa, onun adını siyahıya yazırdılar.

## 117. İSGƏNDƏR BƏY

İsgəndər bəy mala duzu səpirdi, əlinə bir ağac alıf bu səfər cumurdu malın içinə. Döyhadöy, vurhavur. Deyirdilər:

– Bəy, niyə belə eliyirsən?

Deyir:

– Ə, gədə-güdə gələr ona duz verər, ələ gələr. Vururam ki, çəkilsin, qorxsun.

## 118. İBRAHİM XANIN OĞLUNUN ÖLÜMÜ HAQQINDA

İbrahim xanın oğlu yenir gəlir Ağdama. Mehdiqulu xannan böyük oğlu, amma çox təəssüf onun adı dəqiq müəyyənnəşmiyif. Ağdamda dövlət məmurları onu qarşılıyıllar. Aparıf Ağdam bağlarının birində ona qonaxlıx veriflər. Tarixən Ağdamın gözəl bağları oluf: Şelli bağları, Ətyeməzdi bağları, Qiyaslı bağları. Bu bağda qonaxlıxda bir ilan oynadan gərdana vurulmuş bir qaraçı gəlir. Dartınır ki, bu xanın oğlunnan bir çörək pulu ala gedə da. Bunu da nökər-naib qoymur. Xanın oğlu birdən baxır ki, bir adamın əlində torba dartınır, qoymullar. Əmr eliyir ki, qoyun gəlsin. Deyir, kimsən, nə isdiyirsən? Deyir ki, mən ilan oynadan qaraçıyam, xan sağ olsun, sizdən çörək pulu isdiyirəm. Deyir ki, yox, ilanı aş baxım, çörək pulunu verəjəm. Deyir ki, xan sağ olsun, təzə gürzə tutmuşam. Onun dişin çəkməmişəm, ona görə ağzın aça bilmərəm. Əmr eliyir ki, aç. Naçar qalır torbanı açır. Torbanı açanda xanın oğlu

əyilir ki, ilana baxa, gürzə dodağınnan vurur. Elə orda da ölür. Çox peşmançılıx. Ağsakqallar yığılır, ə, bunu xana nətər deyək, neyniyək? Mollası, axundu, hajısı yığılır. Deyir ki, bir qara xəbər göndərin, Şuşaya xəbər verilsin. Cənazə kəcavəsi bəzənir, karvan düzəlir, qabaxda seyitdər, mollalar, axundlar. Bir qara atı da verillər qara xəbərin altına, get Şuşaya xəbər ver.

Gedif elçi daşına çatır. Cənazə hələ yoldadı. Xanın adamları gəlillər:

– Nə buyurursan?

Deyir:

– Xanın oğlu öldü.

– Niyə öldü?

– İlan vurdu.

– Ə, xanın oğlu suçudumu, əkinçidimi, çobandımı, niyə ilan vursun?

Deyir ki, hal-qəzyə belə-belə. Deyillər, yox, bunu biz deyə bilmiyəjeyih. Şərait yaradajağıx, gir xana denən. Qara xəbər girir xanın otağına. Xan kürsüdə qabağında Quran oxuyur. Başın qaldırır:

– Nə isdiyirsən?

Deyir:

– Qara xəbərəm.

Deyir:

– Nə xəbər gətirmisən?

Deyir:

– Xan sağ olsun, oğlun öldü.

– Oğlum niyə öldü?

Deyir:

– İlan vurdu öldü.

Deyir:

– Ə, mənim oğlum suçudu, əkinçidi, biçinçidi? Mənim oğlum nə ujbatınnan ölməlidi? De görüm kim öldürdü?

Deyir:

– Xan sağ olsun, vallah heş kim. Oranın sahibkarları yığıldı qonaxlıx verdilər. Tifağı dağılmış, evi yıxılmış bir qaraçı ilanoyna-

dan gəldi. Yalvardı ki, torbanı aşmıyın, burda təzə gürzə var, dişin çəkməmişəm. Dedi, olmaz, aş. Açanda əyildi ki, baxa, gürzə dodağınnan vurdu öldü.

Onda xan bir bayatı deyir. Deyir:

Əziziyəm kürsüdə,
Ayətə kürsüdə.
Bədəsil öyüt götürməz
Yamandı kürsüdə mən.

– Mən onun anasın gözəlliyinə görə almışam, o nəsil verə bilməz, – deyif tapşırır ki, meyidi gətirin, dəfn eliyin.

## 119. İBRAHİM XANIN OĞLU PAŞA BƏY

Cavad ağanın qardaşı Paşa bəy erməni-müsəlman davasında gedif Türkiyədən xeyli qoşun gətirmişdi. Sora baxıf ki, ermənilər bunu öldürəjəh qaçıf gedif Əfqanıstana. Orda da buna deyillər ki, burda mutasız adam ola bilməz. Yaşıyırsansa get, məscitdə bir qadınnan muta elə, qal burda. Deyillər, get otur üç yolayrıcında. Üç dəsdə zənən gələjəh: biri qız, biri gəlin, biri ahıl arvatdar. Dəsmalı kimə atsan, onunnan məscidə gedif muta elətdirərsən. Bu da gəlif oturur üç yolayrıcında. Birinci qız dəsdəsi keşdi, gəlin dəsdəsi gələndə dəsmalı atdı bir gəlinə. Deyir, gəlin cərgədən çıxdı gəldi girdi qoluma, məni götdü gətdi məscidə. Məscitdə kəbinimizi kəsdik, götdü gətdi məni evinə. Evinə gətirəndə bir qızı vardı, əri ölmüşdü. Altı il, deyir, bunnan yaşadım. Bir oğlumuz da oldu. Axırda, deyir, bir il quraxlıx oldu, heş bir bitki bitmədi, heyvannar ajınnan qırılırdı. Camahat dedi, gedək məscidə ziyarət eliyax, bəlkə yağış yağdı. Getdik heyvan-zad kəsdik, bir yağış tutdu, evimizə gəlmək mümkün olmadı. Dedim:

– Xudavəndi-aləm, sən bizə möhlət ver, gedək çıxax evimizə.

Heylə deyəndə arvad boynumun dalınnan yumrux vurdu, başım dəydi yerə, qalxdı. Dedi ki, sən müsəlman millətinnən deyilsən, kafır-kifir millətisən. Allah rəhm elədi yağış yağdırdı, sən niyə onun işinə qarışırsan? Ordan məni götürdü gəldi evə. Talağı oxutdu

geri. Deyir, bircə çuxamı saldım çiynimə, evdən çıxdım. Bir oğlum vardı, ağlıya-ağlıya qaldı. Gəlif çıxmışdı Şuşaya. Şuşada da ermənilər onu öldürmüşdü. Cavad ağa hələ sağ ikən iki dənə ağ daşdan qəbr kəsdirmişdi, Göhər ağanın məscidində saxladırdı. Onun içində dəfn etmişdilər.

## 120. CAVAD XAN

Atam deyirdi Cavad xan şəkər xəsdəliyinə tutulmuşdu. O vaxdı Ağdərədə olurdux. Dedilər ki, Cavad xan ölür. Məni çağırdı dedi ki, Alışan, səni bilirsən nəyə çağırmışam? Çağırmışam ki, gəl qızıl apar. Dedim ki, ağa, mən neynirəm qızılı, sənin zəhmətini niyə aparım?

Dedi:

– Yox, bu qızılı siz qazanmısız.

Deyir, dura bilmədi, özüm durdum getdim sandığın üzün qalxızdım, hamısı onnux qızıldı. Onnuğun on dənəsini götürdüm. Dedi:

– Əyə, ayıbdı ey, on dənəsini niyə götürürsən. Onu adam nəzir verir, yetimə-fağıra verir. Bu əmlak sənnən əmələ gəlmə şeydi, niyə götürmürsən?

Nəxarta elədi, on dənəsin götürdüm, artıq götürmədim.

## 121. NATƏVANIN SEYİD HÜSEYNƏ ƏRƏ GETMƏSİ

Mehdiqulu xan ölnənnən sora Natavanı anası götürür gedir varisəliyi Tiflisdə təsdiq elətdirə. O vaxdı rus knyazının biri Xasay olur, əslən də dağıstannı ləzgi olur. Gedəndə Natavana vurulur. Xasay Natavanın anasın təkcə qəbul eliyir ki, siz qızı mana verməsəniz, bu varisəlik əlinizdən çıxajax. Çox götür-qoy eliyillər, çox düşünüllər, məjburiyyət qarşısında razılaşıllar. Görünür Natavanın özünü də şöhrət məjbur eliyir, evlənillər. Bir müddət Tiflisdə qalannan sora Natavan gəlir Şuşaya, Xasay da onnan gəlir.

Bunnar Şuşada yaşıyan vaxdı Şuşada bir papaxçı olur Seyid Hüseyin. Bu özünə bir köməkçi götürür gəlir Ağdama. Sezondu da, tərəkəmənin gedif gələn vaxdı olur. Papax tikif satır, puldan-zad-

dan qazanıf qayıdıf piyada gedillər Şuşaya. Gedillər Şuşaynan Ağdamın arasında bir günəşli gündə ağacın kölgəsində yolun üsdündə çıxıf oturullar. Bu vaxdı Xasaynan Natavan faytonda Ağdama gəlillər. Xannığın hər bir üzvünün Ağdamda aran evi oluf. Burda Seyid Hüseyin qalxıf faytona belə boylanır, Natavanı burda görür. Bu da doğurdan da, xan qızıdı. Eləmir tənbəllik, deyir, ya Allah, ya rəbbi, keşgə Natavan mənim arvadım ola. Yanındakı yoldaşı deyir ki, Natavan sənin arvadın olsa, maa nə verərsən? O vaxdı görünür yüz maat çox güjdü pul oluf. Deyir, canım üçün, saa yüz maat pul verərəm. Deyif, yaxşı, sözümüz sözdü.

İş elə gətirir ki, bu Xasay namərtdik eliyir, Natavanı burda atır çıxır gedir. Natavan da ərsiz qadın qalır. Bir gün balqonda oturur, özü çəkdirdiyi suya baxır. Görür bulağın üsdə bir nəfər yuyunur. Çox səxsiyyətdi bir adamdı. Tez nökər-naibi göndərir ki, o kimdi gətirin bura. Gətirir, danışdırır kimsən? Deyir, vallah, papax tikirəm, Seyid Hüseyinəm. Bunu bir az süzür. Deyir, evlisən, subaysan? Deyir, subayam. Deyir, neçə yaşın var? Deyir, otuz beş yaşım var. Deyir, yaxşı, get, səni çağıtdırajam. Bu da düşür gedir. Deyir, ay Allah, Xan qızı məni neynir?

Bu yəqin ki, bu müddətdə bunun kim olduğunu öyrənənnən sora çağıtdırır. Deyir ki, məni başa sal görüm niyə evlənməmisən, dərdin nədi sənin? Deyir, xan, qismətdi, belə oldu. Bunu danışdırır ki, heş bir qüsuru yoxdu. Taleh belə gətirif ki, evlənmiyif. Birdən qayıdır sual eliyir ki, məni alarsan? Başın dikir aşağı. Deyir, dur get, səni çağıtdıranda gəl yanıma. Gəlir otağı hazırratdırır. Burdan iki isdol qoyur. Bir qapı burda aşdırır, bir qapı ordan. Axund ordan gəlir, Seyid Hüseyin burdan. Seyid Hüseyinə deyir, gəl otur yanımda. Axunda deyir, əyləş orda bizim kəbini kəs. Seyid Hüseyin Natavanın əri olur. Onnan üç uşağı olur.

Bir günnəri Seyid Hüseyinnən Ağdamdakı evinə gedir. Bunu maa söhbət eliyən maa demiyif, amma mən ehtimal edirəm ki, bu yəqin dosduna deyif ki, Ağdama gedəjəm, gəl ora, sənin yüz maatı verəjəm. Bunnar Ağdamda balqonda oturmuşlar. Xanım diqqət yetirir, görür aşağıdan bir adam keçir, çox bunnara baxır. Baxır, özü

də gülür. Qayıdır bu Hüseyinə baxır ki, bu da gülümsünür. Deyir ki, o kimdi? Deyir, heç, köhnə tanışdardandı. – Bəs niyə gülür? Deyir, xanım, vallah sənnən gizdəmiyəjəm, düzün danışajam. Xasaynan sən faytonda keçəndə biz o yolun üsdə ağacın kölgəsində oturmuşdux. Mən o adama dedim ki, kaş Natavan mənim arvadım ola. O da maa dedi ki, arvadın olsa, maa nə verəssən? Mən də dedim yüz maat. İndi ona gülür. Natavan dinməzcə durur keçir içəri. Mücrünün ağzın açır, bir kisə qızılı gətirir. Deyir ki, sənin ən böyük arzun oluf ki, mənim ərim olasan. Allah onu saa kam eliyif, arzuna yetişdirif. Onun da arzusu yüz maatın yiyəsi olmaxdı. Get onun arzusun yerinə yetir.

## 122. TEMİR YÜZBAŞI

### I mətn

Zabuğ döyüşünün əsas təşkilatçılarından biri Sultan bəyin sağ əli olan Temir yüzbaşı olufdu. İntası o çox əzazil adam olufdu. Hətta bir dəfə Paşa bəy ona bir şapalax vurufdu ki, sən camahatnan rəfdarı düzgün apar. Onu da nə üsdə vurufdu? Bir günnəri bu gedif bir kəndə. Burda buna gətirif qayğanax bişiriflər, qayğanağın üsdünə də bal töküflər. Yeyir, qarnı ağrıyır. Çağırır ev sahibini, fərraşa deyir:

– Vur kopoyoğlunu. Qayğanax bal üsdü kopoyoğlu, başı da necə Aynanın başına oxşuyur. Vur, vur kopoyoğlunu (Ayna da bunun arvadı olufdu, Aynadan da zəhləsi gedifdi. Elə düzgün də zəhləsi gedirmiş, gərək başın kəsəydi onun, onda sağ qalardı).

Paşa bəyə xəbər çatdırıllar ki, Temir yüzbaşı filan yerdə belə hak-hesab elədi. Çağırıf onun qulağının divinə bir şillə vurur. Deyir:

– Sən qudurmusan xalxın çörəyin yeyif həm də verirsən şallağın ağzına. Dədən Qulu sənə nə qoyuf gedifdi, ə, onu vurursan? Dədən Quluya da hörmət qoymadın.

Nəysə, bunu bərk vurufdu. Deyif ki, Temir, ağlında saxla ki, kasıba əl qaldırmağ olmaz.

**II mətn**

Sovet hökuməti gələndə Temir yüzbaşı görüf ki, bolşevik gəlir, əyri yolnan kommunist partiyasının biletini alır. Gətirir arvadı Aynaya verir, deyir:

– Bunu qoy bir yerə, lazım olar.

Rus gəlif qapıya dirənəndə deyir ki, o qırmızı bileti gətir bura. Deyir:

– A kişi, hansı qırmızı bileti?

Deyir:

– Saa qırmızı bilet verməmişdim, onu gətir.

Deyir:

– Rus qapıya dirənəndə hamısını yandırdım.

Nəysə, kişini tutullar, aparıf salıllar Şuşa türməsinə. O vaxdı atamı da tutullar. Nətər olufsa türmədə Temir yüzbaşıynan bir yerdə olullar. Atam deyir, baxdım gördüm ki, sakqal tökülüb bura, başının tükü də bax burdan (çiynini göstərir – top.), saş buraxıbdı. Dedim:

– Temir əmi, nolar adam ölümə gedəndə. Üzünün-başının günü nədi, gəti qırxım.

Dedi:

– Yox, yox, ay oğul. Bunu qırxmax lazım döyül. Bu baş axmax başdı. Bu baş ixtiyarı verdi Aynanın əlinə, Ayna da bu başı saldı bu günə. Bu başı bit-sirkəyə yedizdirəjəm.

Onnan sora yazığı güllələyif öldürmüşlər.

## 123. CAĞAZURLU AĞAMMƏD

Ağamməd nəhəng bir kişi imiş. Onun bir dənə boz atı oluf, onnan savayı heş nə onu gəzdirəmmiyif. Ağammədin üsdündə güllə keçməz dua oluf. Gedif erməniynən döyüşüf gəlirmiş, gəlif kürkün belə sirkəliyirmiş badron hamısı tökülürdü yerə. Onun qardaşın erməni öldürmüşmüş. Deyir, qardaşının qəbrinin üsdündə and içir ki, mən sənin başının tükü sayı gərək erməni öldürəm. Uşağ səs eliyəndə ermənilər onu qorxuzurdular ki, səsini çıxartma, Ağamməd eşitsə, gələjək.

1918-ci ildə erməni-müsurman davası olanda cağazurlulara deyif ki, siz evinizdən çıxmıyın. Elə ki, mənim gülləmin səsi kəsildi, onda öz başızın çarəsinə baxarsız.

## 124. HACI BƏDƏL

### I mətn

Bizim kəntdəki məscid bəlkə də respublikada yeganə məscitdi ki, sütunu, dayağı yoxdu. Əvvəl istiyiflər məscidi dövlət vəsayiti hesabına tiksinnər, alınmıyıf. Sora babam deyif könüllü surətdə kimin qolunnan nə çıxır versin, məscidi tikək. Deyiflər, a kişi, sən körpü tikdirirsən, sənin ora nə qədər vəsayitin gedir. Hacı Bədəl çıxardıb iki qızıl atıb ora, deyib bu mənim payım. Camahatın vəsayiti hesabına o məscid tikilib.

Hacı Bədəl körpüsünü[22] də mənim babam tikifdi. Onun tikilməsində yumurta sarısından və əhəngdən istifadə olunufdu. Nökərə pul verif deyir ki, yumurta alarsan. O vaxdı bizdə bir Xannıxda, bir də Xocaxanda bazar olub. Nökərə deyif, nə qədər yumurta var hamısın alırsan, amma seçif irisin alırsan. Məscidi, körpünü də tikən erməni usdaları olufdu. Ermənilər bir-birinin üzünə baxır ki, bu yumurtanın yekəsinə pul verirsə, yəqin bizə haqq vermiyəcəh. Bular öz aralarında belə fikirləşəndə babam deyir, gedək çayın üzərində göstərim körpünün gözdəri hardan olacax. Ermənilər deyib ki, ay hacı əmi, biz məscidi tikək qutaraq, körpüyə bəlkə başqa usda tapasan. Deyir, Meşoğ, gəl bəri. Usdanın birinin adı Meşoğ imiş. Gəlib çayın qırağına çatanda çıxardır cibinnən bir qızıl onnuğ atır. Deyir, körpünün bir gözü ordan olacax, bir qızıl onnuğ da atır, bir gözü də burdan olacax. Babam deyir, mən sizin fikrinizi oxudum, deyirsiniz ki, bu yumurtanın yekəsini alırsa, bizə haqq vermiyəcək. Yumurta sarısıynan bu divar qoyulur, mən buna pul verirəm, müftə almıram ki.

---

[22] Qubadlı rayonunda Ağa çayın üzərində yerləşir.

Babam Məkkəyə Həcc ziyarətinə gedir. Həccə gedib gələnnən sora nəsə bir iş görməlisən da. Hacı Bədəlin fikri varmış ki, yaxın dağ kəndlərinə körpü tiksin. O vaxdı əhəng quyusu yandırırmışlar. Əhəng quyusu yandırmaq üçün zakaz verib. Biz tərəfə güclü yağış yağırdı. Bir dəfə elə bir yağış yağır ki, sel-su dağın nəyi var – ağacı, daşı gətirif töküf bunun yerinə. Kişi gəlib səhər-səhər baxıf deyir, hə, Allah mənim allahımdı. Daşı da burda, odunu da burda. Elə orda çağırıb kankan vurannarı. Daşı orda yandırıb. Yeddi gün yandırıb, onnan sora o körpünü başdıyıb tikməyə. Həmən körpünün bünövrəsini heylə qoyuf.

Deyif ki, bir dənə də arzum var, Bərgüşad çayının üzərində bir körpü tikdirəm. Sora sovet hökuməti gəlir, bunun malın-mülkün əlinnən alırlar, kulak adı verillər. O arzusunu gerçəkləşdirə bilmiyif.

**II mətn**

Hacı Bədəl yeddi bacı bir qardaş olufdu. Öz zəhmətiynən varranıf. Darvazasının ağzına yazıf vuruf ki, mənim qapım bəylərin üzünə bağlı, kasıbların üzünə açıxdı. Sovet hökuməti gələnnən sora bunun mülklərini alıflar, özünə də kulak adı verıflər.

Sovet hökuməti qurulanda yerlərə adam göndərillər ki, gedin camahatdan örgənin görün vəzyət nətərdi, hökumətin nəyinnən razıdılar, nədən narazıdırlar. Bir nəfər də bizim kəndə gəlir. Məscidin yanında təsadüfən babamnan rastlaşır. Salam-kalamdan sora deyir ki, ay əmi, qabaxkı hökumət nətərdi? Deyir, ədə, çar hökumətini yıxdınız getdi da. Deyir, bəs bu hökumət nətərdi? Deyir, bu hökumətə nə deyim? İsdəkanı yekə, qəndi yox hökumətdi də. Bular qayıdıb gedir. Yığışıllar rayona, birinci katib müzakirə eliyir ki, kim nə xəbərnən gəlib. Bizim kəndə gələn də deyir ki, getdim ora, bir kişi maa dedi ki, isdəkanı yekə, qəndi yox hökumətdi də. Dedi, o Hacı Bədəl kişi olacax.

O vaxdı ona deyiflər, sovet hökumətinə bir şeir yaz. Deyif, dilim quruyar mən bu hökumətə şeir yazmaram.

**III mətn**

Babam ölən vaxdı bir dənə şeir yazıb, deyib bunu qoyarsız mənim qəbrimə. Axı o vaxdı deyillər insan öləndə Əzrayıl gəlir haynan-küynən, bir əlində məşəli, bir əlində çəngəli, meyidi qaldırıb onnan sorğu-sual eliyir. Bununla əlaqədar babam belə bir şeir yazır:

Xişmin geri al, əl saxla
Rəbbimdi o bir Allah.
Gəlib halımı sorub getsən,
Mətləbi murada yetsən,
Mənnən sual etsən
Kitabımdı Kəlamüllah.

Gəl yanıma gülə-gülə,
Rəhnə vurma sən bu dilə,
Yazıxdır, dəymə Bedilə
İslamıdı, vallahi, billah!
İndi bildim ki ölmüşəm
Haqqı Vətənim, gəlmişəm
Kömək ol, ya rəsul-allah.

Mirsədi babam da şeiri oxuyub deyib buna yasin-zad oxumaq lazım deyil. Bu kişi behiştdikdi.

**IV mətn**

Bir dəfə yaz nətəri gəlifsə qoyun-quzu hamısı qırılıf. Bizim evin üst tərəfi yamac idi. Babam çıxıf həyətə, baxıb görür ki, qoyun-quzu hamısı qırılıf. Bir dənə qızdı, bir dənə buzovdu, beş-altı da quzudu. Belə baxıb deyir:

Erkəci danadan, çobanı qızdan
Xudam razı olmasın heç belə yazdan.

**V mətn**

Bir dəfə cöngəsi xəsdələnmişdi, qojam baxırmış ona. Qojam cöngənin ölməyini isdəmirmiş. Şorba bişirif cöngənin ağzına tökür. Babam baxıf gülməyi tutuf. Arvadına deyir:

Vurulmuşam sənin kimi zayıla,
Xəsdə deyil, şorba içə, ayıla.
Lazım budu cinazəyə qoyula,
Cinazəsində yeriyə cöngə.

## 125. QAÇAQ NƏBİ

### I mətn

Qaçax Nəbi qanan uşağmış, quzuların otarırmış. Görür ki, bir dəsdə atdı gəlir. Saray kəndində bir bəy vardı, onun dəsdəsi olur. Deyir, ə, balaca çoban, quzu kimindi? Deyir ki, mənim dədəmindi. Ə, kimin oğlusan? Filankəsin. Toğluluq quzu varmış, deyir, onu tut ver atın qujağına. Deyir ki, sən kimsən ki mənə əmr eliyəsən? Onu toxumlux saxlıyır mənim atam. Bunun üsdündə Nəbini döyür. Nəbi də yadında saxlıyır, gəlib evdə deyir. Mollu da üş-dörd tirə olubdu. Qaçax Nəbinin tayfası Köçərili olub. Gəlib evdə deyir. Atası deyir, dinmə, sora hesabın çəkərəm. Yatdığı yerdə bir gün gedib evin də odduyajam, özün də öldürəjəm. Qaçax Nəbi də özünə dəsdə topluyur qaçaxlığ eliyir.

Onun dəsdəsində Şah Hüsöyün addı bir nəfər olur. Bir gün bular Akara stansiyasından çıxıf Zəngilana gedən yolda Ağoyuğun düzünnən keçəndə hökumət adamları Qaçax Nəbinin qardaşı Mehdini vurur. Olar üç qardaş olublar. Nəbi, Mehdi (üçüncünü yadına sala bilmədi – top.). Qaçax Nəbi görür qardaşı öldü, bunun dəsdəsi bir az seyrəldi. Çıxır gedir İrana. Nəbinin öz atı altında, qardaşının atı da dalınca kişniyə-kişniyə gəlirmiş. Həcərə də deyir ki, mən gəlməsəm narahat olma. İranda bir müddət yaşıyır. Arada gəlib burda qırdığını qırırmış, öldürdüyünü öldürürmüş, çıxıf gedirmiş.

Molluda Əziz varıdı. Bir günnəri Həcər Əzizi çağırır, deyir ki, əmi, getginən İrana, Nəbini tap, deynən Həcər yolunu gözdüyür. Məni əvvəl-axır kimsə aparajax. Gəl məni apar. Əziz dəvriş libasında düşür yola, gedib çıxır İrana. Dəvriş libasında qəsidə deyirmiş. Nəbi də öz atın satıb ayrı at almışdı ki, onu tanıyan olmasın. Bircə bu sirri Şah Hüsöyünə verirmiş. Şah Hüsöyün də Dəstəkli kəndin-

nən imiş. Arvadının adı Növrəsdə olub, iyid arvad olub. Nəbi atdı dəsdəsiynən gəlib böyrünnən keçəndə Əziz durur atın ayaxların qujaxlıyır: "Əmoğlu, saa qurban olum, başına dönüm, səni gördüm salamatsan". Bu özün bilməməzdiyə vurur. Deyir, ə, vurun bu qoca köpəyi. Əzizi o ki var Nəbinin adamları döyür. Əziz deyir, ə, bu niyə belə elədi? Axı sirri bilmir.

Nəbi gedir öz yaşadığı yerdə oturur ağlıyır. Deyir, ə, mən öz canımın qorxusunnan öz ağsakqalımı döydürdüm. Mən nətər eliyim onu tapım, üzr isdiyim. Adamlarının birini göndərir ki, gedin filan yerdə dəvriş var, onu tutun gətirin mənim yanıma. Gedif gətirillər dəvrişi bunun yanına. Durur əlin-ayağın qujaxlıyır. Deyir, əmoğlu, elədiyim hərəkətə görə məni bağışda. Mənim Nəbi olduğumu burda heş kim bilmir. Paşa bəy məni həmişə izdiyir. De görüm niyə gəlmisən? Deyir, məni Həcər göndərif. Deyif ki, get Nəbini tap, denən ki məni incidirlər. Gəl məni apar ayrı yerdə saxla, mənim Həcər olduğumu orda kim biləjəh. Nəbi buna qəşəhcə pul verir, paltar alır, bir at da verir altına. Adamlarının birinə deyir ki, apar bunu Arazdan keçirt gəl. Götürür gəlir, keçirdir. Gəlib Həcərə deyir. Həcər deyir, yox, Nəbi mənnən əl çəkən deyil. Piyada da olsa gedif onu tapbalıyam. Əziz bir də gəlir. Gələndə deyir ki, əmi, sən məni tanıdın, bildin. Məni burda Nəbi kimi tanıyan yoxdu. Buranın bəyi Paşa bəydi. Bilsə ki, mən Nəbiyəm, məni ələ verər. Get Həcərə denən ki, mən daha ora gəlmiyəjəm. Qardaşım Mehdidən sora mən and içmişəm ki, arvadnan yaşamıyajam.

### II mətn

Şah Hüsöyün bunu satır. Deyir, Paşa bəy, Nəbi qoltuğumuzun divində hərrənir, mən Nəbinin qorxusunnan dinmirəm. Nəbi də əvvəl-axır səni öldürəjeh. – "Ə hardadı?" Deyir, filan yerdə. Deyir, məni onu öldürərəm. Deyir, yox, öldürəmmiyəssən, o çox sayıxdı. Gəl belə bir iş elə. O vaxdı qara damlar olub. Deyir, qapının girəcəyində quyu qaz, quyunu bir az gen götür, üsdünə gəvə atginən. Nəbi gəlif ayağını atanda düşəjək quyuya, o quyuda öldürərsən. Belə də eliyillər, Nəbi düşür quyuya. Axı bu əhvalatı Şah Hüsöyün qurur.

Paşa bəy buna çoxlu qızıl verir, nə qədər mal-mülk verir. Bir ərazini də deyir ki, sənin oldu, get orda yüzbaşı olginən, arxayın yaşa. Mənim yeganə düşmanım Nəbi idi, bu sirri ki mənə verdin, məni Nəbidən qutardın, sağ ol. Gətirif qızılı evə verəndə arvadı Növrəsdə deyir ki, bu nədi? Deyir, Nəbini satdım Paşa bəyə, o verif buları. Deyir, niyə satdın? Deyir, kasıb idik da, o qızıla görə satdım. Deyir, yaxşı elədin, otur. Oturur çörək-zad yeyir. Arvad durur yemək hazırrıyır. Deyir, tüfəngi as ordan, gəl ot. Qəfil durur bu arvad tüfəngi götürür, deyir, ə beqeyrət, neçə il Nəbinin dəsdəsində qaçaxçılığ elədin, orda iki arvad idik, biri Həcər idi, biri mən. Nəbi məni öz bacısınnan çox isdiyirdi, namusumu, qeyrətimi çəkirdi. Saa neynəmişdi, onu satdın? Səni müdafiyə elədi, düşmanlarınnan canı qutardı. Üzuu çevir ayna, can verəndə üzu görmüyüm. Şah Hüsöynü vurur. Aşıxlar ona bir qoşma qoşmuşdular. Deyir ki,

Paşa bəy İranda bir hiylə qurdu
Nəbinin dəsdəsi üzünə durdu.
Gəlif gedənnərdən yolunu sordu
Qoy sana desinnər, ay qaçax Nəbi
Həcəri özünnən ay qoçax Nəbi.

**III mətn**

Bir günnəri Həcər kəntdə imiş – Molluda. Nəbi də Geponun rəisinin evində qalırmış. Geponun rəisi Çopurrudan imiş. Nəbinin dədəsi dağ vaxdı Salbartıya gedirmiş, nəçənnik milisyanın dədəsini də ordan tanıyırdı, onnan sıx dosduymuş.

Həcər xəbər tutur ki, Nəbi Gepo rəisinin evindədi. Durur sadə paltar geyinir, gedir ora. İndi milis rəisi Sisyannan gəlirmiş Gorusa iş başına, Həcər də gedirmiş bulara. Həcər bilir ki, Nəbi bularda olur, amma özünü tanımamazdığa vurur. Üzün-gözün örtür. Həkəri çayının üsdünnən keçəndə rəis gəlir bunun qabağına. Saləməlöykü, əleykimət salam. Kimsən, nəçisən? Görür kadındı da. Həcər deyir, sənnik deyil. Həcərin də tüfəngi yoxumuş, amma onatılan tapançası varmış. Deyir, niyə heylə cavab verirsən? Deyir, nətər cavab verirəm? Gedirəm da, yol yolçusuyam. İndi bu rəis fikrini dəyişir, kadındı da,

yolu tək gedir. Həcər görür kü, yox, bu fikrini dəyişdi. Deyir, mən məsləhət görürəm çıx get. Deyir, sən mənim əlimdəsən səni aparajam türməyə. Deyir, sənin kimilərin yüzü gələr məni apara bilməz. Aparsan da mən türməni deşif çıxajam, amma mən məsləhət görürəm çıx get. Qəfil tapancanı çıxardır başının üsdünnən birin atır, deyir, əl atsan silaha səni öldürəjəm. Soyun. Bütün paltarın soyundurur alt tuman-köynəkdə saxlıyır. Silahın alır, deyir yer get. Deyir, atına dəymirəm, kişi kişinin atını almaz. Nətər getsin şəhərin içinə? Gəlir bir tanışın evinə. Deyir, məni qaçaxlar soydular, get mənə bir paltar gətir. Da demir ey bir arvad soydu. Həcər çox peşman gəlir. Bilir ki, Nəbi buların evindədi. Sora peşman olur. Deyir ki, gərək deyərdim mən filankəsəm. Nəysə, atdan düşür, girir içəri. Nəbi deyir, niyə bekafsan? Deyir, hal-qəzyə belə-belə. Ev yiyəsini soymuşam, tuman-köynəkdə qoymuşam Həkəri çayının üsdündə. – “Ə niyə?” Deyir, hal-qəzyə belə. Gördüm fikrini dəyişib, mən də belə elədim. Nəbi bərk gülür. Bir azdan sora rəis gəlir, girir evə. Görür ki, bay, Nəbiynən Həcər qujaxlaşıb yatıb. Deyir, hə, Həcər deyirdilər inanmırdım. Elə mənim işdədiyim türməni dağıdan bu kadınmış. Amma iyitdik elədi nə atımı əlimdən aldı, nə alt tuman-köynəyimə dəydi. Onnan sora Həcər bərk gülür. Boynun qujaxlıyır deyir ki, məni bağışda. Nəbi gülür, deyir, arvada sataşmaq isdiyirdin? Deyir, cod cavab verdim, o cavaba görə məni heylə elədi.

**IV mətn**

Hətəm babam varrı oluf. Bir gün bunun camışını kəsif dərisini soyuf aparıllar. Hətəm babam da camahatı yığıf ki, görə bunu kim eliyif. Eliyəni tapmıyıf. O vaxdı camışın dərisi ətinnən qiymətli idi. Camahatı yığır, elə bu cəhli getdiyi yerdə Qaçax Nəbi gəlir. Deyir ki, bu nə məsələdi? Deyillər, Hətəm kişinin camışını öldürüflər, o da camahatı yığıf bura. Qaçax Nəbi atamı çağırır, deyir, olar ikimiz bir yerdə məsləhətdəşək bu işi yoluna qoyax? Ağsakqalar da çalışırdılar ki, Quran gəlməsin ortalığa. Camahatı yığıllar sıraya. Qaçax Nəbi Hətəm babamnan camahatın sifətinə baxa-baxa başa qədər gedir. Deyir ki, Hətəm kişi, burda camışı oğurruyan yoxdu. Fikirrəş

gör bu kəndin adamınnan kim yoxdu burda? Deyillər ki, filankəs yoxdu burda. Bu da o qədər sakit adam olur ki, heş kim bunnan şübhələnmir. Deyir, onu da çağırın gəlsin. Gələndə Qaçax Nəbi üzünə baxan kimi əlin salır civinnən bıçağı çıxardır qoyur ortaya. Camışın tükü-zadı da bıçağın üsdündə olur. O yerin də adı qalır Hətəmin camışı gönlənən yer.

### V mətn

Qaçax Nəbi gəlir mənim nənəm Məşədi Zeynafgilə. Bunun qoşa alaçığı varmış. Çölçü adamlar da aralıdan baxanda bilirdi da hansı çadır babatdırsa ora düşürmüşdər. Gəlif belə keçəndə görüllər burda bir alaçıx var, qapısında çəpəri, qoyunu, dööləti. Salam-əlöykü, əleykimət salam. Bu məqamda qapıdan bir it keçif. İt o qədər zəif imiş ki. Bular fikirrəşif ki, qapısında bu cür iti olanın evində nə olar. İt keçəndə Nəbinin yanındakı yoldaşı deyif ki, gəl gedəh, bura düşmüyəh. Arvad da dünyagörmüş bir insandı. Sözü alıf deyif ki, o qonşunun itidi, düşün. Əri Məşədi Əsəd özü evdə olmuyuf, amma qadın uşaxları göndərif heyvan kəsdirif. Bular çay içif, çörək yeyiflər. Nəbi deyif, biz bu günnən oldux qardaş-bajı. Mənə Mollulu Qaçax Nəbi deyəllər. Duruf ordan atı miniflər, gəlif Famil dediyi yerə çatanda[23] həmin adama deyif, səni güllələyərdim, amma orda çörək kəsmişəm, bir qadına bajı demişəm. Səni ona bağışdıyıram. Mən Qaçax Nəbiyəm.

### VI mətn

Məşədi İsmayılın Boz ürgəsi oluf, naxırçı aparıf otarırmış örüşdə. Atı hörüklüyüb uzanmışmış. Görür meşədən bir atdı çıxdı, ürgəni aşdı mindi. Bir tab sürdü getdi, qayıtdı gəldi. Atı bağladı öz yerinə. Dedi, gedəndə Məşədi İsmayıla deyərsən ki, Nəbi gəldi atı mindi getdi, amma aparmadı. Sora bir öküz, bir inək, bir maydan at

---

[23] IV mətndə bəhs olunan hadisəni nəzərdə tutur.

yolluyuf ki, atı versin maa. Məşədi İsmayıl bircə maydan atı götürüf qalanın qaytarıf, boz atı da vermişdi Nəbiyə.

### VII mətn

Qaralar kəndində Qəmbər oluf, hamı ona əmi deyirmiş, Nəbi də əmi deyirmiş. Yük daşımağa qatır davamlı olur da. Qəmbər Mazandaran ulağı alıf atla cütləşdirif qatır cinsi törədib. Yaz vaxdı dağların qarı əriyəndə çaylar daşır. Onda Qəmbər əmi gedərmiş daşdıx yerlərə əlavə daş düzərmiş, çay daşdıxcan ora torpax olurmuş. Oranı əkin yeri salırmış. Belə-belə mülk sahibi oluf. Kəndin ən addı-sannı adamı oluf, Nəbinin də qonaxçısı oluf.

Qəmbər əminin Qapışıtdıdan Allahverdi, İrannan Niftılla addı nökərləri oluf. Olar sora 41-45-in müharibəsinə getdilər. Müharibədə Niftılla Allahverdiyə deyir ki, Nəbinin qızılın əlimnən basdırmışam. Bırdan salamat qayıtsax, çıxardax verək Qəmbərin nəvəsinə, bizə də bir şey versin. Allahverdi kişi salamat qayıdıb gəlmişdi, bu söhbəti o eliyirdi, amma Niftılla orda ölmüşdü. Nə qədər deyir, yalvardım ki, de da harda basdırmısan? Dedi, dədəm qurban, yeddi arxa dönənin boynuna babalım bı sirr ağzınnan çıxsa. Qızılın yerin demiyif. Müharibədən qayıdıf gələnnən sora Qəmbərin evinin arxasında dərədən, maşın getmiyən yerdən o (Allahverdi – top.) daş topladı. Heş daşımadı da. Heş demə, onu axtarırmış.

### VIII mətn

Nənəm deyirdi ki, təzə gəlin idim, qapını süpürürdüm. Onda gördüm ki, beş atdı gəldi. Biri dedi ki, bajı, ardımızca atdılar gələjək, soruşsa deyin aşdı o üzə. O üz də Bərşat tərəf deməkdi. Bu atdılar gedənnən bir az sora iyirmiyəcən atdı gəldi. Biri dedi bala, bala, burdan beş atdı keşdi, hara getdi? Əlimnən belə elədim ki, o üzə aşdı. Həmən atdılar o üzə gedənnən sora həmən beş atdı gəldi çay aşağı getdi. Demə, o beşı atdı gedif Qəmbərgilə. Qəmbərin Bədəl addı nökəri vardı. O deyirdi ki, Nəbi beş atdıynan gəldi. Düşən kimi dedi ki, Qəmbər əmi, biz bir çay içif addıyajıyıx o taya, vacib işimiz var. Deyəndə Qəmbər əmi gəlinnərə dedi ki, əlüsdü bir qay-

ğanax eliyin. Bədəl kişi deyir, mən də atdarı bağladım, çay gətirif qoydum qabaxlarına. Dördü işmişdi, isdiyirdim istəkanları götürəm. Qəmbər əmi də qaçır o kəllə evə, qaçır bura. Nəbi çayı işməmişdi, qabağında idi. İstəkannarı götürmüşdüm ki, Qəmbər əmi girdi içəri. Nəbi dedi ki, Qəmbər əmi, nədi, heç oturmursan? Qaçırsan o evə, gəlirsən bura. Bir otur görək nə var, nə yox. Dedi, əmi qurban, böyük gəlin ağırayaxlıdı, siz qaçarax gəldiyinizə elə bilif ki, bura dava düşəjəh, qorxuram ona ziyan verə. Ona toxtaxlıx verirəm. Dedi ki, onda bizə bir əlxəşdiyi lazımdı. Qəmbər əminin çuxası vardı. Qoltux civinnən bir kisə çıxartdı. Nəbi aldı, dedi polnu bəs eliyər. Gedək gələk, Allah qoysa, amanatı aparajam, səni də razı salajam. Niftılla dediyi düz çıxırmı?[24]

Üş günnən sora kəndə hay düşdü ki, o gün gedən beş atdı Nəbinin dəsdəsi imiş. Gedif İrana. Nəbinin dəsdəsində Şah Hüsöyn adında birin xan örgədif ki, Nəbi sənin arvada sataşır sənin xəbərin yoxdu. Heylə oluf qonaxlıxda Nəbini arxadan vuruf.

### IX mətn

Babam deyir ki, biz uşağıx. Gördük ki, bir nəfər adam gəldi ağsakqallarnan görüşdü. Otdular, yedilər, işdilər. Bizim evdən yüz əlli metr aralıda armud ağacı var. Qaçax Nəbi də gələndə atın ora bağlıyıfdı. At da tərli idi. Yəhərin alıf qoyufdu armudun haçasına, gəlifdi kəndə. Gedəndə görüflər atın yəhəri yoxdu. Kəndin ağsakqallarına deyif ki, mən gözdəməzdim mənim sevdiyin bir kəntdə atımın yəhəri oğurransın. Ağsakqallardan biri dedi ki, heç ağlına heylə şey gəlməsin. Bu uşax işidi, gəlif ordan keçəndə yəhər xoşuna gəlif götürüf. Narahat olma, tapılar. Yəhəri tapıf gətirdilər. Nəbinin də iki atı vardı. Birin minif, birin də alıf yedəyinə. Dedilər ki, Nəbi, bu dayça nədi, bunu hardan almısan? Dedi ki, Abbasdar kəndində İbrahim bəy var, onnan almışam. Boz at həmən atdı.

---

[24] VII mətndəki əhvalatı nəzərdə tutur.

## X mətn

Bu saat bizdə Qaçax Nəbinin nişanəsi var. O vaxdı Məmmədrəhim babam bir az silah-sursat tapıb hardansa. Bunu dədəmnən Nəbiyə göndərib. Dədəmə deyib ki, min atın üsdünə, ata heş nə eləmə, at özü gedəjəh. Qaçax Nəbinin yeri haradı at gedib çıxajax ora. Orda silah-sursatı verərsən Qaçax Nəbiyə, sən qayıdarsan. Dədəm deyir, atın üsdündə oturdum, at getdi kümbəz deyilən yerdi, orda dayananda Nəbi çıxdı. Dedi, boy Həbib, sən gəlmisən? Dedim, hə. Dedi, əhsən, Məmmədrəhimin əsil oğlusan. Səni ki uşaqlığınnan gejənin bu vaxdı gəlmisən, ala bunu saa nişanə verirəm. Onun da şallağının altına Nəbi sözü yazılmışdı, peçat kimi işdədirmiş. Gətirib həmin şallağı verib atama ki, mənnən saa yadigar qalsın. Qaçqın düşəndə qardaşım rəhmətdik dedi ki, keşmişdən nə nişanamız var birinci onu götürün. O şallağı götürmüşdü qardaşım. Qardaşım rəhmətə gedənnən sora nəvəsinə qaldı.

## XI mətn

Bir dəfə keçmiş kişilərdən, igidlərdən söhbət düşdü. Bir qoca dedi, bala, Qaçax Nəbinin boz atı deyillər, o at bizim kəntdə oluf. Belə nağıl elədi ki, orda Nəbiyə deyillər ki, sənə yaraşan yaxşı bir at var. Bartazda kasıb bir cavan oğlandı, aylə qurub. O atı sən onnan götürüp ala bilsən əsil Qaçax Nəbi olarsan. Qaçax Nəbi də çarığın geyinif gedif Bartazın güneyində oturur. Görür axşam düşdü. O vaxtı həyət-bacanın ətrafı çal-çəpər idi. Bir də görür ki, həmin adam tövlədən atı çıxartdı. Küçəyə çıxardannan sora atın cilovun atdı çiyninə, əlin qoydu belinə, yendi kəhrizdən su işməyə. Bunu müşayət eliyif. Qarannıx düşəndə gəlir qapısına. Deyir ki, yol adamıyam, bir gecəliyə məni qonağ eliyə bilərsiniz? Deyir, Allaha da qurban olum, qonağına da. Kasıfçılığıymış. Ev yiyəsi bir beş-altı yumurta soyutması hazır eliyir, şor, çörəh. Aftafanı basır buxarıya, kəkotunnan qatır içinə, qaynadır. Nə qədər eliyillər Nəbi çörəh yemir. Çox məcbur eliyəndə gətirir yumurtadan soyur, nə duza batırmır, nə çörəyin arasına qoymur. O yumurtanı yeyir. Gecənin bir vaxtı durur, görür yatışıflar mınnar. Çarıxların geyinir. Durur atı

çəkir, yəhəri qoyur belinə, tərpənir. Səhər tezdən kişi durur görür ki, nə yəhər var, nə at var. Aya hay. Arvat deyir, sən hər yetəni qonağ elədin. Deyir, ay arvad, dinmə. O, kişi adamdı. Deyir, nətəri kişidi? Deyir, ona görə mən deyirəm kişi adamdı ki, o axşam nə bizim çörəyimizi kəsmədi, nə duzumuzu dadmadı. Ona görə kişi adamdı. Belə bir rəvayətnən Nəbi gedir. Sonra xocaların İrannan gətirdiyi atdardan bir beşinin yükünü saxladır. Öz atın da minir, qoşunuynan düz gedir Bartaza – həmən kişinin qapısına. Deyir, buyur. Bax, bu mən, bu da sənin atın, bu da bu. Atdardan hansını bəyənirsən götü. Bu da sənin beş atın, yükü də İrannan gələn mal.

## 126. ƏLYANLI QAÇAQLARI

### I mətn

Qaçax Qəbil, Hat kəndinnən Qaçax Əziz başına böyük dəsdə topluyuf ermənilərə qarşı mübarizə aparıf. O vaxdı ermənilər arabir kəntdərə hücum eliyirmişdər, kəntdəri yandırırmışdar. Onnar pul, qızıl, xalça aparıf Şuşada silahnan dəyişif əli silah tutan adamlara paylıyırmışdar ki, ermənilər hücum eliyəndə müqavimət göstərsinnər.

Babam deyirdi ki, bizim kəndə Qəbilin yurdu deyillər. Qəbil həmişə payızda gəlif ora düşürmüş, soyuxlar düşəndə özünün damdaşına gedirmiş. Qəşəh hündür bir yer idi, orda alaçıx qurmuşmuş. Biz tərəfdə qoyun-keçini otarardıx ki, qurd toxunmasın. Amma gamış, mal örüştə özü otduyuf gələrmiş. Babam deyir ki, danaları ötürdüm qayıtdım. Alaçığın böyrünnən keçirdim. Qəbilin də arvadının adı Asya xanımdı. Asya xanım dedi ki, əmoğlu, burdan gəl. Dedim, Qəbil evdə? Dedi, evdə deyil, amma bir azdan gələjəh. Gəldim, qapıda oturmuşdum. Bir azdan sora Qəbil gəldi. Dedim, Qəbil, harda idin? Kəndin başının üsdünnən yol gəlir, enir kəndə. Dedi ki, gördüm ordan polislər gəlir. Evdən kənara çıxdım ki, qəfildən hücum eliyəllər. Dedim ki, əmoğlu, bu yoldan çəkil. Dedi ki, çəkilmək mümkün deyil. Hökumətnən mübarizə olsa, bəlkə də çəkilərəm, amma bu hökumət bizə dolanmağa imkan vermir, ermənilərə təkan verir.

Sovet hökuməti gələnnən sora tab gətirə bilmiyif İrana addıyıf.

## II mətn

Babam deyir, evdə oturmuşux. Mənim də Fərman addı əmim vardı. O da deyir, cavan bir oğlandı. Qəbilin yurduynan bizim aramızda da zəmimiz vardı. Nikalay vaxdıdı, xüsusiyyətçilik idi, şəxsi zəmimiz vardı. Bir də gördük ki, beş-altı dənə dana zəmini əzə-əzə gəldi çıxdı tavlanın üsdünə. Fərman tüfəngi götürdü dananın birinə bir güllə atdı, dana yıxıldı yerə. Deyir, çox adam fikirrəşdi ki, Qəbilin danasın atmışıx, Qəbil də elə-belə adam deyil, addı-sannı adamdı, ola bilər güllə atar. Fərman tüfəngi götürdü girdi divarın dalına ki, onnar silaha əl atsa, özünü müdafiyə etsin. Dedim, tüfəngi qoy yerə. Tüfəngi aldım, dedim, ona mən cavabdehəm. Xeylax aradan keçənnən sora gördüh Qəbil gəlir. Gülə-gülə gəldi. Dedi ki, Həmid, sən mənim canım, de görüm dananı kim vurufdu? Dedim ki, Fərman. Çəkdi alnın arasınnan üş dəfə öpdü. Dedi ki, oğul, məni çox adam tanıyır, sən də məni yaxşı tanıyırsan. Sən ki ürək eliyif mənim danama güllə atmısan, sən mənim sağ qolumsan. Bax, Qəbil heylə ağıllı, tədbirli adam idi.

## III mətn

Dəvədərədə Qaçax Adil vardı, qoçax adammış. Qaçax Qəbilin sağ əli imiş. Qaçax Qəbil deyirmiş ki, Adil, kaş sənin qoçaxlığın məndə oleydi, ya mənim tədbirim səndə oleydi. Qəbil çox tədbirri adammış.

Laçının Cəfərabad kəndi var. Qaçax Adil o tərəfdən hardansa gəlirmiş öz kəntdərinə gedirmiş. Orda Düldül hopbulan yer var. Hər iki tərəfi sıldırım qayadı, ortadan su gedir. Guya düşmənlərnən müharibə vaxdı Düldül o qayadan bu qayaya hopbuluf. Düldülün nalının izi də daşın üsdündə qalmışdı. Qasid xəbər vermişdi ki, gejə Adil gəlif burdan keçəjəhdi. Milis göndərmişdər ki, yolu kəsin, gəlif ordan keçəndə atarsız. Milis də bizim yerli adamlarmış da. Tüfənklərin lüləsi çıxıfdı yola, parıldıyır. Qaçax Adil gəlif ordan keçəndə at adamları hiss eliyifdi, tüfəyin parıltısın görəndə isdiyif dayana. Ata bir şallax çəkif ki, kopoğlun atı, adamyeyən var burda? At sıçrıyıf lülələrin qabağınnan keçif. Bunnar isdiyiflər güllə atalar,

onnara rəhbərlik eliyən adam əlin qaldırıf ki, belə adama güllə atmazlar.

### IV mətn

Sovet hökuməti gələndə Milannı kəndində Qəhrəman kişi varmış. Bağırov gəlif düşüf bunnarın evinə. Bağırovun İsmayılov familyalı müavini varmış, seyid idi. Bağırov Qəhrəman kişinin evində olan vaxdı bu adamları göndərillər Geşdata. Geşdat camahatı da sovet ordusuna qarşı kəskin mübarizə aparırmış. Gəlillər bunnarın kəndinin üsdünə. Camahat hamısı silahlı-zaddı gizdənmişdi ki, lazım gəlsə döyüşsünnər. Əsgərlər gəliflər tayaları açıflar, otları dağıdıf töküllər atdarın qabağına. Bular da deyiflər ki, ay bala, atınızı bağlıyax bir qırağa, nə qədər ot yeyir yesin da. Bu qədər otu niyə dağıdırsınız? Bu söz-söhbət üzünnən bunnarın arasında səs-küy yaranır. Sora baxıllar ki, həmən dediyim dağın başına bir neçə adam çıxdı. Burdan bir nəfər tüfəyin döndərir, gedir dəyir İsmayılova. İsmayılova dəyənnən sora xəbər gedir çatır Bağırova. Bağırov Əlyannıdan çox adam tutur həbs eliyir, həm də gülləliyir. Mənim rəhmətdik babam özü də həmin vaxd həbs olunufdu. Qaryagində üç ay, dörd ay həbsdə olufdu. Laçın-Akara yolunun üsdündə Muradxannı kəndi var. Deyir, orda bizi yığdılar mal tövləsi kimi yerə. Sora hamımızı qol-qola bağladılar apardılar Qaryaginə. Belimdə gümüş tokqa vardı. Açdım, bəlimə bükdüm qoydum divarın başına. Üç ay, dörd aydan sora içimizdən seçdilər apardılar, aqibətləri necə oldu xəbərimiz olmadı. Sora bizi buraxdılar, gəldik. Mən gələnnən sora yolum Murdxannıya düşəndə getdim gördüm gümüş kəmər orda durur.

Laçın-Akara yolunda Dəvə dərə deyilən yer var, o adamları (Əlyanlı qaçaqlarını – top.) orda güllələyiflər. Onnarın içində bizim kəntdə Uğurru addı cavan oğlan da olufdu. O, Bağırovnan görüşmüşdü. Savatdı oğlan idi. Onun papağını afiserlərdən biri güləlliyənnən sora alıf bağlamışmış atın tərkinə. Bağırov papağı görəndə deyif ki, o cavan oğlanı öldürdünüz? Hayıf deyildi onu öldürdünüz? Orda mənim babamın dayısı Həsənxan bəyi də güllələyiflər. Varrı adam oluf, həm də ermənilərə qarşı mübarizə aparanlardan biri olufdu.

## V mətn

Qaçax Əziznən Qaçax Abbas iki qardaş oluf. Sovet hökuməti gələndə qaçıflar İrana orada məskunnaşıflar. Əlyanın Hat kəndinnən idilər. İndinin özündə də İranda döl-döşləri var. Hətta İranda olanda belə gejə atnan Arazdan addıyıf Ermənistannan talan eliyirmişdər, ayın-oyun götürüf gedirmişdər. Bizim qonşu kəntdə bir erməni deyir ki, Abbas gələndə eşşəyin palanını qoyuf onun belinə minəjəm. Burda da Abbasın adamı var, bunu çatdırır. Abbas qardaşına deyir ki, gedif onnarı öldürəjeyih, amma mən nə deyirəm onu elə. Biri iyid imiş, biri sərkərdə imiş. Sərkərdə o deməkdi ki, hər işi bilir. İyid də odur ki, cəllad kimi dediyinnən dönmür. Əziz deyir ki, qardaş, sən nə deyirsən, mən hazıram.

Duruf burdan gedillər, gejə gedif çıxıllar bu ermənínin qapısına. O vaxdı otax yox idi, dam idi. Bu erməni damda oturuf, buxarıda ojax yanır. Bunnarın da bir afçarka iti var, insana çatdı buraxmır. Bunnar içəridə öz işlərinnən məşğuldu. Nə bilillər ki, bunnarı izləyən var. Abbas deyir ki, mən çıxajam bajanı örtəm, tüstü dolajax içəri. Dolan kimi it çıxajax çölə. İti qavaxca öldürək, onnan sora bunnarı öldürmək asantdı. Çıxır bajanı örtəndə tüsdü dolur, it çıxır. İt qapıya çıxanda xançalı soxur qarnına burur, it yıxılır yerə. Girir içəri deyir, mən Abbasam. Dur palanı götür gəl. İndi səni mən doğruyum burda sən də gör. Baxır görür ki, bir balaja da uşax var. Ermənini vuranda uşax qaçır girir qıravatın altına. Bu biri ermənini də öldürür. Qardaşı deyir ki, o uşaxdı, ona dəymə. Uşağı öldürmüyüflər, çıxıf gəliflər.

## VI mətn

Burda vəzyət gərginnəşəndə Qaçax Qəbil, Qaçax Əziz addıyırmışdar Arazdan İrana. İrana addıyanda atdarın aparıf Xannarda Abgül kişigildə saxlıyırmışdar. Bir dəfə Bağırov gələndə deyillər ki, Abgüldə yaxşı atdar var. Bu da gəlifmiş ki, Əlyannı qaçaxlarını tutmağa. Abgülnən görüşəndə görür tövlədə Koroğlunun Qıratı kimi atdar var. Deyir:

– Abgül, baxıram sənin on bir dənə uşağın var, bu atdar nədi belə?

Bu da deyir ki, ağa, sənin ceddinə qurban olum. Buları saxlıyıram ki, sənin kimi dosdarım gələndə ağa qulluğuna sürəm. Bağırov gedir Əlyannıya, bizim camahatnan görüşür, sözün-söhbətin eliyir qayıdır. Qayıdanda deyir ki, Abgül, mən gedirəm, sənin bir sürü uşağın var, canına yazığın gəlsin. O atdarı Mircəfər Bağırovu görəndə ağa qulluğuna sürürsən, yoxsa Mircəfər olmuyanda da ağa qulluğuna sürürsən?

### VII mətn

Eşşək gavı deyilən yer var. Bunnar (Əylanlı qaçaqları – top.) atışa-atışa gəlif giriflər həmin tövlələrə. Orda dövlət tərəfinnən buların bir dosdu oluf. O gəlif deyir, ə, Əlyannı sən ölü deyirəm (bizdə sən öl deyəndə ikinci söhbət olmazdı), arxayın olun, sizi ələ vermiyəjeyih. Kömək eliyif sizi azad eliyəjeyih. Sən öl sözünə görə atışmanı dayandırıllar, çıxıllar qənşərə, buları aparıllar.

### VIII mətn

Əlyannı qaçaxları o qədər işlər törədif ki, Bağırov bunnarı öz kəntdərinnən didərgin salıf. Bunnara xəbər verillər ki, Bağırov gəlir Ağdam tərəfə, ordan da Laçına gedəjəh. Bərdədə Əlyannı kəndi var. Həmin kəndin yerində o qaçaxlar Bağırovun maşınını saxlatdırır. Bağırova deyillər ki, ya bizim hamımızı güllələt, ya da biz bir yerdə yerrəşməliyik. Bizə azaddıx ver. Bağırov da ətrafa baxır. Deyir ki, orda çox işlər görmüsünüz, qayıtsanız ordan qan qutarmıyajax. Amma bax bu durduğunuz yer sizə yaşayış yeridi. Burda kəndinizi tikin, yaşıyın. Bərdənin Əlyannı kəndini Qubadlının Əlyannı kəndinnən gələnnər salıf. Oların da içində Sarı qaçağ oluf. Bağırov deyif ki, Sarı qaçağa deyin gəlsin yanıma, onu görmək isdiyirəm. Görünür, Sarı qaçax da qoçax adammış ki, Bağırov onu çağırır yanına. Sarı qaçax gedir Bağırovun qəbuluna. Silahını təhvil verir. Arxayın olullar ki, bunun üsdündə əlavə silah yoxdu, onu buraxıllar içəri. Bu da paltarının altında balaca bir silah keçirir içəri.

Nəysə, Bağırov deyir, buraxın gəlsin. Buna da gəlməmişdən qabax demişlər ki, Bağırov eynəyinin altından baxsa, bil ki səni güllələyəjəh. Bağırov bununnan görüşür, söhbət eliyir. Deyif ki, bilsəydim ki, sənin rəngin bu qədər qırmızıdı, səni bağışdamazdım. Ə, yekə kişisən, kişidə bu qədər qırmızı üz olmaz. Deyir ki, yoldaş Bağırov, bağışdamazdın, mən də səni bağışdamazdım. Deyif, sən məni nətər bağışdamazdın? Balaca silahı çıxarıf verir. Deyif, sənin yanına silahlı gəlmişdim. Deyif, elə deyilmiş kimi varsan, get, amma o işlərdən qutar. O da qayıdır səhv eləmirəmsə Bərdənin Əlyannı kəndində yaşıyır.

### IX mətn

Bir günnəri Soltan bəy sifariş göndərir ki, Qəbil, dur dəsdənnən gəl bura, böyük ziyafət təşkil eləmişəm, o ziyafətdə iştirak elə. Mərdannı kəndinnən Umud addı bir kişi varmış, çox atan imiş. Bir dəsdə də Umud yığır başına, gedir. Umud çox usda adam olur. Deyir ki, ay uşaxlar, bəy tayfasını bilmək olmur nətərdi. Sultan bəy doğrudu, biznən yaxşıdı, ola bilər heş xəbərimiz yoxdu, şeytan-şuğul ortaya düşər bizdən bəd xəbərrər deyər ona. Dəsdəni yeddi-səkgiz yerə bölür. Deyir ki, iyirmi nəfər bu dərədə durajeh, iyirmi nəfər orda durajeh, mən işarə verəndə hərəmiz bir tərəfdən güllə yağdırarsınız.

Gedillər düşüllər. Soltan bəy deyir ki, Qəbil, icazə ver şənnik eliyək. Qəbil deyir, nə iş eliyək? Deyir ki, Qəbil, səni atıcı deyillər. Mən atajam, sən də. Qəbil deyir, yox, bəy. Mənim ağsakqalım olan yerdə mən güllə atmaram. Mənim ağsakqalım güllə atanda bilərsiz ki, mən nətər güllə atıram. Umudnan at. Soltan bəy neçə güllə atırsa hamısı boşa çıxır. Belə baxır-baxır, çox pərt olur. Mürsəl kişi vardı. Soltan bəyin zülmündən qaçıb gəlmişdi, o danışırdı. Umud kişi deyir ki, bəy, olmaz ki, tüfəng atmıyax? Sən cavansan, mənim oğlum yaşındasan. Atdın, nolar boşa gedib, adamın hər cürə iş başına gələr. Ondan pərt olmaginən. Bu dəsdə sənin sorağınnan gəlib. Hamısı da sənin xasiyyətini bilir, hamısının da sənə hörməti var. Sən bu ərazinin bəyisən, mən də bu dəsdənin bir üzvüyəm, bir kəndin yox, bir elin ağsakqalıyam. Gəl heç məni nitqinə gətirmə, xayiş eləmə. Deyir,

yox, ateysən. Məsələn, paltar qoyullar, onu at. Deyir, o mənim işim deyil. Nəyə atax, nəyə atax? Axırda gəlif yenir spişkanın karopkasına. Deyir, onu atax. Deyir, yox, o da mənim işim deyil. Spişkanın dənəsin kötüyün üsdünə qoy, mən ona atajam. Mən güllə atajam, gülləm boşa getdi, getdi. Yox, dəydi, sən hirsdənən adamsan, hirsdənmə. Umud kişi dalbadal beşatılannan neçəsini atırsa, hamısı gedir dənəni tulluyur. Deyilənə görə, bəy çox hirsdənir. Umud kişi baxır ki, bəy hirsdənib, Qəbilə göz vurur. Qəbil deyir, bəy, bilirsən nə var? Deyir, nə var? Bəy də yaxşı ziyafət təşkil eliyib, heyvan-zad kəsib. Deyir ki, yemək hazır olana qədər Qarakeşişdə filankəsnən dosdam, o ağır xəsdədi, gedim ona dəyim qayıdım. – Ə, çörək hazır olur, hara gedirsən? Deyir, yox ey, sən öl, atdan düşmeyjəm, dəyib qayıdajam. Bəy də sən ölə aciz imiş. Qəbil bunu orda qoyur, gəlir Həkəri çayına, addıyır İrana sarı. Bəy bir vaxdı duyux düşüb ki, Qəbilin dəsdəsi keçib İrana. Sifariş göndərir ki, Qəbil, mən Soltan bəy idim. Heyvanat aləmində, üzr isdiyirəm, tülküdən sayığı yoxdu. Mən tülküdən sayığ idim, amma sən mənnən də sayığ oldun. İndi oldun mənnən ömürrük qardaş. Mən belə bir adam axtarırdım.

### X mətn

Bağırov başının dəsdəsiynən gəlir Dəvədərəyə. Bu gəlir ki, qaçaqları qırsın. Bulara da rəhbərlik eliyən Keçəl Əziz olur. Gələndə Keçəl Əziz Mircəfər Bağırovun müavinini vurur, dəsdəni götürüf aradan çıxır. Bağırov bərk hirsdənir, deyir bir halda ki belədi, bularn yumurtadan çıxanının hamısını qırajam. Əlyannılar da cəld camahatdı da. Bunun dəsdəsinnən birin də atın vurullar. Eşidir ki, xəndəkdə Alı kişidə saz at var. O vaxdı haja atnan gedirmişdər. Üç ay atı qapıda bağlıyıb bəsliyirdilər. Bu atı da Alı kişi bəsdiyir ki, haca getsin. Eşidir ki, Alı kişidə bir at var. Adam göndərir ki, Alı, gəl bura. Gedir xoşgəldin eliyir. Deyir, Alı, eşitmişəm səndə bir at var. Deyir, var. Deyir, o atı verərsən mənə. Deyir, yoldaş Bağırov, sən seyidsən, mən bu atı bəsdəmişəm ki, haj ziyaratına gedəm. İndi zəvvar gedəndə mən nəyə minib gedəjəm? Axı ora hər at gedib çıxmır. Deyir ki, mənim sözümə atkaz eliyirsən? Deyir, atkaz eləmirəm ey.

Sən seyidsən, haja etiqadın olsun. Mən bu atı bəsdəmişəm ki, haja gedim. Bu işarə verir ki, bunu götürün. Məzməzək kəndinnən Hüseyin kişi olub. O da Laçında ispalkommuş. Eşidib ki, belə bir vəzyət olub, o da gəlib bu haya, Bağırovnan görüşüb. Bağırov Hüseyini çox yaxşı tanıyır. Deyir, Hüseyin, bu Alı atı maa vermədi, aparıb onu güllələyəjəm. Hüseyin bərk gülür. Deyir, niyə güldün? Deyir ki, yoldaş Bağırov, hay düşəjək ki, Mircəfər Bağırov Bakıdan gəldi bir muzduru güllələdi. Nəyin üsdündə? Vermir vermir da. O haja gedir. Hüseyin kişinin hesabına Alını öldürmür, çıxır gedir.

### XI mətn

Bağırov partizanları kəntdə qoyuf özü tək gedifdi Əlyannıya, silah-zad götürmüyüfdü. Gedif Başarat meşəsinə. Orda qoz ağacı var, dibinnən gözəl bulaxlar çıxır. Bulağın yanıynan gedəndə bir kişi buna ürcah olur. Deyir ki, ay oğul, nə axtarırsan belə? Deyir, əmi, sənnən bir söz soruşajam. De görüm Qabil harda olar? Deyir, oğul, neynirsən onu? Sən Mircəfər döyülsən ki? Kişi tanıyır o saatı. Deyir, hə, Mircəfər Bağırovam. Deyir, bala, saa qurban olum, heyifsən, səni vurar, çıx getginən, neynirsən onu? Deyir ki, yox ey, mənim onnan işim var. Silahım yox, bir şeyim yox. Amma maa lazımdı, mən onnan görüşmək isdiyirəm. Kişiyə and verir, axır ki, kişi gedir. Deyir, onda burda durginən, gedim deyim ki, filankəs gəlib, səni görmək isdiyir. Bağırov özü qalıf orda. Bu kişi gedib Qabilin dəsdəsini tapıb. Qabil dəsdəsini qoyub özü tək gəlib. Bağırov deyib ki, burda nə qədər qaçax varsa, hamısına zamin dururam, heç kimi tutmuyajaxlar. Sənin özünə də zamin dururam ki, səni naçalnik milisya qoyam. Adamlarının hamısını çağırır. Çörək də gətirillər. Çörək Qurannan qabax gəlif. Bizdə and içəndə çörəyə and içillər. Çörəyi düzüllər. Bağırov çörək kəsir, Qabil kəsmir. Deyir, niyə yemirsən? Deyir ki, mən sənnən çörək kəssəm gərək sənin dediklərinə əməl eliyəm. Ona görə mən yemirəm çörək. Deyir, mənnən nə isdiyirsən? Bu adamlar yazıxdı, ayləsi-uşağı var, yığmısan meşəyə. Hökumətnən hökumətdik eləmiyəssiz ki. Qabil deyif, onda sənnən bir xayiş eliyirəm. Bu adamların hamısını buraxıram, sənin yanında

da bulara təklif eliyəjəm çıxsınnar getsinnər öz evlərinə. Amma mana icazə verginən mən çıxıb gedim burdan. Mən sovet hökumətinə tabe olmuyajam. Bağırov çox aşağı-yuxarı baxannan sora deyif ki, mən saa kömək eliyərəm. Qabilnən gedən üç nəfər olub. Bağırov onnarı Zəngilanın Ağ yazısınnan yola salır, çıxıf gedillər.

## 127. QAÇAQ FƏRZALI

### I mətn

Şuşa rayonunun Qala dərəsi kəndi var, on səkgizinci ildə ermənilər ordan gəlif Laçın rayonunun Ağanus kəntlərini qırıf qarət eliyiflər. Təkcə Unannovu kəndində on səkgiz nəfəri bir gecədə öldürüf, on ikisin də əsir aparıflar Qala dərəsinə. Əsir aparılannardan birinin də mənə qohumluğu çatırdı, Mehri addı arvad idi. O deyirdi ki, nəvəmnən məni də aparmışdılar. Uşaq, qadın, hamilə, qoca demədən əllərinə keçəni öldürürdülər, süngüyə taxırdılar. Bir yaxın erməni dosdumuz vardı. Dedi ki, bunu verin mən aparım. Məni aldı, gecəynən gətirdi ötürdü, heylə oldu mən sağ qaldım. Qalannarını qırdılar.

Bu hadisədən sora Qaçax Fərzalı bir müddət yoxa çıxıf. Demə, İran vasitəsiynən addıyıf Türkiyəyə. Gedif ora, Osman paşaynan, Loğman paşanı gətirif Tərxannı kəndinə. Çadırlar qurduruf. Bir ucu Arazdan bir ucu Şuşaya qədər adamlar yığışıf, onnarı silahnan təmin eliyiflər. Həmin qaçaqlarnan gedif Qala dərəsini dağıdır. Erməni deyirdi ki, Fərzalı, bura gedən dərə deyil ey, qalan dərədi. Deyir, indi görərik. Tamam dağıdır o kəndi, ermənilər sovet vaxdı genə gəlif orda məskunnaşmışlar.

Nə qədər ki o adam sağ idi erməni cəsarət edib bir kəndə girə bilmirdi. Rusiyaynan da əlaqə saxlıyıfdı. Gedif bir top alıf, bir dənə də topçu. O vaxdı da azərbaycannılarda topçu yox idi. Gorusun kəntləri var – Dığ, Gorunzur. Yalın başında Qoçdaş deyilən yer var, topu orda qurduruf ordan kəntdəri vururmuş. Özü də binokulla baxırmış. Görur rus atdı, kəndin getdi yuxarısından dəydi. Yerə dəyən kimi toz qalxır, heş kəndə yaxın getmədi. Deyir, ə, düz at. İkin-

cini atır, bu da kəndin ayağına düşür. Yenə dəymədi. Quru torpaxdı, düşən kimi toz qalxır. Üçüncünü atıf sağa, dördüncünü sola. Görür bu elə xaç şəkli çəkir. Xəncəri çıxardıf, ordaca boynun vuruf. Daha o topu atan olmuyuf. Topun hissələri atmışıncı illərə qədər o kəntdə idi. O topnan erməniləri ordan qoymurdu bir addım gələ.

### II mətn

Ermənilər Hadrut rayonunun Arpagədiyi, Ağcakənd kəntlərinnən Laçın rayonunun Suarası, Fərəcan kəndlərinə basqın eliyirmişdər. Bir gün də ermənilər bu kəndlərə basqına gəlirmiş. Fərzalı adam yığıf gedif Xorgədiyi deyilən yerdə ermənilərnən qarşılaşıf. Nəysə, böyük atışma gedənnən sora ermənilər çox itki verərək qayıdıf. Fərzalının əmisi oğlu həmin döyüşdə həlak olur. Yalyurtda, Tirtöküləndə, Palantökəndə döyüşlər oluf. Bu camahatın hansı qorxub qaçırmışsa, deyirmiş qaşmıyın, qaçanı vurajam, atdı qaçdı atın vurajam, piyada getdi özün vurajam. Heylə camahatı qaçmağa qoymuyuf.

Orda Məcütdü kəndi var. Məlik qayasınnan Məcütdü qabaxqənşərdi, aradan Həkəri çayı gedir. O üzdə qəlbidə ermənilərdi, bu üzdə bizim camahatdı. Ermənilər ordan çox atırmışlar. Onnan əlaqədar Fərzalı bütün camahatı yığıf Kürdyalında səngər qazıf erməniləri qoymurmuş kəntdən kənara çıxalar. Çıxanı vururmuş.

Sora nətər olufsa, bir təsadüf güllə gəlif bunun çiyninə dəyif. Bu bir az qalır. Deyir, camahat, tüfəngi qaldıra bilmirəm, indi özünüz öz müdafiyənizi təşkil eliyin. Kamandir gedənnən sora bular nə eliyə bilər? Onnan sora qaçıf dağılıflar, erməni də gəlif o kəntdəri yandırıf, tamam kül eliyif. Bizim camahat gəlif Cəbrayıl rayonunun Gəyən düzünə. Fərzalı Gəyən düzündə rəhmətə gedif, orda da basdırıflar. Heç qəbri də məlum deyil.

### III mətn

Bir gün ermənilər yığışıflar Arpagədiyinə ki, gecəynən gedək o kəndi mühasirəyə alax. Bircə Fərzalını tutsax, onnan sorası asantdı. Bunnarın böyüyü oluf. Deyif, ərə, yığışın bura. Fərzalı girməli kol, yonulmalı qaya deyil. Ona mümkün eliyə bilməzsiz.

## IV mətn

Fərzalının teritoriyasına bir Əlyannı qaçağı ayax basmazdı. O kəntdərin hərəsində Fərzalı bir adam qoyurdu. Ona da ayda bir keçi verirdi, o kəntdəri qorutdururdu.

Bir dəfə İrandan Şuşaya qaçaqmal gətirirmişlər. Fərzalı da atdı gedirmiş. Deyillər, Əlyannı qaçaxları töküləndə heç başın da qaldırıf baxmadı. Bular da isdiyir bu karvanı talıyalar. Fərzalı deyir, ə, çıxın gedin, bir də buralara hərrənmiyin. Sən öl, sizi iti qıran kimi qıraram.

Qonşu müsurmannar kəndində camahat taxıl biçirdi. O vaxdı taxılı biçirdilər, dərz bağlıyırdılar. Onun on altısın yığıllar bir yerə adına qara deyillər. Əlyannıdan bir iyirmi atdı gəlir, buların taxılların yüklüyüf ata gedillər. Qalıllar məətdəl. Deyillər, qaç Fərzalını çağır. Fərzalıya deyillər. Fərzalı qaçaxları qabaxlıyır, onnarın yolun kəsir. Deyir ki, bunu hardan götürmüsüzsə, aparın yerinə qoyun. Dərzləri qaytarıf yerinə yığmışlar.

## V mətn

Bir dəfə Şuşadan gələndə deyillər ki, bunun qabağın kəsək öldürək. Mənim bir qohumum vardı, o da orda olur. And içirdi ki, atın üsdündə ayannan bəri gəldikcə gözümüzdə böyüdü, böyüdü, böyüdü oldu bir dağ kimi. Bircə güllə də ata bilmədik. Atı çapdı, çıxdı getdi. Heylə zəhmli adam oluf.

## VI mətn

Bir gün Qala dərəsini dağıdanda Sultan bəyin qardaşı Zili bəy gəlif ki, burda olan qarəti biz aparajıx. Buranı da Fərzalı Loğman paşa, Osman paşanın köməyi ilə dağıtmışdı. Fərzalıynan Zili bəy burda dalaşıflar. Fərzalı Sultan bəyin qardaşı Zili bəyi vuruf, ona heş nə vermiyif. Deyif ki, qarətə gəlmisən, nə isdiyirsən verim apar. Amma deyirsən, biz Sultan bəyin adamıyıx, siz çıxın, qarəti biz aparajıx, bu düz deyil. Axı buranı biz almışıx. Bunun üsdündə aralarında dava düşür, Sultan bəyin qardaşını döyüf qovur. Zili bəy bunu gedif Sultan bəyə deyir. Deyəndə Sultan bəyin çox ajığı tutuf.

Karooz kəndinə gəlir, deyir, Fərzalı, gəl bura, araşdırax görək nə işdi? Fərzalı da öz adamlarıynan gedir, bu da öz adamlarıynan gedir. Adamları qoyullar həyətdə. Fərzalı adamlarına deyir ki, girirəm içəri, söhbət eliyəjəm. Tüfənk səsi eşitdiz hamısın qırarsız. Sultan deyif Fərzalı, bu nə hesabdı, bu nə işdi? Bu olduğu kimi nağıl eliyif. Deyif, sağ ol, Fərzalı, gərək öldüreydin. O səhv eliyif.

## 128. KÜRDOĞLU MƏHƏMMƏD

### I mətn

Daşdılı Xasay oluf, bizim kəntdə də sovet sədri işdiyif. Qoşun yığıllar ki, gedələr Kürdoğlu Məhəmmədi tutalar. Gedillər Tutqu çayının üsdündə boz atın belində Kürdoğlu Məhəmmədnən qarşılaşıllar. Atam deyirdi Məhəmmədin beli üzük qaşı kimi idi, amma kürəyi enli idi. Məhəmməd görür ki, eşq[25] bundadı. Çıxardır onatılanı deyir ki, gəlin keçin gedin. Heş kəs başını qaldırıf üzünə baxa bilmir, keçif gedillər. Gedif bir çobanı tapıllar. Xasay düşür bu çobanın üsdünə, verir şallağa ki, kopoğlu, Kürdoğlu Məhəmmədin yerin maa de. Özü görüf ey, onun qarşısınnan keçif. Nədi ki, gəlsin desin getdıx döydux, vurdux, tapa bilmədik.

### II mətn

Kürdoğlu Məhəmməd Kəlbəcərin Qaraçannı kəndinnən oluf. Hakimiyyətə qarşı mübarizə aparan bir adam oluf. Sovet hökuməti gələn vaxdı bunun bir qardaşını öldürüflər. Onu öldürən vaxdı üzdən irağ, qapısında qızıl it oluf, iti də vuruflar. Kürdoğlu Məhəmməd bir kəntdə qırx adamı öldürüf. Deyif, qızıl itin qanını aldım, qardaşımın qanı qaldı. Heylə sərt adam oluf. Özü də mənim qoja nənəm danışardı ki, ukqədər şəxsiyyəti göyçək adam idi ki, qəddarlığ onun simasınnan bilinməzdi. Deyirdi, o başını yana eliyəndə teli düşürdü, tükünün hərəsi bir rəngə çalardı. Babamın qardaşı qoşuluf həmin Kürdoğlu Məhəmmədin dəstəsinə.

---
[25] eşq – güc-qüvvə

Onun harda yaralandığını heş kəs bilə bilmir. Ehtimal olunur ki, Ağdamın Əmirri kəndində yaralanıf. Otduğu yerdə havaya atılan güllə gəlif onun çiyninnən dəyif kürəyinnən çıxıfdı. Yaralı olan vaxdı gətiriflər (təhlükəli adam idi, onun izi harda görülsə, həmin nəslin kökün kəsərmişlər) babamgilin evinə. Bu da özün təhlükəyə atıf bu adamı saxlıyıf. Lolabağırda həkim Qara oluf, Kürdoğlu Məhəmmədin yarasını müalicə eliyirmiş. Bir gün onun yarasına süleymanı vurur ki, yaranı qaynadıf qovuşdursun. Elə olur o süleymanı axır onun bədəninə, zəhərrənmə verir, Kürdoğlu Məhəmmədin vəzyəti pisdəşir. Qoca nənəm deyərdi ki, onda mən cavan qız idim. Alma çiçəkləmişdi, maa dedi, qızım, qızım, get o almanın qanadınnan bir çiçək qır gətir maa, onu iyliyim. Getdim almanın qanadınnan çiçəyi qırıf gətirdim. İyliyəndə almanın iyi burnunda olardı canın tapşırdı. Amma qavaxcadan tapşırıf ki, mən ölsəm, məni elə yerdə basdırın tanınan yer olsun. Zağaltı kəndi vardı bizdə. O kəndin qavağında tək armud var, onun alt tərəfində əkində bir çökəklik vardı. Demişdi ki, məni o çökəkdə basdırarsız. Ola bilər sovet hökuməti dağıla, qəbrimi nişanalı yerdə basdırın ki, sora tapılsın. Dediyi kimi aparıf onu orda basdırıllar. Kürdoğlu Məhəmmədin təsbehin, bir də papağın verillər atamın dayısına, deyillər, Zağaltıda Yusif kişi var, apar ver ona. O da aparıf papağı Qarabəyli kəndinnən Əli addı bir nəfərə gösdərif. Ağzında söz saxılya bilmiyif. Deyif, Kürdoğlunun papağıdı, aparıram verəm. O da gedif NKVD-yə məlumat verir. Bunnan soruşullar, papağı hardan almısan? Bu, hər şeyi açıb deyir. Onun üsdündə babamgilin evin dağıtdıllar, iki qardaşın tutdular. Bir qardaşı Qədim möhkəm adam olur, heş nəyi boynuna almır. Bərat alır gedir əsgərriyə, ordan da qayıtmır. Heylə olur Kürdoğlun qəbrin yerin örgənif qazıf cəsədin çıxardıllar. Üsdünnən altı-yeddi ay keçmişdi. Çıxardan vaxdı bunun başının tükü götürən adamların əlində gəlir. NKVD işçisindən biri isdiyir ki, bunun bığına da əl ata. NKVD-nin sədri beşatılanı çıxardır deyir, səni ataram. Sağlığında bir atriyad ona yaxın dura bilmirdi.

Xorasan köynəyi varmış, güllə keçirmirmiş. Deyillər ki, tokqanı açanda heç olmasa on dənə qurğuşun onun bədəninnən tökü-

lürdü. Elə oluf Kəlbəcərdə on səkgiz gün hakimiyyəti devirif, bütün bangı, kalxozu dağıdıf paylıyıf camahata. 1933-cü ilə qədər yaşıyıf.

### III mətn

O vaxdı iki nəfər örgənir ki, Ağdərə tərəfdən Kürdoğlu Məhəmməd gələjəh. Gəlif giriflər körpünün altına ki, gələndə atalar. Kürdoğlu Məhəmməd gələndə bunnarı nətər əsməcə tutursa, silah yaddarınnan çıxır. Ona güllə atmağa cəsarətləri çatmır.

### IV mətn

Laçının Zağaltı kəndində Kürdoğlu Məhəmməd oluf. Kəlbəcərnən Laçının qonşu ərazilərinə altı ay hökumət adamını buraxmıyıf. Bunun ölümü necə olufdu? Kürdoğlu Məhəmməd getdiyi yerdə havayı bir güllə bunun boynunu yalıyıf keçir. Deyir, uşaxlar, bu mənim əcəlimdi. Deyillər, Məhəmməd, sənə neyniyə bilər bu güllə? Deyir, yox, mən bir belə vuruşmalardan çıxmışam mənə heş nə olmuyuf, bir havayı güllə gəlif məni tapdısa, bu mənim əcəlimdi. Doğurdan da, onnan ölür. Yara hovluyur çirk eliyir, onnan ölür. Bunun çox etibar elədiyi əmisi oğlu olur. Mən o kəndi gördüm. Kəndin qabağınnan çay keçirdi, çayın o tayında talalar vardı, bunnarın orda əkin yerrəri olur. Bunun əmisi oğlu bunun qəbrin qazır, orda basdırır. Qəbrin üsdünü şumluyur taxıl əkir. Çuğulçular bolşeviklərə xəbər verir, gəlif bunun meyidini qazıf çıxarıllar. Onu Mehdi dayı da görmüşdü. Deyir, meyit nətər vardı elə heylə idi, təkcə bığının bir tərəfi çürüyüf düşmüşdü.

### V mətn

İmamqulu adında bir adam olufdu, ona xəyanət eləmək isdiyif. Qaçaxlarda belə adət var. Növbəynən gedif ayləsiynən görüşür, paltarın dəyişir, dincəlir. İmamqulu da Kürdoğlu Məhəmmətdən icazə alıf gəlif öz ayləsiynən görüşəndə NKVD onnarın kəndinnən oluf, bunu dilə tutur, şirnikdirir. Deyir, bəs Kürdoğlu Məhəmmədi öldür gəl, səni üzə çıxardajam. Bir belə külfətin var, sənin hökumətnən nə ədavətin var? Başdan çıxarır da bunu.

Nəysə, bu qayıdanda Məhəmməd xəbər alır ki, nətər getdin, nətər gəldin? Dincələ bildinmi? Kürdoğlu bunun üzünə baxan kimi bilir ki, bunun fikri dəyişib. Gecə yatanda deyillər ki, kim keşikdə qalacaxdı? Məhəmməd deyir İmamqulu yatıb dincəlib, neçə gündü evdədi. Siz yatın, bu axşam İmamqulu olacax keşikdə. İmamqulu da deyir ki, sən öl, Allah elə mənimkini verif. Yeyillər, içillər, hərə öz yapıncısına bürünüb yatır. Məhəmməd də getdi bir ağacın dibində yapıncıya büründü yatdı. İmamqulu fırranır bir o tərəfə, bir bu tərəfə. Xain xoflu olar. Gejədən xeyli keşmiş beşatılanı çəkir güllənin beşini də boşaldır bunu kəlləsinə. Demə, Məhəmməd də kötüyü büküf qoyub yapıncısına, özü kənarda gizlənmişmiş. Bu yapıncını gülləliyəndə yannan çıxıb deyir, İmamqulu, heylə atmazdar ey, belə atallar. Bir gülləynən vuruf öldürür.

**VI mətn**

Kürdoğlu Məhəmmədin anası Kolanı oluf, amma atası Kəlbəcərin Qaraçannısınnan oluf. Qaraçannı kəndi bizdən getmədir. Bizim qohum-öyladımız o kəntdə idi. Çələkdarlılar itdərini öldürüllər. Bunun üsdündə qardaşı bir adam vurur. Bunun qardaşı Yunusu vurullar. Onun qaçaqlığı bunnan başdıyır. Çələkdarda Otaxkənd deyillər, onu yernən yeksan eliyir.

Bizim rayonda Daşdılı Xasay olur. Çox ciddi gəzillər ki, Kürdoğlunu tutub öldürəllər. Bu da tükünə ilişmirmiş. Kəlbəcərin bangını işğal eliyir, bangı iki ay qaçaqların hesabına işdədir. Daşdılı Xasay gəlib çıxır Ağcaqıza ki, Qaraçannılar orda dağda yaylaxdadı. Məhəmməd də atın hörükləmişdi. Görür atriyard kom töküldü. Bunnar gələndə atriyadı aparıllar Məmiş uşağına, əmimin qayınnarı evinə. Məhəmməd də gəlir. Rəhmətlik Xasay kişi tanıyır bunu, amma biruzə vermir. Deyir, Məhəmməd gəlsin, işimiz var. Məhəmməd də özünü biruzə vermiyif. Qoyunnar kəsilir, qollar doğranır, kabab, qızartma, yemək-işmək. Arada bir deyirmiş ki, niyə Məhəməd gəlmədi, biznən görüşmədi? Deyirlərmiş, gələjək, narahat olma, xəbər göndərmişik. Surfa yığışannan sora deyir, başınıza dönüm, Məhəmməd mənəm. Nə dərdiniz var maa deyin. Xa-

say tanımışmış. Deyillər ki, Abdullayev məsləhət bilir ki, sən çıx üzə, sənə təminat veririk. Deyir, yox, hələ mən qardaşımın ala itinin qanını almamışam. Onnan sora olar ordan çıxır gedir.

Aradan bir az keçənnən sora milisyalar gəlif Kürdoğlunun arvadını Umutdudan aparıllar Bərdəyə. Oğlu Əfqan da arvadın qujağında imiş. Məhəmmədə deyillər ki, həyat yoldaşını apardılar milisyaya. O da atın minir gəlir, atın bağlıyır milisyanın qabağına, girir içəri. Girir ki, arvadı bir isdolda oturuf, əmcəyini çıxarıf verib uşağın ağzına, yaylığın da atıb üsdünə ki, döşü görünməsin. Salam-zad vermir. Arvadına deyir ki, az, mən kiməm? Deyir, ay qardaş, mən nə bilim sən kimsən. Deyir, bax gör mən kiməm, məni tanımırsan? Deyir, tanımıram. – "Aaz, əməlli bax". "Tanımıram" – deyəndə onatılanı çıxardır deyir, o qujağındakının ölmüşünə, səni bu saat burda vurajam. De görək mən kiməm? Deyir, Allah evini yıxsın, Kürdoğlu Məhəmmədsən. Belə deyəndə milisə deyir ki, arvadı hardan götürmüsüz ararsız oraya. Sizi də izdiyəjəm. Qaçax mənəm, arvad yox. Milisi qoşublar. Arvad özü nağıl eliyirdi ki, tez-tez milis maa deyirdi, bajı, görən məni atmıyajax? Deyirdim ki, qorxma ey, qorxma, atmaz. Aparır qoyur Umutduya, qayıdır gəlir.

## 129. QAÇAQ FƏTULLA

### I mətn

Bizim o zonada dörd kənd – Şeylanlı, Ağbulax, Qatos, Qərəkeş xəbər göndərir ki, Sultan bəy keçməsin bu tayə. Onda Sultan bəy özü gəlmirmiş, onun bir dənə qaçax dosdu varmış, Qaçax Fətullanı göndərirmiş ki, get ab-havanı örgən. Daa özü gəlmirmiş. Deyiflər gəlsə, ölüm olmalıdı. Qarakeşdə Şirin kişi oluf. Sultan bəy deyir ki, gərək Şirini əli-qolu bağlı gətirəsən mənim hüzuruma. Şirinin də Sarı Namaz addı yaxşı dosdu olur. Şirin Qulalıya bunun evinə qonax gedəndə Qaçax Fətulla bunu güdürmüş. Bir də onda ayılır ki, Qaçax Fətullanın dəsdəsi fermanı alıf mühasirəyə, Şirini aparməlidi. Sarı Namaz özü evdə yox imiş. Bunun da dünyagörmüş

bir arvadı var imiş. Çox dilavar arvad imiş, işi başa düşür. Qaçax Fətulla gəlir. Deyir:

– Baa, xoş-beş, həmişə sən gələsən, mənim qardaşım gəlifdi. Sən gələsən, burda çay işmiyif gedəsən, Fətulla, heylə şey ola?

Qaçax Fətullanı dilə tutur, gətirir evdə otuzdurur. Samavarı qəliyir, çobannara deyir, bir erkək kəsin. Olar ki, burdan əliboş gedə? Bu oturur, beşatılan dizinin altında, Şirin də yanında. Erkəyi soyan çobana deyir, əlini yavaş-yavaş apar. Çobanın birinə, deyir, arvad paltarı geyindirir ki, sənəyi götür, mühasirədən keç, filan atı minif Qərəkeşə hay vur, gəlsinnər. Burda buları yemək adıynan ləngidir. Qaçax Fətulla o vaxdı ayılır ki, uje bunu dəsdəli-zaddı mühasirəyə alıflar. Elə məcəl tapmır ki, özünü bir yana ata. Tüfəyi götürür hasar varmış, özün atanda ora Qərəkeşdi Qocaynan Fərhad elə hasarın dalında diriyir beşatılanı Fətullanın kürəyinə, deyir, tərpənmə. Qəşəh burda tərksilah eliyillər. Qaçax Fətullanı bağlıyıllar atın üsdünə əyəğlərin də, qolların da, gətirillər Qərəkeşə. Kəndə girməmiş Şirin kişi deyir:

– Fətulla, sən də qoçax adamsan, mən ar eliyirəm səni belə camahatın içinə aparıram. Səni açıf buraxıram, iyid adamsan. Get, ama bir də gəlmə.

Daa o gedən Qaçax Fətulla bir də çayın bu tərəfinə gəlmir.

### II mətn

Qaçax Fətulla gəlir ki, Ağbulax kəndini soyub apara. Ağbulaxda Xudayar kişinin evi düşərgəsi imiş. Xudayar kişinin evinə gəlir. Orda deyir ki, gəlmişəm, öz dəsdəmə burdan ərzaq aparam. Baxıllar ki, işin orası döyül, kəndi itəliyib aparəcəh. Bizim kəntdə Sarı Şükür varmış, kəndin ağsakqalı imiş, qocalmışmış. Deyillər, gedin Şükür kişini gətirin. Şükür kişini yorğanın arasında gətirillər Fətullanın yanına. Deyir:

– Baa, xoş-beş, on beş, Fətulla, həmişə sən gələsən.

Oturullar, yemək hazırlatdırır. Şükür kişi bilir ki, bu dağıtmağa gəlif, boş getməyəcəh. Hələ Qaçax Fətulla ağzın açmıyıfmış. Çağırır o siyahıya alanı, deyir:

– Siyahıda başdan məni yazginən.

Deyir ki, vallah, bu il qurax keşdi, da camahat acınnan batır. Bilirəm gəlmisən, amma səni əliboş yola salmıyacağıx. Deyir, başdan məni yaz, bir çanax Şükür kişi, bir çanax Vəli kişi, bir çanax Məmməd kişi. Baxma ki, ordan-burdan tüsdü çıxır, hamı gedif arana. Heylə iki meşox buğda düzəldir yüklətdirir atə, yola salır. Qaçax Fətulla deyir ki, mən bir heylə itələdim, dağıtdım, heylə bij kişiyə rast gəlmədim. O məni əliboş o kəntdən yola saldı.

**III mətn**

Hay düşür ki, Fətulla gəlif Ağbulağı dağıdəcəh bu gejə. Bizim camahat gedir Minkəntdəki qohumlarına xəbər verir. Camahat silahlanır hazır durur ki, Fətulla gələndə atışma oləcəh. Minkəntdən də gələnnər mövqe tutullar ki, döyüş oləcəh. Qərəkeşdə İrəcəb kişi varmış. Eşidir ki, bu gejə Fətulla gəlif Ağbulağı dağıdajax. O vaxdı da meşoğ yox imiş. Bir çualı qoyur burəsinə, öz-özünə deyir ki, çəndiləri[26] dağıdajax, gedif tökülmüşünnən bir çual mən də doldurum gəlim. Daa bilmir ki, gəlmiyif. Səhər-səhər görüllər ki, bir kişi çual qoltuğunda enir çay aşağı. Deyillər, İrəcəb kişi, hara gedirsən? Deyir:

– Vallah, deyillər ki, bu gejə Fətulla Ağbulağı dağıdıf, elə dedim gedim o tökülənnən mən də çualımı doldurum.

Deyir:

– Ə, nə gəlmədi, nə dağıtmadı, havayı yerə getmə.

Çual qoltuğunda qayıdır gedir.

## 130. QAÇAQ HÜMMƏT

Qaçax Hümbət Sovet devrində qaçax düşübdü. Sora Mircəfər Bağırov göstəriş veribdi ki, bunu tutsunnar. Dəlikdaş addanan yerdə bu gizdənirmiş. Bunun Saşdı adında qızı olur. Bunu ələ keçirmək üçün Saşdını aparıllar həmin Dəlikdaşda girəcəyin ağzında deyillər ki, ya təslim ol, ya da ki, sənin qızın əlimizdədi, qızını öldürəjeyih. Qız da deyir ki, ay ata, bəs məni gətiriflər bura. Deyir:

[26] çəndi – taxıl sahəsi, zəmi

– A qurumsaxlar, niyə uşaxdan istifadə elədiniz, bu qədər beqeyrətçilik olar? Desəydiniz qızını gətirəjeyih, mən tabe olardım. Aparın bu uşağı qoyun evə, onnan sora mən sizə tabe olaram.

Uşağı aparıf evə qoyannan sora Qaçax Hümbət silahı qoyur yerə. Ətrafındakılara da deyir ki, dağılın gedin.

Bunu piyada Laçına gətirillər. Milis işçisi bunun əlin-qolun bağlıyır. Deyir:

– Ə, mən qaşmıram ki, mənim əlimi-qolumu bağlıyırsız.

Deyir:

– Yox, göstəriş var ki, səni əli-qolu bağlı aparax. Bunu əli-qolu bağlı gətirillər Laçına, Laçınnan da əli-qolu bağlı aparıllar Bakıya Mircəfər Bağırovun yanına. Ölümə gedir da bu. Hümbət də dolu, alçaxboylu adam olufmuş, amma sifətinnən zəhər yağırdı. Heylə çox zəhmli adam idi. İçəri girəndə Mircəfər Bağırov deyir:

– Əyə, Hümbət, Hümbət deyillər, mən də deyirəm dev boyda adamdı. Sənsən Hümbət?

Deyir:

– Hə, mənəm.

Deyir ki, sənnən bir şey soruşajam. Əyər düzgün cavab versən, sənin həyatını bağışdıyajam. Yox, əgər yalan cavab versən, səni elə burda güllələyəjəm.

Deyir:

– Nədi?

Deyir ki, filan vaxdı sən bir nəfər atdını dəyirmanda tutmusan (görünür həmən atdı özü gedif deyif ki, məni Qaçax Hümbət idi soyan), dəyirmannan un aparırmış balalarına. Onun qabağını kəsmisən, unu əlinnən almısan, özün də buraxmısan gedifdi. Bəs o balalarına un aparırdı, niyə o unu onun əlinnən almısan? Deyir ki, Mircəfər, mən onun səbəbini sizə deyərəm. Qaçax adam necə yaşıyır bilirsiz da. Orda, burda. Bir qış gejəsi idi, qalmağa yerim yoxuydu. Bir kəndə yaxınnaşdım. Kəndin lap kənarında yerləşən evə yaxınnaşdım. Qapını döydüm, içəridən bir kadın cavab verdi. Dedim:

– Ay bacı, Allah qonağı isdiyərsinizmi?

Qapını aşdı, dedi Allaha da qurban olum, onun qonağına da, ay qardaş, gəl. Girdim içəri ki, altı dənə uşax yorğanın altındadı. Dedi:

– Qardaş, böyün üç gündü ki, bu uşaxlar ajdı. Nə qonşuda, nə heş kəsdə bir şey yoxdu ki, bu uşaxlara verim. Meşəni atıl-batıl eləmişəm ki, bəlkə alma, armud tapım, gətirim bu uşaxlara verim. Heş-zad tapmamışam. Uşaxlar qırılır ajınnan.

Qayıtdım, deyir, yavaşca qapını örtdüm, yollandım dəyirmana sarı. Məqsədim odu ki, gedim görüm dəyirmanda un-zad varsa gətirim bura. Qabağıma çıxan həmin atlı oldu. Fikirrəşdim ki, hər-halda bu kişidi. Bu gedif hardan olsa un tapajaxdı, amma o damın altında uşaxlar qırılır ajınnan. O unu aldım, gətirdim verdim həmən qadına. Gecə orda da qalmadım. Unu verdim, dedim:

– Bajı, bunu horra bişir ver uşaxlara. Qoy uşaxlar içsin, ölməsin.

Mircəfər Bağırov belə baxdı buna, dedi:

– Həyatını bağışdıyıram, get.

## 131. QAÇAQ SƏFO

### I mətn

Qaçax Səfo Qazaxdan gəlif, keçif Sisyana. Minkənd kəndi İşıqlı dağının ətəyində yerləşir. Orda çox kəntdərdən insan yaşadığına görə onun adı Minkənd oluf. Orda bunun qohumları varmış. Çöldə çobannan-çoluxdan heyvan itəliyif aparanda birdən bilmiyif öz qohumlarınkın da aparırmış. Onda Qaçax Səfo deyir ki, biznən qohumluğu çatan çobannar qoyunun ağ dərisinnən papax düzəldif başına qoysun ki, biz gələndə bilək ki, bizim adamlərdi, onnara itələmiyəh. Nəhayət, bir dəfə gəlif aparır, iki dəfə gəlif aparır. Minkənd kəndinin də bizim tirəynən qohumluğu varmış. Ağbulaxlı Məhərrəm getmişmiş qohumlarının evinə. Bu burda olan vaxdı hay düşür ki, Sənəm addı nişannı qızı Qaçax Səfo aparıf. Qohum-əqraba bir-birinə dəyir. Deyillər, dalına düşək, gedif öldürmək lazımdı. Məhərrəm də deyir ki, mən də gedirəm. Bu da öz silahın götürür, bulara qoşulur gedir. Gedillər ki, Qaçax Səfonu öldürələr. Pəriçınılı

böyük çınıldı. Bircə yol var. Qaçax Səfo qızı götürür gedir, da ağlına gətirmir ki, bunun arxasına düşən olar. Sərbəst, öz xoduna gedir, bunnar da gəlir Pəriçınılında bunun qabağını kəsillər. Qaçax Səfo qavaxca, dəsdə dalınca. Mənəm-mənəm deyənnərin heç biri cürət eliyif buna güllə atmır. Bizdən gedən Ağbulaxlı Məhərrəm deyir ki, belə dur, mən atım. Gülləni atır, güllə Səfoya dəyən kimi Səfo atdan yıxılır. Orda atışma başdıyır. Elə bilillər Səfonu vurdular. Atışma səngiyir, amma qızı ala bilmillər. Səfonu yaralı gətirib çıxaranda orda yaxşı ara həkimləri varmış, yarıf gülləni çıxarıllar. Sinədən güllə dəyif gedif kürəyində durmuşmuş. Deyir, o gülləni verin baxım. Gülləyə baxanda deyir:

– Bu Ağbulaxlı Məhərrəmin gülləsidi. Onu qoyun başımın altına, ola bilər ölmərəm, bu gülləynən Məhərrəmin özün mən öldürərəm.

Elə olur ki, bunu müalicə eliyillər, bu yaradan bu sağalır. Bizdə qışdax çay deyilən yer var. Bilirmiş ki, bura Məhərrəmin biçənəyidi. Gəlif gedəndə baxır ki, Məhərrəm ot biçir. O vaxdı da otu yığırmışdər ağacə ki, heyvan yeməsin. Bir dəfə Səfonun yolu ordan düşəndə baxır ki, Məhərrəm ağacın başında otun yerin düzəldir. Elə bu ağacın başında olanda atnan gəlir ağacın altın kəsir.

– Salaməlöyküm.

Deyir:

– Əlöykümət salam.

Gülləni çıxardır, deyir:

– Məhərrəm, bu kimin gülləsidi?

Deyir:

– Mənim.

Deyir:

– Məhərrəm, sənin mənnən nə düşmənçiliyin variydi ki, sən atıf məni öldürürdün?

Deyir:

– Səfo, bir dəfə filan vaxdı nəkqədər heyvanı apardın, ikinci dəfə apardın bəs eləmədi, üç dəfə apardın bəs eləmədi. Dördüncü dəfə də gəldin nişannı qızı apardın, onnan artıx neyləməli idin. Ona görə də səni vurdum.

Deyir:

– İndi Məhərrəm, kəlmeyi-şəhadəti oxu.

Deyir:

– Səfo, mən ağacın başındayam. Ya mən, ya bir qarğə, fərqi yoxdu. Məni bir arvad da atıf vura bilər. İxtiyar sahibisən, neynirsən elə.

Atmır, çıxıf gedir.

**II mətn**

Cermuğun adı Səfolu İsdisuyudu. Həməm Qaçax Səfo iki arvatdı oluf. Onun arvadının biri bizim kəntdən oluf, biri Səfolu İsdisuyunnan. Bir günnəri bu atdanır gəlir bizim kəndə, tacir Qurban deyilən kişinin yanına. Qabax parçaya kəsik-küsük deyirmişdər. Gəlir deyir ki, Qurban! Deyir, nədi? Deyir, gəlmişəm mənnən gedək Qaladan bir az kəsik-küsük alax. Mənnən gedərsən, getməzsən? Deyir, o nə deməkdi, gedək. Onda da maşın yox, bunnar atdanıllar gəlillər Qalaya. Bu parça alır. Satıcı şotkaya çəkir filan bir belə, filan bir belə, filan bir belə. Qurban da qıraxdan baxırmış. Onda da iyirmi köpüyə bir inək alırmışdar. Nəysə, satıcı iyirmi qəpik vurur. Səfonun başı çıxmır ki, mənim iyirmi qəpiyimi vurdu. Qurban deyir ki, düz hesabla. Bu genə də şotkaya çəkir, genə də iyirmi qəpiy vurur. Qurban deyir, sənə bir də deyirəm, düz hesabla. Nəysə, görür düz hesablamır, özü şotkanı götürür hesaflıyır, düz çıxannan sora Səfo çıxarıf pulu verir. Yükün tutur gejə yola düşüllər ki, sərinnikdə gəlif çıxsınnar. Yolda Sarıbaba deyilən yerdə qaçaxlar bunnarın qabağın kəsillər. Qaçax Səfo deyir ki, axı siz kimsiz? Deyir, Qaçax Səfonun dəsdəsidi, sizə deyirik düşün atdan. Səfo Qurbana deyir, indi gör Qaçax Səfo mənəm, yoxsa bular. Bu hərrənir nətər buları bürür-bükür hamısın tutur gətirir Qurbanın yanına. Deyir, mənə düzün deyin görüm Qaçax Səfo hansınızdı? Buların dili batır axı. Deyir, Qaçax Səfo mənəm, sizi buraxıram gedin, amma Qaçax Səfonun adınnan istifadə eləmiyin. Qayıdır deyir, Qurban. Deyir, nədi? Deyir, Qurban, dərədə Səfo, Qalada Qurban.

**III mətn**

Mənim rəhmətdik atam danışırdı. Səfonun Məmmədalı adında bir oğlu olufdu. Səfo özü hökumətə tabe olmurmuş. Məmmədalını hökumət adamları tutub gətirillər Şuşa qalasına. Deməli, gəlif Dərələyəzdən bunu tutuf aparıllar. Səfo gəlir ki, Məmmədalı yoxdu, aparıflar. – "Ay arvad, Məmmədalı hanı?" Deyir, hökumət adamları apardı. Məşhur atı oluf. Ata dəyib bir gün sora burdan çıxır. Gəlir Bükün dərəsinə. Orda Hacı Vəlinin ilxısı oluf. Atın bağrı burda partdıyır. Deyir, at. Deyillər, Səfo, hansını isdiyirsən götür. Kəmənd atır minilməmiş dördillik ayğırı tutur. Ayğır tullanır-düşür, yorulur. Yəhəri basır belinə, düşür bunnarın dalına. Məmmədalının da ayaxlarını atın qarnının altınnan bağlıyıflar. İki nəfər əsgərdi bunu aparır. Arada deyirmiş ki, ə vallah, qıkkom[27] gəlif sizi qırajax, yazıxsız, çıxın gedin. Birdən atın ayağının tapbıltısı gəlir, toz dumana qarışır. Geri baxır deyir, köpəyuşağı, qıkkom gəlir, qaçın, sizi qırajax. Səfo gəlir. Deyir, köpəyuşağı, cavansız qıymıram sizə. Atının sağ ayağının nalını gözdə. At ayağını qaldıranda nalını atır. Ordan oğlunu götürüf qayıdır.

## 132. QARA MƏMMƏD

Qaçaxlar olan devrdə bizim kəntdə biri oluf Avdılla. Sovet hökuməti gələn vaxdı qaçaxların başçısı oluf. Deyiflər ki, Məmmədi tuta bilmirih. Bakıdan gəlillər, nə qədər eliyillər tuta bilmillər. Deyillər, ancax onu Avdılla tutar. Avdılla atdı dəsdəni götürür gedir. Hamı beşatılannı, qatarrı gedillər. Deyillər ki, Seyid Məmməd yalın üsdündəki alaçıxda yatıf. Qıraxda bunnar oturur gözdüyür, Avdılla gedir. Qabaxlar çadır keçədən hazırlanırdı. Nizəynən qabağın qalxızanda Seyid Məmməd gözünü açır deyir:

– Sən Həzrət Abbas, məni öldürmə, lütəm. Qoy paltarımı geyim əynimə, onnan sora məni öldür.

Demiyəsən, bu da beşatılanı qoymuşdu döşəyin altına. Avdılla deyir, geyin. Geyin deyəndə beşatılanı götürür nətər atırsa, Av-

[27] Qıkkom – Kürd dilində böyük qardaşa deyilir.

dıllanın atının boynunnan tutur. At arxası üsdə yamacdan aşağı aşır. Atriyad qıraxdan bu çadırı güllələyir. Avdılla əlini qaldırır qışqırır ki, ay haray, atma. Seyid Məmmədi özüm tutajam. Ömrünün sonuna qədər də sovet hökumətini tanımadı. Qara Məmməd deyirdilər. Onnan sora Avdılla onu tutuf gətirmişdi Laçına. Ona bəraət verdilər, o da gəlib dağda zağada yaşayırdı.

## 133. KOLANI İSMAYIL

Həsənquluynan xalası oğlu olur. Qaçax Asdandan icazə alırlar ki, gedax aylə-uşağı sorağ eliyağ. Hava işıxlananda yola düşüllər, gəlif tərtərlilərin yerinə çatanda görüllər bir dənə yoluğ kişidi, papağı yox, altında arıq bir kəhər at, köhnə yəhər, amma bunun əlində bir dənə Türkiyə beşatılanı var, nəyə desən dəyər. Həmin beşatılanı Avstriyadan gətirirmişdər, tək-tük adamlarda olurdu. Xalası oğlu buna yavaşcadan xısıldıyır ki, tanımadığımız adamdı, tüfəngi bunun əlinnən alax. Söhbət eliyillər, əmi, hardansan, kimsən? Bu da hiss eliyir ki, yaşca balaca olan bunun silahını almax isdiyir. Gəlillər Narrı dərəsinə çatanda deyir ki, bajıoğlu (demə bu da bunnarı soymax isdiyirmiş), nənəniz namaz üsdündə idi. Mən gözdüyən gəldi. Ata, deyir, bir şallax vurur, bu arıx kəhər nətər getdisə, daldan ha çapırıx, çapırıx, buna çatammırıx. Qəlbi təpənin başınnan toz qalxır, onnan bilir ki, qəflə-qatır gəlir. Gəlif çıxırıx Narrı qayaya. Ədə, görürük nə? Burda əlli nəfər əli silahlı adam var. Bu tüfəngi qoyuf atın qulağının arasına fır-fır fırrıyır. Bəlkə yüklü əlli, yüz qatır, dəvə var. Əli silahlılar hamısı tökülüb yolun qırağına. Üsdün nətər aldısa, biri də sağ qalmadı. Deyir:

– Xaloğlu, durax çəkilək. Sən isdiyirdin bunu soyasan, ə?

Nəysə, gəlillər çıxıllar evə. Həsənqulu kişi gedir Kalba Məmmədin babasının yanına. Deyir, əmi. Deyir, nədi? Deyir, başıma belə bir iş gəlif. O kim olar, nətər olar? Deyif ki, o Kolanı İsmayıldı. Sən öl, səsinizdən harda olsa biləjəh sizi. Yaxşı olar ki, özüz gedəsiniz evinə.

Gəlif deyir ki, xaloğlu, səsimizdən bizi tanıyıf. Deyir, Qarabağa yox ey, lap Bakıya gedəsən, səni tapajeh. Yaxşısı budu ki, arvadnan, uşaxlarnan görüş, ayın-oyunu ver, o kişinin yanına gedək. O uje sorağ salıf, bizi harda olsa, tapajax.

Nəysə, gəlillər Ağdamdan dönüllər dərə yuxarı, örgənir ordan-burdan. Deyillər, ora siz gedəmməzsiz, bir sürü iti var, sizi itdər yeyəjəh. Heç rusun qoşunu ora girə bilmir. Amma orda xan çinarı çoxdu. Xan çinarına çıxın çağırın, səsinizi alajax.

Nəysə çıxıllar. Çağırıllar:

– Ay İsmayıl əmi, ay İsmayıl əmi.

Deyir:

– Ə, bajı oğlannarı, gəldız?

Xalası oğlu deyif dinmə. Deyif ki, necə dinməyim ə, kopoğlu səsimizi aldı. Deyif:

– Ay İsmayıl əmi, itdərdən bizi ötür, qonax gəlirik.

Gəlillər. Kolanı İsmayıl deyir:

– Örgənmişəm zəngəzurlusuz siz. Bu nədi böyrünə qoşmusan bunu (xalası oğlunu deyir – top.)? Bu axmağın biridi.

Deyir:

– Xaloğludu, elə böyrümdə hərriyirəm.

Deyir:

– Yox, bunnan aralaş. Sən ağıllı adamsan.

Deyif ki, mən Qaçax Asdana xəbər göndərəjəm, təmiz adamsan, qal mənim yanımda. Nə iş görürsən gör, amma ev-zad yarma. Mən sizi üzə çıxardajam. Gəncənin general-qubernatoru mənnən dosdu.

Gəncənin general-qubernatoru sora çarın adından əfv çıxardır. Heylə olur Kolanı İsmayıl əfv edilir.

## 134. QAÇAQ İLDIRIM

### I mətn

Bizim qonşu Müsurmannar kəndində İldırım addı bir qaçax oluf. Onu Bağırov güllələdif. Çox adamları öldürüf. Amma arvad-

pərəsf oluf. Qarabağda Uğurru bəy oluf, məşhur bəy oluf. Uğurru bəynən dost imiş. Bir gün Uğurru bəy gəlif ki, İldırım, bu hökumət gəlif məni günləliyəjəh. Məni apar Arazdan keçirt gedim İrana (Hələ orasın deyim ki, bir dəfə Xannı gəlir Uğurrunun yanına. Deyir, Xannı, nə gəzirsən? Deyir ki, taxıl alajam. Deyir, bir araba taxıl yığın, Xannının şəxsiyyətinə bağışdadım, aparsın. Heylə yaxşı adam imiş). İldırım da çox adam öldürüfmüş. Bajısın ərin öldürüf, bajısın oğlun öldürüf. Elə çatanı vururmuş. Bunu qoyullar Turşsuda milis rəisi. Gedir Uğurrunu gətirir, aparır təhvil verir Qaçax Qəbilə. Deyir, Qəbil, bir xurcun qızıl, beşatılan, at sənin, bunu Arazın qırağında vur, arvadın da mən alajam. Qəbil amma qeyrətdi adam imiş. Aparanda deyir, Uğurru, get, bir də geri qayıtma. Deyir, niyə? Deyir, qayıtma da. Deyir, səbəbin de da görüm. Deyir, bax vəzyət belədi. Qayıdan kimi İldırım səni vurajax. Qayıtma. Deyir, Uğurru atdan sıçradı düşdü, atın cilovun keçirdi yəhərin qaşına, beşatılanı da taxdı yəhərin qaşına, dedi:

– Bala, bir xurcun da qızıldı, götür get.

Qəbil deyir, ay kişi, ves Qarabağ saa neynədi ki, bir xurcun qızıl maa neyniyə? Atını min get, amma qayıtma. Neyniyif, genə də heş nə götürmüyüf. Heylə Qəbil keçirif onu. İldırım da bunun arvadını alıf.

Bağırov bunu eşidif, gəlif Şuşaya. Şuşada milis sistemini çağırıf. Bu İldırımı heş cürə tutmağ mümkün deyil ey. Kopoğlu çıxanı vurur. Bunnara deyir ki, bir-bir formanı dəyişirsiz. O otağda soyunun təhvil verin, keçin bu otağda təzə forma geyinin çıxın. Beş-onu gedir. Növbə İldırıma çatır. İldırım soyunuf bu otağa keçəndə tutullar. Gəlif deyif, İldırım sənsən? Deyif ki, əllərimi aç, beşatılanı ver maa, gör mənəm, mən deyiləm. Amma mən indi İldırım deyiləm. Çox sözdən sora deyif ki, İldırım, neçə adam öldürmüsən? Deyif, Bağırov, bu şəhadət barmağımnan yetmiş beşin. Yəni gülləynən yetmiş beşin vurmuşam. Deyir, onun yetmiş beşin də bağışdadım saa. Uğurru bəyin arvadını aldığına, bu binamısdığına görə səni güllələdəjəm. Elə orda da güllələdif.

**II mətn**

İldırım çar hökumətinə qarşı qaçaxlıx edib. Xalq Cümhuriyyəti qurulanda çıxıf üzə. Sora da onu milis rəisi qoyuflar.

Bir dəfə bajısı oğluna deyif ki (bajısının ərin vurmuşmuş güllənən), gedif o kəntdə filankəsi öldürüf gələ bilərsən? Deyir, dayı, niyə öldürmürəm, nə çətin şeydi? Deyir, get bu gejə onu öldür gəl görüm. Gejə gedif öldürüf gəlif. Səhər hay düşüf ki, filankəsi bu gejə vuruflar. Bajısı oğlunu çağırıf elə ordaca öldürüf. Deyif, bunun əli tüfəng tutdu, atasını güllələmişəm, sora məni gülləliyəjək.

## 135. QAÇAQ BABA

**I mətn**

Babanın atası yüzbaşı oluf. Atası ölənnən sora bunu yüzbaşı seçiflər. Sovet hökuməti gələndə Qubatlıda polis rəisi oluf. Qubatdıda Qoçax Qabil olub. Alyannı otuz səkgizinci ilə qədər sovet hökumətinə tabe olmuyan bir kənd oluf. Bağırovnan Babanın Alyannı üsdündə münasibətləri pisləşif. Deyilənə görə, onda Bağırov bandatdelin müdiri oluf. Hücum eliyiflər ki, Aylannını tabe elətdirələr. Bir neçə adamın meyidini sarıyıflar ağaca ki, o biriləri üçün görk olsun. Bağırov tanıyırmış Babanı. Tapşırıb buna, deyif ki, bu meyidin biri burdan əysik olsa, səni sarıyajam o meyidin yerinə. O da qabağınnan yeyən adam olmuyuf da. Deyif ki, bəlkə sən sarındın ora. O tapançaya əl atır, bu tapançaya əl atır. Orda aralarına girillər. Onnan sora Babaynan Bağırovun arası dəyir.

Bağırov sora keşdi Mərkəzi Komitəyə, bu qaçır qaçaxlıx eliyir. Ətrafına da bir neçə adam topluyur, o cümlədən qardaşı da. Hüsü Hacıyev gedir onu üzə çıxartmağa. Gedir gətizdirir evə ki, mən səni çıxardajam üzə. O da gejəynən buları yuxuya verif qaçır.

**II mətn**

Qubatdıda Şamil addı bir polis rəisi oluf, Baba onuynan möhkəm dost oluf. Hətta bizim bir kəntçi – Müslüm kişi onun idarəsində milis işdiyirmiş. Müslüm kişi deyir, mən qapıda nööbətçi

idim, bir də gördüm içəridən Şamilə deyillər ki, əllərini qaldır yuxarı. O necə içəri keçibsə, mən bilməmişəm. Şamil də Babanın dostudu. Zarafatnan Babaya deyir ki, kəntçin nööbətçi olannan sora deyərsən da əllərini qaldır yuxarı. Şamil orda qonaxlıx verir. Bir nəfər girib qonaxlıxda tüfəngi çəkif ki, sən əsirsən, əllərini qaldır. Şamil də deyir ki, yekə kişisən, bu öz ayağınnan gəlif. Gəlif ki, məni üzə çıxart da. Şamil də onu aparıf Qalada türməyə təhvil verif.

Onun qəribə taleyi olub. Qırmızı ordu Ermənistana gələndə İrsəvənnik kəndi var, Qafannan gedəndə girirsən dərəyə bir də təzdən belə çıxırsan. Orda yolu kəssən, hamısın qıra bilərsən. Orda ermənilər qırmızı ordunu məhv eliyir. Bir afisser çıxıf ağacın başına, canını qutarıf. Baba bajısının əriynən gedəndə ağacın başında həmən rus afisserini görür. Bajısının əri deyir, öldürək bunun tapancasını, paltarını götürək. Baba deyir, yox. Rusca bilirmiş özü də. Orda Mirzə İvan olub, onnan rusca örgənmişdi. O gətirib üç gün onu saxlıyıb, sora yola salıb gedib. O adam sora Moskvada yüksək vəzifədə işdiyif. Deyilənə görə, türmədə gəlif onu görüf. Türmədən qaçmağına o şərait yaradıf. Gecəynən bir öləni aformut eliyiflər onun adına, onu buraxıflar. Qaçıf gedif İrana. Sovet ordusu İrana girəndə – qırx ikinci ildə bizim kəntçi Məhəmməd kirvəm onu İranda bir tükanda görüf. Özü də onu tanımax o qədər də çətin məsələ döyülmüş. Atışmada barmağın ikisin itirmişdi. Deyir, adını deyəndə dedi ki, dəvə gördün, qığını da görmədim. Bir qədər sora getdim gördüm tükanda yoxdu. Ordan keçif Türkiyəyə. Türkiyədə vəfat eliyif.

### III mətn

Baba on dörd yaşında atasını itirif. Onu on dörd yaşında yüzbaşı seçiflər. Özü də onun seçilməyində Xannıx kəndindəki Abbas yüzbaşının böyük xidməti oluf. Deyilənə görə, o vaxdı daşnan səs verirmişdər. Papağa daş atırmışdar. Daşın sayına görə yüzbaşını təyin eliyirmişdər. İki namizəd olub. Biri baba olub, biri də Fərəməz adında erməni olub. Ermənilər deyirmişlər, Baba toba, bunnan olmaz. Bizimkilər də deyirmiş, Fərəməz yaramaz. Görüllər ki, Babanın papağında az daş var. Abbas yüzbaşı bir yekə daşı aparıb

salıb papağın içinə. Daş qalxıb papaxdan yuxarı. Da daşı saymıyıblar, babanı yüzbaşı seçiblər. Baba da uşağ olub da. Baba öz qardaşı Şükürü aparıb qoyub Türkiyədə. Neçə illər sora gedir gətirir. Deyirdilər ki, sora üsdünnən neçə il keçsə də, Şükürün yenə də dilində türk sözləri qalırdı.

Orda belə bir hadisə də oluf. Baba gedif qohumlarının evinə. Çıxıb görüf ki, ağacda meyvə yetişif. O meyvənin birin-ikisin qırıb yeyif. Ev yiyəsi görüf ki, meyvəni qırıflar. Evdən soruşuf ki, bu meyvəni kim qırıf? Deyiflər, biz qırmamışıx. Deyif, burda əcəm ölkəsinnən yəqin bir adam var ki, bunu qırıf. Bunun getdiyi ev bunu eşidir. Baba axşam gələndə deyillər ki, ay Baba, o meyvəni sən qırmadın ki? Deyir, meyvə idi da, qırdım yedim. Deyillər, evin tikilsin, əli kəsəcəklər ey sənin. Sən icazəsiz bunun meyvəsini qırmısan. Gecəynən tərpən burdan. Səhər sənin əli oğru kimi kəsəcəklər. Baba özü deyirdi ki, gecəynən atı mindim, Şükürü aldım tərkimə, qaşdım gəldim.

### IV mətn

Baba hədinnən artıq mahir atıcı oluf. Xocaxan bəyləri deyillər, olar varlı adamlar oluf. Bu bəyin bir qardaşı olur, atıcılığ edir. Qardaşı deyir ki, kəkliyi belə vurdum, filan quşu belə vurdum. Bəy deyir:

– Ə, sən nə atansan? Sən Babanın atıcılığını görsən, əlinə tüfənk almazsan.

Baba da deyilənə görə, abbasını atırmış göyə, göydə tapancaynan onu vururmuş. Bir gün bu bəy Babanı qonax çağırır. Baba deyir, sən canı, Baba olduğumu qardaşa demə. Baba gəlir, qonaxlıx-zad. Bəyin qardaşı deyir, çıxax ova. O vaxdı da kəklik-zad çoxuymuş. Naqannan da atmax çətin idi da. Baba naqannan elə atəşdər açır ki. Oğlan deyir ki, qardaşım Babanı tərifləyir, sən belə atanda gör Baba nətər atır. Bəy sora üsdünü açır ki, Baba o özüydü, gördün necə atəş açır?

**V mətn**

Baba məşhur qaçaxlardan oluf, bala. Nənəm mənə deyərdi ki, Qaçax Baba pisdiyə qarşı çıxırmış. Bizim rayonnandı – Qubatdıdan. Düzdü, onun adı Qaçax Nəbi kimi yayılmıyıf, amma çox mərd, iyid, qorxmaz oluf. O, gavurrara, yəni ermənilərə qarşı həmişə mübarizə aparıf.

Bıların hamısı Sovet hakimiyyətinnən qabax oluf. Özü də ermənilərin sırf düşməni oluf. Bala, Qaçax Baba uşax olanda ermənilər onun gözü qarşısında tayfalarınnan çox adam qırıflar. Babanın da uşaxlıxdan onnara qarşı nifrəti artır. And içir ki, böyüyəndə onnardan intiqam alacam. Beləlihnən, Baba bütün varrığıynan ermənilərə qənim kəsilmişdi. Onun adı gələndə ermənilər bilmirlərmiş nə eləsinnər. Qaçax Babanın nəinki bizim rayon, qonşu rayonnar da, nə bilim Qarabağ da tanıyırmış. Hansı evə gedif, onu saxlıyıflar.

Qaçax Babanın hökümətə qarşı çıxdığını bilmirəm. Bəlkə də oluf, deyə bilmərəm. Onu bilirəm ki, Baba çox qeyrətdi oluf. Onu da deyim ki, Babanı öldürmüyüflər. Daha doğrusu, öldürə bilmiyifl ər. O, öz əjəli ilə ölüf. Baba sora yurd salır Ermənistannan Qubatdının sərhədində. Sovet hakimiyyəti qurulanda dörd il Babadan xəbər olmuyuf. Elə biliflər ki, onu öldürüflər. Deyirmişlər ki, hökümət gəldi. Hökümət də xaçpərəst idi dayna. Ehtiyat eliyirmiş ki, onu tutarlar birdən. Çünki, ermənilərə qənim kəsilmişdi axı. Hamı elə bilif ki, ta Qaçax Baba ölüf. Dörd ildən sonra, üzə çıxır. Bir günnəri Babanın bayısı Zahra çıxıfmış yalın başına, ağlıyırmış:

Ağaşda barım qaldı,
Dərmədim, narım qaldı.
Qardaş, sən getdin, öz canın apardın,
Bir ağlar bajın qaldı.

Deyif, həmişə ağlıyarmış. Bir günnəri də alaçıxda oturmuşmuşlar. Görüllər hənirti gəlir. Baxıllar ki, Babadı. Ta elə o vaxtdan da üzə çıxır. Qaçaxlığın daşını atır.

## 136. ERKƏK TAVAT

### I mətn

Tavat arvadnan çox söhbət eləmişəm. Onun Kəlbalayı Məmməd addı bir atası oluf. Aşağı Fərəcanda böyük evləri vardı. İki mərtəbəli, altı böyük otağ idi. Otağın hər bir iyirmi səkgiz-otuz kvadrat idi. Sovet dövründə onu məktəb elədilər. Kommunistdər onu evdən çıxartdılar. Camahatınköməyi ilə məktəbin böyründə on beş kvadrat metrlik balaca padval kimi ev tikildi, orda olurdu. Deyirdim, Tavat, evi niyə məktəbin yanında tikmisən? Deyirdi, bu evi atam, qardaşdarım tikif, hər səhər çıxıf ona baxıram.

Onun da iki qardaşı vardı: birinin adı Həsən, birinin adı Həsənalı idi. Xalq Cümhuriyyəti qurulanda Həsəni bölgənin milis rəisi qoymuşdular, biri də müvəkgil idi. Bunnar da erməni varrılarını çox incidirdilər. Deyirdilər, varınızdan yoxsullara da verin, onnar da əksin, biçsin. Erməni varrılarının da bulara gücü çatmırdı.

Günnərin bir günü bular Arpagədiyi kəndinə gedillər. İclas çağırıllar ki, torpağı verin, camahata zülüm eləmiyin, istismar eləmiyin. Gecə düşür, bular qalası olur burda. Ora da dağ yeridi, qar olur. Odun peçi qalıyıllar. Gejə ermənilər peçin turbasını tuturlar, tüsdü dolur evə. Tüsdü evə dolanda bular qapı-pəncərəni açıllar ki, tüsdü çıxsın evdən. Gecə bir qoja erməni qadınını salıllar içəri ki, onsuz da ölürsən, öldürəllər öldürəllər da. Gör buların tüfəngin, patrondaşların çıxarda bilərsənmi? Bu arvad da girir bunnarı çıxardır. Çıxardannan sora hər tərəfdən ermənilər yığışıllar, silahlı, tüfəngli dolullar içəri. Bular yuxudan ayılıllar, əl atıllar tüfənk yoxdu. Bir-ikisin vurullar, amma o qədər adama nə edə biləllər. Tutullar, buları çox əzyətnən öldürüllər. Xəncərnən doğruyullar, bellərində simavar qaynadıf kəndi gəzdirillər. Böyük müsibətnən öldürüllər.

Buların da Tavat addı bir bacısı vardı. Qubatdı rayonunun Muradxannı kəndində bazar vardı, o zonanın adamları bazara o kəndə gedirdilər. Ermənilər də meşəynən həmin bazara gələndə Tavat oları qırır. And içillər ki, on beş-iyirmi ermənini öldürür, amma qardaşını öldürən ermənini tapmıyıf.

Nəhayət, vaxt keçif. Buna deyiflər ki, filan vaxdı həmin adam gedəjəh ora. Bu da müəyyən adamlar yığıf başına, gedif ora. Bunu tutuflar, xəncərnən başını kəsif, qanınnan da iki ovuş içifdi. Elə deyirdi ki, o qan döşümü xarab eliyif. Onnan bəri öskürürəm.

## II mətn

Kalbalayı Məmməd kişi vardı, bu bilirmiş erməni nədir, amma cavannar bilmir da nədi. Kişi gedir Şuşaya. Erməni siyasətnən bunun oğlannarın – Həsənnən, Həsənalını toya təklif eliyir. Bunnar durur gedir tüfəyli-zaddı. Bunnar toyda iştirak eliyir. Erməni qurğu qurur. Harsınnarı örgədir ki, filan evdə bunnara yer sal. Yeri salır. Harsınnarı örgədir ki, siz arvadsınız, gedin bunnar yatannan sora silahların çıxardın çölə. Çıxardıllar silahların çölə. Bunnarı durğuzuf qaynar sımavarı şəlliyillər dallarına. Kəntdə gəzdirillər, sora öldürüllər.

Kişi Şuşadan gəlir evə. Aşağı Fərəcanda olan işdi bu. Yoldaşınnan soruşur ki, ay arvad, uşaxlar hanı? Deyir, qonşu kəntdə erməni toy eliyəjeydi, ora gedeflər. Deyir, ay köpək qızı, qırdırdın uşaxları. Niyə buraxmısan onnarı? Durur burdan atı minir, gedir həmən kəndə – Arpa gədiyinə. Kimə deyir boyun olmur ki burda oluflar. Bu yolnan belə ayna-bayna getdiyi yerdə bir harsın gəlir dalında sənəy. Başın salır aşağı, deyir:

– Ay Kalbalayı Məmməd kirvə, özu niyə şəhid eləmisən? Get meyidi filankəsdən isdə.

Erməninin adın deyir. Bu kişi gedir meyidi alır gətirir. Həmən kişinin iki qızı varıdı. Birinin adı Tavat idi, Erkək Tavat deyirdilər. Bu hadisədən sora bizim azərbaycannılar getdi yeddi ermənini dəyirmanda qırdılar. Bu Tavat da getdi erməninin qanınnan işdi ki, bu qan qoy mənnən qəbrə getsin ki, qardaşımın qanını bunnardan almışam. Elə heylə də oldu. Neçə dəfə ağrıyıf eliyif. Deyiflər, sənin qanında qarışıx qan var, onu təmizdəmək lazımdı. Deyif, yox, o qan mənnən gedəjəh qəbrə. Qoymadı qanını yuyalar. Dizinə qədər sapox geyirdi, at minirdi, həmişə üstündə tapanca gəzdirirdi. Bir atı vardı yernən-göynən əlləşirdi. Yerdən sıçrıyıf minirdi ata.

## III mətn

Kalba Məmməd çox mərd, qeyrətli bir kişi oluf. Onun bir tərəfi Qubatdı, bir tərəfi isə Laçınnandı. Sora Laçının Aşağı Fərəcan kəndinə köçüf. Kalba Məmmədin Həsən və Həsənalı adlı oğlannarı oluf. Həsənalı polis rəisi oluf o vaxt, Həsən də onun maviniymiş dəəsən. Ermənilər bınnarı aradan götürməh isdiyirmişlər. Qonaxlıx adıynan aparır bınnarı Xocapirdə. Xocapird də Qarabağa aiddir. Guya bınnarı ora qonax aparıllar. Bu yolla onnarı kruqa salıllar. Evdə otduxları yerdə, bınnarı – qardaşdarı tərkisilah eliyillər, ikisini də tutullar. Simavarı qaynadıllar, Həsənalının kürəyinə şəlliyillər. Həmən samavardan çay töküf içillər. Nəysə, bınnarı işgəncəynən öldürüllər. Bınnarı babam söhbət eliyirdi. Özü də ora getmişmiş.

Kalba Məmmədin qardaşı Kalba Xəlil bəy anamın atasıynan dosduymuş. Anamın atası həkimlih bacarırmış. Kalba Xəlil bəy gedir Qubatdının Əliquluuşağı kəndinnən babamı gətirir ki, birdən uşaxlar yaralı tapılar, yarasını-zadını müalicə eləsin. Babamı ora aparır. Camahat hamısı qara geyinif. Hamı axtarır onnarı.

Bir günnəri Kalba Məmməd atdan düşdü, əlini əlinə vuruf dedi ki, həə, uşaxlar gedif Malaqana, qalıflar orda. Heyvannardan kəsin, camahat çörəh yesin. Çox heyvan kəsdirif, camahat hamısı yedi, işdi. Babam deyir ki, mən gördüm ki, gülüşü süni gülüşdü. Sora deyif ki, ay camahat, hamı çörəh yeyif? Yeyif qutarıfsa, durmuyun, fərməşdən, çualdan götürün. Uşaxları doğruyuf töküflər filan yerə, gedax gətirəh. Babam deyir ki, ermənilər Kalba Məmmədin oğlannarını belə öldürdülər. Bütün bunnar Kalba Məmmədin qızı Tavatın yaddaşında qalır. Böyüyənnən sora onnardan qisas alır.

## IV mətn

Anamın atasıgil erməniyə qarşı qəddar oluflar. Bu qəddarrığının da səbəbini deyim. Anamın atasının iki əmisi oğlunu Xozabirtdə ermənilər öldürüflər. Sora o kəntdən də, bu kəntdən də camahat yığılıf barışığ eliyiflər ki, bu kəntdəri bir-biriynən barışdırsınnar. Anamın atası, bir də əmisi – Hüseyinnən Xan Hüseyin barışığa gəlmillər, gedillər meşəyə. Anamın əmisi uşaxlarını Eşşəkxaçı

deyilən bir erməni oluf, iki də oğlu oluf, olar öldürüf. Bular da ermənidən qasid tutullar. O vaxda qədər gözdüyüllər ki, kəntdən çıxıf hara getdiklərini öyrənələr, bulardan qisas alalar. Kəntdən bulara xəbər verillər ki, Eşşəkxaçı uşaxlarıynan getdi meşəyə odun yığmağa. Bular iki qardaş heş kəsə demədən atın palanın altına silahı qoyullar, yüklənillər, guya meşəyə odun yığmağa gedillər. Gedif görüllər ki, bular odun yığıllar. Eşşəkxaçı da çox cəngavər adammış. O qədər girvəliyillər, bular çörək yeməyə oturullar. Çörək yeməyə oturanda qəfil buların üsdün alıllar. Eşşəkxaçın da tutullar, uşaxların da tutullar. Üçün də əlin-qolun bağlıyıf gətirillər kəndə. Əmisi uşaxlarını nejə öldürmüşlər buları da heylə öldürüllər. Belinə qaynar sımavar bağlıyıllar, kişinin gözü qabağında uşaxların ikisini də öldürüllər. Öldürülən əmi uşaxlarının bacısı vardı, Erkək Tavat deyirdilər. Kişi kimi xrom sapox geyir, şallax taxır, at minir, silahı da üsdündə. Arvad əmisi oğlannarına deyir ki, hər nə eləmisiz sizin halalız olsun, eşşəkxaçın başın kəsin, onun qanınnan içəjəm. Bunun başını kəsillər, qanınnan iki ovuc içir. Deyilənə görə, Tavat əvvəl göyçək arvad oluf, qanı içənnən sora sifəti dəyişif kişi puturruğu yaranıf. Bu hadisə olur 26-27-ci ildə. Bular bunu öldürənnən sora yetmiş ev yığışır gecəynən Arazdan addıyıllar İrana ki, bu qannan sora Mircəfər Bağırov gəlif bizi qırajax. Anam onda üç yaşında uşağmış. Getmişmiş dayısıgilə, olarnan gəlir Cijimliyə. Bizimkilər İrana addıyanda vaxt tapıf gedif anamı götürə bilmillər. Xəbər yayılır, səhər Mircəfər Bağırov özü gəlif çıxır kəndə. Orda da bir neçə adamı öldürür, tutduğun tutur. Bular da artıx sərhədi addadığınnan onnarı tuta bilmir. Bu hadisədən sora həmin kəndin adını qoyullar Cəfərabad. Mircəfər Bağırov tutulannan sora kəndin adını qoydular Fərəcan. İki ildən sora anamın atası İrannan gəlir ki, qızı aparallar. Hüseyin kişi örüşdə heyvan otarırmış. Onu tapıf deyif ki, get onnara denən mən filankəsəm, uşağı versin aparım. Bu gəlif deyif. Buna da deyiflər ki, uşax hökumətə düşüfdü. Əyər bu qızı versək, bizi tutallar. Müharibə vaxdı gənə gəliflər ki, qızı aparallar. Onda da anam ərə getmişmiş, bir uşağı da varmış. Deyiflər, vəzyət belədi, qız ərə gedif, uşağı da var. Onnan sora qayıdıf gediflər.

**V mətn**

Erkək Tavat bizə gələndə girib yerinə yatanda görürdüm çəkməsinin boğazınnan nəsə çıxartdı qoydu döşəyinin altına, yatdı. Balaca uşağ idim da. Məndə marağ oyanırdı ki, görüm bu nədi. Getdim baxdım, gördüm xançaldı. Tavat gedənnən sora dedim, dədə, o arvatdı, amma niyə belə geyinir, papiros çəkir, çəkməsinin boğazında qılıncı var? Dedi, bala, onun düşməni var, onnan qorxur. Toy vaxdı ermənilər onun qardaşdarını öldürüflər. O, özünə söz verif ki, qardaşdarımın qisasını almıyınca mən aylə qurmujam. Dediyini də yerinə yetirir. Görür dəyirmanda yeddi dənə erməni dən üyüdür. Dədəm and işdi ki, Tavat onun yeddisini də öldürür, yeddisinin də başını kəsənnən sora onun hər birinin qanından bir istəkan içir.

Mircəfər Bağırov hakimiyyətdə olanda ermənilər Erkək Tavatı tutdurullar. Bakının türməsində olanda bir nəfər deyir ki, gəl saa bir köməklik eliyim. Orda da bir erməni zazor varmış, buna çox əzyət verirmiş. Əzyət verəndə bunun yoldaşı deyir, gəl Mircəfər Bağırova bir məktub yaz, bəlkə ürəyi yumuşala səni buraxa. Onda Tavat barmağın deşib qanıynan Mircəfər Bağırova məktub yazıb buna zülm eliyən ermənidən. Bir gün görür erməni arvadın gətirir bunun yanına ki, sən gəl bu işdən əl çək, mənim yoldaşım pis vəzyətdə qalıf, sən Mircəfər Bağırova belə məktub yazmısan. Orda Tavat deyir, yox, sənin yoldaşın maa nə zülüm eliyif onu yazmışam. Onda Mircəfər Bağırov bir kişilik eliyif. Erkək Tavatı çıxarıf türmədən, yanına da bir adam qoşuf. Deyif, bunu aparırsan hansı kəntdən gəlibsə, həmin kəntdə təhvil verisən həmən adamlara, qayıdırsan. Heylə olur türmədən çıxır.

## 137. DOVŞANI ARABA İLƏ TUTMAQ

Ağcabədidə bir qaçax olubdu. Bu qaçax pis xislətdi qaçax olub, xalqa ziyan verən qaçax olub. Harda toy olurmuşsa, keçirmiş hücuma, gəlini qaçırmaq isdiyirmiş. Bunu tuta bilmirmişlər, hər dəfə qaçıb aradan çıxırmış. Buna görə ona Dooşan deyirmişlər. Sovet hakimiyyəti gələndə belə bir plan qurullar. Sistem işçiləri

gəlin paltarı geyillər, guya gəlin aparıllar. Dooşan da gəlini ələ keçirmək üçün arabaya hücum eliyəndə Dooşanı tutullar. O vaxdan xalq arasında qalır ki, şura hökuməti dooşanı arava ilə tutur.

## 138. PADARLI BEHBUD

Bunnan qabax ağ nefti, qara nefti Bakıdan dəvələrə yüklüyürdülər, gətirif kəntlərdə satırdılar. Bir dəsdə gedir Bakıda dəvələri yüklüyür, gəlir çıxır Padara. Eşidir ki, Padarda Behbud addı biri var, çox güjdüdü. Gəlir çıxır xırmana. Dəvələri düşürdür. Deyir ki, mənim nə satdığımı sora bileysiz. Mən eşitmişəm ki, burda Behbud addı biri var, çox güjdüdü. Mən öz vilayətimdə güjdüyəm, Behbud da burda güjdüdü. Mən gəlmişəm Behbudnan güləşəm. Əyər Behbud məni yıxdı, şərtimiz nədi verəjəm. Mən Behbudu yıxdım, şərtim nədi onu alajam. Bu söhbətin içində Behbud da orda olur. Behbud bərk gülür. Deyir, niyə güldün? Deyir, tutalım Behbud mən. Məni yıxa bilərsən? Deyir, canı da alaram, sən kimsən ki? Dəvələrin erkəyinə nər deyillər, dişisinə maya deyillər, heyvərəsinə yurdaqayıdan deyillər, arvana, lök deyillər. Beş nev dəvə var. Behbud baş barmağını diriyir nərin ombasına. Nər də qızıf, ağzınnan köpük tökülür. Deyif, hay elə, dəvən dursun. Deyir, dəvəynən nə işin var? Deyir, görürsən baş barmağımı dirəmişəm dəvənin ombasının üsdünə. Əyər baş barmağımın ağrısınnan dura bildi, Behbudu yıxeysən. Əyər dura bilmədi, çıx get. Dəvə nə qədər laxlanır, laxlanır, qalxa bilmir. Bunu Zaman kişi nağıl eliyirdi. Deyir, indi nədi sözün? Deyir, yox, şərtimiz şərtdi. Gejə qalıf burda Behbudnan güləşməliyəm. Deyir, Behbud mənəm. Dəvən durammadı ki? İndi nədi fikrin? Hava da toran çalır. Dedi, qalıf burda sənnən güləşəjəm, amma bu şərtnən: mən harda qalsam maa xəyanət olmasın. Behbud deyir ki, səni heş kimə vermərəm, qalessən bizdə. Özü də sənnən daqavor bağlıyajam, nə sən yatmıyessən, nə mən. Mənim yediyim yeməyi sənin qabağına qoyajaxlar, sənkin də mənim qabağıma ki, birdən zəhər tökəllər. Səhər güləşejeyih. Ya sən məni yıxarsan qalib olarsan, ya mən səni. And içirdi Zaman kişi ki, güləşdilər. Torpax xırmandı, dizdərini

dirədilər yerə, sürünə-sürünə gedillər ora, gəlillər bura, nə bu onu yıxa bilir, nə o bunu. Axırda Behbud bir nərə çəkdi, dəvə yiyəsini qaldırdı qəlbiyə. Dedi ki, səni atım, yoxsa yavaşca qoyum yerə. Dedi, yox, da bildim ki, sən mənnən güjdüsən.

## 139. ERKƏK SƏFƏR

Bizdə Erkək Səfər vardı. Tökmə kişi idi, boynu qısıx. Bunnan irəli barama saxlamaq üçün tut şaxı yığırdılar, ona künal deyirdilər. Qurt yarpağı yeyənnən sora şaxını təndirə töküb çörək bişirirdilər. Tut şaxını yığıblar evin qabağına. Abbasqulu kişi də oğluna toy eliyir. Erkək Səfər gəldi. Köynəyi olmazdı, iri qarnı vardı. Bu gəldi girdi toyun içinə. Ağzın köpük basıb. Hərrənir, ay maa qənim, ay maa qənim. Xannar da cavan adamdı. Bu belə hərrənəndə Xannar sıçradı dedi, saa qənim mən. Dedi, ə, yeri get, uşax-muşax yeri deyil bura. Dedi, əşi, sənin nə işinə qalıb? Bu hərrəndi gəldi bunu çiyninnən vurdu, hərrəndi gəldi bunu çiyninnən vurdu. Mən də qanıram da, yekə uşağam. Yerdən deyirdilər ki, Erkək Səfər Xannarı öldürəjək. Xannar boynunnan, qılçasınnan nətər qapdısa, Erkək Səfərin başın soxdu həmin künal topasının içinə. Qızıl qan götürdü bunu. Endi Paşa kişinin evinin yanında özünü saldı arxın içinə, qanını yudu.

## 140. DÜNYAMALI

### I mətn

Əliquluuşağı kəndində Hümbət və Dünyamalıdan güclü adam yox idi. Bir dəfə Dünyamalı oğurluğa gedir. Hər yer qarla örtülü imiş. Dünyamalı iki yaşar töngənin ayaqlarını bağlayıb boynuna götürür, kəndə gəlir. Yolda su içməli olur. Əyilib su içəndə töngənin ayaqlarının izi qarın üstünə düşür. Səhərisi töngənin yiyəsi izə düşür və suyun qırağında töngənin izini görür. Fikirrəşir ki, töngəni Dünyamalı aparmış olar. Düz onun qapısına gəlir. Dünyamalını çağırır, deyir:

– Dünyamalı, bilirəm cöngəni sən gətirmisən, amma bulağın yanından başqa heç bir yerdə izi yoxdur. Düzünü de, cöngəni necə gətirmisən? Düzünü desən cöngəni sənə halal eliyərəm.

Dünyamalı çəkinmədən cöngəni necə gətirməyini danışır. Cöngə yiyəsi "halalın olsun" deyib qayıdır gedir.

### II mətn

Kənddə Mahmud adlı bir oğlanın toyu imiş. Sisiyan rayonundan bir pəhləvan kəndə toya gəlir. Cəngi havasını çaldırıb ortaya düşür, döşünə döyə-döyə "ay mənə qənim" deyərək ortalıqda cövlan edir. Heç kim qabağa çıxmır. Bu vəziyyəti görən Dünyamalı gözünü meydana dolandırıb "sənə qənim mən" deyərək ortalığa girir.

Pəhləvanlarda belə bir qayda varmış. Bir-birilərinə güclərini bildirmək üçün çiyin-çiyinə vurarmışlar. Bunlar da çiyin vururlar. Pəhləvan Dünyamalının çox güclü olduğunu başa düşür və astadan deyir:

– Mən pəhləvanam, hər yerdə məni pəhləvan kimi tanıyırlar, sən allah, məni yıxıb biabır eləmə!

Dünyamalı xahişi nəzərə alıb deyir:

– Arxayın ol, səni yerə yıxmayacağam.

Güləş başlayır, hər ikisi bir-birinə hərbə-zorba gəlirlər. Əvvəlcə pəhləvan cəhd edir, lakin Dünyamalını yerindən tərpədə bilmir. Növbə Dünyamalıya çatanda əl atıb onu götürüb başının üstünə qaldırır və tez də yerə qoyub deyir:

– Mən sözümün üstündə durdum, səni yerə yıxmadım.

Hamı əl çalır. Pəhləvan kənddən çıxır və bir də o kəndə üzükmür[28].

---

[28] üzükmür – o tərəfə qayıtmır, gəlmir.

## MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR

### 141. ALLAH MƏNİ XİLAS EDƏCƏK

İki nəfər çayda çimirmiş. Biri boğulmağa başdıyır. Dosdu əlini uzadır ki, gəl səni xilas eliyim. Boğulan heç vəcnən razılaşmır. Deyir, Allahım məni xilas eliyəcəh. Elə bu dəmdə böyük bir sal yaxınlaşır. Sal çəkən qışqırır ki, gəl min sala, səni çıxarım sahilə.

Deyir:

– Yox! Məni Allahım xilas eliyəcəh.

Son nəfəsində bir təknə yaxınlaşır. Təknənin içindəkilər nə qədər yalvarırlar, onu təknəyə qaldıra bilmillər. Yenə deyir, yox. Allahım məni xilas eliyəcəh.

Nə isə, bu minvalla canın tapşırır. Cəsədi düşür suyun dibinə. Ruhu gedir Allahın dərgahına. Boğulan Allahdan soruşur:

– Ya rəbbim, mənə neçə dəfə kömək etmək istədilər, ancaq mən rədd elədim, dedim Allahım mənə köməy eliyəcək. Bəs onda mənə niyə köməy eləmədin?

Allah deyir:

– Ya bəndəm, bir dəfə dosdunu göndərdim sənə köməyə, sən onu rədd etdin. İkinci dəfə səni xilas etməyə sal göndərdim, onu da rədd etdin. Üçüncü dəfə təknə göndərdim, onu da rədd etdin. Mən özümmü gəlməliydim səni xilas etməyə? Bəs bu göndərdiklərim mənim köməyim deyildimi?

### 142. SƏN DEDİYİNDƏ DURMADIN

Bir kişinin bir sürü qoyunu varmış, dağa aparırmış. Bizim yazı düzdəri var, dəmyə torpaxlardı, taxıl əkilirdi orda. Yazı düzündə bir pir varmış. Qoyunu döndərir pirin yanında yatızdırır, özü də çörək yeyir, bir az uzanır. İsti savışannan sora qara yel qalxanda durur qoyunun qabağın çəkir dağa. Duranda niyyət eliyir. Deyir, ay pirin sahıbı, mən qoyunu aparım dağda iki-üç ay hərriyim sağ-salamat gətirim, burdan keçəndə boz kərə erkəyi sənin üsdündə

qurban kəsəjəm. Niyyət eliyir, qoyunun qabağın çəkir, fıştırığın qaldırır yavaş-yavaş yaylağa. Üş-dörd günə gedir çatır yaylağa. Yaylağa çatan gün sel-su, külək-cavğın sürünü aparır, çoban da girir daşın altına birtəri salamat qalır. Sel yavaşıyannan sora çıxır ki, qoyun nə gəzir, hamısı qırılıf. Nəzir dediyi boz kərə toğlu suyun içində bir daşın divində somuduf duruf. Gözdüyür, su sakitdiyənnən sora toğlunu çəkib çıxarır. Da bir toğludan ötrü dağda qalası deyil ki. Durur kor-peşman toğlunu da qatır qabağına gəlir. Pirin yanınnan keçəndə yadına düşür ki, axı bunu pirə nəzir demişdi. Toğlunu burda kəsir bir az bişirir, yeyir yemir bilmirəm, qalanın da yığır xurcuna atır çiyninə. Duranda deyir ki, ay pirin sahıbı, bu mənim kişiliyim, bu da sənin kişiliyin. Mən dediyimi elədim, amma sən dediyində durmadın.

## 143. ALLAHDAN İSTƏYƏN KİŞİ

Bir kişi gəlif günorta çörəyini yeyir. Hədinnən artıx zəngin bir kişidi. Günorta yeməyini yeyir, duruf gedəndə deyir məscitdə iki rüktə namaz qılım gedim iş yerinə. Keçir iki rükət namaz qılanda görür bir nəfər qabaxda duruf, əlin tutuf haqqın dərgahına yalvarır:

– Pərvərdigara, bir ruzu yetir mən borcumu ödüyüm. Sənnən başqa mənim bir kəsim yoxdu ki, onnan isdiyim. Hər şeyi sən vermisən. Bu borcu da almışam, ödüyə bilmirəm.

İki rükət namazın qılır, dua eliyir. Duasın qutarıf gələndə deyir:

– Qardaş, sənin nə qədər borcun var?

Deyir:

– Beş min manat borcum var.

Çıxardır cibinnən beş min manat sayıf verir, deyir, ala. Bir də çıxardır vizit kartıçkasını verir, deyir:

– Bunu ala, xayiş eliyirəm sənnən, sənin kimi halal insan az görmüşəm. Mən belə yox, belə zəngin insanam. Varım-döölətim, mağazinərim, restorannarım. Səni and verirəm Allaha, nə vaxdı nəyə ehtiyacın oldu gəl mənim yanıma. Elə bil özünündü.

Beş min manatı alır qoyur civinə, vizitkasın qaytarır özünə. Deyir:

– Niyə qaytardın?

Deyir:

– Mən bunu sənnən alsam, artıq o kişi yaddan çıxajax, sənin yanına gələjəm. Gənə mənə lazım olanda gəlif Allahdan isdiyəjəm, Allah da sənin kimisin göndərəjəh verəjəhdi mənə.

Bu elə-belə misal deyil, insannara dərsdi. O vizitkanı götürseydi sabahları gəlif məscitdə Allaha yalvarmıyajeydi, gedif həmin adama ağız açajaydı. Allahdan üz döndərif bəndəni tutajaydı.

## 144. HƏRƏNİN ÖZ QİSMƏTİ VAR

Bir gün də iki yoldaş çıxıllar yola, qazaşdan ötrü gedillər. Biri yoldan yarımçıx qayıdır, o birsi gedir. Yoldan qayıdan Kürün qırağında durmuşmuş. Görür canavar bir dəsdə qoyunu Arazın o tayınnan vurdu, qoyun hamısı keşdi bu taya. Qoyunu yığır gətirir qapıya. Oturmuşmuş küçədə, baxır görür it gedir, itin ağzında bir torba var. İti qavır. Qavanda torba düşür. Torbanı götürür ki, bunun içi teyxa qızıldı. İşdəməyə gedən əliboş gəlif, heş bir şey gətirmiyif. Gəlif görür ki, yoldan qayıdanın cahı-cəlalı başınnan aşır. Deyir:

– Qardaş, axı mən səni aj qoyuf getmişdim.

Deyir:

– Bilirsən nə var, Allah-taala kişiyə vermək isdiyəndə qurt da ona verir, it də verir. Hərənin öz qisməti var.

## 145. GÜDUL ADAM

Deyilənə görə, bir kişi yol gedirmiş. Görür ki, yolun qırağında bir güdul[29] adam var. Güdul adamın nə qolları, nə də qıçdarı olur. Başdı, bir də bədəndi. Güdul deyif, hara gedirsən? Deyir, vallah bu kasıfçılıxdan canım yığılıf boğaza. Gedirəm qurban olduğumun

---

[29] güdul – xəstə, heş nəyə müqaviməti olmayan adam

yanına, görüm havaxt ruzu bəxş eliyəjəh maa, kasıfçılıxdan havaxt canım qutarajeh. Güdul deyir ki, sən Allah, gedirsənsə, mənim də dərdimi de. De ki, bəs mən yolun qırağında qalmışam, heş kəsə lazım deyiləm. Mənim canımı alsın da, özü yaradıf.

Nəysə, bu gedir kəlmələşməyə. Öz dərdini deyir, sora Güdulun dərdini deyir. Qurban olduğumun da mələhləri var, deyilən sözü qəbul eliyəni var. Deyir ki, bəs yolun qırağında belə bir adam var idi. Deyir ki, qurban olduğum məni nə məqsədə yaradıf? Məni öldürsün canım qutarsın, qalmışam yolun qırağında. Belə dəəndə qurban olduğum deyir ki, get denən ki, onu bir məqsəd üçün yaratmışam. Cəhənnəmdə bir deşih var, onu ora tıxac düzəltmişəm. Kişi gəlif bunu Güdula dəəndə deyir ki, sənin varlığına min şükür Allah. Mən elə bilirdim ki, məni məqsədsiz şəkildə yaratmısan. Heş deməynən mən də bir şeyə lazım olaram. Min şükür sənin varlığına. Min şükür dəənnən sora qurban olduğum Güdulun qolunu, qılçasını bərpa edif, qoşuf camahata.

## 146. ÖZGƏYƏ QUYU QAZAN ÖZÜ DÜŞƏR

Hansısa peyğəmbərlərimizdən birinin əhali içərisində hörməti çox imiş də. Bunun paxıllığın çəkillər da. Niyə o nə deyir hamı yerinə yetirir?

Bir nəfər şeytan adam olur. Deyir ki, peyğəmbəri qonax çağıracam. Özü də quyu qazdırır ki, peyğəmbər gələndə düşsün bu quyuya, ölsün də. Nəysə, kişi peyğəmbəri qonax çağırır. Peyğəmbər yatır, yuxuda vəh gəlir ki, səni öldürəcəhlər da. Getmə qonax, o kişi saa quyu qazıf ki, düşəsən ora.

Nəysə, peyğəmbər durur yuxudan səhər-səhər. Öz adamlarına deyir ki, gedin bağın filan yerində bir böyüh quyu qazın. Onun böyüh bağı olur da. Quyunu qazıllar. Deyir ki, quyunun üsdünü şax-şəvəllə örtün. Peyğəmbər dediyi kimi, eliyillər. Peyğəmbər tez bir adam göndərir kişinin yanına, deyir ki, tez gəl da məni apar qonaxlığa.

Bu adam gəlir ki, hə, peyğəmbəri aparacax da öldürməyə. Kişi gəlir peyğəmbəri aparmağa. Gələndə həmən ordan – şax-şəvəllə

örtülmüş yerdən keçəndə, axı ora quyudu, yıxılır quyuya. Nəysə, kişi quyuya düşür. Peyğəmbər gəlir. Kişi peyğəmbərə deyir ki, maa kömək elə, məni bırdan çıxart. Peyğəmbər deyir ki, sən məni quyuya salsaydın çıxarajeydin? Kişi deyir:

– Heş mən səni quyuya salmazdım axı.

Peyğəmbər deyir:

–Yox, həyətdə filan yerdə quyu qazdırmışdın ki, mən sizə gələndə düşüm o quyuya. De görüm, məni çıxarajeydin ordan?

Kişi deyir:

– Sözün açığı yox, çıxartmıyajeydim.

Peyğəmbər deyir:

– Ama mən səni çıxarıram ki, biləsən, özgüyə quyu qazan özü düşər.

## 147. İCAZƏSİZ ADDIM ATMAQ CƏHƏNNƏMLİKDİR

Bir nəfər arvad varıymış, gedir peyğəmbərin yanına. Gedir ki, onnan məsləhət alsın da, nəysə işi varıymış da. Qadın gedir peyğəmbərin qapısını döyür. Görür ki, içəridən səs gəlir. Soruşullar ki, kimdi gələn? Deyir ki, bəs filankəsəm da mən. Peyğəmbər evdədi? Gəlmişəm onnan məsləhat alam. Deyir ki, yox, evdə yoxdu.

Deyir:

– Heç olmasa qapını aç girim içəri da.

Deyir:

– Yox, qapını aça bilmərəm, səni içəri buraxa bilmərəm da.

Bı qayıdır çıxır gedir.

Nəysə, peyğəmbər evə gəlir. Arvadı deyir ki, bəs belə-belə da, filankəs gəlmişdi sənnən məslahat ala da. Sənnən icazə almadığıma görə həmən adamı içəri buraxmadım. Olar-olmaz, bilmədim da. Ona görə də içəri qoymadım. Peyğəmbər deyir ki, yox, gələn dəfə gələndə içəri dəvət elə, qapıda saxlama.

Nəysə, bir dəfə də peyğəmbər evdə olmuyanda, bı qadın genə gəlir. Qapını döyür. Peyğəmbərin arvadı deyir ki, nə lazımdı?

Arvad deyir ki, bəs filankəsdi da, dünən gəlmişdim. Peyğəmbərin arvadı deyir ki, peyğəmbər evdə yoxdu.

Deyir:

– Qapını aç, gəlim da içəri.

Peyğəmbərin arvadı deyir:

– İndi kimnən gəlmisən?

Deyir:

– Oğlumnan gəlmişəm.

İçəridən arvad deyir ki, bağışla da məni. Mən ərimdən soruşmamışam ki, adamnan gəlsə, içəri buraxım? Mən tək sənə icazə almışdım. Sən amma indi oğlunnan gəlmisən. Oğlunnan içəri girmənizə icazə istəməmişəm.

Qadın genə qayıdıf gedir. Peyğəmbər evə gələndə arvadınnan soruşur ki, qadını evə buraxdın? Deyir ki, yox.

Deyir:

– Bəs niyə buraxmadın?

Deyir:

– O oğluynan gəlmişdi, mən də ona görə buraxmadım. Axı sənnən soruşmamışdım oğluynan gəlsə, içəri buraxım, ya yox?

Peyğəmbər deyir ki, oğluynan da gəlsə, burax içəri.

Bu arvad səhərisi balaca qızıynan gəlir. Qapını döyəndə, peyğəmbərin arvadı soruşur ki, indi kimnənsən?

Deyir:

– Oğlumu da gətmişəm, qızımı da.

Arvad deyir:

– Bağışla da, bı dəfə də qapını aça bilmərəm saa.

Qapını açmır bına. Gedillər. Peyğəmbər gəlib soruşur:

– O qadına qapını açdın?

Arvadı deyir ki, yox, bı dəfə də qızını gətirmişdi. Qızını sənnən soruşmamışam axı, qapını açım açmıyım. Peyğəmbər deyir:

– Hə, onda sabah o kimnən gəlsə, aç qapını qoy gəlsin.

Nəysə, həmən arvadgil bir də qapını döyür. Peyğəmbərin arvadı onnarı içəri bıraxır. Şor-çörəh qoyuf, yeyillər, içillər. Gələn arvad sual verir ki, bəs sən niyə hər gün məni qaytarırdın da? Pey-

ğəmbərin arvadı deyir ki, bəs sən eşitməmisən cənnət, cəhənnəm məsələsini?

Deyir:

– Hə, eşitmişəm.

Deyir:

– Cənnətə düşən qadınnar hansılardı, cəhənnəmə düşən qadınnar hansılardı?

Arvad deyir:

– Bilmirəm, mən nə bilim hansılardı?

Deyir:

– Yox, cənnətin ən gözəl yerini bilirsən hansı qadınnara verillər? O qadınnara verillər ki, ərinnən icazəsiz bir söz də danışmır, addım da atmır. Mən ərimnən tək sənə icazə aldım. Sora sən oğlunnan gəldin. Oğla icazə aldım onu içəri buraxmax üçün. Sora sən qızınnan gəldin. Mən ərimə dedim, icazə verdi ki, kimnən gəlir gəlsin, içəri burax. Bu gün ona görə səni içəri buraxdım. Mən ərimnən icazəsiz heş bir addım atmamışam. Bax, belə qadınnarın yeri cənnətdi.

## 148. RUHUN İNCİMƏSİ

Bir arvad varıymış. Arvadın oğlu cavan ölür. Aparıf oğlunu basdırıf gəlillər. And içir ki, qırx gün nə çay içəcəm, nə su içəcəm, nə də çörəy yeyəcəm. Heş nə eləmiyəcəm. Yandığınnan elə eliyir da. Yeddi gün bu cür eliyir. Oğlunun yeddisi olan günü dözəmmir da arvad. Gedir bir tikə çörək götürür. Camahatın yanında söz verdiyinə görə arına gəlir da yesin. Çörəyi götürüf arasına halva çəkir, gedir samannığa. Samannıxda gizdin başdıyır bını yeməyə. Yeyir da doyunca. Sora deyir ki, ay bala, keç da günahımdan. Arvad gəlir yatır. Yuxuda görür ki, oğlu gəlif deyir, ay ana, neçə gündü məə dualar oxunur, ehsan verilir. Amma o samannıxdakı çörəh canıma yağ kimi yayıldı. İndi elə rahat olmuşam ki. Arvad aj qaldığına bının ruhu inciyirmiş. Ona göra da ruhu incitmək olmaz.

## 149. ALLAHIN ŞÜKÜRSÜZ BƏNDƏSİ

Bir kişi səhraynan yol gedirmiş. Gedəndə görür ki, bir nəfər qumun içində basdırılıf, bircə başı görsənir. Bı kişi yaxınnaşıf həmən adama deyif ki, səni niyə belə basdırıflar? Deyir, neyniyim? Allah-taala mənə heş nə vermiyif, bu günə qoyuf da Allah məni. Paltarım yoxdu. Basdırmışam ki, heç haram görsənməsin. Kişi ona deyir ki, şükür elə. Şükür Allahın bu gününə. Quma basdırılan kişinin acığı tutur həmən kişiyə. Deyir ki:

– Ə, nə şükür eliyim. Deyirəm, əynim-başım yoxdu. Sən də deyirsən ki, şükür elə Allahın bu gününə.

Kişi qumdakı adama deyir:

– Mənim əynimdə bircə dənə köynəh var da. Mən bu köynəyə görə gündə min dəfə Allaha şükür eliyirəm ki, yaxşı ki bu köynəyi Allah maa verif. Sən də şükür elə Allaha. Şükür elə, Allah saa da bəlkə nazih bir köynəh verə.

Özü də qış günüymüş da. Qumdakı deyir:

– Mən şükür eləmirəm. Nəyə şükür eliyirəm? Allah versəydi, verərdi da. Neçə ildi ki, qalmışam bu qumun altında.

Bu kişi başını bılıyıf, yoluna davam eliyif gedir.

Bir də gördü ki, güjdü bir tufan əsdi. Çönüf arxıya baxıf, görür ki, küləh nətər əsirsə, bu kişinin üstünnən qumu götürüf gedir, kişi qalıf qışqıra-qışqıra. Yanı mənə lağ eliyəcəhlər da, ayıfdı. Gedən kişi qayıdanda qumdan çıxan kişinin yanına gəlir. Çılpax qalmış kişi deyir ki, görürsən, sən də deyirsən ki, Allaha şükür elə. Nəyə şükür eliyim, bıdı. Qumu da əlimnən aldı.

Deyir:

– Sən elə Allaha şükür eləmədin ki, qumu əlinnən aldı. Şükür eliyeydin, Allah qumu saa vermişdi ki, ayıbı gizdiyəsən, nəyinki bu vəzyətə düşəsən. Sən Allahın şükürsüz bəndəsisən. Ona göra qumu sənnən aldı.

## 150. SEVGİ-MƏHƏBBƏT BAZARLIĞI

Bir cavan oğlan gedir bir qız alır gətirir. Nəysə, iki-üç günnən sora oğlan geyinir-keçinir gedir. Gedəndə arvadına deyir ki, gələndə nə alım gətirim? Qız fikirrəşir, deyir ki, gələndə sevgi-məhəbbət al gətir. O biri qapıdan çıxanda anası çıxır qabağına. Oğlan deyir ki, ana, gələndə nə alım gətirim? Anası deyir ki, bala, xeyir-bərəkət al gətir. Atası çıxır qabağına. Deyir ki, ata, saa gələndə nə alım gətirim? Atası deyir ki, əmin-amannıx al gətir. Oğlan durur gedir. Axşam tərəfi qayıdanda görür ki, yolda üç kişi oturuf. Salam verif onnara. Birinə deyir ki, sənin adın nədi? Deyir ki, mənim adım sevgi-məhəbbətdi. Mənim bu qarşımdakı əşyadan alsan, sənin sevgi-məhəbbətin böyük olacax. O birisi kişiyə deyir ki, bəs sənin adın nədi? Deyir ki, mənim adım xeyir-bərəkətdi. Qarşımdakı əşyadan alsan, sən xeyir-bərəkət aparassan. O birisi kişiyə deyir ki, bəs sənin adın nədi? Deyir ki, mənim adım əmin-amannıxdı. Bu əşyadan alsan, əmin-amannıx aparassan. Oğlan fikirrəşir deyir ki, ay allah, arvadım dediyini alsam, onnar inciyər. Onnar dediyini alsam yoldaşım inciyəcəh. Çox fikirrəşənnən sora deyir ki, əşi, sevgi-məhəbbət alacam, aparacam. Nə olar, olar. “Allah, Məhəmməd, ya Əli” – deyif pulunu verif gedif onun qabağındakı əşyadan alır, götürür gedir. Yola düzələndə baxıf görür ki, bu kişilərin ikisi də hərəsi satdığı əşyadan bir əz götürüf bının dalınca gəlillər. Oğlan deyir ki, a kişi, mən ta aldım. Onnardan almıram, alıf neynirəm ki. Deyillər ki, sən elə bir şey aldın ki, sən aldığın şeyi götürüf gedənnən sora bu ikisi də onun dalınca gələcəh. Sevgi-məhəbbət, istəh olannan sora, xeyir-bərəkət də olur, əmin-amannıx da olur. Hamısı onun yanındadı.

## 151. AĞACLA BAĞLI XEYİR-DUA

Bir gün bir kişi günün istisində yolnan gedirmiş. Həm yorulur, həm susuyur, həm inciyir. Deyir, ay Allah, bircə kölgə yer tapsaydım, su ola içəm, heç olmasa dincələm. Gedir çatır bir ağaca.

Baxır ki, bu ağacın dibinnən də bulax çıxır, su axır. Burda əl-üzünü yuyur, sərinniyir, dincəlir. Bir az yatır, duruf gedəndə belə baxır deyir ki, ay ağac, saa mən nə arzuluyum? Yorğunnuğum çıxdı, dincəldim, sərinnədim. Gedirəm. Mən saa nə arzuluyum? Fikirrəşir deyir ki, desəm ki, səni qollu budaxlı olasan, onsuz da qollu budaxlıdı. Desəm ki, dibinnən su axsın, onsuz da su axır. Desəm ki, həmişəyaşıl olasan, onsuz da yaşıldı. Mən buna nə arzuluyum? Xeyli fikirrəşənnən sora deyir ki, ay ağac, arzum bıdı ki, sənin köklərin bu torpağın elə dərinliyinə getsin, heç bir tufan, heç bir şaxta, heç bir küləh səni yerinnən qopara bilməsin. Həmməşə belə qalasan. Deyir, durur çıxır gedir.

Qızım, indi sən bının mənasına bax. Hər bir insanın, hər bir xalqın kökü o torpağa nə cür bağlanırsa, nə qədər qatillər gələ, nə bilim nə gələ onu aşıra bilməz.

## 152. ÖMÜR SUYU

Bir günnəri bir qoca yol gedirmiş. Gedif görüf bir təpə var. Təpədə bir qapı var. Bı rəvayətdi ha. Analıx-oğul münasibətini nəzərdə tutur. Gedir qapıdan girir içəri. Görür ki, bırda küpələr var. Küpələrdəki sudu. Bıra gəlif-gedənnərdən soruşur ki, bı nə suyudu belə? Eləsi var yarımçıxdı, eləsi var doluf daşır. Camahat deyir ki, bı insannarın ömür suyudu. Qoca deyir ki, indi görəsən mənim də ömür suyum bırdadı? Bırda olan bir şəxs gedir bir küpəni göstərir. Amma küpədə bir damcı su var. Deyir:

– Bı görəsən, kimin suydu, lap qutarıf? Qutaran kimi öləcəh.

Yanında duran deyir ki, o sənin ömür suyundu. Sora deyir ki, aşıf-daşan kimin suyudu? Deyir, bəs sənin oğlunun ömür suyudu. Arvad fikirrəşir ki, mən nətər eliyim bu sudan töküm öz suyumun üsdünə, mən də bir əz çox yaşıyım. Can şirin şeydi axı. Bunu bırda qoyana agahdır onsuz da. Arvad bının gözünnən yayınıf həmən o daşıf-tökülən, yəni oğlunun küpəsinnən suyu götürüf tökür öz suyunun üsdünə. Deyir, bir az mənim suyum çox olsun. Bı da ananın oğluna məhəbbətinə gəlir. Nə qədər oğluna məhəbbəti olsa da, yenə

də canı hər şeydən üstün tutuf. Oğlunun ömür suyunnan tökür öz ömür suyuna. Can şirin şeydir axı. Deyir ki, mən də bir əz yaşıyım.

## 153. ATA MƏSLƏHƏTİ

Bir ata olur. Oğluna deyir ki, oğul, mənnən saa əmanət. Yağışlı gündə at bəyənmə, küləhli gündə qoyun bəyənmə, toyda qız bəyənmə. Ona görə ki, qızdar özdərini gözəlləşdirif gedillər toya. Qoyun da nə qədər arıq olsa da, yunnu qoyunu küləh elə ki, vurmır, belə qabarcıx gösdərir, arıxlığı bilinmir. At da yağış yağanda şumal, qəşəh görünür. Bala, yanı belə vaxtı bınnarın hamısı aldadıcı olur.

## 154. XƏSİS KİŞİ

Rəvayətə görə, keçmiş zəmanədə bir varlı kişi varmış. Bu kişinin varı-dövləti hamınınkından çox imiş və çoxlu naibi-nökəri, qulluqçuları varmış. Günlərin bir günündə gözünün ağı-qarası olan oğlu yıxılır və uşağın qolu-qılçası sınır. Uşağı sınıqçının yanına aparır. Sınıqçı uşağa baxır, sınıqları bağlayır və uşağın atasına deyir:

– Uşaq çoxlu baş-ayaq yeməlidi.

Bu varlı kişinin qoyun sürülərinin ucu-bucağı görünmürdü. Kişi tərəddüd etmədən, fikirləşmədən atını minib yaxınlıqdakı şəhərin bazarına gedir. Orada deyirlər ki, o biri şəhərin bazarında baş-ayaq burdakından ucuzdur. Kişi atını minib həmin şəhərə gedir və yol meşəlikdən keçirmiş. Yolda görür ki, bir adam bir uşaq aparır və uşaq ağlayıb özünü öldürür ki, məni bu kişinin əlindən al. Kişi acgöz olsa da, ürəyi yumuşaq imiş. Kişi həmin adamla vuruşur və uşağı onun əlindən alır, atın tərkinə alıb yoluna düzəlir. Yolda uşaq kişiyə deyir ki, mən Cinlər padşahının oğluyam. Sən məni atamın yanına apar. Mən atamın yeganə oğluyam, atam səni dünya malı ilə qəni edəcəkdir. Kişi atını Cinlər padşahının sarayına sürür. Padşahın sarayında padşahdan başqa nə qədər adam vardısa, hamısı meşəyə uşağı axtarmağa getmişdilər. Padşah oğlunu görüb çox sevinir, uşağı qucaqlayıb öpür. Yolda uşaq demişdi ki, atam sənə çoxlu mal-mülk təklif edəcəkdir. Ancaq sən öz malının ixtiyarının

özünə qaytarılmasını ondan istəyərsən. Cinlər padşahı oğlunu sağ-salam görüb, üzünü kişiyə tutub deyir:

– Oğlumu quldurun əlindən sağ-salamat alıb gətirdiyin üçün məndən nə isdəyirsən de. Səni dünya malı ilə qəne edəcəyəm.

Uşağın yolda dediyi sözlər kişinin yadına düşür. Kişi fikirləşmədən deyir:

– Padşah sağ olsun, mən səndən nə mal-dövlət, nə də dünya malı istəyirəm, mən səndən öz mal-dövlətimin ixtiyarını özümə qaytarmağını istəyirəm.

Cinlər padşahı çox qəmlənib pərişan olur və üzünü ona tutub deyir:

– Sən məni çox çətin bir işə saldın, yəni var-dövlətinin ixtiyarının özünə qaytarılmasını istəyirsən. Bu çox çətin bir məsələdi. Ona görə çətindi ki, sənin bütün mal-dövlətini mən arvadımla kəbin kəsdirərkən, onun kəbin başlığına yazdırmışam. Ancaq nə etməli, sən mənim yeganə oğlumu quldurun əlindən xilas etmisən. Ona görə də sənin mal-dövlətinin ixtiyarını özünə qaytarıram və Sarıtəpə kəndində yaşayan Mehdiqulu xanın var-dövlətinin bir hissəsini və qoyun sürüsünün yarısını da sənin mal-dövlətinin yerinə yazdırıram. İndi isə get öz var-dövlətinə sahib ol.

Kişi razılıq edib yola çıxır, bir qədər getdikdən sonra hiss edir ki, arxada nə isə atılıb-düşür, səs eliyir. Kişi qayıdıb geriyə baxır ki, üç-dörd şəhərə gedib ucuz aldığı qoyun baş-ayaqlarıdı. Kişi atın tərkində ikən xurcunun içində olan baş-ayağı xurcundan çıxarır və qəlbi yerdə bir-bir dərəyə tullayıb deyir:

– Mənim qoyun sürülərimin sayı-hesabı yoxdur, sürülərimi yer-yurd tutmur, mən isə ucuz baş-ayaq almaq üçün neçə bazar və şəhər gəzib dolaşmışam.

Sonra atını minib birbaşa evinə sürür. Çatan kimi nökəri çağırır və deyir:

– Get sürüdən ən böyük qara diş[30] erkəklərdən birini gətir, kəs, ətini özünüz yeyin, baş-ayağını bişirin aparıb oğluma yedizdirin.

---

[30] qara diş – üç-dörd illik erkəyə deyilir.

O gündən malının sahibi olan bu adam kənddə olan kasıblara köməklik etməyə başlayır. Malı-heyvanı, qoyun-quzusu olmayanlara mal-heyvan, qoyun-quzu paylayır. Hamı ilə yumuşaq rəftar edir, nökərlərə öz övladı kimi baxır.

## 155. KÖŞƏ BOYDA YER

Bir erməni bizdə ev polluyurdu. Seçki gedirdi. Mamamın[31] yoldaşı çağırdı ki, ə köşə, gəl gedəh seçkiyə. Deyəndə bu erməni necə dəli olasan, helə oddandı. Kişi çıxdı getdi seçkiyə. Erməniyə dedim ki, niyə ajığın tutdu, o nə sözdü, nə mənası var onun? Dedi, ərə, sən bilməzsən onu. Sora bu kişi seçkidən qayıdanda getdim dedim ki, Avdıkərim müəllim, o nə söz idi sən ona dedin, erməni özündə döyül? Dedi ki, bir erməni Kolanı kəndində İldırım bəyin yanına gəlif. Deyir ki, ay bəy, mənə köşə boyda yer ver, mən də orda əkin-biçin eliyim da. Çarıx tikilən şeyə köşə deyillər da. Bəy də fikirrəşif ki, bu köşə nə boyda olajax ki? Kəndxudanı çağırır ki, bu erməniyə köşə boyda yer ver. Erməni də gedir bir malın gönünü düyünü olmadan köşə çəkir. Kəndxuda baxır ki, çox böyük çıxdı dana. Gəlif bəyin yanına. Deyir, ay bəy, gedif yumax boyda köşəni gətirif dörd hektar, beş hektar yeri köşəyə vurdu. Deyir, ə, Allah bunnarın toxumun kəssin, da ağzımnan çıxıf, sözümü yeyə bilmərəm. Ermənilər o vaxdan gəliflər ora.

## 156. GƏLMƏDİN

Əmioğlu əmiqızı bir birinə aşiq olur. Qız bəy qızı imiş, oğlan da bəy oğlu imiş. Aranda imişdər. Onda da arana-dağa köçürmüşdər. Oğlan qıza deyir ki, sən köç, mən də gələjəm. Qız köçür, gedir yaylaxda üç ay yaylanır, oğlan gəlif çıxmır. Qız götürüf orda bir şeir yazır. Deyir:

Əmim oğlu, heş mənnən utanmadın,
Üç ay keşdi bir yaylağa gəlmədin.

[31] mama – bibi

Yüz min cəfa ilə köç eylədim mən
Ordan yendim Ağbulağa, gəlmədin.

Demədin dağdadı bir sərvinazın,
Bir bəyaz buxovlu, mərmər boğazlın,
Bir şahı şonqarlı şahı şahbazın,
Bağlandın arana, dağa gəlmədin.

Mənim adım Həmayildi həmayə,
Sinəm oxşar həm ulduza, həm ayə,
Axırda sən zəhmətimi verdin vaya,
Bağlandın arana, dağa gəlmədin.
Məşğul oldun kef-damağa, gəlmədin.

# 1918-Cİ İL HADİSƏLƏRİ XATİRƏLƏRDƏ

## I mətn

Bınnarı maa yüz beş yaşdı xalam danışıf. Yazıx xalam deyirdi ki, bala, Nooruz bayramı günü idi. Bizim kəndin qabağında bir təpə varıydı, adına Qılınc təpə deyirdilər. Bizim Hacılının qabağında idi. Özü də çox hündürüydü. Bınnarı, qızım, xalam deyirdi. Xalam deyirdi ki, gördüh ki, orda boz ata miniflər, ora gedillər, belə gedillər. Həə, deyirdi ki, Nooruz bayramıydı da. Hamı yeməh bişimişdi. Deyir, onda gördüh ki, həmən boz atlılar başdadılar gülləbaran etməyə bizi.

Bala, xalam iyirminci əsrin əvvəllərinnən danışırdı ha. Həə, xalam deyirdi ki, hər şeyimiz ojax üstündə qaldı. Sora deyir, kəntdən qaşdıx. Bizim kəndnən Qubatdı üz-üzə idi axı. Deyir, getdih Qərənəf kahası vardı, onun qabağıynan endih, çayı keşdih. Mahmudlu kəndinin yanında Qara qaya var. Orda olanda gördüh ki, bizim o tərəfimizi güllələiyillər. Həylə boz atlılardı, Qılınc təpənin başındadırlar.

Ədil adında bir oğlan var idi. Hansısa kəntdəniymiş. Deyirlər, onun belinə qaynar samavarı şəlliyiflər. O da qışqıra-qışqıra qaçırmış. Xalam deyir ki, biz də axşama qədər Qara qayada gizdəndih ki, qarannıx düşəndə Yazı düzüynən gedif, ordan aşıf Qarabağa gedəh.

Deyir ki, uşaxların ağzını möhkəm tutmuşdux ki, birdən ağlıyallar, ermənilər eşidər. Xalam deyir ki, Yazıdan keçəndə bir hamilə qadını ermənilər nətəər günə salmışdılarsa, adam o vəziyyəti danışa bilmir. Hamilə qadının qarnını yarıf körpəsini qırağa atmışdılar, hamısını öz gözdəriynən görüf. Xalamgil gediflər Qarabağda bir əz qalıflar, iki-üç il. Qubatdıda İldırım bəy vardı. O, bizə dedi ki, qorxmuyun, daha hər şey həll olunuf, çıxın gedin yerıza, yurduza. Onnan sora, deyir, neçə gün yol gedif gəldih Hacılıya. Gəldih gördüh ki, evləri yandırıflar, uçuruflar, dağıdıflar. Xalamgilin də evləri uçuf-dağılıf. Xalamın anası varmış Xatun arvad. O, evdən çıxanda onun iki qardaşı, bir oğlu ölmüşümüş. Onun qardaşının birini erməni öldürmüşmüş. Qapının başına Həzrət Abbas nəziri qoydu. Dedi ki, bı nəziri qoyuram bura, mənim evimi ermənilər yandırmasın. Xalam deyir, Qarabağdan qayıdıf gələndə gördüh ki, kənd

hamısı xarabadı, yandırıflar, kül eliyiflər. O vaxtı da ev yoxuymuş da, hamısı damıymış. Bircə Xatun nənənin evi yanmamışdı. Özü də üç yerdən od qoymuşmuşdar, o yanmıyıf. Xalam deyir, hamımız doluşdux nənəmgilin həmən damına. Sora hamı təzdənnən dam tihdi, başdadılar yaşamağa. Onnan sora qaçaqaç olmadı.

### II mətn

Ermənilər Minkəndə iki-üç dəfə hücum eliyiflər. Ağalar, Ağaməmməd, Yediyar, Səfər oğlu Gülüm, Hajı kişi tirə bağlıyıf ermənilərin qabağın kəsiflər. O vaxdı Ocaxqulu, Zöhrab həkim vardı, onları ermənilər Gorusda öldürüflər. Minkəntdə gəlif neçəsin öldürüflər. Bizim kəntdə qoja kişi vardı, adına Muradəli kişi deyirdilər. Qırxıncı ilə kimi sağ idi. O, bizə söhbət eliyirdi. Deyir, eşitdim ki, müharibə gedir. Silahımı götürdüm, gejəmi gejə elədim, günüzümü günüz elədim atı mindim getdim Qaragölə. Qaragöldən ayna at minməli döyüldü, açıxlığ idi. Atı qoyur orda, özü piyada gedir. Qaragölnən, Keçəl dağnan, Qannıcaynan gedir çıxır meşəyə. Bazar yeri varmış Gorusda. Meşənin içinnən durbinnən baxıf ki, ermənilər sımavar qaynadıf qız-gəlinlərin belinə şəlliyiflər. Qız-gəlinnərin, kişilərin at kimi ayaxlarını nallıyıflar. Bunun hamısın görür. Qayıdıf gələndə Xozanavar, Bayandurda qabağına kim keçirmiş əvəzin çıxırmış. O vaxdı biz deyirdik baba, bəs yazığ deyil. Deyirdi, vaxt gələjəh mənə rəhmət oxuyajaxsız ki, Muradəli kişi, Allah sənə qəni-qəni rəhmət eləsin. O gedif görmüşdü, buların xilslətin bilirdi.

### III mətn

Bayandur kəndi var, o vaxdı azərbaycannılarnan ermənilər orda qarışıx yaşıyıflar. Muradəli kişi deyirdi ki, müsurmannar hamısı çıxdı, bizim aylə qaldı. Tək evli qalmışdıx ermənilərin içində. Deyir, bir səhər tezdən on-on iki dənə erməni gəldi, cavan oğlannar. Deyir, bir qızım idi, bir yoldaşım, iki oğlum, bir də mən. Hamımızın qolların bağladılar apardılar kəndin ortasına. Orda məni dik bağladılar bir ağaca. İki oğlumun başın kəsdilər, yoldaşımnan da qızımı götdülər getdilər. Səhərdən, deyir, günorta saat ikiyə-üçəcən

o iki oğlum gözümün qabağında partdadı. Yayın, deyir, isdi günnəri idi. Allahdan oldu məni, deyir, öldürmədilər. Axşam oldu, apardılar saldılar bir dənə evə. İki dənə dığa qoydular qapıya əllərində beşatılan. Deyir, gejənin yarısı mənim yaxın dosdum bir erməni dığalardan icazə aldı qapını aşdı, gəldi mənim yanıma. Deyir, qollarım da bağlıdı arxadan, ayaxlarım da. Dedi, bilirsən səni səhər nə zulumnan öldürəjəhlər? Mən sənin qollarını açıram, elə belə qoyuram. Tərpədən kimi açılajax. Qapını da bağlamıyajam, açıx qoyajam. Bacarırsansa, çıx qaş burdan. Gejə saat üç olardı deyir, qollarım açıxdı, ayaxlarımı da aşdım. Deyir, gəldim baxdım ki, dığalar hərəsi bir tərəfdə söykənif yatıf. Deyir, birinin beşatılanın götürdüm, ikisin də öldürdüm, çəkildim o dağlara.

## IV mətn

Qardaşım Nəsib kalxoz sədri idi, onnan əlaqədar bizim evə ermənilər gəlif gedirdi. Ermənilər gələndə atam onnarnan bir süfrədə oturub çörək yeməzdi. Mütəkgəsini götürüb gedib kənarda dirsəklənib oturardı. Bir dəfə sual verdim ki, dədə, niyə çörək yemirsən? Dedi, bala, düzdü, Nəsib deyir, ermənilər gəlib gedir, amma Nəsib buların daxilin bilmir. Bular çox məkirri millətdi. Biz buların hər cür üzünü görmüşük.

1918-də ermənilər gəlif o tərəfi zəbt eliyəndə atam deyirdi üç-dörd cavan deyif biz gedif erməninin qabağını kəsəjeyik, qoymuyajeyik gəlsin biz tərəfdən keşsin. O vaxdı da ermənilər Mollaburan, Mahrızdı, Xanlıx kəntlərindən gəlif belə çıxıflar. Bizim kəntdə Eyvaz oluf, onnan başqa iki-üç oğlan gəliflər Mollaburanın qabağına ki, burada ermənilərin qabağını kəsəjəhlər. Rəhmətdik atamın öz gözüynən gördüyü şeydi. Deyir, ermənilər həmin uşaqları tikə-tikə doğramışdılar, meyitlərini düzəngah yerdə qoyuf getmişdilər. Kəntdəri yandırmışdılar, ordan addıyıflar Mahrızdıya, ordan da gediflər ayana.

O vaxdı ermənilər hücum eliyəndə Eyvazdını, Qədilini birinci yandırıf camahatda qorxu yaratmışdılar. Onda Qədili, Eyvazdı qaçıf gəlmişdi Qubatdıya. Doxsan ikinci ildə də erməni genə Qədilini, Eyvazdını işğal elədi, evləri yandırdılar. Həmin kəntdərin əha-

lisi köşdü gəldi Qubatdıya. Bir il Qubatdıda qaldılar, doxsan üşdə biznən köşdülər. Eyni variant elə bil genə təkrarlandı.

### V mətn

Əsrin əvvəlində Qubadlının digər kəndləri kimi Əliquluuşağı kəndi də ermənilər tərəfindən dağıdılıb, talan edilib, neçə-neçə övladları şəhid olub. Azərbaycan gənclərini o zaman Nikolay dövləti əsgərliyə aparmırdı və əvəzinə hər aylədən 3 manat qızıl pul alırdı. Belə bir vəziyyətdə azərbaycanlıların əksəriyyəti silahdan istifadə etməyi bacarmırdı. 1919-cu ildə Andranik qoşunları ilə Azərbaycana hücum etdi. Əvvəl Şuşaya yürüş etmək istədi. Onun bu niyyəti baş tutmadı, laçınlılar tərəfindən əzilib geri qaytarıldı.

Laçında güclü təzyiqə rast gələn Andranik erməniləri bir yerə toplayıb Əliquluuşağı, Davudlu, Eyvazlı və Novlu kəndləri istiqamətindən hücuma başladı. Bu kəndlərin içində ən çox Əliquluuşağında yaşayan insanlar əziyyət çəkdi. Əliquluuşağı əhalisi üç gün kəndi tərk etməyib vuruşdular. Ancaq qüvvələr qeyri-bərabər idi, qalib gəlməyin mümkün olmadığını görüb əhali kəntdən çıxmaq qərarına gəldi.

Əvvəlcə ermənilərin digər kəndlərə girib-girmədiyini yoxlamaq məqsədi ilə Əmrah və Balaca bəy Göy qalaya gedirlər. Göy qaladan bizə yaxın olan kəndlərin əksəriyyəti görünür. Əmrah və Balaca bəy Göy qalaya çıxanda görürlər ki, ətraf kəndlərin heç birində bir adam belə görünmür. Davudlu, Eyvazlı kəndlərində ermənilər var. Davudlu kəndində olan ermənilər Əmrahgili görürlər və nişan alıb Əmrahı çiynindən vururlar. Əmrah yaralandığını görüb Balaca bəyə deyir:

– Balaca, sən qaç, kəndə xəbər ver. Ətraf kəndlərin heç birində adam yoxdu, kəndlər sahibsizdi, birdən Yazı aşağı ermənilər gəlib qız-gəlinləri, arvad-uşaqları girov götürərlər.

Balaca bəy Əmraha deyir:

– Mən səni tək qoyub gedə bilmərəm.

Beləliklə, Əmrahı ata mindirib kəndə gəlirlər, görülər kəndin adamları hələ də müqavimət göstərib kəndi tərk etmək istəmirlər. Balaca bəy üzünü camahata tutub deyir:

– Bütün ətraf kəndlərin əhalisi öz kəndlərini tərk ediblər. Biz vuruşmanı davam etdirməli və arvad-uşaq kənddən çıxıb aralanana kimi ermənilərin hücumlarının qarşısını almalıyıq.

Belə də etdilər. Arvad-uşaq kənddən çıxıb təhlükəsiz yerə çatana kimi atışmanı davam etdirdilər. Əlaçsız qalan kəndin kişiləri atışa-atışa kəndi, olan-qalanlarını qoyub çıxdılar. Kəndin adamları Qubadlıdan çıxana kimi kəndlərdə bir adam belə görmədilər. Kənddən çox gec çıxdıqları üçün qaranlıq düşənə kimi ancaq boş qalmış Xıdırlı kəndinə gəlib çatırlar, həmin gecə boş qalmış evlərdə gecələdilər və səhər açılan kimi yola düşüb bir neçə günə Cəbrayılnan Qubatdının sərhədinə çatdılar. Cəbrayıl rayonunun adamları Əliquluuşağının camahatına öz həyətlərində yer verdilər. Bu ürək ağrıdan hadisə 1919-cu ilin soyuq qış günündə, yanvar ayının sonlarında olmuşdu. Əliquluuşağı kəndinin adamları kəndə bir də tut sovrulhasovrulda qayıtmışdılar.

Əmrah aldığı yaradan Hovarlı kəndində dünyasını dəyişdi. Ondan başqa həmin münaqişə dövründə Əliquluuşağı kəndindən İbrahim və anası, zabuxludan Səlim, qarabaşlı tayfasında İsmayıl, Alıbəy tayfasından Alı və çobanlılar tayfasından Behbud şəhid olmuşlar. Ermənilər kəndin bütün mal-dövlətini qarət edib apardıqdan sonra bütün evləri yandırmışlar.

## VERGİLİ ADAMLAR HAQQINDA

### I mətn

Qurban olduqlarımız Sonaya vergi vermişdilər. Qurban olduqlarımız hər axşam gəlirmiş, oyadırmış, deyirmiş, dur otur. Bı da yetim uşaqmış, qız uşağıymış. Oyadırmış, bir istəkan çay içirmiş. Yarısın özü içirmiş, yarısın da ona verirmiş, konfet də verirmiş. Bu vergiymiş dana. Kəndirbazdığı, pəhləvannığı Sonuya örgədirmiş. Sona da gejələr evlərində kəndirbazdıx eliyir, görüm eliyə bilir, ya yox. Bı işdərin hamısı gejələr olurmuş, gejələr gəlirmiş. Gözə görünməzlər bir gejə də gəlib Sonaya deyir ki, mən sənə pəhlivannıx da vermişəm. Daş var, gedəh o daşı aşır. Sona deyir ki, mən qız uşağıyam, mənim güjüm var ki? Əlini daşa belə eləyən kimi daş aşır, yumalana-yumalana gedir. Qurban olduxlarımın güjü ilə dana. Ondan çöpçıxaran, ilan tutan, ilan ovsunnayan oldu. O olan yerdə ilanı öldürmək olmazdı. Bir dəfə də gözəgörünməz qüvvə gejə quş donunda gəlib yuxuda Sonaya deyif ki, dur ayağa, geyin, səni aparıram Misir şəhərinə. Quş kimi uçub, Misir şəhərinə aparır. Şəhəri göstərib Sonanı gejə qaytarıb gətirir. Özü də Sonanın yerini açırmış, deyirmiş ki, yat. Bax, Allaha and olsun, Sona vergini götürmürmüş. Götürməyəndə də bir şillə vırıb bına. Üç il, dörd il yatıf. Qurban olduğum deyif ki, götürməlisən. Hamı ona inanırdı, onun ayağına gedirdi. Amma Sona vergini götürənə qədər heç kimə deməyif ki, mənə vergi verillər. Çünki qurban olduxlarım Sonaya yuxuda deyiflər ki, vergini qəbul eliyənnən sora vergili olduğunu deyərsən.

### II mətn

Mənim anam özü nağıl eliyirdi ki, yatmışdım. Yuxuda gördüm ki, iki künbəzin arasındayam. Deyir, gördüm ki, bir ağacı künbəzin bı tərəfindən, birini də o tərəfindən basdırdılar. Sora ora ip bağladılar. Tutdular əlimdən ki, sən dur bının üsdünnən yeri. Deyir, dedim ki, mən onun üsdünnən yeriyə bilmərəm axı. Şilləynən məni vırdılar ki, yeriyəssən. Nəysə, anam yerimir ordan. Bəlkə də yerisəydi, kəndirbaz olardı. Götürmüyf da. Anam deyir ki, bı səfər mis qabda buğdanı

qoydular. Bı səfər bir uşağı mənim qucağıma verdilər ki, bəs bu uşağın boğazında buğda qalıf, buğdanı çıxart. Deyir, dedim ki, nətər çıxardım? Dedilər ki, üfür, əlinnən əllə. Anam genə deyif ki, yox, bacarmaram. Onnan sora anamı vergini götürmədiyinə görə vırıflar. Anam neçə il xəstə qaldı. Ona əzap verdilər. Həmməşə də canı ağrıyardı. Anama vergini gəlin xeylağı olanda verirmişlər.

## III mətn

Şəkil qabaxca Mirsədi ağanın qulluxçusu oluf. Mirsədi ağa rəhmətə gedən vaxdı bu ağlıyıf. Deyif, bala, niyə ağlıyırsan? Deyir ağa, sən gedirsən, mən neyniyəjəm? Deyif ki, get, sənin payını o kişi verəjək. Ona bir dənə şamaxı vermişdi, bir dənə də çəlik vermişdi. Demişdi, get gözdərinə torpax töküləni bu şamaxıynan çıxart, boğazında sümük qalanı sığa çıxart. Onnan sora o çöpçülük eləməyə başlayır.

Bir gün mən bunun yanına bir xəsdə aparmışdım. Mən buna zarafat elədim ki, içəridəki kimdi? Bərk güldü. Dedi, zarafatımız öz yerində, amma gir içəri, bileysən ki, mən bu gejə kimnən yatmışam. Taxtadan qayrılmış taxt qıravatın üsdündə yeri varmış. Durdu gəldi əl-üzün yudu. Pərdəni atdı yerə, dedi, ay məlun, gəl. Allahın adına and olsun, bir dənə boz ilan gəldi, pərdənin altınnan çıxdı. Fısıldıyanda dedi ki, fısıldama, evdə yad adam var. Kənar yerdə cızıx çəkdi, dedi gir o cızığın içinə. Dedim ki, Şəkil, bu nədi? Dedi günüzdən nəyəsə hirsdənif ağız atıf daşa, daş girifdi bunun ağzına, çıxarda bilmir. İndi ağzı aralı qalıf. Cızığı çəkdi. Dedi, gəl gir bura, tərbiyəsiz. Çox fərri iş görmüsən, hələ bir diş çıxardırsan. Dedi, ayağı dağıtma ha, dağıtsan səni qurudajam. İlan gəldi yalmana-yalmana çıxdı bunun dizinin üsdündə oturdu. Naqqaşı saldı ağzına daşı çıxartdı. Ağzına üfürdü, dedi çıx get, bu günnən sora heş bir şeyə ziyannığ eliyif gəlmə.

## IV mətn

Hüsü maa həmişə lağ eliyirdi. Deyirdi, sən hardan oldun, ə, sınıxçı. Dedim, ə Hüsü, lağ eləmə, mən adicə insanam, intaası maa

nə isə o təklifi eliyən kişi oldu da. İndi mən bu işə baxıram, sənə ziyan vurmuram ki. Dedi, saa inanmıram. Dedim, sağlığ olsun, Allah eləsin gəl ojağıma. Mənim də bağım çox yekə idi. Bağın girəcəyində bir armud ağacı varıdı. Bir gün gəldim ki, biri uzanıf burda, üsdünə bir ədyal atıflar, zarıldıyır. – "A bu kimdi?" Dedilər Hüsüdü? – "Noluf?" Dedilər, ayağı sınıf. Dedim, bay Allah saa şükür. Hüsü də eşidir. Dedi, Mamay, niyə şükür? Dedim, ilahiyə bir də şükür, iki də şükür, üç də şükür. Ona görə ki, maa lağ eliyirdin. İndi gəldin ojağıma. Sənə elə bir divan qoyajam yeriyə bilmiyəssən. Onun da, sənin də canın haqqı, onun nə sümüyün yığmadın, nə düzəliş vermədim, yalannan sarıx vurdum, dedim get. Axı gərək sınıxları yığasan, nizamlıyasan sora sarıyasan. Gejə səhərə qədər yatmır. Gejə yuxuda gördüm ağsakqal bir kişidi, gəldi məni oyatdı yuxudan, dedi, dur. Dedi, filankəsə niyə heylə baxmısan, bu gejə səhərəcən uluyuf? Dedim, zarafatımız vardı. Dedi, saa da mən zarafat eliyirəm. Ağzıma bir şapalax vurdu. Baxdım ki, gözüm belə baxır, ağzım belə baxır. Ağzım əyilif. Getdim dilənçinin ojağında yatdım. Gördüm həmin kişi bir də gəldi. Dedi, toba əstafurla elə. Səhər gəldim Hüsünü çağırdım, onnan üzr isdədim. Dedim ki, sənin üsdündə mən bu işə düşdüm, Allah səə nəhlət eləsin.

# ETNOQRAFİK MƏTNLƏR

## NOVRUZ ADƏTLƏRİ

### I mətn

Yeniyetmə qızdar ilaxır çərşənbədə xəlvəti kömbə yoğurardılar, balaca uşağa verərdik ki, apar bunu tonqalın közünün altında basdır. Bizi də qıraxdan isdəyən çox idi. Anam deyirdi, yox, mənim qızdarım əzəli körpədilər, özü də mən qərib olmuşam, qızdarımı qırax yerə vermərəm. Elimi ürküdüb öz axsağıma verəjəm. Ona görə də heş kəsə bizi vermirdi. Belə bayram olanda qardaşım arvadı bizə dedi, aparın kömbə basdırın. Biz də bajımnan xamır yoğurdux, kömbə qayırdıx, özümüzdən balaja qardaşımız uşağına verdik ki, apar bunu basdır çərşənbə ojağının külünə. Sabah ertə biz gedif onu gəzməli idik. Hansı birimiz onu tez tapsa, onun baxdı tez açılardı. Tezdənnən durdux getdik. Çöpü götdük, eşəliyəndə kömbə mənim əlimə gəldi. Mən götdüm bunu gizlədim. Gətirif qardaşım arvadına verdim. Bular dedi Narış qabaxca getdi, Minaya (bacısı – top.) evdə qaldı. Həqiqətən də heylə oldu. Mən bir il Minayadan qabax getdim.

### II mətn

Çərşənbənin biri buza düşür, buz sınır. Biri oda düşür oddan çəkilirsən geri. Axır çərşənbədə ağaca ruxsat verilir, ağac başdıyır yarpaqlamağa. Axır çərşənbədə kim evində yatmasa, onun işi düz gəlməz. Gərəh axır çərşənbədə öz məhləndə olasan, yoxsa gələn il genə perik düşərsən. Həmin gün Cənab Əli qırmızı geyif taxta çıxıf. Onun şərəfinə Nooruz bayramına on gün qalmış hər qapıya qırmızı bağlanırdı.

Dayım deyif, gəlin gedək yumurtanı boyayax qoyax suyun qırağına heş kəs bilməsin. Gediflər yumurtanın yanına qara, bir də qırmızı cöhər qoyuflar. Biri Qasım oluf, biri Əşrəfin qardaşı Mikayıl, biri də Məcid dayım oluf. Sabaha yaxın tez qaçıflar ki, görək nə yazılıf. Gediflər ki, dayımınki qırmızı cöhərnən yazılıf, Qasımnan Mikayılınkı qaraynan yazılıf. İkisi də gülləynən öldü.

İlin axır çərşənbəsində sabah tezdən bulax başına gedərdih. Gedə bilməyən adamın köynəyin aparardıx, onun əvəzinnən də suyun üsdünnən tullanardıx, deyərdih ağırrığı, uğurruğu, diş ağrısı, baş ağrısı – hamısı tökülsün qalsın bu suyun üsdündə. Bulaxdan daş gətirirdik. Hər küncə birin atırdıx, birin də nehrəmizə qoyurdux ki, bərəkətdi olsun. Bulaxdan su gətirirdik, ojağın ətrafına o suyu tökürdük. Evdəki bütün suları boşaldıb təzə sudan tökərdik, həmin sudan çay dəmliyərdik, malın üsdünə də səpərdik.

Axır çərşənbədə söyüd üş dəfə başın qoyur yerə, sora qalxızır. Onda səhərə qədər kim yatmıyıf o söyüdün budağını tutsa, nə niyyət tutufsa, hasil olmalıdı.

İlin axır gejəsi cibi boş qoymazdar, cibdə az da olsa, pul saxlanmalıdı. Onda gələn il də cibin dolu olar.

**III mətn**

Axır çərşənbədə çaydan daş götürərdik, birinə döölət daşı deyirdik, birinə ruzu daşı, yaz gəlir yaxşı günnər üçün. Yeddi daş sanıyıb atırdıx sənəyimizə. Daş sənəyin içində qalardı, bir aydan-iki aydan sonra yaxalanıb atılardı.

**IV mətn**

Axır çərşənbədə kim birinci sudan doldursa, onun baxdı açılır. Ona görə bütün qızdar çalışırdı ki, hamıdan erkən gedif su doldursun.

Birimiz olurdu paccah, başına yaylıq atırdıx, vəzir-vəkili də böyründə oturardı. O əmr verirdi, biz onnan hərəkət eliyirdik. Heylə gecəyarıyadək oynuyurdux. Kim yatsa, paltarınnan palaza, gəvəyə tikirdik. Oğlannar ayrı, qızdar ayrı padşah qururdu. Oğlannarı içərimizə qoymurdux, amma görürdün hansısa oğlan qadın paltarı geyinif içərimizə gəlif. Yığdığımız ayın-oyunnan yemək bişirirdik, qalanını isə paccah aramızda bölürdü. Paccah desə ki, axşamadək dur, durasıdı, döy, döyəsidi. Kimsə sözünə baxmır, əmrinə tabe olmurdusa, onu cəzalandırırdı.

## V mətn

Hər məhlənin öz padşahı olurdu, böyründə vəzir-vəkil, qoçusu olardı. Padşah əyninə arxalıx, üsdünnən çuxa geyər, oturardı stolda. Başına da papax qoyardı. O biri məhlələrdən adam tutuf gətirirdilər ki, padşah səni çağırır. Padşah deyir, sən kimdən icazə alıb mənim mahalıma gəlmisən? O da deyirdi, gəzə-gəzə gəldim çıxdım bura. Padşah deyir, beş maat cərmə verəssən. Çıxarıf verirdi, vəkil də qeyd eliyirdi dəftərə. Deyirdi, kimnən gəlmisən? Deyirdi, keçəlnən, kosaynan. Padşah deyirdi, bir cərməniz də var. Havanızı deyin, burda oynuyassınız. Zurnaçılara əmr eliyirdi, buların havasını çalırdı, oynuyurdular. Axırda keçəlnən kosa deyirdi, şah, yoruldux, xayiş eliyirik, icazə verəsiniz gedək. Amma gərək keçəlin də payın verəsiniz.

## VI mətn

Oğlannardan biri qız paltarı geyinir, biri də bəydi guya bığ çəkif başına papax qoyuf. Yannarında tütək çalan olurdu da, qapı-qapı gəzəndə bu çalırdı, olar başdıyırdılar oynamağa. Oynuyurdular, oynuyurdular, birdən dururdular, deyirdilər bizim payımızı gətirin. Deyirdilər, yox, yaxşı oynamamısız. Bir də təzdən bular qol götürürdülər, oynayırdılar. Çərşənbə günü qovurğa qovururdux, içinə tut qurusu, yumru şirnilər qatırdıx. Torbaların gətirirdilər payların verirdih. Deyirdilər, yox, bu azdı, pul da verin. Pul da alırdılar, genə oynuya-oynuya gedirdilər. Bayramın öz günü qızdar qapı pusurdu, ayrıca məclisləri olurdu.

Kosanın əyninə arxalıx geydirirdilər, başına şiş papax qoyurdular. Bir adam da buların it qoruyanı olurdu. Axı kənd yerində it çox olurdu. O da buların yığdığına şərik olurdu.

Səsə qoyurdux, kim qazanırdısa, onu geyindirif oturdurdux padşah stolunda. Padşah qırmızı xələt geyinirdi, başına da kardonnan düzəldilmiş bəzəkli papax qoyurdu. O ev olmurdu, pay göndərməsin. Əyilmiyənnəri, əmrə tabe olmuyannarı gətirirdik dizi üsdə oturdurdux, cəza verirdik. Mənim uşaxlarım qadın paltarı geyinirdi, üzlərin yaşmaxnan örtürdülər, gedirdilər qızdarın məclisinə. Qızdar

da oğlan paltarı geyinif oğlannarın məclisinə gəlirdi. Kimin şəraiti yaxşı idisə, padşah onun evində otururdu. Padşah göz gəzdirirdi, baxırdı ki, Mahmud gəlmiyif. Əmr eliyirdi Mahmudu tapın gətirin. Gedirdilər qolunnan tutuf gətirirdilər. O da baş əyirdi, təzim eliyirdi. Padşah ona cərimə kəsirdi ki, bu qədər aş gətirəssən, kişmiş, xurma gətirəjəhsən.

## VII mətn

Bala, mən atmışıncı illərə qədər biz tərəfdə – kəndimizdə, obamızda keçirilən bəzi Nooruz adətlərinnən danışejem. O vaxtı mən uşaxdım. İndi atmış beş yaşım var. Uşaxlıxda gördüyüm adətdərdi.

Axır çərşənbəynən bağlı keçirilən Novruz adətlərinnən biri də Şah bəzəməhdi. Həmən vaxtı qəşəh hamı toy, təzə libasını geyinir, yığışıllar kəndin aralığına – yanı ortasına. Orda şah seçərdilər. Bu bəy də özünə bir nəfər icraçı seçərdi. O icraçının əlində çox bəzəhli, qəşəh bir alət – çubux olardı. Bəy də gözəl geyinərdi. Onu bəzəhli bir taxtda oturdardılar. O bəy məclisi idarə eliyirdi. İcraçı bəyin dediyini yerinə yetirirdi. Bəy istədiyi adamı icraçının vasitəsiynən cərimə eliyirdi. Cərimə də belə olurdu. Məsələn, filankəsi oynamaxla, birini oxumaxla, digərini yeməli şeynən, quzuynan cərimə eliyərdi. Çox maraxlı keçirilirdi. Bı məclis belə şənlənə-şənlənə keçirdi. İnanırsan, hamı Nooruz bayramını səbirsizliklə gözləyirdi ki, Şah bəzəmə adətini keçirsin.

Şah da geyinif-keçinif taxtda oturanda qabağında onun taxtadan düzəldilmiş fiqur olurdu. Həmən o fiqurda da bayramın ən çox yeməli şeyləri – qoz, fındıx, alma, müxtəlif meyvələr, nabat, noğul – hər şey olardı. Həmən bayramda əsasən, kənd camahatı iştirak eliyirdi, yəni kənd özü üçün keçirirdi. Özü də, bala, onu da deyim ki, şah nəinki kişidən, hətta arvatdardan da olurdu. Axırı da deyə-gülə sevinclə qutarırdı.

Axır çərşənbəylə bağlı, bala, deyim nə olurdu. Bax, bizim Qaracallı kəndində çox hündür qoz-cəviz ağaşdarı olurdu. Keçi qəzilinnən sicim toxunurdu. Hər biri iyirmi metr uzunluğunda. Onun ikisini uc-uca bağlıyırdılar. İki qat asırdılar ən hündür qanat-

dan. İki nəfər qız üz-üzə oturuf ayaxlarını da bir-birinin kəndirlərinə keçirirdilər. Bir nəfər də qadın onnarı yellədirdi. Həmən qadın da çox güjdü olmalıydı. Həmən qadın yelləncəyi yellədə-yellədə müxtəlif nəğmələr oxuyurdu. Həmən o yelləncəhdə də bir yaşdı qadın onu müşayiət edirdi. Müxtəlif nəğmələri örgədirdi. Özü də hamı nööbəsini gözləməli idi. Bax, həmən o yelləncəh mərasimində mənim özümə nə qədər nəğmələr öyrədiflər. Yadımdadı ki, mənim növbəmə Məstan addı arvad düşmüşdü. O qədər növbələr olurdu ki, hər kəs də növbəsini gözdüyürdü.

Qızım, bu yelləncəh mərasimini nə vaxt gəldi keçirməh olmazdı. Bu adət ancax Nooruz bayramının adəti idi. Bu da ildə bir dəfə keçirilərdi. Bu yelləncəh mərasimində, yəni yelləncəhdə kəndin bütün adamları, uşaxlı-böyühlü, qadınnı-kişili yellənməliydi. Yaşınnan asılı olmuyarax hamı iştirak eliyirdi.

Yelləncəhdə üz-üzə iki adam oturmalıydı. Həmən adamların çəkisi eyni olmalıydı. Biri ağır, biri yüngül yox. Çəkiləri eyni olmalıydı ki, yelləncəh yellənsin. Adamlar elə-belə yellənmək üçün yellənmirdilər ki.

Yelləncəh adətinin bir növü də "Yellənni" idi. "Yellənni"də iki nəfər olurdu, özü də ayax üstə. Burda sijimin bir tərəfini açırdılar. Həmən adam ayağının birini sijimin üstünə qoyurdu, o biri qıçı isə açıx qalırdı. Açıx qalan ayax o birisinə hərəkət verirdi. Yellənni daha çətin idi. Ona görа ki, bını heş kim yellətmirdi. Özü-özünü yellədirdi. Bu da həmən adamnan məharət tələb eliyirdi. Yellənən adam o vaxt qalib olardı ki, yelləndihcə ağacın başına qədər qalxmalıydı. Bu işin öhdəsinnən hər kim gəlirdisə, o da kəntdə, obada güclü adam kimi tanınırdı. Yenə də bırda kişiyə-qadına fərq qoyulmurdu. Kim qalib gəldisə, qəhrəman o idi. Yanı, bırda artıx kimin güclü olmasını sınıyırdılar.

Yelləncəh əhvalatı qutarannan sora hamı gedirdi evə. Əvvəlcədən məsləhət eliyirdih ki, axır çərşənbədə kəndin qızdarı filan yerə yığışsınnar. Qızdar arasında yeməh bişirmə adəti keçirilirdi. Bu nə idi?

Qızdar yığışıf bir yerdə məsləhət eliyirdilər, məsələn, bu il yeməh bişirmə Zəminəgildə olacax. Bırda da qızdarın əl qabiliyyəti üzə çıxarılırdı. Özü də aş bişirərdilər. Aşa nə lazımsa, hərəsini bir qız gətirərdi. Qızdardan biri aşı bişirərdi. Aş qəşəh çıxdısa, yanı qəşəh bişdisə, il boyu həmən qızın aşınnan danışılardı. Özü də bu adəti həm qocalardan eşitmişəm, həm də özüm görmüşəm. O vaxtı da böyüh qara damlar varıydı. Dokquz dirəhli qara damlar. Nənələrimiz deyirdi ki, həmin yeməh bişirmə adətini o dokquz dirəhli qara damlarda keçirərdik. Sora elə otax şəraitində keçirilirdi. Bu adət ancax ilaxır çərşənbədə keçirilirdi. Bırda həm də qızdarın gələcəhdə necə gəlin olacağına, qaynana, qaynata qulluğunda duracağına da işarə edilirdi. Həm də səhərə qədər yatmazdıx. Kim tez yatdısa, onu zəyif hesab eliyərdih. Nə bişirirdisə, onnan hərə evinə pay aparardı. İçimizdə yaşdı adam, ərə getmişdər, gəlinnər olmazdı.

Bala, bizim yerlərdə bahar tez gələrdi. Ona görə, biz həmişə Nooruz bayramında çöl göyərtisi gətirif qoyurdux süfrüyə. Onu da deyim ki, bala, çöl göyərtisinin yığılması da bir adət-ənənə kimi keçirilirdi.

Axır çərşənbədən qabaxkı günü kəndin nə kimi ayaxtutanı vardısa, həmin gün ellihnən Qara Kaha deyilən yer varıydı, hamı ora çöl göyərtisi yığmağa gedirdi. Yazın o gözəl yeyilən otdarını yığıb gətirərdih. Özü də bilirsən, nətəər yığardıx? Hərə üsdünə bir ətək tutardı, döşdüh, kürəyimizə də bir şal bağlıyırdıx. Yığırdıx, bir əz ətəyimiz ağırraşırdı, qoyurdux o şalın içinə, bağlıyırdıx kürəyimizə. Bir də ətəyimizə yığa-yığa təkrar eliyirdih. Görürdün o kolun dibinnən biri oxuyur, bu kolun dibinnən biri oxuyur. El bayramı keçirilirdi elə bil. Bənövşə, cincilim, yemlik, quzuqulağı, keşniş yığardıx. O vaxtı onnar çıxardı. Bax, adın çəhdiyim bu göyərtilər var ha, onnar mütləq Nooruz süfrəsində olmalıydı. Olmasaydı, deyərdilər ki, il bərəkətsiz olar. Özü də adət halını almışdı. Bilirdilər ki, filankəsin qızdarı həmməşə qəşəh göy yığan olur. Ona görə də görürdün ki, bayram günündə bir-bir süfrələri gəzərdilər Nooruz göyü üçün. Göylərin hamısını yeyif sora gedirdilər. Özü də bizim kəntdə Hajı məəllim varıydı, belə şeyləri o, çox sevirdi. Belə şeylərlə bizi o həvəsləndirirdi.

Nooruz adətlərinin biri də bayramlaşmaydı. Düzdü, indi də var bayramlaşma, ama o vaxtkı bayramlaşma başqa cür idi. Özü də bayramlaşma ellihnən keçirilirdi. Ellihnən yığışırdılar bir yerə, deyirdilər ki, məsələn, filankəsin qardaşı yoxdu, filankəs aylə qurmuyuf tənha yaşıyır, filankəsin oğlu müharibədən qayıtmıyıf, yaxud filankəs elin ağsakqalı, ağbirçəyidi və s. Birinci bınnarı ellihnən təbrik eliyirdilər. Bayramlıx, kənd payı aparırdılar. Kənd payı da nələr olardı? Məsələn, təzə yağ – nehrə yağı, bir boşqab şor, o vaxtı əyirdəh[32] bişirirdih, onnan götürürdülər, bişirilən aşdan bir qab götürülərdi. Həmən adamları birinci təbrik eliyərdilər.

İkinci növbədə isə, bütün qohumlar, qonşular bayramlaşardı. Belə bir deyim var ki, deyirdilər ki, kimin əli açıxdısa, ora həm gəlir, həm də gedir. Əlini açıx qoy ki, həmi gələn ora tökülsün, həmi əlinnən də kiməsə pay getsin, alqış gəlsin saa.

Onu da deyim ki, qızım, nə qədə Sovet hakimiyyəti bı bayramı qadağan etsə də, nə yolla olur-olsun genə də keçirilirdi.

Nooruzda keçirilən adətlərdən biri də at çapma adəti idi. Bu nətəər olurdu? Bir il müddətində, yanı bı Nooruzdan gələn Nooruza qədər kimin atı vardısa, onu bəsləyirdilər. Nooruz bayramında at çapma günü dəqiqləşirdi. Həmin gün aralıx deyilən yer vardı – kəndin aralığı. Ora yığışırdılar, orda seçilirdilər. Qala dərəsi deyilən yer varıdı. Həmən ordan başlanğıc götürürdülər. Çapırdılar o biri kəndin görsənən yerinə qədər. Birinci çatan dəqiqləşirdi. Kim qalib gəlirdisə, camahat ona ənam verirdi. Həmən adama iyid kimi baxılırdı, seçilirdi, hörmət edilirdi, sayılırdı.

### VIII mətn

Novruz bayramında bizdə padşah tikərdilər. Rayonun mərkəzindən hamı bizim kəndə (Dəmirçilər kəndi – top.) gələrdi həmin oyuna baxmağa. Kəntdə keçirəndə yazıb vurmuşdux kəndin altıyeddi yerinə ki, şahın əmrinə əsasən gecə saat birə qədər heç kim yatmamalıdı. Kim yatsa, şah tərəfinnən ağır cəzaya məhkum ola-

[32] əyirdək – südlə yoğrulan çörək növü

cax. Gecə saat on iki oldu, birə işdiyəndə durub getdik müəyyən adamlar vardı onnarın evinə. Bir dəfə getdik Misir məəllimin evinə. Getdik gördük yazıx stolda mürgüləyir. Bizi görən kimi dedi, köpək uşağı, gəlin çıxın da, yata da bilmirəm qorxumdan. Ordan gəldik İbrahim həkimgilə. Arvadı dedi, Həsən dayınız yatıbdı, sizin tapşırığa əməl eləməyib. Girdik içəri, gördük alt tuman-köynəkdə yatıbdı. Yorğanı atdıq üsdünnən, aldıq çiynimizə, götdük getdik. Bir nəfər də inciməzdi.

Yazıb hər yerə vururdux ki, saat bir tamamda şah gəzintiyə çıxajax, kimin nə şikayəti var eləsin. Şah bəzənirdi, uzunqulağın üsdündə çıxardı gəzintiyə, şikayətdərə baxırdı.

Rayonda keçirəndə birinci katib Şahsuvar Yəhyayev idi, biz onu şahın hüzuruna çağırtdırmışdıx.

İyirmi, iyirmi iki nəfər yığılırdı, pul qoyuf heyvan alırdıx. Yemək bişirilirdi, camahata yemək verilirdi. Məclisə gələn gəlinnər hamısı xonça bəzəyib gətirirdi. O xonçanı da rayondan, kənardan gələn adamlara paylıyırdılar. Üç-dörd nəfər vardı, xüsusi geyimləri olurdu, oturanların hamısına o xonçadakı nemətdən paylıyırdılar. Gələnnər şahın tədbirinə tamaşa eliyirdi. Şah kiməsə cəza verirdi, deyirdi oynasın. Qara zurna çalırdılar, oynuyurdu. Kiminə deyirdi, sən zopu çək. Bir nəfər düşür qabağa, əlində şümal tut çubuğu olur, qıraxda da on dənə, iyirmi dənə zapas çubuğ saxlıyıllar. Cavannardan on beş, iyirmi nəfər zopu çəkənin başına yığılıllar. Dəstəni çəkən oynuyur, bir də görürsən cibinnən bir şey çıxartdı. Səndə varsa, çıxarıb canı qurtarırsan, yoxsa əlindəki çubuxla baxmırdı, hardan gəldi vururdu. Yer qazırdılar, ora su tökürdülər, o suyu dilinnən yalamalıydın. Kim yalamırdı, çubuxnan elə vururdu, başı gedib girirdi çalaya.

Adamlar şah tərəfinnən cərmələnirdi. Kimin nöqsanı varsa, şah birini dar ağacınnan asdırır, birini zindana salır, birini beş manat cərmə eliyir. Həmin pul xəzinədarda yığılırdı. Bir dəfə yığılan pulla məscidin darava deyilən hissəsini təmir elədik, nööbəti il yığılan pulla imkansız, yetim-yesirlərə əl tutdux.

Şah ciddi olmalıdı, gülməməlidi, hazırcavab olmalıdı. Keçən il Yadigar məəllimi şah seçdik, Şahbaz müəllimi də vəzir seçdik.

Şah qəlbidə oturardı, onnan bir az aşağıda vəzir, lap aşağıda buyruxçuları durardı. O tərəfdə xəbər aparıf gətirənnəri olardı, bu biri tərəfdə də şahın xəzinədarı oturardı.

## XIDIR NƏBİ

### I mətn

Xıdır peyğəmbər həmən gün (fevralın 5-i – top.) zühr eliyir, urza paylıyır. Naftalan Xıdır peyğəmbərin dəvəsinin ayağınnan çıxıf.

Xıdır Nəbi, Xıdır İlyas
Bitdi çiçək, oldu yaz.
Xıdır gəlir haynan,
Altı qara daynan.
Day batdı palçığa,
Çıxartdılar hay-huynan.
Yağ gətirin yağlıyax,
Dəsmal gətirin bağlıyax.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzeydim,
Saş bağıma düzeydim.
Familin toyunda
Sındıra-sındıra süzeydim.

Uşaxlar bu mahnını oxuya-oxuya pay yığır. Armud, yumurta, yağ, un yığır. Əllərində məşəl bütün kəndi hərrənirdilər. Sora bir evdə yığılıf yığdıxları paydan kömbə salıllar. Xıdır Nəbinin də xaşılı var. Unu balnan, bəhməznən çalıllar. Həmin gün Xıdır peyğəmbər də altında boz at zühur eliyir, hamının ruzasını verir. Gecə yarıdan sora hamının ruzasını paylıyır. Kosa fason geyim düzəldirlər. Özlərinə qoyun yununnan bığ düzəldirdilər, quyrux qoyurdular. Üstlərinə zınqırov qoyardılar, başlarına ucu şiş papax qoyar-

dılar. Kömürnən üzlərini zil-qara eliyərdilər. Üç ev, dörd ev bir yerdə kömbə bişirirdilər, yeyib-içib səhərə yaxın dağılırdılar. Bütün kəndi başdan-başa gəzirdilər. Qırmızı içli kömbə düzəldirdilər, onu yeyirdilər. Xıdır Nəbi gejəsi gərək təknəni boş qoymuyasan. Kirkirədə qavıd çəkirdilər, qoyurdular ləyəndə pəncərənin ağzına, təknədə də çörəyi qoyurdular. Deyirdilər, Xıdır peyğəmbər gəlif əlin basajax ora.

**II mətn**

Xıdır Nəbi kiçik çilənin yarısında keçirilir. Xıdır Nəbiyə hazırrıx görülürdü, evdə səliqə-səhman yaradılırdı, xaşıl bişirilirdi. Elə bil xaşıl bişirmiyən, oraya bəhməz tökmüyənə pis baxırdılar. Özü də qışın yarısında xaşıl bişirmax da hasant döylü ey. Bir evdə neçə külfət varsa, qab dolusu xaşıl qoyulurdu, içində yağ, bəhməz olurdu. Gərək Xıdır Nəbinin ehtiyatın payızdan saxlıyasan.

Xıdır Nəbi, Xıdır İlyas,
Bitdi çiçək oldu yaz.
Mən Xıdırın quluyam,
Boz atının çuluyam.
Xıdır gəldi haynan,
Bir qaraca daynan.
Day batdı palçığa
Xıdır da yatdı yanında.

Xıdır günü xaşıldan başqa heş nə bişirməzdilər. Bir də qavıd qovururdular, qoyurdular dalda yerə ki, Xıdır gəlif əlin bassa, bu evə bərəkət gələjəh. Uşaxlar qapı-qapı gəzirdi, pay yığırdılar. Elə ki, pay alırdılar sevinə-sevinə gedirdilər. Pay xoşdarına gəlmirdi, ya kimsə pay vermirdi oxuyurdular:

Çatma çatmıya,
Çatma yerə batmıya.
Kim Xıdırın payını verməsə,
Əri onnan yatmıya.

Yığılan pay çox olduxda səhər ağsakqallar artıq qalan payı hansı ev kasıbdı, verirdi həmin evə. Pay verəndə oxuyurdular.

Pay verənə pay olsun,
Pay vermiyənə vay olsun.
Xıdırın qədrin bilmiyənin
Qara dayın yanında yatmağı olsun.

## ƏLƏM AĞACI

Uzun ağac idi. Ona parçalar bağlanırdı, şalban kimi yerə basdırılırdı. Camahat onun divində sinə döyürdü, başların çərtirdi. O parçaları ordan aşmırdılar, qalırdı orda. Gələn il ya o ağacı çıxardıf yenidən bəziyif vururdular ora, ya da elə dövrəsində sinə vururdular. Camahat ağ geyinirdi, ağ köynək deyirdilər onnarın adına. Ağ köynək qıpqırmızı olurdu. Xançalnan başların çərtərdilər. Ağacın divinə gətirif nəzir qoyardılar. Orda yetim olsaydı, əl-ayağı şikəst adam olsaydı, nəziri o götürərdi.

## DOLU DUASI

Biz uşax olanda görürdüh yaşdı adamlar deyir ki, bu il çox quraxlıx olajax. Hamının bağı, bosdanı olurdu da. Qorxurdular ki, istidən yanar birdən. Deyirdilər ki, qurban kəsməh lazımdı, dolu qurbanı. Ona görə ki, dolu yağmasın, bostanı, bağı məhv etməsin. Kəndin bir ağsakqalı seçilirdi. Hər evdən pul yığıf gedif dolu qurbannığı alırdılar. Həmin qurbannığı kəndə hərriyirdilər. Allah bizi bizə gələn bəladan, doludan hifz eləsin. O qurbanı məscitdə kəsif paylıyırdılar. Nə qədər dolu bu yolla bizim kəntdən yan keçif.

## HOLAVAR

Altı boyun öküznən yer sürüllər. Kotanı dörd adam sürür. Biri majı tutur, üçü öküzləri sürür. Axırda sürənə ambul sürən deyillər, ortaya tərəzi, qabağı sürənə də qabax deyillər. Hərəsi iki boyun öküz sürür. Arxada oturan qabax öküzü vurur, qabaxkı özünnən əvvəlkin vurur. Öküzü sağa-sola döndərmək də lap qabaxda otu-

ranın işidir. Öküz sürəndə holavar çəkərdilər. Qaçaq Nəbinin, Qaçaq Səfonun adını ağsakqallar kotan sürəndə də holavarrıyırdı.

Bizim adamlardan biri qonşu kəntdə (Ağcakəndə – top.) kotan sürəndə deyillər, bu elə holavar çəkir ki, nətər eliyək bunun holavarına qulağ asax? Holavar çəkənin də adı Məmmədquludu. Bunnar yığışıfdı ki, gəl bir holavar çək, qulağ asax. Bu da deyif ki, yox ey, mən iki-üç adama holavar çəkən deyiləm. Kəndin hamısın yığın bura, holavar çəkim. Hamını yığanda deyir:

Holo-holoooo,
El gələ-gələ.
Holo-holoooo,
El gələ-gələ.
Ey görginən başımıza nə gələ.
Holo-holoooo
Allah minkətdiləri qorusun
Ağcakəntdilərə nə gələ gələ.

Heş kəs başa düşməmişdi ki, bu ağcakəntdilərə deyir, Allah minkətdiləri qorusun, sizə nə gələ gələ.

Holavarrıyanda hərə öz dərdin yadına salıf holavarrıyırdı. Birinin oğlannarını urus əlinnən almışdı o oxuyurdu ki:

Ey mənim qoçaxlarım
Holo-holoooo
Ey mənim qaçaxlarım.
Urus apardı səni
Əlim çatmadı holo-holooo.

Majı tutan burdan holavarrıyırdı, ambulu sürən ordan. Səsdər qarışırdı bir-birinə. Balasını itirən balasının dərdinnən holavarrıyır, birinin qardaşı ölüf onnan ötəri holavarrıyırdı. Deyirdilər, o elə holavarrıyır ki, öküz öz-özünə çəkir.

## BƏYİN QARDAŞLIĞI

Toy olan oğlanın qardaşdığı olurdu, onun boynuna qırmızı bağlıyırdılar. Toyu olan adamın ən yaxın dosdarınnan biri qardaş-

dıx seçilirdi. Özü də subay olmalı idi, çünki sora həmin toyu olan ona qardaşdıx gedəjəhdi. Qardaşdıx müəyyən funksiya üzərinə götürürdü. Toy evinə o yardım eliyirdi. Ya bir cöngə verirdi, ya bir erkək verirdi və yaxud ayrı şeylər alırdı. Bu ona gətirirdi, toyu olan da sora aparajeydi ona. Doğma deyildisə, qanunu qardaş olurdular. Mənim toy qardaşdığım var. O rəhmətə gedif, ayləsiynən, uşaxlarıynan böyün də o dosduğu davam etdirirəm. O qardaşdığı axıra qədər saxlıyırdılar. Qardaşdığın çiyninə qırmızı şal bağlıyırdılar ki, bilinsin bu bəyin qardaşdığıdı. İmanlar kəndində yaşdı adamların əksəriyyətinin qardaşdığı oluf. Toyda ən hörmətdi adamın biri o olurdu. O vaxdı qız evi başlıq kimi bir mal, iki qoyun isdiyirdi. Onu qardaşdığ ödüyürdü. Qız evinin xərcini o çəkirdi. Gəlinə bir dəsd ləyaxlı-başdı paltar alırdı. Kimin güjü nəyə çatır, onu eliyirdi. Qardaşdıx vardı ki, imkanı yox idi, amma eləsi də vardı ayrı aləm idi. Hərə öz güjünə görə kömək eliyirdi.

Bəy bağı deyirdilər, padşahın qabağına qoyurdular. Ağacı müxtəlif meyvələrlə, şakalatlarnan bəziyirdilər. Kim qeyri-qanuni yolla ordan nəsə götürsə, padşah onu cərmə eliyirdi ki, bəy bağına hücum eləmisən. Bir ağac bəzənərdi. Üsdündə alma, armud, üzüm, nar, konfet, şakalat. Yanına da qoruxçu qoyurdular. Qoruya bilməsə, onu cərməliyirdilər. Toy qutarana qədər padşah onun üsdündəki meyvələri, şakalatı paylıyırdı, axıra qalırdı quru ağac.

## QUBADLININ TOY ADƏTLƏRİ[33]

Milli dəyərlərimizdən olan toy adətlərimiz oxşar cəhətləri ilə yanaşı, fərqli xüsusiyyətləri ilə də seçilir. Aşağıda təsvir edilən toy adətləri doğulduğum, boya-başa çatdığım, ahıl adamlardan eşitdiyim, görüb şahidi olduğum Qubadlının toy adətləridir.

Qaçqınlıq həyatı ilə bağlı olaraq, ayrı-ayrı zonalarda məskunlaşdıqlarına görə bu adətlər tam halda keçirilmir. Ona görə də təsvir edəcəyimiz adətlər qaçqınlıqdan əvvəl, 70-80 ci illərdən başlayaraq

[33] Yazını Sevinc Bağdadova hazırladı.

1993-cü il 30 avqust – işğal gününə qədər olan dövrü əhatə edir. Onu da qeyd edək ki, ərazidə toylar daha çox payız aylarında keçirilirdi. Yayda, qışda az hallarda toy olurdu. Yaşlıların dediyinə görə, may ayı boş, uğursuz, xoşbəxtlik gətirməyən bir ay kimi dəfələrlə elin sınağından keçirilib. Ona görə də indiyə kimi, bu ayda heç bir xeyir iş, toy keçirilmir.

Toy mərasimi bir neçə mərhələdən keçir. *Qızseçimi* məsələsində məcburiyyətə yol verilmir. Bu mərhələdə oğlanın seçimi əsas tutulur, yaxud ata-ananın arzusuna uyğun hərəkət edilir. Qızın bəyənilməsi əsasən toylarda olurdu. Qız daha çox dövranda (gecə toyu) bəyənilərdi. Məsələn, oğlunu evləndirmək istəyən ata hansı qızdan xoşu gəlibsə, ağır bir oyun havası çaldırıb həmin qızı rəqsə dəvət edir, həm əlinə pul verir, həm də başına pul tökür. Bununla da bildirmək istəyir ki, qızı oğlu ücün alacaq. Doğrudan da el-oba arasında işlənən "Toy toyu gətirər" deyimi düz çıxırdı. Yəni kənddə hər bir toy yeni bir xeyir işin başlanmasına səbəb olurdu.

Göbəkkəsdi yolu ilə evlənmə az hallarda olur. Bu yolla deyiklənən qız bir qədər nüfuza malik olur. Bütün kənd həmin qıza hörmət edir. Oğlan evi uşaqlıqdan qızı qorumağa çalışır. Həmişə qızı görməyə gedirlər. Bütün bayramlarda onun adına xonçalar aparılır. Ona görə də heç kəs həmin qıza elçi getmir. Sonralar bu yolla evlənməyə üstünlük verilmədi. Sərbəst seçimə əsas yer verildi. Bütün bunlar toyun başlanmasına qədər olan mərhələdir.

Qızı yəqinləşdirdikdən sonra *elçilik* başlanır. Elçilik iki hissədən ibarət olurdu; böyük elçilik və kiçik elçilik. Kiçik elçilik qadınların elçiliyidir. Bir neçə qadın – oğlanın anası, xalası, bibisi, bacısı və s. məqsədlərini bildirmək üçün qızgilə gedirlər. Qızın ağzını aradıqdan sonra elçiliyin yeni mərhələsi başlanır.

Böyük elçilik kişilərin elçiliyidir. Ağsaqqallardan ibarət elçilər dəstəsi (oğlanın atası, əmisi, dayısı və s.) qız evinə gedirlər. Birinci və ikinci elçilik baş tutmur. Əgər razılıq tez verilsə, qız evinin el-obada nüfuzu aşağı düşər. Nəhayət, dördüncü və ya beşinci elçilikdə qızın atasının razılığı alınır. "Hə" cavabını eşidənə qədər

elçilər süfrədə heç nəyə əl vurmurlar. Sonra onların şərəfinə yemək-içmək verilir.

*Nişanqoyma* dəbdəbə ilə keçirilmir. Çünki ərazidə bunun düşər-düşməzi olmasına inam var. Çox vaxt üzük aparılmır. Nişan adeləmə ilə əvəz edilir. Bu da bir neçə qadının iştirakı ilə başa çatır. Oğlanın bacısı qızın başına qırmızı yaylıq örtür. Qız ad edildikdən sonra heç vaxt toyu gecikdirmirlər. Bundan sonra toyun başlanmasına hazırlıq görülür.

*Ağsaqqallıq* Qubadlı toylarının əsas sütununu təşkil edir. Bu, çətin və məsuliyyətli bir vəzifədir. Həmin vəzifəyə təyin edilən həm nəslin tanınan, sözü keçən, həm də el-oba tərəfindən hörmətlə qarşılanan nüfuzlu bir şəxs olmalıdır. Həmin ağsaqqal toyun bütün məsuliyyətini əvvəldən-axıra qədər öz üzərinə götürür. Bir növ oğlan atası da ağsaqqala tabedir. Onun qoyduğu qayda-qanunları belə pozmağa ixtiyarı yoxdur. Ona görə də kənddə toyun necə keçəcəyini bilmək üçün birinci olaraq onun ağsaqqalını soruşurlar. Toyun başlanmasından bir həftə əvvəl münasib bir gündə hər iki tərəfin iştirakı ilə qızgildə toyun vaxtı təyin edilir. Sonra yol danışılır. Yol oğlan evinin qız evinə verəcəyi toy xərci deməkdir. Toydan bir neçə gün qabaq oğlan evinin ağsaqqalı qız evində yolun (xərcin) miqdarını müəyyənləşdirmək üçün danışıqlar aparır. Bəzən bu danışıqlar baş tutmur. Bu da qız evinin yol xərcini çox istəməsindən irəli gəlir. Ona görə də bu məsələni həll etmək üçün xüsusi bacarığı olan adamları cəlb edirlər. Onu da qeyd edək ki, hansı qız evi bu cür yol tutursa, el-oba tərəfindən yaxşı qarşılanmır, hörmətsiz olur. Yol üçün qoyulan xərc təxminən belə olur, iki-üç qoyun, bir tay düyü, bir tay qənd, yağ, məmər (nəmər), şirniyyat, pendir, müəyyən miqdarda müxtəlif tərəvəz və s. Yolu aparanda qızın ata-anası üçün də xələt aparılır.

Toy bir həftə müddətində, birinci günündən başlayaraq bazar günü axşama qədər davam edir. Ona görə də bir kənddə iki toy olmur. Çünki həftənin hər gününün öz xüsusiyyəti var. Hətta xeyri-şəri bir olan kəndlərdə də həmin gün toy olmur.

Birinci gün – duz günü ağır gün hesab edilir. Ona görə də bu gün heç bir adət keçirilmir. Sadəcə, görüləcək işlər barəsində hər kəsin vəzifəsi müəyyən edilir.

Həftənin ikinci günü toyun ən maraqlı hissəsi Çörəkbişdi mərhələsi başlanır. Bu adət çox təmtəraqla keçirilir. Kəndin toy məclislərinin çorəyini bişirən çörəkçillər dəstəsi olur. Çörəkçilər dəstəsi səhər-səhər, gün cıxmamış toy evinə gəlir. Gün batana qədər çörək bişirirlər. İki-üç tay (kisə) un yoğrulur. Təxminən iki yüz bükümə yaxın yuxa salınır. Hər büküm də dörd yuxadan ibarətdir. Həyətdə dörd-beş sac qalanır. Hər sacın başçısı olur. Yuxanın yaxşı bişməsi daha cox sacın küllənməsindən asılıdır. Ona görə də ev yiyəsi bu işi əli yüngül, ruzili olan bir adama tapşırır. Həmin qadın ürəyincə olan şirinliyi almamış sacı külləmir. Hər sacın öz dəstərxanı (süfrəsi) olur. Hər süfrənin üç-dörd nəfərdən ibarət işçisi olur. Böyük və kiçik yuxa yayan, yuxanı çevirən, sac altı qalayan. Kündənin (hər bir yuxanın xəmir şəklində olan yumru forması) vərdənasını (yuxanın kicik forması) açana kiçik yuxa yayan deyilir. Böyük yuxa yayan yuxanı hazır vəziyyətə gətirir. Bunlar da ayrı-ayrılıqda ev yiyəsindən şirinlik aldıqdan sonra çörəyi salırlar. Onlar şirinlik almaq istədiklərini hərəkətləri ilə bildirirlər. Məsələn, kündəni yaymamaqla, ocağı tüstülətməklə, ilk yuxanı yandırmaqla şirinliklərini istəyirlər. Həmin gün zarafat olaraq toy evinin “müflis günü” kimi qeyd olunur. Toy evinin ən yaxın adamları gəlib hər sacın başçısına çörəkbişdinin şirinliyini verir. Məclisin axırında verilən şirinliklər çörəkçilər arasında bərabər sayda bölüşdürülür. Sonda onların şərəfinə yemək-içmək verilir.

Onu da qeyd edək ki, qız evində (oğlanla qız eyni kənddən olanda) çörəkbişdi həftənin üçüncü günü olur. Mütləq oğlan evindən bir nəfər gəlib qız evində un xaralının ağzını şirinlik verdikdən sonra açdırır. Bundan sonra xəmiri yoğururlar. Həftənin dördüncü günü toyun *paltarbiçdi* hissəsi başlanır. Paltarbiçdi qadınların yığıncağıdır. Bu yığıncaqda kişilər iştirak etmir. Xüsusilə xeyri-şəri bir olan qonşu kəndlərin arvadları da bu məclisdə iştirak edir. Qadınları toya təlif (çağırmaq) etmək üçün iki təlifçi (dəvət edən, carçı) olur. Tə-

lifçilər də paltarbiçdidən bir gün əvvəl, yaxud həmin gün hər evin bir qadınını paltarbiçdiyə təlif edir. Təlifçilər dəvəti sakitcə yox, ucadan car çəkir ki, bütün kənd eşitsin. Məsələn, filankəs sizi oğlunun paltarbiçdisinə dəvət edir, subaylarınızdan görəsiniz və s.

Paltarbiçdi iki hissədən ibarətdir. Birinci hissədə gəlin üçün alınmış paltar və qızıl əşyaları göstərilir. Bu işi iki qadın həyata keçirir. Onlar həm səs, həm də boy-buxun baxımından fərqlənirlər. Xüsusi bir aktyorluq qabiliyyətinə malik olurlar. Həmin qadınlar qırmızı lentlərlə bəzədilmiş gəlin çamadanlarını başları üstünə alıb məclisə gəlirlər. Xeyir-dualarla, alqışlarla "balalarınızdan görəsiniz" deyib onlar üçün bəzədilmiş yerə keçirlər. Gəlin üçün alınmış paltarları bir-bir göstərirlər. Zarafatla "hələ bu kənd belə paltar görməyib" deyə məclisi daha da şənləndirirlər. Bu hissədə musiqi çalınmır. Paltar göstərmədən sonra məmər paylamaq hissəsi başlayır. Bizdən fərqli olaraq başqa zonalarda məmər nəmər formasında toya salınan pula deyilir. Bu hissəni də iki qadın həyata keçirir. Məmər üçün kiçik torbalar tikilir. Hər torbaya bərabər sayda, məsələn, iki konfet, üç peçenye, bir neçə noğul qoyulur. Torbanın ağzı qırmızı lentlə bağlanır. Şirniyyatın azlığına baxmayaraq bu torba toyun simvolik mənasının daşıyıcısıdır. Təsadüfən bir kəndə gedəndə kiminsə əlində bu torbadan varsa, bu da həmin kənddə toyun olduğunu bildirir (əvvəllər məməri balaca qabda verirdilər).

Qadınlardan biri məmər torbaları ilə dolu süfrəni belinə bağlayır. O biri qadın isə toya salınan pulların siyahasını yazmaq üçün dəftər-qələm götürüb birlikdə məclisə gəlirlər. Onlar vəzifələrini oturaq vəziyyətdə deyil, toyxananı gəzə-gəzə həyata keçirirlər. Belə olanda məclis daha da maraqlı olur. Məsələn, onlar hər bir qadının qarşısında dayanaraq toya yazdırdıqları pulun miqdarını ucadan elan edirlər. Məsələn, filankəs 100 manat, oğluna, qızına borc olsun. Sonra onların hər birinə bir məmər torbası verilir.

Paltarbiçdinin birinci və ikinci məclisi qonşu kəndlərdən gələn qadınlar üçün təşkil edilir. Axırıncı məclis isə kəndin qadınlarına aid olur. Bu məclisdə daha çox ailəli qadınlar iştirak edir.

Beşinci gün günortadan başlayaraq bazar günü axşama qədər toy çalınır. Bir müddət toyu şənbə günündən çaldırdılar. Lakin bu qayda toyu şənliksiz etdiyinə görə ləğv edildi. Kişi də, qadın da eyni toyxanada rəqs edirlər. Onu da qeyd edək ki, musiqiçilərin hamısına aşıqlar deyilir. Aşıqlar iki dəstədən ibarət olur. Birinci dəstəni xanəndələr, ikinci dəstəni isə zurnaçılıar təşkil edir. Zurnaçılar əsasən gündüz toyunu, xanəndələr isə həm gecə, həm də gündüz toyunu idarə edir. Gecə toyunun başlanmasından bir-iki saat əvvəl, təxminən axşam saat 5-7 arası fasilə olur. Bu da əsasən kənd camahatının mal-heyvanlarının yerbəyer etməsi üçün edilir. Axşam saat yeddidən sonra dövran – gecə toyu başlayır. Gecə saat 12-yə, 1-ə qədər davam edir. Toya baxmağa heç kəsi xüsusilə dəvət etmirlər. Yəni hamı baxmağa gəlir. Nəinki həmin kəndin adamları, hətta qonşu, uzaq kəndlərdən də dövrana tamaşa etməyə gəlirlər. Aşıqların stolunun üstünə qırmızı məxmərdən olan süfrə salınır. Üç gün müddətində rəqs meydanını idarə edən, səliqə-sahman yaradan bir şəxs olur. Həmin şəxsə *toybaşı* deyilir. Toybaşı kişi olur. Hər kəndin bir-iki toybaşısı olur. Onlar illərlə toylardan sınaqdan çıxmış, təcrübəsi olan adamlardır. Yaş baxımından nə çox cavan, nə də çox qoca olurlar. Onun qoluna qırmızı yaylıq bağlayırlar. Toybaşının nar ağacından düzəldilimiş bir çubuğu olur. Buna bəyin toy çubuğu deyilir. Çubuq qırmızı lentlərlə bəzədilir. Bəzən buna əhd, niyyət çubuğu kimi də baxılır. Məsələn, kimsə əhd edir ki, bir iş var, düzəlsin, filankəsin oğlunun toy çubuğunu özüm hazırlayacam və s.

Toybaşı nizam-intizamın çoxunu çubuğun köməyi ilə yaradır. Çubuğu müxtəlif formalarda hərəkət etdirir. Məsələn, rəqs zamanı çubuğu üç dəfə yerə vurmaqla rəqsi dayandırmaqlarına hazırlıq işarəsidir. Əgər onun dediklərinə əməl etmirlərsə, çubuğu göyə qaldırmaqla musiqiçilərə çalmamaq əmrini verir. Toybaşı musiqi fasiləsi zamanı adamların darıxmaması üçün özünü lallığa və karlığa qoymaqla, balaca uşaqları oğurlamaqla gülməli hərəkətlər edir. Toybaşı toya gələn kişilərin qarşısında oynaya-oynaya gedərək bu sözləri üç dəfə ucadan deyir: məsələn, ay şabaş, ay şabaş, ay şabaş. Allah evinizə toy qismət eləsin – deyib onlardan aşıqlar üçün xələt

alır və onları rəqsə dəvət edir. Rəqs zamanı hörmət əlaməti olaraq oynayanların başına istər qadın, istərsə də kişi olsun pul tökurlər. Həmin pul aşıqlara verilir. Onu da qeyd edək ki, pul ancaq qadın, qızların əlinə verilir. Rəqsin sonunda ələ verilən pul toybaşıya verilir. Toybaşı da pulun miqdarı azdırsa aşıqlara, çoxdursa az bir hissəsini çıxıb çoxunu yiyəsinə qaytarır. Həmin pul da aşıqlara çatır. Hər rəqs üçün edilən sifariş pullu olur. Bu pulun miqdarı hamı üçün eyni qaydada təyin edilir. Oyun zamanı qayda-qanunlara xüsusi fikir verilir. Hər musiqi çalınanda hamı oynamır. Çünki buna çox pis baxılır. Ona görə də heç kim bir-birinin rəqsinə müdaxilə edib dəvətsiz rəqs etmirlər. Hər kəs öz növbəsini gözləyir. Hər dəfə çalınan musiqinin öz sifarişçisi olur. O da ürəyi istədiyi adamları rəqs edə-edə ya özü, ya da toybaşı vastəsilə rəqsə dəvət edir. Toybaşının zəhmət haqqını ev yiyəsi deyil, aşıqlar verir.

Beşinci gün yemək-içmək verilmir. Altıncı gün qızğın oyun olur. Ancaq uzaq yerdən gələnlərə yemək-içmək verilir.

Oğlanla qız eyni kənddən olanda *xınayaxdı* altıncı gün olur. Adətən, xınayaxdıda yaşlı arvadlar iştirak etmir. Bir neçə qız-gəlin xına xonçasını götürüb qız evinə gedirlər. Xına xonçası şirinlik verildikdən sonra açılır. Hörmət əlaməti olaraq xınanı oğlanın kiçik bacısı yaxır. Qızın bir əlinə özünün, o birisinə isə oğlanın adı yazılır. Xınanın yarısı isə oğlan evinə aparılır. Oğlanla qız eyni kənddən olanda qız evində toy altıncı günü başlanır.

Paltarbiçdi altıncı gün olur. Toyu oğlan evindən bir nəfər gəlib açır. Musiqi bazar günü çalınır. Oğlan evindən bir nəfər aşıqların xələtini verəndən sonra toy çalınır. Qız evinə aşıqları oğlan evi gətirir.

Toyun ən maraqlı hissəsi *Yallı* oyunudur. Kəndin on-on beş nəfərdən ibarət cavan oğlanları yallı çəkirlər. Oyunun maraqlı keçməsi yallıbaşçısından (dəstə başı) asılıdır. Onun əlində söyüd ağacından düzəldilmiş şiv (nazik, uzun, qatlanan çubuq) olur. Dəstəbaşı tək rəqs deyil, həm də rəqs altında müxtəlif hərəkətlər edir. Əsas məqsəd cavanların gücünü, hazırcavablığını, diqqətini yoxlamaqdır. Ona görə də yallının başçısı gözlənilmədən elə hərəkətlər edir ki, onların gücünü yoxlasın. Məsələn, dəstəbaşı qəflətən əks istiqamətə

dönür. Dəstənin üzvləri də həmin anda o istiqamətə dönməlidirlər. Əgər göstərişi dəqiqliyi ilə yerinə yetirə bilmirlərsə, çubuq vasitəsilə cəzalandırılır və oyundan çıxarılır. Onun yerinə başqası gəlir. Yaxud cibindən elə bir əşya çıxarır ki, hamısında olmur. Oyunçular tamaşaçılardan kömək istəyir. Ancaq dəstəbaşı icazə vermir. Yallıbaşçısı qucağına bir oğlan uşağı alır. Həmin vaxt hamısı oğlan uşağı almalıdır. Başqa bir nümunə, məsələn, daraq, yaylıq göstərir. Yaxud toyxananın ortasında çala qazılır. Çalaya su töküb qarışdırılır. Rəqs altında oyunçular bir-bir başını çalaya yaxınlaşdırıb tez də çəkməlidirlər. Gecikən adamın başı palçıqlı suya salınır. Həmin adam utandığından kənddə olan toylarda yallı oynunda iştirak etmir.

Dəstəbaşı hamıya eyni zamanda cəza vermək üçün ağıla gəlməyən elə bir şey çıxarır ki, heç kimdə olmur. Məsələn, sərçə. Yallının sonunda dəstənin üzvləri əvvəlki düzümlərini alırlar. Dəstəbaşı rəqs edə-edə cibindən pul çıxarıb oyunçuların hər birindən eyni miqdarda pul alıb aşıqlara xələt verir. Yallı iki saat davam edir. Hansı toyda yallı olursa, o toy maraqlı olur.

Kişilərin məclisi bazar günü olur. Qonşu kəndlərin kişiləri də bu məclisə təlif olunur. Bu məclis çox ağır məclis olur. Aşıqların bir dətəsi həmin məclisdə çalıb oxuyur. Kişilərə yemək-içmək verilir. Xanəndə oxuya-oxuya adı çəkilən kişiləri pul cəriməsi edir. Cavan bir oğlan da rəqs edə-edə həmin adamlardan şirinlik üçün pul yığıb aşıqlara verir. Onu da qeyd edək ki, kişilər toya pul salmırlar. Pulu paltarbiçdidə arvadlar salır.

Gəlini axşama yaxın gətirirlər. Bəylə gəlin bir kənddən olanda gəlini çox vaxt piyada aparırdılar. Əvvəllər gəlini atla gətirirmişlər. Bəy gəlin gətirməyə son zamanlarda gedirdi. Qabaqlar gəlini gətirən zaman bəyi hündür yerə çıxarırdılar ki, hər bir işdə oğlanın sözü keçsin. Yaxud gəlin bəyin corabının bir tayını geydirərdi. Əvvəllər gəlinin paltarı, ayaqqabısı qırmızı olardı. 60-cı illərdə gəlinin başına qırmızı şamaxı və yaxud zəkiyyə deyilən ağ saçaqlı yaylıq atarlarmış. Yeddi-səkkiz xonça bəzədilir. Xonça iki cür olur; böyük və kiçik xonça. Bu adlar xonçanın böyüklüyünə, kiçikliyinə görə deyil, kimin götürəcəyinə görə verilir. Bəyin böyük bacısı bö-

yük xonçanı götürür. Bacısı yoxdursa, qardaşı arvadı götürür. Əvvəllər gəlinə xonçanı çamadanlarda, tabaqlarda aparırdılar. Çamadanı başları üstünə alıb, üstünə də qırmızı ipək, və yaxud şamaxı (qırmızı kələğayı) atırdılar. Qız evinin adamları hər bir xonçanı şirinlik verdikdən sonra alırdılar. Böyük xonçanın xələti daha çox olur. Qızın özü də gəlinlik güzgüsü gətirir. Gəlinin yengəsi güzgünü götürür. Gəlinlik güzgüsü pis nəfsləri, pis gözləri qaytarır. Gəlinin belini öz qardaşı bağlayır. Qırmızı lenti üç dəfə gəlinin ayağı altından keçirəndən sonra bağlayır (Əvvəllər qırmızı yaylıqla bağlayardılar). Oğlanın atası-anası gəlini gətirməyə getmir. Onları ağsaqqal əvəz edir. Toylarımızda *süd pulu* deyilən bir adət var. Süd pulu oğlan evi tərəfindən qız anasına verilən halallıq şirinliyidir. Gəlini atası evində qapının astanasında saxlayırlar. Qızın anası gəlib "Südümü sənə halal edirəm" deyib xeyir-duasını verir. Sonra oğlan evi anaya 100-200 manat məbləğində süd pulu verir. Bunu ona görə belə edirlər ki, gəlin qayınata evinə gəldiyi gündən qudumu yüngül olsun, yəni uğursuz, ayağı ağır bir gəlin kimi tanınmasın, xeyir-dualı olsun.

Adətlərdən biri də budur ki, gəlini qayınata evinə gətirən zaman, hələ həyətə gəlməmiş, bəyi evdən uzaqlaşdırırlar ki, evə ilk dəfə qədəm basan gəlinin ağırlığı bəyin üstünə düşməsin. Yaxud gəlin həyətə gələn zaman tüfəng atırlar ki, həm ağırlıq düşməsin, həm də bədnəzərlər dağılsın. Gəlini oğlan evinə gətirən zaman evə girməmiş qapınını astanasında saxlayırlar və ayağının altına boşqab qoyurlar ki, sındırsın. Gəlin də dabanı ilə boşqaba üç dəfə zərbə vurur. Əgər birinci zərbədə sındırsa, hökümlü bir gəlin kimi tanınacaq. Ona görə də gəlin abır-həya edib boşqabı üçüncü zərbədə sındırır. Boşqabın sındırılması evə gələn qada-bəlanın, pis nəfslərin qarşısının alınması üçün edilir.

Oğlanın atası gəlin gələn zaman gəlinlə bəyin ayağı altında qoyun kəsir. Qoyunun qanından onların xoşbəxt olmaqları üçün hər ikisinin alnına sürtür. Gəlinin qədəmləri uğurlu olsun deyə onun başına şirniyyat (konfet, noğul və s.), qəpik pul tökürlər. Maraqlı adətlərdən biri də qız evindən əşyaların götürülməsidir. Gəlini gəlib aparanda

oğlan evi qız evindən fürsət tapıb ürəklərincə olan əşya götürürlər. Bununla da onların gücünü yoxlamaq, yaxud zarafat olaraq onlara "yandıq" vermək, həm də gələcəkdə gəlini acıtmaq istəyirlər. Qız evi də əvvəlcədən buna yol verməmək üçün bütün evi nəzarətdə saxlayır.

Gəlin gətirən zaman maraqlı adətlərdən biri *yolkəsmədir*. Şirinlik almaq üçün müxtəlif bəhanələrlə yolu kəsirlər. Məsələn, yoğun çatı ilə (kəndirdən saç formasında hörülən yoğun ip) yolu bağlayırlar. Böyük bir maşını yolun ortasında saxlayır, yaxud böyük daşları topalayıb istədikləri xələti aldıqdan sonra yolu açırlar. Gəlin maşını əvvəllər qırmızı şamaxı ilə bəzədilərdi. Böyük bir şamaxını və ya qırmızı ipəyi maşının qabağına bağlayırdılar. Sonralar şamaxının üstünə gəlincik qoydular. Əvvəllər toydan bir xatirə olaraq gəlincik gəlin gətirən maşının sürücüsünə qalardı. Sonralar həmin adət yığışıldı. Onun əvəzinə sürücüyə şirinlik olaraq pul xələt verildi. Gəlin qayınata və qayınananın xeyir-duasından sonra oturur. Qayınata hörmət əlaməti olaraq gəlinə böyük bir şey hədiyyə edir. Bu da əsasən ya balalı inək, ya da quzulu qoyundan ibarət olurdu. Gəlinin qucağına oğlan uşagı qoyurlar ki, ilk uşağı oğlan olsun. Onu da qeyd edək ki, əvvəllər təzə gəlin yaşlıların (daha çox kişilərin) yanında hörmət olaraq danışmırdı. Onları gördükdə ağızlarına yaşmaq vurardı, nə qədər danışdırmaq istəsələr də, cavab vermirdi. Həmin ağsaqqal da gəlini danışdırmaq üçün ona xələt alır, ailəsinin yanında yaşmağı açdırırdı. 80-cı illərdə buna az hallarda rast gəlinirdi. Əvvələr təzə gəlin heç vaxt ərinin adını çəkmirdi. Başqa bir ad altında, məsələn, "özü", "o", "uşaqların atası" deyə müraciət edirdi. Təzə gəlin heç vaxt böyük qayınının, böyük baldızının adını öz adı ilə deyil "qağa", "bacı" deyə çağırırdı. Cehiz gəlinlə birlikdə gətirilir. Ancaq gəlin evə keçdikdən sonra cehiz boşaldılır. Gəlinin qardaşı cehiz maşınında oturur. Gəlin gələndən sonra ev bəzədilir. Cehiz məsələsində məcburiyyətə yol verilmir. Yorğan-döşək 3 dəst olur. Qayınanaya hörmət əlaməti olaraq qayınana döşəkçəsi tikilir, ancaq qayınanaya verilmir. Adətə görə, qayınana gəlinigilə gələndə bu döşəkçədə oturmalı idi. Altı ədəd stulüstü döşəkçə, mütləq bir sandıq, bir samovar verilir. Əvvəllər təxminən 60-

cı illərdə gəlinin cehizinin çoxluğu onun tikmələrindən asılı idi. Ağ parçalar üzərində rəngli saplardan müxtəlif güllər tikirdilər. Bunlardan divar, çarpayı, samovar, tikiş maşını, pəncərə və s. üçün örtüklər hazırlayırdılar. Əl işlərini çox aparan qız hörmətli olarmış. Qız evi gəlinin bütün cehizlərinin siyahısını bir necə adamın şahidliyi ilə tutub oğlan evinə verirdilər.

*Üçgünlük* (gəlinin üzəçıxdısı) toydan 3 gün sonra keçirilir. Qız evi gəlini görməyə gəlir. Burda ancaq ailəli qadınlar iştirak edir. Bəzi zonalardan fərqli olaraq qızın anası üçgünlükdə iştirak edir. Gəlinin qızlıq paltarı gətirilir. Üçgünlüyün yemək tədarükünü qız evi gətirir. Ya yeməkləri bişmiş halda – hazır gətirir, ya da çiy ərzağı gətirib oğlan evində bişirirlər. Bu məclisdə iştirak edən qadınlar gəlin üçün hədiyyələr gətirirlər. Əvvəllər qızın anası üçgünlüyə mütləq sacarası (iki sacın arasında yağda bişən şirin çörək) bişirib aparardı.

Qız atası evinə *ayaqaçdıdan* (qonaqçağırma) sonra gedir. Ayaqaçdı çox tez olmur. İstəyirlər ki, gəlin qaynata evinə tez alışsın.

Uşaq dünyaya gəldikdən sonra yorğançasını qızın anası hazırlayır. Bədnəzərə xüsusii fikir verildiyinə görə,  qırxlı uşaq olan evə qırx gün kəndin adamları getmir. Uşağın adı oğlan evi tərəfindən, əsasən, qırxı çıxandan sonra qoyulur. Uşağın başını bir yaşı tamam olmamış qırxmırlar. Başının ilk tükünü (bu tük haram adlandırılır) mütləq uşağın dayısı qırxır. Qırxdıqdan sonra uşağa pul verərək tükü satın alır. Bizim zonada dağdağan ağacına müqəddəs, nəzər qaytaran bir ağac kimi baxılır. Ona görə də uşaq anadan olan kimi bu ağacdan kiçik hissə kəsilir, qabığı soyulur və qurudulur. Sonra qızmış dəmir parçası ilə dağlanır və uşağın üstünə taxılır. Ona görə belə edirlər ki, uşağa gələn qada-bəla, pis nəfslər, bədnəzərlər bu cür dağlansın.

## ÇİLƏYƏ DÜŞMƏK

Bala, mən çilə haqqında uşax vaxtı nənəmnən eşitmişəm. O vaxtdan yadımda qalıf. Nənəm deyirdi ki, nabada iki qırxlı, yanı uşağı oluf, hələ qırxı çıxmamış iki gəlin bir-birinin üstünə çıxa. Onnarın uşaxları çiləyə düşür. Bu belə olur. Əgər həmən gəlinnər

bir-birinin üstünə gəlirsə, həmin qadınnarın ağırrıxları təzə olmuş uşaxlarının üstünə tökülür, çiliyə düşürlər. Uşağın ayağı bir-birinə dolaşır. Nə qədər eliyirlərsə, ayağı bir-birinnən ayıra bilmirlər. Ona görə də zahı gəlinnərin üstünə iynə taxırlar. Bax, belə bir vəzyət yarananda, yanı üz-üzə gələndə həmin gəlinnər uşaxları çiləyə düşməsinnər deyə üstlərindəki iynələri bir-birlərinə verməlidirlər, yəni dəyişməlidirlər. Onda uşağın ayağı dolaşmır.

Yox, əgər üz-üzə gələn zahı gəlinnərin birində iynə var, o birində yoxdursa, iynəsi olan gəlinin ağırrığı iynəsi olmuyanın üstünə tökülür. Ona görə də tez uşağı götürüf həmin iynəsi olan qadının ayaqlarının arasınnan üş dəfə keçirillər ki, uşax çiliyə düşməsin.

Əgər uşağın çiliyə düşməsini bilməsələr, elə uşağın ayağları bir-birinə sarılmış vəzyətdə qalır.

## HƏMZATLI QADIN

Bala, həmzat yaxşı şey dəyil. İndi mən yetmişi haxlamışam, lap cavannığımdan ağbirçəhlərdən eşitmişəm ki, həmzatın qabağını almasan, yanı vaxtında həmzatı kəsdirməsən, axırı ölümnən qutarır. Eşit, mən deyim. Yanı həmzat nə təər olur.

Həmişə deyirdilər, həmzatdı adamnan qorunun. Məsələn, bir adam tutax ki, özünü yaxşı hiss eləmir, yaxud xəstələnif, yaxud da hər hansı bir çətinniyə düşüf, çox ağırrıxlar içərisində olur. Bax, həmən adam gedif özünə dua yazdırır. Bala, bax, bu cür adam, yanı dualı adam təzə uşağı olmuş qadının üstünə gəlir, həmən o zahı qadın təzə anadan olmuş uşağıynan birlikdə həmzata düşür, həmzatdı olur. Hamı həmzata düşmür ki, ancax zahı qadınnar, bir də uşağı.

Həmən dualı adam zahı qadının üstünə çıxmaxla özünün bütün ağırrığını zahının üstünə tökür, zahıdan da uşağına keçir. Həmin dualı adam olur sapsağlam. Özü də bala, həmzatın üş gün vaxtı var. Həmin adam ağırrığını tökəndə uşağı büzmə tutur, yanı uşağın ağzı büzülür, köpük basır, üç gün-üç gejə ağlıyır, sora ölür.

Əgər qadının həmzatdı olduğunu bilməsələr, nə qədər uşağı anadan olursa olsun, hamısı uşax vaxtı üç gün müddətində ölməlidir.

Ona görə də həmzatdı qadını uşağı olmamışdan qabax aparıf uşax boyu deyirlər, onu kəsirlər boş bədənə. Onnan sora uşax qalır. Yanı uşax boyuna dua yazırdılar. Buna boylama duası deyirdilər. Həftədə bir dəfə uşax boyuna dua yazırdılar. Özü də, bir ay, qırx gün ərzində olurdu. Bax, bu yolnan həmən qadının həmzatını kəsirdilər. Bala, həmzat həkimlik deyildi ki, onu ancax seyiddər, mollalar kəsirdi.

Bax, mənim qardaşımın arvadı həmzatdıydı. Dalbadal dörd uşağı bu cür ölmüşdü üç günün içində. Bala, mənim bir bibim qızı oluf, mən uşax olmuşam. Anam deyərdi ki, mənim həmin bibim qızının həmzatı olmuşmuş. Ta gəlinə uşağı qalmadığına görə hər şey deyirmişdər. Bir günnəri buna kimsə deyif ki, bəs it küçühləmişmiş, get itin üstünə. Bu gəlin də dedikləri kimi eliyif, gedif itin üstünə. İtin neçə balası varıymışsa hamısı ölüf. Gəlinin həmzatı itə keçif da. Sora uşaxları qalıf.

Bir şeyi də deyim ki, qızım, kəntdə bilirdilər ki, məsələn filankəs həmzatdıdı. Əgər zahı qadın varıydısa, onu dörd tərəfdən həmin həmzatdı adamlardan qoruyurdular. Bala, həmzata uşağ anadan olur ha, bax, birinci on günnüyündə düşürlər. Ona görə də bu on gün çox qorxulu gündü. Həmzat o qədər pis şeydi ki, bala, vaxtında aparanda kar eliyirdi, aparmıyanda isə kar eləmirdi. Yəni kar eliyəndə uşağı olurdu ölmürdü, kar eləmiyəndə isə uşağı oluf ölürdü.

## CİN DƏYİŞƏYİ

Qırxlı uşaxların üstünə iynə, sancax asarlar, yastığının altına qayçı qoyəllər ki, cin uşağı dəyişdirməsin. Körpəni qoorğanmalısan da, yanı körpəyə bir şey olmasın.

Bir dənə qırxlı uşax olur. Günü gündən baxırlar ki, uşax dəyişilif, eybəcər bir uşağa dönür. Anası da tez-tez çölə çıxırmış, iş görürmüş, uşax təh qalırmış. Nəysə, deyillər ki, uşağı cin dəyişif. Ona gora da uşax belə şəklə düşüf, cinə oxşuyur. Heş kəs uşağa əlaj eliyə bilmiyif. Axırda bir dənə vergili arvad, cin dəyişmiş uşağın dərdinin əlajını deyir. Deyir ki, uşağın anası, bir də bir nəfər, iki nəfərdən artıx olmamalıdı, uşağı aparın qəbirsannığa. Amma nə dala

baxmıyasan, nə də dinmiyəsən. İki qəbir keçin, üçüncüdə uşağı qoyun qəbrin yanına. Bunu da ancaq ana etməlidi. Ana uşağa baxmadan, geri dönmədən getməlidi.

Qəbrin yanında olan arvad uşağ ağliyəndə anasını çağırmalıdı ki, gəl, uşağın ağlıyır. Uşağını gəl götür. O da deməlidi ki, o mənim uşağım dəyil, o mənim uşağım dəyil. Mənim uşağımı versinnər. Bu qaydaynan üç dəfə, üç gün özü də axşam üstü, toran düşəndə aparmalısan, maləyağında dana. Üş günnən sora uşax özünə qayıdırmış, olurmuş əvvəlki kimi. Bı dedihlərim yalan dəyil e, bala. Bınnar hamısı olan işdərdi. Hamısı sınaxlardan keçirilif. Ona gora da təzə anadan olan uşağı evdə təh qoymazdar.

## SÜRƏKÇİ

Bizim ətrafda yaxşı ovçular olub. Sürəkçidən çox şey asılıdı. Yaxşı hayqırmalıdı, bilməlidi ki, harda səs çıxarmalıdı, harda səs çıxarmamalıdı. Həm də ovçuya yaxşı istiqamət verməlidi. Ovçular da elə yerdə durmalıdı ki, ov gəlif ordan keçəndə vursunnar. Ov üçün də düşərli günlər vardı. Mən yaşlı nəsildən eşitmişəm, heş vaxtı duz günü ova getmiyiflər. Həmin gün ağır gün idi. Sürəkçilər adətən cavan uşaxlar olurdu. Onnar çox gəzməli idi, bir az cəld, zirək olmalıdı, iti qaçmalıdı. Mən deyərdim ki, ovun təminatını yaxşılaşdıran sürəkçidi. Ovçu bir dərədə pusquda durur ovu gözdüyür, amma ovu ora gətirən, haylıyan sürəkçidi. Ov vurulur, qənimət paylananda bir pay da sürəkçiyə verirdilər.

## UŞAĞIN İLAN BOĞAN VAXTI

Ər-arvad olur, bınnarın ikisi də kəfşənə işdəməyə gedirlər. Kişi zəmini bişmağa gedif, arvad uzanıb ağajın dibində yatıf, özü də ağzı açıx. Kişi gəlif ki, su işsin. Görüf ki, gəlinin ağzına bir ilan girdi. Ta heş nə demiyif evlərinə qayıdırlar. Kişinin arvadı da boyluymuş da. Kişi bu hadisəni bir adama demir. Özü qorxudan günü-günnən əriyif yorğan-döşəyə düşür. Qorxur ki, arvadına, uşağına

ilan nəysə eliyəjəh. Vaxt gəlir, uşax anadan olur. Görüllər, bay, uşağın biləyinə bir ilan sarılıb, başı da uşağın barmaxları arasında sıxılıb, boğulub avcında ölüb. Deyillər ki, qurban olduğlarımız ananı da, uşağı da qoruyuf. Bala, həmişə deyillər ki, uşağın ilan boğan vaxtı. Allah-taala uşağa elə güj verir ki, anasının qarnında da uşağ ilanı boğur. Nahax demiyiflər ki, uşağın ilan boğan vaxtı.

## AXSIL

Körpə uşaxların, elə bil ki, bir aylıx, ay yarımlıx uşaxların ağzına ağ yara düşürdü. Belə qabıx kimiydi. Yaşdı adamlar deyirdilər ki, bəs uşağın ağzındakı yara axsıldı. Yaranın adıdır dana. Nənəm mənə deyərdi ki, uşağın ağzı elə olanda, axşamüstü, dar vaxtı, toran düşəndə heş kəsə demədən uşağı apar, bir axar suyun, arxın üstünə. Bir dəfə addıyırsan suyun o tərəfinə, deyirsən:

Salaməlöyküm sucığaz,

Bir dəfə də addıyırsan suyun bı tərəfinə, deyirsən:

Əlöyküm salam sucığaz.

Üçüncü dəfə deyirsən ki:

Qırx kilsiyə od düşüf,
Dərmanıdı bıcığaz.

Həylə deyif o sudan üç damcı atırsan uşağın ağzına, götürüf gəlirsən. Onnan da yara sağalır.

## İNAMLAR

1. Bala, yarasa gejə quşudu. O, ancax gejələr uçur. Uşaxlıxdan eşitmişdih ki, yarasanı tutasan, buraxasan, əlini nehriyə salasan, nehrə guya yağlı olur.

2. Bizdərdə gözdü adamlara, xayın adamlara kəlniyyət deyillər.

3. Deyirdilər ki, göz yarasını ancax gözü olan şeylər apara bilər. Heyvan kəsəndə, məsələn, inəyin, qoyunun gözünün qara bəbəyi olur ha, həmin onu aparırdılar. Bizdə daşdar olurdu, ona xına daşdarı deyərdih. Həmin o gözü aparıp o xına daşına sürtürdüh. Sora onu gətirif sürtürdüh həmin o göz yaralarına. Elə bil bədəndə heş göz yarası yoxuymuş. İki-üç gün ərzində yaradan əsər-əlamət qalmırdı.

4. Göydə Allahdı, yerdə də biz. Bizdən altda da yaşıyan var. Anamız bizə öyüd verirdi ki, bala, biz ortadayıx. Bizim altımızda yaşıyan var. Başımızı yuyanda, onun tükünü möhkəm doluyun, açıx qalmasın. Süpürün atın bir yerə. Deyirdih, nənə, niyə? Deyirdi ki, bala, ilişir hürünün, pərinin ayağına. O saat axsıyır, gedif adamın balasını vurur. Deyir, siz məni incitmiyin, mən də sizi. Həm də tükə üç dəfə tüpürməh lazımdı.

5. Nənəm deyirdi ki, isti suyu yerə töhmüyün. Yeraltı dünyanın sakinlərinin balası yanır. Onnar da qayıdıf adamı vurur, özü də balasını. Bismillah deyirsən sənin dilini yamsılıyır. Ona görə də Bismillahi-rəhmani-rəhim demək lazımdı. Onnarın rəhmani-rəhimə dili dönmür. Bismillah deyəndə o bizə zədə yetirir. Ona görə də tam demək lazımdı.

6. Qaynanam deyir ki, uşax ki, anadan oldu, qırxlı olmur, onda uşağın üstünə tüfənk gətirməyin. Tüfəngi gətirəndə, onun nə qədər ağırrığı var tökülür uşağın üstünə. O uşax ağır olar, həmişə də dərtdə-bəlada olar.

7. Deyillər, uşağın yanına, özü də uşax anadan olanda, yumurta qoyarlar. Deyirdi ki, yumurta uşağa dəyən gözü qaytarır, ağırrıq qaytarır, uşağı yüngülləşdirir.

8. Uşaxlar qırxlı olanda, qaynanam hamıya tapşırırdı ki, evə ət alanda fikirrəşin, bilin ki, evdə qırxlı uşax var. Çiy əti uşağın üsdünə gətirməzlər, özü də qırxı çıxmamış uşağın üsdünə. Onda uşaxda çoxlu səpgilər əmələ gəlir. Özü də nə deyirdi, hamısı çin çıxırdı.

9. Bizim bir qonşumuz varıydı, adı Sayat nənəydi. O, mənə deyərdi ki, a bala, ola bilər qonşuya gedərsən, ya qohum evinə gedərsən. Elə olar ki, evin sahibi evdə olmasın, ya qonax kimi, ya da bir diləh üçün gedərsən. Sahibsiz evə girəndə, o evin dirəhləri əsir. Əsir ki, bəs mənə yad adam girifdi. Ona görə, evin kandarınnan evə keçəndə deməlisən ki, ay ev, sahibin kimi girirəm, sahibin kimi çıxıram.

10. Qoja nənələr bizə həmişə deyirdilər ki, gözəl qızdar alarsınız. Biz də deyirdih ki, ay nənə, niyə? Onda nənəm deyirdi ki, qadasını yaddar alar, özü saa müftə qalar.

11. Mənim xalam, qaynanam bırda – Sumqayıtda qaşqınnıxda 105 yaşında rəhmətə getdi. Xalam rayonda olanda çıxırdı çölə, giridi içəri deyirdi ki, sabah günəş çıxacax. Deyirdih, xala, nədən bilirsən? Deyirdi, ayın qulaxları dihdi. Ayın parası olmur, onda deyirdi ki, ayın qulaxları dihdi, isti olacax. Özü də isti çox uzun sürəcəh. Onu sınıyırdıx, görürdüh həqiqətən düz çıxır. Ayın parasına fikir verin, birdən görürsən paranın ucları yastı olur. Birdən elə olur ki, iynə kimi olur.

Xalam ilin nə cür keçəcəyini də bilirdi. Bir günnəri çölə çıxdı gejə. Gəlif dedi ki, bu il bala, çox-çox quraxlıx olacax, çox istilər olacax, hər yer alışıf yanacax. Dedi ki, ayın qulaxları o qədər dikəlif ki. Ona görə də, ehtiyatlı olmax lazımdı. Həqiqətən də, dediyi kimi oldu. Nə biri o tərəfə, nə də biri bu tərəfə oldu.

Ayın qulaxları yastı olanda hava mülayim olur, orta hava olur, yağışlı, dumanlı.

12. Bir il yağış yağmadı. Taxıl vaxdı idi, yağış da yağmır ki, sünbül dən tuta. Allah rəhmət eləsin Gülpərnən Murada. Gəldilər Mir Əsəd kişiyə ağız aşdılar ki, bir daş at, amma elə yerə at bilinsin da, sora çıxarda bilək. Bu kişi də daşı dərinə atmışdı. Bir həftə elə yağış yağdı ki, Allah, yağışdan tut göyə çıx. Nə qədər axtardılar, daşı tapa bilmədilər. Anda verdilər ki, hankı tərəfə atmısan de, daşı tapıb çıxardax. Mir Əsəd kişi də yaşdaşmışdı. Dedi, vallah, yadımdan çıxıfdı, hansı tərəfə atdığımı xatırlamıram. Amma gedin qırx keçəlin adını sayın bir sapa düyün vurun, onda yağış kəsəcək. Heylə elədilər, səhəri bir gün çıxdı ki nətəri.

# NAĞILLAR

## 1. QARAÇUXASINI AXTARAN KİŞİ

Bir kişi varmış. Bir arvadı, iki uşağı varmış. Nə qədər işdiyirmiş keçinə bilmirmiş. Cəmi bir dənə keçiləri varmış. Bir cındır damda yaşıyırmış. Odun daşıyırmış ayləni dolandırmağa, heş nəynən ödəyə bilmirdi. O qədər əlləşir, əlləşir, bir gün deyir, ay arvad, mən dözə bilmirəm, gedirəm. Deyir, hara gedirsən? Deyir, gedim yatmış qaraçuxamı oyadım da. Deyir, yaxşı get.

Arpa cadı, quru çörək götürür, yola düşür. Görür bir palıd ağacıdı, dibinnən şırhaşır su axır, qupquru quruyuf bu ağac. Yalannan ağacın kölgəsində oturur. Sudan içir, əl-üzün yuyur. Deyir, Allah, sənə şükür. Bu boyda ağacın divinnən su axır, bu qup-quru quruyuf. Bu duruf gedəndə palıd dilə gəlir. Deyir, qardaş, hara gedirsən? Deyir, gedirəm Allah dərgahına. Deyir, Allahdan soruş mənim dərdim nədi ki, bu boyda su dibimnən axır, onnan bir damcı gəlif mənə çatmır.

Sora bir dəryadan keçməli olur. Deyir, ay Allah, mən bu dəryadan nətər keçim? Bir şey ola mən bu dəryanı keçəm. Görür bir balıx gəldi, yekə, cannı balıxdı. Deyir, a kişi, hara gedirsən? Deyir, Allahın yanına gedirəm. Deyir, nəyə gedirsən? Deyir, qaraçuxam yatıf, gedirəm görüm onu oyada bilərəmmi. Deyir, qardaş, bu dəryanı görürsən, mənim sərəncamımdadı. Mənim başımda bir ağrı var, bir ağrı var, nə qədər eliyirik sağalmır. Allah-taalaya deynən bu padşahlıx nədi vermisən mənə, bu baş ağrısı nədi vermisən? Maa bir əncam. Deyir, yaxşı.

Xeyli gedir, gedir, çıxır Allahın dərgahına. Görür and olsun Allaha, bir düzü-biyabandı, biri əkir, biri səpir, biri də o tərəfdən biçir. Balaca-balaca insannardı qarışqa kimi çalışır. Bu görür kü, kolun divində biri yatıfdı. Hamı işdiyir, bu yatıf. Deyir, bu niyə burda yatır, ə? Ağacnan birin gupuyur buna. Deyir, niyə yatmısan? Camahat işdiyir, dur sən də işdə dana. Durur başdıyır işdəməyə. Bu da gedir Allahın dərgahına. Deyir, nəyə gəlmisən? Deyir, vallah, belə-belə, gecə-gündüz çalışıram, iki övladı, bir arvadı dolandıra

bilmirəm, xəcalət çəkirəm. Gəlmişəm görəm mənim taleyim niyə belədi? Camahatdan çox işdiyirəm. Camahat altı saat, yeddi saat işdiyir, mən on dörd-on beş saat işdiyirəm. Gecəm yoxdu, gündüzüm yoxdu. Camahat oyanmamışdan mən gedif şələmi şəlliyif dalıma gəlirəm ki, odun satıf ayləmi dolandırım. Deyir, get, sən qaraçuxanı oyatdın. Deyir, nətər oyatdım? Deyir, o kolun dibində yatan sənin qaraçuxan idi, sən özün oyatdın. Deyir, sənə qurban olum, gələndə mənim başıma belə bir iş gəlifdi. Bir palıtd ağacı var, o maa belə dedi. Onun dibinnən su axır ona bir damcı getmir. Bir də bir balıx məni dəryadan addatdı. Dedi, ağana denən ki, dəryada padşahlığı vermək nədi, başağrısı nədi? Mənim dərdimə çarə. Deyir, gedərsən balığı çağırarsan. Gələjəh dəryanın qırağına. Səni addadajax dəryanın o qırağına. Addadan kimi ağajnan bir dənə onun başına vurarsan. Onun beyninə gedən yolda bir üzük var, Süleyman peyğəmbərin üzüyü ilişif ora. Üzük çıxan kimi götürərsən, dünyanın varı-döölətiynən yarıdı. Başının ağrısı onnan da gedəjəhdi. Palıdın da divin qazarsan, orda böyük bir küpə var. O qoymur ki, ora su gedə. Teyxa ləl-cəvahirdi. Onu da götürüf gedərsən, o da sənin var-dööləti̇n. Deyir, yaxşı.

Dəryanın qırağına gəlir. Balığı səsliyir, balığ gəlir. Deyir, addat o tərəfə dərdinin dərmanını tapmışam. Sahilə çıxanda ağacnan təpəsinə nətər vurursa, pırt eliyif üzük düşür ora. Deyir, get, sənin başının ağrısı bu üzükdən idi. Balıx görür başının ağrısı keşdi, gözünə işıx gəldi. "Çox sağ ol" deyif gedir. Üzüyü götürüf qoyur cibinə, gəlir. Gəlir palıdın divin eşəliyir, eşəliyir, görür küpədi, içi doludu ləl-cəvahir. Çıxardır çölə. Su elə bil birdən-birə hopur palıdın canına, palıd cana gəlir, yarpaxlanır. Ağac buna təşəkkür eliyir. Doldurur qızılı xurcuna, gəlir kəndə. Oranı axtarır, buranı axtarır, evinnən əsər-əlamət yoxdu. Soruşur ki, burda belə bir kişi vardı. Deyillər, o kişi çoxdan gedif. O gedənnən sora o dey o imarəti görürsən, o kişinin imarətidi. Kişi deyir, nətər yanı? Mən bir keçi qoyuf getmişəm, bu imarət hardandı?

Nəysə, gedif çağırtdırır. Görür qul-qarabaş işdiyir burda. Çağırıf deyir, bura kimin evidi? Deyillər, filankəsin. Arvad yuxarıdan

baxır, geyinif-kejinif xanım kimi. Bu da xurcun çiynində, köhnə çındır paltarda. Deyir, o kimdi? Deyillər ki, deyir mən filankəsin əriyəm. Deyir, deyin rədd ol ged ayna, sən gedənnən Allah üzümüzə baxıf. Sənin ayağında çörəy yoxuymuş. Onu qovun getsin.

– Ağız, mənəm ey, sənin ərin.

– Sən allah, güjnən gün tapmışıx.

Deyir:

– Nolufdu?

Deyir:

– Qırğın düşdü, kəntdə bütün mal-qara qırıldı, bir dənə bizim keçimiz qaldı. Padşah da can verirdi, dedilər, buna ancax keçi əti lazımdı. Mən də dedim bizim varımız-döölətimiz, uşaxlarımın, özümün də yeməyim budu. Mən neyniyim bəs? Aşdı xəzinənin ağzını, dedi nə qədər isdiyirsən götür, keçini ver bizə. Keçini verdim. Dedim, maa ev tik. Ev tikdi, qul-qarabaş verdi.

Dedi:

– Arvad, heylə döylü ey.

Başına gələnnəri danışır. Çıxardır xurcunu da qoyur ora. Deyir:

– Qaraçuxamızı oyatmışam, bu var-dövlət onnandı. Yoxsa padşah saa qızıl verən idi? Qaraçuxam oyanıf.

## 2. KOR KİŞİNİN NAĞILI

Gəncədə yas məclisində eşitmişdim, məclisi aparan axund danışırdı. Deyir ki, biri bazarın ağzında oturuf deyir ki, ay camahat, nəzir verin, niyaz verin, mən gördüyümü görmüşəm. Ay camahat, nəzir verin, niyaz verin, mən gördüyümü görmüşəm. Bir nəfər yaxınnaşıf qolunnan tutur. Deyir:

– Yoldaş, sənin iki gözün bimar, bu həyatda nə görmüsən ki, indi də camahata deyirsən mən gördüyümü görmüşəm, nəzir verin. Bu nə təbliğatdı?

Deyir ki, oğul, mənim qolumnan yapış məni xəlvət bir yerə çək – bir çayxanaya, mən danışım gör mən nələr görmüşəm. Doğurdan da, belə eliyir. Bunu götürür aparır, bir çayxanada oturur. Deyir:

– Oğul, mən Hacı Qulamhüseyinəm. Mən baş yurtda köçüf alaçıxlarımı qurmuşdum. Yayın orta ayında evin ruzisi tükəndi. Mən durdum arana gəldim ki, ruzi aparam. Dəyirmana getdim, bostannan dirrik gətirdim, qəndimi aldım, bazarrığımı elədim. Dəvəni, atdarı yüklüyüf gedirdim dağa. Mən yurdun qanşarına çıxanda bir qara bulud qalxdı. Civimnən pul çıxartdım. Yarəb, mənim yüküm undu, qəntdi, bunu isdatma, mənzil başına salamat aparım. Nəzir qoydum. Doğurdan da, isdanmadım. Amma nə oldu? Getdim yurda, mənim yurdum məhlim deyil. Bir dəli sel gəlif tamamilə yuyuf aparıf. Karvanımı qoydum qaşdım selin dalıncan. Getdim ki, balaca sonbeşih oğlumu sel aparıf dərənin içində bir qayanın üsdünə. Ata gəl, ata gəl, ata gəl deyif çağırır. Getdim bunu qayadan düşürdüm. Dedi:

– Ata, bir dəli sel gəldi, anamı da apardı, nökərrəri də, qoyunumuzu da, malımızı da, məni də gətirdi bura.

Karvannan yapıncı aşdım, bunu bükdüm yapıncıya. Getdim kimisə axtarmağa. Heş-zad tapbadım, qayıtdım. Bir vəşi heyvannan rasdaşdım, ağzın mana açır-yumur. Onatılan belimdə idi. Silahı çəkdim atdım. Yapıncını aşdım ki, oğlumdu. Külək vurur yapıncının qulağı tərpənir, elə bilirəm bu vəşi heyvandı. Ağladım, ağladım, gözüm tutuldu. Oğul, gördün indi mən nə görmüşəm? Onçün deyirəm ki, nəzir verin, niyaz verin.

Mən o vaxdı elə bilirdim ki, bu, mollaların nəzir-niyaz yığmax üçün çəkdiyi bir məsəldi. Amma Laçının işğalınnan sora bizim camahat savxoz dərəsi deyilən yerdə gəlif buzduğa düşdü. Orda iyirmi dörd nəfəri qətlə yetirillər, onun yeddi nəfəri bir aylənin üzvü olur: altı uşax, bir ana. Ata gəlifdi aranda heyvanına yer axtara. Qayıdıf gedif ki, ayləsi yığışıf finski butkaya, ermənilər od vuruf, hamısı kül olufdu. Onnan sora başa düşdüm ki, bu yalan deyil, gerçəhdi.

### 3. BELƏ DƏ QALMAZ

Bir məmləkətin padşahı dəyişilir, yerinə gətirif bunun öz oğlunu təyin eliyillər. Atadan miras qalmış vəzir, vəkil, xəzinədar hamısı öz yerində işdiyir. Ərizəyə, şikayətə gələnnərin hamısı gəlir baş

vəzirin yanına. Çünki uzun müddətdi xalq tanıyır. Eyni zamanda padşah cavandı da, cavannığına görə bunnar vəzirə daha çox etimad göstərillər. Bu vaxdı cavan padşah xəyala düşür ki, bu vəzir kimdi ki, mən ola-ola camahat bunu saya. Mən bunun başın əkməliyəm.

Bir gün belə, iki gün belə. İsdiyir padşah olsun, isdiyir məəllim olsun, isdiyir adicə bənnanın əlin altında işdiyən fəhlə olsun, evə gələndə onun həvəsin, marağın evin kadını bilir. Bir gün evə gələndə padşahın yoldaşı görür ki, bu, neçə gündü evə çox pəjmürdə gəlir. Deyir ki, de görüm sənin dərdin nədi?

Deyir:

– Heş.

Deyir:

– Bura bax. Mənnən sənə yaxın adam var, ikinci bir yaxın adam tanıyırsan? Dərdii maa denən.

Bu fikirrəşir ki, qoy açım deyim. Deyir ki, hal-qəzyə belə-belə. Mən baş vəziri uzaxlaşdırmax isdiyirəm. Deyir:

– Elə bu.

Deyir:

– Hə.

Deyir:

– Burda nə var ki. Səhər taxtı-tacında əyləş, birinci zərgəri çağır. Zərgər gəlsin əyləşsin. Zakaz ver ki, maa bir üzük bağlıyajaxsan bu çəkidə, bu formada. Qaşına da iki kəlmə söz yazdırajaxsan. Mən toy məclisinə gedəndə o sözdəri oxuyan kimi peşmannıyam, yas məclisinə gedəndə o sözü oxuyan kimi özümdə bir səbr, təmkin yaransın. Bunu zakaz ver. Onnan sora vəziri çağır. Denən iki kəlmə söz lazımdı. Yas yerinə gedəndə oxuyanda şadlanam, toya gedəndə oxuyam bədbinnəşəm. O tapammıyajax. Onnan sora boynun vurdur, çıxsın getsin.

Bir az düşünür. Baxır ki, ə, bu nətər məsələdi ki, mən yas mərasimində şadlanam, şadlıx mərasimində də məyusdaşam. Elə düz deyir bu arvad, bunu eliyəjəm. Səhər gedir taxtı-tacda əyləşir. Əmr eliyir vəzir gəlir, zərgər gəlir. Dediklərimin hamısın başa çatdırannan sora vəzir deyir, qibleyi-aləm sağ olsun, maa vaxt ver. Deyir:

– Nə qədər vaxt isdiyirsən?

Deyir:

– On beş gün.

Deyir:

– Saa qırx gün vaxt verirəm, amma sözü gətir. Gətirməsən, boynu vurdurajam.

Vəzir gəlir evə. Mehtəri çağırır deyir, mənim atımı yəhərrə. Xəzinədarı çağırır deyir, maa üş sikkə pul gətir (bir sikkə pulnan ağır bir səfəri yola salırsan). Arvad fikirrəşir ki, ə, bu üş sikkə pulu neynir? Gəlir deyir:

– A kişi, hara gedirsən?

Deyir:

– İşim var.

Deyir:

– Yox ey. Sən bu aylənin başçısısan, gedirsən, bir belə pulu neynirsən?

Deyir ki, belə-belə. Padşah belə bir zakaz verif. Mən bir kisəni yol xərci götürürəm, birin dərdimə əlac eliyənə verəjəm, birin də nəzir-niyaz paylıyajam. Deyir ki, a kişi, padşah nədi, üzük nədi, qaş nədi? Boş söhbətdi. Bu bir kadın əməlidi düşmüsən. Get, Allah sənə yar olsun.

Bu da eşidir ki, Tehranda filankəs var, Təbrizdə filankəs var. Gəlif bunnardan soruşur, deyillər, heş-zad bilmirik. Yayın orta ayıdı, göydən od yağır. Bir məsəl var deyir, tüpürsən göydə quruyur. At yedəyində bir biyaban düznən gedir. Bu yerdə də bir tapal qoyun otaran var. Bir tapal qoyun da on beş-iyirmi qoyuna deyilir. Görür ki, bir dərd əhli gəlir. Durur yolda bunu gözdüyür. Vəzir gəlif buna yaxınnaşanda başın qaldırıf deyir:

– Salaməlöykü.

Deyir:

– Əleykimət salam, ey dərd əhli.

Deyir ki, sən nə bilirsən mən dərd əhliyəm? Deyir:

– Yayın günündə bir adamın huşu kəsmiyə ki, atı minə gedə. At yedəyində piyada gedirsən. Da bunnan böyük dərd var? Dərdin nədi?

Deyir:

– Eh, Tehranda İsgəndər, Təbrizdə Məhəmməd dərdimə əlac eliyəmmədi, sən bu çölləmədə bir tapal qoyunun yanında maa neyniyəjəhsən?

Deyir:

– Yaxşı, onun hansı sənin paltarını soyunduruf, atı əlinnən alıf?

Deyir:

– Heç hansı.

Deyir:

– Onun biri də mən. Sözü maa denən, əlac qılaram qılaram. Qılmaram səə yaxşı yol. Mən də o adamların biri.

Bir az durur, baxır, baxır. Özü də tarixən açılmıyan, çətin olan məsələni çoban həll eliyir. Deyir, hal-qəzyə belə-belə. Deyir:

– Neçə ildi vəzir işdiyirsən?

Deyir:

– Qırx ildi. Bunun babasınnan yönü bəri vəzirəm.

Deyir:

– Onun qırx ili də sənin burnunnan gəlsin. Orda nə var ona cavab vermiyəsən.

Deyir ki, kişi, üş sikkə pul götürmüşəm. Biri dərdimə əlac eliyən üçündü, biri yol xərcim üçündü, biri də nəzir-niyaz paylamax üçündü. Onun üçün də saa verəjəm. Denən, qayıdım. Deyir, yox, mən onu eliyəmmərəm. Məni aparajaxsan özünnən. Deyir, axı o mənim boynumu vurajax. Deyə bilməsən sənin də boynu vurajax. Çox danışıxdan sora vəzir də ağıllı adamdı. Görür ki, bu kamil adamdı. Deyir, gedək.

Gəlir evə. Oğluna deyir ki, qoyunnara yiyə dur. Get atımı gətir, yəhərrə. Bir nabələd qonax gəlif, hardasa üş günə gəlif çıxajam. Durur düşür vəzirin yanına, gəlif çıxıllar saraya. Xəbər gedir ki, qibleyi-aləm sağ olsun, vəzir gəlif, özüynən də ucaboylu, bir şir qamətli adam gətirif. Taxt-taca çıxıf əyləşir. Vəzirin, vəkilin, təl-

xəyin – hamısın yığır ki, vəzirin boynun vurdurajam. Gəlir baş əyir, ehtiram göstərir. Deyir, qibleyi-aləm sağ olsun, sizin axtardığınız sözü bu adam deyəjəh. Deyir ki, buyur. Buyur deyəndə çoban deyir ki, qibleyi-aləm sağ olsun, siz bir vəziri ki, saraydan uzaxlaşdırmax isdiyirsiz, niyə bunu bu əhvala salmısınız?

Deyir:

– Nə əhvala?

Deyir:

– Yayın günü at yedəyində gedir, huşu kəsmir ki, minə.

Padşah da cavandı. Görür ki, bu çox danışır. Deyir, artıx danışma. Fərraş. Görür ki, bunun da boynun vurajaxlar. Deyir, qibleyi-aləm sağ olsun, darıxma. Siz o üzüyün qaşına yazdırın ki, belə də qalmaz. Sən yas mərasiminə gedəndə oxuyajaxsan ki, belə də qalmaz. Buyün şərdi, sabah xeyir olajax. Onda sən özündə bir rahatçılıx tapajaxsan. Hansı şənniyə gedəndə oxujaxsan ki, belə də qalmaz, yəni bunun bir qarannıx günü də var. Onda da istər-istəməz qəmlənəjəhsən.

Padşah deyir ki, bu sözə görə mənnən nə isdiyirsən? Deyir ki, heş bir şey. Çünki mən sizdən varrıyam. Deyir, necə varrısan? Deyir ki, gəl yanaşı durax, mən sizdən ucayam. Mənim bu dünyadan apardığım torpax və apardığım libas sizinkinnən artıx olajax. Ona görə də sizdən varrıyam.

Bu məsəllər onnan ötrüdü ki, ey insannar, dünya varına uyma, əl çirkidi. Yuyular da, gedər də, gələr də. Çalışın səmimiyyət qurun, mehriban olun, bəşəriyyət üçün fayda verin.

## 4. İMAM HÜSEYN AŞİQİ

Bir gün İmam Hüseyin aşiqi bir kişi hər il İmam Hüseyinin təziyəsini saxlıyıf ehsanını verirdi, aşura keçirirdi. Bir gün kasıflıx oldu, çox məyus oldu. Oğlu gəldi dedi ki, ana, atam niyə bu vəzyətə düşüf?

Dedi:

– Başına dönüm, bəs sənin atan həmişə belə bir iş görürdü. İndi də əldə bir şey yoxdu, qalıf belə.

Dedi atamın varına noluf ki? Dedi:

– Bala, nəyimiz var ki?

Dedi:

– Mənim kimi oğlu var. Mənim boğazıma bir kəndir bağlasın, çıxarsın bazara. Mən atamı qoymaram sına.

Kişi də razı qaldı, arvad da razılığın verdi. Dedi:

– Sən Allah, bunu kimə versən denən heş olmasa ildə bir dəfə mana göstərsin.

Kəndiri saldı boğazına çıxartdı. Vəzirnən padşah gəlirdi. Gəzdıxları yerdə gəlif çıxdılar bura. Şah soruşdu ki, bunu satırsan?

Dedi:

– Hə, satıram.

Şəxsiyyətdi, şücayətdi oğlan idi. Atasına da tapşırmışdı ki, məni ucaz satma. Atası da fikirrəşdi ki, əlinnən bir şey gəlmir. Mən baha deyəmmərəm. Şah dedi:

– Əlinnən bir iş gəlir?

Dedi:

– Yox.

Nəysə, vəzir dedi, alax, bunun görünüşü yaxşıdı. Apararıx verərix aşbazın əlinin altına, qulluğ eliyər. Götdülər getdilər. Bir xeyli gedənnən sora, oğlanın davranışını görənnən sora dedi onun boğazınnan kəndiri aç. Qoşuldu bularnan gedəndə yolda bir də soruşdu. Dedi:

– Oğul, əlinnən nə gəlir sənin?

Dedi:

– Vallah, mən yaxşı ləl tanıyıram, yaxşı at tanıyıram, yaxşı da adam tanıyıram.

Dedi ki, bu vacib şeydi. Apardı verdi aşbazın əlinin altına. Qabda qalanı, qabaxda qalanı verirdilər, oğlan da yeyif başını dolandırırdı.

Bir gün böyük bir padşah bu padşaha bir ləl bağışdadı. Lələ baxıllar, çox möhtəşəm görükür. Birdən ağlına gəldi dedi ki, o adam deyirdi mən ləl tanıyıram. Onu çağırın, gəlsin görək. Çağırdılar, gəldi. Dedi:

– Paa, əhsən, əhsən, əhsən, amma...

Dedi:

– Amma nədi?

Dedi:

– Bunun şövqün kəsiblər. Səni aldadar xəzinəni yarısın verərsən. Bu ona layıx ləl deyil.

Dedi ki, sənin zərgərin var? Dedi:

– Var.

Dedi:

– Çağır gəlsin.

Zərgər gəldi, dedi ki, həqiqətən də belədi, şövqün qırıf götürüflər.

Padşah aşbazı çağırdı dedi ki, ordan buna isdi-isdi bir boşqab yemək verərsən. Oğlan çox pis oldu. Ayə, bunun varın-varidatın yığıf apajaxdılar. Bunun qarşılığında maa bir boşqab yemək verdi. Dedi, əşi, cəhənnəm olsun. Orda yeyif başın atıf yatırdı.

Günnərin bir günü ilxının ayğırı öldü. Ayğır ölənnən sora getdilər bazardan bir ayğır aldılar gətdilər. Şah dedi, sən öl, o deyirdi at tanıyıram, gedin onu gətirin. Gəldi baxdı, çox bəyəndi. Dedi:

– Amma...

Dedi:

– Amma nədi?

Dedi:

– Bunu suya salan kimi yatajax.

Dedi, sür. At suya girən kimi yatdı. Çağırdılar bunun yiyəsini. Dedi:

– Ə, bu niyə belədi?

Dedi:

– Vallah, bunun sortu, özü, hər şeyi yaxşıdı, amma anadan olanda anası öldü, bunu camışnan mayalandırmışıx. Onun üçün suya yatır.

Bunu da tapdı. Padşahın işi çox yaxşı oldu. Kefləndi dedi ki, sən öl, çağırajam, adam tanıyandı, görüm özüm nətər adamam. Gəldi, salaməlöyküm, əlöyküm salam. Dedi:

– Deyirsən, adam tanıyanam, mən nətər adamam?

Dedi:

– Sən padşah oğlu deyilsən ki, sən gədə oğlusan.

Dedi:

– Nətər?

Dedi:

– Mən sana iki sirr aşdım, maa bir boşqab isdi yemək verdin. Sənin məlkünü-mülkünü götürüf gedəjaxdılar. Sən lələ layiq pul verəjəydin, sənin xəzinənin yarısı gedəjəydimi?

Dedi:

– Hə.

Dedi, sən gədə oğlusan, padşah oğlu deyilsən. Coşdu anasını çağırdı. Anası dedi:

– Ay oğul, vallah düz deyir. Mənim həmişə qızım olurdu, kənizin də oğlu olurdu. Bir vaxt doğajaydıx, biz vədələşdik ki, onun oğlu olsa, mən pul verəm qıznan dəyişəm. Qızıl pul verif səni onnan almışam.

Şah oğlana dedi:

– Elə atan ona layığ imiş ki, o işdən ötrü oğlun satıf. Siz nəxarta ki Allahın yolunda, imamın yolunda, İmam Hüseyinin eşğındasınız, çörəyiniz olajax.

Gətdi bunun hak-hesabın verdi, yükün tutdu, dedi get ananın yanına, sən burda qalma.

## 5. ÜÇ BACI

Üç bajı varıymış. Bınnarın anası ölmüşmüş. Anaları hələ ölməmiş atalarına deyib ki, mənim qolumu kəsib, əskiyə büküb divardan asarsan. Öyəy nənə döyəndə deyərsən ki, mənim qızdarımı bunnan döy. Öyəy nənə də həmişə qızdarı bunnan döyərmiş. Həmişə də döyəndə xayınnığı tuturmuş ki, axı mən bı qızdarı gündə neçə dəfə döyürəm, ama heş nə olmur. Qızım, öyəy nənə qızdarı hər dəfə döydükdə qızdar daha da pərvazdaşırmışdar. Bir gün uşaxlar evdən çıxanda tez uşaxları nəynən döymürdü, onu açıb görür ki,

həə, bı anasının qoludu. Bı qolı atır əənə. Gətirir bının yerinə bir ağaş tikir. Qızdarı döyür, yola vermir. Ərinə deyir ki, bı qızdarı neyniyirsən elə, bınnarnan bir yerdə qalmax istəmirəm. Kişinin alajı kəsilir qızdarına deyir ki, bala, durun meşiyə armud yığmağa gedək. Gedillər meşiyə. Qızdarına deyir ki, toplaşın ağacın altına. Onnarın başdarına da bir palaz örtüb deyir ki, mən ağaja çıxıram armud yığam. Ama başuzu mən açın deyənə qədər açmıyın. Armud başıza tökülər, ağrıyar. Kişi çıxır ağaja, satılını asır ordan. Keşmişdə axı satıl olurdu. Satıl dəmirdən olurdu, onnan pıçax itiliyirdilər. Hə, satılı ağajdan asır. Hərdən külək əsdikcə ağaja dəyib takqıldıyırmış. Qızdar da elə bilir ki, dədələri armud çırpır. Ama bir az keçənnən sora qızdar başdarını açırlar ki, görəh nə oldu dənə. Görüllər ki, dədələri nə gəzir? Çıxıb gedib. Takqıldıyan bir dəmirdi, satıldı. Bınnar bir müddət meşədə girrəniflər, başdarını qatıflar. Allah verənnən meşədə nəysə tapıb yeyillər dana.

Bir gün qızdar deyirlər ki, ona kimi sayajeyih[34]. On hansımıza düşsə, onu yeyəjeyih. Bərk ajmışmışlar. Xırda qız sayanda özünə düşür. Bına düşəndə deyiflər ki, bajı, səni yeyəh. Xırda qız deyir:

– Bajı, məni yemiyin. Qoyun gedim yaxınnarda bir tavla var, bəlkə bir şey tapdım ordan. Gətirərəm, yeyərik.

Tavlıya gedəndə görür ki, ordan bir adam çıxdı. Keşmişdə tavlalara külfə qoyurdular pəncərə fason, xırdaja olurdu. Ordan girif içəri. Görüf ki, padşahın atını bağlıyıflar qırxa. Ata kişmiş tökmüşmüşlər. Qırx gün bu ata kişmiş verillərmiş ki, kökəlsin. Qız da hər gün gəlib atın qabağından kişmişi götürüb aparıb üç bajı yeyirmiş. Qırx gün Allah-taala bınları dolandırıf.

Bir gün padşah vəzirinə, vəkilinə deyir ki, gedin atımı gətirin, görüm atım nətərdi. Atı gətirəndə padşah görür ki, at bılın-bılın bılanır, lap arıx oluf. Padşah deyir ki, bəs vəzirin başını vurajam. Vəzir deyir ki, kişmişdəri mən yeməmişəm. And-aman eliyir. Vəzir padşahdan üç gün möhlət alır ki, bı işi kim eliyifsə, tapıf gətirsin.

---

[34] Mətnin bu hissəsində biədəb ifadə işləndiyi üçün söyləyici cümləni dəyişir.

Vəzir gəlib busur. Görür bıdı, bir gözəl qız gəldi. Külfədən içəri girib kişmişdəri yığanda vəzir onu tutur. Deyir:

– Bala, sən mənim evimi yıxansan.

Qızı padşahın yanına aparır. Padşah:

– Niyə belə eləmisən? – qızdan soruşur. Qız da, bala, mən nətər saa danışdım ha, o da bajılarının başına gələnnərin hamısını padşaha danışır. Elə bırdaca padşahın oğlunun kiçik bajıdan xoşu gəlir. Kiçik bajını padşahın oğlu alır. Birini vəzirin oğlu, birini də vəkilin oğlu alır. Qızdara deyillər ki, siz nə bacarırsınız, əlinizdən nə gəlir? Biri deyir, mən bir yumurta bişirirəm yeddi aləm yeyə, genə artıq qalar. Biri də deyir ki, mən bir gəvə toxuyuram hamı oturajax, gənə artıx qalar. Xırda bajı, yazıx deyir ki, mən də bir oğlan doğajam bir teli gümüş, bir teli qızıl olajey. Bajılardan biri yumurtaya o qədər duz tökür ki, heç kəs əlini uzatmır. Biri də xalçıya o qədər iynə batırır ki, heç kim otura bilmir. Deyillər, həə, bınnarın dediyi oldu. Qaldı xırda bajı.

Bir gün xırda bajının uşağı olmax vaxtı gəlir. Padşah bir qarı çağırır. Sən demə, bı qarı köpək qarı olur. Padşahı isdəmiyən bir vəzir qarıya deyir ki, əgər uşaq deyildiyi kimi doğulsa, onun başını əkək. Uşağı götürüb yerinə bir it küçüyü qoyullar. Uşağı aparıb qamışdığa atıllar. Sora padşaha muşduluğa gedillər ki, bəs padşah sağ olsun, sənin gəlnin belə deyib, sözünə vədə olmuyub, bəs küçük doğub. Yoldaşı bını aparıb azdırır. Deyir ki, ta get başı saxla. Yoldaşı da bını sevirmiş. Özü də pis olur. Çıxıb gedir şikara – uzax bir yerə. Gedif, ta qəyitmiyif.

Çoban varmış kəndin heyvanını otarırmış. Görür ki, bir keçi sürüdən ayrılıf gedir bir qamışdığa girir. Ta çobanın ağlına nə gələr. Sora axşam keçinin yəəsi gəlir çobanın üsdünə. Dalaşıb ki, bəs sən mənim keçimi hər gün sağırsan. Çoban and-aman eliyir ki, mən sağmamışam. Şübhələnir. Çoban busur, görür keçi genə qamışlığa girdi (Bala, bını Allah-taala eliyir. Qurban olum Allaha. Bəənnən alır, əənnən də verir. Allah-taaladan olur, bı da o uşağa butax çıxır). Çoban busuf görür ki, bir oğlan uşağı keçinin altında əmir. Bir gözəl uşaxdı, qızıl-gümüş telləri alışıb yanır. Uşağı tutur sevinə-se-

vinə aparır evinə, saxlayır. Bir müddət yekəldir. Uşağa qoyun dərisinnən bir papax tikdirir. Örtür başına, deyir papağını aşma, papaxlı oyna. Uşax gedir oynamağa. Bir gün belə, iki gün belə. Bir gün uşaxlarnan güləşəndə papağı düşür. Görüllər ki, bu uşağın bir teli qızıldı, bir teli gümüşdü. Baxıllar ki, uşax alışıf yanır. Hamı da belə bir işin nə vaxtsa olduğunu bilirmiş. Tez padşahın yanına qaçıllar ki, bəs qızıl-gümüş telli bir uşax var, onu çoban saxlıyır. Padşah çobanı yanına gətizdirir. Soruşur:

– Bəs nədi bu?

Çoban da mən nağıl elədiyim kimi qəşəh padşaha nağıl eliyir. Padşah barmağını dişdiyir, deyir:

– Elə bu mənim nəvəm olajax.

Uşağı gətizdirir. Axı uşağın atası o vaxtdan çıxıb getmişdi. Padşahın oğlu başa düşür ki, arvadı düz deyirmiş. Köpəh qarını çağırıllar. Qarı qorxudan boynuna almır. Soradan deyir ki, bir adam demişdi belə elə, mən də elədim. Padşah həmin adamı çağıtdırır boynunu vurdurur. Köpək qarını bir aj atın quyruğuna bağlayıb çölə ötürür.

Padşahın oğlu düşüf kəndbəkənd ayləsini axtarır. Axırda tapıf gətirib. Yığılıflar bir yerə. Qırx gün, qırx gejə toy vırdırıf, yeyiflər, içiflər, mətləblərinə keçiflər.

## 6. ŞƏRÇİ GƏLİN

Biri varıymış, biri yoxuymuş, bir qardaş, bir bajı varıymış. Bunnar çox mehriban qardaş-bajı idilər. Qardaşının arvadı deyir ki, mən nətər eliyim ki, bunnarı bir-birinnən ayırım. Bir gün gəlinin bir körpəsi olur. Körpə olanda bu körpəni boğur öldürür, qoyur yüyrüyə. Sənəyi götürüb suya gedir. Qəyidir gəlir özünü öldürür, yüyürüb yüyrüyə baxır. Uşax ölüf dana. Özü eliyib axı. Qışqırır ki, mənim uşağımı niyə öldürmüsən? Axşam da qardaşı gəlib deyib ki, nolub? Arvadı deyir ki, bəs hal-qəzyə belədi. Apar bajını öldür, mən onu görmək istəmirəm. Oğlanın da ürəyi gəlmir axı, bajısıdı. Öldürmək istəmir. Oğlan bajısını aparıb qolunun birini kəsib gəlir. Deyir ki, bajımsan da,

səni öldürmək istəmirəm. Çıxıb gedir. Qız da meşədə qalır. Gejələr palıd ağajının kufasına girir, gündüzlər isə meşədə fırlanır.

Bir gün padşahın oğlu şikara çıxmışmış. Kefnən meşədə gəzirmiş. Padşahın oğlu görür ki, it nəyəsə gedir, hürür palıdın yuvasına. Deyir:

– Yox e, burda bir şey var. Ya indi qurd-quşdu, ya da insandı.

Deyir:

– Ay insan, insansa çıx, nəsənsə çıx.

Qız deyir ki, Allahdan gizdin deyil, bəndədən nə gizdədim. Mən çıxa bilmirəm da, paltarım meşələrdə dağılıb, paltarım yoxdu. Get maa bir dəst qadın paltarı gətir. Bı da gedib gətirir. Görür, ay Allah, qız dünya gözəlidi. Bını götürüb gedir evinə, bınnan evlənir. Evlənənnən sora nə olur, nə olmur, bınnar ayrılıllar. İki də uşağı olur: bir qız, bir oğlan. Bı gəlin çaya gedir, çayı addamalıymış. Çayı addıyanda uşağın biri çaya düşür. Qadının qolunun biri yox idi axı. Həmən qolu ilə uşağı tutmax istəyəndə qurban olduğumdan bir səda gəlir, qadının qolunu bitirif, qolu gəlif üstünə. Bınnar bir ev tutub qalıllar.

Bir gün bının qardaşı (gör Allahın işinə bax), hərrənir, fırranır, gedir o kəndə. Arvad qardaşın görən kimi tanıyır, amma qardaşı yox. Qardaşı arvada, yanı bajısına deyir ki, ay bajı, Allah qonağı istiyirsən, bu gejəliyə gəlim bırda daldalanam. Deyir, gəl qardaş, Allaha da qurban olum, qonağına da. Arvad uşaxları örgədir ki, gedin topuzu atın qonağın sapoğunun içinə. Səhər deyəjəm ki, bəs mənim uşağımın topunu oğurramısan.

Səhər açılır. Uşaxlar ağlaşır ki, bizim topumuzu ver. Anaları uşaxları örgədir ki, siz həylə deyin, mən bını sübut eliyəjəm. Qardaşı nə bilsin ki, bı arvad onun öz doğma bajısıdı. Arvad deyir ki, ay qardaş, sən niyə uşaxların topunu oğurruyuf sapoğuna qoymusan? Kişi and-aman eliyir ki, mən oğurramamışam, neynirəm axı topu. Arvad deyir:

– And işmə, oğurramısan axı. Niyə yalan danışırsan?

Kişi özün öldürür ki, axı mən oğurramamışam. Arvad kişiyə deyir ki, bilirsən mən kiməm? Mən sənin bajınam. Qolumun birini kəsif meşəyə ötürdüyün bajınam. Mən sənin uşağını öldürmüşdüm

ki? Sapoğun içindəki o topdan sənin xəbərin vardı? Arvadının böhtanına uydun qolumu kəsdin, məni azdırdın. Görürsən də böhtan nətəər olur (bala, indi də var həylə işdər)? Oğlan bajısını da götürüb aparır. Arvadını da qovur, təzdənnən olur bajı-qardaş.

*Söyləyici bu nağılı atasından eşidib.*

## 7. ŞAH ABBAS VƏ KEÇƏL

Şah Abbas bir gün vəzir-vəkilin yığır başına. Deyir ki, vəzir, məni kim çox isdiyir? Vəzir deyir ki, şah sağ olsun, mən, mən (sinəsinə döyür də). Deyir ki, vəkil, məni kim çox isdiyir? Deyir:

– Şah sağ olsun, mən, mən.

Bu da sinəsinə döyür. Deyir:

– Yaxşı.

Axşam olur, Şah Abbas dərvişlibas olur, çıxır evdən. Gəlir vəzirin həyətinə. Görür, vallah, vəzirin evində yemək-içmək, demək-gülmək, qonax nə qədər. Çağırır:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Vəzir çıxır. Deyir:

– Ay ev yiyəsi, məni bu gecə qonağ elə, Allah qonağıyam.

Deyir:

– Əşi, rəhmətdiyin oğlu, görmürsən mənim nə qədər qonağım var?

Buna çox yalvarır, üz tutuf deyir:

– Xayiş eliyirəm, yol adamıyam, bir gecəliyə məni qonağ elə.

Deyir:

– Yox, mümkün deyil.

Deyir:

– Səni and verirəm Şah Abbasın cıkqasına, məni bu gecə qonağ elə.

Vəzir Şah Abbasın cıkqasına söyür. Şah Abbas dinmir. Çıxır gəlir vəkilin həyətinə. Gəlir görür ki, vəkilin evində bir dəm-dəsgah, demək-gülmək, qonax-qara, vəkilinki vəzirinkinnən üstündü. Çağırır:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Vəkil çıxır çölə. Deyir:

– Ay ev yiyəsi, Allah qonağı istəmirsən?

Deyir:

– Əşi, rəhmətliyin oğlu, görmürsən nə qədər qonağım var.

Yalvarır buna, deyir:

– Bir gecəliyə məni qonağ elə, yol adamıyam.

Deyir:

– Yox, mümkün deyil.

Deyir:

– Onda səni and verirəm Şah Abbasın cıkqasına, məni bu gecə qonağ elə.

Vəkil də Şah Abbasın cıkqasına söyür. Şah Abbas çıxır durur obanın, kəndin ortasında. Bir o başa baxır, bir bu başa baxır, görür ki, kəndin qutaracağınnan bir işartı gəlir. Deyir, gedəcəm ora.

Gəlir görür ki, bir dənə komadı. İndi pəncərədi, nə imişsə ordan baxır, görür ki, bir keçəldi, bir dənə də qarı – qoca anasıdı. Görür keçəl əvvəlcə oxudu, sora oynadı, sora ağladı. Çağırır:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Keçəl tez çıxır çölə. Deyir:

– Ay ev yiyəsi, Allah qonağı istiyirsən?

Deyir:

– Əşi, Allaha da qurban olum, qonağına da. Niyə istəmirəm?

Şah Abbas atı qoyur həyətdə, girir içəri. Keçəl anasına deyir ki, ay ana, bu gün pəyədən bir-iki dənə yumurta tapmışam. Deyir:

– Hə, oğlum, mən də qonşuya yun əyirmişəm, bir balaca yağ almışam. Onu bişirək qoyax qonağın qabağına.

Bunu bişirif qoyullar qonağın qabağına. Qonax deyir, yemiyəcəm. Deyir:

– Əşi, niyə yemiyəcəksən?

Deyir:

– Mən baxdım, sən əvvəlcə oxudun, sora oynadın, sora ağladın. Sən bunun izahını mənə deməsən, mən sənin çörəyini yemiyəcəm.

Deyir:

– Əşi, sən dərviş babasan. Mən tutax ki, dərdimi sənə dedim, sən mənim dərdimə nə əlac eliyə bilərsən ki?

Deyir:

– Ay bala, nolar, de də.

O deyir, bu deyir. Keçəl deyir ki, bəs mən vəzirin qızına aşiq olmuşam. Əvvəl oxuyuram, deyirəm "can, ay can, aşiq olmuşam", sora oynuyuram, deyirəm "əşi, alaram də". Birdən fikirrəşirəm ki, mən keçəl, kasıb, bir dənə qarı nənəm var, vəzir mənə qız verər?

Şah Abbas da buna demişdi ki, sən sirri mənə deməsən, mən sənin evində qalmıyacam, nə də çörəyini yemiyəcəm. Keçmiş dövrdə də evdən qonağın getməsini ev yiyəsi özünə təhqir sayırmış da.

Nəysə. Bu, yeyir-içir, bunun yerini düzəldillər, yatır. İndi keçəl gedir ki, qonağın atın rahatdasın. Gedir qonağın atın götürür, aparıb pəyiyə bağlamaq isdiyəndə baxır görür ki, bu at Şah Abbasın Xoşqədəm atıdı. Atı bağlıyır, qayıdır həyətə. Bir dənə paya götürür, girir içəri. Deyir ki, ay nənə, bu qonağ nə qədər quduruf ki, gedif Şah Abbasın Xoşqədəm atını oğurruyuf gəlif bizim evdə qonax qalır. Gecəni səhərə qədər ana qoyur bala götürür, bala götürür ana qoyur, o ki var Şah Abbası döyüllər, əldən salıllar. Səhər torannıx olanda, işıqlanmax isdiyəndə bu Şah Abbası yıxır Xoşqədəm atın üsdünə, özü də sarıyır, aparır Şah Abbasa şikayətə. Bir az getdihcə hava işıxlanır axı. Sən çıxırsan qabağına deyirsən, ay keçəl, sən niyə Şah Abbası belə eləmisən? Keçəl deyir, buların başı xarav olub ey. Şah Abbasın nə işi var, bu dərvişdi. Beş-altı adam deyənnən sora birdən ağlı kəsir ki, Şah Abbasın belə də işdəhləri var axı, dərvişlibas olub obanı gəzir. Atnan Şah Abbası yolun ortasında qoyub qaçır. Asta qaçana imam qənim olsun. Gedir oturur, deyir:

– Hə, indi Şah Abbasın adamları gəlib aparıf mənim boynumu vuracax.

Şah Abbası aparıllar evinə. Bunun yaralarına məlhəm qoyullar, sağaldıllar. Geyinir çıxır taxta. Vəzirnən vəkil işlərini başa düşüllər. Bilillər ki, bu gecə Şah Abbas təğyirlibas olubmuş, dərviş paltarı geymişmiş. Soruşur ki, vəzir, kim məni çox isdər?

Deyir:

– Nə bilim, şah sağ olsun.

Deyir:

– Vəkil, kim məni çox isdər?

Deyir:

– Nə bilim, şah sağ olsun.

Əmr eliyir, deyir:

– Obanın qutaracağında bir dənə koma var, orda bir dənə keçəl var, bir dənə də qoca anası var. Oları gətirirsız, aparıb hamamladırsız. Anasına da gözəl libas, balasına da gözəl libas verirsız. Anasını aparırsız xanımların içinə, özün gətirirsiz mənim sərəncamıma. Aparıllar buları hamamladıllar. Oğlanı aparıllar Şah Abbasın hüzuruna. Şah Abbas vəzirin qızın alır buna, qırx gün, qırx gecə toy eliyir. Vəzirnən vəkili də bağlıyır atın quyruğuna, buraxır çölə. Keçəli də özünə vəzir götürür.

## 8. ALLAHLA ŞƏRİKLİ BOSTAN ƏKƏN QOCA

Bir gün də bir qoca kişi çox kasıb olur. Çox götür-qoy eliyir. Qışda – yanvar, fevral ayında gedir bazara. Gedir bazara, bir az yemiş, qarpız toxumu alır, gəlir. Arvad deyir:

– A kişi, hara getmişdin?

Deyir:

– Bazara.

Deyir:

– Bazardan nə almısan sən? Heç nə almamısan axı.

Deyir ki, yemiş, qarpız toxumu almışam. Deyir:

– A kişi, ilin-günün bu vaxtında sən bu yemiş, qarpız toxumunu neynirsən?

Deyir:

– Allahnan şərikli əkəcəm.

Deyir:

– A kişi, camahatı bizə güldürmə də, ayıfdı. Qış günü yemiş-qarpız olar?

Deyir:

– Sənin nəyəə lazımdı?

Kişi aparır bu yemiş-qarpız toxumunu dağın döşündə, sinədə səpir. Bir müddət keçənnən sora gedib görür ki, bitifdi. Bir gün gedir görür yarpağlıyıf, bir gün gedir görür çiçəkliyif, bir gün gedir görür tağ atıf. Bir gün gedif görür ki, sən bəyənmə, səkgiz dənə qarpız bitif. Bu səkgiz dənə qarpızı yüklüyür uzunqulağa, gətirir. Dördün qoyur yolun qırağında, Allah yolunda. Dördün də yüklüyür uzunqulağa, aparır Şah Abbasa. Gedəndə üzümüzdən qırağ, Allah mərdimazara lənət eləsin, Allahverdi xan da görür ki, uzaxdan bir qoca gəlir. Tez atı çapır qocanın qabağına. Deyir:

– Qoca əmi, nə gəzirsən?

Deyir:

– Heç nə, bala. Kasıb adamam, Allahnan şərikli yemiş-qarpız əkmişdim, səkgiz dənə qarpız düşmüşdü. Dördün qoydum Allah yolunda, dördün də aparıram Şah Abbasa, əlbət maa on şahı pul verər.

Allahverdi xan vəzir gülür. Deyir:

– Şah Abbasın on şahı pulu nə qayırır?

Deyir:

– Əlbət, beş şahı verər.

Deyir:

– Vallah, beş şahısı da yoxdu.

Deyir:

– Bəlkə üç şahısı olar da.

Deyir:

– Vallah, üç şahısı da yoxdu.

Qoca hirsdənir, Şah Abbasa söyür. Allahverdi xan vəzir burda-orda, mərdimazardı axı, üzümüzdən qırax. Atı çapır, özün çatdırır Şah Abbasa. Deyir:

– Bax, odey ordan qoca gəlir, o saa yolda söydü.

Deyir:

– Yaxşı.

Keçmiş zamanda da elçi daşı olarmış, şahın hüzuruna düşmək üçün orda üzdərin qoyub izn isdiyərmişdər. Şah Abbas əmr eliyir

ki, qocanı qoymursuz elçi daşının üstündə otursun, gətirirsiniz mənim hüzuruma. Gətirillər. Şah Abbas deyir:

– Qoca əmi, nə axtarırsan, nə gəzirsən?

Deyir:

– Allahnan şərikli qarpız əkmişdim, dördün qoydum Allah yolunda. Allah verdi də, şükür Allaha. Dördün də gətirdim ki, mənə bir on şahı verərsiz, balalarıma çörək pulu eliyəm.

Şah Abbas gülür. Deyir:

– Mənim on şahı pulum nə gəzir, ay qoca.

Deyir:

– Neyniyək, əlbət beş şahın var, şah sağ olsun.

Deyir:

– Vallah, beş şahım da yoxdu.

Deyir:

– Neyniyək, şah sağ olsun, əlbət üç şahın var.

Deyir:

– Üç şahım da yoxdu.

Deyir:

– Onda yolda dediyim olsun.

Şah əmr eliyir ki, məni isdiyən qocaya xələt. Qocaya çoxlu xələt yığılır, bunu yüklüyüllər uzunqulağa. Şah Abbas gətirir ona bir dənə qəbalə verir. Məsələn, Nəsimi rayonunun yiyəliyin verir buna. Allahverdi xan vəzir mərdimazarlığ eliyir, üzümüzdən qırağ olsun, deyir ki, şah sağ olsun, bir belə var-dööləti verdız o qocaya, yaxşı elədız. Amma o qəbaləni niyə verdız ki? Deyir ki, Allahverdi xan vəzir, mən vermədim, Allah verdi. Deyir:

– Şah sağ olsun, bir belə camahat gördü ki, siz verdız.

Deyir:

– Vallah mən verməmişəm, Allah verif.

Deyir:

– Şah sağ olsun, axı Şah Abbasda yalan olmaz, siz niyə yalan danışırsız?

Deyir:

– Eybi yoxdu, Allahverdi xan vəzir. Bax, gedir qoca. Düş qocanın dalına. Əyər oları qocanın əlinnən ala bildin, bil ki, mən vermişəm. Yox, ala bilmədin, bil ki, Allah verifdi.

Deyir:

– Yaxşı (mərdimazardı axı, üzümüzdən qırax).

Atın çapır, özün çatdırır qocaya. Deyir:

– Qoca əmi, qoca əmi.

Qoca dayanır. Deyir:

– Qoca əmi, sənə üç dənə sual verəcəm. Əgər mənim suallarıma cavab verdin səni buraxacam get, yox, verə bilmədin buları sənin əlinnən alacam.

Deyir:

– Buyur, bala, eşidirəm.

Deyir:

– Qoca əmi, Allah nə yeyir?

Deyir:

– Allah nə yeyəcək, başa dönüm. Nə çay içir, nə çörək yeyir. Səən kimi, məən kimi pis bəndələrin şükürün.

Deyir:

– Yaxşı, Allah nə örtür?

Deyir:

– Allahın nəyi var, nə örtə? Döşək salmır, yorğan örtmür, səən kimi, məən kimi pis bəndələrin sirrin.

Deyir:

– Yaxşı, qoca əmi. Üçüncü sualıma da cavab ver, səni buraxım get.

Deyir:

– Qoca əmi, Allah nə qayırır?

Deyir:

– Onu saa demiyəcəm. Sən atdan düşərsən, məən yükümü qoyarsan atın üsdünə, paltarları çıxarıf verərsən geyinərəm, çıxaram atın üsdünə, bir o başa sürərəm, bir bu başa sürərəm, gəlib cavabı verərəm. Hər şeyini qaytararam, çıxıf gedərəm.

Bunun da məqsədi var axı, mərdimazardı. Qoca dediyi kimi bunun yükün qoyur atın üsdünə, paltarın çıxardır verir, qoca geyinir. Qocanı mindirir ata, qamçını verir qocaya. Qoca bir o başa sürür, bir bu başa sürür, gəlir durur Allahverdi xan vəzirin qabağında. Deyir:

– Allah nə qayıracağ? Budey bu bəndə qaltağ yonurdu, səni yendirdi məni qaldırdı.

Qoca ata bir qamçı vurub aradan çıxır. Şah Abbasa ona görə cənnətməkan deyiflər də. Şah Abbas küləfirəngidən baxırdı. Gördü ki, Allahverdi xan vəzir tuman köynəkdə, uzunqulağ yanında gəlir. Əmr eliyir, deyir, onu qoymuyun evinə getsin paltar geyinsin əyninə. Onu elə uzunqulaxnan gətirin mənim sərəncamıma. Allahverdi xan vəziri gətirdilər Şah Abbasın sərəncamına. Şah Abbas deyir ki, Allahverdi xan vəzir, mən vermişdim, Allah vermişdi? Uje bilir axı işin. Deyir:

– Şah sağ olsun, Allah vermişdi.

Deyir:

– Allahverdi xan vəzir, get, bir də Allahın işinə əl aparma.

## 9. PİRQULUNUN ŞAHLIĞI

Bir padşah məzuniyyətə gedir. Yeyib-içən kefqom bir adamı gətirib öz yerinə qoyur. Bir müddət keçənnən sora şah sarayının qabağınnan bir qadın keçirmiş. Bu kefqom adam, yəni şahı əvəz eliyən əmr eliyir ki, xəzinədən o qadına bir kisə qızıl versinnər. Buna bir kisə qızıl verillər. Bir müddət də keçənnən sora o obada qəssab varıymış, çağırır onun boynunu vurdurur. Axırda bunun şahlıq müddətinin qutarmağına bir-iki gün qalmış kəntdə rəhmətə gedən varmış, aparırmışlar basdırmağa. Çağırır saxladır, gəlir ölünün qulağına nəsə deyir.

Şah gəlir çıxır taxtına, yığır vəziri, vəkili. Deyir ki, bəs mən burda olmuyan müddətdə bu nə cür şahlığ elədi, hansı işlərlə məşğul oldu? Deyillər, vallah, bir az keçənnən sora bir qadına bir kisə qızıl verdi, bir də bir qəssab vardı, onun boynunu vurdurdu, bir də ölünün qulağına nəsə dedi. Şah əmr eliyir, bunu gətirdir. Deyir,

mən olmuyan müddətdə bu üş dənə işi görmüsən. Ya buları maa izah eliyəssən, ya boynunu vurduracam. Deyir ki, kim idi o qadın o qızılı verdin? Deyir:

– Vallah, o mənim öz yoldaşım idi. Fikirrəşdim ki, həmişə şah olmuyacam ki. Bir kisə qızıl verdim ki, mən də kasıblığın daşını atım, yazığam.

Deyir:

– Yaxşı, bəs o qəssabın boynunu niyə vurdurdun?

Deyir:

– Bir dəfə uşaqlarım acınnan ölürdü, getdim ona çox yalvardım ki, ət ver aparım uşaxlarıma, yesin, vermədi. Fikirrəşdim ki, əlimə imkan düşüb, hayıfımı çıxdım.

Deyir:

– Bəs yaxşı, ölüyə nə dedin?

Deyir:

– Ölüyə dedim ki, gedirsən o dünyaya, o dünyada deginən ki, bu dünya nə günə qalıb ki, Pirqulu şahlıq edir.

## 10. ÇİRKİN QIZIN BƏXTİ

Bir dənə gəlin olur, ayləsi olur bunun. O qədər çirkin olur, o qədər çirikin olur. Yoldaşı da dünya gözəli olur, bunu çox isdiyir. Bu gəlin xəcalət çəkir. Yoldaşına baxır, özünə baxır, deyir: "Ay Allah, mən neyniyim görəm. Bunun bu cür yaxşılıxlarının qarşısında mən buna neyniyə bilərəm". Çöx götür-qoy eliyir, deyir: "Bunu evləndirəcəm". Axşam olanda yoldaşına deyir ki, bəs mən anamgilə gedəcəm. Deyir ki, get də. Səhər olur, durur özüçün çörək bağlıyır, yığır-yığışdırır, düşür yola. O kənd sənin, bu şəhər mənim, gəzir, dolanır, yoldaşına yaraşan bir qadın tapmır. Bir gün axşamüstü çox yorulur, əldən düşür. Gəlir bir meşənin içində oturur. Yaxında kənd var imiş. Deyir, burda çörəyimi yeyim, gedim bu gecə bu kəntdə gecəliyim, sabah yenə gedərəm də. Oturur, elə təzəcə süfrəni açmışmış, görür ki, ağacların arasınnan elə bir gözəl

gəlin çıxdı ki. Fikirrəşir deyir ki, hə, bu mənim yoldaşıma yaraşandı. Ancax Allah eliyə subay ola, mən bunu alam yoldaşıma.

Bu gözəl gəlin gəlir, salam verir oturur. Deyir ki, bəs çörək kəsək. Gözəl gəlin buna deyir ki, ay bacı, nə gəzirsən belə? Deyir ki, Allahdan gizdin deyil, səndən nə gizdin. Mənim yoldaşım çox gözəldi, gözəl insandı, gözəl xasiyyəti var. Mən özüm görürsən də nə gündəyəm, çirkin, aciz bir qadınam, amma məni o qədər çox isdiyir ki, mən özümdən xəcalət çəkirəm. Fikirrəşirəm ki, neçə illərdi mən onun ayləsiyəm. İndi onun yaxşılığın qabağında onun özünə layiq bir dənə qadın alım, olara qulluğ eliyim. Siz ağacların arasınnan çıxanda mənim o qədər ürəyimə yatdınız ki, elə mənim yoldaşıma yaraşansız. Fikirrəşdim ki, subay olsaz, sizi alardım yoldaşıma. Bu gözəl gəlin gülür. Deyir ki, sən nahaq əzyət çəkib çöllərə düşmüsən. Sən özün gözəl deyilsən, bəxtin gözlədi. Sən onu bil ki, yoldaşın sənə baxanda... Bax, mən sənin taleyinəm. Görürsən nə qədər gözələm. Sənin yoldaşın sənə baxanda səni yox, məni görür. Get başı sal aşağı, o çörək də sənindi, o aylə də sənindi, o uşaxlar da sənindi. Sənin taleyin gözəldi.

Arvad gəlir evə yorğun-arğın. Yoldaşı deyir ki, niyə belə eliyirsən. Açır kişiyə hər şeyi danışır. Kişi deyir ki, sən mənə eləsin alacaydın ki, sənnən də gözəl olacaydı?

## 11. ARVAD ŞƏRİ

Bir gün kişi namaz qılırmış. Keçmişdə deyillərmiş ki, şeytan şərinnən, şah qəzəbinnən, arvad şərinnən Allah, sən saxla. Kişinin arvadı fikir verir, görür ki, kişi bu sözdəri dedi, amma arvad şərinnən demədi. Namazı qutaran kimi deyir:

– A kişi, sən niyə demədin arvad şərinnən?

Deyir ki, pah, arvadın özü nədi, şəri də nə ola. Deyir ki, a kişi, nətər yanı arvadın özü nədi, şəri nə ola. Sən arvad şərinnən qorxmursan? Deyir:

– Yox, arvad maa nə şər eliyə bilər ki?

Deyir:

– Onda yaxşı, eybi yoxdu, baxarıx.

Kişi çıxır gedir işə-gücə. Bu heyni həyətə balıx satan gəlir. Bu balıxlardan alır. Kişiyə çörək-zad aparır da işə. Tez buları bükür, rahatdıyır. Kişi elə bil ki, oturub çörək yeyəndə arvad durur balıxları bir-bir düzür şumun içinə. Elə eliyir ki, kişi hiss eləmir. Bu çəkilir oturur qıraxda. Kişi yeyir-içir, durur başdıyır işə. Arvad deyir bir az baxım görüm nətər şumluyursan. Deyir:

– Hə, neynəh, otur bax da, nolacax.

Bu kişi başdıyır şumlamağa. Xışı vurur yerə, görür ki, vallah balıx çıxdı. Biri, ikisi, beşi, onu. Deyir:

– Ay arvad, ay arvad, tez bir qab gətir bura, burda balıxlar var, yığım apar.

Arvad deyir:

– A kişi, bəsdi, saa güləllər. Nətər şumun içində balıx var?

Deyir:

– Ay arvad, gəl bax da, bu dey balıx var şumun içində.

Gəlir arvad, doğurdan da, görür balıx var axı. Bu balıxları yığır, çəkilir qırağa. Kişi deyir ki, ay arvad, apar buları yu, yaxşı aş bişir, balığı da döşə altına. Deyir:

– Mənim gözüm üstə.

Gəlir arvad balığı yuyur, rahatdıyır, pulovu bişirir, vurur dəmə. Axşam olur, kişi gəlir. Kişi gəlir görür ki, arvad sakitcə oturub, heş nə də yoxdu. Deyir:

– Ay arvad, yeməyə nə var?

Deyir:

– Heş nə.

Deyir:

– Nətər yanı heş nə? Mən saa bəs balıx yığdım ki, apar bişir.

Deyir:

– Hardan yığdın balığı?

Deyir:

– Balığı şumdan yığdım.

Deyir:

– A kişi, mənim yanımda dedin, başqa adamın yanında demə, saa güləllər. Heç şumda da balığ olar?

Deyir:

– Ay arvad, Allahın olsun, Tanrın olsun, mən səni çağırdım, şumdan balıxları yığdım qaba ki, apar bunu yu, təmizdə, aş bişir, qoy altına gələk yeyək.

Deyir:

– Kişi, etmə, eləmə, sən dəli olmusan.

Kişi bunu başdıyır möhkəm döyür. Qonum-qonşu, dost-tanış yığılır gəlir, yəni belə aylə deyil də bu. Deyir:

– A kişi, nolub saa, sən niyə bu arvadı döyürsən? Nədi sizin dərdız?

Arvad deyir:

– Ay sizə qurban olum, ay camahat, bəlkə mən səyf eliyirəm. Bu kişi mənə deyir ki, mən şumdan saa balıx yığıb vermişəm, sən aş bişir qoy altına, mən gəlib yeyim. Heç şumda da balığ olar?

Deyillər ki, yox, şumda niyə balığ olur ki? Balıx suda olar. Deyir ki, bu kişi dəli olub, ay camahat. Camahat deyir ki, hə, doğurdan da, qardaş, sən dəli olmusan. Yaxşısı budu ki, sən get molluya. Kişi baxır ki, camahat bunu inandırdı da, bu dəli olubdu, bu getməlidi mollaya. Gətirir bir inəyi var, onu götürür aparır mollaya. Bir dənə də bunun kastyumu varmış da, onu da götürür, çörəh-zad bağlıyır, düşür yola. Gedir özünə qonşu kəntdə baxdırmağa. Arvad tez durur qarabaqara kişinin dalınca gəlir. Kişi gəlir, yorulur bir ağacın dibində, bulağ başında yeyir-içir, inəyi də bağlıyır ağaca, kastyumu da qoyur qırağa. Başın atır, kişini yuxu aparır. Arvad özünü çatdırır, görür kişi yatıb. Kişinin kostuyumunu geyinir, inəyi açır qatır qabağına, yavaş-yavaş gedir. Kişi birdən ayılır görür nə inək var, nə paltar var. Baxır görür ki, vallah, inək gedir, dalınca da bu kişinin özü gedir. Özünə baxır, inəyə baxır, inəyi aparana baxır. Kişinin adı Məmməd olur. Kişi qaçır qabağa, deyir ki, o Məmmətdi, bəs mən kiməm. Mən Məmmədəm, – qayıdır dala, – bəs o kimdi? Bir də irəliyir mən Məmmədəm, o kimdi? O Məmmətdi, mən kiməm? Kişi o qədər "mən Məmmədəm o kimidi, o Məmmətdi

mən kiməm" deyir, əldən düşür, oturur. Arvad tez inəyi bağlıyır tavlıya, paltarın dəyişir oturur. Kişi gəlir. Tay kişi nə abırda gəlir. Oturur oyan-buyan. Kişi bir az dincəlir eliyir. Əvvəl camahat onu dirəyə bağlıyır ki, kişi dəlidi da. Sora açıllar. Kişi gəlir əlin-ayağın yuyur, oturur. Arvad gedir qazanı gətirir, başdıyır pulovu çəkməyə. Çəkəndə balığın quyruğu görsənir. Deyir:

– Arvad, dur mənim gözümü də bağla, özümü də dirəyə bağla.

Deyir:

– A kişi, niyə?

Deyir:

– Balığın quyruğu görsənir.

Deyir:

– Ay kişi, bəs mən sənə dedim namaz qılanda deynən şeytan şərinnən, bəy qəzəbinnən, arvad şərinnən Allah, sən saxla. Sən dedin ki, arvadın özü nədi şəri də nə ola. Arvad maa nə şər eliyə bilər? Gördün səən başa nə oyun açdım.

Nağıl burda bitdi.

## 12. MƏHƏMMƏD HƏNİFƏ

Çığırğan Əli məçitdə mooz eliyirdi camahata. Qapıya bir ərəb gəldi. Ərəb dedi ki, Əlinin yanına getmək isdiyirəm. Əliyə dedilər ki, sənin yana gəlmək isdəyən var da. Dedi, buraxın gəlsin. Ərəb dedi ki, Əliyə deynən ki, yezitdər duz vermir bizə. Duzsuzduxdan bədənim iylənif, içəri girə bilmərəm. Həzrət Əli üz tutdu məçitdəki adamlara, dedi ki, kim gedər duz dağınnan bu millətə duz gətirə bilər? Heç kəs cavab vermədi, başdarın tikdilər aşağa. Məhəmməd Hənifə dedi ki, ata, mən gedərəm. Bu da balaca uşağ idi da. Atası dedi ki, get. Getdi anasınnan izin aldı. Dedi, ana, izin ver maa, gedirəm duz dağını açam. Atı mindi getdi. Millət də bunun dalınca getdi. Duzdan çapdı, millət daşıdı. Məhəmməd Hənifə otdu fikirrəşdi ki, mən Əlinin oğluyam, gedəcəm maa deyəcəklər getdin neynədin? Deyim getdim bir az duz oğurradım gəldim? Duz yolunu aşmalıyam.

Atı minir yenir şəhərə. Çarhouz vardı, onun qırağında atı buraxır, özü də uzanır. Orda Qəmi adda pəhlivan vardı. Pəhlivan da sərhətdərə gedir. Bunun arvadı qulluxçunu göndərir ki, get çarhouzdan su gətir əlimi yuyum. Qulluxçu gedir görür ki, suyun qırağında bir gözəl oğlan yatıb, bir gözəl oğlan yatıb. Gözü bu oğlanda aftafanın götün basır suya, aparır. Xanım deyir, gət tök əlimi yuyum. Əyir görür su yoxdu içində. Xanım deyir, aaz, bu nədi, su gətirməmisən? Deyir, xanım, mən gördüyümü sən görseydin heç aftafanın götün də isdadammazdın. Deyir, aaz, məni apar görüm nə görmüsən. Gəlir görür bir cavan oğlan par-par yanır, yatıb. Oğlanı oyadır, deyir, ay oğlan, Qəmi pəhlivan gəlsə səni burnuna çəkəcək. Burda niyə yatmısan? Deyif, get hələ maa su gətir. Gedir qızıl camda su gətirir. Deyir, təmiz deyil, apar təmizdə gətir. Aparır bir də yuyur gətirir. Deyir, təmiz deyil, apar təmizdə gətir. Deyir ki, ay ərəb, əlim təmiz, cam qızıl, nətər yuyum ki, təmiz olsun. Deyir, get suya tut camı, denən “Allahın məsəli əla Məhəmməd və ali Məhəmməd” gət su içim. Gedir heylə eliyir, gətirir suyu içir.

Deyir, xanım, Qəmi pəhlivan gələndə onun qabağına nə aparırsan? Deyir, neçə cəmdək yemək aparıram. Deyir, o gələndə yemək aparma. Özün də get uzan, denən ki, bir ərəb gəlib bizi şehid eliyifdi.

Pəhlivan gəlir. Arvad qabağına yemək aparmır. Pəhlivan hirsdi-hirsdi gəlir. Arvad deyir, bir ərəb gəlifdi, bizi şehid eliyifdi. Qəmi pəhlivan gedir suyun qırağına, görür bir balaca oğlan yatıfdı burda. Deyir, aaz, budu sizi şehid eliyən? Deyir, hə. Bunu oyadır. Deyir ki, nə cürətnən gəlib burda yatmısan? Bir az pəhlivannığınnan danışır. Məhəmməd Hənifə deyir ki, dilinnən danışma, əlinnən danış. Bular güləşir, bir-birin yıxa bilmillər. Bu onu çəkir, o bunu çəkir, yarıyatan batıllar torpağa. Sora deyillər ki, qılışdarı götürək. Qılışdarı götürüllər. Pəhlivan deyir, sən vur. Mənəmməd Hənifə deyir ki, mənim atam Çığırğan Əli fürsəti düşmana verib, sən vur. Bu qaldırır buna bir qılış yendirəndə Allah-taala Cənab Cəbrayıla deyir ki, qılıncı at onun qabağına, kəsməsin Məhəmməd Hənifəni. Bu qılıncı nətər vurursa, toz qalxır. Toz yatannan sora görür ki,

uşağa heş nə olmuyuf. Sora deyif ki, sən vur. Bu uşax buna nətər qılış yendirirsə, bu iki parça olur, amma bilmir. Toz yatır. Deyir ki, maa neynədin, heş nə eləməmisən maa. Deyir ki, Allah saa nəhlət eləsin, alnın möhür görmüyüf, qolun dəsdamaz görmüyüf, dilin la ilahə illallaha dönmüyüf. Hərəkət elə. Hərəkət eliyəndə parası ayana düşür, parası bayana.

Dava başdıyanda qız gedir kişi paltarı geyinir, gəlir buna kömək eliyir. Bular dava eliyir, eliyir. Oğlan görür ki, qız yaralanıf, ağırdı. Bunu çıxardır kənarda qoyur. Qız deyir sən deyirsən ki, mənim atam Çığırğan Əlini kim çağırsa, harayına çatır. Çağır da, bunnan ağır gün olar? Atan gəlsin saa kömək eləsin. Deyir, bu sahat atamın yanında sən hörmətdisən, çağır gələcek. Qız bir dəfə deyir ki, ya Əli, dara düşmüşük, bizə kömək elə. O saat Əli deyir ki, Qəmbər, Düldülü gətir, dara düşən var. Düldülün də qanadı varmış da, uçurmuş. Həmmişə Düldülün üzəngisin Qəmbər tuturmuş. Uçullar gəlillər, düşüllər dağda qızın yanına. Görüllər ki, qız ölüf. Peyğəmbər namaz qılır, dua eliyir, qız ayılır. Durullar Qəmbər bir tərəfdən, Çığırğan Əli bir tərəfdən, qalanını da qılıncın altınnan keçirif müsəlman eliyillər. Qızı da götürüf qayıdıf gəlillər.

Qayıdıf gələndə qabaxlarına bir ceyran çıxır. Qəmbər ceyranı qavalıyır. Həzrət Əli deyir ki, Qəmbər, üç ağaşdan artıx getmə. Qəmbər də qızışır, ceyran getdihcə Qəmbər gedir, Ceyran getdihcə Qəmbər gedir. Bir meşənin qırağında görür bir çadır var. O çadırın qabağına gedəndə içərdən bir qız çıxır ceyranı sığallıyır. Deyir ki, ay ceyran, səni kim qavaladı? Bu gedir deyir ki, ceyran mənimdi. Qız deyir, ceyran sənin nəyindi? Mənim ceyranımı qavalamısan, həlak eləmisən, hələ deyirsən ceyran mənimdi? Tutullar Qəmbərin əl-ayağın bağlıyıf aparıllar padşahın hüzuruna. Padşah da deyir ki, bunu salın quyuya, nətər olsa, Əli bunun dalınca gələcək. Bunu salıllar quyuya. Bir neçə gün qalır quyuda. Padşahın da kənizi həmişə buna çörəh-zad gətirif atırmış. Qəmbərə deyirmiş ki, ağa çağır gəlsin saa kömək eləsin. Çağırır, ya Əli, dara düşmüşəm. Qəmbər Əlinin silahdaşı idi, hara getsə, Qəmbərnən gedirdi. Özü də millət ən çox da Əlinin narə çəkməyinnən qorxuf ölürdü. Əli gördü Qəm-

bərin sədası gəldi, Düldülü minif gəlir. Şəhərə yaxınnaşanda bir narə çəkir. Narə çəkəndə Qəmbər quyuda eşidir ki, Əli gəldi. Nətər ayağın vuruf quyuya atılırsa, quyunun ağzındakı daşı da kənara atıf çıxır. Orda dava başdıyır, vuruşullar. Oranı da müsəlman eliyir, Qəmbəri də götürür gəlir.

## 13. ƏCƏLİ SUDA TAMAM OLAN GƏNC

Məhəmməd əleyhsalam bir evə qonax gedir. Qadın zahı imiş. Uşağ anadan olanda görür Cəbrayıl gəldi bunun alın yazısın yazdı. Deyir, qardaş, buna nə yazdın? Deyir, vallah, yazdım ki, toyu olan günü bunu sel aparajax. Deyif ki, mən peyqumbərəm, Allah mənim xatirimə yazını dəyişsin. Cəbyrayıl deyif, bir müddət gözlə. Gəlif deyir ki, dəyişmək mümkün döyül. Cəbrayıl yazır alnını, çıxır gedir. Məhəmməd peyqumbər uşağın adını da qoyur. Öz adın qoyur. Deyir, bəlkə Allah adına görə bağışdıya. Uşağın atasına deyir ki, mən sənnən xayiş eliyirəm, oğluna toy eliyəndə məni çağır. Deyir, ay qonax, mən səni nətər çağırajam, nə biləjəm sən hardasan? Deyir, toy eliyəndə yadına salginən ki, belə bir işim var, gəl iştirak elə, bəlkə mən gəlif çataram.

Nəysə, vaxt gəlir, il dolanır. Bunu nişannıyıllar öz əmisi qızına. Toy günü gəlir. Bu gün toy başdıyajaxdı. Deyir, ey dili-qafil, axı bu uşağın adını qoyan şəxs yoxdu burda. Mən ona söz vermişdim, əhdi-peyman bağlamışdım. Ay allah, mən nətər eliyim, bunu hardan çağırım? Allaha agah imiş da, Allah göndərir. Görür ki, bu kişi camahatnan gəlir. Bilmir ki, bu Məhəmməd peyqumbərdi. Deyir, qardaş, toyun mübarəh olsun. Deyir, vallah, arzusunda idim. Elə ürəyimdən keşdi, nə yaxşı gəldin çıxdın. Bərk nigaran idim. Deyir, Allah xeyir versin.

Deməli, bir bulaxdı. Bulağın suyu gəlir kəndin ortasınnan keçir. Elə bil, qardaşın biri bulağın o tayında olur, biri bulağın bu tayında. O taya keçməh üçün iki yol var. Bir bulağın üsdünnən addıyıf keçirsən, bir də bulaxdan yuxarı torpax yol var, ordan keçirsən. Peyqumbər əleyhsalam baxır görür ki, bulaxdı. Gəlini atnan

gedif oğlan özü gətməlidi. Oğlanın atasına deyir ki, ola bilər kəsə yolnan getməsin, torpax yolnan gedif gətirsin? Deyir, niyə olmur? Ehtiyat eliyir ki, su birdən qalxar oğlanı aparar. Oğlan gəlinin dalıncan gedir. Bulaxdan yuxarı quru yernən gedir. Ortaya çatanda hardansa gurhagurnan bir sel gəlir. Peyqumbər yüyürür oğlanı tutur. Əlin atır qaldırır görür kötük, atır yerə görür oldu oğlan. Bir dəfə də əlini atır götürür kötükdü əlində. Baxır ki, oğlanın meyidi ordan gedir. Deyir, pərvədigara, sənin yazdığına pozu yoxdu.

## 14. DÜLGƏR ƏHMƏD

Bir tacir olur, bu tacirin kalan qızılı olur. Bir baxıcı gəlir qapıya. Baxıcı deyir ki, sənin bu qızılın Bakıda dülgər Əhmət var, ona qismətdi. O vaxdı da belə otaxlar yox idi, dörd dirəkli dam idi. Gedir bir ağacı gətirir içini çıxardır, nə qədər qızılı, gümüşü var yığır ağacın içinə, vurur damın ortasına. Deyir, qoy Əhmədə qismət olsun. Əhməd həm də balıxçı imiş. Bir küləh qopur, bir tufan qopur, gəlir bu tacirin evinin altınnan girif üsdünnən çıxır. Bu ağacı aparır tulluyur dənizə. Əhməd də tor atıf balıx tuturmuş. Görür ki, dənizdə bir yaxşı ağac var. Deyir, elə Allah bunu yaxşı yetirif, bunu aparım çömçə-qaşıx qayırım. O vaxdı da çömçə-qaşıx taxtadan olarmış da. Gətirir atır qapıya. Bilmir də bunun içində nə var. Aradan beş-on gün keçənnən sora bu arvadına deyir ki, baltanı, kərkini, çəkişi gətir bura. Baltanı belə vurur ki, ağacı doğrasın çömçə-qaşıx qayırsın. Baxır görür ki, bunun içi teyxa qızıldı. Arvadı da sevinir, anası da sevinir. Deyir, sevinmiyin, qızıl qazanmamısız ha, qızıl yeyəsiz. Yiyəsi gələjəh.

Tufan yatır, sakitdəşir. Tacir fikirrəşir ki, baxıcı belə dedi. Gedim baxım, görüm düzdü, düz deyil. Gəlir sorağ eliyir. Bakının da onda təzə düşən vaxdı imiş. Deyir, burda dülgər Əhmət var? Gösdərillər, deyillər, o dey Əhmədin evi. Gedir qapıya, görür ağaş budu qapıdadı. Salaməlöykü, əleykimət salam. Dülgər Əhməd sizsiz? Deyir, bəli, mənəm. Deyir, gəl evə. Başına gələni danışır. Deyir, kişi, düz gəlmisən, canım üçün içinnən bir dənə də götürmə-

mişih, nə varsa içindədi. Apara bilərsən. Deyir, yox, baxıcının dediyi ki düz çıxıf, mana o qızıl lazım deyil. Əhməd anasına deyir ki, ay ana, gətir iki dənə qalın çörəh bişir, için doldur qızılnan, qoyax bunun xurcununa. Bu da belə eyilir. Bu durur gedir. Görür ayakqabısın altı qopuf düşür. Çəkməçiyə deyir, mənim ayakqabımın altı qopuf, bunu düzəlt. Bu da düzəldir. Nə qədər olsa, tacirdi də. Əlin salır civinə bir yüzdük çıxardır. Deyir, ay kişi, mən yüzdüyü harda xırdalıyım? Mən burda qəpiyə işdiyirəm. Buna boşdu qalmasın deyə götürür çörəyin üçün də verir çəkməçiyə. Demə, çəkməçi də Əhmədnən qonşu imiş. Axşam çörəyi vurur qoltuğuna, gəlir evə. Anası deyir, ay oğul, nə yaxşı çörəh gətdin, Fatma nənəngildən üç çörəh borc almışam. Çörəyin üçün də qoyur üsd-üsdə, aparır verir Əhmədin anasına. Arvad içəri girən kimi Əhməd deyir:

– Ay ana, o çörək sən bişirəndi.

Deyir:

– Ay oğul, heylə şey ola bilməz.

Deyir:

– Vallah, sən bişirəndi. Arasını aç.

Açır görür həmən qızıllardı. Deyir, hə, indi yeyə bilərsən, həmin qızıl sənin qismətindi.

## 15. QƏBR ƏZABI

Bir dənə kişi varıymış. Adi bir adam imiş. Bı çox maraxlanır ki, görəsən cənnətə necə olur gedif düşüllər, cəhənnəmə nətər gedif düşüllər? Yəni elədihlərinin əvəzini o dünyada necə verirsən? Maraxlanır bınnan. Allahın yanına gedən elçinin yanına gedir. Deyir ki, bəs Allahın yanına gedəndə sən onnan soruş ki, bu dünyada elədihlərinin əvəzini o dünyada necə verirsən? Bu kişi də deyir, yaxşı. Elçi gedir. Allah-taalaya deyir ki, sənin bir bəndən maa belə bir sual verir. Allah-taala deyir ki, o bəndəni göndər filan yolayrıcında bir dənə qapı var. Üş dənə qəbir var orda. Qəbirrərin birinin bir qapısı var. Ordan girsin içəri. Özü biləcəh, özü görəcəh hər şeyi. Bı da gəlir deyir bu kişiyə.

Kişi gedir. Görür ki, həqiqətən də orda üş dənə qəbir var. Qəbirrərdən birinin qapısı var da. Bını açıf girir qəbrin içinə. Girir qəbrin içinə, görür bir dənə arvad yatıf qəbirdə. Arvadın ətrafındakılar hamısı su içir, suynan əl-üzlərin yuyuf kef eliyillər. Bu arvadın dili ağzında yanır susuzdan. Bu arvada bir damcı su verən yoxdu da. Arvad zarıya-zarıya qalır, dodaxları partdıyır susuzluxdan. Kişi bunu görür. Gedir indi də o biri qəbrə. Görür ki, o biri qəbirdə bir dənə cavan qız yatıf. İnkir-minkirlər gəlillər qızın dilini çıxarıllar çölə, dilini qoparıllar, doğruyullar, dırnaxlarını, ətini qopardıllar. Qıza çox əzaf verillər. Kişi bırdan çıxıf girir o biri qəbrə. Girir o biri qəbrə, görür ki, orda bir oğlannan bir qız yatıf, əl-ələ tutuflar. O xəttər xoşbaxt simaları var ki buların. Heç ölüyə oxşamıllar da bular. Həə, buların üsdünə ətir tököllər, gözəl gül ləçəhləri səpillər üsdərinə. Bu kişi qəbirrərdən çıxır, gəlir həmən adamın yanına. Deyir ki, getdim, gəzdim, ama heş nə annıya bilmədim ki, bilmədim. Deyir ki, birinci qəbirə girif nə gördün? Onu sən maa de, mən də saa izah eliyim. Deyir, birinci qəbrə girəndə bir qadın gördüm, ona su vermirdilər. Deyir ki, o qadın öz əməlinin cəzasını çəkir. O qadının həyatində vaxtıynan su oluf. Heç bir qonşuya bir içim su vermiyif. Qonşular sudan əzaf çəkiflər. Bı da sudan kef eliyif. Bı qadın indi elədiyi günahların əzabını çəkir. Deyir, ikinci qəbrdə nə gördün bəs? Deyir, ikinci qəbrdə də gördüm bir qızın dilini çıxardıllar. Əzaf verillər, qızın dilini qopardıllar. Belə eliyillər, elə eliyillər. Deyir, həə. İndi bını yadında saxla. Üçüncü qəbrdə nə gördün? Deyir, üçüncü qəbrdə gördüm ki, qıznan oğlan əl-ələ tutuf yatıflar. Xoşbaxtdılar, üsdlərinə gül töküllər. Həmən kişiyə, yanı qəbrə gedənə izah eliyir ki, o üçüncü qəbirdə yatannar biri-birrərini sevən, özü də həddən artıx sevən gənc olullar. Bunnar bir-birrərini seviflər. O ikinci qəbrdə yatan qız bu sevgililəri bir-birinnən ayırıf, oğlanın yazdığı məktufları aparıf vermiyif. Onun əvəzinə ayrı, əks məktuflar yazıf verirmiş. Qızın yazdıxlarını da elə eliyif ki, bunnarı bir-birinnən ayırıf. İndi o dünyada bı iki gənc qovuşuflar bir-birrərinə, xoşbaxt yaşıyıllar. O qız da dilinin bəlasını, cəzasını çəkir. Onun dilini ona görə dartıllar, qopardıllar. Ona görə da hər kəs bu dünyada elədiyi əməllərin əcirin o dünyada çəkəcək.

## 16. İLAN UDAN KIŞI

Bir kişi varıymış, gedirmiş haca. O vaxtı da axı haca piyada gedirmişdər. Özü də özünə ruzi yığıf gedirmiş. Gedif yolda görür ki, yoldaşdarının ruzusu çoxdu, ama bında azdı. Bı kişi çox fikirrəşir ki, ay allah, mənim ruzum azdı da, indi hamı yeyəcəh, mənim ruzum qalmıyacax, çatmıyacax. Kişi fikir eləməhdən yorulur, oturur dincəlməyə. Yoldaşdarınnan ayrı düşür bı. Bir vaxt ayılır ki, yatmışmış da. Həə, ayılır ki, bir sürü ilan gəlir. Qabaxdakı ilan o birilərinnən çox sürətnən gəlir. Bı ilan bütün qanın içindədi. Kişi durur ayağa ilana deyir ki, hara gedirsən belə, niyə qanın içindəsən? İlan deyir ki, məni bəs öldürmək isdiyillər. Məni bəs bir yerdə gizdə da. Kişi fikirrəşir ki, mən bını harda gizdəsəm, tapajaxlar da. Kişi ağzını açıf ilana deyir ki, gəl gir ağzıma. İlan gəlif girir bının ağzına. Birdən arxadan ilanı axtaran ilan sürüsü gəlir. Kişidən soruşullar ki, sən belə bir ilan görmədin yaralı bir ilan? Kişi deyir ki, yox, görmədim. Kişinin də üsdü ilanın qanına bulaşmışmış. Deyillər ki, bəs bu nə qandı üsdündə? Kişi deyir ki, istidi də, burnumdan qan açılmışdı, tökülüf üsdümə.

Nəysə, bu ilan sürüsü sürünüf gedir. Kişi ilanı xilas eliyir. Kişi ilana deyir ki, çıx da, ta səni xilas elədim, çıx qarnımnan. İlan deyir ki, yox, sən öz vəzifaa yerinə yetirdin məni xilas elədin. Mən də ilanam da, ilannığımı yerinə yetirməliyəm, səni çalmalıyam. Səni çalmamış çıxmaram da burdan. Kişi deyir ki, bəs sən nə danışırsan? Mən səni xilas eləmişəm, ölümnən qutarmışam, indi sən maa pisdih eliyif çalassan? İlan deyir ki, o sənin vəzifəndi, bu da mənim vəzifəmdi. Çalmalıyam səni. Allah-taaladan, göydən bir kişi düşür bu kişinin qabağına. Kişiyə su verir. Kişi sudan bir qurtum içir. Yumruxnan vırır bunın qarnına. Vıranda ilan gəlif bının ağzınnan düşür. İlan çıxıf gedir. O kişi gələn adamnan soruşur ki, sən niyə məni xilas elədin? Deyir ki, sənin azuqən azdı. Sən gedif haca çıxa bilmiyəcəhsən. Qayıt geri. Kişi deyir ki, nətəər? Mənim əhdimdi, niyyətimdi haca gedim. Hamı getməlidi da. Mən də getmək isdiyirəm axı. Qeybdən gələn kişi deyir ki, artıx sən haca get-

din qayıtdında da. İlanı ki, xilas elədin, onu uddun, onun xilaskarı oldun. Sən artıx haca getmisən.

## 17. DÜNYANI NECƏ TUTSAN, ELƏ DƏ GEDƏR

Şah Abbasnan vəziri çıxıllar səyahətə, gəzillər. Bunnar düzü-biyabannan gedillər, bərk susuyullar. Görüllər ki, yolun qırağında bir nəfər qarpız satır. Şah Abbas deyir:

– Vəzir, bu qarpızdardan birin alax kəsək yeyək.

Düşüllər atdan, deyillər qarpızın biri neçiyədi? Deyir, biri iki manıt. Şah Abbas deyir, yox, mən iki manıt verif qarpız yemərəm. Elə bu mamentdə cavan bir oğlan gəlir, iki manıt verir qarpızın birin alır. Qarpızı kəsir, bir azını özü götürür, qalanını verir bulara. Nəysə, yeyillər. Vəzir deyir:

– Şah sağ olsun, biz şah ola-ola iki manıta qıymadıx, onun varı-yoxu iki manıtı vardı, verdi qarpızı aldı, onu da bizə yedirdi.

Şah Abbas deyir, əşi, dünyadı, nətər tutsan, heylə də gedəjəh. Bu da ağıllı uşağmış. Deyir:

– Şah sağ olsun, elə o sözü yaz, peçat vur, ver mənə.

Şah orda yazır, dünyanı nətər tutsan, heylə də gedər. Peçat vurur, verir gedəyə. Gedə qoyur civinə, gəlir kəndə. Gedir filankəsə deyir, mənə yüz manıt borc ver, verəjəm. Belə-belə külli miqdarda pul topluyur, gedir başqa ölkəyə. Gedir stalovada oturur. Kim qapıdan girirmiş deyir otur. Bir-iki gün belə. Gedir şaha çatır ki, bir nəfər gəlif hamını qonaxlıyır. Deyir, gedin onu çağırın gəlsin, bu nətər şeydi bir xeylə pulu orda xaşdıyır. Gəlir salamələykü, əleykimət salam. Sən kimsən, nəçisən bir belə pul xəşdiyirsən?

Deyir:

– Mən Şah Abbasın oğluyam.

Deyir:

– Şah Abbasın oğlusan, gəl buruya sənə qullux eliyək, sənə hörmət eliyək. Sən gedif restaranda pullarını havayı yerə xəşdiyirsən.

Bu burda qalır, buna yaxşı hörmət eliyillər. Şah vəzirin çağırır, deyir, bu Şah Abbasın oğludu. Neyniyax ki, bu bizdən razı gedə.

Deyir:

– Vallah, bircə yolu var. Gəl qızını ver buna, qohum ol da, Şah Abbas da arxanda dursun.

Belə məsləhət eliyillər, gətirillər buna qırx gün-qırx gejə toy çaldırıllar. Vurhavur, tuthatut. Bir ay qalır, iki ay qalır. Bir gün oğlan deyir, mən gedəsiyəm, burda qalmıyajam. Bunu qəflə-qatırnan yola salıllar. Şah deyir ki, atana məktub yaz, səni qarşılasın. Bir məktub yazıf göndərir ki, ata, üzr isdiyirəm, bağışda məni, da sənsiz burda evləndim. Məktub çatır. Şah Abbas fikirrəşir mənim heylə oğlum yox gedə orda evlənə gələ. Allahverdi xan vəziri çağırır, deyir:

– Vəzir, bu nətər şeydi?

Deyir:

– Şah sağ olsun, məktub yaz ki, gözüm üsdə yerim var, toy eləmisən, gəl. Gələndə görəjəhsən da.

Belə bir məktub yazıb göndərillər. İndi bu ürəkli-ürəkli gəlir, bunu qarşılıyıllar, aparıllar yerrəşdirillər, xəlvətə salıllar. Səhər Şah Abbas deyir:

– Bala, sən mənim oğlum deyilsən, bu nə həngamadı yaratmısan?

Deyir:

– Şah sağ olsun, sən özün yazmısan ki, dünyanı nətər tutsan, heylə də gedəjəh. Mən də dünyanı belə tutmuşam da.

Deyir:

– Oğlumsan ki, oğlumsan.

Təzədən toy çaldırır.

## 18. HAMBAL MEHDİ

Vəzifəyə uyğun olmuyan bir adam qoyulanda babam həmişə bunu məsəl kimi çəkərdi.

Deyirdi ki, Şah Abbas bir gün dərviş paltarında gedir, vəziri də yanında. Bir nəfər gəlir, palanın soyunur çiyninnən, qoyur yerə. Öz-özünə deyir ki, məni İsfahana qoburnat qoyalar, onda bilələr,

analar necə oğul doğufdu. Şah Abbas da bunu eşidir. Vəzirə deyir ki, onun adın, familin örgən gör kimdi. Vəzir örgənif gəlir.

Şah Abbas səhər onu çağırtdırır saraya. Deyir ki, səni İsfahana qoburnat qoyuram. Deyir ki, mən hambalam, mənim sənətim, işim budu. Qoburnatdıx mənim işim deyil. Deyir, yox, səni təyin elədim, get. Gedir.

Bir gün Şah Abbasa şikayətə gəlillər ki, şah sağ olsun, təyin etdiyin qoburnat qoymur meyitdərimizi basdırax. Harda ölən olur, deyir ki, mənsiz basdırmıyın. Gəlif qulağına nəsə deyir, onnan sora icazə verir basdırmağa. Qabaxdan yay gəlir. Belə getsə meyitlərimiz iylənəjəhdi. Olmaz axı belə şey. Şah Abbas onu çağırtdırır yanına. Deyir, onu gedin gətirin bura, görüm o meyitdərin qulağına nə deyir. Gəlir. Deyir ki, sən gedif o meyitdərin qulağına nə deyirsən? Deyir, şah sağ olsun, mən gedif deyirəm ki, səni dağılasan İsfahan, gör nə günə qalmısan ki, Hambal Mehdi qoburnatdı.

## 19. ƏDALƏTSİZ ŞAH

İki kasıf dost olur. Onnar fəhləlih eliyir da, dolanıllar. Bir dənə komada oturullar. Bir gün eşidillər ki, carçı çağırır ki, bəs sabah quş uçurdacıyıx. Quş kimin çiyninə qonsa, onu şah seçəciyih. Dostun biri o birisinə qayıdıf deyir ki, birdən səni padşah seçsələr, sən nətər padşah olarsan? Qayıdıf deyir ki, mən o qədər ədalətdi şah olaram ki, yer üzündə hər yeri ədalət bürüyər. O birisi də ona deyir ki, bəs sən nətər şah olarsan? Qayıdıf deyir ki, mən də elə şah olaram qan su yerinə axar. Ədalətsiz bir şah olaram. Nəysə, iki dost belə danışıf deyir ki, əşi, kimdi e bizi şah seçən, kasıf, fəhlə babalarıx.

Nəysə, bir gün səhəri bı quşu uçurdullar. Quş gəlif qonur oğlanın birinin çiyninə. Hansı ki, deyir e, mən zalım padşah olacam, qan su yerinə axsın. Gəlif baxıllar ki, quş qonuf cavan bir oğlanın çiyninə. Deyillər, yox, yəqin quş düzgün qonmuyuf. Aparıf təzdən bir də uçurdullar. Quş yenə gəlif qonur oğlanın çiyninə. Məcbur oluf aparıf oğlanı şah seçillər. Bir gün belə, beş gün belə. Oğlan şah seçilənnən bir gün sora camahata o qəddər zülüm eliyir ki, qan su yerinə axır. Ta

camahat bu zülümdən boğaza yığılır. Bir gün ağsakqallar yığışır, deyillər ki, gedək bının bir dosdu varıdı axı, bir yerdə işdiyirdilər. Gedəh dosduna deyəh, gəlsin bının yanına, bəlkə sözünə baxar.

Nəysə, gəlif bına deyillər. Oğlan da duruf gəlir. Oturur elçi daşının üstündə. Şah, sarayınnan baxıf görür ki, bunun fəhlə işdədiyi dostu oturuf elçi daşının üstündə. Adam göndərir, bını gətizdirir. Gəlir bınnan görüşür. Oğlan deyir ki, niyə belə zülümkar şahsan? Camahat yazıxdı, onnara niyə zülüm eliyirsən. Şah oğlana deyir ki, yadındadı oturmuşdux, sən dedin, əgər şah seçilsəm, mən ədalətdi şah olacam. Mən də dedim, zülümkar şah olacam. O quş gəldi mənim çiynimə qondu. Elə bı xalqa ədalətli şah lazım olsaydı, quş gəlif sənin çiyninə qonardı. Bı xalqa zülümkar şah lazımdı ki, quş da gəlif mənim çiynimə qonuf. Elə ona görə mən zülümkaram da. Bu xalqa belə şah lazımıymış. Dosdu bına ta heş nə demir, korpeşman qayıdır, çıxır gəlir.

## 20. AĞILSIZ ADAM

Padşah vəzirə əmr eliyir ki, mənə ağılsız adam lazımdı. Vəzir düşür kəntbəkənd gəzir, soruşur, ən ağılsız adam kimdi, deyillər, filankəs, filankəs. Gəlir ki, bir yerdə böyük bir yığıncaxdı. Bir qırmızı isdoldu, biri oturuf çox ağayana. Bir də qara isdoldu, bir kişi büzüşüf duruf orda. Camahat hamısı sıraynan gəlir qırmızı isdolda oturanın əlinnən öpür, keçir o qara isdolda oturanın üzünə tüpürür. Vəzir deyir ki, bu nə bayramdı, nə mərasimdi? Deyillər ki, bu qara isdolda oturan kəndin kəndxudasıydı, çıxarıflar, indi qırmızı isdolda oturanı bu kəndə kəndxuda seçirik.

Deyir:

– Yaxşı, niyə o çıxanın hamı bir-bir üzünə tüpürür?

Deyir ki, bizim kəndin adətidi da. Vəzifədən çıxannan sora hamı onun üzünə tüpürməlidi. Deyir ki, o adam görmür kü, işdən çıxanın üzünə bu cür tüpürüllər? Deyir ki, niyə görmür, o da bizim kəndin sakinidi də. Deyir:

– Bəs o vəzifəni niyə qəbul eliyir?

Deyir:

– Nə bilək, qəbul eliyir da.

Vəzir də öz-özünə fikirrəşir ki, ən ağılsız adam bu olar da. Qolunnan yapışır gətirir padşahın hüzuruna. Deyir ki, padşah sağ olsun, tapmışam bir ağılsız adam.

Deyir:

– Nə cür sübut eliyə bilərsən ki, ağılsız adamdı.

Vəzyəti olduğu kimi danışır. Deyir, getdim ki, hamı bunun əlinnən öpür, keçir o birinin üzünə tüpürür. Soruşdum bu nədi, dedilər bizdə adətdi də. Vəzifəyə gələni belə təbrik eliyillər, əlinnən öpüllər, çıxanın da üzünə tüpürüllər. İndi bu o qədər ağılsız adamdır ki, fikirrəşmir, beş ildən sora bunu da çıxardajaxlar.

## 21. ÇÖRƏYƏ EHTİRAM

### I mətn

Bir kasıf kişi olur. Görür ki, day yaşıya bilmir da, kasıfçılıxdan ölür. Peyğəmbər zamanasında bir gün gedif peyğəmbərə yalvarıf ki, ay peyğəmbər, elə elə ki, heç olmasa əlim bir çörəyə çatsın da, ölürüh axı. Peyğəmbər deyir ki, qoy gedim Allahnan kəlmələşim, saa gəlif deyəcəm. Peyğəmbər qurban olduğum Allahnan kəlmələşir. Allah deyir, mən ona çörəh verdim, getsin dolansın. Kişi gəlif deyir ki, ya peyğəmbər, saa qurban olum, nə xəbər gətirdin? Deyir ki, dedim, qurban olduğum dedi ki, mən ona çörəh verdim, getsin dolansın. Sora kişi hansı işin dalınca gedirsə, görür ki, əli gətirir. Əli pula çatdı, çörəyə çatdı. Ruzusu bol oldu da. Ruzu da olduxca baxır görür ki, evdə evin qadını, uşağı heş bu çörəyə fikir vermillər, əhəmiyyət vermillər. Kişi gəlif içəri girəndə baxıf görür ki, çörəyin qədrini bilən yoxdu. Deyir ki, ay allah, mən neyniyim ki, bunnar çörəyin qədrini bilsin? Duruf çıxıf yola. Peyğəmbər gələndə deyir ki, ya peyğəmbər, get bizim allahımıza denən ki, mən onnan bı qədər çörəh istəmədim. Bir az versin, qədrini bilsinnər çörəyin (istəmir də çörəh ayax altına düşsün). Peyğəmbər genə deyir, dayan gedim Allah-taalaynan kəlmələşim, sora deyərəm. Qayıdıf gələndə kişi deyir ki, Allah nə dedi?

Peyğəmbər deyir ki, Allah deyir, getsin yuxa-çörəh bişirsin, versin uşaxları yesin, onda çörəyi azalajax. Kişi duruf gəlif qadınına deyir ki, ay arvad, daha bınnan sora yuxa çörəh bişir, qalın çörəh bişirmə. Qadın başdıyır yuxa çörəh bişirməyə. Yuxa çörəh də quru olur axı birəz. Tökülür yerə, birəz ora, birəz bıra. Kişi hər uşağı üçün arvadına bir önnüh tikdirir. Çörəh yeyəndə önnüyü tutur uşaxların qabağına, deyir ki, tökülən tökülsün önnüyün üstünə. Uşaxlar həylə də eliyir. Kişi bir il, iki il baxıf görür ki, daha da varrandı, çörəyi aşıf daşır. Kişi deyir ki, ay Allah, peyğəmbərdə də yalan olar, axı maa dedi yuxa bişir çörəyin azalajax. Ama azalmadı axı. Genə gedir yolda oturur. Peyğəmbər gələndə deyir ki, sizdə də yalan olur, ya peyğəmbər, sənə qurban olum? Deyir, dayan, gedim Allah-taalanın yanına, gələndə saa deyəjəm. Ama peyğəmbərə agahdı axı nə var, nə yox. Peyğəmbər gedif heç bı dəfə Allah-taalaynan kəlmələşmir. Qayıdıf gələndə kişiyə deyir ki, ay kişi, getdim sənin dediyini Allah-taalaya çatdırdım. Allah dedi ki, o kişi çörəyə həylə qiymət verir. Mən dedim yuxa çörəh bişir, çörəh quru olur axı. Tökülsün, gələn-gedən ayaxlasın da onu, onda sənin çörəyin azalajax. Sən onnan belə çörəyin qədrini bildin. Ona görə də get, oğul, bı çörəh sənindi. Sənin bir də çörəyin kəsilmiyəjəh.

**II mətn**

Bir dənə padşah varıymış. Padşaha səs, sorax gəlir ki, bu mahalda hamı acınnan ölür da. Bütün camahat ac qalır. Elə adam var ki, bir uşağı var, ama çörəh tapbır ki, yedizdirsin. Ama bir gəlin var. O qadının səkgiz-dokquz uşağı var. Onnarın uşaxları həmişə çörəh tapıllar yeyillər. Padşaha bu maraxlı gəlir ki, o qadın neyniyir ki, onun uşaxları aj qalmır. Padşah vəzirin, vəkilin də götürüf gedir mahalı gəzir. Görür ki, uşaxlar hamısı aj-susuzdu. Görür bir dənə uşax var. Anası uşağı çağırır, çörəyin arasına nəsə qoyur, verir uşağa. Uşax çörəyi yeyir, tökə-tökə, ayaxlıya-ayaxlıya gedir.

Gedif çıxır səkkiz uşağı olan qadının evini tapır, gəlir ora. Görür ki, qadın süfrə açıf. Uşaxların hamısını otuzduruf, hərəsinin də əlinə çörəh verif. Çörəh də quru çörəhdi da. O vaxtı yaxşı çörəyi kim

tapırmış ki, quru çörəymiş da. Quru çörəh verir bınnarın əlinə. Uşaxlar yeyillər, ama yerə tökülmür da. Padşah yaxınnaşıf bınnara. Görür ki, uşaxların hərəsinin boynunda bir torba var. Qadın tikif də. Padşah deyir ki, niyə tihmisiniz bu torbanı? Anaları deyir ki, padşah sağ olsun, bu torbanı tihmişəm ki, uşaxlar yedihcə qırıxları tökülsün bu torbanın içinə. Əyağ altına tökülməsin, ayaxlamasın da. Uşaxlar da yedihcən tökülür torbanın içinə. Torbanın içindəkiləri təzdən qaba tökürəm. Uşaxlar onu təzdən yeyillər da. Yerə çörəh düşmür.

Padşah deyir ki, həə, gəlin qayıdax. Vəzir deyir ki, ay padşah, nə annaşdırdın, bu uşaxları nəynən dolandırır bu qadın? Padşah deyir:

– Bu qadına Allah verir. Ona görə ki, bu qadın çörəyin qədrini bilir.

## 22. OTUZİLLİYƏ VERİLƏN VAR-DÖVLƏT

Bala, genə də bir kasıf kişi olur. Həmən kişi kasıflıxdan ölürmüş. Deyir ki, gedirəm Allah-taalanın yanına, onnan birəz var-döölət istiyəm, mən də yaşıyam. Kişi gedir peyğəmbərin yolunda durur. Deyir ki, ya peyğəmbər, mənim allahıma denən ki, yazığam. Maa birəz var versin, döölət versin mən də yaxşı dolanım. Peyğəmbər gedir Allah-taalanın yanına. Qayıdanda deyir ki, Allah dedi ki, get o kişiyə denən ki, iyirmi, otuz illiyə saa bu qədər var verdim, get dolan. İyirmi-otuz ildən sora o varı sənnən elə alajam, sənin bu günün o günaa şükür olsun. Peyğəmbər gəlir kişiyə deyir ki, Allah-taala maa belə dedi. Saa iyirmi, otuz illiyə var-döölət verir. Ama deyir ki, otuz ildən sora onu pis vəzyətə salajam, varı-dööləti əlinnən alajam.

Kişi fikirrəşir deyir ki, əşi, hələlik gedim otuz il dolanım, sorası da Allah kərimdi, pənah Allaha. Durur gedir. Günü-günnən bının varı, dööləti artır. Bının uşaxları da böyüyür. Yaxşı imarat-zad tihdirir. Bir gün kişinin oğlu deyir ki, ata, get padşahın qızını al maa. Kişi deyir ki, ay bala, səni and verirəm Allaha, padşah hara, biz hara. Ama kişi Allahın ona dediyi sözləri demiyif onnara, yanı evdəkilərə. Bircə özü bilir. Bı kişi nə qədər oğluna deyir ki, ay oğul, alma o qızı, sora peşman olarsan. Deyir ki, yox, alacam. Almasam, özümü öldürəcəm.

Kişinin əlacı kəsilir, duruf gedir padşahın yanına elçiliyə. Padşah da baxıf görür ki, bu padşaha layıq bir adamdı da, hər şeyi var. Padşah qızını kişinin oğluna verir. Oğlu götürür gəlir qızı evlərinə.

Allah-taalanın dediyi vaxtın tamam olmasına bir il qalanda kişi günü-günnən geri gedir, düşür yorğan-döşəyə. Pis günə düşmənlərindən qorxur da. Gəlin gəlir qaynatasına deyir ki, ay ata, saa noluf, günü-günnən əriyirsən? Axı saa noluf? Hər şeyin var. Varın, döölətin, nə bilim nəyin, oğlun, qızın, nəvə-nəticən. Niyə bu günə düşmüsən? Kişi gəlinə deyir ki, ay gəlin, mən biləni sən bilsən, sən də belə olarsan. Gəlin deyir ki, nə var ki? Padşah qızıdı da, savatdı adamdı, əl çəkmir. Mənə deməlisən görüm sənin dərdin nədi? Kişi deyir ki, bala, öz oğluma, qızıma, arvadıma açmamışam, saa açıram. Qızım, bı varı-döövləti Allah-taala maa vaxtnan verif. İndi bı il başa çatan kimi Allah-taala bı varı bizdən alacax, bizi elə bir günə qoyacax ki, əvvəlki gününnən də pis olacax. Biz heç, o günə, yanı kasıfçılığa örgəşmişih, dözəciyih. Mənim dərdim sənsən, qızım. Axı sən padşah qızısan, qızım, dözmərsən o günə. Ona görə də mən belə günə düşmüşəm.

Deyir:

– Ba, mən də deyirəm ki, nəə görə belədi?

Gəlin qaynatanı durğuzuf geyindirir. Tutuf qolunan götürür gedir. Deyir ki, gəl gedəh, mən peyğəmbərə deyim, getsin Allah-taalaya, bir söz deyəcəm, sözümə cavab gətirsin. Qaynatasınnan gedir peyğəmbərin yolunda oturur. Peyğəmbər gələndə kişi deyir ki, ya peyğəmbər, saa qurban olum, bı mənim gəlinimdi. Sənnən bir xayişə gəlif. Deyir ki, qızım, nə xayişdi?

Deyir:

– Ya peyğəmbər, saa qurban olum, get bizim allahımıza denən ki, o kişinin gəlini deyir ki, ey mənim allahım, bizim varımızı da al, döölətimizi də al, nəyimizi alırsan al, təki bizim canımızı sağ elə, bir də bizim mehribançılığımızı əlimizdən alma. Qalan hər şeyimizi al. Qurban olduğum da deyir ki, yaxşı, gedif deyərəm.

Peyğəmbər gedif Allah-taalaynan kəlmələşəndə deyir, sənin bəndən öza agahdı da. Allah-taala deyir ki, get o bəndiyə denən ki,

o varı-dööləti oğulbaoğul verdim saa. Peyğəmbər durur gəlir. Deyir ki, Allah-taala deyir ki, varı-dööləti verdim onnara.

Kişi ikinci dəfə bir də gedir peyğəmbərin yolunu kəsir. Deyir, ya peyğəmbər, sizdə yalan olmaz axı. Allah varı, dööləti vaxtnan vermişdi. İndi noldu, onun hamısın birdəfəlih verdi maa? Nədi, nədi gəlin bir söz deməhnən belə olur? Peyğəmbər gedir Allah-taalanın yanına, qayıdıf gələndə kişiyə deyir ki, a kişi, bilirsən Allah o varı-dööləti sizə niyə verif? Sənin canı sağ eləmiyənnən sora, mehribançılıx olmıyannan sora, var olar? O, savatdı padşah qızıdı, deyir ki, bizim canımızı sağ elə, bir də mehribançılıxımızı əlimizdən alma. Can sağ olanda, mehribançılığ olanda var öz-özünə gələjəh.

## 23. ŞAH ABBAS VƏ ÜÇ OĞRU

Şah Abbas qapı-qapı gəzir. Görür ki, xəzinənin yanında üş nəfər adam var. Gejənin yarısı, üç nəfər adam xəzinənin yanında. Şah da şahdı axı, balaja adam deyil. Bilir ki, bular xəzinəni yarmağa gəlif. Oğru diliynən bulara deyir ki, kimsiz? Olar da oğru diliynən deyir... (Oğru dili də var, aşıq dili də. Məsələn, toya gedəndə öz yoldaşımnan mən nə danışsam heş kim məni başa düşməz). Hələ xəzinəyə yaxınnaşmıyıflar, aralıdadılar. Şah deyir ki, əlinizdən nə iş gəlir? Şah da adicə fəhlə paltarındadı ey, seçilmir bulardan. Bularıın libası hələ şahınkınnan yaxşıdı. Biri deyir ki, biz oğruyux, gedəjeyih oğurruğa. İt hürsə, biləjəm ki, o it nə deyir. Şah deyir ki, sən öl, sənin işin yaxşıdı. O birsinə deyir ki, ə, sənin əlinnən nə gəlir?

Deyir:

– Mənim əlimnən o gəlir ki, nətər çətin qıfıl olsa, ona əl buladımsa açmalıyam.

Deyir:

– Sən öl, səninki lap yaxşıdı.

O birsinə deyir ki, bəs sənin əlinnən nə gəlir? Deyir:

– Zülmət gejədə bir adamı görsəm, otuz il onnan sora onu tanıyajam.

Onnardan biri çevrilir deyir ki, bəs sənin əlinnən nə gəlir? Deyir:

– Mənim əlimnən o gəlir ki, ölüm ayağı oldu, can baratı oldu, gördüm ki, ölüm gəlif duruf, tənəzzül gəlif duruf, əlimi bığıma çəkəjəm o tənəzzüldən azad olajayıx.

Bular deyir:

– Sən öl, lap yaxşı.

Gedif xəzinəni yarıllar. Hərəsi bir kilo, yarım kilo qızıl götürür, paylaşıllar. Şah da öz payını götürür gedir öz evinə. Buların üçünü də tanıyır. Səhər qasidə deyir ki, getginən onnarı çağır. Qasid gedir çağırır, üçü də gəlir. Şah deyir, bu gejə şahın xəzinəsini yarmısız, sizi dar ağacınnan asdırajm. Dar ağaşdarın qurdurur, camahat yığılır, el yığılır. O adət çoxdandı ey. Axırıncı variantda deyillər nə deyirsən, asıllar səni. Biri deyir:

– Vallah, səyf eləmişəm, uşaxlarım var, ayləm var, yazığın gəlsin.

O birisi deyir ki, işdi olufdu, qələt eləmişik, amanın günüdü bizi öldürmə. Qızılını da veririk. Növbə adam tanıyana gəlir. Adam tanıyan deyir:

– Şah, biz xəzinəni dörd adam yarmışıx. Ya dar ağacın dörd elə, o adam da gəlsin asılsın, ya da əlini bığına çək.

Heylə olur üçün də buraxır. Deyir, sizə yaxşı yol, gedin.

*Söyləyici nağılı atasından eşidib. Atası toy bəyi olub, məclisdə, evdə yeri gələndə belə nağıllar söyləyirdi.*

## 24. DİLİMİ YAXŞI DANIŞMAĞA ÖYRƏDİRƏM

Şah oğlu Şah Abbas dedinsə, gərək deyəsən cənnətməkan. O sözü deməyən adamın nə Şah Abbasdan xəbəri var, nə də afsanaya düşməz. Onun bir misalı var. Deməli, Şah oğlu Şah Abbas cənnətməkan öz dəsdəsiynən çıxıf mahalı gəzəndə görür ki, bir balaca uşağ eşşəyin boynun qucaxlıyıf üzünnən öpür. Başına dönüm, qəşəhdi, başına dönüm, nejə gözəldi. Öpür, öpür. Bular da gedir ki, uşağ eşşəyin boynun qujaxlıyıf burnunnan, üzünnən öpür. Deyir,

qəşəh bala, haramdı ey, onu niyə öpürsən, boşda getsin. Deyir, ay baba, dilimi yaxşı danışmağa örgədirəm. Şah oğlu Şah Abbas cənnətməkan əmr eliyir, hərə bir avış qızıl verir uşağa. Uşağın papağı dolur, yer olmur ətəyin tutur.

Xülas ki, bular qızılın verif gedir, uşağ eşşəyin arxasınca gəldiyi yerdə qujağında işıldıyan qızıl. Bir ağsakqal kişi görür ki, uşağın qujağında nəysə işıldıyır. Gəlir deyir ki, qəşəh bala, o nədi? O atdılar kimlər idi? Deyir, baba, bilmirəm kim idi. Amma bir adam dedi ki, Şah Abbas, gör nə ağıllı uşaxdı ey. İndi Şah Abbas hansıydı mən bilmirəm. Maa dedilər eşşəyin üzünnən öpmə. Mən dedim ki, dilimi yaxşı danışmağa örgədirəm. Onnan bu qızılı verdilər mana, özdəri də gülüşə-gülüşə getdilər. Kişi də uşağa deyir ki, bala, eşşəyi ver, onnar qayıdanda görax mana da qızıl verirmi? Kişi eşşəyi alır, uşax gedir sevinə-sevinə.

Bunnar qayıdan başı görüllər ağsakqal kişi eşşəyin o üzünnən, bu üzünnən öpür. Gəlir həmənki qaydada deyir ki, əşi, ağsakqal kişisən, eşşəyin üzünnən niyə öpürsən? Deyir, dilimi yaxşı danışmağa örgədirəm. Deyir, ə, çırpın bu kopoğlunu. Həştad yaşına qədər dili yaxşı danışmıyıf, innən belə örgədir.

Köhnə adamlar Şah Abbasın nağılın danışanda həmişə deyirdilər ki, bax ha, bax ha, bax ha, şah oğlu Şah Abbas deyəndə cənnətməkan deməsəniz onun ruhu sizi tutar.

## 25. ALLAHDAN GƏLƏN BƏLA

Bir gün bir məmləkətin sahibinə məlum olur ki, xəzinəsində bir maat pul qalmıyıfdı. Vəzirin, vəkilin çağırır. Deyir ki, bu nətər məsələdi? Gedin hazırrıx görün, bu mələsə düzəlməlidi. Bunnar da bunun üsdündə işdəmişlər. Deyillər, qibleyi-aləm, hazırramışıx, biz deyəni elə sən. Deyir, neyniyim? Bunnar deyir ki, biz ölkəmizdə nə qədər varrı sahibkar varsa, hamısın siyahısın tutmuşux. Ona sual verəjəhsən, sualı bilmiyəjəh. Onda əmr ver ki, boynu vurulsun. Biz yüyürüf gələjeyih ki, qurban olum, bu yaxşı adamdı. Sən də denən bəs neyniyim. Biz də deyəjeyih ki, cərmə elə. Sən də ağlına gələn

bir məbləği deyərsən, alıf xəzinəni doldurarsan. Bir toyuğu yolullar, qəfəsdə gətirif qoyullar padşahın qarşısına. Deyir, içəri girənə sual ver ki, bu nə balasıdı. Heç kim düz deyəmmijəh. Məsələn, dejəh toyux balasıdı. Axı bu toyuğun balası deyil, toyuxdu.

Nəysə, indi varrı adamları yığıllar sarayın qabağına. Biri girir içəri. Girir, salaməlöyküm. Baş əyir, ehtiram göstərir. Deyir ki, buyur. Padşah deyir ki, sən ölkənin ən ağıllı adamısan. Mənə bir ənam göndəriflər, amma onu tanıyan yoxdu. Onu mana düz desən sənə ənam verif yola salajam, düz deməsən boynu vurdurajam. Deyif, buyur. Deyir, bu nədi? Baxır, baxır, görür ki, toyuxdu. Deyir ki, toyuxdu. Qışqırır ki, ə, toyux belə olar? Görmürsən camış balasıdı. Vurun boynunu. Fərraşdar cumanda vəzir durur yalvarır ki, qurban olum, boynun vurma.

– Bə neyniyim?

Deyir:

– Cərmə elə.

Deyir:

– Səkgiz yüz tümən cərmə elədim.

Gedir ödüyür. İndi bu çölə çıxanda soruşullar noldu. Deyir vallah, bir toyuğu yoluf qoyuflar qəfəsə. Dedim toyuxdu, dedi yox, camış balasıdı. O biri deyir, sən öl, mən girəndə deyəjəm camış balasıdı. Girir gənə ədəb qaydasıynan salam verir, ehtiram göstərir. Padşah deyir, bu nə balasıdı? Camış balasıdı deyəndə dəli olur. Deyir, görmürsən doşan balasıdı, nə camış balasıdı? Vurun boynunu. Birincini səkgiz yüz tümən cərmə eləmişdisə, bunu min səkgiz yüz tümən cərmə eliyir. Belə-belə kim girisə boynuna bir cərmə qoyur. Nəhayət, biri gəlir. Gəlir baş əyir, ehtiram göstərir. Deyir ki, qibleyi-aləm, eşidirəm. Deyir ki, sualıma cavab versən ənam alıf gedəjəhsən, verməsən boynu vurdurajam. Deyir, buyur. Deyir, bu nə balasıdı? Deyir, qibleyi-aləm sağ olsun, bu toyux balasıdı bilmirəm, camış balasıdı bilmirəm, doşan balasıdı bilmirəm. Amma bir onu bilirəm ki, bu Allahdan gələn bəladı.

İndi qardaş, bizə Allahdan gələn bəladı ki, para-para oluf düşmüşük çöllərə. Hərəmiz bir diyardayıx.

## 26. SARSAQ ARVAD

Bir kişi gəlif görür ki, bir dəvə gijitkan yeyir, üstündə də qızıl yükü. Bu dəvə də karvannan ayrılıf qalıf bırda. Axı dəvə də gijitkanı yaxşı yeyir.

Nəysə, gətirir kişi dəvəni kəsir, qızılı da gizdiyir. Bını bişirif yeyillər. Padşah da hardansa gələndə deyir ki, görüm bı dəvə harda qaldı? Padşah bir qarını tutur, al dillə göndərir dəvəni kəsən kişinin evinə. Qarı deyir ki, bəs mənim uşağım xəstədi. Həkim uşağa deyif ki, dəvə əti yesin. Deyirəm, bəlkə sizdə olar? Kişinin arvadı deyir, bıy, hə. Kişi dəvə tapbışdı. Dəvənin ətinnən bir əz verir bına. Sora padşah bı kişini yanına çağırır. Deyir ki, mənim dəvəmi sən oğurramısan. Kişi boynuna almır. Deyir ki, mən kiməm padşahın dəvəsini oğurruyam? Onu da deyim ki, hələ kişi evdən çıxanda arvadına deyif ki, ay arvad, mən gedirəm, qapı-bajanı yaxşı gözdüyərsən.

Həə, arvad gözdüyür ki, kişi gəlmədi. Arvad duruf o qapını çərçivədən çıxardır, qapını şəlliyif dalına kişinin dalınca gedir.

Həə, padşah kişiyə deyir ki, arvadın deyir ki, biz dəvəni kəsif yemişih. Kişi deyir ki, padşahi-aləm sağ olsun, o sarsax şeydi. Onun sözünə nəə inanırsan? Mən dəli olmuşam saa yalan deyim. Elə bı dəmdə baxıf görüllər ki, kişinin arvadı qapı dalında şəllənif gəlir bıra. Belə dəəndə padşah deyir ki, sən bıra nəə gəlmisən? Arvad deyir ki, kişini sən çağırmışdın. Kişi maa demişdi qapını gözdüyərsən. Mən də gözdədim gördüm ki, kişi gəlmədi. Qapını da gətirdim görüm nooldu. Belə dəəndə kişi padşaha deyir ki, padşahım, mən saa demirdim ki, arvadım sarsaxdı, onun sözünə inanma. Padşah da baxıf görür ki, arvad qapını çərçivədən çıxarıf alıf dalına. Elə onnan da iş bağlanır. Yanı kişinin dəvəni kəsdiyinin üstü açılmır. Özü də, bala, kişi arvadına qapını gözdə deyəndə həyət-bajanı deyirmiş, bu qapını demirmiş ki. Sarsax dedihləri arvad belindəki qapıynan özü də bilmədən kişini ölümdən qutarır.

# LƏTİFƏLƏR

## MOLLA NƏSRƏDDİN

### 1. BACADAN ASILAN QAZAN

Molla Nəsrəddin gedir oturur çayxanda. Görür bir nəfər bikefdi. Deyir:

– Niyə bikefsən?

Deyir:

– Filankəsin qızın isdiyirdim, maa vermədi. Mənnən şərt kəsdi ki, payızın gejəsi gərəh damın üsdündə çılpax qalasan. Mən də qaldım. Sabahısı maa dedi ki, danış görüm nə gördün (Gəlif görür ki, ölmüyüf. Bu da qaçıf o başa-bu başa. Bijəltəh imiş da). Dedim, bir ildız görmüşəm. Dedi:

– Səni isidən o imiş, ona görə ölməmisən.

Qızı vermir. Həmin adamı molla çağıtdırır evinə, qonaxlıx təşkil eliyir. Qazanı asır göydən, ojağı qalıyıf yerdən. Özü də deyif yeyif gəlmə ha. Bir neçə nəfəri yığıf ora. Deyiflər ki, ay molla, biz ajınnan öldüh, noldu? Deyif:

– İndi bişər, bu saat bişər, bu dəyqə bişər.

Deyiflər:

– Ay molla, yerdə ojax yanmaxnan göydə qazan qaynıyar?

Deyir:

– Qardaş, min kilometrlərnən göydə ulduz çıxmaxnan yerdə adam isinər?

## BƏHLUL DANƏNDƏ

### 2. ŞAH BƏHLULA YEMƏK GÖNDƏRİR

Bəhlulun qardaşı çox qəddar adam oluf. Günnərin bir günü Bəhlul itdərnən xarabalıx bir yerdə oturmuşumuş. Qarğısın minif oralarda gəzirmiş özüçün. Şaha qonax gəlir, buna bağlama gətiril-

lər. Şahın başbilənnəri, vəzir-vəkili nə qədər çalışır baş çıxarmıllar. Deyir:

– Mənim başdan xarab bir qardaşım var, gedin onu çağırın.

Gəlillər Bəhlula deyillər ki, səni şah çağırır. Deyir:

– Mənim şahnan bir işim yoxdu. Əgər şahın mənnən bir işi varsa, gəlsin bura. Gedif buna təzdən yemək-işmək gətirillər. Gəlif görüllər Bəhlul burda itdərnən oynuyur. Bəhlula deyillər ki, şah sənə yemək göndərif, onu ye, gedək.

Deyir:

– Onu aparın verin itdərə.

Deyir:

– Əşi, nə danışırsan ey. Bu şah yeməyidi.

Deyir:

– Yavaş danışın, əgər itdər eşitsə ki, onu şah göndərif onnar da yeməz.

Yəni bu qədər haramxorluq var da.

## 3. DƏNİZDƏN ÇIXAN ƏL

Bir gün dənizin ortasınnan bir əl çıxıf. Nə qədər eliyillər əl çəkilmir. Gəlif Bəhlulu aparıllar ki, bu sirdən onnarı agah etsin. Bəhlul deyir ki, qardaşım and içsin ki, məni öldürmüyəjəh, onnan sora mən bu sirri açım. Qardaşı and içir ki, öldürmüyəjəm. Gəlir dər-yadan çıxan beşbarmağa iki barmağını görsədir, əl çəkilir. Deyir:

– Bu nə idi?

Deyir ki, o, Allah-taaladan gələn bir xəbərdarlıxdı. Deyir ki, beş nəfər birrəşib bu zülümkar şahı yıxammırsız?

Deyir:

– Sən ona nə dedin?

Deyir:

– Mən ona dedim ki, nəinki beş nəfər, iki nəfərin bir-birinə ehtibarı yoxdu. O da qayıtdı getdi.

## 4. DƏLİ SÖZÜ

### I mətn

Genə də bını Gülsüm nənədən eşitmişəm. Bir bölgənin hökmdarı olur. Gəlir Bəhlulu Danəndəyə deyir ki, Bəhlulu Divanə, mənə elə bir yol örgət ki, yığım saxlıyım. Ölkəmə ajlıx düşəndə, onu satım, ölkəmi dolandırım.

Axı, o, Bəhlula Divanə dedi. Bəhlul ona deyir ki, get soğan al, vır anbara. Gedir nə qədər bölgələrdə soğan var, yığır anbarlara ki, ajdıx düşəndə sataram. Bir başqası da gəlir deyir ki, Bəhlulu Danəndə, mənə elə bir yol göstər ki, gələcəhdə ölkəmə ajdıx düşəndə mən onu satım, ölkəm ajınnan ölməsin. Bəhlulu Danəndə ona deyir ki, get dəmir al, vır anbara. Gedir, nə qədər dəmir var alır, gətirir qoyur ambara. Elə dövr gəlir ki, ölkələrə ajdıx düşür. Soğan alan adam anbarın ağzını açır ki, aparsın satsın, ölkəsini dolandırsın. Görür ki, soğannar hamısı cücərif, xarab oluf, məhf oluf gedif. Ama dəmiri ambara vuran adam gedif açıf dəmiri yavaş-yavaş satıf başdıyır ölkəsini ajdıxdan qutarmağa. Sora hər ikisi Bəhlulu Danəndənin yanına yollanıllar. Biri təşəkkür üçün gedir, biri də qarğış üçün gedir. Dəmir alan adam deyir ki, çox sağ ol, ölkəm ajınnan ölmədi da, sağ-salamat qutardı. Soğan alan adam deyir ki, Allah sənin evii yıxsın. Mənim ölkəm hamısı batdı. Nooldu bəs? Bəhlulu Danəndə deyir ki, nolacax, sən maa dəli dedin, mən də saa dəli söz dedim. Bı da maa ağıllı dedi, mən də ona ağıllı söz dedim. Sora hər ikisi dimməz gedir.

### II mətn

Bəhlul Danəndəni bir dəfə şah çağırır saraya. Deyir, Bəhlul Danəndə, başqa döölətnən bizim aramızda müharibə gözdənilir. Mənim varım-döölətim var, bunu neyniyim? Deyif ki, şah sağ olsun, var-döölətini ver dəmirə, vur xəzinəyə. Şah nə qədər xəzinədə qızılı var, verir dəmirə, yığır xəzinəyə, saxlıyır. Aradan bir müddət keçənnən sora başqa bir məmləkətin şahı buna müharibə elan eliyir. Dəmir xəzinədə, usdalar qalxan, qılınc, nə lazımdı hazırlayır. Mühairbə başdıyır, bular qələbə çalır. Şah bunnan ləzzət alır. Bir müd-

dət keçənnən sora deyir ki, Bəhluli Divanə, bu var-dööləti neyniyim? Deyir, şah sağ olsun, ver soğana, vur xəzinəyə. Şah verir soğana, vurur xəzinəyə. Aradan iki ay, üç ay keçməmiş soğandı cücərib tələf olur da. Çağırır deyir, ay Bəhlul Danəndə, bu nə məsləhət idi sən mənə verdin? Deyir, şah sağ olsun, sən maa dedin Bəhlulu Danəndə neyniyim, mən saa danəndə söz dedim. İkinci dəfə mənə Bəhluli Divanə dedin, mən də dəli sözü dedim.

## 5. DONUM, AŞ YE

Bəhlul həmməşə nimdaş paltar geyinərmiş. Bəhlulun qardaşı da hökmdarıymış da. Həmişə qonaxlıx olanda Bəhlulu yuxarı başda oturdarmış. Bəhlul da çox bilihli adam oluf da. Qardaşı bir gün Allaha and verir:

– Qardaş, səni and verirəm babamın cıkqasına, mənim məclisimə gələndə əynaa paltar gey. Özü də o qamışı minmə. At min gəl, əynaa da paltar gey, gəl.

Qardaşı and verdiyinə görə, atı minir, əyninə də bir qəşəh libas geyir. Durur gedir. Əvvəllər bu libas geymiyəndə qonaxlar Bəhlula demirmişlər keç yuxarı başa. Elə gəlib məclisin qırağında oturuf, yeyif, içif, çıxıf gedirmiş. Bu dəfə qonaxlar Bəhlulu belə geyimli görəndə hamı duruf ayağa deyif ki, bura keç, ora keç. Gedif başda oturuf. Qabağa taam – yəni yeməh gəlir. Qardaşının da gözü Bəhluldadı ki, bir söz deməsin. Bilir ki, Bəhlul bu məclisdə mütləq söz deməlidi. Çox qorxur. Bəhlula deyif ki, qardaş, bildiyin sözlərdən demə da. Məni qonaxlarımın yanında pərt eləmə, səni babamın cıkqasına and verirəm. Bəhlul da ona həmməşə deyir ki, heş nə demərəm, arxayın ol. Nəysə, yeməh məclisə düzülür. Hamısı da tanınmış adamlar, bəylər, hökümdarrar oturuflar. Bəhlul Danəndə əynin paltarını belə tutuf deyir ki, donum, aş ye, donum, aş ye. Bı məclis hamısı dönüf bına baxır ki, bu nə deməhdi. Qardaşı Bəhlula göz-qaş eliyir ki, ay qardaş, saa demişəm axı, özüü ağıllı apar. Heş kəs əlini tama uzatmır. Deyillər ki, bının mənasını deməsən, əlimizi tama uzatmıyejih. Niyə deyirsən, donum aş ye, paltar aş yeyə bilər?

Deyir ki, bilirsiniz ki, mən bı hökmdarın qardaşıyam. Bütün məclislərə də mən gəlirəm. Hər dəfə gələndə mən məclisin ayağında otururam. Çünki mənim əynimdə təzə libas olmur. Geyinif gəlmirdim, elə-belə gəlirdim. Onda məni niyə yuxarı başa keçirmirsiniz? İndi məni yox, mənim paltarımı yuxarı başa keçirirsiniz. Ona görə da deyirəm ki, donum, aş ye, donum, aş ye. Deməli, bı məclisdə mənim donum qiymətdidi, mən yox.

## 6. MƏN ONLARIN DEYİL, ONLAR MƏNİMDİR

### I mətn

Bir gün genə Bəhlul yolnan gedirmiş. Yolda iki nəfər bir-birini al qana boyuyuflar. Bəhlul yaxınnaşır bunnara deyir:

– Qardaş, niyə qırırsız bir-birizi?

Biri deyir ki, vallah, bu torpax mənə ulu babamın babasınnan qalıfdı. Bu birsi də deyir ki, mənim də ulu babamın babasınnan qalıfdı. Mən deyirəm mənimdi, bu deyir mənimdi. Deyir, dayanın, sizin şərinizi kəsərəm indi. Qulağını qoyur yerə, xeyli dinniyənnən sora durur qəhqəhə çəkir gülür. Deyillər, noldu, ay Bəhlul? Deyir, torpaxdan soruşdum ki, bunnarın hansınınsan. Torpax mana dedi ki, onnara deynən bir-birini qırmasınnar, mən onnarın döyüləm, onnar mənimdi.

### II mətn

İki adam bir-biriynən dalaşırmış. O deyirmiş ki, bura mənimdi, bu deyirmiş ki, mənimdi. Hamı Bəhlulu ağıllı adam bildiyinə görə deyillər ki, gedax Bəhlula deyax. Sən öl, Bəhlul bu şəri kəssə, biləjeyih ki, ağıllı odu. Gəlif Bəhlula deyillər. Bəhlul deyir ki, maa inanırsız? Mən deyənnən sora davanı-şavanı kəsəssiz? Deyillər, sən nə desən odu. Hamısı razılaşır. Bəhlul deyir ki, mən burda durajam. Sən yüz addım say, get o tərəfə, amma ordan maa bax. Sən də yüz addım get bu tərəfə, ordan maa bax. İkiniz də mana baxın, mən çağıranda gələrsiniz. Bunnar yüz addım sayıf orda durullar. Bunnar baxa-baxa Bəhlul dizin qoyur yerə, qulağın söyküyür torpağa. Bu səfər

durur bu biri qulağın söyküyür torpağa. Durur ayağa. Mübahisə eliyənnərin hər ikisin çağırır. Deyir, gördünüz mən neynədim? Mən torpaxdan soruşdum sən bunnardan hansınınsan. Torpax dedi ki, onnar yalan deyir. Mən onnarın döyüləm, onun ikisi də mənimdi. Onnan sora Bəhlula dananda adı verillər bu qanı yatırdığına görə.

## 7. GÜLMƏYƏN BƏHLUL

Qardaşı Bağdad Xəlifə elan verir ki, kim Bəhlulun güldüyün mənə desə ona bir kilo qızıl verəjəm. Bunu bir keçəl eşidir. Bəhlulun bir xasiyyəti olur. Kim ona Bəhlul Danəndə deyirmiş, düzgün cavab verirmiş, kim Bəhlulu Divanə deyirmişsə, onu lağa qoyurmuş, ələ salırmış. Opşim, bu keçəl görür ki, Bəhlul çıxır səfərə. Bağdadi Xəlifə də elan verif ki, kim qardaşımın güldüyün maa desə, ona bir kilo qızıl verəjəm. Keçəl düşür Bəhlulun yanına, gedillər. Bir kəndə çatanda baxıllar ki, yığıncax var. Bəhlul çönür bura. Görür burda çarıx satan bir kişi var. Boylu-buxunnu bir oğlan gəlif deyir ki, kişi, çarıx neçəyədi? Deyir, üş maat. Çarığı əlində belə burur, deyir bu üş gün mənim ayağımda getməz, nə üş maat. Bəhlul gülür.

Genə gedillər. Görür yolun qırağında qəbirsannıx var. Çönür qəbirsannığa. Baxır görür ki, başdaşına yazılıf ki, burda yatan şəxs torpax üsdündə bir milyon adam qırıf. Belə baxır, baxır, burda da gülümsüyür. Bunu keçəl qeyd eliyir.

Keçif gedillər, çıxıllar bir şəhərdə sallaqxanaya. Bəhlul qəssabxanaya baxır, burda da gülümsüyür. Keçəl bunu da qeyd eliyir. Deyir, üç dəfə qeyd eləmişəm, da bəsdi. Gəlif oturur Bağdad Xəlifənin elçi daşının üsdündə. Gedillər bunu gətirillər. Deyir, padşah sağ olsun, sən belə bir elan vermisən, Bəhlulun güldüyünü kim maa desə, ona bir kilo qızıl verəjəm? Deyir, vermişəm. Deyir, qardaşın filan yerdə güldü. Deyir, dayan. Qoy onda qardaşımı gətirdim. Bəhlulu gətirir. Deyir, qağa, sən bilirsən da mən sənin güldüyünü görənə bir kilo qızıl verəjəm demişəm. Deyir, hə, demisən. Deyir, gör bu oğlan nə deyir. Oğlan deyir ki, çarıx satılan yerdə güldün. Deyir, bədbaxt oğlu bədbaxt, mən ona gülmədim ey. Rişxənd elədim ki,

sən nə bilirsən üç gün yaşıyessən, ya yox. Deyirsən, bu çarıx mənim ayağımda üş gün tab gətirməz.

– Bəs yaxşı qəbirsannıxda niyə güldün?

Deyir:

– Qəbirsannıxda da mən rişxənd elədim ki, torpax üsdündə bir milyon adam qırıf, amma tutduğu yer metr yarım boyudu, əlli santı eni.

– Bəs o sallaqxanada niyə güldün?

Deyir:

– Sallaqxanada da ona görə güldüm ki, deyillər, atanın günahını bala çəkir. Onnar hamısı yalandı. Hər küsdənin öz günahı var. Mən ona rişxənd eləmişəm.

## 8. BƏHLUL ULAĞI AĞACA DIRMAŞDIRIR

Arvatdar oturuf quağ ağacının divində. Bəhlul Danəndə bir dayçaynan özün çatdırıf arvatdar oturan yerə. Başdıyır dayçanı döyməyə ki (dayça döyül ey, qarğunu at qayırıf), çıxmalısan ağaca. Arvatdar deyir, ay Bəhlul, axı o heyvandı, ağaca çıxan döylü. Deyir, yox, nənəsi çıxıf, balası da çıxajax. Kadınnara sübut eliyir ki, sən özün nəsənsə, sənin qarnından çıxan da odu.

## 9. DÜNYANIN ORTASI HARADIR?

Bəhlulu Danandanın bir kasıb qonşusu olur. Ancax əl ulağıynan odun gətirif satır dolanır. Bu qonşusunun əhvalına yanır, çağırır yanına. Deyir ki, bu eşşəyi saxla. Vaxd olajax bunu çox baha qiymətə satajaxsan, amma mənsiz satma. Bu anda Bəhlulun qardaşı xəlifəyə bir elçi gəlir, məktuf gətirir. Deyir ki, sizə iki sual var. Bir ulduzdarın sayın deyin, bir də dünyanın mərkəzin. Biz onnan sora dostlux müqaviləsin imzalıyax. Əgər bilməsəz, müharibə eliyəjəhsiz, torpaxdan pay verəjəhsiz. Xəlifə naçar qalır. Çox onnan-bunnan sorğu eliyir, Bəhlulu Danandanı çağırır. Deyir, qardaş, belə bir mühüm məsələ var. Deyir ki, burda nə var ki. Qonşusun eşşəyin nişanın

deyir. Deyir ki, bunu tapın gətirin, cavab verim. Gedillər harda bir boz eşşək varsa, bunu tutuf gətirillər. Bəhlul Dananda baxıf deyir ki, yox, bu olmaz. Qonşusuna da gəlif deyir ki, mənim qardaşım sənin eşşəyini alajax, sən çalış onu çəkisi qədər qızıla ver. Gəlir, bu eşşəyi tapıllar. İndi eşşək yiyəsinnən bu eşşəyi isdiyillər. Deyir, qardaş, bu mənim dolanışığımdı. Mən odun satıram, qaratikan gətirif satıram. Bu eşşəyi mənnən alsaz, çəkisi qədər qızıl verəssiz. Bunu gətirillər. Bəhlulu Dananda baxanda deyir, hə, bu eşşək lazımdı. Deyir, bunun yiyəsi çox baha deyir. Deyir, o mənnik deyil. Onun bəlkə dolanışığı onnandı. Naçar qalıf alıllar. Alannan sora deyir, elçilərə deyin gəlsin. Gələndə deyir ki, ay qardaş, bu elçiləri götürün gedin. Gedin eşşəyin tükün sayın. Onun tükünün sayı qədər göydə ulduz var, belindəki qara da dünyanın ortasıdı. Eşşəyi götürüf gedir.

## 10. KİMİN AYAĞI MAZOL OLAR?

Bəhlul Danəndə Bağdadi Xəlifənin qardaşı imiş. Özünü vurmuşdu dəliliyə. Bir də qarğu kəsmişmiş, at kimi minirdi. Deyirdi dünya beş gündü beşi də qaradı, dünya beş gündü beşi də qaradı. Bir gün qardaşı Bağdadi Xəlifə bunu çağırır, deyir:

– Ayə, özü vurmusan dəliliyə. Axı hamı bilir ki, Bəhlulu Danəndə xəlifənin qardaşıdı. Niyə belə eliyirsən?

Deyir:

– Neynirəm ki?

Deyir:

– Özü vurmusan dəliliyə.

Deyir:

– Mən dəli olsam, hər bir şey olar.

Deyir, indi sənin dəliliyini isbat eləmək üçün məndə sübutdar var. Bəhlul deyir, uzağa getmə. Get sac-ayağı qızdır, qızmar-qızmar ayaxyalın sən də çıx sac-ayağın üsdünə, mən də. Sən də varidatını say, mən də varidatımı sayım. Amma ayağımız yananda düşmüyək. Kimin ayağı mazol bağlasa, o dəlidi.

Deyir:

– Onda Bəhlul, qabağa sən düş.

Bəhlul gəlir ayaxyalın çıxır qızmar saj-ayağın üsdünə. Deyir:

– Bir püsdümdü, bir püsdüm, vəssalam, şüttamam.

Tullanır yerə. Ayağı bir az oddan qısqınır. Deyir ki, xəlifə, indi sən çıx devlətini say. Deyir ki, Bağdadi Xəlifəyəm, bir belə varım var vəssalam, bir belə elim var vəssalam, bir belə malım var vəssalam, bir belə əhalim var vəssalam. Əyax pürüşühdən[35] çıxır. Deyir, indi kimin əyağı mazol oldu?

## KAMALLI LƏTİFƏLƏRİ

### 11. BU BIZINDI

#### I mətn

Kamallının köçü gedirmiş, yolda yaxşı kök bir keçi varmış. Kamallılar keçini qatıllar sürüyə, gəlillər. Keçi yiyəsi baxır ki, beş-altı keçisi vardı, içində bir yaxşısı vardı, o yoxdu. Bilir ki, köçə qarışıf. Düşür köçün dalına, ha orda, ha burda, gəlif çatır bulara. Deyir, mənim keçim sizin sürüyə qarışıf. Deyillər, keçi nə gəzir?

Deyir:

– A kişi, bu keçi mənimdi.

Deyir:

– Əşi, keçi bizimdi.

Kamallı deyir and içim ki keçi mənimdi, mənnən əl çək. Kürd dilində də keçiyə bızın deyillər. Deyir:

– Bu quran haqqı, bu heyvan bızındı.

#### II mətn

Kamallının biri gedir Minkəndin bazarında alver eliyirmiş də. Görür ki, biri keçi satır, hədinnən artıq kökdü. Gəlir soruşur neçiyədi? Bu elə bir qiymət qoyur bunun üsdə ki, bu baxır bunnan bazdaşmax mümkün döyül, başdıyır kələyə. Kürtcə keçiyə bızın deyillər. Deyir:

---

[35] pürüşüh çıxma – yanıb qabıqdan çıxma

– Bu mənimdi.

Deyir:

– Ay aman, ay dad, nətər yanı sənindi?

Deyir:

– And içəcəyih. Ya sən and iç, ya mən and içim.

Keçi yiyəsi deyir ki, sən and iç. And içir, əlini vurur keçiyə ki, and belə, Quran belə, bu bızındı. Bu da elə bilir ki, deyir bizimdi. Heylə olur keçini kişidən alır.

## 12. QARA ŞEYDƏN QORXARIQ

Gecə düşəndə kamallılar gedif camışları oğurruyullar, gətirif kəsillərmiş. Camış yiyələri izə düşüllər ki, görək bu camışları kim aparıf. Elə olur bir məclis olur, bular da (kamallılar – top.) həmən məclisdə olurlar. Ordan bir dəsdə camış keçirmiş. Bular camışdarı görən kimi məclisi qoyub qaçıllar. Gələn nümayəndə deyir ki, olar niyə qaşdılar? Deyillər ki, biz o qara şeylərdən qorxarıx. Da, onnan da şübhələnmillər ki, bular camışdarı oğurruyalar.

## 13. ÖZÜN HALAL EDƏCƏKSƏN

Kamallıdan biri gəlif biz tərəflərdən seyiddən borc pul alıf. Üstünnən nə qədər keçir, pulu qaytarmır. Bir gün borc verənin qabağına çıxıf. Üzünə salıf deyif ki, yox ey, bunu sən özün halal-xoş eliyəssən. Bu fikirrəşir ki, ə, nətər halal-xoş, mənim pulumu aparıf. Bunu əsəbləşdirir. Gəlif üş-dörd yoldaş da götürür, deyir gedək ya məjbur eliyək, ya nəynənsə pulumuzu alax. Kamallı bilir ki, bu gələjək. Pul da yox, dağılıf gedif. Kəndin qırağına adam qoyuf ki, atdılar gələndə xəbər verin. Həmən gün qadınnarı, camahatı, qonum-qonşunu yığır, deyif ki, mən uzanajam yerə. Pul yiyəsi kəndə yaxınnaşanda xəbər verin arvatdar burda qışqırsınnan, şahsey-vahsey desinnər ki, bəs filan kişi ölüf. Bular da ajıxlı-ajıxlı gəlillər. Kəndin başına çatanda görüllər səs-küy var.

– Ə, bu nə səs-küydü?

Deyillər ki, filan kişi rəhmətə gedif, onun səs-küyüdü. Bular duruf fikirrəşif, deyif:

– Allah rəhmət eləsin, daa halal-xoşu olsun.

Bir müddətdən sora baxıllar ki, kişi sağdı.

## 14. FATİHƏNİ KİMİN ADINA VERƏCƏYƏM?

### I mətn

Bir günnəri qarakeşdilər Qarabağda işdiyif gəlirmişdər. Kamallılar da stalovıda çörək yeyif çıxırmışdar. Qarakeşdilər deyir:

– Ə, burda nə verillər?

Deyir:

– Sən öl, yaman ehsan verillər, gedin yeyin.

Bularıın da pulu-zadı yox imiş. Gedif yeyillər. Bular nə deyir şüşəlilər də gətirir. Axırda biri duruf ayağa deyir ki, fatihəni kimin adına verəjəm? Deyillər:

– A kişi, ehsan nədi ey, bura stalovadı, hər şey pulnandı.

Bizdə Məmməd Cəfər oluf, o eşidif gəlif bunnarın pulun vermişdi. Qarakeşdilər düşüblər buların dalına ki, harda çatsax oları qırajeyih. Gəliflər əli ağaşdı, buların davası düşüf.

### II mətn

Şuşa ticarət şəhəri idi. Şuşalılar şirindil, basıf-bağlıyandılar. Kamallılar Şuşaya gedəndə şirin dillərinə salıb çağırıllar ki, əyə, gəlin, yaxşı kabab var, yaxşı souz var. Yeyif-içənnən sora bulardan pul isdiyif. Bu Kamallı da deyif ki, ay qardaş, sən bizi çağırdığına biz elə bildik bu ehsandı. Zornan məni çağırıf salmısan bura, indi mənnən pul isdiyirsən. Yığışıf gedəndə Yediyar kişi Qarıqışlağın ağsakqalına deyir ki, ə, birdən pul-zad verif eliyərsiz ha. Duranda bir fatihə verin çıxın. Bular yeyif-içib qutarannan sora biri durur ayağa, deyir:

– Ay qardaş, Allah ehsanınızı qəbul eləsin.

Bir fatihə də verir, durur çıxır. Şuşalılar düşür buların dalına ki, ə, nə fatihə. Bura restorandı. Yeyif-içmisiz, pulunu verin.

# 15. ÖLÜ XORTLADI

## I mətn

Bir dəfə Qala dərəsində gejə bular yatır, malları gedif dolmuşdu ermənінin taxılına. Ermənilər gəldilər malı yığdılar apardılar. Bədəl addı bir kişi vardı. Bir cinaza qayırdılar, Bədəli yıxdılar cinazaya, başdadılar ağlaşmağa. Ermənilər də gəldi.

– Arə noluf? Malınız taxılı yeyif.

Deyillər:

– Taxıl nədey, adamımız ölüf başımız qarışıf.

Ermənilərə deyiflər kömək eliyin cinazəni çıxardax yolun qırağına, qoyax maşına. Bədəl də papiros çəkən imiş. Cinazəni çiyinnərinə alıf aparanda deyif:

– Ə, mana bir papiros verin, – deyəndə kamallılar cinazəni qoyuf deyir:

– Ədə, sən öl, ölü xortdadı.

Ermənilər də qorxub qaçır. Heylə erməniləri aldadıf malqaralarını da alıllar.

## II mətn

Onnar (kamallılar – top.) yaman kələkbaz olullar. Bir səfər dağa gedillər, yaz vaxdıdı. Yazda da biçənəhlər, ot sahələri qoruğ olur. Hoçazın üsdündə düşüllər, malı buraxıllar xamın içinə. Oturullar çörək yeyillər. Birdən görüllər ki, budu, qoruxçu gəlir söyə-söyə. Tez yoldaşının birini uzandırır, flaşı çəkir üzünə. Çörəyi-zadı yığışdırıllar. Deyir, qardaş, söyüş eləmə, görmürsən ə, ölümüz düşüf, niyə söyüş eliyirsən? Bu gəlif baxır.

– Ə, dilim-ağzım qurusun qardaş, vallah bilməmişəm.

Deyillər, bu qəflətən rəhmətə getdi, başımız qarışdı buna mal dağıldı. Deyillər, sən otur bunun yanında meyidi yiyəsiz qoymuyax. Biz malı komluyax, Əli bulağınnan keçirək, onnan sora gələk meyidi götürək. Qoruxçu meyidə yaxın oturmuşmuş. Bunnar gedəndə bir az aralıda oturur. Bunnar tez-tez baxırmış. Deyir, ə, meyidin nəyinnən qorxajam. Bir az yaxınnaşır. Başdıyır siqaret çək-

məyə. Siqareti yandırıf bir-iki qullaf alanda birdən bu, flaşın altınnan əlin uzadır ki, ə, birin də mə ver deyəndə bu adam nətər götürülürsə, öz kəndləri qalır, başqa kəndə tərəf qaçır. Özünü ölülüyə vuran da flaşı götürüf yoldaşdarının dalınca gedir.

## 16. KAMALLININ SİFARİŞİ

Bizim kəntdə Möhüb kişi varıdı. Laçınnan gəlir Kamallıda qalır bir gejə. Səhər duranda kamallının biri gəlir bunun barmağını sapnan bağlıyır, deyir kəntdə filankəsə filan tapşırığı de. O birsi gəlir o biri barmağına bir sap bağlıyır ki, filankəsə mənim sözümü çatdır. Heylə on barmağının onun da bağlıyıllar. Bu da kəndə qayıdanda qapı-qapı düşür, deyir, bəs filankəs belə dedi. Deyillər, əşi, kamallının kələyidi ey, səni doluyuflar.

## 17. KAMALLI KƏLƏYİ

Kamallıların heç vaxd sirrin bilməzsən. Bir kamallı uzun kəndiri götürür, hardasa iki yüz metr uzunnuxda. Dört-beş presə bağlıyır, kəndirin də bir ucun bağlıyır ata. Atdı gedir onnan iki yüz metr arxadan kiplər gəlir. Kimin ağlına gələr.

Onnan əlavə, birinin yeri xamdı, kamallı isdiyir burda qoyununu otara. Qoyunu boşduyullar xama. Biri yıxılır yerə ki, sancılanmışam. Yığışıllar başına-gözünə döyüllər. Qoruxçu gəlir haya. Ayə, su gətir amanın günüdü, bu ölür, əlimizdən gedir. Bunun çənəsinə ağac salan kim, barmax salan. Nədi, nədi ki, qoruxçunun başı qarışsın, heyvan qarnın doyursun.

## 18. İSTƏNİLMƏYƏN QONAQ

### I mətn

Bir nəfər bulara tez-tez qonax gəlir. İndi bular isdiyillər ki, bunun ayağın burdan kəsələr. Gətirif bir oğlan uşağına gəlin paltarı geyindirilər, başına da fata atıllar. Qonağa deyillər ki, bizdə adətdi, təzə

gələn gəlin qonağın ayağın yuyur. Gətirir vannanı qoyur, aftafada qaynar suyu gətirif qoyur yanına. Gəlin paltarı geyinən oğlan bunun baş barmaxların tutur əlində. Bular da söhbət eliyif bunun başın qatanda qaynar suyu töküf ayağını yandırır. Durur ayaxyalın qaçır.

### II mətn

Gülmalı kişi vardı, bu gəlir Kamallıda qalır. Deyillər, yol gəlmisən, gərəh ayaxların yuyula. Ayıf deyil, ayağı kirli qalasan? Bir kişiyə arvad paltarı geyindirillər. Suyu da qaynadıllar töküllər ləyənə. Əynində qadın paltarı olan kişi Gülmalının ayaxlarını basır ləyənə, kişi nə qədər qışqırır, bu da güjdü adamdı, buraxmır. Onnan sora o kişi neçə ay gəlif yatır, ayaxları suluxluyur.

Amma bizimkilər də bir dəfə onnarı alladıf. Gilas vaxdı imiş, bizim camahat Qarasu deyirik, orda ot biçirmiş. Kamallı da bir atı yüklüyür gilasnan gətirif satmağa. Camahat tökülür, deyir bəlkə bu gilası taxılnan dəyişəsən, taxıl vaxdı taxılı verax. Deyir, yaxşı. İndi iri bir daş gətirillər, qoyullar tərəziyə. Deyillər, bu daş ağırrığında mana gilas çək, o birsi deyir mana da çək. Gilasın hamısın alıllar. O deyir daşı kim saxlasın, bu deyir kim saxlasın? Bizim kəntdən biri deyir:

– Əşi, daşı dəyişəllər, eliyəllər. Daşı atax gölə, orda itməz.

## 19. MAŞIN TAYANI YEYİR

Kamallılar qışda Bərdədə olullar, yazda da gedillər dağa. İndi bizim öz şoferimizdən biri ürcahlarına[36] çıxır. Deyir ki, qardaş, Bərdədən bizim yükü Kamallıya neçəyə apararsan? Məsələn, deyir, atmış maata. Deyillər, sən üş-dört şofer tap gətir, amma sən demə mən hakqımı almışam. Sənin hakqını burda verəjıx. Orda neyliyəjıx sənin nə işinə qalıf. Bu da gəlif deyir ki, köş var, gedək, puluynandı da. Soruşullar neçiyə danışdın? Deyir, ə, orda verəjəhlər. Mən danışmadım, siz danışın. Onnar da deyir, ədə, sən danışmadın biz nə danışax? Sənə nə verəllər, bizə də onnan.

---

[36] ürcah çıxma – qarşısına çıxma, rast gəlmə

Xülas, belə-belə gedif çıxıllar Kamallıya. Kalxozun ot tayaları olur. İndi bular cərgəynən maşını sürdürür burnun söyküyür tayaya. Kamallılar deyir ki, qoy maşın burda dursun. Yağıf yorğan-döşək isdanıf, buları tayanın üsdünə sərək, yer palçıxdı. Da divar ola, çəpər ola üsdə atalar, heylə şey yoxdu. Bunnar maşını ot tayasına söykü-yüllər, başdıyıllar yükü boşatmağa. Boşaldıf qutarannan sora görüllər bir nəfər ayannan əli ağaşdı gəlir. Kürtcə danışır deyə şoferrər başa düşmür. Deyir, ə, nolufdu, neylamışığ? Deyir, sən başa düşmürsən, o da başa düşmür. Deyir, maşını dirəmisən tayanı yedi qutardı. İndi bu pul alan qaçır, bunnar da düşüf bunun dalına qaçır. Bir az bayna gəlillər. Deyir, neynədin ə? Deyir, ə, bunnarın başı işdəmir, maşın ot yeyər? Deyir, görmüyüf da, elə bilir maşın ot yeyir.

## 20. BÜNÖVRƏDƏN OT ÇIXIB

Bizdə Əmirasdan kişi olufdu, çox hazırcavab adam olufdu. Qonşu kəntdə usda işdiyərmiş. Bu da həmişə bulara fırıldax gəlirmiş. Bir dəfə divar hörürmüş. Baxır ki, bunun bünövrəsi daşdı, bunu qaza bilmiyəjək. Ev yiyəsini çağırır, deyir bu çox pis oldu. Deyir, noldu? Keranın arasınnan çıxan sarıtəhər otu gösdərir, deyir bünövrədən belə ot çıxanda bu evdə adam ölməlidi. Deyir, bə nolecek? Deyir, bunun bircə yolu var. Bir dənə erkək kəsərsiz, onu ağa büküf aparıf filan yerdə basdırarsız. Özü də tapşırır ki, yolnan gedəndə kimsə sənnən nəsə soruşsa, cavab verməməlisən, çağırsa, dönüb baxma-malısan. Nəysə, bu da belə eliyir. Nə qədər çağırıllar baxmır. Qoyur atın üsdünə, aparıf həmin yerdə basdırıf gəlir. Axşam düşəndə Əmirasdan atı minir, gedir ordan erkəyi də götürür çıxır gedir.

## 21. EYLAS KİŞİNİN LƏTİFƏLƏRİ

### I mətn

Mənim babam Eylas kişi oluf, erməni dilini də təmiz bilirmiş. Özü də bij imiş. Özünü elə aparırmış bu ermənilər Eylası bir ojax bilirmiş. Məslahat üçün Eylasın yanına gəlirmişlər. Qala dərəsində

bir erməninin uşağı olmurmuş. İyirmi il keçənnən sora bunun arvadı hamilə qalır. Deyir, bunu aparax Eylas kirvənin yanına, baxsın görək bu oğlandı, qızdı. Gətirillər. Mənim babam da oturuf. Deyir, arvad bir o yana getsin, bir bəri gəlsin. Arvad bir o yana gedir, bir bəri gəlir. Deyir, ay kirvə, o yana gedəndə oğlan görükür, bəri gələndə qız görükür. Durullar, çıxıf gedillər. Dokquz ay keçir bu ermənin bir oğlu olur, bir qızı. Deyir, ay arvad, dur. Bir inəyi gətirir bağlıyır mənim babamın qapısına.

### II mətn

Eylas kişi genə gəlmiş imiş Qala dərəsinə. Amma erməni bilmir ki, bu ermənicə bilir. Erməni arvadına deyir ki, o kişiyə itə yemək qoyduğumuz qabda yemək gətirif qoyarsan. Bunu da mənim babam eşidir. Gətirillər yeməyi. Ayana gedəndə tez qabı götürür yemək qazanının içinə tökür ki, yox ay kirvə, çoxdu. Bu qədər yeməyi yeyəmmərəm.

### III mətn

Eylasın bir erməni kirvəsi olur. Gedillər bir çaydan keçəsi olullar. Ermənin qoltuğunda da bir fərə olur. Deyillər, çayı nətər keçək? Eylas əvvəldən özün erməniyə elə gösdərir ki, guya fərədən qorxur. Deyir, ay kirvə, sən fərəni boşdamə, mən qorxuram. Bərk tut. Çayın bu tayında dur, sifdə arvadını keçirim, sora gəlif səni keçirərəm. Amma fərəni bərk tut, qorxuram fərədən. Deyir, nolar, Eylas kirvə. Arvadı keçirir çaydan o tərəfə. Erməni də fərə qujağında bu taydə. Babam o tayda neyniyir neynəmir, öz işdəridi. Erməni bu taydan deyir, Eylas kirvə, pərə pır, Eylas kirvə, pərə pır. Eylas fərədən hara qorxur.

## 22. MƏŞƏDİ KİŞİNİN LƏTİFƏLƏRİ

### I mətn

Verdiyev Səyyaf vardı. Bu da bizə uçastok gəlmişmiş. Maşınnan gedəndə şofer deyif ki, bu eşşəhli gedən Məşədi kişidi. Bu da dəyirmannan gəlirdi. Deyir:

– Siqnal ver o dayansın, onu doluyajam.

Kişi də yolun ortasıynan gedir. Siqnal verəndə, üzdən irağ, bu eşşək çıxır yolun qırağına, amma bu kişi çıxmır. Səyyaf deyir ki, nə yaxşı oldu. Maşını saxlıyır. Deyir:

– Ə kişi, siqnal verirəm, ulax çıxır, sən çıxmırsan.

Deyir:

– Başına dönüm, o sənin kimi savatdıdı, mən nə bilim sən nəyə siqnal verirsən.

Ordan qayıdıf, daa kəndə getmiyif.

**II mətn**

Rəhmətə gedənə yaxın Kəlbəcərdə avtobazanın müdiri Ələsgər məəllim gəlif buna dəyməyə. Gəlir deyir:

– Ə, Ələsgər məəllim, nə yaxşı gəldin. Sən öl, səni yaman arzuluyurdum.

Deyif ki, Məşədi kişi, işim o qədər çoxudu, ona görə gej gəldim. Məni bağışda.

Deyir:

– Allah bağışdasın, amma sənnən bir xayiş eliyəjəm. Mən ölüm, mənim xayişimi qəbul elə.

Deyif ki, a kişi, kimi deyirsən işə qoyum, nətər deyirsən onu eliyim. Deyir:

– İşin-zadın lazım deyil mana. Azreyil indi mataskiletnən gəzir, birdən gələr ona benzin verərsən ha. Əlimdən qutarmazsan.

## DƏMİRÇİLƏR KƏNDİNİN LƏTİFƏLƏRİ

### 23. İKİ ÇAYIN ARASINDAN KEÇƏSƏN SÜDÜN ƏSKİK GƏLƏ

**I mətn**

Baqı çox gülməli adam oluf. Baqını bizim eldə – rayonda, kəntdə tanımıyan yoxuydu. Onnan bağlı o qədər gülməli hadisələr baş verif ki, bir deyil, iki deyil, nə bilim nə qədərdi. O, çox sadə adamıydı. Heş kəsdən də qorxmurdu.

Bir günnəri Baqı süd satır. Südü də kolxozdan götürüf gətirif rayonda satırmış. Özü də Baqı üçün vəzifəlinin, fəhlənin heç bir fərqi yoxuymuş. Hamısına da istədiyi cavabları verirmiş. Həə, Baqı bazarda süd satanda görür ki, prakuror gəlir. Prakuror Baqıya sataşmax üçün ona deyir ki, ə, Baqı, birdən südün əysih gələr, səni tutaram ha. Qayıdıf prakurora deyir ki, yoldaş prakuror, kül Baqının başına ki, iki çayın arasında südü əysih gəlejeh. Yanı deməh isdiyir ki, su tökejem da, hara əysih gəlir?

**II mətn**

Baqı kişi süd məntəqəsinnən bidonnara südü yüklüyüb üştəkərli motoskiletnən gətirib rayon mərkəzində satırmış. Maşını gətirib saxlıyırmış rayon mərkəzində, arvatdar özdəri gedib uç kilo, iki kilo tökürmüş, pulu atıb ora çıxıb gedirmiş. Bu da heç baxmazdı kim nə qədər süd götdü, nə qədər pul verdi. Biri yaxınnaşıb deyir:

– Baqı əmi, axırda sənin qazancın əysih gələjək. Baxmırsan kim nə verdi, nə götürdü.

Deyir:

– Ə, kül olmuşdu Baqının başına, iki çaydan keçə, südü də əysih gələ.

Yəni çaydan suyu töküb içini doldurur da.

## 24. SƏNİN QIZINLA CƏNNƏTƏ GETMƏKDƏNSƏ, CƏHƏNNƏMƏ GEDƏRƏM

Bir dəfən Baqı televizora baxırmış. Televizorda da bir müğənni qız oxuyurmuş. Müğənninin paltarının qolu çox qısaymış. Baqının qaynənəsi deyir ki, kül başaa sənin hələ. Bı açıx-saçığa nəə baxırsan? Deyir ki, az, oxuyur, baxıram daynə. Qaynanası deyir ki, sənin yerin cəhənnəmlihdi, gör nəyə baxırsan. Baqı deyir ki, yaxşı, bəs sənin qızının yeri haradı? Arvad deyir ki, onun yeri cənnətdihdi. Baqı qaynənəsinə deyir ki, sənin qızınnan cənnətə getməhdənsə, elə onnan cəhənnəmə gedərəm.

## 25. ÖLÜM PULUMU ELƏ BU BAŞDAN VER

Baqı çox baməzəymiş, özü də kasıfıymış. Hə, bı elə tez-tez kəntdən adamlardan borc eliyərmiş. Hamıdan borc eliyir, bir dəfə, iki dəfə. Nəysə, görür ki, ta borca yer qalmır. Genə də bir nəfərdən pul isdiyir. Deyir, ay Baqı, neçə dəfə borc olar, neçə dəfə pul verim? Baqı həmən adama deyir ki, ay qardaş, mən öləndə gəlif siyahıma düşmüyəssən? Elə bil ki, ölmüşəm. Gətir mənim ölüm pulumu elə bu başdan ver.

## 26. BAQI ƏMİ, ÇATMIŞIQ EY, DÜŞ

Bir dəfə anası rəhmətə gedib. Bu da bəsdəboy kişiydi. Cinazə götürüləndə bu da oğlu kimi cinazənin qabağınnan yapışıb. Cinazə qaldırılanda cinazəynən birlikdə qalxır göyə. Qəbirsannığa çatanda biri deyir ki, Baqı əmi, çatmışıx ey, düş.

## 27. KEÇƏN İL VURDUM, OLDU

Məhərrəmlihdə axı arax içmək olmaz. Deyillər ki, Baqı, isdiyirəm bu məhərrəmlihdə arax vuram. Olar? Deyir:

– Vallah, keçən il mən vurdum, oldu.

## 28. HƏKİM, ÖLMƏYİM MƏSLƏHƏTDİ

Qaşqınlıxdan sora bu gedir həkimə, bir az nasaz idi. Həkim deyir ki, vallah, vəzyətin çox pisdi. Beş yüz dollar versən, səni əməliyyat edərəm, yoxsa vəzyətin pisdi, öləssən. Bu da deyir, yaxşı, gedim evə məsləhət eliyim, görüm nə deyillər. Gəlir evə. Səhərisi gedir həkimin yanına. Həkim deyir:

– Baqı, noldu?

Deyir:

– Həkim, ölməyim məsləhətdi.

## 29. YÜZ QIRAM İÇMƏKLƏ ÇƏRLƏDİN

Bizdə rəhmətdik Cabbar dayı vardı, Baqının qonşusuydu. Bunun atı soyuqdəymə olur, çərriyir. Zootexnik Xəlil vardı, bunu gətirir ki, ata baxsın. Xəlil də gələndə Baqı bunu görür. Deyir, nədi? Deyir, Cabbar dayının atı xəsdələnif, gedirəm ora. Deyir, ə, sən canı, denən atın boğazına arax tökmək lazımdı, yarım litir alsın. Atın boğazına tökdüyü tökərsən, qalanın verərsən maa içərəm. Xəlil gəlir deyir Cabbar dayı, mağazinnən yarım litir arağ al gətir. Bu da gedir yarın litir alır gətirir. Yüz qram tökür atın boğazına. Yerdə qalan dört yüz qıramın da Baqıya verir. Cabbar dayı səhər tezdən durur, görür ki, at çərriyib ölübdü. Gəlir Baqıgilə. Görür Baqı yerinnən qalxır, durur ayağa. Gəlir deyir, kopoğlun atı, Baqıcan da olmadın. Baqı dört yüz qram işdi vecinə döyül, sən yüz qram işməknən çərrədin öldün.

## 30. MƏN DƏ ARVAD KİMİ BİR ŞEYƏM

Bir dəfə Məhəmməd kişi Xannığa bazara gedirmiş. Xoruz bannıyanda arvatdarı götürüf aparırmış bazara. Bir dəfə gecə saat birdə, ikidə xoruz bannıyır. Bular da bilmir da saat neçədi. Məhəmməd kişi hay salır, arvatdar, üzr isdiyirəm, uzunqulağı, atı yüklüyüllər, Xannığa – bazara yola düşüllər. Xannıx bazarı da Akaradan Laçına gedən yolun qırağında yerləşirdi. Dekabr ayı idi, o vaxdı da qış çox sərt keçirdi. Əfəndilər kəndinnən bir kişi atdı keçirmiş. Görür ki, qadınnarnan bir kişi burda durub. Deyir, a balam, burda niyə durmusuz gecənin bu vaxdı. Deyillər, bazara gəlmişik. Deyir, evin tikilsin sənin, gecə saat ikidi, üçə işdiyir. Bu vaxdı bazar olar? Xannıxda bazara yaxın bir ev varmış. Məhəmməd kişi qapını döyür, bir qadın çıxır. Deyir, ay bacı, bilməmişik, səyf gəlmişik. Bəs arvadlar soyuxdan qırılıllar. İcazə verirsən gələk əlimizi içəridə isidək? Arvad deyir, vallah, kişi evdə yoxdu, arvatdar gəlsin, amma səni buraxammaram. Deyir, yaxşı. Arvatdar girir içəri. Məhəmməd kişi ayağında kamerdən çarıx, bir saat dayanır. Görür yox ey, dözə bilmir. Qapını bir də

döyür. Arvad çıxır. Deyir, nədi? Deyir, a bacı, papax qoymağıma baxma. Vallah, mən də arvad kimi bir şeyəm, qoy gəlim içəri.

## 31. İT DE, QURD DE, NƏ DEYİRSƏN DE

Bizdə rəhmətdih Yaqub kişi vardı. Bunun qardaşı nəvəsi vardı. Anbardan taxıl götürür. Qardaşı nəvəsinə deyir ki, get dədənə denən gəlsin maa kömək eləsin. Bu da gəlir, evə çata-çatda birdən yadına düşür ki, atasına dədə deyil, qağa deyir. Qayıdır gəlir. Deyir ki, Yaqub əmi, mən dədə demirəm a, qağa deyirəm. Deyir, ə, it de, qurt de, nə deyirsən de, get denən gəlsin taxılı yükləyək aparax.

# MÜXTƏLİF MÖVZULU LƏTİFƏLƏR

## 32. PEZƏVƏNG

Bir məmləkətin sahibi deyir ki, vəzir, dünyada o kef yoxdu ki, mən çəkmiyəm, amma bir pezəvəng görməmişəm. Maa bir pezəvəng tap gətir, görüm. Deyir:

– Qibleyi-aləm sağ olsun, maa vaxt lazımdı.

Deyir, havaxt tapırsan tap. Vəzir də soraxlıyır ki, maa bir pezəvəng lazımdı. Deyillər, Qoşqar dağında kahada bir pezəvəng yaşıyır. Üş günə gedir çıxır bura. Görür doğurdan da, burda bir pezəvəng var. Bir nəhəng adamdı. Sakqal burdan (qurşağın göstərir – top.). Sakqalına sirkə düşüf. Bir xeyləx qoyundu, bir bənəkdi, bir uzunqulaxdı. Bunun yanında bir iki-üç gün qalır, çox çətinnihnən bunu başa salır ki, səni paccah çağırır. Deyir ki, onda gəl belə eliyax. Qoyunu yığır zağaya, əl ulağın bağlıyır, bənəyi bağlıyır yanına. Deyir, gəl gedək. Düşüb yanına gəlir. Gəlib çıxıllar saraya. Xəbər gedir ki, qibleyi-aləm sağ olsun, vəzir gəlib, özüynən də bir bədheybət adam gətirif. Tez qırmızı geyinir taxtı-tacda əyləşir. Əmr eliyir, vəziri, vəkili, rəqqasəsi – hamı yığılır ki, burda pezəvəngi danışdırıf güləjaxlar. Bu da pezəvəngi başa salır ki, içəri girəndə sən baş əy, ehtiram gösdər, bu yer üzünün zülüllahıdı. Nə sual ver-

sə, cavab verir. Bu saraya gələndə şübhələnir. Ora-bura baxır. Deyir ki, ə, bu şeytan idi, məni gətirif Allah evinə. Axı bu saray görmüyüf, şinnik görmüyüf. Deyir, əstəfirillah, mən nətər Allah evinə girim? Qapını açıf içəri girir ki, Allah oturuf. Əlin qoyur sinəsinə deyir ki, salaməlöyküm, ey Allah-taala. Tez yerdən deyillər ki, ə, bu Allah deyil ey, bu şahdı. Deyir ki, aha, bu Allah deyilsə, peyğəmbərdi. Əlin qoyur deyir ki, salaməlöyküm, ey peyğəmbər. Yenə yerdən deyillər ki, ə, mərfətin olsun, qanacağın olsun. Bu zülüllahdı. Nə Allah, nə peyğəmbər. Deyir:

– Aha, bu Allah deyil, peyğəmbər deyil, onda imamdı. Salaməlöyküm, ey imam, – deyəndə yenə yerdən dillənillər ki, bu imam deyil. Fikirrəşir ki, ə, bu Allah deyil, peyğəmbər deyil, imam deyil. Bə bu kimdi oturuf? Əlində çomağ duruf. Birdən çomağı qoyur şahın kəlləsinə, deyir:

– Ə kopoğlu, Allah deyilsən, peyğəmbər deyilsən, imam deyilsən, bə kimsən ə oturmusan orda?

Bu da sənin pezəvəngin.

## 33. SIXDIM KI, SUYU ÇIXA, ÖLDÜLƏR

Bir kürd çayın qırağında iki dənə bala pişiyi çimizdirirmiş. Hava da soyuq idi. Yolnan da bir kürd keçirmiş. Yolnan keçən buna deyir ki, ə, hava soyuqdu, öldürəcəhsən pişikləri. Deyir:

– Heç bir şey olməz.

Nəysə bu çıxır gedir. O birsi günü rasdaşıllar. Deyir:

– Sən dünən dedin ki, pişihləri öldürəcəhsən, sənə qulaq asmədim. Sıxdım ki, suyu çıxa quruyə, elə onnan da öldülər.

## 34. BƏHMƏZİN TAMI YOXDU

Padoşu isdadanda su qızarır axı. Bir kürd gəlir deyir ki, qardaş, bəhməzin bir quruşqası neçəyədi? Deyir bir manata. Birin içir, deyir, birin də ver. İkincisin içənnən sora deyir:

– Demə ki, kürd qanmadı ey. Bəhməzinin tamı yoxdu.

## 35. QINDI İÇƏNDƏ SAQQALI TƏRPƏNİRDİ

Bir kürd başın salır ayının mağarasına, ayı çəkir bunun başını qopardır, bədəni qalır çöldə. Deyillər görək bunun başına nə gəldi. Gəlif arvadınnan soruşullar ki, səhər kişi çölə gedəndə bunun başı vardı? Deyir, vallah, başın bilmirəm, amma qındı içəndə sakqalı tərpənirdi.

## 36. ÜSDƏN-ÜSDƏN

Bir padşah qızı varıymış. Bir dənə də kasıb oğlan bını isdiyirmiş. Qızın atası da qızı oğlana vermirmiş. Bir gün kişi qızına deyir ki, yaxşı, o nə cür bacarıxlı oğlandı ki, ona getmək isdiyirsən? Gəlsin bir iş görsün, görüm nətəər görür. Kötüyü qoyublar ora ki, oğlan getsin kötüyü kəssin. Qız görür ki, oğlan elə fırranır kötüyün başına, heş nə eliyə bilmir. Baltanı ordan vırır, bırdan vırır, heş nə kəsmir. İt varıymış orda. Qız gətirif itin qabağına yalı qoyur, deyir:

– Ay it, üsdən-üsdən, yannan-yannan.

Oğlan da baxır bı qız niyə belə deyir da. Görüb oğlan başa düşmür, deyir:

– Ay it, sənə deyirəm, üsdən-üsdən.

Oğlan başa düşür ki, qız bına deyir. Başdıyıf kötüyü yarır. Padşah görür ki, oğlan hər şeyi bacarır, qızını verməyə razılaşır.

## 37. ALA ÖKÜZÜN ƏHVALATI

Bir kişi varıymış. Bı kişinin bir ala öküzü, bir inəyi varıymış. Öküz o qədər pis öküzüymüş ki, arvad gedif inəyi sağanda həmişə bı öküz südü aşırarmış, uşaxlar aj qalarmış. Çox mərdimazar öküzüymüş da. Bir gün bı kişi öküzü satır. Deyir ki, belə öküz maa lazım dəyil, bizi aj qoyur. Öküzü alan onu kəsir, həmin öküzün dərisinnən çarıx tikif satır. Öküzün yəəsi bilmir də, təsadüfən gedir həmən çarıxdan alır. Uşaxlara da alır, özünə də alır. Ayaxları yalınıymış da, satan da ucuz satıf da. Deyir, həə. Mən elə o ala öküzü kəseydim,

mən də çarıx tikərdim. O öküz məni okqədər yandırdı ki, kəsif özümə çarıx eləmədim. Kişi bını camahat içərisində deyəndə, öküzü alan kişi deyir ki, elə sənin ala öküzünün dərisinnən tihmişdim da çarıxları, indi geyinmisən. Deyir, hə. Pərt olur, durur gəlir evə. Ayağından çarıxları çıxardır. Uşaxların da ayağından soyundurur çarıxları. Uşaxlar deyir ki, niyə soyundurursan? Bəs ayağımız yalın qalır axı.

Deyir:

– Bala, ala öküzün elədihləri yaddıma düşəndə çarıxlar öz-özünə ayağımdan çıxır.

## 38. XƏBƏRİ NECƏ ÇATDIRMALI

Şah dedi ki, kim anamın ölümünü mana desə, onu edam eliyəjəm. Bir gün anası dünyasını dəyişəndə çobanı göndərillər. Çoban ölsə nədi, qalsa nədi. Çoban getdi ki, şah baba, gərdanın olum, can quşu uşdu neynamax?

Dedi:

– Çoban, anam öldü?

Çoban dedi:

– Sən dedin.

Dedi:

– Çoban, tez yumax, tez dəfn-kəfn elamax, tez götürmax.

Bilirsən çoban olmaxnan döylü ki, çobanın zəkası olur, təmiz havada gəzir. Çox şeyi çobannan, nökərnən yaradıflar.

## 39. ARVADDAN QORXAN KIŞI

Bir kişi olur. Arvadı həmişə onnan narazı olur. Kişi nə qədər çalışır, işdiyir ki, arvadı bından razı qalsın, amma arvad razı qalmır ki, qalmır. Kişi axırı qərara gəlir ki, ta papağımı götürüm evdən çıxım. Gedir başqa bir ölküyə. Bu ölküyə gedən vaxtı həmin ölkənin padşahı ölür. Belə bir adət varmış, quş uçurdurmuşdar, kimin çiyininə qonsa, padşah o olmalıdı. Bir dəfə uçurdullar, quş gəlir qonur bı kişinin üstünə. Görüllər ki, bu fağır adamdı. Deyir ki, mən heç

bir arvadnan bacara bilmirəm, ölkəni idarə eliyə bilmərəm. İkinci dəfə uçurullar, genə qonur onun çiyninə. Üçüncüdə də uçurullar, genə gəlir qonur çiyninə. Deyillər ki, yox, elə bu olmalıdı. Quş elə onun çiyninə qonur. Kişi gedir oturur taxtda. Gejə deyir ki, görəh sabah dööləti idarə eliyə bilərəm. Bəs nə təhər olur ki, bir arvadnan bacara bilmirəm? Bütün kişiləri sabah yığır meydana ki, görəh arvatdan qorxan təhcə mənəm, yoxsa başqaları da var. Deyir ki, kim arvatdan qorxur bir sıra irəli dursun. Bütün kişilər hamısı irəli çıxır, amma biri qalır yerində, irəli çıxmır. Deyir ki, elə mənim adamım bıdı. Onu yanına çağırır, deyir ki, sən niyə irəli çıxmadın? Bının sirrini maa denən, sən neyniyirsən ki, arvatdan qorxmursan? Həmən kişi deyir ki, padşah sağ olsun, mən arvatdan icazə almamışam ki, addım atım qabağa, ya da atmıyım.

## 40. ADAMI ADAM YANINA GÖNDƏRİBLƏR

Bir qıza elçi gedillər. Elçi gedənnərin birinin dili ağzından böyüymuş. Pəltəhiymiş da, həm də kəkəliyirmiş. Nəysə, qızın atası ona deyir ki, məhlim bir adam tapmıyıflar ki, səni göndəriflər bıra. Elçi deyir ki, nə bilim, adamı adam yanına göndəriflər, məni də sənin yanına.

## 41. HAMISI VAR

Biri gedir kəntdən-kəndə qız alır. Özü də o vaxtı nə idi, bir dəst yorğan-döşəh idi, bir mis səhəng idi. Bir ata, eşşəyə yühlənən cehiz nə olar. Hə, nəysə, gedif. İndi bı qızın əmisi gətirif deyir, ala, bı qızımızın yorğan-döşəyi. Oğlan tərəfinnən deyiflər ki, onnan varımızdı. Bı simavarı. Deyillər ki, simavar da varımızdı. Nəysə, qız tərəfi nə deyifsə, oğlan adamı elə hey deyif varımızdı. Belə dəəndə qızın əmisi deyir ki, əgər bıların hamısı varsa, elə qız da var. Bı səfər qızı vermir.

## 42. CÖNGƏ OĞURLUĞU

Bir dəfə bir kişi gedir qonşu kəntdən bir cöngə oğurruyur gətirir. Mal yəəsi cöngəsini axdara-axdara gəlir. Soraxlaşır, məlumat alır ki, cöngəni qonşu kəntdə bir kişi aparıf. Cöngə burdadı. Gəzə-gəzə gəlib çıxır bı oğrugilə. Tez qabağa yüyürüllər, deyillər ki, əşi, nə gəzirsən? Belə eliyillər ki, kişi onnardan şübhələnməsin. Deyir ki, bəs belə-belə da, bir cöngəm itif, axdara-axdara gəlirəm. Hardan tapıram, görüm kim bilir. Deyillər, nolar, malın itif axdarmalısan da. Kişi deyir, birdən olar da sorağın, səsini eşidərsən. Deyillər, əşi, sən nə danışırsan? Eylə söz olsa, özüm deyərəm. And içif deyir ki, quru-quru çaylar keçim, ölüm qarğa gözümü dimdihləsin, balalarımın ortasında oturum, mənim bu işdən xəbərim yoxdu.

Deyir ki:

Bu çulu, bu alığı,
Üstündə bağı cöngənin
Ocağın üstündə bişir,
İçində yağı cöngənin.

Ama bu şeiriynən təsdixliyir ki, mən kəsmişəm cöngəni. Cöngə yəəsi o qədər avam olur ki, genə də elə bilir ki, cöngəni bunnar yox, başqası oğurruyuf.

## 43. HAZIRCAVAB LAÇINLI

Şuşalılarnan biz bir-birimizə lətifə qoşmuşuğ, atmaca atmışıx. Həmişə şuşalılar bizə gəlirdilər, biz də arana gedəndə Şuşanın içinnən keçif gedirdih. Məktəb vaxdı oluf, atam gedif ki, Şuşadan uşaxlara ayın-oyun ala, onda bu hadisənin şahidi olufdu. O deyir ki, bir itin dalında üç-dört küçüyü varmış. Bir şuşalı Laçın çobannarına deyir ki, dayı, bu balaları hara aparırsan? Deyir ki, görmürsən ağlaşıllar. Deyillər, gedək dayımgili görək gələk.

## 44. QARININ ARZUSU

Aşıq Möhubbətin öz dilinnən eşitmişəm. Deyirdi, kəndimizdə bir nəfər qoja arvad olur. El köçür yaylağa. O vaxdı da dağa maşın yolu yox, bir şey yox. Hamı atnan, öküznən köçürdü. Atı alıxlıyıb hazırrıyıllar. Daa arvad atın üsdə durası deyil. Arvadı qoyullar xurcunun bir tayına, təzə doğmuş balağı da qoyullar bir tayına, aşırıllar atın üsdünə. Bu arvad xurcunda balağın başını sığallıyır. Deyir:

– Ay balax, gün o gün olsun ki, sənin balannan da gedim dağa.

Gör yaşamax nə qədər şirin şeydi ey. Ayağa dura bilmir, amma bunun balasını arzulayır.

## 45. ÖZÜMƏ YER ELƏMƏLİYDİM DA

Atlıxan adında bir kişi olur. Televizorun da təzə çıxan vaxtıymış da. Bunun da bir televizoru varıymış. Hamı gəlif bunnarda televizora baxırmış. Özü də hər axşam gələrmişdər. Atlıxana da yer olmurmuş otura. Bir günnəri işdən gəlir evə ki, doludu da adamnan, televizora baxıllar. Kişi yer tapmır ki, otura. Heş kəs ona öz evində yer də vermiyif ki, əyləşsin. Çıxır çölə, qayıdıf deyir ki, ay bala, Museyibin tayası yanır. Hamı tökülüf çölə, haya gedir. Atlıxan səssizcə keçif oturur. Hamı qayıdıf gəlir. Deyillər ki, ay Atlıxan, Museyibin heyvanı-zadı yoxdu axı tayası da ola. Atlıxan deyir ki, bala, mən özümə yer eləməliydim da oturmağa. Bəs sizin huşunuz kəsmir ki, Museyibin tayası yoxdu. Atlıxanın "özümə yer eləməliydim" sözü o vaxtdan kənd camahatı arasında məsələ çevrilmişdi.

## 46. ƏMİM OĞLU YEYƏ

Bir kişinin keçisi itir. Gəlif bir qadın soruşur ki, keçini tapmısan? Kişi deyir ki, hə, şükür tapıldı. Deyir ki, hardeydı? Kişi deyir ki, bəs filankəs yedi. Deyillər ki, filankəs yedisə, bəs şükrün bura nə dəxli, şükür eliyirsən Allaha. Kişi deyir ki, a zalımın qızı zalım, bir var çakqal yeyə, bir də var ki, əmim oğlu yeyə. Hansı yaxşıdı?

## 47. DEMİRSƏN "OLSA"

Bir kişi olur. O qədər təmiz adamıymış. Bu kişi bir günnəri xəstələnir. Ajdıx dövrü olur. Həkimə gedir. Həkim bunu yoxluyuf görür ki, bu çox zəyifliyif, zəyiflihdən ağrıyır. Deyir ki, a kişi, səhər-səhər get bal ye, iki yumurta ye. Həkim nə qədər sual verirsə, elə kişi duruf həkimin üzünə baxır. Həkim deyir ki, nə baxırsan a kişi, cavab ver da. Saa söz deyirəm axı. Kişi dillənif deyir ki, deyirsən ey deməyinə. Heş demirsən olsa.

## 48. KİRİŞ VƏ SÜPÜRGƏ ƏHVALATI

Bir kişi varıymış. Həmişə yaz gələndə kiriş yığıf aparıf satarmış, bunnan dolanırmış da. Kiriş də yabanı çıxırdı axı. Bazara aparanda bir kişi kiriş satana deyir ki, bunun – kirişin toxumunnan gətirərsən, mən də əkərəm. Deyir ki, bının toxumu bahadı. Ama bının toxumu yoxdu axı. Var ey, özü bitəndi. Kişi deyir ki, neçəyədi? Deyir, on manat. O vaxtı da on manat çox çıxırmış. On manatdı, o da tapıla, tapılmıya. Kişidən on manatı alır. İsdiyir ki, nööbəti kirişi aparıf satsın. Birdən yadına düşür ki, bu axı kişidən pul alıf. Qara süpürgə toxumunu daşa çırpır. Yığır səliqəli bükür, aparıf həmin söz verdiyi adama verir. Deyir ki, toxum budu. Kişi aparıf toxumu əkir. Bitənnən sora gəlif deyir ki, sən məni allatmısan. Bəs kiriş dönüf oluf süpürgə. Deyif, ola bilməz. Kişi hey fikirrəşir ki, nətər yaxasını qutarsın. Deyir, ə, suyunu çox vermisən, kiriş dönüf süpürgəyə.

Söz altınnan ustufca çıxan kişilər varıymış, bala.

## 49. QUŞ QALXDI, DƏDƏM QALXDI

Biri varıymış, biri yoxuymiş, bir padşah varıymış. Bu camahata qan uddururmuş. Hər gün deyirmiş ki, gərəh məni yuxuya verəsiniz. Hər gün bir adam çağırırmış. Amma padşahı yuxulada bilmirlərmiş. Hamısının bir-bir boynunu vurdururmuş. Ta kəntdə adam qalmırmış. Bir çoban deyif ki, mən onu yuxuya verəjəm. Çoban ax-

şam gedif padşahın yanına ki, səni yuxuya verəjəm. Padşah deyir ki, görax. Məni bir belə adam yuxulada bilmiyif, indi bir çoban məni yuxuladajax? Çoban oturuf deyir ki, quş qalxdı dədəm qalxdı, quş qalxdı dədəm qalxdı, quş qalxdı dədəm qalxdı. Padşah deyir ki, nooldu? Çoban deyir ki, hələ qalxır. Elə səhərəcən belə təkrarrıyır. Padşahı yuxuya verir. Camahatın canını ölümdən-itimdən qutarır.

## 50. EY QARA PİŞİK, ŞTO DELAYEŞ?

Bunnan irəli xırmanı vəlnən döyürdülər. Çardaxlı kəndinin qırağıdı, taxılı döyüflər, buğdanı sünbüldən ayırıflar. Amma qarannıx düşdüyünnən buğdanı daşıya bilmillər. Kalxoz sədri Fərzalını çağırır. Deyif ki, a kişi, bircə sənə ehtibarım var. Bu buğdanı daşıya bilmədik. Bu gejə qalırsan burda, buğdaya qaroul çəkirsən, İmamverdini də saa köməkçi verirəm. Deyif, yaxşı, arxayın olginən. Sən bilirsən ki, mən heş kimin bir toyuğuna daş atmamışam. Qalıllar burda.

Fərzalı baxır görür ki, İmamverdi qıvrılır ora-bura, nə isə narahatdı. Başa düşüf da, bu özünü şübhəli aparır. Deyir, uzandım, dedim ki, İmamverdi, mən yatıram sən gözdəginən, sora mən qaroul çəkərəm, sən yatarsan da. Gəlif buğdanı yığıb aparallar. İmamverdi dedi ki, qoy gedim çörək yeyim gəlim, onnan sora sən yatarsan. Getdi çörək yeyənnən sora gəldi, gördüm ə, bunun qarnı şişib nə boyda olub. Həmin İmamverdiyə oxşamır. Dedim, mən yatıram. Özümü vurdum yuxuluğa, elə xorulduyuram. Gördüm bir-iki dəfə dedi ki, ə, yatmısan, ə, yatmısan? Cavab vermədim, xorulduyuram. Gördüm paltarının altınnan iki meşox çıxartdı. Meşoxları silələdi, buğdanı dolduruf qutaranda isdiyirdi əyilə aşağı, qaldıra dalına, dedim:

– Ey qara pişik, şto delayeş, – deyən kimi dedi:

– Anqırma, tökürəm yerinə.

O söz düşür bizim camahatın ağzına. Məmi addı bir kişi vardı, mis zavodunda işdiyirdi. O söhbət eliyir ki, qozu yığıb aparmışam qoymuşam krışaya. Bir də gördüm balqonun aşağı tərəfinnən takqıltı gəlir. Dilim diş durmadı dedim, ey qara pişik, şto delayeş. Demə bu da oğlum imiş. Maa dedi ki, anqırma, tökürəm yerinə.

## 51. SƏN ALLAH, ONUN KÖKÜNÜ KƏSSƏNƏ

Kəndin rəhmətə layıx kişilərinnən biri də Hüseyin kişidi. Allah rəhmət eləsin. Qafan kəntlərinin birinnən Hüseyin kişigilə qonax gəlir. Həmin gün də sən demiyəsən çirişdən kətə salıllar. Çiriş də elə bir bitkidir ki, gərəh onun üsdünnən soyux su içmiyəsən. Göyyalın diş göynədən soyux suları, bu da ac. Deyir:

– Hüseyin kişi, bişidiyinizin adı nədi?

Deyir ki, məsgənə. Deyir:

– Ay bacı, onnan bir-ikisini gətsənə!

İki-üçünü gətirir, yeyir, üsdünnən də bir badya su içir. İş elə gətirir ki, qonağın gecə qarnı ağrıyır, bir ayağı qalır çöldə. Öz-özünə deyinir ki, bu nə idi başıma yad yerdə gəldi. Gedən baş soruşur ki, Hüseyin kişi, sən allah, dünən yediyimizin adı nə idi? Deyir ki, məsgənə. Deyir:

– Sən allah, onun kökün kəssənə!

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Ağac olan yerə yarpax tökülər.

2. Aprelin on altısı qarının günü çıxır. Ona görə ağsakqallar deyir, martda mərəh, apreldə gərəh, mayda beş bağ otun gərəh. Mərəh otu saxlamağ üçün tikilən yerdi. İndi nejə taya yığmırsan, dağ yerində də mərəhsiz alaf saxlamax çətindi. Elə adam var, bir mərəh tikir, elə adam var, biri bəs eləmir, iki mərəh tikir. Mərəh də yerdən tikilir, divarı hörülür. Yarısı yerin altında, yarısı yerin üstündə olur. Bajası olur, samanı mərəyin üsdünnən toküllər doldurullar. Çox tutmaxdan ötrü öküzdəri içində hərrədillər ki, ayaxlayıf bərkitsin. Axırıncı cərgəyə çatanda da adamlar özü ayaxlıyırdı. Üstün milnən, torpaxnan örtürdülər. Mərəyə qapı qoyurdular, otu ordan çıxarıf heyvana verirdilər. Martda mərəh o deməkdi ki, gərəh martda mərəh dəj ola. Mayda da doğan heyvan olur, otdamağa gedə bilmir, yağıntı olur, heyvan sürüşür qıçı sınır, yaxud yelinnidi örüşə gedə bilmir. Ona görə deyillər, may üçün beş bağ ehtiyatın olsun.

3. Aşığın ağzı quzu küzüdü: kərə də çıxar, kürə də.

4. Atamın yeddi-səkgiz qızı olubdu. Anamnan söhbət eliyəndə deyirdi: Ay bala, biz göz açıb görmüşük ki, süpürgəyə ər deyəllər, arvad başın salar aşağa. Onda yaşımız az idi, bu sözün mənasın dərk eləmirdik da. Demək isdiyirmiş ki, evin böyüyü kişidi. Kişi nəyi məsləhət bilirsə, sən onuynan razılaşmalısan.

5. Ay zamanə, zamanə,
Oxun qoyub kəmanə.
Eşşəhlər arpa yeyir,
At həsrətdi samanə.

6. Atalar deyir ki,
Getdin gördün molla,
Min qəza bulla.

Getdin gördün lotu,
Keş yanında otu.

O deməkdir ki, mollanı görəndə qəzadan uzağ ol, seyidi də görəndə salam vermə qayıt. Lotu da kefkom adamdı, get yanında otur. Yanı onnan saa pis şey gəlməz.

7. Baja tüsdüyə deyif ki, əyrim-üyrüm gedirsən? Tüsdü də qayıdıf bajıya deyif ki, təpəsi dəlih, sən nə deyirsən?

8. Bərşada getdin ayax götür, Bərşatdan çıxdın çörəh götür.

9. Buynuzdu qoçun qisası buynuzsuz qoça qalmıyajax.

10. Çakqal taxtaya dəydi, qayıtdı.

11. Deyillər, söz bilən adam axdarırsansa, hara getdin seç götür, Qaraçannıya gedəndə qabağına kim çıxsa, götür gəl.

12. Dəli qırmızı sevər, gij sarı.

13. Ehsanın ofsanatı var, pulun ofsanatı yoxdu.

14. Gorda yatan gün evdə yata bilməzsən.

15. Həyasızdan həyalan,
Bihəyadan daldalan.

16. Xoş deyirsən, naxoş eşidillər.

17. Kim Qarıqışlağa gedirmişsə, deyirmişdər ayax götür, orda qonax saxlamıllar. Yəni tez get, tez qayıt.

18. Köhnə yurdun qədrini təzə yurtda bilələr.

19. Kürtdərin varın-dööլətin bir xoruza yükləsən, götürər, namusun-qeyrətin qırx qəflə-qatıra yükləsən, götürməz.

20. Qonağın üzünə deyil, izinə baxallar.

21. Qoyun olmayan yerdə keçiyə kərəməz ağa deyillər.

22. Laçınnılar gedif Şuşada yeyif-içirmişlər, pulun üsdü qalanda deyirmişlər əşi, cəhənnəmə qalsın. Şuşalılar deyirmiş ki, biz cahi-cəlalı sizin o cəhənnəm puluynan qazanmışıx.

23. Loğman şəyirdiynən gedir pul qazanmağa. Gedir ki, bir gözəl məkan var. Həkimə deyir, qalax burda. Deyir ki, yox, burda bizim xeyrimiz olmaz. Deyir ki, niyə? Deyir, görmürsən bu meşə bütöy zoğal ağacıdı. Zoğal olan yerdə xəsdəlik olar ki, biz orda qalax xeyir görək?

24. Mal saxlarsan saxlar səni,
Bağ saxlarsan bağlar səni.

25. Yaxşı arvadın iti kök olar, pis arvadın pişiyi.

26. Yatan öküzün başına duran öküz sı...r.

27. Səni doyurmuyana ajdığını bildirmə.

28. Mal danadan, ev hanadan olar.

29. Xeyirdən qalmağ olar, şərdən qalmağ olmaz.

30. Dəlini el saxlar.

31. Kəndin dəlisin də təssübün çəkəsən.

32. Övlüya yatağınnan donuz xortduyur.

33. Dədəm arvad görmüyüf, elə bilir arvadı da bir arvatdı.

34. Əlyannılar döyüşkən, vurub-yıxan adamlar oluf. Ona görə belə bir məsəl var, əlyannısan, qannısan.

35. Şərikli qazan gej qaynar.

36. Yüz gün qov, bir gün ov.

37. Sevdimalı rəhmətdiyin bir yaxşı kalamı vardı. Deyirdi ki, getdız bir kəndə, görduz ki, yadı tərifliyillər, deyin, qohumumdu, tanıyıram. Ən yaxın adamızı pisdiyillər, deyin, tanımıram.

## BAYATILAR

1. Yağış yağıb ellərə,
Damcı damcı göllərə.
Eşitdim balam ölüf
Sorax düşüf ellərə.

2. Mən aşığam, dağda qan,
Dağda bitər dağdağan.
Pirim balasın vuruf
Göl-göl oluf dağda qan.

3. Mən aşığam, bir də yaz,
Qələm götür, bir də yaz.
O ananın xəyalıdı
Bu vaxt gələ bir də yaz.

4. Mərhəmər otda, qoyun,
Gəl, hamar otda, qoyun.
Çobanın əsgər gedif
Zəhirmar otda, qoyun.

5. Şalım qara boyandı,
Üjü yerə dayandı.
Eşitdim balam ölüf
= Dedilər qırğın oluf
Ərşdə fələk oyandı.

6. Tüfəyin pas bağlasın,
Atmaynan, pas bağlasın.
Sənə kəm baxanın
Balası yas bağlasın.

7. Çobanam, qoyuna mən,
Düşmüşəm oyuna mən.
Qumralı qoş bəzədim
Baxmadım boyuna mən.

8. Ərəbəm, oxmüşəm,
Nə dərdi çoxmüşəm.
Gen dünyanın altında
Kimsəsi yoxmüşəm.

9. Ərəb mənən, ərəb mən.
Halı, günü xarab mən.
Gen dünyanın altında
Neynəmişəm, yarəb, mən?

10. Atasız qızdar ağlar,
Dərdini gizdər ağlar.
Atalı dərdin deyər
Atasız gizdər ağlar.

11. Əlində bələm eylər,
Tutubdu bələm eylər.
Allah da bəndəsinə
Zülmü beləmi eylər?

12. Buxarı qurum oldu,
Od yandı qurum oldu.
Yetim üzünə baxmaxdan
Mənə hay zülüm oldu.

13. Maşın gəlir yan verir,
Vətəni nişan verir.
İyid-iyid oğlannar
Asfaltlarda (küçələrdə) can verir.

14. Hayana getdi bular,
Canım aldı qayğular.
Yol isdərəm, yol vermir
Gündə keşdiyim sular.

15. Qırxqızın öz dağları,
Tutufdu toz dağları.
Eləjə yadıma düşür
Qənimin öz dağları.

16. Dağlar başın qarağat,
Apar meylim yara qat.
Gedin düşmana deyin
Day otusun farağat.

17. Mən aşığam nə qaldı,
Nə qoxadı, nə qaldı?
Fələk mənim başıma
Gətirməmiş nə qaldı?

18. Qoyun mələyən olar,
Duza gələyən olar.
Balaya (= cavana) bel bağlama
Bala (= cavan) öləyən olar.

19. Dosduma bax, dosduma
Dosdum düşüf qəsdimə.
Dosdum da yaddar kimi
Torpax tökür üsdümə.

20. Sən mənim baxdımı gör,
Qaradı, taxdımı gör.
Eləjə atdın getdin
Heş gəlif baxdımı, gör?

21. Gedən boz atdı, getmə,
Yolun uzaxdı, getmə.
Anayın bu göz yaşları
Sənə duzaxdı, getmə.

22. Qoyunu qoyun gəlsin,
Dərisin soyun gəlsin.
Anası mələyəndi
Balasın qoyun gəlsin.

23. Xoş gördüm, dərə, səni,
Tapşırdım elə səni.
O da xeyli ömür isder
Qayıdam görəm səni.

24. Qoyun çıxdı bərədən
Quzu çıxdı aradan.
Adına nənə qurban
Adın çıxdı aradan.

25. Gözdərim gözdərinə,
Müştaqam sözdərinə.
Yalvarram ilannara
Dəymiyə gözdərinə.

26. Dağlar başı tütündü,
Kimin bağrı bütündü.
Gəleydin görüşeydıx
Dünya ölüm-itimdi.

27. Bu Qırxqızın bulaxları,
Göyərir qıraxları.
Lal olsun anam dili
Eşitmir qulaxları.

28. Mən aşığam, sal yana,
Dara zülfün, sal yana.
Necəsən, bir ah çəkəm
Kür quruya, sal yana?

29. Bayatının zilinnən,
Baş tapmadım dilinnən.
Sən dağlardan qar göndər
Mən Arasbar gülünnən.

30. Qarabağda ilan olmaz,
Gizlin dərdi bilən olmaz.
Mən ağlaram gizlin-gizlin
Göz yaşımı silən olmaz.

31. Bağda üzüm ağajı
Üzüm-gözüm ağajı.
Bağa baltalı gəldi
Kəsdi bizim ağajı.

32. Budu, gəldi daş kəsən,
Quru qoyuf yaş kəsən.
Gəldin dərdim artırdın,
Gəlmiyeydin keşgə sən.

33. Anam ağlar, dəlidi,
Bajım ağlar, dəlidi.
Soldurar gül yanağın
Məyər ollar dəlidi?

34. Yetiməm, atam yoxdu,
Bir qulam, satan yoxdu.
Düşmüşəm qəm dəryasına
Qolumnan tutan yoxdu.

35. Mən aşıq, sarı qaldı,
Gün getdi, sarı qaldı.
Vətən yolu gözləməkdən
Gözümdə sarı qaldı.

36. A dağlar, qoşa dağlar,
Verif baş-başa dağlar.
Sənin ki elin yoxdu
Dön səni daşa, dağlar!

37. Dağlar, səni əndərim,
Səni bəri döndərim.
Sənə müşkül işim düşüf
Dalınca kimi göndərim?

38. A dağlar, mura dağlar
Murad ver, murad ağlar.
Kimi murada yetər
Kimi bemurad ağlar.

39. Yola qoydum tikanı,
Yol götürməz tikanı.
Fələk vuruf dağıdır
Cəhdinən ev tikəni.

40. Ay qarannıx gejədi,
Ülkər aydan üjədi.
Qoynunu qorrar nənəm
Gör ayrılıx nejədi?

41. Qəbrimi üjə qoyun,
Götürün üjə qoyun.
Anamın yolu düşər
Üsdünnən baja qoyun.

42. Bağda gəzər maralı,
Bağrım əzər maralı.
Tutuf saxlamağ olmaz
Belə təzən maralı.

43. Dağlar başı boz ala,
Duman gələ tez ala.
Töküb qaşın-qabağın
İster mənnən söz ala.

44. Dağlarda quzu mələr,
Verəsən duzu, mələr.
Mənim kimi ananın
Ellərdə yüzü mələr.

45. Bu dağlar, daşdı dağlar,
Sənnən yol aşdı dağlar.
Gözümü yuxu tutdu
Maralım qaşdı, dağlar!

46. Kəhər atın cığası,
Qırıldı qancığası.
Milləti gör kim qırdı
Bir erməni dığası.

47. Mən aşıq, qar başına,
Yağıbdı qar başına.
Bosdanın dolu döymüş
Dolanır tağ başına.

48. Bir at mindim, başı yox,
Bir çay keşdim daşı yox.
Burda bir iyid ölüf
= Dedilər oğlan ölüf
Yanında qardaşı yox.

49. Ay dağlar, aza dağlar,
Qul olan azad ağlar.
Mənim də sənin kimi
Maralım aza, dağlar.

50. Məni qazax apardı,
Qazax uzax apardı.
Çiynimi çatı kəsdi
Gözümü sazax apardı.

51. Apardı tatar məni,
Qul edib satar məni.
Gedin anama deyin
Tay hardan tapar məni?

52. Dağlar, mana tut göndər,
Gilas göndər, tut göndər.
Bir tərlan qaçırmışam
Onu mana tut göndər.

53. Aran isdi deyəllər,
Suyu pisdi deyəllər.
Aranda qalannara
Sərfə qusdu deyəllər.

54. Aran arana qalsın,
Aran virana qalsın.
Biz aran görməmişih
Aran görənə qalsın.

55. Aranda qaldım naçar,
Sınıx golun kim açar?
Məni aranda qoyar
Özü yaylağa qaçar.

56. Əyilif dağım mənim,
Sınıf budağım mənim.
Bülbül ötmür, gül aşmır
Virandı bağım mənim.

57. Böyün gün tutqun oldu,
Gün-günnən tutqun oldu.
Bilmədim sel apardı
Bilmədim itgin oldu.

58. Aşıx oda dərdini,
Xalın oda dərdini.
Dərtbilməz düşsün dərdə
Bilsin o da dərdini.

59. Mən aşığam, bala, vay,
Balabanam, bala, vay.
Tərlan quş bu yuvadan
Uçurtmadım, bala, vay.

60. Öküz-öküz, xan öküz,
Boynu qızıl qan öküz.
İnəhlər dağda yaylar
Sən aranda yan, öküz!

61. Köynəyi ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Balam qonağım olsa
Bir il (= yüz il) qonax saxlaram.

62. Köynəyin ağa dönsün,
Yuduxca ağa dönsün.
Qəfildən gir içəri
Ürəyim dağa dönsün.

63. Zeynalam, yaralıyam,
Vətənnən (balamnan) aralıyam.
Sağımnan güllə dəyif,
Solumnan yaralıyam.

64. Xəbəri qarğa verər
Qırıldar, qarğa verər.
Uzax yerin xəbərin
Bir atı yorğa verər.

65. Qərib öldü, götürün,
Dar küçədən ötürün.
Qəribin öldüsünü
Yiyəsinə yetirin.

66. Dağların alçağınnan,
Qar yağıb alçağınnan.
Gör başıma nə gəldi
Bircəyin alçağınnan.

67. Elə dəli olmuşam,
Dərtdən dəli olmuşam.
Dərt vurufdu başıma
Öldürməli olmuşam.

68. Dərt məni dəli eylər,
Dəli eylər, dəng eylər.
Dərd adam öldürməz
Soldurar bədrəng eylər.

69. Ördək gölüynən ağlar,
Ceyran çölüynən ağlar.
Qərib qızdar dərdini
Gedər eliynən ağlar.

70. Qırmızını kim boyar?
Kim götürər, kim qoyar?
Sənin cavan canını
Qara yerə kim qoyar?

71. Ağaşda var mazılar,
Könlüm səni arzular.
Əyilən, öpüm üzünnən
Qoy baxsın tamarzılar.

72. Yetimin yekə dərdi,
Yüklənib lökə dərdi.
Qəflə-qatır çəkməz
Fil gərək çəkə dərdi.

73. Yetim, yükün ağırdı,
Ağır götür, ağırdı.
Yetimin yüngül yükü
Qurşunnan ağırdı.

74. Qapıda durma, yetim.
Boynunu burma, yetim.
Kirpiklərin ox təki
Sinəmə vurma, yetim.

75. Yetimə matan yoxdu
Bir qulam, satan yoxdu.
Düşmüşəm qəm dəryasına
Qolumnan tutan yoxdu.

76. Anan varsa da, gəlsin,
Bajın varsa da, gəlsin.
Canı canıma
Yanan varsa da, gəlsin.

77. Sağı bir yana dursun,
Solu bir yana dursun.
Seçilsin qardaşı ölmüşdər
Balası ölmüşdər bir yana dursun.

78. Qəribəm, bu vətəndə,
Qərib yollar ötəndə.
Qərib qardaş arzular
Baş yastığa yetəndə.

79. Qardaş, qardaş, quş qardaş.
Atdanmısan, düş qardaş.
Sinəmə vurdun dağı
Bir mənnən danış, qardaş!

80. Bir quş gəlir o xannan,
O sultannan, o xannan.
Oleydim bir dəsdə gül
Asıleydim yaxannan.

81. Nə yaman əsdin, fələk,
Səbrimi kəsdin, fələk.
Harda bina saldım
Pənahım kəsdin, fələk.

82. Mələ qoyunum, mələ,
Səsin bağrımı dələ.
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gələ.

83. Mən aşıx dağda nə var?
El getmir, dağda nə var?
Bir dağ balasız olsa,
= Bir dağ Leylisiz olsa,
Getmirəm, dağda nə var?

84. Şıxam mən, şıxam mən,
Kimin evin yıxam mən.
Girmişəm dost bağına
Nə dərmişəm yıxam mən?

85. Əlin xına tutmasın,
Çöyür günə tutmasın.
Sənə kimlər qarğadı,
Əvin binə tutmasın?

86. Çaylar daşdı, bu yaman,
Həddən aşdı bu yaman.
Çoxlu çaylar keşmişdim
Hamısınnan bu yaman.

87. Mənimki sənsən, neynim,
Mənnən küsərsən, neynim.
Çoxlu dərtdər görmüşəm
Ötgünü sənsən, neynim?

88. Baxça bar atda qaldı,
Heyva nar altda qaldı.
Hayıf sənin öz canın
Yağdı qar altda qaldı.

89. Dağlarda sənəy olmaz,
Əkərsən yemək olmaz.
Çoxludu sənin dərdin
Heş yerdə demək olmaz.

90. Mən aşığam, sar ovlar,
Sar kəkliklər sar ovlar.
Məyər tərlan ölüfdü
Oğlağında sar ovlar?

91. Dağda dağ ilannarı,
Bağda bağ ilannarı.
Bir çapar atdı gələ
Yığa dağılannarı.

92. Uzundu boyun, oğlan,
Cənnətdi huyun, oğlan.
Susuyuf su isdərsən
Kim verər suyun, oğlan?

93. Sağ olun, irağ olun
Çöl yerdə bulağ olun.
Yığılın bir-birinizin başına
Bir-birizdən göz-qulağ olun.

94. Əppəyimiz aşımız,
Qana dönüf yaşımız.
Hərəmiz bir ölkədə
Dağınıxdı başımız.

95. Evləri dərə kəndi,
Gümüşdən sinə bəndi.
Çıxarsan el görükmür
Yıxarsan belə kəndi.

96. Lələyəm, deyənim yox,
Al-yaşıl geyənim yox.
Yüz il gedəm, gəlmiyəm
Heş gəlmir deyənim yox.

97. Lələsən o yalda dur,
Gör dünya nə haldadur.
Gördün ki, qan içindəsən
Çək ətəyini dalda dur.

98. Mən aşıx, görmüşdəri,
Ləl gördüm görmüşdəri.
Kim axdarar, kim tapar
Biz gözdən düşmüşdəri?

99. Baxça barı neynərsən?
Heyva-narı neynərsən?
Özün qaşdın qutardın
Mən yazığı neynərsən?

100. Baxça-bağın deyiləm,
Heyva-narın deyiləm.
Gəl balana yiyə dur
Zamınkarın deyiləm.

101. Ağam gəl, ağam gəl,
Ölməmişəm, sağam, gəl.
Boynumda qəm zinciri
Yolunda dustağam gəl.

102. Quşdar vətənə gedər,
Uçar, vətənə gedər.
Mən dərdimi söyləsəm,
Oba yatana gedər.

103. Dərdim bir-iki deyil,
Dərman bir-iki deyil.
Dərdini nənən çəksin
Özgələr yükü deyil.

104. Mən aşıx, oydun məni,
Nar kimi soydun məni.
Nə kölgədə qurutdun,
Nə günə qoydun məni.

105. Ovçu, ovçu, dad ovçu,
Dad ovçu, bedad ovçu.
Tanıyan səni vurmaz
Səni vuruf yad ovçu.

106. Getmişdim Gilana mən,
Dönmüşəm ilana mən.
Mən səni hardan alım
Dilana-dilana mən.

107. Bağa gün düşdü, neynim?
Bağman su işdi, neynim?
Qisməti payladılar,
Mana bu düşdü, neynim?

108. Çağalat[37] çiçəhlədi,
Çiçəyi qöçəhlədi.
Yatdığın yalan oldu
Ölümün gerçəhlədi.

109. Bənövşəyəm, bitərəm,
Kollar dibin örtərəm.
Mən bala həsrətliyəm
Boynumu əyri tutaram.

110. Dəvə otdar gəllahı,
Otdadıxca gəllahı.
Azreyil üsdümü kəsəndə
= Düşmən səni vuranda
Çağıreydin Allahı.

---

[37] çağalat – qayalarda bitən bitki

111. Yapıncın bürüneydim,
Dalıncan sürüneydim.
Sən orda can verəndə
= Səni daşdar basanda
Gözünə görüneydim.

112. Gül əkdim baxçalarda,
Qurutdum taxçalarda.
Sən çürü qara yerdə
Paltarın boxçalarda.

113. Paltarı boxça saxlar
Gülü tavaxça saxlar.
Qoy getsin ata yanına,
O bizdən yaxşı saxlar.

114. Sən mənim al yorğanım,
Üsdü xal-xal yorğanım.
Gəldi əcəl fərmanı,
Üsdümdən al yorğanı.

115. Savalan buz bağladı,
Yanı yarpız bağladı.
Qapıya qonax gəldi,
Atını qız bağladı.

116. Arxalığ aldırmışam,
Yan-yaxa saldırmışam.
Çoxlu dərtdər çəkmişəm
= Üççə balam ölüf
Ürəyimi aldırmışam.

117. Yaxamda ilməy olmaz,
İlməyi düyməy olmaz.
Mən çıxmışam səfərə,
Səfərdi, bilməy olmaz.

118. Oxların keşdi mənnən
Əyləndi, keşdi mənnən.
Dosd üçün körpü oldum
Düşmən də keşdi mənnən.

119. Sızıldarmı sağ olan,
Yarası qaysağ olan.
Tay duruf hardan gələ
Qara yer dustax ola.

120. Apardılar qoydülər
Ağladılar doydülər.
Ağır-ağır sallardan
Sinəm üsdə qoydülər.

121. Anam olsa, ağlardı.
Bajım olsa, ağlardı.
Açardı kəmər saçın
Cinazama bağlardı.

122. Pişirim aşım səni,
Töküm qan-yaşım səni.
Alım hayana gedim
Bəlalı başım, səni?

123. Havada qar səsi var,
Yağıfdı, qar səsi var.
Axdar itik-nalanı
Yenə səfər səsi var.

124. Təndiri sən oddadın,
Sən qoydun, sən oddadın.
Sinəmdə sağ yerim yox,
Qalmışın sən oddadın.

125. Su üzündə pərdə mən,
Əcəb düşdüm dərdə mən.
Açılmamış qönçə gül
Necə yatım yerdə mən?

126. Su üzündə qamışəm,
Su axıb mən qalmışam.
Əldən tərlanım gedif
Mən qalmışam yana-yana.

127. Saz aldım çala-çala,
Ney aldım çala-çala.
Qərq oldum dəryalara
Qaldım qol çala-çala.

128. Dağlar başı ala qar,
Ala çisgin, ala qar.
Çoxlu qarrar yağıfdı,
Yağmıyıfdı belə qar.

129. A dağlar, uca dağlar.
Qar yağar, uca dağlar.
Eləcə yaxşı ola
Köhlən at, uca dağlar.

130. Yurt kimindi, sonanın,
Yoxdu yurda qonanın.
Qanadın göy boyaram
Düşərgəmə qonanın.

131. Ördəkliyəm, göllüyəm,
Ceyrannıyam, çöllüyəm.
Məni qərib ağlama
Mən də ağır elliyəm.

132. Bu dərə dəhnəlidi,
Burda gül əkməlidi.
Azreyil, gendə dolan
Ürəyim fəhməlidi.

133. A dağlar, qannı dağlar,
Qan tutmuş qannı dağlar.
Burda bir iyid ölüf
İçində qannı dağlar.

134. Mən aşıx, qannıları,
Qan tutmuş qannıları.
Qudurmuş qurd olaydım,
Qovardım qannıları.

135. A dərə, qannı dərə
Yarpağı sannı dərə.
Görükmə, göz tökərsən
Azreyil donnu dərə?

136. Kəkliyim səkdi getdi,
Mana dərd əkdi getdi.
Odunu, yalovunu
Üsdümə tökdü getdi.

137. Dərədə mal mələdi,
Mal nə yaman mələdi?
Yolumu itirmişəm
Mana bir yol bələdi.

138. Yaşım rusum oldu,
Axdı rusum oldu.
Hər il gözü yaşdılıx
Mana rusum oldu.

139. Xoş gördüm, dərə, səni,
Tapşırdım elə səni.
O da xeyli ömür isdiyir
Qayıdım görəm səni.

140. Əsgərana bağ sallam,
Bostan əkif tağ sallam.
Ya öldürrəm özümü
Ya gözümə tağ sallam.

141. Bu hava qəralıfdı,
Yağıfdı, qəralıfdı.
Qəfildən bir sel gəlif
Ojağım qəralıfdı.

142. Dağlar, maralımı ver,
Otdar, maralımı ver.
Sağ maral sənin olsun,
Mənim yaralımı ver.

143. Durdum getdim suya mən,
Sudan aldım dua mən.
Olmadım qaranquşcan
Damda tikəm yuva mən.

144. Mən aşığam naz keşdi,
Naz eyləmə, naz keşdi.
Mən burda tərlanıdım,
Belə iyid az keşdi.

145. Yazım ha yazı deyil,
Yazılış yazı deyil.
Fələk bir yazı yazıf,
Könlümün yazı deyil.

146. Ördək, gölə bir də gəl,
Ceryan, çölə bir də gəl.
Ant verirəm Allaha
Bizim elə bir də gəl.

147. Ördək, gölə gəlmərəm,
Ceyran, çölə gəlmərəm.
Nə qədər yalvarsan da
Sizin elə gəlmərəm.

148. A qoyun, dəli qoyun,
Qurvana gəli qoyun.
Oğlu ölmüş ananın
Adını dəli qoyun.

149. A qoyun, səkil qoyun
Gəl yola tökül, qoyun.
Aranını yayladın,
Dağlara çəkil, qoyun!

150. Azreyil, aman-aman,
Canımı alma bu zaman.
Dustax yerdə balam var
Xəbərim gedər yaman.

151. Fələyin vay əlinnən,
Vur düşsün yay əlinnən.
Qaşdım da qutarmadım
Genə ah-vay əlinnən.

152. Atdandım atdan oldum,
Qoşunum qətdan oldu.
Mən ki namart deyildim,
Namartdıx dərtdən oldu.

153. Dəvələr qatar gedər,
Qatarın satar gedər.
Atalar qaydasıdı
Balasın atar gedər.

154. Quşdar yuva bağladı,
Uşdu yuva bağladı.
Səninnən uçan quşdar
Tamam yuva bağladı.

155. Qaranquş yuvadadı,
Oxuyur, yuvadadı.
Bir əlim hak dalınca,
Bir əlim duvadadı.

156. Atam oğlu, dur yeri,
Ətək belə vır, yeri.
Atam oğlu çoxludu,
Hərəsinin bir yeri.

157. Atam oğlu bu yana,
Malı yoxdu dayana.
Atam oğlu neynəsin
Allahdan olmuyana.

158. Aşıx, yara kimin var?
Xalın yara kimin var?
Belə dağ, belə dünya
Görəm yara kimin var?

159. Suları zər başidi,
İşməyə zər basidi.
Sənə bir toy qurallar,
Savaşı göz yaşidi.

160. Bajıyam, bajım yoxdu,
Dərvişəm, tajım yoxdu.
Vallah, çox dərd çəkmişəm
Ellajım yoxdu.

161. Narınca bax, narınca,
Saxlaram saralınca.
Öleydi yazıx anam
Belə günə qalınca.

162. Dolça dərdi, su dərdi,
Dolça çəkər su dərdi.
Öleydi sənin anan,
Çəkmiyeydi bu dərdi.

163. Can ana, canım ana,
Yasdığım, yanım ana!
Baş qoyum dizin üsdə
Qoy çıxsın canım, ana!

164. Anam yox, bilə dərdim,
Bajım yox, bilə dərdim.
Nə deyim yaddara mən
Yaddar nə bilə dərdim.

165. Gözüm, göz gəzdirirsən,
Dilim, söz gəzdirirsən.
Sən gəzən burda yoxdu
Naxah göz gəzdirirsən.

166. Ay gəzən yeri gördüm,
Gün gəzən yeri gördüm.
Getdim səni tapbadım
Sən gəzən yeri gördüm.

167. Bazara keçi gəldi,
Keçinin üçü gəldi.
Yer verin yurt göstərin,
Sonsuzun köçü gəldi.

168. Dağdan aşıb gələnin,
Qanı coşub gələnin.
Xoş halına o kəsin
Halallaşıb ölənin.

169. Bağa girməyə gəldin,
Gülün dərməyə gəldin.
Sən getdin özünə ev qurmağa,
Bəyəm ölməyə gəldin?

170. Bir dərdim var, deyimmi?
Qəmnən köynək geyimmi?
Çoxlu dərtdər görmüşəm,
Onu sizə deyimmi?

171. Çıxdım Yelli gədiyə,
Başı telli gədiyə.
Gəzdim səni tapbadım
Dəydim əlli gədiyə.

172. Çağır gəlsin dilbəri,
Qara geysin il barı.
Nə baxçalar bar götüsün
Nə açılsın gül barı.

173. Dağlar, nejə dağlarsan,
Duman, çiskin bağlarsan.
Sinəmdə sağ yerim yox,
Sən haramı dağlarsan?

174. Gedin deyin anama,
Dağlar düşdü arama.
Özüm məhləm qayırdım,
Özüm qoydum yarama.

175. Mənimki sənsən, neynim?
Mənnən küsərsən, neynim?
Çoxlu dərtdər görmüşəm,
Ötkünü sənsən, neynim?

176. Oxum dəryada qaldı,
Atma, dəryada qaldı.
Ölməyinnən deyildim
Heyif, yar yada qaldı.

177. Oxlağlar, ay oxlağlar,
Oxu saydan saxlarlar.
Sizin yerdə cavanı
Bəyəm belə yoxlarlar?

178. Daşkəsənnən daş götür,
Qannı gözdən yaş götür.
Səni ant verim Allaha,
Gəlif isdəhli qonağım,
Bu yasdıxdan baş götür.

179. Aşağı yolmu gedər?
Yuxarı yolmu gedər?
Xəsdəyə qulluğ eliyəllər,
Xəsdə də yolmu gedər?

180. Bu xəbər nə xəbərdi,
Yaram qabar-qabardı.
Bir yanımı sel aparıf,
Bir yanım bexəbərdi.

181. Sazın götür dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərdi olan özü gələr,
Dərd bilməzə demə, gəl.

182. Qalyanı bayax çəkdim,
Doldurdum, bayax çəkdim.
Dünyanı bevəfa gördüm,
Əl götürdüm, ayax çəkdim.

183. Qalyanın çək ücündən,
Doldur bir çək ücündən.
Nə namarda möhtac ol,
Nə bəla çək ücündən.

184. Gör nə gəldi başıma,
Etmədim yoldaşıma.
Ağlıma gəlmiyən işlər
Gəldi mənim başıma.

185. Gəl gedək bizim yerə,
Saflağı üzüm yerə.
Saralıbdı kəfənim,
Düşübdü üzüm yerə.

186. Çıxmaram yaylaxlara,
Baxmaram ovlaxlara.
Anan da zəhər qatıb
Sən yeyən qaymaxlara.

187. Fələyin da evidi,
Da bedad evidi.
Dərdi olan dərdin desin,
Deməsin yad evidi.

188. Cavanam, nəyim qaldı?
Yük üstə yayım qaldı.
Qonşuda ala gözdüm,
Eldə toy payım qaldı.

189. Axşamlar hay, axşamlar,
Şam yanar hay axşamlar.
Evli evinə gedər
Qaşqın harda axşamlar?

190. Qayada qarmağım var,
Çəkməyə qarmağım var.
Bircə baladan ötrü
Sənə yalvarmağım var.

191. Öldüm, yaradan öldüm,
Göydən, qaradan öldüm.
Ağ sulux, göy qavardan
Yaman yaradan öldüm.

192. Aşıq sənəm səsinə,
Səs ver sənəm səsinə.
Eləcə həsrət qaldım
Öz kimsənəm səsinə.

193. Bulax başı yasəmən,
Yendim gəldim səsə mən.
Tapbadım bir kimsənə
Səsim qatam səsə mən.

194. Gönlüm bir əbəy istər,
Aş istər, əbəy istər.
Qol məndən, gərdan səndən,
Üzündən öpmək istər.

195. Ana mənim daş üzüm,
Dəmir üzüm, daş üzüm.
Ağlamağdan hayam yox
Çürüdübdü yaş üzüm.

196. Dağlar başı qəsildi,
Qənim qolumu kəsdi.
Kim açdı, kim bağladı,
Yaran qanı kəsildi.

197. Atlar yal boynunda,
Otlar yal boynunda.
Mən neylədim fələyə,
Qaldım əli qoynunda?

198. Saraldım meşə kimi,
Soldum bənööşə kimi.
Eləcə həsrət qaldım
Gülə bənööşə kimi.

199. Mən aşıq, yaxan pərim.
Yan pərim, yaxan pərim.
Açılıb düymələrin,
Görükür yaxan, Pəri.

200. Bağınızda tut dəydi,
Gilas dəydi, tut dəydi.
Qolun qurusun ovçu
Güllən nə rast dəydi.

201. Dağların qarı getməz,
Əriməz, qarı getməz.
Ciyərin yanğusundan
Dodağın barı getməz.

202. Bağında şirin nə var?
Yeməyə şirin nə var?
Cahanı geş eyləsən,
Baladan şirin nə var?

203. Qaşın üçün ağlaram,
Gözün üçün ağlaram.
Salam səni yadıma
İmam üçün ağlaram.

204. Məni bir quş apardı,
Mənzilə tuş apardı.
Çiynimi çatı kəsdi,
Gözümü yaş apardı.

205. Burdan bir paşa getdi,
Paşa tamaşa getdi.
Atasının zəhmətin
Çaldı bir daşa getdi.

206. Burdan bir həşim getdi,
Ağladım yaşım getdi.
Ellərdən təkcə-təkcə,
Bizdən bir qoşun getdi.

207. Çay aşağı söyütdər,
Qoşa bitər söyütdər.
Yanmış qara yer
Qoltuğunda nər gizdər.

208. Bu gələn Hacalıdı,
Qoy gəlsin, Hacalıdı.
Dövranı sürən sürsün,
Hər kəsin macalıdı.

209. O tayda fərmanım var,
Bu tayda dərmanım var.
Aç yaranı mən baxım,
Əlimdə dərmanım var.

210. Arı nəyə gərəkdi?
Balı nəyə gərəkdi?
Oğlu ölmüş ananın
Halı nəyə gərəkdi?

211. Qoz ağacı deyiləm,
Yel vuranda əyiləm.
Gedirsən, tez qayıt,
Həmişəlik deyiləm.

212. Gedirsən, məni də apar.
Asda get, ürək qopa.
Axıdaram göz yaşımı
Dalınca sellər qopa.

213. Qərənfil firdə-firdə,
Bilmirəm nə var səbirdə.
İkimiz birdən ölək,
Qoysunnar bir qəbirdə.

214. Kəklik daşda nə gəzir?
Səkib daşda nə gəzir?
Oğlu ölən ananın
Ağlı başda nə gəzir?

215. Bağında gavalı var,
Yeməyə gavalı var.
Gəl getmə bu səfərə,
Səfərin zavalı var.

216. Atın qaradı, qara,
Mindin getdin ilqara.
Sən ilqardan gəlincə,
Yarın geydi zil qara.

217. Göydə buludam səni
Sərəm qurudam səni.
Öləm gedəm torpağa
Onda unudam səni.

218. Çobanam qoyunuza,
Babalım boyunuza.
Ya məni evləndirin,
Ya salın qoynuza.

219. Çoban itin qurusun,
Arğacında su dursun.
Qıymıram, qarğamıram,
Yeddi il dilin qurusun.

220. Çoban qoyuna gedər,
Baxar boyuna gedər.
Çobanın ağ toğlusu
Nişan toyuna gedər.

221. Əsgərlər gündə gedər,
Kölgədə, gündə gedər.
Götürər ağır avtomatın
Yaman gündə gedər.

222. Ağgöl qırağı düzdü,
Şam əllidi, yüzdü.
Şah küsdü, oba köçdü,
Əlin bağçadan üzdü.

223.Gülün mənəm, gülün mən,
Bağbanıyam gülün mən.
Ağlamağı bilirəm,
Öyrət mənə gülüm mən.

224. Tut ağacı yanadı,
Yolum xiyabanadı.
Əyil üzündən öpüm,
Qara tellər şanadı.

225. Əzizim, üzüm dəydi,
Yel əsdi, üzüm dəydi.
Qiyamət qopmadı ki,
Üzünə üzüm dəydi.

226. Əzizim, dilə məni.
Dərd etdi pilə məni.
Mən getdim, sən yaşadın,
Arzula, dilə məni.

227. Qəribi naşı ağlar,
Yarı, yoldaşı ağlar.
Dərdimi daşa desəm,
Əridər daşı, ağlar.

228. Göz yaşım axdı, neynim?
Sonuma çıxdı, neynim?
Canı dərdimə verdim,
Dərd məni yıxdı, neynim?

229. Mən aşığam, dosdum, gəl,
Göylərdədir dəsdim, gəl.
Karvanım son səfərdə,
Harda qaldın, dosdum, gəl!

230. Əziziyəm, şana bax,
Şöhrətə bax, şana bax!
Sən baxıb köks ötürdün,
Zülf oxşayan şana bax.

231. Aşıx min ayədəndi,
Saçda minayə dəndi.
Ürəyimdən qan axır,
Yaram minayədəndi.

232. Əlim qoydum əl üsdə,
Mina kəmər bel üsdə.
Birdən yar gəlib keçər,
Gedim durum yol üsdə.

233. Dövran yükü çəkmişəm,
Gözümdən qan tökmüşəm.
Qoşmuşam qəm kotanı,
Həmişə dərd əkmişəm.

234. Yoxuşdumu, yoldumu,
Fələk, gözün doydumu?
Baxdıma yazmadığın,
Görən bir dərd oldumu?

235. Zəhər qatdı aşıma,
Oyun aşdı başıma,
Ömürlük dərdə sirdaş
Fələk yazdı qaşıma.

236. Əzizim, daşda məni,
Daş götür, daşda məni.
Bilirsən ki, sevirəm,
Gəzdirmə başda məni.

237. Bu yol gedən Gəncədi,
Gülü pəncə-pəncədi.
Ölüm Allah işidi,
Ayrılıq işgəncədi.

238. Mən aşiqəm, taba bax,
Könüldəki taba bax.
Ürəyi gözdən oxu,
Demirəm kitaba bax.

239. Yazı yazan çaş imiş,
Aşım zəhər aş imiş.
Ömrüm boyu qəm yedim,
Bəxtim qara daş imiş.

240. Mən aşiqəm, südünə,
Özü kimdir, südü nə?
Heş kəsin haram maya
Qarışmasın südünə.

241. Zildəydim, bəm olmuşam,
Ağıldan kəm olmuşam.
Getdi gülən çağlarım,
Gözləri nəm olmuşam.

242. Su quruyub, çənə nə?
Dumana nə, çənə nə?
O qara xalın kimi
Yapışaydım çənənə.

243. Mənə fərsiz deməyin,
Ehtibarsız deməyin.
Dərtdir məni dindirən,
Barı arsız deməyin.

244. Şərə, yalana lənət,
Talan salana lənət.
Yəhər verib ulağa
Tamax salana lənət.

245. Tapmayır həkim dərdi,
De necə çəkim dərdi.
Bağ əkdim, gül becərdim,
Heç bilmədim kim dərdi?

246. Din demədim halala,
Başdan huşum hal ala.
Pay bölən pak olarsa,
Haram qatmaz halala.

247. Mən aşığam, sardımı,
Dərd sənə simsardımı?
Dost vəfasız olmasa
Yad məni basardımı?

248. Mən aşiqəm, bala bax,
Başa açdı, bəla, bax.
Ağız pətəyə dönüb,
Dildən axan bala bax.

249. Mən aşiqəm, nara bax,
Atəşə bax, nara bax!
Əkilməmiş agaşda
Dərilməmiş nara bax!

250. Mən aşığam, yaşa bax,
Quruya bax, yaşa bax.
Eşqə yaş xata döyül,
İnanmırsan, yaşa bax!

251. Yaylığım közə düşdü,
Ucu Gülgəzə düşdü.
Hayıf, mənim bu canım
Qədirbilməzə düşdü.

252. Aşıx gecədən gedər,
Ülkər gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

253. Bu dünya gözəl dünya,
Düzəlmir əzəl dünya.
Bir halal qazanc paya
Uzanır yüz əl, dünya.

254. Dağların başı çən-çən,
Dibinin daşı sənsən.
Nə qədər nənənin nəvəsi çox da,
Hamısının başı sənsən.

255. Mən aşığam, nə qana.
Nadan nədi, nə qana.
Söz de söz eşidən, söz bilənə
Söz demə nanəcibə, nadana.

256. Mən aşığam, yaraşığı,
Yar yarın yaraşığı.
İnsan var, yanından düz keçəsən,
İnsan var, elin yaraşığı.

257. Mən aşığam, yara da,
Öldürdü məni bu yara da.
Qorxuram qərib öləm,
Meyidim qala arada.

258. Mən aşığam, gəyən gəz,
Dağda bitər gəyəngəz.
Nə dünyaya bel bağla,
Nə döölətə güyən gəz.

259. Mən aşığam, qardaşı,
Dağ başınnan qar daşı.
Xəstə könlü nar dilər,
Mənim könlüm qardaşı.

260. Mən aşığ, lala yalqız,
Gül qoşa, lala yalqız.
Qorxuram qərib öləm,
Meyidim qala yalqız.

261. Mən aşıq, Kürdən gələ,
At minib Kürdən gələ.
İmran dilli aşiqi
Salıbdı kürd əngələ.

262. Buxarı qurum saxlar,
Od yanar, qurum saxlar.
Aşıq deyir, ər libasın
Geyməsin qurumsaxlar.
= Əzizinəm, qurumsaxlar,
Od yanar, qurum saxlar.
Atdandı getdi kişilər,
Qaldı sizin kimi qurumsaxlar.

263. Qarağöl buz bağlar,
Qıraxları yarpuz bağlar.
Oğulsuz anaların, qardaşsız bajıların
Cinazasın qız bağlar.

264. Mən aşıx, dolan gözüm[38],
Dol gözüm, dolan gözüm.
Gedərəm, qayıtmaram,
Doyunca dolan, gözüm.

265. Dağların sinəsinə,
Qar yağıfdı sinəsinə.
Aləmə sığmaz başım,
Sığıfdı sinəsinə.

266. Bulağın başına sən,
Dibinin daşı sən.
Dağ qoydun, düyün qoydun
Ürəyimin başına.

267. Mən aşiqəm, var könlüm,
Heyva könlüm, nar könlüm.
Gülməhnən işim yox,
Ağlamağa var könlüm.

268. Evləri Xoyda qaldı,
Tikildi, Xoyda qaldı.
Cavan öldüm dünyada,
Gözlərim yolda qaldı.

269. Yol düşdü ha, yol düşdü,
Bıdağ sındı, qol düşdü.
Sən gedən yol bağlandı,
Qeyri yoldan yol düşdü.

270. Qaladan endilər,
Qara don geydilər.
Mən ölmək istəməzdim,
Zülm ilə öldürdülər.

271. Əziziyəm, meşəli yerdə,
Güllü, bənööşəli yerdə.
Məni vıran elə vırdı,
Qaldım döşəli yerdə.

272. Mən aşıx, yuvasızlar,
Quş yoxsa, yuva sızlar.
Elinnən ayrı düşən
Qaşqınnar, yuvasızlar.

273. Hayçı mən, havayçı mən
........................................
Bala, sana güllə atılanda
Oleydim harayçı mən.

[38] 264-265 nömrəli bayatılar Sultan bəyin Azərbaycanı tərk edərkən söylədiyi bayatılardır.

# DASTAN

## NİGARIN İSTANBULA APARILMASI

Xotkar məclis çağırır. Bəyləri, paşaları, sultannarı, xannarı yığır məclisə. Məsləhət, məşvərət eliyir, deyir, neyniyək ki, bu Koroğlunu məhv eliyək. Bir dizi qomrolu durur deyir:

– Xotkar, vallah, sənin Koroğlunu məhv eləmək şansın yoxdu.

Deyir:

– Niyə?

Deyir:

– Nigar xanım sənin qızındı, ondadı. Sən Nigarı gətirtdir, biz onnan sora Koroğluynan hesabımızı çəkək.

Bu da deyir yaxşı. Bir qasidə məktub verir, deyir apar ver Koroğluya. Qasid gəlif çıxır Koroğlunun yanına. Yazıfdı ki, ağa Koroğlu, məlumun olsun ki, Nigar xanımın anası can üsdədi. Deyillər ki, konlu isdiyən bir adamı görmür, ona görə can verə bilmir. Nigar xanımı göndərginən gəlsin anasınnan görüşsün, sora yenə hörmətnən, izzətnən Nigar xanımı yola salax getsin. Gəlif xəbəri Koroğluya çatdırır. Məktubu Koroğluya verəndə Nigar özü deyir ki, bu hiylə olejeh, gəl məni göndərmə. Deyir, yox, mən elin adətin poza bilmərəm. Düşmənik düşmənik, onun eybi yoxdu. Eyvazı, bir də Halaypozanı – ikisin də qoşur Nigar xanıma, deyir:

– Allah sizə yaxşı yol versin. Bir ay sizi gözdüyejem. Bir aydan sora gələrsiz. Lap ölənnən sora dəfn-kəfn eliyin gəlin.

Gedir, ay tamam olur, bunnar gəlmir. Koroğlu durur sazı götürür, əmudu, nizəni, şeşpəri götürür yola düşür. Tək-tənha gedir çıxır İstanbula. İstanbul da dəryanın qırağındadı. Baxır ki, şəhərdə təntənə var, şaddıx var. Soruşur birinnən ki, bu nə şaddıxdı? Deyillər ki, bəs Nigar xanımı gətiriflər, Koroğlunun iki dəlisin də gətiriflər, buyün onun şaddığıdı. Koroğlu da gedir çıxır oraya. Xotkar da tapşırıf ki, aşıx görsəniz çağıtdırın şaddıx eləsin burda. Koroğlunu məclisə gətirillər.

Xotkar deyir:

– Aşıxsan?

Deyir:

– Bəli, aşığam.

– Bəs hardansan?

Deyir:

– Qafın anrı tayınnan.

Deyir:

– Bəs nə yaxşı gəlif çıxmısan? Buyün bizim şad günümüzdü, çalıf-oxujehsən?

Deyif:

– Nolar, çalıf-oxuyum.

Deyif:

– Amma Koroğludan oxujehsən.

Deyir:

– Başına dönüm, qaçağın, quldurun nə meydanı var. Qoy ustaddan oxuyum. Mənnən Koroğlunun nə işi, nə dərdi?

Deyir:

– Yox, Koroğludan oxujehsən.

Deyir:

– Koroğlunun sözdəri qəlizdi, xətrinə dəyər birdən. Deyir, yaxşı, oxuyum.

Xokar, biz səhra qurduyux,
Quzu qapmağ işlərimiz.
Qağan aslanlar yatağı,
Sərt qayalar daşlarımız.

Qurdumuz quduzdu, dalar,
Şahinimiz durna ovlar.
Nəyə çalsan iki bölər,
Kəsgindi qılıncdarımız.

Koroğluyam, alan gəlsin,
Dağı-daşı talan gəlsin,
Çövgən alıf çalan gəlsin,
Meydandadı başdarımız.

Xotkar deyir, nə yaxşı, nə yaxşı. Xotkarın da yanında sədr-əzəm oturuf. Sədr-əzəm əyilir bunun qulağına deyir ki, a kişi, bunun yerişi xoşuma gəlmir. Bu, aşıx döyül. Koroğlu da başa düşür. Qandırmışmışdar qabaxcadan Koroğluya ki, sədr-əzəm yerin altın da biləndi, üsdün də. Deyir:

– Xotkar, başına dönüm. Bir sürü külfətim var. Bə mənə bir xələt vermiyejehsən?

Bu da deyir ki, a kişi, əyər bu Koroğlu olsa, mənnən xələt isdəməz. Bu qarnının davasın eliyir. Deyir, bir də oxu.

Koroğlu deyir:

Sarığı əyri sarıyannar,
Səhər bunnan iqrar olu.
Sarıx başdan gedincə
Baş dağılar, tar-mar olu.

Cübbə-cılqaba geyənnər,
Ağır ölkələr yeyənnər,
Kölgədə mənəm deyənnər,
Meydan başına dar olu.

Nəfi carçı olar, çalar,
Şad açılar, aləm parlar,
Ər hayxırar, köhlən xorlar,
Bir əcaib rüzgar olu.

Koroğlu bunu bilməsə,
Xanıman tərkin qılmasa,
İyid meydanda ölməsə,
Yarasız qalsa, ar olu.

Belə deyəndə deyir:

– Ə, Koroğlu, Koroğlu deyirsən, avaranın biridi. Arvadın əlinnən alıf gətmişik, iki dəlisin də gətmişik. Allah qoysa, bir həfdə, on günnən sora onun özün gətirejəm.

Koroğlu da əsəbi imiş. Xotkar da dənizin qırağında taxtda əyləşib. Elə qəfildən qılıncnan şığıyır Xotkarın üsdünə. Xotkar da suda böyümüş adam, kəlləsi üsdə özünü atır suya. Koroğlu da özünü saxlıya bilmir. Bir lötkə varmış. O lötkənin zəncirin açır, minir lötkəyə. Lötkəni də sürə bilmir. Külək bunu götürür aparır dəryanın ortasına. Koroğlu deyir, sən öl, daa mənim əcəlim gəlif, ölümdü. Yemək yox, işmək yox, at yox, qılınc yox. Mən bu dərya-nın üzündə ajınnan, susuzdan ölejəm. Əzreyil də orda lovğalanajeh ki, sən öl, mən Koroğlunu öldürdüm. Əzreyil, kişisənsə gəl üzbəüz durax. Sən məni öldürsən də, mən də səni ömürrük şikəst elijem.

Orda deyir ki:

Pirim şahi-mərdan Əli Əlbağır,
Mənzilə yetir məntək düşkünü.
Muratdar verici ya qəni sübhan,
Boran, mənim yolumu alma qış günü.

Fələyin ardınca yetim deyərdim,
Məhəbbət gülünü tutum deyərdim,
Yenidən bir saray yapım deyərdim,
Fələh bərbad etdi könlüm köşkünü.

Fələyin bu imiş insana bəxşi,
Günümüz keçirdi hey yaman, yaxşı,
Cavannıxda artır iyidin eşqi,
Qojalanda əysik olur eşq günü.

Koroğlu deyir, ə, mənim başıma daş düşsün. Mən niyə kişi oluram, ə. Mən ölümümdən ötrü şahi-mərdana, ona-buna minnət eliyirəm. Yox, mənim ayağımnan o sözü silin.

Tanımaram sultanımı, xanımı,
Yaş yerinə nə tökürsən qanımı,
Vədəm tamam oldu, gəl, al canımı,
Fələk mənə minnət qoyma beş günü.

Külək hərrəhahərrə, hərrəhahərrə, gətirir dənizin qırağına ya-xınnaşdırır. Görür dağlar görükür. Deyir, Allah sənə şükür, dağlar

görükür. Külək səmtin belə dəyişir, genə gətirir dəryanın ortasına. Quraxlıx, torpax gözə görünmür. Koroğlununku da atdı, qılıncdı. Dəryanın üzündə, deyir, yox, sən öl, ölüm gəlif duruf. Deyir:

İki dərya arasında gəmim var,
Çıxartmadı bir kənara yel məni.
Mənim yüz min möhnətim var, qəmim var
Apardı girdaba saldı sel məni.

Vara-vara dost küyünnən yad oldum,
Zalım fələk haçan sənnən şad oldum?
Vətənimnən, ulusumnan yad oldum,
Yada salmaz qohum-qardaş, el məni

Bahar olcax baxçamız bar gətirməz,
Mənim könlüm qəribliyi götürməz,
İyid Eyvaz ərəb atı gətirməz,
Aşa bilməm qarrı dağlar, yol məni.

Koroğluyam, onu-bunu bilməzəm,
Hər yetən ləkiyə boyun əyməzəm,
Yaradannan qeyri kimsə bilməzəm,
İstər yaxşı, istər yaman bil məni.

Gənə külək bunu hərriyir gətirir dəryanın qırağına çıxarır. Meşədi, meşənin ortasında gedir. Görür bir çoban qoyun otarır. Deyir, çoban qardaş, ajınnan ürəyim çəkilir. Çoban bir quruşqa süd sağır, bir az quru çörəh verir ki, ala ye. Deyir, ölürəm ey, sən nə danışırsan? Bu nədi? Deyir, neynəməliyəm? Deyir, bu erkəyin birin kəsginən. Çaxmax üsuluynan ojax qalıyır. Qoyunu soymax nədi? Təmizdiyir tükün-zadın. Keçirir bir payaya, bişirir. Çoban da yeyir, bu da yeyir. Qutaranda deyir, çoban, başına dönüm, denən görüm bu qoyun kimindi? Deyir:

– Xotkarın.

– Ə, onun evinin yerin, yurdun-yuvasın bilirsən?

Deyir:

– Bilirəm.

Deyir:

– Bəs bilirsən, mana kömək elə.

Deyir:

– Bəs sən kimsən, nəçisən?

Deyir:

– Mən Koroğluyam. Nigar xanımı da gətirif Xotkar sarayda nəzarətdə saxlıyır. Qapısında da qaravulçusu-zadı.

Deyir:

– Çoban, bəs neyniyax?

Deyir:

Mənə icaza ver, gedim sürünü təhfil verim. Əmanətə xəyanət yoxdu.

Koroğlu yediyi erkəyin haqqını ikiqat verir. Çoban deyir bu daşın divində məni gözdə, gejə nə vaxd olsa, gəlif çıxajam. Koroğlu daşın divində gözdüyür. Deyir, çobandı da, yəqin məni allatdı. Elə bu dəm görür çoban gəlir. Deyir, gedirik düz Xotkarın otağına. Deyir, yaxşı. Çoban deyir, sənnən bir xayiş eliyim. Deyir, nədi? Deyir, mən qabaxca evə düşüm. Deyir, nolar, sən qabaxca düş. Gedir elə içəri girir. Qılıncı siyirir deyir, sən öl, Xotkar, başını kəsejəm. Xotkar da baxır ki, yanında dizi qomrolu nər.

Koroğlu deyir:

Namərtdih mənə yaraşmaz,
Mərt libasın geyənəm mən.
Sözümü mərdi-mərdanə
Hər bir yerdə deyənəm mən.

İyid meydanda duranda,
Pelə bığların buranda,
Bu dişdərim quduranda,
Namərd ətin yeyənəm mən.

Koroğluyam, sınmamışam,
Ucalıxdan yenməmişəm,

Dediyimdən dönməmişəm,
Düşmən qəddin əyənəm mən.

Söz tamama yetəndə Koroğlu Xotkara dedi:

– Səni öldürmürəm, Nigarın yerin de.

Xotkar neçə qıfıllı qapı açdı bilmərəm, Koroğlu Nigar xanımı da götürüf Xotkarla birlikdə zindanın qapısına gəldi və əmr elədi ki, dəlilərimi burax.

Koroğlu Nigar xanımı da, dəlilərini də götürüb Çənlibelə gəldi.

# AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

## SARI AŞIQ

### I mətn

Güləbirtin Qaradağlı addı sahəsi oluf, Sarı Aşığ ordandı. Onun butası Yaxşı Maqsutdudandı. Amma Yaxşının qardaşdarı narazı imiş. Qardaşdarı bunu çox incidir. Deyir ki, indi ki belədi, axşam aş bişirərsən. Həmən qardaşın biri gedir təhnədən bir avuc düyü gətirif atır qazanın içinə. Deyir, əyər o hakq aşığıdırsa, axşam bu tamnan yesin. Aşıq da baş götürüf getmişmiş. Deyilənə görə, İsfahanda imiş. Gedif orda bir körühçünün körüyün basırmış. Buna sada gəlir ki, sənin qismətini atıflar Yaxşının qabına, gərəh bu axşam orda olasan. Usdası gələndə deyif ki, mən gedirəm.

Yolnan gedirmiş gumuldana-gumuldana. Görüf daldan bir tapbıltı gəlir. Belə baxır görür boz atdı gəlir. Salaməlöyküm, əlöykümət salam. Ay qardaş, hara gedirsən belə? Deyir ki, neynirsən, dərdimə şərik olan döyülsən. Bunu da Allah göndərif. Bu da Cənabi Cəbrayılmış. Göndərif ki, onu al tərkinə Maqsutdunun qabağında körpüdə düşür. Onnan çox dirəşir. Deyir, sada gəlif, gedəjəm ora. Deyir:

– Min tərkimə, gözu bərk yum mənnən tut. Üş dəfə Allahın məsəli, əla Məhəmmədün və ali Məhəmməd elə. Üçüncü salavatda gözünü aç.

İki çəkir, üçüncü salavatda gözün açır, görür Maqsutdunun körpüsünün gözündədi. Cənabi Cəbrayıl deyir ki, o gələn kimdi? Belə baxıf, dönür görür ki, heş kim yoxdu. Şam vaxdı olanda Yaxşıgilin itdəri hürür. Çıxıllar ki, aşıxdı. Gəlib oturur. O biri qardaşdar inammır, amma biri inanır ki, bu hakq aşığıdı.

Bir gün də Yaxşı Həkəri çayının qırağında paltar yuyurmuş. Sarı Aşıx gəlir bunun yanına. Yaxşı bunu soyundurur. Daa o vaxdı indiki kimi deyildi. Dəyişək yox, bir şey yox. Bunu soyunduruf paltarın yuyur. Sarı Aşıx çayın qırağında olanda Yaxşının qardaşdarı görür ki, suya adam şəkli düşür. Sarı Aşıx orda bir söz deyir.

Mən aşıx, suda neyliyim,
Qəmzəyəm, suda neyliyim?
Məni Yaxşıdan eliyəni
Bu suda neyliyim?

Baxıf görüllər bunun sünnəti yerində bir dəsdə güldü. Onnan sora gəlif deyillər ki, Yaxşı, bu günnən sora sən onun, o sənin.

**II mətn**

Maqsutdu kəndində Yaxşı adında bir qadın oluf, Sarı Aşıx ona vuruluf. Yaxşının da İmam addı əri oluf. Maqsutdudan bəri şor bulağ var. Yaxşı Sarı Aşığı aparır bulağda çimizdirməyə. Yaxşının əri xəbər tutub gəlir ki, Sarı Aşığı öldürə. Sarı Aşığ qorxusunnan qaçıb çıxıf ağaca, özü də lüt oluf. Ordan baxıflar ki, suya bir şikil düşüf, çılpax adamdı, ayıbının yerində gül var. Onnan sora öldürmüyüf, paltarın-zadın geydirif buraxıf.

Bu minvalnan gedif gəlif. Bir gün nətər olursa Yaxışının Sarı Aşığa ajığı tutuf. Duruf Sarı Aşığı vurmağa aşıx qaçıf. Ojağın altdan qarağaj kösövün götürüf tulluyuf bunun dalınca. Kösöv düşüf yerə. Sarı Aşıx deyif ki, Yaxşı, daa mən getdim. Görüm sənin kösövün göyərsin. Deyilənə görə, həmin kösöv bitif qarağac oluf. Son dövürlərə kimi o ağac dururdu.

**III mətn**

Sarı Aşıxnan Yaxşının sözdəri çəpləşif, aşığ ajıx eliyif gedif. Sarı Aşıx, deyilənə görə, İran Qaradağlısınnandı. Bayram oluf, Yaxşı aş bişirirmiş. O vaxdı da düyünü adamın sayına görə tökürdülər. Hər adama bir istəkan düyü tökürmüşdər. Bir istəkan artıx tökəndə qardaşı deyif ki, Yaxşı, onu neynirsən? Deyif ki, bu da aşığın payıdı. Aş dəmə gələndə orda bir dənə şeir deyir. Deyir:

Aşıq, aşın bişdi gəl,
Bişif dəmə düşdü gəl.
Yaxşı günün yoldaşı
Yaman günə düşdü gəl.

Aşı qaba çəkəndə qapı döyülür, aşıx girir içəri.

### IV mətn

Aşıx Yaxşının yanına gedirmiş. Bunun əri Zaman deyif ki, deyirsən bu hakq aşığıdı. Əgər hakq aşığıdırsa, bunu burdan qov getsin, bir də çağır gəlsin. Yaxşı halvanı yuxanın arasına bükür, gətirir buna bir dənə dürmək verir. Deyir, səni görüm get Türtəpəsə. Aşıx gedir ora. Deyir ki,

Mən aşıx bu təpəsdi,
Bu tündü, bu təpəsdi.
Yaxşının dediyi
Bu tündü, bu təpəsdi.

Sora Zaman Yaxşıya deyir ki, əgər hakq aşığıdırsa, çağır, gəlsin. Deyir:

Aşıx, aşın bişdi, gəl.
Bişif yerə düşdü, gəl.
Yaxşının dar majalında
Aşıx yada düşdü, gəl.

Həmən dürmək-halva əlində aşığ girir içəri. Deyir, görürsənmi bu hakq aşığıdı.

### V mətn

O öz sevgilisi Yaxşının dalınca gəlib Güləbirtə çıxmışdı. Yaxşını Sarı Aşığa buta verillər. O yuxuya gedir. Başbilənnər bilir ki, buna buta veriblər. Bu yuxudan ayılannan sora butasının dalınca getməlidi. Orda duranda deyir:

Aşıx dağ arasında,
Duman dağ arasında.
Şam kimi şölə çəkdim
Yandım dağ arasında.

Onnan sora öz butasının dalınca gedir.

### VI mətn

Sarı Aşıx həmişə Yaxşıya yaxşı sözdər deyirmiş, onu tərifliyirmiş. Bir gün Yaxşı deyir ki, Sarı, maa bir qağış elə. Deyir, eliyərəm.

Mən aşıq alapara,
Gey sallan alapara.
Yaxşı bir oğlan doğa,
Onu da hal apara.

**VII mətn**

Çay camışın balasını axıdıf gətirif. Camış da bir haçaya keçmişdi, orda xırıldıyırmış. Yaxşı deyir ki, ona bir bayatı de. Deyir:

Mən aşıx xıra-xıra,
Sel gəlir xıra-xıra.
Bir cannı bir cansızı
Salıbdı xırxaxıra.

**VIII mətn**

Mən aşıx ləngəridi
Sini də ləngəridi.
Çox bilib az danışmax
İgidin ləngəridi.

Bir vaxtlar bir kəndirbaz gəlir kəndə. Kəndirbaz kəndirin üsdündə oynuyur, bir sinini götürür, qoyur ayağının altına, sürüşə-sürüşə kəndirin üsdüynən gedir. Deyillər, bu möcüzədi, bu nədi. Onda Sarı Aşıx deyir ki, möcüzə deyil, o sini də onun ləngəridi.

**IX mətn**

Bunun əsas adı Abdulla olufdu, rəngi sarı olduğuna görə Sarı Aşıx deyiflər. Özü də hakq aşığı olufdu. Gəlir Yaxşıgilin qapısına. Görür Yaxşı qapıdadı, balı töksbdü bir dənə tasa, əliynən sıxır süzmə bal eliyir. Bir tərəfdə də ortayaşdı bir adamdı, baltaynan odun yarır. Əlin qaldırır baltanı elə yavaş gətirir, elə bilginən ki, güjnən o balta ora gəlib çatır. Sarı Aşıx deyir ki,

Mən aşıx, baltasına,
Ayə, yaxşı vur, balta sına.
Yaxşının gül əlləri
Batıbdı bal tasına.

## X mətn

Sarı Aşığ evlənmiyifdi. Bir günnəri kəndin bir mollası varmış, gedir bunun evinə. O vaxdı da ojağı evin küncündə qoyurdular açıx şəkildə, orda yandırırdılar, bajası olurdu, tüsdü ordan çıxırdı. Gedir içəri girir. Görür ki, mollanın da təzə bir uşağı oluf, atıb bunu oynadır. Ojağ da orda yanır çartaçart. Molla deyir:

– Aşıx, mən ölənnən sora mənim yerimdə oğlum qalajaxdı, bəs sənin nəyin qalajax, – deyəndə aşığa həqqi pis təsir eliyir bu söz. Orda bir dənə bayatı deyir. Deyir ki,

Ojax yanır bujaxda,
Oğul oturuf qujaxda.
Fələyin çarxı çönər
Kül də qalmaz ojaxda.

Səhər durullar ki, mollanın evi yanıb küllü-kaf oluf. Nə uşax var, nə molla. Yəni hakq aşığı olan bir adama söz demək, onun qəlbinə toxunmax olmaz. Çünki o hakq aşığıdı, Allah-taaladan ona gəlmiş vergidi.

## XI mətn

Sarı Aşıx gördüyünü deyif ha, nəyisə qurraşdırıf demiyif. Məsələn, bir gün çıxır ki, bir kişi yay vaxdı əlində papax mal axdarır. Deyir, aşıx, mal itirmişəm, bəlkə mal görərsən bu tərəflərdə. Aşıx da gəzirmiş da el-el, oba-oba. Deyir ki, mən aşıx, yalı axtar. Niyə yalı axdar? Çünki gönorta hava isdi olanda heyvanlar çıxıllar yalın başına orda küləkvuranda durullar.

Gedir kəndə, görür ki, bir cavan gəlin iki dənə balaca quçüyə dar bir yalaxda yal verir, quçüklərin başı yalağa yerrəşmir. Axı orda deyif mən aşıx yalı axdar, burda da deyir ki, baş ikidi, yalı axdar.

Sora Yaxşıya rast gəlir. Yaxşını görəndə deyir:

Yaxşı, səni sevirəm,
İnammırsan, gəl axtar.

## XII mətn

Bir gün yolnan gedirmiş. Baxır görür kü, yolun altı, üsdü doludu nərgiznən. Bir az aşağı gəlir, görür kü, bənööşə də var, nərgiz də var. Bir az da kəndə yaxınnaşır, görür cavan oğlannan bir qız söhbətdəşillər. Axı kadınnar o vaxdı başdarına çarşab örtürmüş. Bu qız da aşığı görəndə çarşabı çıxarır keçirir oğlanın üsdünə, ikisi də qalır çarşabın altında. Aşıx deyir ki,

Mən aşıx, nəgizdər,
Bənööşələr, nərgizdər.
Bəsdənmiş bir maya gördüm
Qucağında nər gizdər.

## XIII mətn

Cijim ojağı çox böyük ojaxdı. Ora maral gəlirmiş, sağılannan sora arvad əlin arxasına vururmuş, maralım get, gedirmiş. Orda bir əsaba varmış, çolağmış. Bunun bir qatırı vardı. Qatır, yat deyəndə yatırmış, qatır, dur deyəndə dururmuş. Bir gün hara gedirmişsə, Şah dərəsinin yoxuşunnan yenəndə günorta namazının vaxdı idi. Ordan da balaca su axırdı. Suya sarı qatırı döndərir. Qatır, yat deyir, qatır yatmır. Qatır, yat deyir, qatır yatmır. Gəlir görür ki, beş yüz metr onnan aralı aşıx söykənif bir daşa, can verir. Qatır yatır onun böyründə. Düşür onun namazın qılır. Kəndə xəbər verir, camahat aşığı gətirir kəndə, kümbəzin yanında vəsiyyətinə uyğun olarax onu tərsinə Yaxşını da oandına[39] basdırıllar.

## XIV mətn

Bizdə bir Muradxannı kəndi var, balaca bir kənd idi. Hər üç evdən birində şikəst adam vardı. Orda ağsakqal bir kişi vardı, o deyirdi ki, bala, bu kəndə aşıx qarğış eliyif. Yaxşının da mənim kimi dəli-dolu qardaşı varmış. Bu da ərli qadın, aşıx buna mahnı qoşur, şeir qoşur. Muradxannıdan olannar Yaxşının qardaşına deyirmişdər ki, ə, nətər qardaşsan ki, Aşıx bajına mahnı qoşur. Bu da Aşığı tutuf

[39] oandına – düzünə, qibləsinə

döyürmüş. Yaman adını ona Aşıx qoyuf, əsl adı Yaman deyil. Axırı bir gün deyif, mənim kişiliyim yoxdu ey, bu Allahdan mənə verilmiş butadı. Gənə əl çəkmiyif. Aşığ onda muradxannılara qarğış eliyif ki, məni bu gədəyə niyə döydürtdürürsüz?

## XV mətn

Güləbirt kəndinin qabağında Qiyasdı kəndi oluf, Aşıx Sarı o Qiyasdıdan oluf. Aşıx Sarının sünnəti olmuyub. Sünnəti yerində bir dəsdə gül oluf. Amma Yaxşı bilmiyif ki, bunda hissiyyat yoxdu. Aşıx özü deyif ki, sora demə ki, demədin. Məndə hissiyyat yoxdu. Deyif, yox, səni ürəkdən sevmişəm, hissiyatın yoxdu, yoxdu, gənə maa qəbulsan.

Bir gün Yaxşı bir dəsdə qıznan Həkəri çayının üsdündə paltar yuyurmuş. Bir şeytan gəlir Yaxşının qardaşdarını örgədir ki, siz nə beqeyrət adamlarsız. Sizin bajınıznan bir dərənin gedəsi gəzir (da bilmirlər axı Aşığın heş-zadı yoxdu), bir gün qujağında uşax gələjəh, onda nə cavab verəssiz? Şeytanın piri güjdü olar da. Buların qulağına dolur. Gəlif Sarıya deyillər ki, Sarı, çıx burdan get. Deyir məni Yaxşının dərgahından aralamıyın. Məni öldürsələr də, Yaxşıdan əl çəkən deyiləm. Aşığı bezdirillər. Oların kəndinin üsdündə təpə var. Aşıx çıxır bir gün o təpədə belə bir bayatı çağırır. Deyir ki:

Əzizyəm, ya süzmə,
Ya qatıxdı, ya süzmə.
Üz tuturam hak dərgahına, Aşığı yaradan tarı
Bu Qiyasdıdan yas üzmə.

Belə rəvayət söylüyüllər ki, vəba xəsdəliyi darıyır, Qiyasdıda bir quyrux buluyan qoymur. Qiyasdı camahatı hamısı vəbadan qırılır.

## XVI mətn

Sarı Aşıx yenə səfərdəymiş. Həkəri çayının sahilində bir gəlinin çiynində saxsı səhəng su aparmağa gəldiyini görür. Gəlin səhəngi suya salanda çayın içindəki daşa dəyib sınır. Gəlin səhəngin sındığını görüb çox peşman olur. Bunu görən Aşıx deyir:

Mən aşiqəm, yerim sal,
Kürdü[40] üstə yerim sal.
Sağ saldın, sayrı[41] çıxdı
Aşıq deyir, yeri mis al.

**XVII mətn**

Sarı Aşıx dəyirmannan keçirmiş. Dəyirman daşının üsdündə taxtadan pər olur, o, dənin tökülməsini nizamlıyır. Daş fırrandıxca dəyir ona, yuxarını sirkəliyir, buğda ordan tökülür. Bu mənzərə Aşığa çox maraqlı görünür. Deyir:

Mən aşıq pərdəlidi,
Şüşəsi pərdəlidi.
Nov dərindi, su sərin
Görən deyir, pər dəlidi.

**XVIII mətn**

Sarı Aşıx gedirmiş bir kəndə. Görür burda yas yeri var, camahat ağlıyır. Bu da qoşulur onnara ağlıyır. Keçir o biri kəndə, görür camahat oynuyur, şənnənir. Özü də qoşulur onnara. Orda deyir:

Mən aşıx, Keçibelə,
Kəmərin keçi belə.
Gah ağla, gah gül, aşıq,
Gününü keçi belə.

**XIX mətn**

Sarı Aşıx hakq aşığıymış. Güləbirt kəndində yaşıyırdı. Onun da istədiyi qız Maqsutdu kəndinnən oluf. O kəntdər də qabax-qabağa idilər. Aşığın əsli Qaradağlıdı. Yaxşının hesabına gedif düşüf ora.

Çox adamlar bına şübhə ilə baxırmışdar ki, yox, bu hakq aşığı ola bilməz. Bir dəfə bını sınamağ üçün aparıllar meşiyə odun yığmağa. Gedillər meşiyə odun yığıllar. Odun yığanda birinin baltası

[40] kürdü – taxtadan düzəldilmiş taxt
[41] sayrı – sınıq

sınır. Yaxşı da bilir ki, bu gedif odun yığmağa. Yaxşı aş pişirib eliyif ki, birdən gələllər. Nəysə, bırda balta sınanda aşıx baxır. Bına deyillər ki, əgər hakq aşığısansa, bu hadisəyə bir şey qoş. Deyir ki:

Mən aşığ, balta sına,
Odun sına, balta sına.
Yaxşının ağ əlləri,
Batıfdı bal tasına.

Həqiqətən də, gəlif görüllər ki, Yaxşı tasın içinə əliynən şan balı yığır. Onda deyillər ki, həə, doğurdan da, bu hakq aşığıdı.

**XX mətn**

Sarı Aşığın balaca bir bosdanı vardı. Onu bizə ağsakqallar göstərirdi. Ömrünün axırınadək də Yaxşının yaşadığı kəndə boylana-boylana dünyasın dəyişif.

Sarı Aşıx bir yol hazırraşırmış ki, gedə Yaxşını görə. Onun da Yaman addı bir əri varmış. Acıxları tuturmuş ki, bunun əri ola-ola bu niyə gəlif-gedir? Yaxşı da kahada bal kəsirmiş. Yamanın anası deyif ki, sən çölə çıxma, aşıx soruşsa, deyəjəm yaylaxdadı. Aşıx Yaxşını xəbər alanda deyif:

– Aşıx, çıx ged ey, Yaxşı burda yoxdu, çıxıf gedif yaylağa.

Yaman bəy də bir baltanı axfarradıf qoymuşmuş döşəyin altına ki, aşığı vurajam. Məni camahatın içində biyabır eliyir. Orda onda bir bayatı çağırıf. Deyif ki:

Mən aşıx, bal tasına,
Götür vur, balta sına.
Yaxşının ağ əlləri
Batıfdı bal tasına.

Yamanın anası oğlunu anda verir ki, bala, ant verirəm səni böyük yaradana, o haqq aşığıdı, ona dəymə. Hakq aşığı olmasaydı, nə bilirdi ki, Yaxşı evin içində bal kəsir, ağ əlləri də batıfdı bal tasına.

Bizim kəndin yuxarısında qaya var, onun ayağından bir cığır gedirdi, ona Sarı Aşığın yolu deyirdilər. Ağsakqallardan soruşanda deyirdilər ki, Sarı Aşıx sazı əlində həmin yolnan gedirmiş Qubatdı rayonuna, ordan keçirmiş Uruma, İrana. Gedirmiş həfdəynən qalır-

mış, sora qayıdıf gəlirmiş. Sora aşığın dəyəsi deyilən yer vardı, deyillər ora Sarı Aşığın yaşadığı yerdi.

### XXI mətn

Mən qoja nənəmnən eşitmişəm ki, Sarı Aşıx şıx oluf. Nənəm deyərdi ki, Sarı Aşığın qəbri Cələ piridir. Cələ piri də indiki xərçəng xəstəliyinin piri oluf. Kim ki, gedif oranı – Sarı Aşığın pirini ziyarat eliyirmiş, həmən adam cələ – xərçəng xəstəliyinnən sağalırmış. Oranın torpağınnan məlhəm qayırıf sürtürmüşdər, həmən adam tam sağalırmış. Sarı Aşığın piri okqədər kəramətdiymiş ki, sağalmıyan gedif orda sağalırmış.

### XXII mətn

Cijimli camahatı yaylağa gedirmiş. Orda Molla Cuma adında biri varıymış. Hər cümə axşamı çıxırmış Malik Əjdərdə – qəbirsannıxda dua oxuyurmuş, sora qatırıynan qayıdırmış kəndə. Bir gün orda dua oxuduğu yerdə Sarı Aşıx gəlif çıxır ora. Molla Cuma duasını qutarannan sora aşığa deyir ki, aşıx, nəyə görə dağa getməmisən? Deyir ki, bəs mən bu il öləjəm, sən məni dəfn eliyərsən. Ama harda görsən, orda dəfn eliyərsən. Can verdiyim yerdə basdırarsan. Gələcəyinnən xəbər verirmiş e, aşıx. Molla Cuma aşığa deyir ki, əşi, belə danışma. Aşıx deyir ki, Molla, gəldim ki, saa sözümü deyim. Mən vəsiyyətimi saa elədim. Bir gün yenə Molla Cuma çıxıb, orda duasını oxuyub, oraları dolanırmış. Gəlif ki, qatırına minə, yenə kəndə. Nə qədər eliyir, qatır durmur. Düşür yola. Düz o dağ yoluynan gedir kəndə. Molla Cuma görür ki, durmuyan qatır Şah yolu deyilən yolnan gəldi həmin indiki künbəzin olduğu yerə. Aşıx dirsəhlənif, ama ölmüyüf. Aşıx deyif ki, molla, gəldin? Deyir ki, həə. Deyir, sudan bir əz kənardı, ama saa vəsiyyətimi eləmişəm. Vəfat eliyir. Molla Cuma su daşıyıf gətirir yuyur. Orda da dəfn eliyir aşığı.

### XXIII mətn

Yaxşının iki qardaşı varmış, birinin adı İmanmış. Yaxşıynan Sarı Aşıx tez-tez görüşürmüşdər. Deyiflər, belə qeyrətsizlik olar?

Bu bizim bajımıznan harda gəldi görüşür. Gedillər ki, Sarı Aşığı öldürələr. Yaxşı deyir, siz ona toxunmuyun, o mana heş nə eləmiyif, mana toxunmuyuf. Keşmişdə belə qayda varmış. Qəsd elədiyin adamın sünnətin kəsirmişdər. Qardaşdar bunu soyundurur ki, sünnətin kəssinnər. Baxıllar ki, rəhmətdiyin sünnəti yerində bir topa qızıl gül var, nazik bir qanadın üsdə üş dənə qızıl gül. Üzr isdiyifl ər, bajılarına da icazə veriflər ki, sən onun ol, o da sənin.

**XXIV mətn**

Sarı Aşığın bir tərəfi Zəngilanla bağlıdı. Ona görə ki, Yaxşı da, Günəş də əslən Zəngilandandı, rayonumuzun Məmmədbəyli, Babaylı zonasından. Sarı Aşıq beş yaşında olanda gecə yatıf bir yuxu görüf. Tezdən duruf, görüf anası bir tulux çalxalıyır. Anası deyif, niyə tez durdun? Deyir, ana, yuxu görmüşəm. Deyir, nədi bu yuxu? Deyir, gördüm ki, elat gedir. Bir kişi mənim qolumdan tutdu, dedi ki, bala, o maydan atın üstündə bir qadın oturuf. O qadın hamilədi. O qadının iki qızı olacax. Birinin adın qoyallar Yaxşı, birinin adın Günəş. Yaxşını verdim sənə, butandı. Arvad tuluğu yarımçıx qoyur, tutur oğlunun qolunnan çıxır. Görür ki, bıdı, alnı qaşqa, ayağı səkil maydan at gəlir, iki fərməş yüklənif, üstündə bir hamilə qadındı. Arvat tutur atdan. Deyir ki, bacı, sizin atınız boğazdı, qulunnuyacax yaylaxda. Özü kimi erkəh balası olacaxdı. Sənin də iki qızın olacax. Qızın birinin adın qoyarsız Yaxşı, birin adın qoyarsız Günəş. Yaxşını xudam mənim bu oğluma buta verif. Arvat deyir, sənin dilin qurusun, mən neynirdim iki qızı. Heş mən qız istəmirdim. Sən bir dəfədə mənə iki qız dedin. Bular çıxıf gedillər. Yola düşəndə kişi də arxadan heyvannarın gətirir gəlir. Kişiyə deyir ki, bəs belə iş oldu.

Gedillər, yaylaxda uşaxları olur. Birin adın Yaxşı qoyullar, birin adın Günəş qoyullar. Neçə illər keçir üstünnən. Yaxşı da böyüyür, Aşıx da böyüyür. İndi Aşıx deyir ki, ata, mən söz örgənməh istiyirəm. Böyüyənnən sora Aşıx olmax fikrinə düşür. Atasına deyir ki, mən Aşıx olmax istiyirəm. Deyir, səni qoyaram, filankəsin yanında saz çalmağı örgənərsən. Deyir, yox, mən saz çalmax istəmirəm, mən söz qoşmax istiyirəm. Kimin yanına gedim? Deyir, dağda bir hacı var.

Hacı Muradın yanına göndərərəm. Gedərsən, o saa söz örgədər. Durur bir azca çörəh qoyur torbasına, gedir. Gedir, yolda acır. Oturur çörəyi yeyir, uzanır. Görür bir kişi odun yığır. Öz-özünə deyir:

Əzizim baltasına,
Qorxma, vur, balta sına.

Nə qədər eliyir ikinci beyti deyə bilmir. Gedir yaylağa, Hacı Murada deyir. Deyir, lap yaxşı, saa söz örgədərəm. Mənim buzovlarımı otararsan, hər axşam da mən saa söz örgədərəm. Orda çox qalır. Hacı bunu örgətmir. Acığı tutur buzovları gətirir tökür malın içinə ki, çıxsın gəlsin. Buzovlar başlayır inəhləri əmir. Hacının arvadı heç vaxt inəh sağmazdı. Qəşəh bir arvad olur. Bir tas götürür, başdıyır bunu yalıya-yalıya (içində bal varmış, nə varmış) gəlir inəyin birin də bu sağsın. Hacının arvadını görəndə bu vəcdə gəlir, deyir:

Pərim qaymaq dodağın
Batırıf bal tasına.

Bu gedənnən sora Hacı çağırır bını. Deyir, əyə, qayıt, qayıt bəri. Deyir ki, ta mən özüm örgəndim. Çıxır gedir.

Sora gəlir bu qızın (Yaxşının – top.) dalınca. Bu qıza elçi gəlillər. Yaxşının da dokquz, on yaşı var imiş. Atası deyir ki, bəs qızı verəcəm baldızımın oğluna – Zamana. Arvat deyir, a kişi, bu butadı. Elçilərə deyir ki, sabah axşam həmən oğlan gəldi, qızı verəcəm ona. Gəlməsə, qızı verəcəm sizin oğlunuza. Səhər anası axşamüstü Yaxşıya deyir ki, qazanı qoy ocağ üstünə. Elçilərimiz gələcəh. Yaxşı gəlir ocağı qalayır. Qazanı doldurur suynan, üstünə qoyanda deyir:

Aşıx aşın bişdi gəl,

Arvad aşı vırır dəmə, gedir. Yaxşıya deyir ki, get qazanı qoy yerə, dibi yanar. Gəlir ağlıya-ağlıya qazanı qoyur yerə. Deyir:

Bişdi yerə düşdü gəl.

Qonaxlar gəlir, oturullar məclisdə. Arvat qızına deyir ki, yeməyi get gətir, qonaxlara yeməh verək. Gətirir qazanı hersdi-hersdi qoyur anasının qabağına. Ağzındakı məcmeyi də sürüşür düşür. Çıxır çöldə ağlıyır. Deyir ki:

Yaxşı günümün yoldaşı,
Yaman günüm düşdü gəl.

Yeməyi çəkillər. Gözdüyüllər ki, ev yiyəsi əl atsın bir tikə götürsün, bismillah eləsin desin Allah xeyir versin. Bir cavan oğlan çiynində saz girir içəri. Deyir, qonağ istiyirsiz, Allah qonağı? Deyir, Allaha da qurban olum, qonağa da. Bu olur həmən Sarı Aşıx. Hər şey aydın olur. Zamanın ata-anası duruf gedir. Aşıx qalır burda. Yaxşı da sevinir.

Tezdən durur bir az pal-paltar götürür, gedir çayın qırağına paltarları yusun. Sarı Aşıx çördən-çöpdən yığır, gətirir ocağı qalayır. Söhbət eliyillər. Zaman gəlir, ova getmişdi, çiynində də tüfənk. Gəlir görür ki, Yaxşının yanında bir oğlan oturuf. Bunu çağırır, buna bir şapalax vurur. Zaman gedir. Aşıx aralıda daşın üstündə oturur ağlıyır. Deyir:

Əziziyəm iti belə,
Gəc belə, iti belə,
Zaman məni elə vurdu,
Vurmazdı zaman elə.

Sabahı günü hay düşür ki, Zaman xəstələnib, sancılanıb. Nə qədər dava-dərman eliyillər, mümkün olmur. Zaman ölür. Aşıx baxır ki, Yaxşı ağlıyır. Tutur Yaxşının gözünün yaşını silir. Deyir:

Əzizim Zamanı görüm,
Halım zamanı görüm.
Yaxşının xətirəsinə
Gedim Zamanı görüm.

Gedillər Zamanla görüşüllər. Zaman orda canını tapşırır.

### XXV mətn

Bizdə bir kənd var, Məmmədbəyli kəndi. Həmən Məhəmməd bəy Aşiq Cavanşirlər nəslindəndi. Həmən Məmməd bəyin üç oğlu olufdu. Əbdülsəməd bəy, Cavad bəy, bir də Teymur bəy. Məhəmməd bəy həmişə İranın Qaradağlı vilayətinnən aşıx gətirərmiş, oxudarmış. Sarı Aşıx da Məmmədbəylidə yaşıyırmış həmin dövrdə. O, getmiş imiş öz kəntlərinə – Laçının Güləbirt kəndinə. Gedir ora Nooruz bayramına. İrannan gələn aşıx çalır, oxuyur. Çalıf-oxuyannan sora sazı qoyur yerə, deyir, mənə bu ərazidə bir qənim verin,

mən onnan deyişim. Məhəmməd bəy Aşiq iki at göndərir. Deyir ki, birin aparıf qoyarsan Hacı Muradın qapısında, Muradxannıda. O birisini sürərsən gedərsən Güləbirdə, verərsən Sarı Aşığa, məclis qutarmamış gələr bura. Sarı Aşıx obaşdan gəlir çıxır məclisə. Bunlar görüşür, başdıyır deyişməyə. Qaradağlı Aşıx deyir ki:

Aşıx bənəh bənəhdi,
Halım bənəh bənədi.
Sənnən xəbər alıram,
Araz neçə sənəhdi?

Hamı məhəttəl qalır ki, Sarı Aşıx bunun cavabın verə bilmiyəcəh. Sarı Aşıx bir kruq vurur. Gəlir durur bunu yanında. Deyir:

Aşıx bənəh bənəhdi,
Halım bənəh bənəhdi.
Çağır Araz dayansın,
Ölçüm neçə sənəhdi.

Onnan sora Məhəmməd bəy Aşiq ona bir at verir.

## SARI AŞIĞIN BAYATILARI

Mən aşıx, ağzındayam,
Aləmin ağzındayam.
Əslim qaradağlıdır,
Amma Məzməzəh ağzındayam.

Mən aşıx gəyən yerlər,
Gül boynunu əyən yerlər.
Mənə min nişana qaldı.
Ayağım dəyən yerlər.

Aşıx Qaramannıdı,
Xalın qaramannıdı.
Yaxşının tənəsinnən
Dağda qar amannıdı.

Mən aşıx, Güləbirdə,
Şeh düşüb gülə bir də.
Qurban olum o yara
Ağlıya, gülə bir də.
= Kaş quş oluf uçaydım
Düşəydim Güləbirdə.

Aşıx burda gərək,
Xalıx burda gərək.
Qoymaxla nə ağıl
Ağıl binada gərək.

Mən aşıx buğda gördüm,
Buğdanı dığda gördüm.
Gözəli sənətçidə
İyidi tuğda gördüm.

Məm aşıx dürüstdü adın,
Ləbinnən dürüstdü adın.
Aləmi geşt eylədim,
Görmədim dür ustadın.

Aşığam Sadağa ver,
Hirsinə qadağa ver.
Burdan salamat keşsən
Bir ye, beş sadağa ver.

Mən aşıx, ha Kərim,
Yetiş dada, ha Kərim.
Gen dünya sənin olsun,
Mənə bəsdi Həkərim.

Mən aşiqəm, Tərtərə,
Kür qarışar Tərtərə.

Üz qoyum üzün üsdə
Qoy qarışsın tər tərə.

Mən aşığam, yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Camalım bayram ayı
Baxışarlar yüz yerdən.

Sarı Aşığın Yaxşıya dediyi bayatı:

Mən aşıx, məmə qana,
Təbrizə, Məməqana.
Kəs başım sinən üsdə
Qoy batsın məmə qana.

## AŞIQ ABBAS

Aşıq Abbas Laçın rayonunun Piçənis kəndində anadan olub. Atası nağara ustası olub və onu özüylə tez-tez toylara aparardı. Hətta bir dəfə toyda bir qadın Alıdan bir hava çalmasını xahiş edir, amma havanın adını düzgün demədiyindən atası onun hansı havanı istədiyi dəqiq müəyyən edə bilmir. Onda Aşıq Abbas atasının köməyinə çatır və qadından bir dəfə o tərəfə, bir dəfə də bu tərəfə getməsini xahiş edir. Qadının yerişinə görə onun hansı havanı istədiyini müəyyən edir.

Aşıq Abbas aşıqlıqdan başqa həm də dülgərliklə məşğul olurdu. Meşədə yeri vardı, orda təknə-tabaq düzəldib ondan gələn gəlirlə ailəsini dolandırırdı. Vəfat etdiyi tarix məlum deyil, amma 90 yaşlarında dünyasını dəyişdiyi deyilir və Piçənis kəndində dəfn olunub.

### I mətn

Günnərin bir günü Sultan bəy on dənə toğlunu verir buna, deyir, bunu apar ver Şuşada filankəsə. Fikirrəşir ki, arada bu əsir-yesir oluf. Bunu bu bəydən o bəyə apar, bu dosdan o dosda apar. Bəs mənim qazancım nədi? Heyvanın birin kəsir, doyunca yeyir,

dokquzun da qatıf qabağına gəlir Şuşaya. Sultan bəy də buna bir kağız vermişimiş. Kağızı gətirif verir həmin adama. Açıf görür ki, yazıf Sultan bəy ki, sənə on dənə toxumlux quzu göndərmişəm. Bular deyir ki, ay aşıx, axı dokquzdu. Deyir:

– Vallah ondu.

O deyir dokquzdu, bu deyir ondu. Deyir:

– Neyniyək indi?

Deyir ki, on adam çağır, hərəsi birin tutsun. On olmasa, sən deyəndi. On adam çağırır. Hərə birin tutur, biri boş qalır. Deyir, gördün, biri boş qaldı. Deyir, fərasəti oleydi, o da tutaydı.

**II mətn**

Aşığ Abbas çox hazırcavab bir adam olur. Dağ bəyləriynən aran bəylərinin əlaqəsi olurmuş da. Dağın da balı, heyvanı, meyvəsi yaxşı olur, bir-birinə pay göndərirmişdər. Bir gün Sultan bəy deyir ki, Abbas, sənə bir əzyət verəjəm. Aşığ Abbasnan aran bəylərinə on dənə quzu, bir az da pay göndərir. Bu quzuları qatır qabağına meşəynən gətirir. Yolda Qırxqız deyilən yerdən keçəndə həmən Ballıca meşəsində görür ki, ajıyıf. Bir az meşədən mer-meyvədən yığır, görür ki, yox ey, dayanammıjax. Öz-özünə fikirrəşir ki, ey dadi-bidad, qabağımda on dənə quzu var, mən niyə aj gedirəm? Yuxarıdan Allah baxır və hamı bilir ki, mən ajam. Gətirir birin kəsir, qəşəh kabab eliyib yeyir. Bunu yolnan yeyə-yeyə çox rahat gəlir, quzuları da gətirir. Bəyin adamıdı, həm də Abbas özü də hörmətdi adam oluf. Bəyin adamları bunu qarşılıyıllar, gəlif oturur. Sultan bəy buna bir məktub vermişmiş ki, bunu verərsən bəyə. Abbas da bilmirmiş məktubda nə yazılıf. Bəy məktubu oxuyanda görür ki, Sultan bəy salamdan-kalamdan sora yazır ki, sənə on dənə quzu göndərmişəm. Gör sağ-salamat gətirə bildimi. Oxuyanda deyir:

– Abbas, bəs sənə on dənə quzu veriflər, sən bura dokquz dənə gətirmisən.

Deyir:

– Bəy, dokquzdusa dokquzdu, ondusa ondu.

Bəy öz-özünə fikirrəşir ki, bu dağ adamıdı da, yəqin başa düşmür. Qoy bunu rahatçılıxnan başa salım. Öz adamlarına deyir ki, on nəfər adam toplayın bura. On dənə adam topalayır. Deyir:

– Abbas, bu adamın sayı neçədi?

Deyir:

– Ondu.

Bu adamlara deyir ki, hərəniz bir quzu tutun. Axı on adamdı, dokquz da quzu. Birinə çatmır. Deyir ki, Abbas, gördün, birinə çatmadı. Deyir:

– Bəy, elə danışırsan ki? Fərasəti oleydi o da birin tutardı.

### III mətn

Bir günnəri bu Seyid Mirəziz deyir ki, Paşa, məni keçi dööləti basıfdı. Yüzə yaxın keçim var, qalmışam keçinin əlində. Amma qışda saxlamağa otum-əncərim yoxdu. Bir adam tap, keçini verim yaza kimi saxlasın. Paşa bəy Aşığ Abbası çağırır, deyir:

– Aşıq, apar bu keçiləri. Bilmirəm, neynirsən elə, yaza kimi bu keçirlərdən biri də qalmasın. Özün də cavabın verərsən.

Deyir:

– Baş üsdə.

Başdıyır gündə keçinin birin kəsir. Bayram ağzı gələndə seyid deyir ki, gedim görüm keçilər nə yerdədi, nə vəzyətdədi. Aşığ Abbas keçiləri kəsif yeyif, bircə dənə keçi qalıf. Gələndə deyir ki, aşıx, de görək keçilər nətərdi?

Deyir:

– Seyid, nətər olajaxdı, keçini mərgi xəsdəliyi tutdu, hamısı qırıldı. Bəyirir, bəyirir, onnan da ölür, əti də yeməli olmur. Tək bircə dənəsi qalıfdı, o da qapıda.

Namazın vaxdı olur. Mirəziz başdıyır namaz qılmağa. Namaz qılanda Aşığ Abbas uşaxları örgədir ki, keçinin qulağını dişdiyin. Uşaxlar keçinin qulağını dişdiyəndə keçi başdıyır bəyirməyə. Bəyirir, bəyirir. Seyid Mirəziz də namazın üsdündədi. Aşığ Abbas əliynən belə eliyir ki, neyniyim. Seyid Mirəsiz də əlin boğazına çəkir,

işarə verir ki, başın kəsin. Nəysə, keçinin başını kəsir. Ödünnən də bir az bunun ətinə vurur, gətirif qoyur seyidin qabağına.

– Ə, bir az dilinə vur, gör yeməlidi.

Dilinə vurur, görür zəhər dadır. Deyir:

– Ə, bunnan uşağa-zada vermə, yaman pisdi.

Onnan da yüz keçinin dalınnan dəyir.

## IV mətn

Paşa bəy rəhmətdik çox cənnətməkan kişi oluf. Qayınatası Seyid Mirəziz ağanın öz çörəyi boğazınnan keçmirmiş. Bir gün deyir ki, onun öz heyvanınnan birin kəsin, görək yeyə bilirmi? Seyid deyir:

– Ə, sən öl, bu mənim qırılmışımın ətinnəndi, mənim boğazımdan keşmədi.

Bir gün çağırır Abbası, deyir ki, bunun yüz dənə dıvırı var, apar ye, sən qutararsan, biz qutarammarıx onun axırınnan. Amma sən öl, onun biri qayıdıf gəlsə, uşaxlara baş gönünü duzdadajam. Burda həm qorxu var, həm də Aşığ Abbas söznən çörək yeyən adamdı. Gedir gətirir dıvırı. Günə birin kəsir. On beş külfətdi bular. Yeyir, qutarana majal yeddi heyvan qalır. Yeddisi qalanda deyir:

– Neyniyəh?

Deyir:

– Ə, birtər elə.

Hay salır ki, həji, dıvır qırılır, xəsdəlik düşüf. Deyir ki, nədi onun xəsdəliyi?

Deyir:

– Onun xəsdəliyi irtməyinnəndi. Bəyirir, bəyirir, bəyirir, cannan olur.

Namazdan axı fərrux olmağ olmaz. Bu da seyid adamdı. Namaz vaxdı uşağın birin örgədir ki, gedin pəyədə dıvırın qulağın salın ağzınıza dişdəyin, bəyirsin. İndi o da fərrux olammır axı. Deyir, allahun əkbər, allah. Yanı haram eləmə də, başın kəs. Aşığ Abbas irtməyi salır ödün içinə. Öd axı acı olur. Onu bulalıyır, şişdə bir az bişirir. Seyid əti dodağına gətirir, deyir:

– Oy Abbas, bunu basdırın.

Deyir:

– Çoxdan basdırmışıx.

Paşa bəy deyir ki, elə elə onun dərisini də gətirməsin, seyid tamahgirdi.

Deyir:

– Onu mən neyniyim bəs?

Deyir:

– Sən yolunu tapajaxsan, sana nə var.

Seyid bir qatır gətirmişdi ki, dərini verə Şuşada dabbağa. Aşığ Abbas bir dənə çöp qırır. Qatır da bəd heyvandı. Quyruğunun altına çöpü soxanda qatır qalxır düşür gava. Qatırın beli qırılır. Deyir:

– Abbas, elə o dəri də halal-xoşun olsun.

Abbas yüz dıvırı belə yeyir. Paşa bəy ona həm də ənam verir. Deyir:

– Bu işdə nə seyid mənim üsdümə gəldi, nə şikayətçi oldu, nə də qəzəbləndi, sənə halaldı. Bu da sənin ənamın.

**V mətn**

Olar arasında bəy söhbəti olmuyuf. Abbas ona Paşa deyərmiş, o da Aşıx deyərmiş. Sazı qoltuğunda gəzif. Onun ehtiyacını bəy ödüyüf. Sifdəsi nağaraynan məşğul oluf. Əsas söz usdası oluf. Özü də çox kasıb yaşıyıf.

Günnərin bir günü el dağa gedəndə qoşuluf dağa gedif. Üç ayı fırranıf, o paşa çağırıf, o mülkədar çağırıf günnərin keçirirmiş. Kefin eliyir, gələndə arvad ona yaxşı baxmır. Deyir:

– Arvad, niyə heylə eliyirsən? Getdim aşıxlıx cəhənnəm, dəlləhliyi də örgənmişəm. (Aşığ Abbasın dokquz oğlu olub.) Oğlumun bekarası Mütəllimdi. Bu payız onun da sünnətin eliyəjəm, döölət töküləjəh, var töküləjəh.

Könlün alır da. Arvad allatmax hasant bir şeydi, o ola Aşığ Abbas ola. Bunun könlün alır. Axşam yatır, səhər durur. Deyir, uşaxlarımın bekarası Mütəllimdi. Sən öl, Mütəllimi sünnət eliyəjəm. Ölər, cəhənnəmə ölsün. Qalar, dəlləhliyi örgənnəm. Demək,

öz oğlunun üsdə. Arvadın adı Ələm imiş, rəhmətdik ona Aləm deyirmiş. Aləm deyir:

–Sənin xeyrin mana lazım deyil. Birdən öldü?

Deyir:

– Az öləjəh, dokquz uşağım var.

**VI mətn**

Bizdə iki Abbas oluf. Biri Molla Abbas oluf, biri Aşığ Abbas. Hər ikisi gözəl kişilər oluf. Aşıx Abbas saz qoltuğunda getdiyi yerdə Molla Abbas çıxır qabağına. Deyir:

– Abbas, xeyirdimi, haraya gedirsən?

Deyir:

– Ə, şər olsa səni aparallar da. Xeyirdi ki, məni aparıllar. Bunu sən mənnən nə üçün soruşursan?

**VII mətn**

Şuşa bəyləri Laçınnan Qarabağın ortasında idi. Həmişə də canfəşannıx eliyirmişdər ki, hər iki tərəflə qohum olsunnar.

Bir gün Şuşa bəyləri Paşa bəyi qonax çağırır. Qonax çağıranda Aşığ Abbas deyir ki, gedərəm birdən məni ilişdirəllər. Canınçün getmərəm. Paşa bəy deyir:

– Niyə?

Deyir:

– Ə, sən atı minif gedəjəhsən, mən piyada gedim?

Deyir:

– Abbas, sən öl, saa bir at verəjəm.

Deyir:

– Ə, sora tutuf əlimnən alajaxsan.

Deyir:

– Abbas, sən öl almıyajam, yəhəri də almıyajam. O olsun ki, mənnən get.

Göndərir hamamladır, kostyumun-zadın geyindirir. Hər bəyin gədəsi olarmış başmağın çöyürsün, aftafəsin götsün.

Aşığ Abbas deyir ki, Paşa bəy, olar içəri girəndə ayağa durma! Paşa bəydə o ədəb var ki, ayağa durmuya. Deyir:

– Niyə?

Deyir:

– Səni yannarıynan vurajaxlar, gəlif mənim tuşumda durajaxsan.

Furqonnar gəldi, hay düşdü ki, bəylər gəldi. Qapı açılanda Paşa bəy özünnən aslı olmuyarax ayağa durdu ki, görüşsün. Bəylər bir-birinə him eliyir, bunu yannıyıllar, gəlif düşür Aşığ Abbasın yanına. Qayıdır Abbasın üzünə baxanda deyir:

– Vejinə də alma. Mən dedim durma, durmusan. O sənin tərbiyəndi.

Oturur. Başdıyıllar söz atmağa. Ordan, burdan. Yeyillər, içillər, dəmlənəndə deyillər:

– Ay Paşa bəy, ay Paşa bəy! Bəs deyillər, ayı kürdün əmisi oğludu.

Deyir ki, ə, mənim bu gədəm cavab versin. Aşığ Abbas deyir:

– Hə, o bizim əmimiz oğludu. Özü də çox ləyaxlı, mərifətdidi. Utancaxdı, cəmyətə, camahat arasına çıxmır. Elə olur altı aynan gedir, üzün də görmürük.

Biri deyir, sən öl, bunun altında nəysə var. Deyillər, söhbəti elə burda bağlıyax. Şuşa da dağın başındadı da. Suyu Xəlfəli çayınnan gəlir, odunu meşədən gəlir. Səhər iki-üç ulağnan gedillər su gətirməyə. Paşa bəyə deyir, bu ulax yiyəsinə bir az qızıl ver. Deyir:

– Əşi, bizi qırdırarsan, sən allah, otur yerində.

Deyir:

– Yox.

Abbas ulax yiyəsinə deyif:

– Başına dönüm, böyün nə qazanajaxsan?

Deyir:

– Nə qazanajam ey, qəpik-quruş.

Aşığ Abbas çıxardır ona beşdik verir ki, ulağa iki kilo artıx arpa verərsən, biz İsa bulağına gedəjeyih. Bir yük də kül yüklüyüf aparıf ora tökürsən. Sənin gözün bizdə olsun. Biz ora çatanda sən

palanı alırsan, ulağı buraxırsan ora. Bir beşdik qızıl da orda verəjəm. Bular yol gözdamaxda olsun. İki kilo artıx arpa yemiş ulağ ola. Anqırır özünü salır külə, ağnıyır. Deyir:

– Ay Paşa bəy, ay Paşa bəy.

Deyir:

– Dəli, nədi?

Deyir:

– Əmoğlu belə olar ey. Görürsən pudraynan, ətirnən buları qəbul eliyir. Bizimki də gedir girir dağın-daşın dalına. Heş gəlmir ki, görək nə var, nə yox.

**VIII mətn**

Qətl sındırırmışdar. Ələm ağacın quruf oxuyurdular ki, bura Bədəşdi Kərbəladı, bura atdı gələn atsız gedər. Aşığ Abbas da Kərbalanın müsəlləh buyuranı idi. Bura Bədəşdi Kərbəladı deyəndə deyir, mənim dilim lal olar, qulaxlarım kar olar. Mən bura necə Bədəşdi Kərbəla deyim? Vəliynən Salman hər gejə oğurruğ on gamış gətirir.

**IX mətn**

Bir gün Uğurru bəy deyir ki, Sultan, mənə altı öküz göndər, bir kotan əkdirəjəm. Amma nə ağ olsun, nə qara olsun, nə boz olsun, nə sarı olsun. Yeddi rəngin yeddisin də sayır ki, bunun heş biri onda olmasın. Sultan Aşığ Abbasa deyir ki, nətər eliyək? Deyir əşi, yaz ki, hazırdı, gəl apar. Yazıf ki, hazırdı gəl, amma nə cuma günü, nə duz günü, nə tək günü, bu yeddi günün heş birində gəlmə, qalan günü gəl apar. Axı bu yeddi günnən başqa həfdənin günü yoxdu.

**X mətn**

Aşığ Abbası Şuşaya iclasa çağırıllar. Aşığ Abbas da bəsdəboy adammış. Qubernator baxır deyir ki, bir adam yoxuydu Sultan bəy göndərə buraya? O da deyir ki, vallah, adam varıydı. Adamı adam yanına göndərdilər, məni də sənin yanaa göndərdilər.

### XI mətn

Alının iki oğlu oluf. Böyüyün adı İsgəndər oluf. Abbas o vaxdı kiçik imiş, hər sözə yaxın imiş, İsgəndər bir az tərs imiş. Bizdə bulax var, o bulağın üsdündə onnarın yeri vardı, orda əkin əkirmişdər. Atası buları tezdən göndərir taxıl biçmağa. Şeh vaxdı taxıl yaxşı biçilir axı. Uşaxları göndərir taxıl biçmağa, özü də çörək-zad götürə gələ. Bir az gej gəlir. Abbas atasını görən kimi bardağı götürüf yenir bulaxdan su doldura gətirə. Bu da çağırır:

– Ay İsgəndər, gəl dana, çörək bir az gec hazır oldu, ona görə ləngidim.

Kişi bilif ki, bu küsəyəndi, noqsanın boynuna alır. Nə qədər çağırır, İsgəndər gəlmir, başın salır aşağı biçin biçir. Bir də çağıranda deyir:

– Dərd İsgəndər, çor İsgəndər, gəlmirəm da.

O da qayıdıf deyif ki, səni görüm qujağına oğul sidiyi dəyməsin. Ona görə onun oğul evladı olmuyuf, ikicə qızı oluf.

Abbasa da deyif ki, yeddi oğul bir qız evladın olsun. Bu da belə oluf ki, görüf arvad nəysə narahatdı. Deyif, nolufdu? Arvadı deyif, tütünün qutarıfdı. Deyif, elə elə Abbas onu bilməsin. Abbas bunu eşidir evdən çıxır, gəlir Şuşa tərəfə. Yanında tüfənk götürür. Yolda qırqovul vurur. Qırqovulu satır, onun puluna tütün alır. Tütünü gətirif verəndə atası deyif, oğul, səni görüm yeddi oğlun olsun, bircə dənə qızın. Abbasın da dokquz oğlu bir qızı oluf. Bir oğlu cavan ikən ölüf, səkgiz oğlu qalıf.

### XII mətn

Bular (Aşıq Abbasın nəsli – top.) Gümüşdü Alının nəslinnəndi. Vəznəsi, çuxası, xənçəli gümüşdən bağlanmışmış, ona görə Gümüşdü Alı deyirmişdər. Qardaşı Alpənah bir də bacıları ilə gəliflər Piçənisə. Bular gedif toy aparırmışdar. O vaxdı bütün toyları yaylaxda eliyirmişdər. Fərraşdı Aşıx Baxşəli kamança çalır, Aşıq Abbas nağara çalandı, Dəli dağa toya gedillər. Orda qadın zakaz eliyif, mahnının adını düz demiyif. Deyif, ağa, bozatdı çal. Elə bir vəziyyət oluf ki, tayfalar arasında giley-güzar varmış. Olar elə biliflər ki, bular

aşıxları örgədif çalmasın. Abbas deyif, bir ayna get, bir bayana gəl, görüm sən nə mahnı isdiyirsən? Qadının hərəkətinnən bilif o nə mahnı isdiyir. Oynayan kimi deyif, Ağabala Rizayini isdiyir.

**XIII mətn**

Aşığ Abbas nağara çalıf. Ana babası öləndə uşaxları ağlıyıf ki, belə də dədə olar, belə də dədə olar? Yəni niyə rəhmətə getdi. Deyif, bala, dədə belə olar da. Qırx gündü varını bölüf qutarammırsız. Amma bizə dədəmizdən bir dənə cır nağara qalıf.

**XIV mətn**

İmkannı bir şəxs oluf. Bunun ilxısı, qoyunu, malı oluf. Özü də Sultan bəynən təpə-təpəyə gələn adam oluf. Bu ölmüşümüş, bunun övlatdarı "Allah, belə də dədə olarmı, belə də dədə olarmı" deyif ağlıyırmış. Aşığ Abbasın oğlu Mütəllim deyif ki, dədə belə olar da. Qoyunu var, malı var, ilxısı var, böləjehsiz. Mənim dədəmin səkgiz oğlu var, bir nağarası. O nağaranın üsdündə biz bir-birimizi qırajeyih.

**XV mətn**

Atası deyif ki, tənbəkim qutarıf. Başıma hava gələr bala, gedif onu gətirməsən. Abbas duruf tezdən evə də demədən Şuşaya gedif. Bizdən Şuşaya piyada yol heç olmasa qırx kilometirdi. Gedif qayıtmax həştad kilometirdi. Səhər tezdən çıxıf. Alatoran olanda Mıxtökəni aşır Şuşa üzə. Bir fır kəkliyi qalxır ayağının altınnan. Dayandoldurumnan vurur. Qismətə bax, kəklik düşür. Görür halal quşdu, amma heç adın bilmir. Gəlif bu Şuşaya çatanda tacirrər bazarbaşında duruf söhbət eliyirmişdər. Görüllər ki, bir dənə dağlı balası gəlir. Deyillər, gəl görək, a dağlı balası, nəyin var, nədi bu belə? Bular da yaşdı, təcrübəli adamlardı. Baxan kimi deyillər, ə, bu fır kəkliyidi, bunu hər adam görə bilməz, hər adam ata bilməz. Biri deyir, tükü tilsimlidi, biri deyir, uğur gətirir. O qədər buna tərif vuruflar. Deyillər, bunu satmazsan? Abbas deyif ki, əşi, ayıb döyülmü, satmax nədi, al bağışdıyım sənə. Hamı bir-birinin üzünə baxıf ki, bunu bağışdıyallar? Deyif, doğurdan deyirsən? Deyif, hə, verdim sənə, ha-

lal-xoşun olsun. İsdiyif yön ala, deyif, bala, dayan. Belə pay olmaz. Ə, bu kişiyə siftə verin hamınız. Kimin qulpunnan nə çıxıfsa, veriflər buna. İsdiyif ki, gedə, həmin şəxs deyif, hara gedirsən, hələ əsası durur. Əlin salıf çuxasın civinə, deyif, əli bura gətir. Bu da bir əlin irəli uzadanda deyif, yox ey, iki əli gətir. Gümüş pulu tökür bunun ovcuna. And içir ki, hesablıyıf bir öküzün pulu vardı orda.

Biri deyif ki, qismətə bax ey. Bir atım barıta gör nə qazandı, camahat bunu bir ildə qazanammır. Bu qalalı deyif ki, niyə heylə deyirsiz? Bu adam o boyda ərazidən keçif gəlif. Ağır tüfənk çiynində gəlif, orda vuruf onu kəsif, üsdünə qan axa-axa, tər davanınnan çıxa-çıxa gətirif, burda da halallıxnan bağışdıyır bizə. Deyif, siz bunun qismətin deyirsiz, görün mənim qismətim necə hasat doğufdu. Məndə heç belə fərasət də yoxuydu. Bir az onnan-bunnan nisyə mal aldım. Apardım satdım, xırda-xırda yedim, qazanç gətirəmmədim. Bir gün borşdar gəldi kəsdi qapını. Bir gün belə, iki gün belə, qaçıf girmişdim bir xəndəyə. Arvadıma söyüllər, dalaşıllar, qışqırıllar, mən də laçın qovmuş sona kimi sıxılmışam ora. Bir də gördüm nəsə zincir görsənir. Belə-belə eşdim, gördüm bir küpə var. Ağzını açan kimi gördüm içi dolu qızıldı. Axşamı saldım, küpləri çıxartdım gördüm yeddi küpə qızıldı. Bax, o daxma orda durur, həyətimə salmışam. Orda imarət tikmişəm, amma o daxmama dəymirəm. Allah adama verəndə verir.

Nəysə, Abbas tənbəkini alıf qayıdıf. Alı Abbasın səsin eşidif deyif, oğul, tənbəki almağa getmədin? Deyif, dədə, getdim də, gəldim də. Deyif, oğul, səni görüm dizində ağ tük bitsin. Səni dokquz oğulnan birlikdə süfrəyə əl uzat. Abbasın dokquz oğlu oluf.

### XVI mətn

Bir gün Paşa bəy bulara gəlir. Deyif, Abbas, mən ölüm bu uşaxlara yemək ver, olar nətər yemək yeyir mən ona baxım. Deyir, yaxşı. Ləyən varmış, ərişdəsini, umacını tökür, hərəsinə bir taxta qaşıx verir. Bular takqatak yeyəndə görüf ki, biri zəyif yeyir. Məşədini gösdərif deyir ki, Abbas, bu uşax zəyif yeyir, bunu ayır.

Nəysə, gedillər ot çalmağa. Hamı girir laya, Məşədi axırda girir. Hamısın bir-bir laydan çıxardır. O vaxdı layın başına qızıl onnux qoyarmışdar. Elə bil burdan gedif oranı fırrıyıf gətirif kim birinci dərgazı oraya sancsa, qırmızı onnuğ onundu. Məşədi hamısın laydan çıxardır, pulu götürür. Paşa bəy deyif, bu kimdi? Deyillər, Abbasın oğlu. Deyir, Abbasın hansı oğlu? Abbas deyir, o gün sən mana dedin ey ən zəyifi, həmən oğlandı. Gətirir orda ona bir dənə cöngə verir, bir dənə də öküz kəsif uşaxlara yedirdir.

## XVII mətn

Ayı bir kişini basmışımış. Deyif ki, bunu kim sağalda? Paşa bəy Xosrova deyif, sən sağalt. Bu da deyif ki, bunun üçün iki ay orda qalmax lazımdı. Mən bacarmaram, onu sağaltsa, ancax Aşığ Abbas sağalda. Gedin danışın, hakq-hesabın deyin, gəlsin sağaltsın. (Paşa bəy həmişə Abbasın yaşayışı üçün şərait yaradıf. Allah ona rəhmət eləsin). Rəhmətdik gedir, buna dava-dərman eliyir, bu sağalır. Deyir ki, sən get, hakqını göndərəjeyih. Ay bu qədər verəjeyih. Ən hörmətdi, ən bahalı pay qulunnu maydanmış o vaxtları. Saa ikisini verəjeyih.

Nəysə, bunu sağaldır, ayağa qaldırır, gəlir. İki ay gözdüyür gəlmir, üç ay gözdüyür gəlmir. Adam göndərir ki, mənim hakqımı niyə göndərmədiniz? Bular da vermir, fırradıllar. Onda rəhmətdik deyir:

– Səni ayı yeməknən tarixə salmadı, amma mən salaram.

Yazır ki,

Heyif mənim yaxşılığım,
Eylədim oğraş Qasıma.
Əslən huy, zatən qəzər,
Ayıya yoldaş Qasıma.

## XVIII mətn

Bunun Şuşada bir dənə tacir tanışı olur. Həmin tacir bulara gəlir. Abbas heyvan kəsir, çörək yeyir, münasibət qurullar. Bu hadisədən sora Abbas bir neçə dəfə Qalaya gedir, tanışı bunu heş evə də dəvət eləmir. Deyif, məni tanımadın? Deyif, yox, tanımadım. Abbas çıxıf gəlir.

Bu tanışı bir gün gəlir Abbasgilə. Xoş-beş, on beş. Xoş gəlmisən, beş gəmisən. O söhbətin heç adın çəkmir. Abbas da xəsil[42] əkmişimiş. Bu da iki qatırnan gəlmişimiş. Abbas deyir, bura ayı dadanıf, çarəsizdi. Bu da deyif ki, silahın var? Deyif, hə. Deyir, onu bu gejə qardaşın endirəjəh. Qatır da qaraltı görəndə donuz kimi xortulduyur. Bu kişi ikisin də atır. Gəlif deyir, canın üçün, vurmuşam ikisin də. Deyif, ola bilməz. Nə tez atdın? Səhər gediflər ki, öz qatırların vuruf. Abbas deyif, sən dəlisən, nəsən? Nə həyatinə gələn qonağı tanımırsan, nə kövşənə girən qatırı tanımırsan.

## XIX mətn

Haçan axar bozbulannıx sellərin,
Ağır obaların, uzax ellərin,
Qüdrətdən bağların, əlvan otaxların,
......................................yadıma düşdü.

Abbas bu şeiri oxuyanda Paşa bəy də deyif, Abbas, öz aramızdı, ikimiz də oranı gəzmişik. Orda qüdrətdən bağ nə gəzir? Bəziyirsən, yaxşı eliyirsən, yerin-yurdundu. Orda əlvan otax vardı? Abbas deyir ki, bəy, doğurdan yoxuydu? Paşa bəy deyir, ə, qara dam yoxuydu orda, filankəsin damı idi. Əlvan otax harda idi? Deyir, mən onu demirəm ki. Yadındadı, ordan gələndə Qırxqızın meydan üzündə biz bir kahada qaldıx. O kahanın adı nə idi?

Dedi:

– Allah evi.

– Qar yağdımı çölə gejə. İçəri bir damcı düşmədi ki? Üşümədik ki? Orda ləmpə qoymağa yer vardı, filan yer vardı, filan yer vardı. Nə dədəm düzəldif, nə nənəm düzəldif, qüdrətdən yaranıf da. Onu deyirəm da. Keçək o biri tərəfə. Qarağat yedik, morux yedik, əzgil yedik, alma yedik. Yadındadı, getdin filan yerdə tirəki[43] yedin. Mən onu nəzərdə tuturam da.

---

[42] Xəsil – Payızda əkilmiş taxıl. Qışda cücərəndə onu qoyuna otarırlar.
[43] Əkin vaxdı tirəyə armud əkirdilər ki, işləyən adam onun meyvəsindən yesin. Tirəki armud ona deyilir.

## XX mətn

Bir həci gəlif Suvada. Dini söhbətdər eliyirmiş ki, belə olajax, camahata belə can yandırajeyih. Abbas da deyif ki, əgər Ballı Məmməd ağzına bal dürməyi vuranda dili dolaşmasa, sən deyənə inanarıx. Abbas da ayı dərisinnən kürk geymişmiş. Bu söhbət gedif ona çatanda deyiflər, bu sözü sənə kim dedi? Deyir, orda bir qıllı kişi vardı, o dedi. Abbası çağırıflar ora. Abbas rəhmətdih gedif ora. Kürkü çıxardıf deyif, mənim qılım bu kürkdədi. Amma sənin qolunun güzəmi əlin üsdünə düşür, qıllı sənsən. Orda deyir:

Məkgəyə getməknən həci olmaz hər ayı.
Sözü doğru deyərəm, söyləmərəm əffayı,

Sözün kəsir ki, Abbas, sən məni həcv eləsən, səni Qalağayına, Göyçaya qoburnatın yanına aparmasam, mənnən pis adam yoxdu. Deyir:

Dilinə çox gətirmə Qalağayın, Göyçayı
Onnar da tüpürəcək, olsa xəbərdar üzünə.

## XXI mətn

Arvadı Aşığ Abbasa deyif ki, hamıya şeir deyirsən, birin də maa de da. Deyif, arvad, qorxuram küsəsən. Deyif, yox, niyə küsürəm? Deyir.

Abbas deyir kişi, get ojağına
Bir kom qaratikanı al qujağına,
Bir sakkat qancığı qoy bujağına,
Onnan yaşa, pis arvadnan yaşama.

Ölüf getməz bu dünyanın əngəli,
Acıxlandıranda yolar cəhli-cəngəli.
Ölüm vaxdı Əzreyilin çəngəli
Əlbət bil pis arvatdan yaxşıdı.

## XXII mətn

Bir gün də özün vuruf azarrığa. Aləmə deyif ki, bu and, bu quran hakqı sirri aşsan başı kəsəjəm. Aləm deyif, a kişi, mən ha-

vaxt sənin sirrini aşmışam. Deyəndə deyif ki, yox ey, bu sirri aşma. Bunun da səkgiz oğlu oluf, bircə dənə də Teyfə adında qızı. Deyif, oğlannarımı çağır yanıma, mən ölerəm, vəsi eliyirəm. Gəlif deyir, ay oğul. Mənim elnən bir adım var, Paşa bəydən Sultan bəyə hamı məni tanıyır. Axı mən ölerəm, məni nətər götürəjehsiz siz, adıma layix dəfn ola. Biri deyif bir öküz gətirejəm (öküz nə gəzir), biri deyif bir kəllə qənd gətirejəm, biri deyif bir tay un gətirejəm. Başın götürüf deyir ki, belə-belə olasız. Nə ölmürəm, nə də vəsi elə-mirəm. Onu mən öləndə gətirif verəjəhsiz o biri kəntdə Şahmirzə var, yeyif o Qızıl qəyənin altıynan gedəjəh. O maa lazım deyil. Gətirin indi verin yeyim, aj ölmüyüm.

### XXIII mətn

Bir gün də deyir ki, gedəjəm paccahdan ulağ isdiyəm. Verər verər, verməz verməz də. Gedir paccahın elçi daşının üsdə oturur. Bunun qul-qaravaşı gəlir ki, paccah, elçi daşının üsdə adam var, siziynən görüşmağ isdiyir. Deyir, get gör nə isdiyir. Gəlir deyir, nə isdiyirsən? Deyir, yox ey, paccahın özünə deyəjəm, burda deyilməli söz deyil. Neçəsi gəlir qaytarır ki, yox ey, özünə deyəjəm. Paccah deyir, get çağır, görüm bu kimdi. Belə deyildi axı. Ordan deyirdilər filan şey isdiyirəm, mən də deyirdim filandı. O mənnən görüşmağ isdiyir. Aparır yanına. Deyir, nədi? Deyir, paccah sağ olsun, vallah, bunun daldalısı yoxdu, əl ulağım ölüf, şələli qalmışam. Oduna, suya, dəyirmana gedə bilmirəm. Gəlmişəm, maa bir ulax verəsən. Versən də, nənəyə, verməsən də, nənəyə. Paccah buna bir söz demədən ilxıçını çağırır yanına. Deyir, get ilxının içində beli yara cidav at var. Onu ver bu kişiyə. Götürər, nənəyə, götürməz, nənəyə. Gətirir cidav atı qapıya. Deyir, bağlayın onu mıxa. Ölər, nənəyə, ölməz, nənəyə.

### XXIV mətn

Bir gün libası qolay imiş. Gedif oturufmuş məclisdə, heş bunu sayan olmuyuf. Gedir Sultan bəyin yanına, deyir ki, bəs belə-belə. Mən filan məclisə getdim belə qarşılandım, filan məclisə getdim belə qarşılandım. Amma filan kəndə getdim heş məni sayan olma-

dı. Deyir, əynin-başın nətər idi? Deyir, vallah, əynim-başım yoluğ idi. Dedim tanış kəntdi, burdan bura mən nə geyinim. Deyir, libasına görə səni tanımıyıflar. Təzdən gedir libasın dəyişir, bir ayrı toya gedəndə bunu çəkif aparıf başda oturdullar gümüşü papax başda. Oturanda pencəyin ətəyinnən tutur soxur boşqaba ki, ye pencəyim, ye, məni başa çıxardan sənsən. Sən olmasan mən ayaxda oturardım.

**XXV mətn**

Abbas bir də deyif balalarım, babalım boynuza, arvada sirr verməyin. Nə qədər yaxşı dosd olsa, qardaşınızın namın verməyin. Günnərin bir günü biri deyir, gətirin arvada sirr verək, o kişi bizə babal yıxıb, görək bu gerçəhdi, yoxsa səyf. Gedif paccahın bir ceyranın oğurruyur. Elə bil gətirir verir Gümüşə ki, bunu saxla, sora gəlif götürejəm. Gedif bir başqasınnan pulnan ceyran alıf, gətirif kəsir. Deyir, ay arvad, bunu bir sən bil, bir də mən. Paccah canımızı yığmışdı boğazımıza. Ceyranın kəsmişəm, yeyax yansın tökülsün, amma aşma ha. Deyir, yaxşı.

Nəysə, elə oler ki, bir on günnən, iyirmi günnən sora bu, arvadı döyür. Çığırıf qalxır ayağa, tərpənir paccahın üsdünə. Deyir, paccah-aləm sağ olsun, ceyranını tapdın? Deyir, yox. Deyir, bəs mənim ərim sənin ceyranını kəsif yeyif. Paccah bunun ərini çağırtdırır. Deyir ki, mənim ceyranımı niyə kəsdin yedin? Deyir, paccah-aləm sağ olsun, nəysə kəsdim da. Deyir, onu çəkin dar ağacına. Bunu çəkillər dar ağacına. Yetirən mərmər qayalar atır, bu heş səsini çıxarmır. Biri çıkqılı daş atanda bu çığırır. Paccah deyir, onu açın, gəlsin görüm bir heylə daşdara niyə dinmədi, bu çıkqılı daşa çığırdı. Deyir, paccah-aləm sağ olsun, maa mərmər qayalar atannarın inəyin oğurramışam, onnarın atdığı daş məni yandırmadı. Amma çıkqılı daş atan surfamın başında oturuf yeyif, onçun onun daşı maa dəydi. Deyif, bə ceyranı neynədin? Deyir, ceyranı vermişəm filankəsin qapısındadı, arvadı sınayırdım. Deyir, hə, Abbasın bu sözü düz çıxdı.

Gedir bir qoyunu öldürür, bükür bir ağa. Gedir dosdarının qapısına ki, bəs salva atdım, qonşunun uşağını öldürmüşəm. Bunu gizdə. Deyir:

– Ə, sürü çıx get əynə. Mən sənin qanını gizdiyəmmərəm.

Axır toçqada gəlir qardaşının üsdünə. Neçə il də küsülüdü. Deyir:

– Ə qardaş, sən hara, bura hara? Məni dindirmirsən, danışdırmırsan. Buraya niyə gəlmisən?

Deyir:

– Ay qardaş, belə bir qana düşmüşəm, özü də neçə ildi küsülüyük, görürsən üsdünə gəlmişəm. Bəs qonşunun uşağına salva atdım öldü, götürüf qaşmışam üsdünə.

Deyir:

– Ə, yaxşı eləmisən, əlin içinnən gəlif.

Girif pəyənin içində qəbri qazır. Atı da çəkir pəyəyə. İsdiyir meyidi götürə gizdiyə görür erkək qoyundu. Deyir:

– Ay qardaş, niyə maa deyirsən ki meyitdi?

Deyir:

– Qardaş, üzə ağ olmuşamsa, qələt qırmışam. Dosdara yedirtmişəm, saa yedirtməmişəm. Babam maa bir məsləhət verdi, mən onu sınamışam.

İndi nə aylə, nə zad, qardaşın yerin heş nə vermir.

## XXVI mətn

Şahbulağ ərazisində Pərioğullar bəyi oluf. Bu bəy xəbər göndərif Paşa bəyə ki, paşam, sizdən bir nəfəri sel gətirif bura. Bunu nətər dəfn eliyək? Bu, Aşığ Abbası çağırır ki, belə məktub yazıf, buna nə cavab verək. Deyir ki, paşam, sel aparan ayı olar. Ona xəbər göndər ki, dədəni-babanı nətər dəfn eləmisənsə, onu da heylə dəfn eylə. Bu da gəlif çatıf buna.

Bu bəy dağa gedən vaxdı Paşa bəy Aşığ Abbasa deyir ki, ayrı heş bir kəsə demirəm, özün gedərsən ona elə bir qisas eliyərsən olmuyan kimi. Gəlillər Taxtabaşına, orda düşüllər. Bəy heyvanı yanyön eliyir. Yağınnıx imkan vermir. Bir alıxlı öküz köşdən yayınır qırağa çıxır. Aşığ Abbasa da bu lazımmış. Bunu götürür, yolnan rəddi düşə-düşə gətirif çıxardır qapıya. Bilir ki, bunun rəddiynən gələjəhlər. Kəsir, soydurur, ətinnən doğruyur pişitdirir ki, arvad,

qonax gələjəh, yemək hazırra. Çul alığı da qoyur ojağın qırağına. Bu kişi gəlir deyir ki, mənim öküzümü gətiriflər bura, rəddini gətirmişəm düz sənin qapına çıxır. Deyif ki, qardaş, gətmisən lap yaxşı eləmisən. Burdan belə mənim boynumadı. Harda olsa, öküzünü tapajam. Bu oturur. Arvada deyir ki, çaydan-zaddan gətir bu kişiyə. Yoldan gəlmisən, aj olarsan. Ye-iç, onnan sora danışarıx. Öküz yiyəsi görür ki, saz asılıf ordan. Aşığ Abbas buna and-aman eliyir. Deyir ki, qardaş, görürəm and-amana inanası döyülsən, saznan and içəjəm sana. Öküzün nişanasın deyir. Deyir ki,

Alnında doşan təpəli,
Qoltuğunda xalı cöngənin.
Altında çul alığı,
Ağzında yağı cöngənin.
Əyər axtarış eyləsən,
Çıxar baş-ayağı cöngənin.

Bu kişi deyir, əyə, qardaş, mən ölüm, hakq aşığısan, bunu sən hardan bilirsən? Daa burdan belə qaldı sana. Mən qayıdım xəbər verim. Bu qayıdır bəyə xəbər verir. Bəy deyir ki, ə, nəyin üsdə oturmuşdun? Deyir, vallah, bir qara keçə idi, üsdündə oturmuşdum. Deyir, bə Abbas nə dedi? Dediyin təkrar eliyəndə deyir ki, da burdan belə getməyin adı yoxdu. Ordan addıyır Murov dağına, da o dağa getmir.

### XXVII mətn

Bizim dağlara vaxdilə elat gəlif-gedirmiş. Elat gəlif axşam Piçənis çayının üsdündə gejəliyir. O vaxdı elatın yükü atnan, öküznən daşınırdı. Alıxlı öküzün biri yoxa çıxır. Hava nəmişdi imiş. Səhər durullar ki, öküzün biri yoxdu. Başdıyıllar öküzü gəzməyə. Yer nəmişdi olduğuna öküzün izi düşüf. Bunun arxasınca gedif çıxıllar Aşığ Abbas olan kəndə. Gəlif qapıya deyillər ki, öküz itirmişik, yük qalıf yerdə, çətin vəzyətdəyik, bizə kömək elə. Deməli, Aşığ Abbas da çatan kimi kəsif öküzün ətini, qazanın içində bişirillər. Çətin vəzyətə düşüf. Öküz yiyəsi gəlif, ət burda bişir. Aşığ Abbas deyir ki, mən oğru deyiləm. İsdiyirsən saa nejə deyirsən, and

verim. Hələ arvadına da deyir ki, o sazı ver, bu kişiyə saznan cavab verəjəm. Saz da müqəddəsdi. Deyir, itikçi aj olar. Öküzün ətinnən də qoyur qabağına. Sazı çalır, deyir ki:

Alnında dooşan təpəl,
Qoltuğunda dağı cöngənin.
Altında çul alığı,
Ağzında yağı cöngənin.
Əyər axtarış eyləsən,
Çıxar baş-ayağı cöngənin.

Deyir bu oxuduğum hakqı, mənim öküzdən xəbərim yoxdu. Kişi də buna inanır, durur gedir ki, sən heç oğruya oxşamırsan.

## XXVIII mətn

Bir gün Bərdə rayonunun Alpout kəndində yaşıyan Adgözəl bəy ətraf rayonnarın bəylərini qonax çağırır. Bir rus qızını almışdı. Həm bir toy məclisi kimi, həm də qonaxlıx kimi bütün bəyləri dəvət eliyir. Allah rəhmət eləsin, laçınnı Sultan bəyi də dəvət eliyir. Sultan bəy Abbası da özüynən götürür. Hər bəyin yanında hazırcavab bir adam olurmuş. Məclis boyu bəylərin yanında olan hazırcavablar bir-birilərinə söz atıllar. Nə qədər söz fırranır Sultan bəyin hazırcavabı olan Aşığ Abbas sakit dayanır. Sultan bəy buna nə qədər işarə eliyir ki, bir kəlmə də sən de da, bəs məni biyabır eliyirsən. Nə qədər eliyir dinmir. Məclisdə çox sözdər fırranır. Bəylərdən hansınınsa hazırcavabının biri deyir ki, üzdən irağ, bir ulağı elə örgətmişəm ki, kitab oxuyur. Deyillər, nətər? Çıxıllar çölə, bir ulax gətirillər. Kitabı qoyullar qabağına. Kitabı diliynən çöyürür, çöyürdükcə də anqırır. Sultan bəy Aşığ Abbası çəkir qırağa ki, ə yekə kişisən, məni biyabır eləmə, bir söz də sən de. Yandım töküldüm. Abbas dinmir. O vaxda qədər ki, məclis dağılır. Bəylərə deyillər çıxın çölə, yerrər salınsın ki, gəlib yatasız. Aran yeridi, sahələrdə çakqallar ulaşırmış. Abbas bəylərin birinin hazırcavabınnan soruşur ki, bu nə səsdi gəlir? Deyillər ki, bir dəsdə aşıxdı, gedif o yiyəsizdihdə oturub çalıb-oxuyullar. Abbas yenə dinmir. Sultan bəy Aşığ Abbasa deyir ki, qayıdanda orda sənnən hak-hesabı çəkəjəm. Bəylər dəvət olunur ki, gəlib yatsınnar.

Sultan bəy deyir ki, Abbas, gəl. Deyir, bəy sağ olsun, mən burda qala bilmərəm. Sultan bəy hiss eliyir ki, bunda nəsə söz var. Ə, deyir, gəl içəri. Deyir, yox ey, mən burda qala bilmərəm. Deyir, niyə? Deyir, bir yerin mollası ki, ulağ olajax, aşığı da çakqal orda kişi qalmaz. Mən getdim, səni bilmirəm. Sultan bəyin rəngi açılır. Qayıdanda on toxlu ənam verir ki, bu da sənin o sözünün hakqı.

**XXIX mətn**

Aşığ Abbas Dərələyəzdən bir qız sevir. Məhəbbət də on cürədir. Onun dokquzu ötəri hisdi, bircəsi ilahi məhəbbətdi. Heylə vurulur bir gözələ. Demək, Dərələyəz Ermənistan tərəfdədi. Aramızda da böyük dağ silsiləsi var. Aşığ Abbas özü Piçənisdəndi. Orda qohumu da varmış. Qohumugildə qalır ki, bu gözəli görə, eliyə. Qış düşür yollar bağlanır. Qar tayalanır elə olur ki, külək yumşax qarı gətirir iyirmi-otuz metr qar zirvəsi yaranır. Keşmək mümkün olmur. Orda deyir ki,

Necə gedim Kürdhajıya,
Tutuf yolum Selim gədiy.
Qala bilmirəm qürbətdə
Yada düşüb elim, gədiy.

Təkədonduran yavadı,
Qırx qız dərdimə davadı.
Oylağım Sarı babadı
Mıxtökəndi yolum, gədiy.

Yaz ola yollar işdiyə,
Aşam Şəlviyə, Daşdıya.
Aşığ Abbas, Qışqaşdıya
Düşə bir də yolum, gədiy.

**XXX mətn**

Kürkü geydim, baldırımı sarıdım,
Arvad-uşaq heş bilmədi varıdım,

Qoydular qapıda sərgi qorudum
Dedilər toyuğa kiş demir zaman.

Həşdatdan, doxsannan yüzə yaşadım,
Arvadı, uşağı onda boşadım,
Bir də uşağ oluf yerə iş...m,
Durdum gördüm yerim yaşdı bir zaman.

***

Elin pisi kürdhacılıdı,
Tamam sözdəri acıdı.
Paşa bəyi qatmağ olmaz,
Hamısı ağıl möhtacıdı.

## AŞIQ BƏYLƏR

Bizdə Molla Vəli var idi, Narışdar kəndində olurdu. Kəndə gələndə bizim evə düşərdi. Aşığ Bəylər dediyimiz də o kəntdən idi. Bir dəfə gedillər Vəlinin dalınca ki, ölü yerinə gətirələr. Aşığ Bəylər də toya gedirmiş. Qabangədih deyilən yer var, orda rasdaşıllar. Molla Vəli deyir:

– Bəylər, xeyir ola?

Deyir:

– Vəli, yəqin xeyirdi ki, mən gedirəm da. Şər olcaxsa, sən gedəcəhsən.

## AŞIQ VALEHİN ŞUŞA SƏFƏRİ

Valeh gedir Şuşaya toya. Toya xanın özü də gəlir. Okqədər gözəl, okqədər şirin oxuyur ki, xan çıxardır buna bir qızıl onnux verir. Toy qutarır, hər küsdə öz işinə gedir. Vəzir gəlir xanın yanına. Deyir:

– Xan, on ildi mən sana vəzirrik eliyirəm, heş sən bir manat maa pul vermirsən. O aşıx nə idi, ona bir onnux qızıl verdin?

– Əyə, – deyir, – onu Allah ona verib ey, mən vermədim.

Deyir:

– Nətər Allah ona verdi?

Deyir:

– O gözəllikdə insan, o şirinnikdə səs, bunu Allah eliyib.

Deyir:

– İndi mən onu ziyana salım, sən də məni tanı.

Razılıx verir, deyir ki, sal, amma namərtdik, alçaxlıx yox ha. Götürür bir məktub yazır öz imzasıynan. Şuşada boğaz ağrısı xəsdəliyi peyda oluf, camahat qırılır. İyirmi-otuz dənə öküz, at yükü zoğal təşkil eliyif gətirirsən buraya, bəlkə camahat qırılmıya. Axı xan da buna hörmət eliyif. Bu fikirrəşir ki, xanın məmləkətində bu hadisə oluf. Onnan-bunnan gedir atını isdiyir pulun verir, səbət isdiyir pulun verir, çual isdiyir pulun verir. Bu biri tərəfdən də vəzir hər küçəyə bir dənə zoğal satıcısı qoyur. Valeh elə şəhərin girəcəyində görür zoğal satıllar. Bir az ayana yeriyir, zoğal satıllar, bir az ayana yeriyir, zoğal satıllar. Yolda öküzün biri ölür. Tərrəmiş at, qışın günü. At da qeysər[44] olur, atı basdırıllar peyinə ki, sağalacax. Atın biri heylə olur ölür. Gedir vəzirin sərəncamına. Deyir:

Kim ki innən belə burda sala bağ,
Arvadı q....di, özü qurumsax.
Çualın küncünnən car oldu bulax,
Mən belə bazarın nəyinə gəldim,
Ordan buraya deyinə-deyinə gəldim.

Allahverdigildə vardı bir nökər,
Haramzada gejə durur bixəbər,
Atın çulunu alır, at olur qeysər.
Mən belə bazarın nəyinə gəldim,
Ordan bura deyinə-deyinə gəldim.

---

[44] qeysər olmaq – iliyinə qədər soyuqlamaq

## NADİR ŞAH VƏ SULDUZLU AŞIQ BƏHMƏN

Nadir Şah Şərur mahalında müharibə eliyirdi. Aran zəmidə də Nadir Şahın dööləti, malı, dəvələri qalır. Aran zəmidə Qarabeygir adında bir atı qalır. Nadir şah da elan eliyif ki, kim Qarabeygir atın ölüm xəbərini mana versə, onu asdırajam. Sulduzdu Aşıx Bəhmən gedir çıxır bunun Aran zəmisinə. Malı-dööləti, dəvələri, qoyunu, atı. Gedir çıxır, baxır ki, camahat çox pis vəzyətdədi, elə bil ölüsü düşüf camahatın. Deyir, ayə, niyə belə oluf? Deyillər, Nadir şahın malı-dööləti, qoyunu, dəvələri hamısı qırıldı, Qarabeygir də öldü. Hamımızı dar ağacınnan asdırajax. Deyir, indi ki belədi, mən gedim oraya, Nadir şaha deyim, Qarabeygir öldü. Qoy məni öldürsün, bu camahata dəyməsin. Camahat da razılaşır.

Gedir çıxır Şərura. Şərura o vaxdı çatır ki, Nadir şah qalib gəlif torpağı alıf. Nadir şah görür ki, bir aşıx çiynində saz gəlir. Deyir, çağırın bura, aşıxlar gəzəyən olur, görüm mənim aran zəmimdən nə xəbər var. Aşığı çağırıllar Nadir şahın hüzuruna. Nadir Şah deyir:

– Aşıx, siz gəzəyən olursuz. Bir mənə deynən görüm aran zəmidə vəzyət necədi?

Bu da aran zəmiyə gedif toxunuf, vəzyəti bilir nətərdi. Deyir:

– Şahım, nolar, nətər lazımdı sənə deyərəm.

Aşıx deyir:

Başına döndüyüm ədalət şahım,
Aran zəmi bu il çox qar olufdu.
Qar suyu işməhdən qırılır uşax
Çay çeşmələr donuf mismar olufdu.

– Ayə, nə pis xəbər verdin, ə. Ə, – deyir, – mən ora yonca əkdirmişdim. Nə danışırsan? Bəs o yonca nətər oldu?

Aşıq deyir:

– Düz deyirsən, əkdirmişdin.

Yoncanı əkdirdin dəvə boyunca,
Dəvələr yemədi qarnı doyunca,
Əlim qabar oldu gönün soyunca,
Nər mayalar çöldə beman olufdu.

Deyir:

– Sən öl, bu çox pis başdadı, ə. Bu belə başdıyıf, gələgör deyə ki, Qarabeygir də ölüf.

Deyir:

– Şah, başına dönüm, sən elan eləmisən ki, Qarabeygirin ölüm xəbərin kim gətirsə, başın kəsdirəjəm. Onun ölüm xəbərin özün dedin. Aşıx deyir ki,

Odu ki, deyirsən atnan qatır,
Birisi şilədi[45], birisi qotur.
Gördüyün köhlənnər yan-yana yatır,
Qarabeygir damda mundar olufdu.

Nadir şah qoşun sərkərdəsinə deyir ki, bunun boynun vur. Sərkərdə deyir:

– Şah, aşıx gördüyünü çağırar. Bu gedif aran zəmini gəzif, nəyi görüfsə, onu deyir. Niyə boynun vurdurursan? Şəruru ki almışıx, hər şey düzələr. At da əmələ gəlejeh, qoyun da, mal da.

Aşıx deyir:

Yarəb, varmı bu işdərin əncamı,
Bu ağır müşgülün tapıldı çəmi.
Sulduzdu Bəmənəm, çəkmərəm qəmi,
Gözəl şahım bizə pasiban[46] olufdu.

Şah deyir:

– Səni buraxajam gedəjəhsən, arxayın ol. Deyir, məni istəyən buna xələt.

Aşığın kisəsini doldurullar. Aşığ ordan yola düşür, gəlir çıxır aran zəmiyə. Aran zəmi Qarabağ mahalındadı. Deyillər, əyə, Sulduzdu Bəhmən, de görək noldu? Deyir, sən öl, tam arxayın olun. Qarabeygirin ölüm xəbərin də dedim, heç birinizə ölüm yoxdu. Bax, bu da onun mana verdiyi xələt. Camahat da deyir, əhsən ki sən bizi bu zülümdən xilas elədin.

---

[45]şilə – at xəstəliyi

[46]pasiban – yiyə durmax, hayan olmax

## NÖVRƏS İMAN

Atam söhbət eliyirdi. Atamın əsas sənəti dərziydi, hər şeyi bilən adamıydı. Özünün yaxşı saz çalmağı vardı. O söhbət eliyirdi ki, Növrəs İman Bərdə rayonunun Mustafaağalı kəndinə gəlib çıxır. Orda özü söhbət eliyəndə atamın yadında qalıb. Növrəs İman özü danışırmış ki, bir gün Göyçə mahalının qonşu Ağkilsə kəndinnən Dədə Ələsgərin oğlu Talıbı qonşu kəndə toya çağırıllar. Talıb gedir toya. Görür ki, toyu çalan Dədə Ələsgərin şəyirdi Aşığ Əsətdi. Bir az oturur qulağ asır. Baxır ki, Əsəd Ələsgərin sözlərini oxuyur öz adına bağlıyır. Doğurdan, kim olsa, qəlbinə dəyər. On iki il, on dörd il bir sənətkarın çörəyini ye, çörək qazanmağ üçün onnan sənət örgən, axırda da belə naxələflik eylə. Talıb qalxır deyir ki, Əsəd əmi, nə tez unutdun duz-çörəyi? Aşığ Əsəd də deyir ki, sən hələ cavansan, otur aşağı. O vaxdı Ələsgər deyirdilər, indi Əsəd deyillər. Talıb çox pəjmürdə halda qayıdır öz kəntdərinə. Bunun əmisi uşağı, qardaşı, qohum-əqraba baxır ki, Talıb çox pəjmürdədi. Soruşullar ki, Talıb, toydan gələn bu vəzyətdə olmaz. Nolub, niyə beləsən? Düşüllər üsdünə. Deyir, mənim dərdimə əncam eyləsə Kəlbəcərri Qurban eyliyər, bir də Aşıx Hüseyin Cavan. Növrəs İman bunnan soruşur ki, dərdini de, əmoğluyuğ, öldürmə məni. Deyir, hal-qəzyə belə-belə. Əsəd atamın sözdərini oxuyur öz adına bağlıyır, mən də belə dedim, mana da nalayiq cavab verdi. İman cürə sazı götürür, atı minir həmin kəndə gedir Əsədin dalınca. Əsədə də xəbər verillər ki, evin yıxılsın, İman gəlir. Əsəd toyu yarımçıx qoyub aradan çıxır. İman gəlir ki, Əsəd qaçıb. Bunu tutullar ki, sən aşığımızı qaçırmısan, gəl toyumuzu yola ver, sora hara gedirsən get. İman məjburdu, toyu yola verir, səhərisi gəlir Gəncə şəhərinə dəmiryol vağzalına. Əsəd o vaxdı tanınan aşıxlardan olub. Aşığ Əsədi kassirdən soruşur. Kassir deyir, dünən gejə Tiflis poyuzuynan getdi. İman da bilet alır, gəlir Tiflisə. Səhər-səhər Tiflisdə düşür, ora-bura fırranır, baxır bir çayxana var. Gedir çayxanaya. Baxır ki, bir saz asılıb çayxanadan. Sazını burdan asanda çayxananı işdədən oğlan gəlir ki, qardaş, onu ordan asma. İman deyir ki, niyə? O da çəkil ağacınnan-

dı, bu da. Birinin böyük, birinin balaja olmağının nə mənası var? Bir-birini yemiyəjək a. Deyir, mən sözümü dedim, mənnən incimə.

Nəysə, oturuf çay içəndə Aşıx Sadıx gəlir. – “Saz kimindi?” Heş kim dillənmir. Çayxananı işdədən oğlan deyir ki, Sadıx əmi, o cavan oğlanındı o saz. – “Ə, sənindi saz?” Deyir: – “Bəli, mənimdi”. Deyir: – “Bunu burdan niyə asmısan?” Deyir: – “Ay əmi, ikisi də çəkil ağajınnan düzəlib, bir-birinin ətini yemir a, durub orda”. Deyir: – “Yox, onu ordan asmısansa, məni meydana çağırırsan. Sazını götür çıxax meydana”.

Nəysə, İman sazını götürür çıxır ortaya. Sadıx da sazını götürür. Yaşda böyük olduğuna görə Sadıx düşür qabağa. Xəsdə Qasımın açılmayan qıfılbəntdərini Növrəs İmana deyir. Növrəs İman çönür ki, qırmızı ayəynən divara cavabı yazılıf. Nörəst İman özü də savadsız adam olub, heç bir mədrəsə bitirmiyib. Amma o devrdə sovet sədri işdiyirmiş. Aşıx Sadıx dedikcə İman açır. Oturannar deyir ki, icazə ver bu kişi də bir söz desin. Sadıx arada soruşur ki, qardaş oğlu, birdən Göyçə mahalınnan olarsan, dosdum Ələsgərin törəməsinnən olarsan? İman boynuna almır. Nəhayət, İman boynuna alır ki, mən Ələsgərin qardaşı Musanın oğluyam. Sadıx qolunu salır bunun boynuna ki, gedəjeyik bizə. Bu gejə mənim qonağımsan.

Aşıx Sadıx İmanı götürür gətirir öz evlərinə. Oturuflar, bir az ordan-burdan söhbət eliyillər. Sadığın ayləsi də yemək hazırrıyırmış. Sadıx arada qalxır gedir ayləsinə nəsə tapşırır. Yemək ortaya gələndə İmana agah olur ki, yeməkdə nəsə var. Çönür deyir ki, ay xala, o cürə sazı ver mana. Sinəmə üç xana söz gəlib, onnarı deyim. Sadıx deyir, qardaşoğlu, çörəyimizi yeyək, gejəni əlimizdən almıyıflar a, səhərə qədər birin sən de, birin mən. Deyir, yox ey, sinəm çatdıyır, qoy deyim sora. Özü qalxır sazı götürür, belə bir qoşma deyir:

Hamı xəlq olundu bir qətrə sudan,
Hər ötən gədəyə xan demək olmaz.
Yatıb yuxudadı, qalxmaz yuxudan,
Nəlayiq insana can demək olmaz.

Ömür xoş keçirsə, başın tacıdı,
Taleh bəd gətirsə, bəxt qıyqacıdı,
Bir tənə söz zəhrimardan acıdı,
Namərd süfrəsində nan yemək olmaz.

Növrəs İman Əsədi tapmır. Özünün dediyinə görə, gəlir Gəncədə Şeyx Sənan kümbəzinə girir. Deyir, ora girdim ki, Quranın yazılışında səyf var, mən Quranı təzədən yazajam. Orda ağalar ağası mana bir şillə vurdu, hələ də onun əzabın, əzyətin çəkirəm. Onnan sora İman havalanır.

## ƏLƏSGƏRLƏ ŞƏYİRDİ MİKAYIL

Mikayıl Dədə Ələsgərin şəyirtdərinnən biri olub. Götürmək qabiliyyəti bir az zəyif oluf. Mikayıla örgədillər ki, on iki ildi Ələsgərə şəyirtdik eliyirsən. Sən də Ələgər kimi bir aşıqsan, get özünə çörək qazan. Nə vaxda qədər sən bu kişiyə qulluğ eliyəssən. Bu da bunun ağlına batır. Bir gün deyir, Ələsgər əmi. Deyir, bəli. Deyir, Ələsgər əmi, mənə xeyir-dua ver, mən gedəsi oldum. Deyir, oğul, niyə? Deyir ki, baxıram ki, yetginnəşmişəm, mən də bir aşığam. Deyir, ay oğul, hələ yarımçıx da döyülsən. Gəl getmə. Deyir, yox ey, gedəjəm. Mikayıla bir saz da bağışdıyır. Deyir, oğul, get, amma sənnən bir xayişim var. Deyir, buyur. Deyir, getdiyin məclislərdə demə Ələsgərin şəyirdiyəm (çünki Ələsgər Mikayılın yükünü bilirdi). Deyir ki, baş üsdə.

Nəysə, Mikayıl sazı götürür çıxır gedir. Bir müddət aradan keçir. Bir kəntdən keçəndə baxır ki, toy səsi gəlir. Dönür toya. Görür bir saz aşığı meydan suluyur. Ataların bir sözü var. Deyir, qonax qonağ isdəməz, ev yiyəsi hər ikisin. Aşıx da heylə olub. Aşığ aşığı görəndə mütləq meydana çağırmalıydı. Mikayıl məclisə gəlir. Buna söz verillər. Çalıb oxuyur. Aşıx baxır ki, barmax, mizrab xam vurur, boğaz xam vurur. Özü də baxır Mikayıl bir az yekə gedir, ustaddarın yerişini yerimək isdiyir. Baxır ki, bunda alınan söhbət döylü. Bunu çəkir meydana. Deyir, kimin şəyirdisən? Deyir, özüm örgənmişəm. Çox çalışır, demir. Orda Xəsdə Qasımın dəyirman

hakqında deyilmiş açılmıyan qıfılbəndin Mikayıla deyir. Mikayıl qalır çar-naçar. O vaxdı da qanun beləydi ki, bağlandınsa, sazını verməlisən. Mikayıl məjbur sazın verir, atın minir tərpənir Ağkilsəyə Dədə Ələsgərin hüzuruna. Uzaxdan Dədə Ələsgər baxır ki, Mikayıl gəlir, amma saz yoxdu belində. Qardaşı Musaya deyir ki, Mikayılın deyəsən yal quyruğunu qırxıb göndəriflər üsdümüzə. Mikayıl gəlif çıxır başaşağı. Ə, Mikayıl, oğul, sazın hanı? Dinmir. Ay oğul, danış. Deyir, hal-nağıl belə-belə. Ə, sözdər yadındadı? Deyir, yadımdadı. Sözdəri deyir. Ələsgər oğlu Bəşirə deyir ki, ay Bəşir bala, o sazı ordan gətir bura. Bəşir sazı gətirir, Ələsgər sazı köklüyür. Müxəmməs üsdündə deyilmiş qıfılbəntdi, Dədə Ələsgər də müxəmməs üsdündə onu açır. Deyir:

Gələndə usdad kəlamı köhnə yaram qan verir,
Mocə gəlir bəhri-çeşmim qətrey- baran verir.
Danəni torpağ içində göyərdir kani kərəm,
Bir cüt mələk müqərrardı, bizdərə ərzan verir.

Şirdanından dən gəlmiyəndə düşür qeyri hala,
Dəhanından atəş qalxır, ah çəkib eylər nala.
Qəzəbinnən ləngər verir gah qabağa, gah dala,
Dut qalxdıxca ləngər verir, asiman verir.

Gəl biçarə Ələsgər, dərsi kimnən almısan,
Nahax yerdən saz götürüf xalqa qovğa salmısan,
Üç kəlmə sözdən ötrü sən ki məhətdəl qalmısan,
Nahaxdı İran tatdarı Mikayıla dövran verir.

## QARA KƏRİM

Kərim Şahüseyn oğlu XIX əsrin birinci yarısında Zəngəzur qəzasının Çıraqlı kəndində yaşamışdır. Anadan olduğu və öldüyü tarix dəqiq bəlli deyildir. Kərimin atası Şahüseyn cavankən vəfat etmiş, arvadı Fatma oğlu Kərimi başqalarına cəhrə əyirib yun daramaq və gəbə toxumaqla böyütmüşdür. Kərim böyüyəndən sonra

bəyə nökər olmuşdur. Nökər haqqına aldığı qara cöngəni hampaların kotanına qoşub özü də hodaqlıq etmişdir. Kərim savadsız olduğu halda sinədən şeir deyərmiş. Hətta müasirləri Kərim ilə Başxanım arasında olmuş əhvalatlar əsasında “Qara Kərim” adlı rəvayət yaratmışlar.

## QARA KƏRİM VƏ QIZXANIM

### I mətn

Qara Kərim Ağcakəntdən bir qız sevir, adı da Qızxanım oluf. Qızxanım da bəy nəslidi. Varı-dööləti, zəri-zibası – hər şeyi öz yerində. Qızxanımın atası, anası gedif dağa, özü qalıf Ağcakəntdə. Bu da nökər idi, Çıraqlı İlyasın öküzdərini otarırmış. Öküzdəri qoyufdu biçənəhdə gejəykən gedif çıxır Qızxanımın yanına. Deyir:

– Qızxanım, mən axı sənin dərdinnən dəliyəm. Sən niyə rəhm eləmirsən, bunun aqibəti hara gedif çıxajax?

Deyir:

– Kərim, yetimsən, qəbul eliyirəm. Atan yox, anan yox, qəbul eliyirəm. Evin yox, qəbul eliyirəm. Amma qarasan, onu qəbul eləmirəm.

Bu da ərəblər kimi qarayanız oğlanmış. Deyir:

– Xanım, iki qatar söz deyəjəm. Əgər qəbul eləsən, eliyərsən, eləməsən, mən razı.

Deyir:

Sən mənə qara de, mən sənə timsal,
Göreydim xatırın razı olarmı?
Ağ süd ağ kağıza əncam eyləməz,
Qara mürəkgəbsiz yazı olarmı?

O adam namərtdi bəhməz yemiyə,
Kişmiş qara şeydi adın demiyə,
Yüz neməti qoyar olsan nəmiyə,
Nemətdərin bir şahbazı olarmı?

Ay da gedib düşür qara buluda,
Siyah torpax ayrı durarmı suda?
Bir xəbər söylüyün o güftu gudə,
Onnarın bir-birinnən nazı olarmı?

**II mətn**

Qara Kərim Laçın rayonunun Çıraxlı kəndində anadan oluf. XVIII əsrin sonları XIX əsrin birinci yarısında yaşıyıf. Kəlbəcər rayonunda Başxanım adında bir qız ona buta verilif. O, öz butasına şeirlər həsr eləməyə başdıyır. Bizim Çıraxlı kəndinin qonşuluğunda Bozdu kəndi vardı, orda Təməsqulu bəy oluf. Təməsqulu bəyin də həyat yoldaşının adı Başxanım oluf. Başxanıma xəbər verillər ki, Çıraxlı Kərim sənin hakqında şeir yazır, səni vəsv eliyir. Bu da özünnən çıxır, bəy arvadıdı. Deyir, kim, o qara gedə? Qara Kərim də bu sözü eşidir, gəlir Təməsqulu bəyin qapısına. Çağırır, bəy çıxır çölə. Deyir, şair, çıx yuxarı. Deyir, yox bəy, qapında ölməyə gəlmişəm. Deyir, Kərim, niyə? Deyir, elə söz oxuyajam ki, məjbur oluf məni öldürəssən. Nədi, nədi? Deyir, arvadın Başxanımı çağır, ona deyiləsi sözüm var. Başxanımı çağırır. Axı orda buna qara gedə deyif. İndi Kərim qara rəngin həyatda nə qədər vacib olduğunu nəzmə çəkir.

Deyir, sən qara deyərsən, mən timsal,
Göreydim xətrin razı olarmı.
Ağ süd ağ kağıza əncam eyləməz,
Qara mürəkgəbsiz yazı olarmı?

Gün göyçəkdi, niyə düşür qara bulutdan,
Siyah toprax ayrı durarmı sudan?
Xəbərdar olarsan bu giftu guhdan,
Onnarın bir-birinə nazı olarmı?

Ağ post yaxşıdı qara buxara,
Qırmızı çarğata çalmeyi-qara,
Kərim deyər həqiqəti, sən hara,
Onnarın bir-birinə nazı olarmı?

**III mətn**

Kərim gedir Başxanımın dalınca. Görür ki, Başxanım köçüb gedib yaylağa. Dalınca yaylağa gedir, görür burdan da köçüb. Orda deyir:

Köçübdü ağır elləri
Batıbdı qəm-yasa dağlar.
.................................
.....................................

İki sevgi firaq kimi
Hakq keçirmiş çırax kimi,
Bağban əl çəkmiş bağ kimi
Qalıbdı mirasa dağlar.

Dağlar yenə öyünübdü,
Gül-nərgizi soyunubdu,
Kərim kimi geyinibdi
Qara libasın dağlar.

**IV mətn**

Kərim çox gedir Başxanımın dalınca. Başxanımın ata-anası qızı buna vermillər. Okqədər gedir gəlir, gedir gəlir. Anası da görür Kərim bu qızdan əl çəkmir. Ehtiyat eliyir ki, əlinnən bir xəta çıxa, bunun başına bir iş gələ. Anası onu mundarrıyır, onnan sora Başxanımdan əl çəkir. Başxanımnan əl çəkənnən sora mənim babamın bayısını verillər Qara Kərimə.

## OLUR

Laçın rayonu dağlıx yer olduğu üçün qış sərt olurdu. Bir il də qış çox sərt gəlir. Qara Kərimin qohumlarından Qədir addı kişinin otu qutarmışımış. Mal-qoyun da çox. Qalır çar-naçar vəzyətdə ki, neyniyim. Bizdə yaz bir az gej gəlir da. Mart ayının axırrarıdı,

bunun ot-alafı qutarıf, qalıb pis vəzyətdə. Qara Kərim götürüb onu nəzmə çəkir. Deyir:

Qıjıltıynan dağdan əsir tufannar,
Vaveyliyə düşüf cəmi insannar.
Mərələrdən qutarıfdı samannar,
İndi də gəvənnər xoş avaz olur.

Biçarə Qədirdə yoxdu bir güman,
Axşam-səhər dayim çəkir əl-aman,
Kim versə ona bir səbət saman,
O zaman əhvalı çox saz olur.

Qara Kərim, unutma bu ilki qışı,
Çürüdür ağacı, əridir daşı,
Müşgül olub qara camışın işi
Xəlbirnən azuqəsi çox az olur.

## OLMAZ

Qonşu kənt var, Qarakeşdi. Orda yüzbaşı İsgəndər oluf. Bir az əzazil adam oluf. Gəlif töycünü yığanda camahatı incidif. Qara Kərim orda ona bədahətən şeir deyir. Qara Kərim özü yazıb-oxumağı bilmiyif, nə deyirdisə, bədahətən deyirdi. Orda ona deyir ki:

Fürsət əldə ikən yaxşılığ eylə,
Əlində hər zaman ixdiyar olmaz.
Gəl güvənmə dövlətinə, malına,
Mala, mülkə, ömürə eytibar olmaz.

Qara Kərimi axdaran tapar,
Bir könlü tikən min kəbə yapar,
Sən çalış işini hakq ilə apar,
Hakdan qeyri kimsə sənə yar olmaz.

## OLMAZ

Deyillər ki, hər zad çəkər cinsinə,
Sarı əldə saxlamaxnan baz olmaz.
Nanəcibə əmək çəksən itirər,
Qalayçıdan sana minasaz olmaz.

Borc çörək alsa da qardaşdan bacı,
Verəndə yaxşıdı, alanda acı.
Rəndəyə çəksən də əyri ağacı
Binadan əyridi, daha düz olmaz.

At yerinə ulax çəkər töylüyə,
Yaramaz ki düşmən üsdə höylüyə,
Söyütdən təndir, kürtdən (bijdən) ölüya,
Qara qarğa suya düşsə, qaz olmaz.

Selav kənarında yatan şad olmaz,
Bədəsillə həmdəm olan kam almaz.
Şüşədən çəksələr, əsil cam olmaz,
Əsil cam da sınsa, hələ zay olmaz.

Ulduz şölə saçmaz çıxsa ayınan,
Gədəçədən heç bəy olmaz çayınan,
Qonşulardan gələn cam-cam payınan
Yəqin bilin, heş kimsənə bay olmaz.

Kərim deyir, yaxşı nədən tanını,
Var qutarar eyiblinin canını,
Çəksələr meydana hak divanı,
Kök öküzdər arıx ata tay olmaz.

Kərim bu sözdəri deyər xasına,
Canım qurban iyitdərin xasına,

Qarğa yumurtasın quş yuvasına,
Qoysan, qarğa olar, baysar olmaz.

## GƏRƏK

Arxalığ əlindən gəldim amana,
Səni qatlayıban bir bükən gərək.
Yolum düşsə, bir səfərə getməyə,
Şəllənməyə yaxşı bir örkən gərək.

İynə satan, malın qalsın mirasa,
Sapı pərdi imiş, ulduzu kasa.
Qara Kərim, çox söyləmə xülasə,
Sən deyən təhərdə bir tikən gərək.

## AŞIQ MÖHÜBBƏT

Həsənov Möhübbət Məhəmməd oğlu Laçın rayonunun Zağaltı kəndində anadan olub. Ağcabədi rayonunda dünyasını dəyişib. Deyilənə görə, aşıqlıqdan əlavə, həm də gözəl at çapırdı. Hətta bir dəfə toyda at çapışı zamanı atının tapırı qırılır, yəhəri düşür. Çılpaq atnan yenə hamını keçməyi bacarır.

## ARVAD

Aman günnü, yazıx, arvadı zalım,
Deyirsən götürmür söz bizim arvad.
Sən xoşbaxtsan taleyinə şükür elə,
Dağ çəkif sinəmə yüz bizim arvad.

Vay o günə evdə bir söz deyilə,
Onda gərək varım-yoxum söyülə,

Tutur xirtdəyimdən basır çeyilə[47],
Döşüyür qarnıma diz bizim arvad.

Nə ağıllıya bənzər, nə də dəliyə,
Dindirəndə söyür təzə ölüyə,
Ayı kimi payız girir çiliyə,
Bir də gözün açır yaz bizim arvad.

Möhübbət yolunda gəlifdi cana,
Çalışıram gəlmir dinə-imana,
Yazıram, car olsun Azərbaycana,
Bir kəlmə demədi düz bizim arvad.

## DƏRDİNİ

Ehtiyacı heç nadana bildirmə,
Gedib tez çatdırar elə dərdini.
Desən də, de barı mərd oğlu mərdə
Şərikləşib sənnən bölə dərdini.

Tut ovsarı bu sarvanı çəkincə,
Qəvvas torun bu dəryadan çəkincə,
Qüssə var ki xəlvət özün çəkincə,
De bir igid əhli bilə dərdini.

Açılası sirr deyilsə, demə, get,
Ac olsan da, namərd aşın yemə, get.
Oynaq danış, söhbətə get, dəmə get,
Möhübbət, çək gülə-gülə dərdini.

---

[47] çeyil – suda bitən ot

## AŞIQ MÖHÜBBƏTLƏ ŞAİR TAPDIĞIN DEYİŞMƏSİ

**Tapdıq:**

Ovum əldən çıxardımı,
Oxum daşa tuş olmasa.
Tülək tərlan dağdan enməz,
Çovğun, boran, qış olmasa.

**Aşıq Möhübbət:**

Sona kəklik məskən salmaz,
Hansı dağda daş olmasa.
Ala gözlər nəyə gərək,
Üstdən qələm-qaş olmasa.

**Tapdıq:**

Yaratdığı şəxsə fələk,
Versin saf qəlb, təmiz ürək.
Cücə-plov nəyə gərək
Sifətimiz xoş olmasa.

**Aşıq Möhübbət:**

Dost hayına darda gəlləm,
Çağıran olsa, haya gəlləm,
Hər il doğma yurda gəlləm,
Ömrə bıçaq, yas olmasa.

**Tapdıq:**

Tapdıq etmə giley-güzar,
Ürək dostun səni qınar.
Pis yaxşını kim tanıyar,
Getgəl, düşhadüş olmasa.

**Aşıq Möhübbət:**

İnsanlıx ki, var dünyada,
Səni yaşadar dünyada.

Möhübbət yanar dünyada,
Dostun günü xoş olmasa.

## ŞAİR SƏYYAH MƏHƏMMƏD

Həsənov Məhəmməd İbrahim oğlu, başqa adla Zindani Səyyah Məhəmməd Didərgin 1923-cü ildə Dərələyəz mahalında anadan olmuşdur. Səyyah Məhəmməd İrəvan Müəllimlər İnstitutunu bitirmişdir. II Dünya müharibəsinə iştirak edən şair döyüşlərdə ağır yaralanır və baş leytenant rütbəsi ilə ordudan təxris olunur. Müharibədən qayıtdıqdan sonra Qərbi Azərbaycanın bir sıra kəndlərində müəllim və məktəb direktoru vəzifələrində işləyir.

1947-ci ildə həbs olunur və 16 il Sibirdə sürgün həyatı yaşayır. Sibirdən qayıtdıqdan sonra ailəsi ilə birlikdə Laçın rayonuna köçür və rayonunun Qarabəyli, Qorçu kəntlərində müəllimlik edir.

Sovet hökuməti ilə barışmayan şairin başı daim bəlalar çəkmişdir. 1974-cü ildə Ukraynaya köçən şair 1977-ci il sentyabrın 1-də orada vəfat etmiş və Donetsk vilayətinin Karmatorsk şəhərində dəfn olunmuşdur.

## KEÇİ

Səyyah Məhəmmət bir dəfə bir keçi gətirir bazara. Uşaxlar bunu danışdırmağ üçün deyillər ki, ə, bu keçi neçiyədi? Bir qiymət deyir. Deyillər, yox, baha deyirsən. O gəlir danışdırır, bu gəlir danışdırır. Deyir:

Xəbər alsan, bu keçinin əhvalın,
Qırx kilo qanqor[48] yeyən keçidi.
Namərdin min tüməninə verməərəm,
Mərdin qəpiyinə dəyən keçidi.

Belində var bircə kilo qəzili,
Əti kifdə üçün yaxşı əzili,

[48] qanqor – yem

Bülün düzdü, cinsi Məzdili
Həyatda namərdə söyən keçidi.

Çoban hər ay alır altı şahı hak,
Həqiqi sözdəri demərəm nahax,
Səyyaham deyirəm, hər axşam sabah,
Şivlərimi[49] soyub yeyən keçidi.

## YERİDİ

Tez-tez bizə gəlirdi. Bir dəfə gələndə tualetə getmək isdiyir, qapıda da sərt itdər vardı, itdər buna imkan vermir. Səhər durub çay içib gedəndə varağa bir kuplet şeir yazıb qoyur nəlbəkinin altına. Nənəm də savatdı idi. Açıb baxır ki, şeir var. Səyyaf yazıb ki:

İmanlar iman yeridi
Əsil dost, mehman yeridi.
İtdəri zincir tanımaz,
Qalmağa mehman yeridi.

## QARA DÜYƏ

Məhəmmət Səyyahın bir qohumu Şəlvədə kolxoz sədriydi. Bu bir cüt mal düyəsini göndərir kolxoz sədrinə ki, mənim Bilündüzdə otum-zadı azdı, bunu qatın kalxozun malının içinə yaya qədər orda qalsın. Bu da deyir yaxşı. Düyələri burda bəsdiyillər. Aradan bir az keçənnən sora Məhəmmət Səyyaha xəbər gəlir ki, düyənin biri ölüf. Məhəmmət Səyyah da tükü-tükdən seçən adam idi. Deyir, balam, düyə heç xəsdə deyildi, kalxozun beş yüz baş malı ölmədi, mənim düyəm niyə öldü? Bir az şübhələnir. Şübhələnir ki, zotexnik, müdür, kimsə bunu satıf, öldü adını qoyuflar. Orda götürüf bir şeir yazır. Deyir:

[49] şiv – təzə əkilmiş ağac

Eşitmişəm qara düyə ölüfdü,
Əgər həqiqətsə, mərtlərə qurban.
Buxalter, zootexnik, bir də ki müdür
Elə gələn azar, dərtlərə qurban.

Məhəmmətdi, sözün deyir bu başdan,
İncimərəm mən naxırçı qardaşdan.
Bəlkə arığ imiş, düşüfdü daşdan
O yerlərdə yarğan sərtlərə qurban.

Bu hadisədən sora gəlir Şəlvə sovetliyinə. O vaxdı da ölən mala sığorta aktı yazırdılar. Sovet sədrinin yanındakı adamlar isdiyir deyələr ki, sən Bilündüzdən gəlmisən, burda sənin düyənə akt yazmax düz gəlmir da. Sovet sədri bizim dərənin ağsakqallarınnan biri idi. Deyir ki, ayrı söz lazım deyil. Katibi çağırır ki, Məhəmmət Səyyahın aktını mənim yanımda yaz, peçatdıyım verim. Yazıb verir. Bir bənd də ona yazır.

Şair də bu yerdə sınadı baxdı,
Ellərə tapşırdı ömrünü, vaxdı.
Gəlmişdi almağa sığorta aktı,
İdarədə dizi bərklərə qurban.

## DÜNYA, SÖYLƏ, SÖYZALINI NEYLƏDİN?

Ərdəşəvi kəndində Söyzalı addı bir şofer olur. Buna təzə maşın vermillər. Elə köhnə maşınnarı atıllar ora ki, Söyzalı bunu sürsün. Nəysə, təzə maşınnar gəlir, ayrı adamlara verillər, Söyzalı gənə qalır kənarda. Məhəmməd Səyyah da bunu tanıyır. Buna pis təsir eliyir ki, Söyzalı burda illərlə nöbədədi, hər dəfə təzə gələn maşını başqa adama verillər. Bir gün limit gəlir, təzə maşın verifl ər kalxoza. Hamı da bir ağızdan deyir ki, verilməlidi Söyzalıya. Elə ki iş həll olan mərhələyə çatanda maşını Şikar addı bir adama verillər. Məhəmmət Səyyah da bunnan xəbər tutur ki, bu nətər işdi. Gənə Söyzalı qaldı qıraxda. Onda belə bir şeir yazır:

Yenicə özünə bir yuva hörən,
Cəhənnəm odunu gözüynən görən,
Ömür boyu cındır maşınnar sürən,
Dünya, söylə, Söyzalını neynədin?

Dünya, Söyzalını sən yola saldın,
Dalınca ucadan bir zurna çaldın,
Əvəzində Şikardan bir gəvə aldın,
Dünya, söylə, Söyzalını neynədin?

## GEDİR

Laçında taxılçılığı ləğv eləmişdilər. Halbuki Laçın müharibə vaxdı taxılla özündən başqa neçə rayonu təmin etmişdi. Ona bir şeir yazmışdı. Onun üsdündə KKB-dən çağırıf aparmışdılar Stepanakertə, izahat almışdılar. Demişdi, mən olan şeyi yazmışam, Laçında əkinçiliyi niyə ləğv eliyirsiz?

Gözün aydın ay sədr, kalxozçun karvana gedir
Üçü Dığa una, beşi Şirvana arpaya gedir.

## QARA DEYİLMİ?

Süleyman Rəhimov tapşırır ki, Minkəndin başı üsdündə Mərcan bulağı var. Gedərsən o bulağa şeir yazıb gətirərsən. Bu gedər gejə yatar orda. Alxasdı fermasının camahatı, qız-gəlini o bulaxdan su götürür. Səhər gələr ki, bulağın üsdündə kürkün altında bir adam var. Qız-gəlin bulağa yaxınnaşmaz. Bu da qəsdən özü tərpənmiyif. Nəysə, çobannara xəbər verillər. Çobannar gəlir. Tərpədəndə baxırlar ki, Məhəmmətdi. Ə, camahatı sarımısan? Dur belə. Bu da şeiri yazmışımış.

Nəysə, bunu gətirillər obaya. Bizim obada bir sünnət toyu varmış. Deyillər ki, yaxşı gəlmisən. Məhəmmət Səyyah da yaxşı saz çalırmış. Deyillər, gedəjeyih o sünnət toyuna. Məhəmmət Səyyah deyir, məni siz tanıyırsız, amma o camahat tanımır. Onda maa

gətirin bir paltar geyindirin, erməni adıynan aparın o məclisə. Orda da Ağcabədidən Aşıq Abdüləli varmış, məclisi o idarə eliyirmiş. Nəysə, gedillər məclisə. Çobannar bilir axı bu Səyyahdı. Bunnar deyir, kirvə, burdan otur, kirvə, burdan otur. Məhəmmət Səyyaha deyillər ki, ə, kirvə, olar o sazı çalasan? Aşığ Abdüləli deyir, erməni hara, saz hara? Sazımı xarab eliyər. Deyillər, əşi gətir ver, görək dınqıldada bilir? Nəysə sazı alıb verillər. Bu başdıyır sazı köklüyür. Sazı köklüyəndə Aşığ Abdüləli görür, sən öl, bu sazı köklüyür. Bu başdıyır çalıb oxumağa. Çalıb oxuyanda deyir, ə, bu erməni heç erməni ləhcəsiynən çalıb oxumur. Burda deyillər, çalın, aşığ oynasın. Bunu oynadıllar. Oynuyanda, deyir, qara geyimli bir gəlin gəldi mənnən oynadı. Demiyəsən, bu da sünnət toyu olanın mamasıdı. Onnarın da əsilləri Ağcabədinin Qaradolax kəndinnən idi. Qannıçılığ olub iki qardaş köçüb bizim kəndə. Gəlinin adı Solmaz idi. Solmaz da Ağcabədiliyə ərə getmişimiş. Onun əri öz anasını gülləynən atır. Oğlanı tutullar, səkgiz il iş verillər. Gedənnən sora bu gəlin Ağcabədidə qalmır, gəlir qardaşıgildə qalır. Deyir, bu gəlin də qara geyinif. Qara geyindiyinə elə bilginən yoldaşım Kəklik gəldi durdu gözümün qabağında. Deyir, elə ordaca qolum boşaldı, mən oynamadım, çıxdım çölə. Dedilər, Səyyah, niyə çıxdın, niyə oynamadın? Dedim, maa bir qələm-dəftər verin, yanıma da heş kim gəlməsin. Deyir, boş alaçıxda oturdum yazdım.

Zalım qızı, niyə qara geymisən,
Lalənin ürəyi qara deyilmi?
Cavan yaşda bu don yaraşmır sana,
Mənim də ürəyim para deyilmi?

Soyun qəm libasın, sil gözün yaşın,
Marala bənzətdim kamanı-qaşın,
Qanıram bəlaya düçardı başın,
Onsuz da ürəyim yara deyilmi?

Əynində qara don, başında çarxat,
Yoxsa səni sıxır dalğalı həyat,

Mən səni qanıram küllü-kainat
Sözlərim dərdinə çarə deyilmi?

**YATIBDI**

Qəbirstannığa gəlir. Görür ki, başdaşının üsdünə yazılıf ki, bu məzarda yatanı öz qardaşı öldürüf.

Qarqar kənarında məzarsandıqda,
Neçə ağa, neçə sultan yatıbdı.
İgid sərkərdələr, igid cavanlar,
Yanlarında Xan Natavan yatıbdı.

Gözəllər vurğunu Vaqif hardadı?
Cıdır düzündədi, dar məzardadı.
Heykəlsədə sanki könlü yardadı,
Xəyalında tək Xuraman yatıbdı.

Qarabağın saysız igid ərləri.
Süfrə sahibləri, mərd iyidləri.
Aşıq Valeh, bir də o gözəl pəri.
Zərniyartək dəli ceyran yatıbdı.

Səyyaham, oxudum bir başdaşını,
Qardaş öldürüb öz qardaşını.
Qan ilə tarixə yazıb yaşını,
Eyliyib özünə divan, yatıbdı.

**DAĞLAR**

Qanı qanla yumuyublar,
Qan etməyin qana dağlar.
Qohum-qardaş aralıdır,
Kimlər dərdim qana, dağlar?

Azalmır sinəmdən ağrım,
Mıxtökən olubdu Ağrım.
Saz olmasa çatlar bağrım,
Ömrüm yetər sona, dağlar.

Yazda yaramı bağlarsız,
Həm gülərsiz, həm ağlarsız,
Gah barlısız, gah da barsız,
Girərsiz min dona, dağlar.

Üstümə düşəndə toran,
Çox görmüşəm sizdə boran,
Olmayın Səyyahı yoran,
Həyan olun ona, dağlar.

## DƏYMƏSİN

Vətən davasında vurdu haramı,
Yellər əsdi sızıldatdı yaramı,
Payızın çovğunu, qışın boranı
Mənə dəysin, nazlı yara dəyməsin.

Yaralandım, ana, aprel ayında,
Öz qanımı yudum Oka çayında,
Üzü tutqun günəşində, ayında,
Həkimlər eyləsin çarə, dəyməsin.

Qızıl qan ağ qarda andırır gülü,
Görsə, valeh edər şeyda bülbülü,
Gözüm qabağında Azəri eli,
Heç kimsəyə dəmir parə dəyməsin.

Beş qızın qardaşı, tək İsbəndiyar,
Vuruldu, sinəmdə neçə dağı var.

İgid oğlannara məzar oldu qar,
Əritməsin günəş, qara dəyməsin.

Hayıf sənə, qarabağlı Nər Həsən,
Ömründə bilmirdi nə qəm, nə kədər,
Vətən həsrətiynən hər axşam-səhər,
Həsrət könüllərə qara dəyməsin.

Dörd yanımız olub qardaş məzarlar,
Hitler salıb cana dərdi-azarlar,
Qərargahdan gündə əmr yazarlar,
Can getsin, Vətənə yara dəyməsin.

Səyyaha əzizdi vətənlə ana,
Hər çətinlik qismət olur insana,
Ölərsəm, qurbanam Azərbaycana,
Yad ayaxlar bu diyara dəyməsin.

## AĞLAR MƏNİ

Öləndə dəfn edin güllü bağımda,
Hər gəlif getdihcə el ağlar məni.
Dağlardan kükrəyif gələndə sellər,
Böyrümdə çağlayan sel ağlar məni.

Baş daşıma yazın bir silah, bir saz,
Mənim kimi dərdli heç yerdə olmaz.
Bülbüllər üsdümdə etdihcə avaz,
Sədəfli sazımda tel ağlar məni.

Qarşıdan keçdihcə dağlar maralı,
Desinlər eşqindən olmuş yaralı,
Axır ki bu yerdə tapıb qərarı,
Zülf topuqda, incə bel ağlar məni.

Yarpaqlar da deyər başı bəlalı,
Ciyərində çoxmuş dərdi, məlalı,
Kitablarda qaldı cahı-cəlalı,
Aylar dövr etdikcə, il ağlar məni.

Kim ki vurğunudur söhbətin, sözün,
Həzin musiqinin, neynən, sazın,
Həsrətin çəkənlər laləzar yazın,
Ürək yanar, şirin dil ağlar məni.

Gül kolunu sağlığımda salmışam,
Təsəllimi el-obadan almışam,
Şeir yazıb, burda sazda çalmışam,
Hər açdıqca qönçə, gül ağlar məni.

Halallığ alaram obadan, eldən,
Bu torpağı aldım tərimlə seldən,
Soruşan olarsa külüknən beldən,
Körpü sahib durar, yol ağlar məni.

Tək bircə vətəndir dinim, imanım,
Yolunda qurbandır bədəndə canım,
Bilirəm unutmaz Azərbaycanım,
Səyyah deyib daim bol ağlar məni.

## TALEH, ETMƏ MƏNİ NAMƏRDƏ MÖHTAC

Taleh, etmə məni namərdə möhtac,
Tikəsini yarı bölənnərdənəm.
Qananlar bilməsə qədrimi əgər,
Yüz il bunnan qabax ölənnərdənəm.

Cumayam, Cununam çəkmişəm qəhər,
Eşqində olmuşam Kərəmdən betər,

Tufarqanlı Abbas, Aşıq Ələsgər,
Onnarın zərrəsin bilənnərdənəm.

Çiynimdə aftamat, altımda saz at,
Əmr bitirmişəm nişaqu nazad[50],
Vətən torpağını edərkən azad
Faşizmin bağrını dələnnərdənəm.

Tufanda, boranda çəkmərəm ahı,
Ümidlə yaşaram axşam-sabahı.
Bu odlar yurdumun mənəm Səyyahı
Berlində döyüşüb gələnnərdənəm.

## GƏLSİN[51]

Bürüyüb dağları nərgiz, bənövşə,
Kim dərmək istəsə bu qaşa gəlsin.
Uşaqlar, cavanlar, gəlinlər, qızlar
Sevinclə əl tutub yanaşa gəlsin.

Qəlbləri şad etsin quşların səsi,
Çağlayan suların həzin nəğməsi.
Seyrə çıxanların artar həvəsi,
Arandan yaylağa birbaşa gəlsin.

Qoy həsrət çəkməsin aran yaylağa,
Əmlik kababına, yağa, qaymağa,
Yad etsin bizləri Laçınlı Ağa,
Baş çəkməyə qohum-qardaşa gəlsin.

[50] nişaqu nazad – rus kəlməsi: neşaq nazad
[51] Laçın qəzetinin 1973 cü il 2 iyun nömrəsində dərc olunub.

Mərdlərdən uzaqda dayansın xəta,
Toy büsatı qursun oğulla ata,
Səyyah şeir qoşsun bu şən həyata,
Telli saz məclisdə qoy coşa gəlsin.

## LAÇINDA

Yayda gül-çiçəyə bürünür dağlar,
Payız yeli sərir xəzəl Laçında.
Hər hansı şairin düşsə güzarı,
Yazar şeir, qoşma, qəzəl Laçında.

Qaynar bulaqları şəfa verəndir,
Sərin xoş havası səfa verəndir,
Heç kəs deyə bilməz cəfa verəndir,
Əgər olubdursa əzəl Laçında.

Uzunyal, Mıxtökən qaymaqlı, yağlı,
Sarıbaba dağı könlümə bağlı,
Səyyah Məhəmmədin cəm olsa ağlı,
Nicat yolu tapar gözəl Laçında.

## ŞAİR MƏMMƏDALI

## PAŞA BƏYİN TƏRİFİ

Paşa bəy Şair Məmmədalıya deyif ki, vayına oturum, hamıya yazdın, heş mana bir şey demədin. Deyif ki, deyim da.

Mən aşığam, Paşa bəy,
Sür devranın başa, bəy.
Bu dəm, bu dəsgah
Sənnən getsin başa, bəy.

Paşa bəy deyir:

– Yox, düz demirsən.

Deyir:

– Qoy düzəldim.

Mən aşığam, Paşa bəy,
Sür devranın başa, bəy.
Bu dəm, bu dəsgah
Sənnən getməz başa, bəy.

Deyir, hə, bax belə de. Bu devran mənnən başa gedə bilməz.

## DAĞLAR

Nola, yollar işdiyə,
Aşam Şəlvəyə, Daşdıya.
Babaduna, Qısqaşdıya
Bir də yolum düşə, dağlar.

Təkədonduran yavadır,
Qırxqız dərtdərə davadır.
Oylağım Sarı babadır,
Ölüb səndə qalım, dağlar.

Gələndə Lalalıdan aşdım,
Dik Pilələndə dolaşdım.
Qayıdanda yolu çaşdım,
Halım oldu zulum, dağlar.

Soruşsalar, Kavannıyam,
Sinəsi, köksü qannıyam.
Mən Şair Məmmədalıyam,
Yaman pisdi halım, dağlar.

## AŞIQ UMBAY

Axundov Umbay Sadıq oğlu 1940-cı il martın 21-də Laçın rayonunun Qarakeçdi kəndində ziyalı ailəsində anadan olub. Atası Axundov Sadıq Mikayıl oğlu ruhani təhsili almış və Azərbaycan dastanlarının əksəriyyətini bilirdi. 1956-cı ildə Minkənd kənd orta məktəbini, 1964-cü ildə Şuşa kənd təsərrüfatı texnikumunun bay-

tarlıq fakültəsini, 1974-cü ildə isə Gəncə Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini bitirmişdir. Gənc yaşlarından aşıqlıq sənətinə böyük həvəs göstərmiş və iki il Mais Gəncəlidən aşıqlıq sənətinin sirlərini öyrənmişdir. 1971-ci ildə Gəncədə keçirilən rayonlararası aşıqlar festivalında I yerə lAyiq görülmüşdür. 1989-cu ildən Respublika Aşıqlar Birliyinin üzvüdür. 1992-ci ildə Zəlimxan Yaqubun redaktorluğu ilə şeirlərdən ibarət "Laçında dillənən saz" kitabı çap olunmuşdur. 2008-ci ildə V aşıqlar qurultayında birliyin idarə heyətinin üzvü seçilmişdir. 2009-cu ildə aşığın yetmiş illik yubileyi dövlət səviyyəsində qeyd olunmuş, mədəniyyət nazirliyinin fəxri fərmanı və pul mükafatı ilə təltif olunmuşdur. "Sadığı" və "İşıqlı" saz havalarının müəllifidir. Aşığın ifasında "Şah Abbas və Gülizar" və özünün müəllifi olduğu "Laçın həsrəti" dastanı lentə alınmışdır.

**YALANDI**

İnsan əşrəfidi yaranmışdarın,
Elə bu kəlmənin özü yalandı.
Deyillər, dünyada haq var, divan var
Yaman alladıflar bizi, yalandı.

Həftə keşdi, ay dolandı, il oldu,
Dərd əlinnən dilbilməz də dil oldu.
Bir halda əməyim yandı kül oldu,
Yoxdu həqiqətin izi, yalandı.

Umbay bu hikmətdən olmadı agah,
Hak boynunu büküf, hökm edir günah,
Az qalıram deyəm əstəfirillah,
Görəmmir tanrının gözü, yalandı.

## ONDA YADA ŞEİR DÜŞÜR

Yaltaq ucuz satır sözü,
Ürəyimi bənd-bənd edir.
Bilmir əyri ilə düzü,
Xeyri üçün ikiləşir,
Onda yada şeir düşür.

Günahları özü boyda,
Elinə verməyir fayda.
Birdən dəyişəndə qayda,
Sözü ağzında ilişir,
Onda yada şeir düşür.

Qəlbdən əyri, dildənsə düz,
Vijdan ləkə, paltar təmiz.
Günahın yumaz bir dəniz,
Guya xalqa bağrı bişir,
Onda yada şeir düşür.

Beləsi qorxur aynadan,
Gözü doymayır dünyadan.
Bir də görürsən ki, nadan
Yuxarı başda əyləşir,
Onda yada şeir düşür.

Kefi duru, damağı çağ,
Özünü düşünür ancaq.
Umbay beləsinnən uzaq,
El malını yeyib şişir,
Onda yada şeir düşür.

## QALDI

Ziyarətgahımdı ata ocağı,
Mənimçün müqəddəs pir idi, qaldı.
Səsin eşitmədik ulu dağların,
Ağladı-ağladı, kiridi qaldı.

Xınalı kəkliyin xəzin nəğməsi,
Mavi səmalarda qartalın səsi,
Bulağ zümzüməsi, çay şəlaləsi
Qiymətli sərvət idi, dür idi, qaldı.

Kəkotu, qantəpər, zirəçiçəyi,
Yasəmən, gülxətmi, moruğ ləçəyi,
Çiyələk, baldırğan, ayı döşəyi,
Ləli-gövhər idi, nur idi, qaldı.

İçimi yandıran alov ahımdı,
Zülmətə çevrilən nur sabahımdı,
Siznən ünsiyyətdə olan ruhumdu,
Umbay o dağlarda əridi qaldı.

## QALAMDIR SAZIM

Həm saz övladıyam, saz varisiyəm,
Həm də ki, sinəmdə balamdır sazım.
Günəşə, vətənə, eşqə, ülfətə
Şöhrətdir, alqışdır, salamdır sazım.

Həyat dərsliyidir qədir bilənə,
Dünya saz nuruna gərək bələnə,
Qızıl şəfəqləri qəlbə çilənə,
Öyüddür, hikmətdir, kəlamdır sazım.

Zəfərim, harayım, hayım ondadır,
Günəşim, ulduzum, ayım ondadır,
Mərifət, məhəbbət, payım ondadır,
Bir ölməz sevdadır, ilhamdır sazım.

Əzəldən qılınca bir qardaş olmuş,
Bahar bulududək boşalmış, dolmuş,
Haqqın döyüşündə yaralar almış,
Basılmaz, yenilməz məramdır sazım.

Onun nəğmələri Kürdür, Arazdır,
Əslimin, soyumun anası sazdır.
Bu sözü qəbrimin daşına yazdır:
Umbayam, alınmaz qalamdır sazım.

## ARASINDA

Birisi ayrılıq, biri vüsaldır,
Qalmışam iki cür yol arasında.
Ya qolum quruya, boynuna həsrət,
Ya səni nazlaram qol arasında.

Mən sənin dalınca ləliyəm, lələk.
Çoxdur yad ovçular, dilbilməz əlik.
Tərlan qorxusunnan xınalı kəklik,
Qurar yuvasını kol arasında.

Birdən meylin dönər haram sərvətə,
Baxmazsan peymana, eşqə, mürvətə,
Uyarsan rütbəyə, ada, şöhrətə,
Qalarsan ürəklə pul arasında.

Sənin Umbay kimi əhli-halın var,
Bilmirəm nə meylin, nə xəyalın var.

Hər dodaq üstündə bir tək xalın var,
Dirilik bulağı xal arasında.

## VAR

Bəxtəvərsən, telli sazım,
Od ürəkli diyarın var.
Qorqud kimi Baba dağın,
Ələsgər tək Qoşqarın var.

Nələr deyim, nələr sana,
Quzu könül mələr sana.
Kim toxuna bilər sana,
Öz Koroğlu simsarın var.

Telindədi Qurbanilər,
Gəraylılar, divanilər,
Qoy çağlasın ruhanilər,
Xəzanım var, baharın var.

“El havası” bir dəryadır,
Həm cəngidir, həm layladır.
Bir nağıldır, bir röyadır,
Nə şirin bəhrə-barım var.

Sən oldun ömrümün dadı,
Gül açdı könül muradı,
Umbayın kamil ustadı,
Əmrahın, Kamandarın var.

## BULAQ

Kor olaram, gözlərinə
Baxmasa gözüm, ay bulaq.
Söykənsin billur üzünə,
Sərinnəsin üzüm, ay bulaq.

Yaxşı bax bu yer üzünə,
Bir gör əyrisi, düzü nə?
Yolundakı yar izinə,
Qarışsın izim, ay bulaq.

Qəlbi nədən daşa döndü?
Bir vəfasız quşa döndü,
Gözlərimdə yaşa döndü,
O pünhan sözüm, ay bulaq.

Ürəyimdə nakam dilək,
Mələyər yetim quzu tək.
Səninlə sərniməz ürək,
Mən necə dözüm, ay bulaq?

O bədr olan gözəl aya,
Yalvardım, salmadı saya.
Aşıq Umbay bir sal qaya,
Sən gümüş sazım, ay bulaq.

## BAXTIMI

Dünyanın tilsim qarısı,
Qərq eylər selə baxtımı.
Zəncirləyər Məcnun kimi
Aparar çölə baxtımı.

Günəşimi arasalar,
Yol azdırar yarasalar,
Zalım hicran qara salar,
Dağlarda Lələ baxtımı.

İçdiyim qəm ağusudur,
Aləm onun yağısıdır,
Qərib çöllər ahusudur,
Gözləyər tələ baxtımı.

Saçımda rəngi var qışın,
Qəm dövrəmdə qoşun-qoşun,
Çiyində hicran, qurğuşun,
Yıxar bu şələ baxtımı.

Olum dünya, ölüm dünya,
Axır başı ölüm dünya,
Umbayam, bu zalım dünya,
Sovurdu yelə baxtımı.

## HEYİF

***Möhübbət Həsənovun vaxtsız vəfatına***

Yenə yada düşdü, can ay Möhübbət,
O məğrur, dolaşıq telinə heyif!
Yandırar aləmi vaxtsız tənəzzül,
Ağır itgi oldu elinə, heyif!

Qamətin yadıma düşəndə necə,
Gözlərim qaralır, gün olur gecə,
Hamı heyran idi səndəki gücə,
Pəhləvan qüvvətli qoluna heyif!

Nə deyim həyatın belə işinə,
Bağlanan bir ömrün bu gərdişinə,
Enli kürəyinə, aslan döşünə,
O pələng pəncəli əlinə heyif!

Umbayam, baş əydim mərhəmətinə,
Ali əqidənə, ədalətinə,
Düzgün eytibara, sədaqətinə,
Sahibsiz sazının telinə heyif!

## AMANDI

Atam Sadıq deyərdi ki, ay oğul,
Haramı halala qatma, amandı!
Mənliyin, vicdanın, saflığın olsun,
Yadlar ətəyindən tutma, amandı!

Deyərdi ki, unutma sən ağlını,
Babaların nəsihətini, nağlını.
Tanıyıram bir nainsaf oğlunu,
Onun tilsimində yatma, amandı!

Bir də deyərdi ki, Vətən yaxşıdır,
Sadalardı nədən, nədən yaxşıdır.
Vətənin xeyrini güdən yaxşıdır,
Zərrəsin heç nəyə satma, amandı!

Deyərdi ki, çox insanlar görmüşəm,
Sərvət üçün alçalanlar görmüşəm,
Alçaqlıqla ucalanlar görmüşəm,
Bax, belə şöhrətə çatma, amandı!

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Abasəliyeva Güllü Səttar qızı, Laçın rayonu, Vağazin kəndi, 1941-ci il, yeddi illik təhsil. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi bayatılar:** 1-221. *Toplayanı: İ.Rüstəmzadə*

Abbasov Asif Şura oğlu, Laçın rayonu, Arduş kəndi, 1962-ci il, orta təhsilli, ticarətlə məşğuldur. **Söylədiyi mətnlər:** Ovçuluqla bağlı xatirələr (III mətn); Ərimgəldi. **Aşıqlar və el şairləri:** Aşıq Abbas (XII-XX mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Abbasov İnşallah Abış oğlu, Laçın rayonu, Piçənis kəndi, 1927-ci il, orta təhsilli. Binəqədi rayonunda məskunlaşıb. **Söylədiyi mətnlər:** Paşa bəy (XIV mətn). **Aşıqlar və el şairləri:** Aşıq Abbas (XI mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Abbasov Yaqub, Laçın rayonu, Güləbird kəndi, ali təhsilli müəllim. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Sarı Aşıq (XVI-XVIII mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Abdullayeva Qələm Əhməd qızı, Laçın rayonu, Qazıdərəsi kəndi, təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Güdul adam; Ata məsləhəti. **Vergili adamlar haqqında:** (II mətn). **Nağıl:** Sarsaq arvad. **Lətifə:** Adamı adam yanına göndəriblər; Hamısı var. *Toplayanı: S.Bağdadova*

Ağayeva Atlas Məhəmməd qızı, Laçın rayonu, Qazıdərəsi kəndi, 1937-ci il, təhsilsiz. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Seyid Səfi ocağı. *Toplayanı: S.Bağdadova*

Axundov Umbay Sadıq oğlu, Laçın rayonu, Qarakeçdi kəndi, 1940-ci il, ali təhsilli. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** **Nağıl:** Şah Abbas və üç oğru. **Lətifə:** Bəhməzin tamı yoxdu. **Dastan:** Nigarın İstanbula aparılması. **Aşıqlar və el şairləri:** Aşıq Valehin Şuşa səfəri; Aşıq Abbas (X,

XXIX mətnlər); Nadir Şah və Sulduzlu Aşıq Bəhmən; Qara Kərim və Qızxanım (I mətn). **Şeirlər:** Olmaz; Arvad; Dərdini; Keçi; Yatıbdı; Dağlar; Dəyməsin; Ağlar məni; Taleh, etmə məni namərdə möhtac; Gəlsin; Yalandı; Onda yada şeir düşür; Qaldı; Qalamdır sazım; Arasında; Var; Bulaq; Baxtımı; Heyif; Amandı. *Toplayanı: İ.Rüstəmzadə*

Aslanov İbiş Şərif oğlu, Laçın rayonu, Mişni kəndi, 1940-cı il, inşaatçı olub. Abşeron rayonunun Sulutəpə qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Gəloxçu tayfası (II mətn); Laçın adının mənşəyi. **Səyyah Məhəmmədin şeirləri:** Gedir; Qara deyilmi? *Toplayanı: İ.Rüstəmzadə*

Aslanov Surxay Aslan oğlu, Qubadlı rayonu, Qaracallı kəndi, 1931-ci il, ali təhsilli, uzun müddət müəllim işləyib. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Mirsədi ağa (III mətn); Korlar kəndi; Nəzir bulağı. *Toplayanı: İ.Rüstəmzadə*

Aslanov Şahsuvar İsgəndər oğlu, Laçın rayonu, İrçan kəndi, 1953-cü il, orta təhsilli. Bilgəh qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Cağazurlu Ağamməd. *Toplayanı: İ.Rüstəmzadə*

Aslanova Əfruzə Əli qızı, Laçın rayonu, Cicimli kəndi, 1975-ci il, orta təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Arvaddan qorxan kişi. *Toplayanı: S.Bağdadova*

Balakişiyev İsmixan Calal oğlu, Qubadlı rayonu, Başarat kəndi, 1948-ci il, ali təhsilli. **Söylədiyi mətnlər:** Əlyanlı qaçaqları (VI mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Bayramov Cavanşir Fərman oğlu, Laçın rayonu, Mais kəndi, 1951-ci il, səkkizillik təhsil, sürücü işləyib. Ağcabədi rayonunda məskunlaşıb. **Söylədiyi mətnlər:** Gəloxçu tayfası (I və III mətnlər); Ərəblər nəsli; Qaçaq Səfo (II mətn). **1918-ci il hadisələri xatirələrdə:** (III mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Behbudov Xanlar Mustafa oğlu, Laçın rayonu, Malıbəy kəndi, 1938-ci il, orta təhsilli, sinif müəllimi. Qala qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Malıbəy kəndi. *Toplayanı: İ.Rüstəmzadə*

Bədəlov Əyyub Bağman oğlu, Qubadlı rayonu, Dəmirçilər kəndi, 1942-ci il, ali təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Hacı Bədəl (I-V mətnlər). **Etnoqrafik mətn:** Novruz adətləri (VIII mətn). **Lətifə:** Dəli sözü (II mətn); Keçən il vurdum, oldu; Həkim, ölməyim məsləhətdi; Yüz qıram içməklə çərlədin; Mən də arvad kimi bir şeyəm; İt de, qurd de, nə deyirsən de. *Toplayanı: İ.Rüstəmzadə*

Bəxtiyarov Məmmədqulu Bərxudar oğlu, Laçın rayonu, Güləbird kəndi, 1954-cü il, ali təhsilli riyaziyyat müəllimi. **Söylədiyi mətnlər:** Bayramuşağı nəsli; Kolanı İsmayıl. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (XIV mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Bəndəliyev Əyyub İsmayıl oğlu, Laçın rayonu, Qarakeçdi kəndi, 1925-ci il, ali təhsilli. Ağcabədi rayonunda məskunlaşıb. **Söylədiyi mətnlər:** Cin haqqında (I mətn); Həzrət Əli haqqında digər mətnlər (III mətn); Səfqulu və Ağəli nəsli (I mətn); Əsli-Kərəm bulağı; Gəlmədin. **Nağıl:** Dünyanı necə tutsan elə də gedər. **Lətifə:** Bu bızındı (I mətn); Kamallının sifarişi; İstənilməyən qonaq (II mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Dəmirov Qafqaz Əvəz oğlu, Qubadlı rayonu, Mahmudlu kəndi, 1954-cü il, orta təhsilli. **Söylədiyi mətnlər:** Usuflu kəndi; Şah taxtı. **Lətifə:** İki çayın arasından keçəsən, südün əskik gələ (I mətn); Sənin qızınla cənnətə getməkdənsə, cəhənnəmə gedərəm; Özümə yer eləməliydim da; Əmioğlu yeyə; Demirsən olsa; Kiriş və süpürgə əhvalatı. *Toplayanı: S.Bağdadova*

Əbişova Zəminə Məhəmməd qızı, Qubadlı rayonu, Qaracallı kəndi, 1948-ci il, təhsilli. Abşeron rayonunun Saray qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Ardıc ağacı; Mirsədi ağa (I mətn); Məşədi Bağdad; Həzrət Əli addıyan dərə. **Etnoqrafik mətn:**

Novruz adətləri (VII mətn). **Lətifə:** Ölüm pulumu elə bu başdan ver; Çöngə oğurluğu. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (XIX mətn). *Toplayanı: S.Bağdadova*

Əhmədov Cavanşir Məhəmməd oğlu, Laçın rayonu, Kamallı kəndi, 1937-ci il, orta təhsilli, sürücü işləyib. **Söylədiyi mətnlər:** Qurd qadın (III mətn); Əli bulağı (I mətn); Şah Abbasın qatırı. **Lətifə:** Fatihəni kimin adına verəcəyəm (II mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Əhmədov İsa Səttar oğlu, Laçın rayonu, Vağazin kəndi, 1934-cü il, orta təhsilli. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Qurd qadın (I mətn); Hacısam nəsli (III mətn); Vağazin kəndi; Alqulu kəndi (I mətn); Bəyin zağası; Paşa bəy (IX, XI və XII mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

**Əlişoğlu Əbülfət. Başı bəlalı kəndim. Sumqayıt: "Zərdabi", 2006 kitabından götürülmüş mətnlər:** Ovçular haqqında xatirələr (IV mətn); Xəsis adam; Laləzar körpüsü; Dünyamalı; 1918-ci il hadisələri xatirələrdə (V mətn).

Əliyev Əli Umud oğlu, Laçın rayonu, Ərikli kəndi, 1934-cü il, ali təhsilli müəllim. Müəllimlər İnstitutunun Ağcabədi filialında işləyir. Ağcabədi rayonunda məskunlaşıb. **Söylədiyi mətnlər:** Paşa bəy (I-II mətnlər); Dovşanı araba ilə tutmaq. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (VI-VIII mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Əliyeva Çimnaz Bayramalı qızı, Qubadlı rayonu, Hacılı kəndi, 1952-ci il, təhsilli. Sumqayıtda məskunlaşıb. **Söylədiyi mətnlər:** Qaranquş haqqında; Sərçəni öldürmək savabdı (II mətn); Baramaqurdu; Həzrət Əli və gavur; Böyüyə hörmət; Ömür suyu; Seyid Səlim ocağı; Qaçaq Baba (V mətn); Sevgi-məhəbbət bazarlığı; Ağacla bağlı xeyir-dua. **1918-ci il hadisələri:** (I mətn). **Nağıl:** Çörəyə ehtiram (I mətn); Otuz illiyə verilən var-dövlət. **Lətifə:** Dəli sözü (I mətn); Donum, aş ye. *Toplayanı: S.Bağdadova*

Əliyeva Roza Fərəməz qızı, Zəngilan rayonu, Mincivan qəsəbəsi, 1948-ci il. **Söylədiyi mətnlər:** Allah məni xilas edəcək. **Na-**

**ğıllar:** Şah Abbas və keçəl; Allahla şərikli bostan əkən qoca; Pirqulunun şahlığı; Çirkin qızın bəxti; Arvad şəri. **Bayatılar:** 222-249. *Toplayanı: Ü.Əliyeva*

Əsədov Ədalət İxtiyar oğlu, Qubadlı rayonu, Göyyal kəndi, 1959-cu il, ali təhsilli müəllim. Sumqayıt şəhərində məşkunlaşıb. **Söylədiyi mətnlər:** Göyyallılar haqqında (I mətn). **Etnoqrafik mətn:** Sürəkçi. **Lətifə:** Sən allah, onun kökünü kəssənə. *Toplayanı: İ.Rüstəmzadə*

Əsədova Savat Cümşüd qızı, Qubadlı rayonu, Xələc kəndi, 1937-ci il, təhsilsiz. **Söylədiyi mətnlər:** İmamzadə. **Nağıl:** Məhəmməd Hənifə. *Toplayanı: İ.Rüstəmzadə*

Əsgərov Famil Məhəmməd oğlu, Laçın rayonu, Dambulaq kəndi, 1959-cu il, orta təhsilli, sürücü işləyib. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. Söylədiyi mətnlər: Qaçaq Nəbi (IV mətn). **Lətifə:** Özün halal edəcəksən. **Aşıqlar və el şairləri:** Aşıq Abbas (II mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Güləliyev Nuruş Xanhüseyn oğlu, Laçın rayonu, Şeylanlı kəndi, 1937-ci il, ali təhsilli. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Səfqulu və Ağəli nəslinin mənşəyi (II mətn); Şeylanlılar haqqında; Sultan bəy (VI və IX mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Gülməmmədov Zakir Ofşar oğlu, Laçın rayonu, Kosalar kəndi, 1941-ci il, orta təhsilli, ticarətlə məşğul olub. **Söylədiyi mətnlər:** Çılpaq donuz (I mətn); Ağoğlan məbədi; Sultan bəy (IV və X mətnlər); Hərənin öz qisməti var. **Nağıl:** Dülgər Əhməd. **Lətifə:** Gülməyən Bəhlul; Bəhlul ulağı ağaca dırmaşdırır. *Toplayanı: İ.Rüstəmzadə*

Heydərova Balaxanım Calal qızı, Laçın rayonu, Dambulaq kəndi, 80 yaşında, yeddiillik təhsil. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Həzrət Əli haqqında digər mətnlər (I mətn); Seyid Alı xəlifə (IV-VI mətnlər). **Etnoqrafik mətn:** Xıdır Nəbi (I mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Həmidov Nəriman Şükür oğlu, Qubadlı rayonu, Armudlu kəndi, 1933-cü il, orta-ixtisas təhsilli müəllim. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Səbət keçməz; Qaçaq Nəbi (IX mətn); Əlyanlı qaçaqları (I-IV mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Həsənalıyev Malik Babaş oğlu, Laçın rayonu, Güləbird kəndi, 1954-cü il, orta təhsilli, bərbər işləyir. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Cicimli ocağı (II mətn); Hazırcavab laçınlı. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (XX mətn). *Toplayanı:İ.Rüstəmzadə*

Həsənov Həsən Əsgərxan oğlu, Qubadlı rayonu, Fərcan kəndi, 1948-ci il, ali təhsilli müəllim. Sumqayıt şəhərində məşkunlaşıb. **Söylədiyi mətnlər:** Qaçaq Baba (I-IV mətnlər); Fərcan kəndi. *Toplayanı: İ.Rüstəmzadə*

Həsənov Hüseyn Həsən oğlu, Laçın rayonu, 1956-ci il, ali təhsilli, yas məclislərini aparır. Sumqayıt şəhərinin H.Z.Tağıyev qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Cicimli ocağı (I mətn); Malik Əjdər türbəsi (I mətn); Kar kümbəz (II mətn); Paşa bəy (XIII mətn); Sultan bəy (XII mətn); Sən dediyində durmadın. *Toplayanı: İ.Rüstəmzadə*

Hümmətova Kəmalə Xudam qızı, Qubadlı rayonu, Əfəndilər kəndi, 1965-ci il, təhsilli. **Söylədiyi mətnlər:** Üç qardaş. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (XXI mətn). *Toplayanı: S.Bağdadova*

Hüseynov Hilal Qoca oğlu, Laçın rayonu, Güləbird kəndi, 1936-cı il, orta təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Sarı Aşıq (I və XIII mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Hüseynov Mamay Qaçay oğlu, Qubadlı rayonu Sarıyataq kəndi, 1927-ci il, orta-ixtisas təhsilli, müəllim işləyib. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Malik Əjdər türbəsi (IV mətn); Mirsədi ağa (II mətn); Dərviş pirim; Soltanbud; Sarıyataqlılar haqqında (I mətn); Qaçaq Nəbi (I-III mətnlər); Əlyanlı qaçaqları (IX-X mətnlər); Padarlı Behbud. **Vergili adamlar haqqında:**

(III-IV mətnlər). **Lətifə:** Kimin ayağı mazol olar? **Aşıqlar və el şairləri:** Sarı Aşıq (XV mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Hüseynov Nuşirəvan Bəylər oğlu, Qubadlı rayonu, Qaralar kəndi, 1935-ci il, orta ixtisas təhsilli, uzun müddət briqadir işləyib. Sumqayıt şəhərində məşkunlaşıb. **Söylədiyi mətnlər:** Qaçaq Nəbi (VII-VIII mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Xıdırov Əziz Qasım oğlu, Laçın rayonu, Ağbulaq kəndi, 1966-cı il, ali təhsilli müəllim. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Temiruçan dərə; Kərimuçan dərə; Sınıq körpü; Qaçaq Fətulla (I-III mətnlər); Qaçaq Səfo (I mətn). **Lətifələr:** Bu bızındı (II mətn); Qara şeydən qorxarıq; Sıxdım ki suyu çıxa, öldülər. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (V mətn); Aşıq Bəylər. *Toplayanı: İ.Rüstəmzadə*

İbrahimov Cəfər Məmməd oğlu, Laçın rayonu, Oğuldərə kəndi, 1937-ci il. Şəki şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Adəmin cənnətdən qovulması; Seyid Mirəziz ağa (I-II mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

İlyasov Möhübbət Alış oğlu, Laçın rayonu, Ağanus kəndi, 1953-cü il, orta təhsilli, sürücü işləyib. **Söylədiyi mətnlər:** Eylas kişinin lətifələri. *Toplayanı: İ.Rüstəmzadə*

İsgəndərov Paşa Əvəz oğlu, Laçın rayonu, Ərikli kəndi, 1950-ci il, ali təhsilli riyaziyyatçı. Məktəb direktoru işləyir. Bərdə rayonunun Zümürxaç kəndində məskunlaşıb. **Söylədiyi mətnlər:** Dörd sevgi; Ömərin Fatmaya elçi düşməsi; Hacısam nəsli (II mətn); Səfqulu və Ağəli nəslinin mənşəyi (II mətn); Alqulu kəndi (II mətn); Paşa bəy (XVI-XIX mətnlər); Sultan bəy (V və XV mətnlər); İbrahim xanın oğlunun ölümü haqqında; Natəvanın Seyid Hüseynə ərə getməsi. **Nağıl:** Kor kişinin nağılı; Belə də qalmaz; Allahdan gələn bəla. **Lətifə:** Dünyanın ortası haradır? Pezəvəng. *Toplayanı: İ.Rüstəmzadə*

İsmayılov Allahqulu Sultanalı oğlu, Qubadlı rayonu, Göyyal kəndi, 1935-ci il, orta təhsilli, mexanik işləyib. Sumqayıt şəhərində

məşkunlaşıb. **Söylədiyi mətnlər:** Göyyallılar haqqında (II-III mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

İsmayılov Əyyub İdris oğlu, Laçın rayonu, Nağdalı kəndi, 1948-ci il, ali təhsilli, uzun müddət müəllim işləyib. Ağcabədi rayonunda məskunlaşıb. **Söylədiyi mətnlər:** Seyid Məşədi İmran (I mətn); Paşa bəy (III-V mətnlər); Sultan bəy (VII mətn); Xosrov bəy; Temir yüzbaşı (I-II mətnlər); Qaçaq Hümmət. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (IX-XII mətnlər); Aşıq Abbas (III və XXX mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

İsmayılov İsmayıl Sədi oğlu, Laçın rayonu, Cicimli kəndi, 1947-ci il, orta təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Musa peyğəmbər (I-II mətnlər); Malik Əjdər türbəsi (III mətn); Mir Həmzə Nigari (I-II mətnlər); Allahdan istəyən kişi. **Nağıl:** Qaraçuxasını axtaran kişi; Əcəli suda tamam olan gənc. **Lətifə:** Mən onların deyil, onlar mənimdir (I mətn). *Toplayanı: İ.Rüstəmzadə*

İsmayılov Vaqif Şərif oğlu, Laçın rayonu, Cicimli kəndi, 1946-cı il, ali təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətn:** Erkək Tavat (IV mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Kərimov Ağakərim Rəhim oğlu, Laçın rayonu, Zağaltı kəndi, 1936-cı il, ali təhsilli aqranom. Binə qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Hal haqqında (I mətn); Əli dostu; Paşa bəy (XXI mətn); Sultan bəy (XVII mətn); Kürdoğlu Məhəmməd (VI mətn). **Lətifə:** Qındı içəndə saqqalı tərpənirdi. *Toplayanı: İ.Rüstəmzadə*

Qorçuyev Xanış Seyfalı oğlu, Laçın rayonu, Səfyan kəndi, 1933-cü il, orta təhsilli. Sumqayıt şəhərində Kimya Texnologiyaları Texnikomunun yataqxanasında məskunlaşıb. **Söylədiyi mətnlər:** Qurd qadın (II mətn); Cin haqqında (II mətn); Qaçaq Nəbi (VI mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Mamedov Bayram Mövlamverdi oğlu, Laçın rayonu, Cicimli kəndi, 1933-cü il, orta təhsilli. Sumqayıt şəhərində məskunlaşıb.

**Söylədiyi mətnlər:** Mir Həmzə Nigari (III mətn); Kar kümbəz (I mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Mehdiyev Gümüş Balaca oğlu, Laçın rayonu, Arduşlu kəndi, 1940-cı il, orta təhsilli. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Misçi və Həşimlər nəsli (I-II mətn). **Aşıqlar və el şairləri:** Aşıq Abbas (XXI-XXV mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Məmmədov Əlizamin Yaqub oğlu, Laçın rayonu Çıraqlı kəndi, 1967-ci il, ali təhsilli, tamadalıq edir. Masazır qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Çıraqlı kəndi. **Aşıqlar və el şairləri:** Aşıq Abbas (XXVIII mətn); Növrəs İman; Ələsgərlə şəyirdi Musa; Qara Kərim və Qızxanım (II-IV mətnlər). **Qara Kərimin şeirləri:** Olur; Olmaz. *Toplayanı: İ.Rüstəmzadə*

Məmmədov Azad Gəray oğlu, Laçın rayonu, Güləbird kəndi, 1937-ci il, təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Güləbirddəki nəsillər (II mətn); Gavırlı dərəsi; Sultan bəy (VIII mətn); Erkək Tavat (III mətn). Sarı Aşıq (XXII mətn). *Toplayanı: S.Bağdadova*

Məmmədov Xudar Paşa oğlu, Qubadlı rayonu, Hacılı kəndi, 1932-ci il. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Hacılı kəndi; Sultan bəy (XIV mətn). *Toplayanı: S.Bağdadova*

Məmmədov Mehman Rza oğlu, Qubadlı rayonu, Sarıyataq kəndi, 1966-cı il, ali təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Sarıyataqlılar haqqında (II-III mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Məmmədov Məhəmməd Mürsəl oğlu, Laçın rayonu, Minkənd kəndi, 1936-cı il, orta təhsilli, yas məclislərini aparır. Binəqədi rayonunda məskunlaşıb. **Söylədiyi mətnlər:** Qarışqanın duası; Allah dəvənə bərəkət versin; Peyğəmbərin yalanı; Minkənddəki nəsillər (I-VII mətnlər). **Etnoqrafik mətnlər:** Xıdır Nəbi (II mətn); Ho-

lavar. **Nağıl:** Dilimi yaxşılığa öyrədirəm. **Lətifə:** Mən onların deyil, onlar mənimdir (II mətn); Kamallı kələyi; İstənilməyən qonaq (I mətn); Maşın tayanı yeyir. *Toplayanı: İ.Rüstəmzadə*

Məmmədov Telman Əziz oğlu, Zəngilan rayon, 1939-cu il, ali təhsilli müəllim. Bakı şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Sarı Aşıq (XXIV-XXV mətnlər). *Toplayanlar: F.Qasımova, G.Canməmmədova*

Mikayılov Bəxtiyar Temir oğlu, Laçın rayonu, Minkənd kəndi, 1936-cı il, üçillik təhsil. **Söylədiyi mətn:** 1918-ci il hadisələri (II mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Mirzəyev Koroğlu Sədi oğlu, Laçın rayonu, Kaha kəndi, 1957-ci il, orta-ixtisas təhsilli, ticarətlə məşğuldur. Ağdam rayonunun Quzanlı qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Niyyət daşı; Çatıqıran nəbi; Firəng yolu; Sultan bəy (I və XI mətnlər); Qaçaq Nəbi (V mətn). **Lətifə:** Bacadan asılan qazan; Şah Bəhlula yemək göndərir; Dənizdən çıxan əl. **Aşıqlar və el şairləri:** Aşıq Abbas (I mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Mustafayeva Telli Həbib qızı, Qubadlı rayonu, Qarağaşlı kəndi, 1943-cü il, orta-ixtisas təhsilli, tibb işçisi. Sumqayıt şəhərində H.Z.Tağıyev qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Eymənmə könlüm, eymənmə; Qaçaq Nəbi (X mətn); Erkək Tavat (V mətn). **1918-ci il hadisələri:** (IV mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Niftəliyev Rafiq Şahverdi oğlu, Laçın rayonu, İmanlar kəndi, 1937-ci il, ali təhsilli. Məktəb direktoru, icra nümayəndəsi işləyib. Bakı şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** İmanlar kəndi; Sultan bəy (XVI mətn). **Etnoqrafik mətn:** Bəyin qardaşlığı. **Lətifə:** Qarının arzusu. **Aşıqlar və el şairləri:** Aşıq Abbas (XXVII mətn). **Səyyah Məhəmmədin şeirləri:** Yeridi; Qara düyə; Dünya, söylə, Söyzalını neylədin? *Toplayanı: İ.Rüstəmzadə*

Novruzov Məhi Alışan oğlu, Laçın rayonu, Mişni kəndi, 1927-ci il, yeddi illik təhsil. Arıçılıqla məşğuldur. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Gəloxçu tayfası (IV mətn); İbrahim xanın oğlu Paşa bəy; Cavad xan; Qara Məmməd. *Toplayanı: İ.Rüstəmzadə*

Novruzov Şahsuvar İslam oğlu, Qubadlı rayonu, Qubadlı qəsəbə sakini, 1929-cu il, orta-ixtisas təhsilli. Sumqayıt şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Əlyanlı qaçaqları (XI mətn); Erkək Səfər; Ey qara pişik, şto delayeş? *Toplayanı: İ.Rüstəmzadə*

Paşayev Fəxrəddin Müzəffər oğlu, Laçın rayonu, Kamallı kəndi, 1956-cı il, ali təhsilli mühəndis. Bakı şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** Kamallı kəndi; Kürdoğlu Məhəmməd (IV-V mətnlər); Qaçaq Səfo (III mətn). **Lətifə:** Bünövrədən ot çıxıb. *Toplayanı: İ.Rüstəmzadə*

Paşayeva Əsli, Qubadlı rayonu, Taroğlu kəndi, 1934-cü il. Binəqədi rayonunun Biləcəri qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətn:** Kalba Məhəmməd. *Toplayanı: S.Bağdadova*

Paşayeva Nargilə, Zəngilan rayonu, Beşdəli kəndi, 1948-ci il, Biləcəridə məskunlaşıb. **Söylədiyi mətn:** Beşdəli kəndi. *Toplayanı: S.Bağdadova*

Paşayeva Şamama Həsənalı qızı, Qubadlı rayonu, Taroğlu kəndi, 1944-cü il, təhsilsiz. Biləcəri qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Hal haqqında (II mətn); Allahın toyuğa acıqlanması; Çoban aldadan ulduz; Çılpaq donuz (II mətn); Bibi su, bibi su; Sərçəni öldürmək savabdı (I mətn); Aləmə od düşər; Odla pambıq; Qoşa palıd; Özgəyə quyu qazan özü düşər; İcazəsiz addım atmaq cəhənnəmlikdir; Allahın şükürsüz bəndəsi; Ruhun incimәsi. **Vergili adamlar haqqında**: (I mətn). **Etnoqrafik mətnlər:** Çiləyə düşmək; Həmzatlı qadın; Cin dəyişəyi; Uşağın ilan boğan vaxtı; Axsıl. **Nağıl:** Üç bacı; Şərçi gəlin; Qəbr əzabı; İlan udan kişi; Ədalətsiz şah; Çörə-

yə ehtiram (II mətn). **Lətifə:** Üsdən-üsdən; Ala öküzün əhvalatı; Quş qalxdı, dədəm qalxdı. *Toplayanı: S.Bağdadova*

Rəhimov Qədim Ənvər oğlu, Laçın rayonu, Korcabulaq kəndi, 1962-ci il, orta təhsil. Şəki şəhərində məskunlaşıb. **Söylədiyi mətnlər:** İlan qayası; Seyid Məşədi İmran (II mətn); Korcabulaq kəndi; Lolabağır kəndi; Qorçu kəndinin adı; Yağlıvənd kəndi; Kürdoğlu Məhəmməd (II-III mətnlər); Əlyanlı qaçaqları (VIII mətn). **Nağıl:** Hambal Mehdi. *Toplayanı: İ.Rüstəmzadə*

Salmanov Çingiz İsa oğlu, Qubadlı rayonu, Xələc kəndi, 1956-cı il, ali təhsilli müəllim. Sumqayıt şəhərində məskunlaşıb **Söylədiyi mətnlər:** Xələclilər haqqında (I-II mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Səfərov Əyyub Lətif oğlu, Laçın rayonu, Məlikpəyə kəndi, 1944-cü il, orta təhsilli, sürücü işləyib. **Söylədiyi mətnlər:** Sultan bəy (XIII mətn). **Aşıqlar və el şairləri:** Sarı Aşıq (XXIII mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Səmədov Səlim Hacı oğlu, Laçın rayonu, Dambulaq kəndi, 1936-cı il, orta təhsilli. Ağcabədi rayonunda məskunlaşıb. **Söylə-diyi mətnlər:** Ustadına rəhmət; Peyğəmbərin Meraca getməsi; Həzrət Əlinin ölümü; Comərd qəssab; Həzrət Əli və Rüstəm Zal; Seyid Alı xəlifə (I-III mətnlər). *Toplayanı: İ.Rüstəmzadə*

Şahsuvarov Şahsuvar Zülfü oğlu, Laçın rayonu, Budaqdərə kəndi, 1940-cı il, orta-ixtisas təhsilli həkim. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Ovçu-luqla bağlı xatirələr (I-II mətnlər); Bədnəzər adamlar haqqında; Həzrət Əli haqqında digər mətnlər (IV mətn); Budaqdərə kəndi; Mənim atım ana-baladı; Köşə boyda yer. **Lətifə:** Məşədi kişinin lətifələri (I-II mətnlər). **Aşıqlar və el şairləri:** Aşıq Abbas (XXVI mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Səfərova Nahidə Arif qızı, Laçın rayonu, Güləbird kəndi, 1971-ci il. **Söylədiyi mətn:** Dəlikdaş. *Toplayanı: S.Bağdadova*

Şirinov Məhəmməd Temir oğlu, Qubadlı rayonu, Muradxanlı kəndi, 1930-cu il, orta təhsilli, fəhlə işləyib. **Söylədiyi mətnlər:** Düldül hoppulan yer; Əlyanlı qaçaqları (V mətn); Erkək Tavat (II mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Tağlıyev Cəmil Vəli oğlu, Zəngilan rayonu, Aşağı Gəyəli kəndi, 1931-ci il, ali təhsilli müəllim. Bakı şəhərində məskunlaşıb. **Söylədiyi mətn:** Qaçaq Nəbi (XI mətn). *Toplayanlar: F.Qasımova, G.Canməmmədova*

Zalov Məhəmməd Mürsəl oğlu, Laçın rayonu, Alxaslı kəndi, 1930-cu il, yeddiillik təhsil. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Alxaslı kəndi; Sultan bəy (II mətn). **Lətifə:** Fatihəni kimin adına verəcəyəm? (I mətn); Ölü xortladı (I mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Zamanov Bulud Mehdi oğlu, Laçın rayonu, Ərikli kəndi, 1931-ci il, orta təhsilli, bənna olub. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Vaxt-vədə haqqında; Buğa bürcü; Aşıq, yaza nə qaldı?; Hacısam nəsli (I mətn); Heydəruşağı nəsli; Qatırçı Murad; Torpağın tavazası. **Aşıqlar və el şairləri:** Sarı Aşıq (IV mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Zeynalov Əli Əbil oğlu, Laçın rayonu, Tərxanlı kəndi, 1933-cü il, ali təhsilli riyaziyyat müəllimi. **Söylədiyi mətnlər:** Paşa bəy (XV mətn); Qaçaq Fərzalı (I-VI mətnlər); Qaçaq İldırım (I-II mətnlər); Erkək Tavat (I mətn). **Aşıqlar və el şairləri:** Aşıq Abbas (IX mətn). *Toplayanı: İ.Rüstəmzadə*

Zeynalov Yurin Abbas oğlu, Laçın rayonu, Piçənis kəndi, 1938-ci il, orta təhsilli, yas məclislərini aparır. Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşıb. **Söylədiyi mətnlər:** Bel ağrısı; Musa peyğəmbər (I mətn); Misçi və Həşimlər nəsli (III mətn); Paşa bəy (VI, VII, VIII və X mətnlər); Sultan bəy (III mətn); İsgəndər bəy; Kürdoğlu Məhəmməd (I mətn). **Nağıl:** İmam Hüseyn aşiqi. **Lətifə:** Xəbəri necə çatdırmalı. **Aşıqlar və el şairləri:** Aşıq Abbas (IV-VIII mətnlər); Paşa bəyin tərifi. *Toplayanı: İ.Rüstəmzadə*



**Abasəliyeva Güllü Səttar qızı, Laçın rayonu, Vağazin kəndi**



**Aşıq Umbay, Laçın rayonu, Qarakeçdi kəndi**





**Paşayeva Şamama Həsənalı qızı, Qubadlı rayonu, Taroğlu kəndi**

**Əliyeva Çimnaz Bayramalı qızı Qubadlı rayonu, Hacılı kəndi**



**Səmədov Səlim Hacı oğlu, Laçın rayonu, Dambulaq kəndi**



**Malik Əjdər türbəsi, Laçın rayonu, Cicimli kəndi**




**Laləzar körpüsü, Qubadlı rayonu, Əliquluuşağı kəndi**



*Güləbird kənd ərazisi: Türbə - XV əsr. Sarı aşığın qəbri (Azərbaycan bayatı ustadı).*

*The territory of the village Gulabird: The mausoleum temple. The Grave of Sari the Ashig (The medieval singer, a master of Azeri bayati - i.e., a type of four-line poem).*



**Sarı Aşıq-qəbirüstü abidə, Laçın rayonu, Güləbird kəndi**




**Ağoğlan məbədi, Laçın rayonu**




**Hacı Bədəl körpüsü, Qubadlı rayonu**

## BAŞLIQLAR

**Tərtibçidən** .......... **3**
**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Qurd qadın .......... 9
Bel ağrısı .......... 10
Hal haqqında .......... 11
Cin haqqında .......... 12
Ovçuluqla bağlı xatirələr .......... 13
Bədnəzər adamlar haqqında .......... 15
İlan haqqında .......... 16
Vaxt-vədə haqqında .......... 16
Buğa bürcü .......... 16
Allahın toyuğa acıqlanması .......... 17
Çoban aldadan ulduz .......... 17
Kirişin əmələ gəlməsi .......... 17
Çılpaq donuz .......... 18
Bibi su, bibi su .......... 18
Qaranquş haqqında .......... 19
Sərçəni öldürmək savabdı .......... 19
Ardıc ağacı .......... 19
Aşıq, yaza nə qaldı? .......... 20
İlan qayası .......... 20
Üç qardaş .......... 21
**Peyğəmbərlər və dini şəxsiyyətlər haqqında**
Adəmin cənnətdən qovulması .......... 21
Musa peyğəmbər .......... 22
Dörd sevgi .......... 26
Ömərin Fatmaya elçi düşməsi .......... 27
Aləmə od düşər .......... 28
Odla pambıq .......... 29
Qarışqanın duası .......... 30
Allah dəvənə bərəkət versin .......... 31
Peyğəmbərin yalanı .......... 33

Baramaqurdu.................................................................. 34
Ustadına rəhmət............................................................ 34
Peyğəmbərin Meraca getməsi......................................... 35
Həzrət Əlinin ölümü ..................................................... 36
Comərd qəssab.............................................................. 36
Həzrət Əli və Rüstəm Zal .............................................. 38
Həzrət Əli və gavur........................................................ 39
Əli dostu........................................................................ 40
Həzrət Əli haqqında digər mətnlər ................................ 41
Böyüyə hörmət .............................................................. 41
**Pirlər və ocaqlar haqqında**
Cicimli ocağı................................................................. 42
Malik Əjdər türbəsi........................................................ 43
Mir Həmzə Nigari.......................................................... 45
Kar kümbəz................................................................... 48
Seyid Ali Xəlifə ............................................................. 48
Seyid Mirəziz ağa .......................................................... 52
Seyid Məşədi İmran....................................................... 55
Mirsədi ağa .................................................................... 56
Məşədi Bağdad .............................................................. 58
Seyid Səlim ocağı .......................................................... 59
Seyid Səfi ocağı........ ..................................................... 60
İmamzadə....................................................................... 61
Dərviş pirim................................................................... 62
Əli bulağı ...................................................................... 63
Ağoğlan məbədi............................................................. 63
Kalba Məhəmməd.......................................................... 64
Niyyət daşı .................................................................... 64
Qoşa palıd ..................................................................... 65
Dəlik daş ....................................................................... 65
**Tayfa, nəsil və yer adları ilə bağlı rəvayətlər**
Hacısam nəsli................................................................. 66
Heydəruşağı nəsli .......................................................... 68
Gəloxçu tayfası .............................................................. 69

Səfqulu və Ağəli nəsli.................................................... 74
Misçi və Həşimlər nəsli .................................................. 76
Şeylanlılar haqqında ....................................................... 81
Vağazin kəndi ................................................................. 83
Kamallı kəndi.................................................................. 83
Çıraqlı kəndi............ ....................................................... 85
Minkənddəki nəsillər ...................................................... 86
Güləbirddəki nəsillər ...................................................... 92
Alqulu kəndi ................................................................... 95
Alxaslı kəndi................................................................... 97
Malıbəy kəndi ................................................................. 98
Mollalar kəndi.......... ...................................................... 98
Korcabulaq kəndi............................................................ 99
Lolabağır kəndi ............................................................... 100
Qorçu kəndinin adı ......................................................... 100
Yağlıvənd kəndi.............................................................. 101
Budaqdərə kəndi ............................................................. 101
İmanlar kəndi .................................................................. 102
Ərəblər nəsli.................................................................... 102
Çatıqıran Nəbi................................................................. 103
Bayramuşağı nəsli........................................................... 103
Hacılı kəndi..................................................................... 104
Usuflu kəndi.................................................................... 104
Sarıyataqlılar haqqında ................................................... 105
Göyyallılar haqqında ...................................................... 106
Fərcan kəndi.................................................................... 110
Xələclilər haqqında.......................................................... 111
Əsli-Kərəm bulağı .......................................................... 112
Soltanbud ........................................................................ 112
Bəyin zağası.................................................................... 113
Laçın adının mənşəyi...................................................... 113
Temiruçan dərə ............................................................... 113
Kərimuçan dərə............................................................... 114
Sınıq körpü...................................................................... 114

Firəng yolu ........ 114
Çoban daşı ........ 115
Düldül hoppulan yer ........ 115
Ərimgəldi ........ 116
Həzrət Əli addıyan dərə ........ 116
Qızıl qaya ........ 116
Beşdəli kəndi ........ 116
Korlar kəndi ........ 117
Laləzar körpüsü ........ 117
Səbətkeçməz ........ 119
Gavırlı dərəsi ........ 119
Şahtaxtı ........ 120
Nəzir bulağı ........ 120
**Tarixi şəxsiyyətlər, qaçaqlar, tanınmış insanlar və pəhləvanlar haqqında rəvayətlər**
Eymənmə könlüm, eymənmə ........ 120
Şah Abbasın qatırı ........ 121
Mənim atım ana-baladı ........ 121
Torpağın tavazası ........ 122
Qatırçı Murad ........ 122
Paşa bəy ........ 124
Sultan bəy ........ 133
Xosrov bəy ........ 143
İsgəndər bəy ........ 144
İbrahim xanın oğlunun ölümü haqqında ........ 144
İbrahim xanın oğlu Paşa bəy ........ 146
Cavad xan ........ 147
Natəvanın Seyid Hüseynə ərə getməsi ........ 147
Temir yüzbaşı ........ 149
Cağazurlu Ağamməd ........ 150
Hacı Bədəl ........ 151
Qaçaq Nəbi ........ 154
Əlyanlı qaçaqları ........ 162
Qaçaq Fərzalı ........ 170

Kürdoğlu Məhəmməd ........ 173
Qaçaq Fətulla ........ 177
Qaçaq Hümmət ........ 179
Qaçaq Səfo ........ 181
Qara Məmməd ........ 184
Kolanı İsmayıl ........ 185
Qaçaq İldırım ........ 186
Qaçaq Baba ........ 187
Erkək Tavat ........ 192
Dovşanı araba ilə tutmaq ........ 196
Padarlı Behbud ........ 197
Erkək Səfər ........ 198
Dünyamalı ........ 198
**Müxtəlif mövzulu rəvayətlər**
Allah məni xilas edəcək ........ 200
Sən dediyində durmadın ........ 200
Allahdan istəyən kişi ........ 201
Hərənin öz qisməti var ........ 202
Güdul adam ........ 202
Özgəyə quyu qazan özü düşər ........ 203
İcazəsiz addım atmaq cəhənnəmlikdi ........ 204
Ruhun inciməsi ........ 206
Allahın şükürsüz bəndəs ........ 207
Sevgi-məhəbbət bazarlığı ........ 208
Ağacla bağlı xeyir-dua ........ 208
Ömür suyu ........ 209
Ata məsləhəti ........ 210
Xəsis kişi ........ 210
Köşə boyda yer ........ 212
Gəlmədin ........ 212
**1918-Cİ İL HADİSƏLƏRİ XATİRƏLƏRDƏ ........ 214**
**VERGİLİ ADAMLAR HAQQINDA ........ 219**
**ETNOQRAFİK MƏTNLƏR ........ 222**
Novruz adətləri ........ 222

Xıdır Nəbi 230
Ələm ağacı232
Dolu duası ........................................................................ 232
Holavar............................................................................ 232
Bəyin qardaşlığı ............................................................... 233
Qubadlının toy adətləri .................................................. 234
Çiləyə düşmək.................................................................. 244
Həmzatlı qadın ................................................................ 245
Cin dəyişəyi ..................................................................... 246
Sürəkçi ............................................................................ 247
Uşağın ilan boğan vaxtı .................................................. 247
Axsıl ................................................................................ 248
**İNAMLAR ......................................................................... 249**
**NAĞILLAR ......................................................................... 252**
Qaraçuxasını axtaran kişi ............................................... 252
Kor kişinin nağılı ............................................................. 254
Belə də qalmaz ................................................................ 255
İmam Hüseyn aşiqi ......................................................... 259
Üç bacı ............................................................................ 262
Şərçi gəlin ....................................................................... 265
Şah Abbas və keçəl ......................................................... 267
Allahla şərikli bostan əkən qoca ..................................... 270
Pirqulunun şahlığı ........................................................... 274
Çirkin qızın bəxti ............................................................. 275
Arvad şəri ........................................................................ 276
Məhəmməd Hənifə .......................................................... 279
Əcəli suda tamam olan gənc ........................................... 282
Dülgər Əhməd ................................................................. 283
Qəbir əzabı........................ ............................................. 284
İlan udan kişi.................... ............................................. 286
Dünyanı necə tutsan, elə də gedər.................................. 287
Hambal Mehdi ................................................................ 288
Ədalətsiz şah ................................................................... 289
Ağılsız adam ................................................................... 290

Çörəyə ehtiram ........ 291
Otuzilliyə verilən var-dövlət ........ 293
Şah Abbas və üç oğru ........ 295
Dilimi yaxşı danışmağa öyrədirəm ........ 296
Allahdan gələn bəla ........ 297
Sarsaq arvad........ 299
**LƏTİFƏLƏR**
**Molla Nəsrəddin ........ 300**
Bacadan asılan qazan ........ 300
**Bəhlul Danəndə ........ 300**
Şah Bəhlula yemək göndərir ........ 300
Dənizdən çıxan əl ........ 301
Dəli sözü ........ 302
Donum, aş ye ........ 303
Mən onların deyil, onlar mənimdir ........ 304
Gülməyən Bəhlul ........ 305
Bəhlul ulağı ağaca dırmaşdırır ........ 306
Dünyanın ortası haradır? ........ 306
Kimin ayağı mazol olar? ........ 307
**Kamallı lətifələri ........ 308**
Bu bızındı ........ 308
Qara şeydən qorxarıq ........ 309
Özün halal edəcəksən ........ 309
Fatihəni kimin adına verəcəyəm? ........ 310
Ölü xortladı ........ 311
Kamallının sifarişi ........ 312
Kamallı kələyi ........ 312
İstənilməyən qonaq ........ 312
Maşın tayanı yeyir ........ 313
Bünövrədən ot çıxıb ........ 314
**Eylas kişinin lətifələri ........ 314**
**Məşədi kişinin lətifələri ........ 315**
**Dəmirçilər kəndinin lətifələri ........ 316**
İki çayın arasından keçəsən, südün əskik gələ ........ 316

Sənin qızınla cənnətə getməkdənsə, cəhənnəmə gedərəm.......... 317
Ölüm pulumu elə bu başdan ver ........................................ 318
Baqı əmi, çatmışıq ey, düş ........................................ 318
Keçən il vurdum, oldu........................................ 318
Həkim, ölməyim məsləhətdi ........................................ 318
Yüz qıram içməklə çərlədin ........................................ 319
Mən də arvad kimi bir şeyəm........................................ 319
İt de, qurd de, nə deyirsən de ........................................ 320
**Müxtəlif mövzulu lətifələr**
Pezəvəng ........................................ 320
Sıxdım ki, suyu çıxa, öldülər ........................................ 321
Bəhməzin tamı yoxdu ........................................ 321
Qındı içəndə saqqalı tərpənirdi ........................................ 322
Üsdən-üsdən........................................ 322
Ala öküzün əhvalatı ........................................ 322
Xəbəri necə çatdırmalı ........................................ 323
Arvaddan qorxan kişi.......... ........................................ 323
Adamı adam yanına göndəriblər........................................ 324
Hamısı var......................... ........................................ 324
Cöngə oğurluğu........................................ 325
Hazırcavab laçınlı ........................................ 325
Qarının arzusu........................................ 326
Özümə yer eləməliydim da ........................................ 326
Əmim oğlu yeyə........................................ 326
Demirsən “olsa” ........................................ 327
Kiriş və süpürgə əhvalatı ........................................ 327
Quş qalxdı, dədəm qalxdı ........................................ 327
Ey qara pişik, şto delayeş?........................................ 328
Sən allah, onun kökünü kəssənə ........................................ 329
**ATALAR SÖZÜ, MƏSƏLLƏR........................................ 330**
**BAYATILAR........................................ 333**
**DASTAN ........................................ 353**
Nigarın İstanbula aparılması ........................................ 353
**AŞIQLAR VƏ EL ŞAİRLƏRİ........................................ 360**

Sarı Aşıq ..... 360
Sarı Aşığın bayatıları ..... 373
Aşıq Abbas ..... 375
Aşıq Bəylər ..... 395
Aşıq Valehin Şuşa səfəri ..... 395
Nadır şah və Sulduzlu Aşıq Bəhmən ..... 397
Növrəs İman ..... 399
Ələsgərlə şəyirdi Mikayıl ..... 401
**Qara Kərim**
Qara Kərim və Qızxanım ..... 403
Olur ..... 405
Olmaz ..... 406
Olmaz ..... 407
Gərək ..... 408
**Aşıq Möhübbət**
Arvad ..... 408
Dərdini ..... 409
Aşıq Möhübbətlə Şair Tapdığın deyişməsi ..... 410
**Şair Səyyah Məhəmməd**
Keçi ..... 411
Yeridi ..... 412
Qara düyə ..... 412
Dünya, söylə Söyzalını neynədin? ..... 413
Gedir ..... 414
Qara deyilmi? ..... 415
Yatıbdı ..... 416
Dağlar ..... 416
Dəyməsin ..... 417
Ağlar məni ..... 418
Taleh, etmə məni namərdə möhtac ..... 419
Gəlsin ..... 420
Laçında ..... 421
**Şair Məmmədalı ..... 421**
Paşa bəyin tərifi ..... 421

Dağlar........................................................................... 422
**Aşıq Umbay ................................................................... 422**
Yalandı......................................................................... 423
Onda yada şeir düşür...................................................... 424
Qaldı............................................................................. 425
Qalamdır sazım............................................................... 425
Arasında........................................................................ 426
Var................................................................................. 427
Bulaq............................................................................. 428
Baxtımı.......................................................................... 428
Heyif.............................................................................. 429
Amandı.......................................................................... 430
**Söyləyicilər haqqında məlumat ................................. 431**

**Qarabağ: folklor da bir tarixdir, IV kitab**
**(Laçın, Qubadlı və Zəngilan rayonlarından**
**toplanmış folklor örnəkləri)**.
Bakı, "Elm və təhsil", 2013.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Nigar Həsənova**

Kompyuterdə yığan:
**Tünzalə Məmmədova**

Korrektor:
**Elnarə Əmirli**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 38,5 ç/v
Tirajı: 500

Kitab AMEA Folklor İnstitutunun Redaksiya-Nəşriyyat şöbəsinin
Kompüter Mərkəzində yığılıb səhifələnmiş,
«Elm və təhsil» NPM-də hazır depozitivlərdən
ofset üsulu ilə çar olunmuşdur.

Azf-275734

9 789952 810868

ELM VƏ TƏHSİL